AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# GÜNEY AZƏRBAYCAN FOLKLORU

## I KİTAB

**(Təbriz, Yekanat və Həmədan ərazilərindən toplanmış folklor örnəkləri)**

**BAKI – 2013**

**Azərbaycan Respublikası MEA
Folklor İnstitutu Elmi Şurasının
qərarı ilə çap olunur.**

**TOPLAYANI:** **Məmmədəli Qövsi FƏRZANƏ**

**ELMİ REDAKTORU VƏ
ÖN SÖZÜN MÜƏLLİFİ:** fil.ü.e.d. prof. **İsrafil ABBASLI**

**TƏRTİB EDƏNİ:** fil.ü.f.d. **Sönməz ABBASLI**

**RƏYÇİLƏR:** fil.ü.f.d., dos. **Rza XƏLİLOV**
fil.ü.f.d., dos. **Əziz ƏLƏKBƏRLİ**

**Güney Azərbaycan folkloru, I kitab (Təbriz, Yekanat və Həmədan ərazilərindən toplanmış folklor örnəkləri).** Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013, 456 səh.

Kitaba Güney Azərbaycanın Təbriz, Yekanat və Həmədan ərazilərindən toplanmış folklor örnəkləri daxil edilmişdir.

A $\frac{3202050000}{098 - 2013}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2013.

# ÖN SÖZ ƏVƏZİ

Çoxcildli "Azərbaycan folkloru antologiyası"nın (AFA) ilk cildinin nəşrindən iyirmi ilə yaxın bir dövr keçib. AMEA Nizami adına Ədəbiyyat İnstitutu Folklor şöbəsinin layihəsi və bizim əksər kitabların bu və ya digər formada (toplayıcı, tərtibçi, redaktor, rəyçi və ön söz müəllifi) iştirakçısı olduğumuz bu seriyanın artıq 23 cildi (Əslində Azərnəşrdə çap olunmuş "Borçalı folkloru antologiyası" (1997), "Ağbaba folkloru antologiyası" (1999) kitabları da bu seriyanın tərkib hissəsi sayılmalıdır) işıq üzü görmüşdür.

Zəngin, rəngarəng və çoxyönlü çalarlarla, ideya-məzmun əlvanlığı, bədii-poetik tutumu ilə tarix boyu yaradıcısı olan xalqın (etnosun, soykökün) sərvətinə çevrilmiş bu şifahi söz sənəti – folklor irsi əslində bu gün böyük əksəriyyəti doğma tarixi torpaqlarında yaşayan və dünyanın müxtəlif ölkələrinə səpələnmiş sayı 50 milyonu keçən Azərbaycan türklərinin mənəvi dünyasını ehtiva etməkdədir. Belə bir mənəvi xəzinəni bütövlükdə nəşr etmək işi isə gələcəklə bağlıdır və bu gün həyata keçirilməsi real olmayan bir arzu kimi qalmaqdadır.

Biz, seriyanın (AFA) I cildinə "Azərbaycan folkloru antologiyası" başlıqlı ön sözdə keçmiş SSRİ xalqlarının çoxcildli folklor nəşrləri (onların söykəndiyi qaynaqlar, prinsiplər, mövzu təsnifatı, əhatə çevrələri və s.) kontekstində Azərbaycan folkloru örnəklərinə nəzər salmış və bu yöndə AFA seriyası nəşrinin seçilməsi istiqamətini əsaslandırmağa çalışmışıq. Həmçinin, ön sözdə qeyd olunur ki, belə bir təqdirəlayiq ədəbi-mədəni hadisə xalqımızın yüzilliklər boyu yaranan, yaddaşlarda qorunan şifahi söz sənətinin səciyyəvi cəhətlərini üzə çıxarmaq məqsədi güdür. Bu məqsəd isə qismən də olsa, yerinə yetirilmiş və hazırda da bu iş yeni istiqamətdə (Qarabağ: folklor da bir tarixdir, I, II və III kitablar, Bakı, Elm və təhsil, 2012) davam etdirilməkdədir.

AFA seriyasının nəşrində öncədən elan olunmuş aşağıdakı prinsiplərə əməl olunmuşdur: hər bir bölgənin (regionun) tarixi

keçmişi və folklor örnəklərinin özünəməxsus səciyyəvi özəllikləri barədə ön söz; örnəklərin (ərazinin danışıq tərzi, dialekt və şivə-ləhcə xüsusiyyətləri qorunmaqla) növ və janrlar üzrə təsnifatının aparılması; söyləyicilər-informatorlar və toplayıcılar haqqında məlumatlar; ayrı-ayrılıqda hər bir cilddəki nümunələrin yaşatdığı mifoloji və folklor obrazları, əşya, predmet, insan, heyvan, kənd, qaya, çay, müqəddəs daşlar, məişət alətləri və özgə bu kimi adlar göstəricisi (qismən nəzərə alınmışdır).

Ayrı-ayrı cildlərdə nəzərdə tutulmuş bu vəzifələr isə diqqətdən kənarda qalmışdır: hər bir bölgənin şifahi söz sənəti nümunələrinin yayılma çevrəsini nümayiş etdirən folklor atlası (bu baxımdan Naxçıvan və Şəki cildləri istisnalıq təşkil edir); örnəklərdə qorunan, yaxud adları çəkilən əlamətdar tarixi abidələrin, toponimlərin, real və əfsanəvi şəxsiyyətlərin (obrazların) şəkilləri, illüstrasiyalar; cild haqqında rus və ingilis dillərində xülasələr (bu iş seriyanın yalnız birinci kitabında yerinə yetirilmişdir).

AFA çoxcildliklərinin nəşri hər şeydən öncə, Respublika Folklor Arxivi və Fondunun, həmçinin Azərbaycanın vahid folklor atlasının yaradılması işində mühüm addım sayıla bilər.

AFA – seriyasının nəşri nəzərdə tutulmuş ictimai-siyasi və elmi-təbliği baxımdan olduqca zəruri vəzifələri həyata keçirmişdir. Bunlar bu gün özgə dövlətlərin tərkibində qalan tarixi torpaqlarımızın (Dərbənd, Borçalı – iki kitab, Zəngəzur – iki kitab, Ağbaba – iki kitab, İrəvan-çuxuru, Göyçə, Qaraqoyunlu, Dərələyəz, Loru-Pəmbək) folklor örnəklərinin nəşridir. “Qarabağ folkloru” cildi isə bu sətirlərin müəllifinin təşəbbüsü ilə ermənilərin torpaq iddiasının, separatizm meyllərinin baş qaldırdığı ərəfədə – 1988-1990-cı illərdə regiona ardıcıl ekspedisiyalar zamanı toplanmış materiallar əsasında iki dəfə (kiril və latın əlifbalarında) nəşr olunmuşdur. Ötən illər ərzində Orta Asiya Respublikalarına elmi səfərlər keçirilsə də, əldə edilmiş Azərbaycan folkloru örnəkləri AFA seriyasında özünə yer almamış, yalnız “Qürbət folkloru”,“Bizim ellər yerindəmi” topluları ilə əbədiləşdirilmişdir. Azərbaycan türklərinin bir qolu, tirəsi, şaxəsi kimi

tarixən İraq ərazisində məskunlaşmış türkman soydaşlarımızın folklor irsinin seriyada xüsusi yer alması da təqdirəlayiq hadisə kimi dəyərləndirilə bilər. Məsələyə bu baxımdan yanaşılarsa, sayı milyonlarla ölçülən Güney (Cənubi) Azərbaycan türklərinin şifahi söz sənəti irsi yeni istiqamətli nəşrin aparıcı istiqamətini, maddi-mənəvi yükünü, ağırlıq nöqtəsini təşkil etməlidir.

AFA-ya ön sözdə xatırlatmışdıq ki, Cənubi Azərbaycan folkloru önəmli nəşrlərdən olacaqdır. Nəhayət, uzun illik fasilədən sonra belə bir toplu işıq üzü görür.

"Güney Azərbaycan folkloru" cildi çapa hazırlanarkən, bizi həmişə bir məsələ düşündürürdü. Bu gün müstəqil Azərbaycanın əhatə etdiyi bölgələrin folklor kitablarının sayı iyirmi cildi keçdiyi halda, Güney Azərbaycana etinasızlıq göstərmək olarmı?! Hərgah müstəqil Azərbaycanın 9 milyonluq sakinlərinin mənəvi irsi bundan sonra da toplanıb, əbədiləşdirilərək öz sayını artıracaqsa, sayı 30-35 milyon civarında qeyd edilən Güney soydaşlarımızın mənəvi irsi – şifahi söz sənəti, görəsən, neçə cildə sığa bilər?! Biz hələ mədəniyyət çevrəsi ilə ölçülən dünya azərbaycanlılarının poetik söz sənətini demirik!

Bəllidir ki, İran Azərbaycanı türklərinin ədəbi-bədii və folklor irsini nəşr etmək həmişə gündəmdə olmuşdur. Bir neçə cilddə nəşr olunmuş "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası" (burada folklor örnəkləri də özünə yer almışdır), "Cənubi Azərbaycan müntəxabatı" (1998), prof. B.Abdullanın tərtib etdiyi "Arazam, Kürə bəndəm" toplusu və s. belə nəşrlərdəndir. Bu silsilənin davamı kimi dəyərləndirilə bilən Güney Azərbaycanın tanınmış folklorşünası M.Ə.Fərzanənin topladığı örnəklər əsasında tərtib edilmiş bu cild də Güney Azərbaycan folklorunun gələcək nəşrləri üçün cığır aça biləcəkdir.

Biz, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının fəxri üzvləri olan dövrdə İraq-Türkman şair-ədibi dok. Əbdüllətif Bəndəroğlu və güneyli həmkarım M.Fərzanədən xahiş etmişdik ki, vətəndaşı olduqları ölkənin folklor toplularını hazırlasınlar. Ə.Bəndəroğlu və İraq türkmanlarının mənəvi irsini

Azərbaycan elmi dövriyyəsinə gətirən və bu sahədə misilsiz xidmətləri olan azərbaycanşünas alimimiz prof. Qəzənfər Paşayev belə bir antologiyanı AFA-nın növbəti kitabı kimi hazırlayıb oxuculara təqdim etdilər (AFA, İraq-Türkman cildi, 1999).

Elə həmin dövrdə M.Fərzanə də Güney Azərbaycan folkloru örnəklərindən ibarət əlyazmasını bizə təqdim etmişdi. Lakin M.Fərzanənin hazırladığı "toplu" yalnız söz sənəti örnəklərindən ibarət olmayıb etnoqrafik, tarixi, arxeoloji, ədəbi, coğrafi və bu kimi çoxyönlü memuar-xatirə səciyyəli yazıları çevrələyirdi.

M.Fərzanənin təqdim etdiyi materiallar içərisindən folklor örnəklərini seçmək, onları məzmun, tutum və ideya baxımından saf-çürük edib sistemləşdirmək işimiz uzun illər davam etdi... M.Fərzanə folklor örnəklərinin söyləyiciləri, toplayıcıları haqqında heç bir pasportlaşdırma qeydləri aparmamışdı. Folklor İnstitutunda cənublu həmkarımızla görüşümüz zamanı (iki dəfə) ona ünvanladığımız sualları, aldığımız cavabları xatırlatmaq istərdik:

– Ağa, nə üçün Sizin təqdim etdiyiniz folklor örnəklərinin heç birində onların söyləyiciləri, toplayıcıları barədə bilgi verilməmişdir? Axı, bu məlumat folklor materiallarının nəşrində əsas şərtlərdən sayılır!

Cavab: Toplama işi Azərbaycan türkcəsində təhsil almağın (oxumağın) və danışmağın yasaq olunduğu bir dövrdə aparılmışdır. Həmin tarixi mərhələdə söyləyicilərin və toplayıcıların soyadlarının açıqlanması onların həbsi ilə nəticələnə bilərdi.

Məsələ onsuz da bəlli idi və əlavə sorğuya ehtiyac qalmadı. M.Fərzanənin təqdim etdiyi folklor örnəklərində nəinki təkcə söyləyici və toplayıcılar barədə məlumat verilməmiş, həmçinin bütün söz sənəti nümunələrinin əksəriyyəti fars dilində uyğun nəşrlərdə çap olunmuşdur. Bizə verilən materiallar isə orijinallarının qorunmadığı ucbatından yenidən farscadan Azərbaycan türkcəsinə tərcümə olunmuşdur. Ana dilinin, oxunun, yazının qadağan olunduğu bu tarixi mərhələni səciyyələndirmək üçün həmin mənzərəyə ötəri nəzər salmaq kifayətdir.

Güney Azərbaycanda folklor toplamağın çətinliklərindən söz açan şair-publisist və folklorçu Mirhidayət Hesari qeyd edirdi ki, Azərbaycan şifahi söz sənəti örnəkləri farscaya çevrilərək həm İran radiosu, həm də mətbuatda fars folklor örnəkləri kimi təqdim olunurdu. Bununla da fars folkloruna qarışmış nümunələri seçmək, ayırd etmək mümkün deyildi [1]. Bu baxımdan, M.Hesari Əli Əkbər Dehxudanın dörd cildlik "Məsəllər və hikmətli sözlər" əsərini Azərbaycan folklorunu fars örnəkləri kimi təqdim edən nəşrlərdən sayırdı.

Əlli üç illik Pəhləvi rejimi dönəmində Azərbaycan türkcəsində danışmağın yasaq olunması, bu məsələ ilə bağlı cərimə tətbiq edilməsi barədə öz xatirələrində söz açan tanınmış dilçi və ədəbiyyatşünas Həmid Nitqi yazır: "...ibtidai məktəbdə oxuduğum vaxt dilimiz yasaq olunduğu illər türkcə danışdığım üçün məndən ilk cəriməni aldılar, onda mən türkcənin və farscanın fərqinə vaqif oldum. Anladım ki, fərqləri varmış, evdə olanda atam deyərdi ki, filan kəlmənin farscası yoxdur"[2].

Əlbəttə, Azərbaycan türkcəsinin, geniş anlamda isə ümumiyyətlə türk dilinin fars dili ilə müqayisədə daha zəngin çalarlara, söz ehtiyatına malik olduğu haqqında istər ünlü tarixi simalar, istərsə də çağdaş araşdırıcılar onlarla tədqiqatlar yazmış və dəyərli fikirlər söyləmişlər. Əmir Əlişir Nəvainin çağatay dilinin farsca müqayisədə hansı üstünlüklərə, zənginliklərə malik olduğunu müəyyənləşdirən "Mühakimətül-lüğəteyn" əsəri də daxil olmaqla bu problemin öyrənilməsi güneyli həmkarlarımızın da həmişə diqqət mərkəzində olmuşdur. Maraqlıdır ki, dok. Cavad Heyət "Moğoyesət-ül-lüğəteyn" ("Müqayisəli lüğət") əsərində 1650 türk sözünün fars dilində qarşılığının olmamasını aşkarlamış və belə bir nəticəyə gəlmişdir ki, farslar bu sözlərin əvəzinə ərəb və türk dillərindən alınan sözlərdən istifadə etmişlər. Bu baxımdan Güney folkloru toplusunda təqdim olunan mətnlərin qeyd

[1] Hesari M. Folklor yığmaqda qabaqcıllar, "Varlıq" dərg., 1996, № 103, s. 49-54
[2] Hüseynova N. Cənubi Azərbaycan ədəbiyyatı müasir mərhələdə yaxud, "Varlıq" ədəbi məktəbinin nümayəndələri. Bakı, "Elm və təhsil", 2010, s.44

edilən səbəblər ucbatından farscadan Azərbaycan türkcəsinə tərcüməsi zamanı canlı danışıq dilinin, milli koloritin nə dərəcədə qorunduğunu yəqin etmək mümkündür.

Son illərdə aparılmış araşdırmada Güney Azərbaycan türklərinin ictimai-siyasi, mədəni-mənəvi mühiti belə səciyyələndirilmişdir: "...Azərbaycan dilinin, ədəbiyyatının, mətbuatının və bir sözlə desək – Azərbaycan milli-mədəni varlığının yasaq olunduğu illərdə bu milli varlığın ən geniş və kütləvi sahəsi sayılan xalq yaradıcılığı məhsullarının toplanması, araşdırma və nəşr məsələsi hələ öz yerində qalsın, hətta ana dili, xalq varlığı, xalq ədəbiyyatı və xalq inancları kimi sözləri ağıza alıb danışmaq belə bağışlanmaz günah sayılırdı"[3]. Həmin fikirləri özgə bir formada ifadə edən cənublu həmkarımız M.Səbri M.Fərzanənin "Varlıq"da nəşr olunmuş (1996, № 201-2, s. 29-41) "Pəhləvi rejimində Güney Azərbaycanda şifahi xalq ədəbiyyatının toplanması, araşdırılması və nəşri tarixindən" məqaləsinə istinadən qeyd etmişdir ki, Pəhləvi rejimi xalqın milli-mənəvi duyğu və düşüncələrindən süzülüb gələn və onların tarixi milli qəhrəmanlıqlarını, mədəni bədii varlıqlarını canlandıran xalq ədəbiyyatının toplanması və nəşrinə imkan verməmişdir.[4]

İranda Azərbaycan türk folklorunun Pəhləvi dönəmindəki nəşri barədə söz açan Ə.Sərrafi olduqca acınacaqlı bir faktı belə ifadə etmişdir: 53 illik Pəhləvi rejimi illərində folklorumuza aid cəmi 26 kitab işıq üzü görmüşdür ki, onların ancaq 8-i türkcə, qalanı isə farscadır (yaxud, əsasən fars dilindədir)[5]. Əlbəttə, bu rəqəmlər o qədər də inandırıcı səslənmir və biz Güney Azərbaycan folklorşünaslığının yaranması, təkamül yolları və nəşri problemləri barədə az-çox məlumat verdiyimiz üçün bir daha

---

[3] Səbri Məryəm. Cənubi Azərbaycan folklorunun toplanması, nəşri və tədqiqində "Varlıq" jurnalının rolu, filologiya üzrə fəlsəfə doktoru dissertasiyası, Bakı, 2011, s. 11. "Varlıq" dərgisi ilə bağlı özgə bir nəşr P.Məmmədovanın araşdırmasıdır: "Varlıq" jurnalında ədəbiyyat məsələləri, Bakı, Elm, 2000

[4] Yenə orada, s.11

[5] Sərrafi Ə. İran türklərinin dili və folkloru, "Varlıq" dərgisi, 1999, №114-3, s. 60-71

həmin məsələlərə qayıtmağa ehtiyac duymuruq[6]. Yalnız M.Fərzanənin etirafını xatırlatmaq istərdik. O öz araşdırmalarında dəfələrlə vurğulamışdır ki, Güney Azərbaycanda xalq ədəbiyyatının səmərəli toplanılıb mətbuatda çap olunması 1945-1946-cı illərə təsadüf edir.

"Güney Azərbaycan folkloru" toplusunda M.Fərza- nənin həyat yolu və elmi fəaliyyəti barədə ayrıca oçerk təqdim edildiyini nəzərə alıb, yalnız onu qeyd etmək istərdik ki, müəllifin "Varlıq" dərgisinin ayrı-ayrı saylarında çap olunmuş "Ana dilimiz və milli varlığımız uğrunda mübarizələr dəftərindən" silsilə yazılarında, habelə "Azərbaycan el ədəbiyyatından atalar sözü və məsəllərə aid bir orijinal əsər", "Azərbaycan el mahnıları", "Dədə Qorqud boylarının dil və üslub özəlliklərini Azərbaycan türkcəsində aramalıyıq", "Novruz – el bayramı, bahar bayramı B.Q.Səhəndin şeirində", "Pəhləvi rejimində Güney Azərbaycanda şifahi xalq ədəbiyyatının toplanması, araşdırılması və nəşri tarixindən", "Söz dünyamız və folklor", "Molla Nəsrəddin lətifələri" və s. kimi məqalələrində folklorumuzun çoxyönlü qayğıları, qaynaqları kimi bir sıra önəmli məsələlərə toxunulmuşdur.

İranda yaşayan türk mənşəli tayfalar: qaşqaylar (2 milyondan çox olub 90 oba və eldə məskunlaşmışlar), şahsevən, xəlac, türkman, padar, tərəkəmə – ümumilikdə isə Azərbaycan türkləri etnik baxımdan az yad edilmiş, xalqın mənəvi irsinin toplanmasında misilsiz zəhməti olan hüquqşünas folklorçu – Əli Kəmalinin sözləri ilə desək "...İranın milli və etnik tərkibi ilə bağlı dünya türkologiyası uzun müddət aldadılmışdır"[7].

---

[6] Abbaslı İ. Folklorşünaslıq. Azərbaycan ədəbiyyatı tarixi, altı cilddə, I cild, Bakı, "Elm", 2004, s. 699-701.Yenə onun: Azərbaycan folklorşünaslığının təşəkkülü və inkişaf mərhələləri, "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər", IX kitab, Bakı, Səda, 2000

[7] Hüseynova N. Cənubi Azərbaycan ədəbiyyatı müasir mərhələdə yaxud, "Varlıq" ədəbi məktəbinin nümayəndələri, s.160

İran hakimiyyətinin Güney Azərbaycanla bağlı dövlət siyasəti onlarla araşdırmalar, nəşrlər mövzusuna çevrilmişdir. Bu istiqamətdə xeyli işlər görülmüş və görülməkdədir.

Son illərdə güneyli ziyalılarla, folklor həvəskarları ilə görüşlərimiz zamanı İran hakimiyyətinin dövlət siyasətində ermənilərə bəslənilən münasibətlə bağlı suallar vermiş, erməni dilində folklor nəşrlərindən nə dərəcədə xəbərdar olduqları barədə maraqlanmışıq. Sorğularımıza cavab ala bilməmişik.

Bu gün çoxlarını düşündürə bilər ki, tarixi torpaqlarında yaşayıb öz əsrlik gələnəklərini davam etdirən və sayları milyonlarla ölçülən İran türklərinin maddi-mənəvi irsləri azlıqda qalan ermənilərin mədəniyyətləri ilə bir səviyyədə dayana bilərmi? Bu problem tarixi xronoloji baxımdan açıqlanmalı və çoxyönlü araşdırmaların predmetinə çevrilməlidir. Biz isə bu məsələ ilə bağlı düşüncələrimizi cənublu həmkarlarımızla bölüşdürmək istərdik.

Heç bir müdaxilə etmədən İran erməniləri ilə bağlı erməni qaynaqlarında qorunmuş əsas məqamları təqdim etmək bir çox mətləblərə aydınlıq gətirə bilər.

Akad. H.Acaryanın hesablamalarına görə bizim eradan öncə VII əsrdən başlayaraq Firdovsinin yaşadığı yüzilliyə kimi (XI ə.) tam 1600 il ermənilər İran tayfaları ilə qonşuluqda yaşamışlar. Onun tam 900 ilini onlar farsların, yaxud fars hakimiyyətinin vassalı olmuşlar[8].

Erməni dilli qaynaqlardakı ayrı-ayrı faktlar təsdiq edir ki, hələ XI-XII əsrlərdə fars dili ermənilər içərisində tədris olunurmuş. Bu dil həm dövlət dili sayılmış, həm də iqtisadi əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynamışdır. XI yüzilliyin birinci yarısından etibarən farscadan ermənicəyə tərcümə əsərlərinə təsadüf edilir. İlk dəfə olaraq Əbubəkr Məhəmməd ibn Zəkəriyyə Razinin (869-925) tibb əsəri ermənicəyə çevrilmiş-

---

[8] Acaryan H. Erməni dilinin tarixi, I hissə, İrəvan, 1940, s. 222 (ermənicə)

dir[9]. XVIII əsrin müəllifi Gevork Dpir (1737-1812) tərəfindən farsca-türkcə lüğət əsasında hazırlanmış "Farsca-ermənicə lüğət" də fars-erməni münasibətlərinin tarixində mühüm mədəni hadisələrdən sayılmışdır[10].

Fars-erməni ədəbi əlaqələrinin mühüm bir həlqəsi də "Şahnamə" "Sasna dzrer", "Rüstəm-Zal" mənqəbəsinin qarşılıqlı müqayisəli təhlilindən irəli gələn məsələlərdir. "Firdovsi: İran mifik motivləri "Şahnamə"də və erməni qaynaqlarında", "Şahnamə və erməni mənbələri" və bu tipli araşdırmalarda Firdovsinin öz tarixi əsərində erməni mifik qaynaqlarından faydalandığını müəyyənləşdirməyə cəhd göstərilmişdir[11].

Bu ötəri xatırlatmadan sonra düşünürük ki, "Şahnamə"nin Oğuz-türk mifoloji qaynaqları əsasında öyrənilməsinin vaxtı çatmışdır. Güneyli həmkarlarımızın araşdırmaları bu məsələyə qismən də olsa cığır açmışdır. Doktor Həmid Nitqinin (1920-1999) "Təzə nəzəriyyələr: tanıtmaq və tanıtmağa doğru" məqaləsini təhlil edən ədəbiyyatşünas N.Hüseynova yazır: "...Doktor Həmid Nitqi göstərmişdir ki, 1071-ci il Oğuzların Azərbaycana son gəlişi sayılır. Amma müəllif (Həmid Nitqi) onların burada miladdan qabaqkı üçüncü və ikinci minilliklər arasında yaşadıqlarını tarixi faktlara söykənərək müəyyənləşdirmişdir"[12]. Bu mənada "Şahnamə"ni Oğuz-türk mifologiyası kontekstində öyrənmək daha məntiqli, tutarlı və məqsədyönlü sayıla bilər. Və belə bir tədqiqatın aparılması gündəmdə duran mühüm məsələlərdən olmalıdır. Bu yerdə prof. Xalıq Koroğlunun araşdırmalarından bir məqamı xatırlatmaq yerinə düşər. Ötən yüzilliyin 70-ci illərindən başlayaraq Moskvada "SSRİ xalqları eposu" seriyasında nəşr olunacaq Azərbaycan "Koroğlu"sunun variantlarından biri-

---

[9] Çukaszyan B.A. Erməni-İran ədəbi əlaqələri (V-XVIII əsrlər), İrəvan, Erm. EA nəşriyyatı, 1963, s. 208 (ermənicə)

[10] Yenə orada

[11] Şahsuvaryan Av. "Şahnamə" və erməni mənbələri, İrəvan, "Hayastan" nəşriyyatı, 1967(ermənicə)

[12] Hüseynova N. Cənibi Azərbaycan ədəbiyyatı müasir mərhələdə yaxud "Varlıq" ədəbi məktəbinin nümayəndələri, s.60

nə ön söz yazmış prof. X.Koroğlu eposun mifoloji qaynaqlarına toxunaraq "Şahnamə"ni Oğuz-türk mifologiyası əsasında öyrənilməsini də ön plana çəkmiş və mövzunun əsas xətlərini, məqamlarını, görüntülərini müəyyənləşdirməyə çalışmışdır. Lakin Azərbaycan "Koroğlu"sunun Moskva nəşri baş tutmadı. Bu barədə müfəssəl məlumat verdiyimizi[13] nəzərə alıb mətləbdən kənara çıxmaq istəmirik.

Erməni-fars tarixi, mədəni-ədəbi əlaqələrinin əsrlik köklərə, rişələrə malik olduğunu vurğulayan özgə araşdırmalar da vardır. Onlardan söz açmaq imkan xaricindədir. Təbrizdə doğulub Azərbaycan mücadilə hərəkatının iştirakçısı olmuş, erməni-fars ədəbi əlaqələri sahəsində bir sıra araşdırmaların müəllifi B.Çukaszyan Movses Xorenasiyə istinadən qeyd edir ki, Kiçik Midiyanın çarı Ajdahaq (erməni qaynaqları Astiaqı bu şəkildə təqdim edir) erməni çarı Tiqranın bacısı Tiqranuhi ilə evlənmiş, bununla da onlar arasında sıx münasibətlər yaranmışdır. Lakin Tiqranuhi Ajdahaqa böyük məhəbbət bəsləsə də qardaşına (Tiqrana) qarşı hazırlanan qanlı cinayətləri gizli yolla ona xəbər verirmiş[14].

Daha sonra müəllif xatırladır ki, Ajdahaq və Firudun haqqında dolaşan İran mifik rəvayətləri də M.Xorenasinin tarixində qələmə alınmışdır. O da vurğulanır ki, IV əsrdə yaşamış fars tarixçisi Xorobut haqqında məlumat heç bir qaynaqda qorunmayıb, yalnız Movses Xorenasinin əsərində özünə yer almışdır[15].

Erməni qaynaqlarında ermənilərin tarixən İranda məskunlaşması, farslarla sıx siyasi-iqtisadi və mədəni əlaqələrdə yaşamaları barədə araşdırmalar çoxdur. Burada köçürülmələr, məskunlaşmalar haqqında rəsmi rəqəmlərin statistikası barədə ötəri xatırlatmalarla kifayətlənmək istərdik: I Şah Abbasın köçürmə siyasəti (rus tarixşünaslığına "Velikiy syurgin" istilahı ilə daxil

---

[13] Abbaslı İ. Dastanlarımızın Moskva nəşrinin taleyi: vəziyyətimiz və vəzifələrimiz, Folklorşünaslıq axtarışları, II cilddə, I cild, Bakı, Nurlan, 2009, s.451-462

[14] Çukaszyan B.A.Erməni-İran ədəbi əlaqələri (V-XVIII əsrlər), s.203

[15] Yenə orada

olmuş bu söz əslində Arakel Təbrizliyə məxsusdur) dövründə (1603-1604) İrana köçürülmüş ermənilərin sayı təxminən 500 min nəfərə çatmışdır. Köçürülmüş ermənilər Qəzvində, İsfahan və onun ətrafında, Mazandaranda, Gilanda, Şirazda, 1605-ci ildə əsası ermənilər tərəfindən qoyulmuş Nor-Cuğada (tezliklə bura ticarət, sənətkarlıq, mədəniyyət mərkəzinə çevrilmişdir) məskunlaşmışlar[16].

"Xarici erməni koloniyaları bu gün" kitabının İrana həsr olunmuş bölməsində qeyd edilir ki, "Hazırda İranda 140 min erməni yaşayır. Onların 60 mini Tehranda məskunlaşıb. İsfahan mahalında yerləşən Nor-Cuğada təxminən 8 min erməni yaşayır. Mahalda 23 erməni kəndi var ki, burada 30 min erməni məskunlaşıb. Digər yaşayış məntəqələri belədir: Sultanabudda 2-3 min, bu əraziyə yaxın kəndlərdə təxminən 4 min, Abadanda 6 min, Məscidi-Süleymaniyyədə 2 min, Həmədan, Girmanşah və Girmanda 1000 nəfər. Çoxlu sayda erməni İranın şimal rayonlarında yerləşib. Belə ki. Təbrizdə 6 minə yaxın, İran Azərbaycanının kəndlərində 20 min (əsasən Salmast və Qaradağ mahallarında), Riza və onun ətraf kəndlərində 5 min, Muşda 300, Rəşd, Pəhləvi, Qurqan, Şahi-Hümbətdə 1000 nəfər[17]. Müəllifin əhalinin sayı ilə bağlı təqdim etdiyi statistik bilgilər öncəkindən fərqlənməkdədir. Belə ki, 1955-ci ilin məlumatına görə İranda ermənilərin sayı 119 minə çatıb. Onlardan Tehran bölgəsində 62 min, Atrpatakanda 14 min, Nor-Cuğada isə 43 min erməni yaşayır[18].

İranda Azərbaycan türklərinin ana dilində təlim-tərbiyəsi, təhsili haqqında yazılmış onlarla araşdırmalardakı məlumatları təkrarlamaq fikrində deyilik. Lakin onu xatırlatmaqla kifayətlənmək istəyirik ki. S.Z.Bayramzadənin yazdığına görə, ümumiy-

[16] Alboyanyan A. Erməni köçkünlüyü tarixindən, III cild, Qahirə, 1961, s. 156 (ermənicə)
[17] Qasparyan S. Xarici erməni koloniyaları bu gün, İrəvan, Haypetrat, 1962, s. 89 (ermənicə)
[18] Yenə orada, s. 97

yətlə 1947-1978-ci illərdə Güney Azərbaycanda orta və xüsusilə ali təhsil ləng inkişaf etmiş, yeganə təhsil müəssisəsi olan Təbriz Universiteti Şahın siyasətinə görə İran millətçiliyinin "etibarlı dayağı" sayılmışdır[19]. Bu baxımdan maarif və təhsil sarıdan ermənilərin vəziyyəti sayları milyonları aşan Azərbaycan türklərinə nisbətən daha uğurlu olmuşdur. Həmin məsələ ilə bağlı yuxarıda istinad etdiyimiz kitabda yazılır: Yeni məlumata görə, İranda 67 erməni məktəbi fəaliyyət göstərir ki, onlarda oxuyan şagirdlərin sayı 12.240 nəfərə çatır. Ümumi hesaba görə isə hər iki erməni ailəsindən bir şagird təhsil alır[20].

Azlıqda qalan xalqların mədəniyyət və mənəviyyat atributları həm də kitab nəşri və mətbuat orqanlarının mövcudiyyatı, fəaliyyəti ilə ölçülür. İran nəşriyyatlarında erməni dilində çap olunmuş ədəbiyyat, xüsusilə folklora dair kitablar barədə cənublu həmkarlarımızdan bilgi almaq istəsək də onların bu sahəyə maraq göstərməmələrinin şahidi olduq. Amma təqdirəlayiq haldır ki, tanınmış ensiklopedik alim Məhəmmədəli Tərbiyət çoxyönlü elmi və ictimai fəaliyyəti dövründə erməni dilli mətbuat orqanlarının da şəxsi kitabxanasına toplanması ilə yaxından məşğul olmuşdur. Müəllifin "Danişməndani Azərbaycan" (Azərbaycanın görkəmli elm, sənət adamları) əsərinin Azərbaycan dilinə tərcüməçiləri İsmayıl Şəms ilə Qafar Kəndli M.Tərbiyətin "İran və fars mətbuatı tarixi" dəftərindən götürülmüş mətbuat orqanlarının siyahısını təqdim etmişlər ki, onların içərisində təkcə Təbrizdə erməni dilində nəşr olunmuş qəzetlər barədə məlumat da özünə yer almışdır. "Danışməndani Azərbaycan" əsərinin yazılmasına qədər M.Tərbiyətin təqdim etdiyi erməni qəzetlərinin adları bunlardır: "Ağacan" (1912-1913), "Azdarar" (1904-1908), "Ayıq" (1912-1922), "Qaradağ" (1912-1913), "Aravod" (1909-1912), "Arşaluys" (1918-1919), "Baykar" (1918-1919),

---

[19] Bayramzadə S. Z. İran hakim dairələrinin Cənubi Azərbaycan maarifi sahəsindəki siyasəti, Cənubi Azərbaycan tarixi məsələləri (məqalələr toplusu), Bakı, Elm, 1991, s. 46

[20] Kasparyan S. Xarici erməni koloniyaları bu gün, s. 97

“Zanq” (1910-1912), “Kurtoz” (1903), “Minaret” (1919-1920), “Xosq” (1913-1914, jurnal), “Kqasır” (1919)[21]. Təəssüf ki, xatırlandırılan qaynaqda Təbrizdə ana dilində çap olunmuş bu sayda qəzet adlarına təsadüf etmirik.

Əlbəttə, erməni-fars, yaxud İran-erməni ədəbi-mədəni münasibətləri barədə burayadək ötəri nəzərdən keçirdiyimiz məlumatlar tarix səhifələrində əbədiləşdirilmiş, uyğun mövzulu kitab səhifələrində özünə yer almış faktik görüntülərdir. Və biz bunlara etinasız, biganə qala bilmərik.

İllər boyu klassik irsin, xüsusilə şifahi söz sənətinin toplanması, nəşri və araşdırılmasında önəmli zəhməti olmuş M.Fərzanənin adı ilə bağlı bu toplunun nəşri son dərəcə təqdirəlayiq ədəbi-mədəni hadisə sayıla bilər. Biz vaxtilə çap olunmuş “Güney Azərbaycanın el çələngi” (Ön söz və örnəklər, “Çıraq” jurn. 1999, №2) təqdimat məqaləsini nəzərə alıb “Güney Azərbaycan folkloru” adlı toplunun I kitabının mövzu və ideya tutumu, janr və regional xüsusiyyətləri, məzmun və süjet əlvanlığı barədə söz deməyi artıq saydıq.

Folklor örnəklərinin nəşrində əsas amil təqdim olunan materialın bəlli prinsiplərə söykənərək təqdim edilməsi ilə bağlıdır. Yəqin ki, böyük zəhmət bahasına başa gələn bu iş ömrünün son çağlarında doğma Vətənini tərk edib qürbətdə dünyasını dəyişən Məmmədəli Qövsi Fərzanənin işıqlı ruhu qarşısında Müstəqil Azərbaycan folklorşünaslığının kiçik ərmağanı kimi qəbul edilsə, yerinə düşər. Biz bu toplunun nəşri ilə qürur hissi keçirir və bu yöndə əlyazma sənədləri və “qırmızı terror” qurbanlarının ilk dəfə işıq üzü görən əsərlərinin elmi dövriyyəyə gətirilməsini mənəvi borc sayırıq. Bunlar aşağıdakı nəşrlərdir:

1. Lələ. Yaranmışam daşdan mən. Ön sözün müəllifi və tərtib edəni İ.Abbaslı, Bakı, Gənclik, 1995

2. Qövsi Təbrizi. Divan, İrəvan arxivlərindən, nəşrə hazırlayanı və ön sözün müəllifi İ.Abbaslı, Bakı, “Nurlan”, 2011, 58 s.

---

[21] Tərbiyət Məhəmmədəli. Danışməndani Azərbaycan (Görkəmli elm və sənət adamları), Bakı, Azərnəşr, 1987, s. 439-447

3. Koroğlu (Paris nüsxəsi), nəşrə hazırlayan, "Ön söz", "Lüğət", "İzah və qeydlər"in müəllifi İ.Abbaslı, Bakı, Şərq-Qərb, 2005, 233 s.

4. Hənəfi Zeynallı, Azərbaycan türk mahnıları haqqında, mətni nəşrə hazırlayan və "Ön söz"ün müəllifi İ.Abbaslı, Bakı, Səda, 2004, 68 s.

5. Azərbaycan nağılları, beş cilddə, I cild, nəşrə hazırlayanlardan biri İ.Abbaslı, Kitabın redaktoru və "Redaktordan" başlıqlı ön sözün müəllifi, Bakı, Şərq-Qərb, 2005, 358 s.

Cild H.Zeynallının üç cildlik "Azərbaycan nağılları" əlyazması əsasında hazırlanmışdır.

6. Folklor çələngi (mətni nəşrə hazırlayan, tərtib və ön sözün müəllifi İ. Abbaslı), "Azərbaycan folklorunun ilkin nəşrləri" seriyası, 7-ci kitab, Bakı, Nurlan, 2008.

7. Bəhlul Behcət. Qaçaq Nəbinin tarixi, mətni hazırlayan və "Ön söz"ün müəllifi İ.Abbaslı, Bakı, Çıraq, 2011, 296 s.

İranda – xüsusilə Güney Azərbaycanda– Təbrizdə olmaq arzu şəklində qalsa da, şübhə etmirik ki, M.Fərzanənin adı ilə bağlı bu toplu güneyli həmkarlarımız, folklor həvəskarları tərəfindən rəğbətlə qarşılanacaq.

***Prof. İsrafil Abbaslı***
***Bakı, 2013***

# I. İNANCLAR

Allah-təala dünyanı yeddi günə yaratmışdır. Hamıdan əvvəl lövh-ü-qələm, ərş və kürs, behişt və cəhənnəm, gözə görünməyən məxluqlar (cinlər, pərilər, mələklər), onun ardınca göylər və dənizlər yaradılmışdır.

İlk yaradılışda yer üzü bom-boş, qorxulu bir çöl halında imiş, həqq-təala bu boşluğu bəzəmək üçün qabaqca dənizləri, sularda yaşayan heyvanları, bitkiləri, onun ardınca yer üzündə yaşayan heyvanları, bitkiləri yaratmış, onlara həyat bağışlamışdır.

Haqq-təala bütün bunları yaradandan sonra öz üstün qüdrət və əzəmətinə yaraşan bu yaradılışların hamısından üstün duran gözəl, misilsiz bir məxluq yaratmaq qərarına gəlir ki, bu insandır.

Allah-təala insanı yaratmaq üçün Cəbrayılı yer üzünə göndərib, ordan bir ovuc torpaq gətirməyi əmr edir. Yer Cəbrayıldan Allahın fikrini öyrənincə dilə gəlib deyir:

– Pərvərdigara! Məndən aldığın bir ovuc torpaqdan yaratmaq istədiyin insan sabah üsyan edib günah işlər, cəzaya müstəhəq olursa, cəhənnəmdən qurtulacağı olmaz. Amma mənim cəhənnəm odunda yanmağa taqətim yoxdu. Allahlığın xatirinə, gəl, bu mövcudu yaratma!

Cəbrayıl torpaq götürməyib geri qayıdır. Bu dəfə Mikayıl və onun ardınca İsrafil bir ovuc torpaq aparmaq üçün yer üzünə gəlirlər. Yer bunların da hər ikisinə çoxlu yalvar-yaxar edir, onlar da torpağa əl vurmadan geri qayıdırlar. Nəhayət, yenə Əzrayıl yerə göndərilir. Yer qabağdakı kimi ona da çox yalvarır. Əzrayıl yerin yalvarışına belə cavab verir:

– Sənin dediklərin hamısı doğrudu, lakin haqq-təalanın fərmayişi yerinə yetirilməlidir.

O, bir ovuc torpaq götürüb qayıdır. Əzrayıl bu işi bacarıqla yerinə yetirdiyinə görə insanların ölüm ayağında canını almaq işi ona tapışırılır.

Əzrayıl gətirdiyi torpaqla insanın xəmirəsini yoğurur. Onu istənilən bir qəlib şəklinə gətirir. Bu qəlib bir rəvayətə görə qırx gün, bir rəvayətə görə qırx il olduğu halda qalır. Bu müddət keçəndən sonra can (ruh) bağışlayır, onu Adəm adlandırır. Bütün mələklərə bu misilsiz yaradılışın önündə səcdə etməyi hökm edir. Mələklər insanın önündə səcdəyə düşüb onun gözəlliyi, kamalı qarşısında hörmət, qayğı göstərirlər.

Təkcə Şeytan oddan yarandığı üçün haqqın əmrinə boyun qoymayıb, insana səcdə qılmaqda inad göstərib. Buna görə də, o, mələklik dərəcəsini itirib, cənnətdən qovulur.

Adəm yalqız idi, haqq-təala Həvvanı ona yoldaş yaratdı. Hər ikisinə də behiştdə yer verdi. Adəm ilə onun əyalı behiştdə bütün nemətlərdən faydalanırdılar. Onlara təkcə bir bitkinin meyvəsi yasaq edilmişdi. Bu meyvə bir rəvayətə görə buğda, bir rəvayətə görə əncir, ayrı bir rəvayətə görə xurma idi.

Adəm səcdə etmədiyinə görə cənnətdən qovulan şeytan ona kin bəsləyirdi. O, hər yol ilə olursa-olsun, behiştə girməyi, Adəm ilə Həvvanı yoldan azdırmağı düşünürdü. O, öz dərilərini, ya qılıqlarını az müddət ona əmanət vermək üçün bütün heyvanlara baş vurdu. Heç bir heyvan nə dərisini, nə qılığını şeytana vermək istəmədi.

O, sonda ilana baş vurdu. İlan dərisini verməyə razı oldu. Şeytan ilan qiyafəsində behiştə girdi.

İlanın əlsiz-ayaqsız olub yerdə sürünməsi, zəhərli olub, insanları çalması, buna görə də həmişə iyrənc, qorxunc görünməsi, heç şəfqət, rəhm edilmədən öldürülməsi bu səbəbdəndi. Şeytan hiylə ilə soxulunca yeməsi yasaq olan buğdadan Həvvaya, Həvvanın vasitəsi ilə də Adəmə yedizdirdi. Bununla da insan ilk dəfə Allahın fərmayişinə qarşı durmuş oldu.

Adəm ilə Həvva bu ağır günahdan sarı behiştdən çıxarılma, yer üzünə buraxılma cəzasına məhkum oldular. Uzun zaman biri-birini görməyə həsrət qaldılar. Çox ağır dəhşətlərlə, iztirablarla qarşılaşdılar. Hər gün, hər saat uzun-uzun yalvarışları, iltimasları Allahın rəhmət dəryasını coşdurdu. Nəhayət, bağışlan-

dılar, bir-birinə qovuşdular. Dünyaya gətirdikləri körpələrlə həyatı şənləndirdilər.

Allah ilkcə göyləri, sonra dəryaları, quruluqları yaratdı. Bu yaradılışdan sonra ortada bir qara, qorxulu dumandan başqa bir şey görünmürdü. Onda Tanrının əmrilə günəş yaradıldı.

Beləliklə də gecə-gündüz bir-birindən ayırd edildi, bunun ardınca da ay, ulduzlar, ağaclar, çiçəklər, uçan quşlar, quruluq, su heyvanları, ən sonda insan yaradıldı.

Yer üzündə yeməli, içməli hər nə varsa, Allahın "nemətləri" kimi insana tapşırıldı.

Bütün bunlar altı gün ərzində yaradılmış, yeddinci gün Allah yaratmasına fasilə vermiş, buna görə də insan altı gün çalışıb yeddinci günü dincəlməyə ülgü vermişdir.

Pəncərələrdən yəcuc-məcucları görənlərin arasında günahı olanların başında buynuzlar əmələ gələcək. Qiyamət günü yer üzündə müsəlmanlıqdan əsər qalmayacaq. Dünya dümdüz olacaq, məşriqdən baxanda məğrib, məğribdən baxanda məşriq görünəcək.

* * *

Ölən hər bir adam torpağa tapşırılıb qəbirdə yalqız qalınca dərhal dirilir. Əvvəlcə öz-özündən "Mən hardayam?" deyə soruşur. Qalxmaq istəyəndə başı əlhəd daşına dəyincə deyir: "Ey-vay, ölən mən imişəm!". O qəbirdə olduğunu başa düşür. Əvvəlcə gecə iki sorğu mələyi (İnkir-Minkir) gəlib ölüdən yaradanını (Allahın dinini, peyğəmbərini, kitabını, məzhəbini, imamını) soruşur. Ölü imanla dünyadan köçmüş olsa, bu sorğulara doğru-düzgün cavab verir. Sorğu mələkləri də səssiz bir ehtiramla çıxıb gedirlər.

Qəbirdən cənnətə bir yol açılır, bu yoldan əsən küləklər behişt bağçalarındakı güllərin ətrini gətirir. Öləndə bu imanla dünyadan köçməyənlər, qəbrə gələn sorğu mələklərinin qarşısında duruxub qalırlar. Dilləri dolaşır, suallara doğru-düzgün cavab verə bilmir. Belə olunca sorğu mələkləri əllərindəki top-

puzla onun başına vururlar. Bu ara qəbirdən cəhənnəmə bir yol açılır. Bu yoldan cəhənnəmin odlu yelləri əsir, ölü yandırıcı, əridici bir sıcaqlıqda qovrulur.

Din, inanc yolunda, yurdlarını, xalqlarını müdafiə uğrunda çarpışanlar, düşmən silahı ilə öldürülən kişilər, uşaq doğmaqdan ölən qadınlar şəhid sanıldıqlarına görə Allah onların bütün günahlarını bağışlayır. Şəhidlər sorğu mələklərinə mütləq doğru cavab verirlər. Behişt yellərinin gətirdiyi gül ətirləri ilə sərməst olub, behişt bağlarını seyr edə-edə qalırlar.

Torpağa tapşırılan hər bir ölü (övliyalardan başqa) çürüyür. Övliyalar qəbirdə qiyamət gününə qədər həyatda olduqları kimi qalır. Çürüyənlərin qəbirdə çürüməyən yeri bel sümüyünün aşağı qurtaracağındakı sümükdür. Qiyamət qopub, İsrafil surunu çalınca ölülərin çürümüş üzvləri bu sümüyün ətrafına toplanır, vücud yenidən təşkil olur. İsrafilin surunu çalınması bütün məxluqatı məhşər ayağına çağırması deməkdir. Surun səsi ucalınca bütün ölülər qəbirdən xortlayıb, qafilə halında məhşərə tərəf yollanırlar.

Məhşər dünyada hər kəsin yapdıqları işlərin hesabını verdiyi yerdir. Burada pis yaxşıdan, günahkar savabkardan ayrılır. Məhşərdə mələklər tərəfindən "mizan" adlandırılan tarazı ilə günahlar ilə savablar çəkilir. İman ilə dünyadan köçmüş savabkar bəndələr behiştə girməyə haqq qazanırlar.

Dünyada fironluq edənlər, Allahın buyurduqlarına boyun qoymayan ziyankarlar cəhənnəmə göndərilir, haqsızlığa uğrayırlar. Sitəmə məruz qalanlar məhşərdə Allahdan haqlarını qəbul edilməsini istəyirlər.

Məhşərdə ata-ana uşaqlarını, uşaqlar ata-analarını, kişi arvadını, arvad kişisini, qardaş qardaşını, yaxınlar bir-birini, qonşu-qonşunu, dost-dostu, yoldaş yoldaşı tanımaz, hər kəs öz hayına qalır, öz başına çarə axtarır.

* * *

Dünyada hər bir iş Allah-təalanın məşitindən (iradə və istəyindən) asılıdır. Bu məşitdən qıraq heç bir iş baş tutası deyil.

Doğulan hər bir yaradılışın bir təqdiri, bir alın yazısı var ki, istər-istəməz onu görəcək.

Allah insanı yaxşı yollara getməyə, yaxşı işlər görməyə, şərdən çəkinməyə, xeyrə qapılmağa, bir sözlə, Allahın buyurduqlarına əməl etməyə çağırır. Lakin şeytan onu xeyir işlərdən uzaqlaşmağa, şər işlərə qoşulmağa sövq edir. Özlərini şeytanın vəsvəsəsindən qoruyanlar – savabkarlar, şeytanın vəsvəsələrinə qapılanlar – günahkarlardır.

Dini inanışlara əsasən dirilik və həyat Allahın insana bağışladığı ən böyük nemətlərdən biri sayılır. Bu böyük neməti qorumaq yaradanın borcunu ödəməkdən və yaradana minnətdarlığını bildirməkdən başqa anlam kəsb etməz. Bu borcu ödəməkdə, bu minnətdarlığı yerinə yetirməkdə insanın boynuna düşən təklif Allahın buyurduqlarını yerinə yetirməkdir.

Həyat Allah vergisi olduğu üçün onun nə qədər uzun ya qısa sürəcəyini Allahdan başqa kimsə bilməz. Bir insan Allahın təqdiri olmadan dünyaya gələ bilmədiyi kimi, Allahın qərar verdiyi alın yazısından nə ayrıla bilər, nə də ondan az, ya çox yaşaya bilər. Ömür Allahın bağışladığı yaşama dövranıdır. Bir nəfər öləndə "onunki da elə buracan imiş, ya elə bura qədər imiş" inancı da bundan irəli gəlir. Əlbəttə insana müqəddəs olan ömür məxluqun yaxşı, ya pis adam olması ilə də artıb, ya əksilə bilər. Xoş xislət, dininə, xalqa, məxluqata xeyirxah olan adamların ömürlərinin uzanması, əksinə, pis xasiyyət, dinə, camaata zərərli olan adamların daha az yaşaması da təqdir ola bilər.

* * *

Açarı oynadanın evinə dava düşər.

Axşam süpürülən evdən bərəkət əskilər.

Axır çərşənbənin falı doğru deyər.

Axşamın səbri xeyrə yürər.

Axşam aynaya baxanın bəxti tutqun olar.

Aqasiya gülünün arasındakı bəsmi dilivin altına qoysan, işin rast gələr.

Altı barmaqlı adamın əli udumlu olar.

Ala adama gülən özü də alalıq tutar.
Anadan dişli doğulan uşaq evə xeyir-bərəkət gətirər.
Ana ilə qızı bir ayda doğsalar, uşaqların biri eybəcər olar.
Anasına çəkən qız bəxtəvər olar.
Arı yuvasını dağıdanın dudmanı dağılar.
Astanada başmaqları saysan evdən adam əskilər.
At nalı evə bərəkət gətirər.
Aya çox baxanı ay çəkib aparar.
Aynanın şövqünü evə salanda evdən ölü çıxar.
Ay tutulanda mis qab çalmaq, tüfəng atmaq xeyirli olur.
Ayağının baş barmağı yekə olanın bəxti açıq olur.
Ay tutulanda boylu arvad aya baxsa uşağı ayxallı olar.
Ayağı ağır adamın ayağına iş başlasan iş uzun çəkər.
Ayı barmaqla göstərmə, göstərdin barmağıvi dişlə.
Ay işığı düşən divara çirkli su atının işi düz gəlməz.
Ayın üzünə gərnəşən nasazlığa düşər.
Aynanın üzüni divara sarı çevirmək uğursuzluq gətirər.
Azan veriləndə əlini işdən çəkənin ömri uzun olar.
Baltanın ağzını baş yuxarı qoysan, yağış yağar.
Barmaqlarını şaqqıldadanın ömrü gödək olar.
Barlı ağacı kəsənin ömrü az olar.
Barmaqları daraqlamaq qəm artırar.
Başmağı üst-üstə çıxaran başmaq sahibi zərər görər.
Başmağı başmaqçıya verəndə cüt ver, tək tay versən arvadın ölər.
Başmağıvın bağın düzgün salsan işin düzgün düşər.
Başmağını taykeşik geyənin işi rast gəlməz.
Başın yekəsi dövlətdi, ayağın yekəsi nəkbət.
Bayquş həyətdə ağaca, ya dama qonsa, ev yiyəsi vay xəbər eşidər.
Bayram günü xoş olan ili başa-baş şadlıqla yaşar.
Bir gecəlik ayı gördün, ya qızıla, ya gözələ baxgilən.
Bir gecəlik ayı əvvəl görənin işi udumlu olar.

Bir iş dalınca gedəndə qabağıva boş qabla çıxsalar, o işdən əliboş qayıdacaqsan.

Birinin başına köhnə palaz örtüb üstündən su calasan yağış yağar.

Biri daldan səni dabanladı, sən də dön onu dabanla, belə eləməsən işin dava-döyüşə çıxar.

Boylu arvad işlək olsa, uşağı oğlan olacaq, bir böyri üstə uzansa uşağı qız olacaq.

Boşqabı batıq qoyan ziyanın çəkər.

Boynunun dalında ət xalı olan adam dövlətli olar.

Boylu arvad şirinə yerikləsə uşağı oğlan olacaq, turşuya yerikləsə qız olacaq.

Boylu arvadın üzünə səngil düşsə, uşağı qız olacaq.

Boylu arvadın südünü suya sağsalar, süd suyun dibinə batsa uşaq oğlandı, batmasa qız.

Canamaz ayaqlayanın gözi kor olar.

Cümə güni gələn qonaq özü ilə xeyir-bərəkət gətirər.

Cümə güni yağış yağsa, şənbə hava açılacaq.

Cümə güni dırnaq tutan dövlətli olar.

Cümə güni səfərə çıxmazlar.

Cüt səbir xeyirli olar.

Çay içəndə istəkanlar rədif düzülsə evə qonaq gələr.

Çadranı tərs örtmək qəm gətirər.

Çərçivəni daraxliyanın işi rast gəlməz.

Çəçisən bil ki, sovğat yeyəcəksən.

Çinar ağacından nənni düzəltmək yaxşı olmaz.

Çinar ağacı yarpağını ətəkdən töksə qış ağır keçər.

Çini, ya bülur qabın sınması evdən qada-balanı sovar.

Çox ağlayan uşaq atasının, ya anasının başın yeyər.

Çox gülən adam zərərin çəkər.

Çoxdan səfərə gedənin tez qayıtması üçün qapı ağzına qeyçi, ya pıçaq qoyarlar.

Çömbəltmə oturmaq bədbəxtlik gətirər.

Çörəyi yerdə görüb ayaqlayanın gözi kor olar.

Çörəyi ayaq üstə yesən bərəkəti qaçar.
Dan yeli üzünə əsən adam həyalı olar.
Darda qalanın dadına çatmasan günaha batarsan.
Dəsmalı özgəsinə vermək ayrılıq gətirər.
Dəvə yunu oğru qızdırmanın dərmanıdı.
Dəyirman daşın yatdıq yerə qoymaq şər gətirər.
Dırnağıva xal düşsə taza paltar geyəcəksən.
Dırnağı uzun adam şeytan törəməsidir.
Dırnağı bir-birinə çalmaq qovğa yaradar.
Dizləri qucaqlayıb oturmaq qəm artırar.
Dil açmayan uşağa göyərçin yumurtası versən tez dil açar.
Disgintidə olan adama qapı həlqəlcəsini suda çalxalayıb içirsən disgintisi qoyar.
Divar dalına çögürmək fəlakət gətirər.
Doğan arvadın yanında qız uşağı olsa çətin doğar.
Doğan arvad yerinə keçəndə Allahdan hər nə istəsə verər.
Duz yerə töküləndə yığmasan evə dava düşər.
Duzu bu dünyada dağıdan o dünyada kirpikləri ilə yığacaq.
Ehsan üçün kəsilən heyvanın kəllə-paçasını ehsan verən yeməsə yaxşıdı.
Evdən uzağa gedəndə üç yol qapıya desən: "Evi sənə tapşırıram" - evə oğru gəlməz.
Evi yarımçıq süpürənin ömri yarımçıq olar.
Evi süpürəndə çalış süpürgə bədənivə toxunmasın, yoxsa sözün kəsərli olmaz.
Evə bədnəzər gəlsə, gedəndə dalınca pasab* atsan zərər toxunmaz.
Əcinələr səni çağırsalar denən ki, əlimdə işim var, məyər görmürsüz duz dartıram.**
Əcinədən qorxan yaxasına iynə taxsa amanda olar.
Əli yüngül adamdan siftə alanın qazancı çox olar.
Əlinən ayaq dırnağını bir yerdə tutmaq pis olar.

---

* Çirkli su
* *Üyütmək

Əncir ağacı altında yatan ağırlaşar.
Əncir ağacını sındıran, odununu yandıran xeyir görməz.
Əri çox istəyən arvadın paltarı tikiləndə sap tez-tez qırılar.
Ərə gedən qızın ayaq baş barmağı o biri barmaqlarından uzun olsa, ərinin itaətində olacaq, ikinci ayaq barmağı uzun olsa, əri onun itaətində olacaq.
Əti acı adamı mığmığa sancmaz.
Fal açanda danışmazlar.
Fəqirə gülən yoxsulluğa düşər.
Gec dil açan uşağa sərçə əti yedirtsən tez dil açar.
Gecə ağzı açıq yatan adamın ağzına şeytan tüpürər.
Gecə anadan olan adamın ayağı ağır olar.
Gecə başının altına paltar qoyub yatan adamı qara basar.
Gecə baş daramaq yaxşı olmaz.
Gecə dırnaq tutanın ömrü azalar.
Gecə yarısı it hürüb qarğalar qarıldasa, zəlzələ olar.
Gecə qayğanaq yeyəni qara basar.
Gecə saçını kəsdirənin ruzusu kəsilər.
Gecə yatanda mitəkəyə tapşırsan, vəqtli-vəqtində səni oyadar.
Gəlin gedən qızın ata evində geydigi başmağı ər evinə aparsalar gəlinin ər evində yeri daralar.
Gəlin başına tökülən noğullardan yesə bəxti açılar.
Göydə hərənin bir ulduzu var, adam öləndə göydəki ulduzu axır.
Gözü ölüyə sataşan boylu arvadın uşağı kor olar.
Gözün üstündən öpmək ayrılıq gətirər.
Gözündə xalı olan adamın baxışı tutarlı olar.
Gözü yol çəkən adam taza xəbər eşidər.
Gülab çəkmənin düşər-düşməzi olur.
Gün batanda tikiş tikməzlər.
Gündüz anadan olan adamın ayağı yüngül olar.
Hamamdan çıxanda sərin su içmə, içdin əlivi qoy başuva.
Hörümçək göydən sallananda evə qonaq gələr.
Xallı qız bəxtəvər olar.

Xalı çox olan adamın düşməni də çox olar.
Xırda pulu səsləndirsən pullanarsan.
Xonçaya başmaq qoymaq darlıq gətirir.
İki arvadın arasından keçənin işi rast gəlməz.
İldırım çaxanda dəmirə əl vurmazlar.
İlin axır çərşənbəsində qulaq falı düz deyər.
İlin axır çərşənbəsində səhər tezdən sudan atlananın bəxti açılar.
İlin axır çərşənbəsində səhər tezdən özünü axar suynan yuyan gözəlləşər.
İl təhvil olanda balıq üzünü qibləyə qoyar.
İstiot dağılan evə dava düşər.
İsti suyu yerə tökəndə "Bismillah" deyərlər ki, ziyan tapmayalar.
İşi ayağı yüngül adamın ayağıla başlasan, iş tez qutarar.
İt kəlləsi asılan bostana göz dəyməz.
İt olan evə məlakə dolanmaz.
İt yaylaqda ləhləyəndə dolu düşər.
İtki tapılmasa şeytanın quyruğunu (sapın ucunu, ya dəsmalın guşəsini) düyünləsən tapılar.
İydə gül açanda altında durmaq yaxşı olmaz.
Kağızı, ya parçanı doğramaq fəlakət gətirər.
Kəbin kəsəndə açıq bıçağı büksən qaynananın dili bağlanar.
Kəhrəbanı evdə saxlamağın düşər-düşməzi olur.
Kərpici üst-üstə qoysan arasında əqrəb törər.
Kitabı açıq qoyub yatanın oxuduqları yadından çıxar.
Kitabı oxuyandan sonra açıq qoysan, şeytan oxuyar.
Kişinin başmağı astanadan yanaki dursa evə qonaq gələr.
Köçən gəlinin dalınca daş atsan, yeri ər evində qeyim olar.
Qabağına tor atan adam varlı olar.
Qabaq dişləri yekə olan adam xoş iqbal olar.
Qabağına qərə pişik çıxsa getdigin iş boşa çıxar.
Qabını yuyulmamış qoysan işin bəndə düşər.
Qapını əl ilə daraxlasan borclu düşərsən.

Qaranquş alçaqdan uçanda yağıntı olar.
Qaranquş yuva salan evdə həmişə şadlıq olar.
Qaranquşun yuvasını dağıdanın yurd-yuvası dağılar.
Qarğa çox olanda qış soyuq keçər.
Qarpız qabığı gəmirənin başı keçəl olar.
Qaşıq yerə düşsə arvad qonağı gələcək.
Qaşı çatma olan qızı qohumlarına verərlər.
Qazan dibi yalayanın toyunda qar yağar.
Qeyçi əldə oynadılan evdə dava düşər.
Qəbir üstə su səpəndə ölünün ürəyi sərinlər.
Qəbristanlıqdan çıxanda dönüb dala baxmazlar.
Qırxılı uşağın paltarını qaranlıq çökməmiş şəritdən götürərlər.
Qırxılı uşağa sarı geyindirməzlər.
Qolları qucaqlayıb durmaq qəm gətirər.
Qonağın tez getməsini istəsən başmağına duz cütlə.
Qoz ağacının altında yatan ağır durar.
Qurban ətindən yeddi yerə pay çıxmaq vacibdi.
Qurbağanı öldürənin əlinin duzu olmaz.
Qurd yağı sürtən adamı hamı qurd görər.
Qurbağanı əlinə götürənin bədəninə ziyil düşər.
Lüt yatanın imanı olmaz.
Lüt adama baxan günaha batar.
Maşanı boş yerə titrədənin, əlləri titrəyər.
Maşanı boş yerə titrətsən qıtlıq olar.
Mayadan borc alanın mayasını qaytarmasan ruzusu kəsilər.
Meşəyə kəsərsiz gedən ziyanın görər.
Məscidə başmaqlı gedənin dalısı sözlü olar.
Mürgülüyəni bərkdən səsləsən günaha batarsan.
Müştəriyə yalan deyənin işi bəd gedər.
Nalı oda salsan sönmüş məhəbbət doğrular.
Nanə əkməyin düşər-düşməzi olar.
Od, ya ocaq yandıranda alov çırtıldasa dalınca söz danışarlar.
Oğlan uşağı tez umar.
Oturan adamın başına dolanmaq yaxşı olmaz.

Ölünün dalıca danışanda fəlakət olar.
Ölü paltarı satmaq nikbət gətirər.
Özgənin payın yeyənin dilinə pay çıxar.
Özgənin canına and içənin andı özünü tutar.
Özünə qəsd eliyən adam gorbagor olar.
Saçı yumşaq olanın xoyu da yumşaq olar.
Saçuvun tükü üzüvə düşsə, bil ki, qonağın gələcək.
Sağ əlivin içi qaşınanda əlivə pul çatacaq.
Sağ gözün səyirləməsi şadlıq gətirir.
Sayıqlayan adamı oyatmazlar.
Səfərə çıxan adamın dalıca su səpsən səfərdən tez qayıdar.
Səhər tezdən qabağına boş dolça çıxan adamın işi rast gəlməz.
Sən demək istədigin sözü səndən qabaq deyən adam çox yaşayacaq.
Səməni içindən götürülən acil (fındıq, badam, püstə), hər kəsin yanında olsa, hər cür qada-baladan amanda olar.
Sınıq qabdan çörək yeyən yarımaz.
Sınan qab-qacaq qada-bəlanı evdən qovar.
Soğan evdə güllənsə, didərginlik gətirər.
Soğan çox soyulan evə naxoşluq gəlməz.
Sol əlin qaşınsa xərcin çox çıxacaq.
Sol gözün səyirləməsi xoş xəbər gətirəcək.
Sözünün üstünə çıxan adam həlalzadədir.
Söyüd ağacını əyməyin düşər-düşməzi olur.
Su qızdıranda içinə yarpaq atsan, su tez qızar.
Su yolunda əcinnələr yurd salar.
Su yoluna kəsərsiz girən cinli-baxmalı olar.
Suyun evə calanması aydınlıqdı.
Süd verən adamın südü murdar yerə tökülsə, südü kəsilər.
Süfrə başında çörəyi çox doğrayan, çox uşaqlı olar.
Süfrədə qablar sıra düşsə evə qonaq gələcək.
Süfrəni əl ilə silən yoxsulluğa düşər.

Süfrədə qablardan biri dingildəsə süfrə başındakılardan biri acıq eyləyəcək.

Süfrədə tikə birinin boğazında qalsa onun yaxınlarından biri acdır.

Süfrə üstə gəlib çıxanı qaynanası çox istər.

Süpürgəni aralığa atsan evə dava düşər.

Süfrə başında boşqabı təmiz siyirənin nişanlısı göyçək olar.

Şabalıd ağacını kəsməzlər.

Şalvarı ayaq üstə giyinmək yoxsulluq gətirər.

Şəmi (lampanı) püfləyib söndürməzlər, əl ilə söndürərlər.

Şənbə günü dırnaq tutmazlar.

Şər qarışanda ağlamazlar.

Şər qarışanda evdən çörək verməzlər.

Şər qarışanda işığı söndürməzlər.

Şər qarışanda qeybət eləməzlər.

Şər qarışanda yatmazlar.

Taxıl çuvalının üstündə otursan bərəkəti qaçar.

Taza paltarı özgəsinə pay verməzlər.

Taza evə köçəndə qayğanaq bişirmək şirinlik gətirir.

Taza paltarı ya toya, ya qonaqlığa gey.

Taza evə köçəndə qabaqcadan ayna, Quran aparmaq xoş olar.

Taza ayı hamıdan tez görənin işi rast gələr.

Tikənin əldən düşməsi sevinc gətirir.

Torağay üzüyüxarı çıxanda, yağış yağar.

Toyuq basdırmanın düşər-düşməzi olur.

Uçuği soyuq dəmirlə diksindirsən toxtar.

Uşaq əvvəl diş çıxardanda hədik bişirərlər.

Uşaq yuxuda güləndə məleykələr onu danışdırırlar.

Uşaq çox pənir yesə korafəhim olar.

Uşağa babasının adını qoysalar çox yaşayar.

Uşağın ayaq tutması evə qonaq gətirər.

Uşağın dırnağını tutanda dayısı ovucuna pul qoysa uşaq varlı olar.

Uşağın boynundan öpsən küsəyən olar.
Uşağın başına bambaça salsan yetim qalar.
Uşağı çox qıdıxlasan əti tökülər.
Yağış yağanda gün çıxsa deyərlər qurd balalayar.
Yaxın adamdan yaylıq almaq ayrılıq gətirir.
Yaxın adamdan nəsə aldın əvəzinə bir şey ver.
Yaxşı yuxunu danışsan kəsərdən düşər.
Yarpız bitən bostana ilan dolanmaz.
Yara-xoradan çimçəşən özü də yara-xora tökər.
Yasəmən ağacının düşər-düşməzi olur.
Yatan adamın üstünə atlanmazlar, atlayanın qada-balası yatan adamın üstünə düşər.
Yatanda başuvun altına paltaruvi qoysan, qatma-qarışıq yuxu görərsən.
Yatanda üzüvi qibləyə qoyub yatsan rahat yatarsan.
Yataqda yuxu deməzlər, düşər-düşməzi olur.
Yatdıq yerdə çörək yeməzlər.
Yerikləyən arvad hər adamın əlindən tikə yesə uşağı yalaq olar.
Yuxuda ölən adamı öpən günaha batar.
Yuxuda öpüşmək ayrılıq gətirir.
Yuxuvu hamıdan əvvəl suya denən.
Yumurtanın qabığını evə səpmək dava-dalaş gətirər.

# II. ALQIŞLAR, QARĞIŞLAR, ANDLAR

## ALQIŞLAR

Acı gün görmiyəsən.
Axtardığına çatasan.
Axar suyun qurumasın.
Ağzın fal olsun.
Ağzıvın dadı pozulmasın.
Ağ günə çıxasan.
Aqibətin xeyir olsun.
Allah amanında.
Allah imdadına çatsın.
Allah o biri balavı saxlasın.
Allah uğruva xeyir çıxartsın.
Allah ürəyivin muradın versin.
Allah işin rast gətirsin.
Allah işivə rövnəq versin.
Allah imanuvi kamil eləsin.
Allah bağlı qapıları üzüvə açsın.
Allah bərəkətivi çox eləsin.
Allah başundan töksün.
Allah balavi saxlasın.
Allah başuvi göylərə çatdırsın.
Allah birivə min versin.
Allah bizi düz yoldan ayrı salmasın.
Allah cavan canıva qıymasın.
Allah dünyada məkansız, axirətdə imkansız eləməsin.
Allah ziyarət qismət eləsin.
Allah səlamətlik versin.
Allah səni darda qoymasın.
Allah səni xoşbəxt eləsin.
Allah səni namərdə möhtac eləməsin.
Allah səni görünməz bəlalardan saxlasın.

Allah səni yaman gözdən saxlasın.
Allah son nəfəsdə imandan ayırmasın.
Allah ömrünü uzun eləsin.
Allah göz işığını əlindən almasın.
Allah gələn günlərimizi xeyir eləsin.
Allah nəzərini üstündən kəsməsin.
Allah yanında üzün ağ olsun.
Anadan əmdigin süd həlalın olsun.
Atalı-analı olsun.
Atan rəhmətlik olsun.
Aydınlığa çıxasan.
Bağ-bostanın bəhrəli olsun.
Bağlı qapılar üzüvə açılsın.
Balan atalı-analı böyüsün.
Balan boya-başa çatsın.
Başın bəla görməsin.
Başın dost-düşmən arasında uca olsun.
Başın ərşə dayansın.
Bazarın xeyirli olsun.
Canuva qada-bəla dəgməsin.
Canın sağ olsun.
Cah-cəlalın artıq olsun.
Cavanlıqdan yarayasan.
Cibin boş qalmasın.
Çətinlik çəkməyəsən.
Çırağın heç vaxt sönməsin.
Çörək verən əlin kəsilməsin.
Çörəyin bərəkətli olsun.
Durduğun yerdə Allah başından töksün.
Dünya durduqca durasan.
Dünyada darlıq çəkməyəsən.
Dünyada "Neynim?", "Necə eləyim?" deməyəsən.
Dünya qəmi səndən uzaq dursun.
Ehtiyac üzi görmiyəsən.

El içində başın uca olsun.
Ev-eşigin abad olsun.
Əhdinə yetəsən.
Əhl-əyal şərməndəsi olmiyasan.
Əkdiyin birə min bitsin.
Əlacın kəsilməsin.
Əlin ağrımasın.
Əlin Allahdan üzülməsin.
Əlin bərəkətli olsun.
Əlin boşa çıxmasın.
Əlin var olsun.
Əməgin hədər getməsin.
Əməlin zay olmasın.
Ər kölgəsi başından əskik olmasın.
Əzrail qapını tanımasın.
Haqq daduva dursun.
Haqqın gözü üstündən yayınmasın.
Haqqın əli dalınca olsun.
Həlal ömür sürəsən.
Xeyir xəbər olasan.
Xətadan-bəladan iraq olasan.
İlin ildən xoş gəlsin.
İmanın kamil olsun.
İşin uğurlu olsun.
İşıqlığa çıxasan.
İşığın sönməsin.
Qada-bəla səndən iraq olsun.
Qadan-bəlan mənə gəlsin.
Qapın qıfıl görməsin.
Qapın həmişə açıq olsun.
Qardaş dağı görməyəsən.
Qədəmin uğurlu olsun.
Od-ocağın sönməsin.
Oxun daşa dəyməsin.

Oğul-uşağın darda qalmasın.
Ölün qapuvi tanımasın.
Ömrün uzun olsun.
Övladdan bəhrə görəsən.
Payın çox olsun.
Pis gün görməyəsən.
Ruzun bol olsun.
Ruzun başından aşıb-daşsın.
Sabahın xeyir olsun.
Sağ gedib salamat qayıdasan.
Sənə gələn qada-bəla mənə gəlsin.
Səni görüm bala dağı görmiyəsən.
Səni görüm bəxtəvər olasan.
Səni görüm bir qoyub min götürəsən.
Səni görüm peşmanlıq çəkməyəsən.
Səni görüm xeyir xəbər olasan.
Səni görüm duz dağı olasan.
Səni görüm dünya durduqca durasan.
Səni görüm min yaşayasan.
Səni görüm sözün kəsərli olsun.
Səni yamanlıq görməyəsən.
Səni görüm yaman gözdən iraq olasan.
Süfrən şadlığa açılsın.
Taxçan-boxçan boş qalmasın.
Torpağı sana yaşayasan.
Torpağın bəhərli olsun.
Uğrun açıq olsun.
Uğrun üzüvə gülsün.
Üzün ağ olsun.
Üzünün suyu tökülməsin.
Üzün gülsün.
Zaval görməyəsən.

## QARĞIŞLAR

Aclıq qapından əskik olmasın.
Açıq qapın örtülü qalsın.
Adam üzünə həsrət qalasan.
Adaxlın üzüvə həsrət qalsın.
Adaxlın vayına otursun.
Adın adlar arasından silinsin.
Adın batsın.
Adın baş daşına yazılsın.
Ahım səni tutsun.
Ağ günün ağlar gəlsin.
Ağ günə həsrət qalasan.
Ağ gün görmiyəsən.
Ağrım ürəyivə gəlsin.
Ağzın yumulu qalsın.
Allah baisin evini yıxsın.
Allah başuvi qoyub ayağuva daş salmasın.
Allah başuva bir daş salsın, altından çıxanmayasan.
Allah belindən vursun.
Allah cəzanı versin.
Allah dərd versin, dərman verməsin.
Allah sənə qənim olsun.
Allah sənə qoturluq versin, dırnaq verməsin.
Allah sənə gor əzabı çəkdirsin.
Allah səni öldürsün.
Allah səni kəssin.
Allah səni mənim əlimdən alsın.
Allah göz işığını əlindən alsın.
Allah qabağına çıxartsın.
Allahdan istəmişəm yorğan-döşəyə düşəsən.
Allah səni oğul-uşaqdan yarıtmasın.
Allahın zavalına gələsən.
Allahın görünməz bəlasına rast gələsən.

Anadan əmdigin süd burnundan zədən-zədən gəlsin.
Anan ağlar qalsın.
Anan yasına otursun.
Arzun gözündə qalsın.
Arvaddan- uşaqdan yarımiyəsən.
Asan işin çətinə düşsün.
Aşın ocaqda asılı qalsın.
Atan-anan harayına yetməsin.
Atadan-anadan yarımayasan.
Aydınlıq üzünə həsrət qalasan.
Balan başuva bəla olsun.
Balan üzüvə dursun.
Balan xoş gün görməsin.
Balandan çəkəsən.
Balavi ilan çalsın.
Balavin vay xəbəri gəlsin.
Başın batsın.
Başın daşlı, gözün yaşlı olsun.
Başın qada-bəladan ayılmasın.
Bayramın qərə gəlsin.
Bildiğincə çəkəsən.
Boğazın qovuşsun.
Boğazıva yara çıxsın.
Bolluq üzünə həsrət qalasan.
Bostanuvun tağı yansın.
Bostanuvi çor vursun.
Bulağa gedənin qayıtmasın.
Buğun dodağında qurusun.
Canın çıxsın.
Canından çəkəsən.
Canına od düşsün.
Cavanlığın yalan olsun.
Cavanlıqdan xeyir görmiyəsən.
Cəlalın dağılsın.

Ciyərin yansın.
Çarən kəsilsin.
Çolaq qalasan.
Çörək gözünü tutsun.
Çörək atlı olsun, sən piyada.
Çörəyin boğazında qalsın.
Çörəyin para olsun, günün qara.
Damın başuva uçsun.
Darlığa düşəsən, qurtaranın tapılmasın.
Dardan qurtulmiyəsən.
Dava-dalaş yaxandan əl götürməsin.
Dədəvin evi viran qalsın.
Dərdivə dərman tapılmasın.
Dərddən baş açmiyəsən.
Dilənçi kökünə düşəsən.
Dilin ağzında çürüsün.
Dilin "la ilahə illəllah"a dönməsin.
Dilinin bəlasına gələsən.
Dolu quyudan boş çıxsın.
Durduğun yerdə işə düşəsən.
El-obadan yarımiyəsən.
Evin başuva uçsun.
Evində ağ gün görmiyəsən.
Evində bayquşlar banlasın.
Evindən uşaq səsi gəlməsin.
Evinə şivən düşsün.
Evinin qapısı bağlı qalsın.
Evsiz-eşiksiz qalasan.
Əlin əllərdə üzülsün.
Əlin daş altda qalsın.
Əlin boşa çıxsın.
Əlin qurusun.
Əlin qoynunda qalsın.
Əlindən tutanın olmasın.

Əməyim gözünü tutsun.
Əməyindən xeyir görməyəsən.
Ər deyib ərsiz qalasan.
Ərinnən ərlik görmiyəsən.
Ər deyə-deyə əriyəsən.
Ərin ölsün, balaların yetim qalsın.
Ər qəzəbinə tuş olasan.
Ətin-əndamın tökülsün.
Ətin itlərə pay olsun.
Əzrayıl əzizlərivi əzizləsin.
Əzrayıl qapuvu tanısın.
Əzizlərin ölsün.
Əzizlərindən olasan.
Əzizlərin qara geysin.
Əzizlərin əzizlənməsin.
Falın umduğunu deməsin.
Fələk səni darda qoysun.
Fələkdən xoş gün görmiyəsən.
Fələk dadına yetsin.
Fırtınadan baş açmayasan.
Firsətin əldən getsin.
Fitrəyə möhtac qalasan.
Gedər-gəlməzə yollanasan.
Gedənin gəlməsin, nasazın durmasın.
Gedişin olsun, gəlişin olmasın.
Görba-gor olasan.
Gözün çıxsın.
Gözlərin ovcuva düşsün.
Gözüvə ox batsın.
Gözün yollarda qalsın.
Gözüvə qara su damsın.
Gün işığına həsrət qalasan.
Günün gündən qara keçsin.
Harayın sinəndə qalsın.

Hayına hay verən olmasın.
Həlal malın yadlara qismət olsun.
Həlal süfrəyə həsrət qalasan.
Həlal tikə boğazında qalsın.
Həlal ömür sürməyəsən.
Həlal gün görmiyəsən.
Hənirtin kəsilsin, qapın bağlı qalsın.
Həqq sənə qənim olsun.
Həqq sözün ayağa düşsün.
Xanımanın dağılsın.
Xanımanında it ulasın.
Xanım-xatunun dul qalsun.
Xeyir qapını döyməsin.
Xeyiratın qəbul olmasın.
Xəstəlığdən dirilmiyəsən.
Xəstəlığına dərman tapılmasın.
Xirmənin sovrulmasın.
Xirməninə od düşsün.
Xoş günə həsrət qalasan.
İflic olasan.
İlin qara gəlsin.
İmansız olasan.
İncəlib sapa, saralıb çöpə dönəsən.
İstəyin ürəyində qalsın.
İşin rast gəlməsin.
İşıq üzünə həsrət qalasan.
İt azarına düşəsən.
İzin itsin.
İzini-tozunu nişan verən olmasın.
Qada-bəlaya tuş olasan.
Qadam sənə gəlsin.
Qadam düşsün əzizlərivin ürəyinə.
Qanova boyanasan.
Qapun çırpılmasın.

Qapuvi açan olmasın.
Qarnun qavallara çəkilsin.
Qazanc üzü görmiyəsən.
Qazancun qazan doldurmasın.
Qazancun mirasuva qalsın.
Qərə yer səndən uca dursun.
Qıfılın bağlı qalsın.
Qızın elçiyə həsrət qalsın.
Qızını qızdırma aparsın.
Qızın qərəvi geysin.
Qohum – qardaşdan yarımiyəsən.
Qol-qanadun qırılsın.
Qolların bağlı qalsın.
Meyidin arada qalsın.
Mənə arzuladığın öz başuva gəlsin.
Mərdmazara tuş olasan.
Min bir bəlaya tuş olasan.
Mirdəşir üzüvi yusun.
Naçar günə qalasan.
Nahaq qana düşəsən.
Nağafil gülləyə rast gələsən.
Namərdə tuş olasan.
Ocağın kor qalsın.
Oda düşəsən.
Odun-ocağın sönsün.
Oda-alova tuş olasan.
Oğul əməyi dadmiyasan.
Oğul üzünə həsrət qalasan.
Oğul qazancı görmiyəsən.
Oğul-uşaqdan yarımiyəsən.
Oğlun itkin getsin.
Oğlun nişanlı üzü görməsin.
Oxuduğun başuva dəysin.
Oxuduğun sənə qənim olsun.

Oxun daşa dəysin.
Ödün ağzından gəlsin.
Ölün ara yerdə qalsın.
Paltarın bükülü qalsın.
Pənah duranın olmasın.
Pərgarın pozulsun.
Pis günə qalasan.
Pislik tutasan.
Rahatlıq üzi görmiyəsən.
Rahat yerin qəbir evi olsun.
Sabaha sələmət çıxmayasan.
Sahibsiz qalasan.
Salavat sənə qənim olsun.
Sarala-sarala qalasan.
Səni görüm axşama çıxmiyəsən.
Səni görüm ağlar qalasan.
Səni görüm əlin hər yerdən üzülsün.
Səni görüm xoş günə həsrət qalasan.
Səni görüm el üzünə, ev üzünə həsrət qalasan.
Səni görüm iki gözündən olasan.
Səni görüm ilan kimi mələyəsən.
Səni görüm balandan çəkəsən.
Səni görüm boya-başa çatmayasan.
Səni görüm oğul bəhrəsi yemiyəsən.
Səni görüm cavan öləsən.
Səni görüm dilin ağzında çürüsün.
Səni görüm sonsuz qalasan.
Səni görüm şadlığın şivən olsun.
Səni görüm qapılar açıb girmiyəsən.
Səni görüm qapı-qapı dilənəsən.
Səni görüm qapın üzüvə bağlı qalsın.
Səni görüm gün işığına həsrət qalasan.
Səni görüm lal olasan, lal öləsən.
Səni görüm mən deyən dərdə düşəsən.

Səni görüm nağafil gülləyə tuş olasan.
Səni görüm heç tərəfdən yerimiyəsən.
Səni görüm yaman dərdə düşəsən.
Səsin batsın.
Sözün ağzında qalsın.
Suyun durulmasın.
Suya həsrət qalasan.
Susuzluqdan dilin qabar töksün.
Şər qapundan uzaq olmasın.
Şivənun yerə-göyə sığmasın.
Şövkətun tar-mar olsun.
Taxıl üzü görmiyəsən.
Taxılın tayada çürüsün.
Taleyin üzünə gülməsin.
Tanışın Əzrayıl olsun.
Tazə ilə çatmiyəsən.
Təxtin alt-üst olsun.
Təklik təsəllin olsun.
Təndirin boşuna tüstülənsin.
Tifağın dağılsın.
Tikən boğazında qalsın.
Torpağın göyə sovrulsun.
Torpağında ot bitməsin.
Torpaq qənimin olsun.
Torpaq səndən uca dursun.
Toyun yasa dönsün.
Toyun yarımçıq qalsın.
Uğurun açılmasın.
Uğruva yamanlıq çıxsın.
Uğursuz öləsən.
Ulduzun sönsün.
Umduğuna əlin çatmasın.
Ulusun viran qalsın.
Umudun kəsilsin.

Umud əlin heç yana çatmasın.
Uşaq üzünə həsrət qalasan.
Uşaq üzü görmiyəsən.
Uşaq dağı ilə dağlanasan.
Uşaqların boya-başa çatmasın.
Uşaqların biri-birinin üzünü görməsin.
Ürəyin çərləsin.
Ürəyin vərəm bağlasın.
Ürəyindən qərə-qərə qanlar axsın.
Ürəyinə xal düşsün.
Ürəyinin başı yansın.
Üzün tüpürcəkli olsun.
Üzün qara olsun.
Üzün qibləyə dönməsin.
Üzünü mirdəşir yusun.
Üzüvə daş yapışsın.
Üzüvə sarı yara çıxsın.
Varın vayına qismət olsun.
Varın özüvə qismət olmasın.
Varından xeyir görmiyəsən.
Varın əlindən çıxsın.
"Vay" yaxandan əl çəkməsin.
"Vay"ın vaylara qarışsın.
Yaran sağalmasın.
Yarana məlhəm tapılmasın.
Yanar çırağın sönsün.
Yasdıqdan baş qaldırmayasan.
Yersiz, yurdsuz qalasan.
Yurdunda bayquş banlasın.
Zəhmətin zaya getsin.
Zəlil günə qalasan.

## ANDLAR

Adın Əliyə and olsun.
Allaha and olsun.
Allah haqqı.
Allah, sənə and olsun.
Allahın adına and olsun.
Allahın birliyinə and olsun.
And olsun o bizi yaradan Allaha.
And olsun o bizi yoxdan yaradan Allaha.
And olsun Hüseynin nahəqq tökülən qanına.
And olsun on iki imama.
And olsun yediğımız duz-çörəyə.
And olsun həqq-səlama.
And olsun Əlinin qəzəb oğlu Abbasa.
Atamın əziz canı üçün.
Atamın goru həqqi.
Atamın qəbrinə and olsun.
Balalarımın canına and olsun.
Balamın ölmüşünə.
Başuva and olsun, başun üçün.
Bir balamın canı üçün.
Bu qibləyə and olsun.
Bu bərəkətə and olsun.
Bu bərəkət gözümüzü tutsun.
Canımdan xeyir görməyim.
Cavan canıma and olsun.
Çörək gözümü tutsun.
Çörək, sənə and olsun.
Çörəyə həsrət qalmış olum.
Çörəyi ayaxlamış olum.
Dayımın ruhuna and olsun.
Dədəmin goruna and olsun.
Dədəmin əziz canı üçün.

Dədəmin əziz başı üçün.
Dünyaya kor baxım.
Evim-eşiyim talansın.
Evimə-eşigimə od düşsün.
Evimə səlamət çatmayım.
Evimə-eşigimə kor baxım.
Əbülfəzl Əbbas, sənə and olsun.
Əlinin zərbətlənən başına and olsun.
Əlinin həqq yoluna and olsun.
Əmdigim o həlal südə and olsun.
Əmimin əziz canı üçün.
Əziz canuva and olsun.
Əzizlərimin canına and olsun.
Getdigim beyitə and olsun.
Gözə görünməz Allaha and olsun.
Günü sabaha çıxmayım.
Həqiqətə and olsun.
Həzrət Abbas, sənə and olsun.
İki gözdən olum.
İnandığımıza and olsun.
İmanım yalan olsun.
İşığa kor baxım.
Qağamın qarasın geymiş olsun.
Qardaşımın əziz canı üçün.
Qardaşımın başı üçün.
Qıldığım namaza and olsun.
Qıldığım namaz belimdən vursun.
Qurana əl basım.
Quran həqqi.
Quran mənə qənim olsun.
Quran, sənə and olsun.
Quranı yandırmış olum.
Məscidi yıxmış olum.
Minbəri yandırmış olum.

Od-ocağa and olsun.
Oğlumun ölüsün görüm.
Oğlumun əziz canı üçün.
On iki imam haqqı.
O qiblə ərəbiyə and olsun.
Ölənlərimin göri həqqi.
Ölənlərimin ruhuna and olsun.
Öz canım üçün.
Özüm ölüm.
Səni and verirəm o Allaha.
Sənin başına and olsun.
Səni-məni yaradana and olsun.
Sənin o əziz canın üçün.
Şah çırağ, sənə and olsun.
Üzünə kor baxım.
Ürəyindəki niyyətə and olsun.
Yalan desəm axşama çıxmayım.
Yalan desəm, o bir balamın nəşini qucaqlayım.
Yalan desəm, bu işıqlı dünyaya kor baxım.
Yalan desəm canımdan xeyir görməyim.
Yalan desəm, dilim kəlmeyi-şəhadətə dönməsin.
Yalan desəm, dilim "La ilahə illəllah"a dönməsin.
Yalan desəm, Quran belimdən vursun.
Yalan desəm, Quran gözlərimi tutsun.
Yalan desəm, evimə sağ qayıtmayım.
Yalan desəm, ömrümdən xeyir görməyim.
Yalan desən, şirin canuva mürüd olasan.
Yalan desən, dilin qurusun.
Yalan desən, canından çəkəsən.
Yalan desəm, Quran sənə qənim olsun.
Yalan desən, xoş günə həsrət qalasan.
Yaradan, sənə and olsun.
Yedigimiz duz-çörəyə and olsun.
Yeri-göyü yaradan bir Allaha and olsun.

# III. SAYALAR, HOLAVARLAR

## SAYALAR

Salam əleyk, say bəylər.
Bir-birindən yey bəylər.
Saya gəldi, gördünüz,
Salam verdi, aldınız.
Alnı təpər quzunu,
Sayaçıya verdiniz.

Saya yaxşı sayadı
Yeri-yurdi qayadı.
Onun gözəl sözləri,
Yatanları oyadı.

Saya, saya sayalar,
Dağ döşündə qayalar.
Bu saya kimdən qalıb?
Ata-babadan qalıb.

Siz sayadan qorxmusuz,
Səfa yurda qonmusuz.
Səfa olsun yurdunuz,
Ulamasın qurdunuz.
Ac getsin avanınız,
Tox gəlsin çobanınız.

Bu saya yaxşı saya,
Hamıya yaxşı saya.
Həm çeşməyə, həm çaya,
Həm Ülkərə, həm Aya,
Həm yoxsula, həm baya.

Saya, saya, sayadan,
Damazlığı mayadan.
Bu saya kimdən qalıb,
Adəm atadan qalıb.
Adəm ata gələndə,
Musa çoban olanda.

Qızıl öküz duranda.
Hatəmlərin hatəmi.
Dağda çoban olanda,
Buğda sünbül salanda,
Dünya bünyad olanda,
Gün tərasın atanda.

Əzəl atasın deyim,
Sonra anasın deyim.
Qoyun var kərə gəzər,
Qoyun var kora gəzər,
Gedər dağları otlar,
Gələr evləri bəzər.

Kərəsini qoyunun,
Kürəsini qoyunun,
Aclıqdan biz gəzərik,
Çevrəsini qoyunun.

Qoyun baxar dağlara,
Sel tək axar dağlara.
Arandan dönən sürü,
Yayda çıxar dağlara.

Sürünün gözi qoyun,
Dolan gəl düzi, qoyun.
İldə bir əkiz gəti,
Sevindir bizi qoyun.

Dağlardan yendi qoyun,
Dolaşdı bəndi qoyun.
Süd-qaymağı bol elə,
Sevindir kəndi qoyun.

Nənəm, o şişək qoyun,
Nənəm, o qaşqa qoyun.
Minmisən eşqə qoyun,
Yeyən sənin ovcundan,
Çıxıbdı köşkə qoyun.

Nənəm qumral tat qoyun.
İldən ilə art, qoyun.
Balalar ölməkdədi,
Gəl, olma namərd, qoyun.

Nənəm o saçaq qoyun,
Bizlərdən qaçaq qoyun.
Sənə yaman baxanın,
Gözünə piçaq qoyun.

Nənəm o kurdi qoyun,
Otladı durdi qoyun.
Ay qaranlıq gecədə,
Görübdi qurdi qoyun.

Nənəm o ağbaş qoyun,
Qarlı dağlar aş qoyun.
Yağından pilov olur,
Quyruğundan aş qoyun.

Nənəm o qızıl qoyun,
Yollara düzül qoyun.
Kəsilməsin damazlıq,
Ömr elə yüz il qoyun.

Nənəm o nazlı qoyun,
Qırqovul gözlü qoyun.
Pendiri dilim-dilim
Qatığı üzlü qoyun.

Nənəm qaraqaş qoyun,
Qarlı dağlar aş qoyun.
Ay qaranlıq gecədə
Çobana yoldaş, qoyun.

Nənəm o gəlin qoyun,
Qalxıbdı telin, qoyun,
Yeyən sənin sayəndə
Gətirib gəlin qoyun.

Nənəm o qəmər qoyun,
Quzusu əmər qoyun.
Yeyən sənin sayəndə
Bağlayıb kəmər qoyun.

Nənəm o dəli qoyun,
Dolaşıb gəli qoyun.
Gəlinlər gözəlindən
Toxuyur xali qoyun.

Nənəm, qoyunun ağı,
Gedib dolanar dağı.
Otlar qara qiyası,
İçər sərin bulağı,

Acı olar dırnağı.
Dadlı olar qaymağı
Qarılar tutar yağı,
Gəlin yeyər quymağı.
İllaki qayqanağı,
Çobana vurar dağı,
Qızlara cehiz ağı,
Çobana çarıq bağı,
Uşağa bələk bağı.

Toxlu kəsən yad olar,
Çobana fürsət olar.
Sürüdən ayrı düşən,
Yüz qurda qismət olar.

Sürüdə var az qoyun.
Kef-damağı saz qoyun.
Çoban qurddan çəkinsə,
Çölə çıxanmaz qoyun.

Yerin dağ olsun, çoban,
Kefin çağ olsun, çoban.
Sürüni yaxşi saxla,
Üzün ağ olsun, çoban.

Açdım, yazılar gördüm.
Nə tamarzılar gördüm.
Çoban dağdan enəndə,
Çoxlu quzular gördüm.

Göydəki göy bulutlar,
Yorğanıdı çobanın.
Yastı-yastı təpələr,
Yastığıdı çobanın.

Yumri-yumri qayalar.
Yumruğudi çobanın,
Əlindəki dəgənək,
Qalxanıdı çobanın,
Yanındakı boz köpək,
Yoldaşıdı çobanın.
Ağzı qara canavar,
Düşmənidi çobanın.

Saya, saya, sayadan,
Qoyun gəlir qaydan.
Sayaçıya pay verin
Damazlığı mayadan.

Dağdan yenən sürüdi,
Dağı duman bürüdi.
Gəlin, südi az qaynat,
Qazanda süd çürüdi.

Qoyunun yüzi gəldi,
Dolandı düzi gəldi.
Çobanın qucağında
Bir əmlik quzi gəldi.

Can quzi, canım quzi,
Tüki çalar qırmızi.
Qonurdi onun gözi,
Biri gəlinin olsa,
Biri də çobanınki.

Sürünün gözi qoyun,
Dolan gəl düzi qoyun.
İldə bir cüt bala ver,
Sevindir bizi qoyun.

Nənəm, qoyunun özi,
Döşündə bəslər quzi.
Solunda yatar, buzlar,
Sağında baxıb gözlər.
Əli çanaqlı qızlar,
Qoyunun yolun gözlər.

Çoban, qoyunu gətir,
Oni bərəyə yetir.
Ağ biləkli gəlinlər,
Sağım-sağım desinlər
Bal qeymağı yesinlər.

Yeyər, yeyər gərnəşir,
Buynuz vurar döyüşür.
Buynuzi burma-burma
Qoyunsuz yerdə durma.

Qoyunlu evlər gördüm.
Qurulmuş yaya bənzər.
Qoyunsuz evlər gördüm,
Qurumuş çaya bənzər.

Qoyun deyər: "Mən heç otdan doymaram,
Payız oldu, çör-çöpünü qoymaram.
Hər bir evi yunum ilə bəzərəm,
Ağır-ağır xalılarım var mənim,
Gülli-gülli xalçalarım var mənim".

## HOLAVARLAR

Öküzüm birdi mənim,
Taleyim kordi mənim.
İki oldi öküzüm,
Qara çuxam durdi mənim.

Başına mən dolanım,
Mən dönüm, mən dolanım,
Ölmə, ölmə yazığam,
Kölgəndə mən dolanım.

Boynunu mən bağlaram,
Yaman gözü dağlaram.
Tez çək maral öküzüm
Dala qalsan ağlaram.

Telli mərcan, bizə gəl,
Dağdan yenib düzə gəl.
Dırnağının izilə,
Bu yerləri bəzə gəl.

Çəkən öküz mərd olur,
Çəkməyənə dərd olur,
Tənbəl öküz yiyəsi,
Xəcil olur, pərt olur.

Öküz boynun yağlaram,
Düşmən gözün dağlaram,
Şırımı dərin götü,
Səncə yonca bağlaram.

Qızıl öküzüm, yeri,
Qoyma şum qala geri.
İti tərpən, maralım,
Rəqiblər baxır bəri.

Bizim öküz, buz öküz,
Qoparıbdı toz öküz.
Alıb yerin canını,
Çıxsın yaman göz, öküz.

Öküz qayıtdı qaşdan,
Ay Allah, saxla daşdan.
Bədnəzər qabaqdadı,
Yolunu sal bu başdan.

Qara öküz aranda,
Çıxar gün qızaranda.
Handa murada çatar,
Torpaqdan bar alanda.

Öküzüm gedər işə,
Qorxuram bağrı pişə.
Nola bir bulut gələ,
Göydən yerə nəm düşə.

Öküzüm qoşa getdi,
Güc saldı, daşa getdi.
Cütün maçı qırıldı,
Zəhmətim boşa getdi.

Öküzlərim naz eylər,
Quyruq bular, toz eylər.
Hər axşam gün batanda
Kövşəndə pərvaz eylər.

## Heyvanların deyişməsi

Qoyun deyər mən heç otdan doymaram,
Payız oldu, çövrün-çöpün qoymaram.
Hər evi mən yunum ilə bəzərəm,
Ağır-ağır xalılarım var mənim,
Allı-güllü xalçalarım var mənim.

Keçi deyər adım Əbdülkərimdi,
Qavala çəkilən mənim dərimdi,
Üç ay qışdı, ona Allah kərimdi.
Şeytan-şeytan balalarım var mənim,
Qəlbi-qəlbi qayalarım var mənim.

Öküz deyər mən ağama nökərəm,
Üç ay qışı tövləsində bekaram.

Yaz olanda çayır-çəmən sökərəm,
Ağlı-qırmızılı buğda əkərəm,
Dəli-doli xərmənlərim var mənim,
Uca- uca tayalarım var mənim.

İnək deyər mən doğanda mələrəm,
Mələdikcə dağı-daşı dələrəm.
Qurutumu gündən günə sərərəm,
Çalxam-çalxam kərələrim var mənim,
Ceyran-ceyran danalarım var mənim.

Gamış deyər payız olcaq samanlığı doldurun,
Yaz olanda boyunduruğu yondurun,
Cütləməsəm, vurun məni öldürün,
Gölməşlərdə yataqlarım var mənim,
Ağ-ağ kərə, qatıqlarım var mənim.

Dəvə deyər heç heyvan götürməz mənim yükümi,
İgid oğlan istər çəkə ipimi,
Ərəbistan içər mənim südümi,
Uzaq-uzaq mənzillərim var mənim,
Dizi qeyim nəsillərim var mənim.

At deyər yel təkin göydə uçaram,
Yollar ötüb dağdan-dağa aşaram,
İgidlərlə bir arada yaşaram,
Pəhləvanlar kimi yiyəm var mənim,
Saraylara oxşar pəyəm var mənim.

Eşşək deyər mən hamıdan fəqirəm,
Palçığa batanda dağdan ağıram.
Çöldə qalsam, mən yiyəmi çağırram,
Kərənaydan yoğun səsim var mənim,
Atlarinan gəl-gedişim var mənim.

# IV. NAĞILLAR

## DÜNYA GÖZƏLİ İLƏ SARI İNƏYİN NAĞILI

Biri var idi, biri yox idi, qədim zamanlarda bir qız var idi, adı Fatmaxanım idi. Fatmaxanımın öz anası rəhmətə getmişdi. Atası ayrı bir arvad almışdı. Fatmaxanım ögey ananın əlində qalmışdı. Ögey ana Fatmaxanımla çox pis rəftar edirdi, deyirdi ki:

– İlanın acığı yarpızdan gedəndə, mənim acığım, ay qız, səndən gedir. Səni görməyə gözüm yoxdu.

Səhərdən axşama hər nə iş olsaydı, Fatmaxanıma gördürərdi. Bu arvadın qabaqkı ərindən bir qızı vardı ki, özüylə Fatmaxanımgilə gətirmişdi. Arvad öz qızına təmiz paltar geydirərdi və qoymazdı əlini ağdan qaraya vursun. Şam vaxtı bir az quru çörək qoyardı Fatmaxanımın qabağına və deyərdi:

– Burnundan gəlsin.

Amma öz qızına plov bişirərdi. Fatmaxanımın atası qorxaq və arvadağız bir kişi idi. Bunların bir sarı inəkləri var idi. Bu inək Fatmaxanımın anasının yadigarı idi. Bir gün ögey ana bir az pambıq, bir az kəpəkli çörək verdi Fatmaxanıma, dedi:

– Bu da naharın, apar pambığı əyir, sarı inəyi də çöldə otarginən.

Fatmaxanım sarı inəyi götürüb getdi çölə, məşğul oldu pambıq əyirməyə. Birdən güclü yel əsib pambığı Fatmaxanımın əlindən qapıb apardı. Fatmaxanım düşdü pambığın dalınca, dedi:

– Yel baba, qapazlarına qurban olum, mənim pambığımı aparma.

Yel pambığı aparıb, bir qarı arvadın evinə saldı. Bu dəmdə Fatmaxanım yetişdi, dedi:

– Nənəcan, yel pambığı gətirdi sənin evinə, icazə ver götürüm aparım.

Qarı dedi:

– Bərəkallah, qızım, sən də ədəbli qızsan, gəl, mənim başıma bax, gör mənim başım təmizdir, ya sənin ananın başı.

Fatmaxanım baxıb gördü qarının başı təmizdi, dedi:

– Sənin başın təmizdi.

Qarı dedi:

– Mənim kilimimin altına bax, gör mənimki təmizdir, ya sənin ananın kiliminin altı.

Fatmaxanım baxıb gördü kilimin altı doludu bör-böcək ilə. Amma demədi.

– Sənin kiliminin altı təmizdi.

Qarı dedi:

– Al, bu sənin pambığın, gedərsən, qabağına bir ağ su gələr, ağ suda çimərsən, sonra qara su gələr, qara sudan başına və qaşlarına yaxarsan, bir də qırmızı su gələr, qırmızı sudan dodaqlarına çəkərsən. Dalda eşşək anqırsa, dönüb dalına baxmazsan.

Fatmaxanım dedi:

– Baş üstə.

Gəldi gördü sarı inək qalan pambıqları kələf edibdir. İnəyi götürüb gəldilər. Fatmaxanım gördü qabağında üç cür su vardır. Fatmaxanım qarının dediklərinə əməl elədi, oldu ondörd gecəlik ay: gözəlliyi birə dörd artdı.

Fatmaxanımın ögey anası gördü Fatmaxanım gec gəldi. Durdu, çıxdı yola, gördü Fatma gəlir, nə gəlir, gözəlliyi yolu bürüyüb. Ögey ana az qaldı paxıllığından bağrı çatlasın. Bir yumruğ vurdu Fatmaxanımın başına, dedi:

– Torpaqlar səndən uca olsun, niyə gec gəldin?

Fatmaxanım başına gələn macəranı danışdı. Arvad özözünə dedi: "Sabahları öz qızımı göndərərəm inəyi aparar".

Səhər açıldı. Arvad durub plov bişirib, bir az da pambıq verdi öz qızına. İnəyi də çıxartdı ki, aparsın çölə. Arvad qızına dedi:

– İnəyi apar, Fatma aparan yerə.

Qız getdi, inəyi apardı çölə, yatıb yuxuladı. Yel gəlib pambığı götürüb apardı. Qız durub yelin dalınca düşüb getdi, dedi:

– Ay yel baba, qanadların sınsın, mənim pambığımı ver.

Yel pambığı apardı həmin qarının evinə. Qız yetişib dedi:

– Köpək, imansız, mənim pambığımı ver.

Qarı dedi:

– Yaxşı gəl, otur qızım, ədəbin olsun, gəl, mənim başıma bax, gör, mənim başım təmizdir, ya sənin ananın başı.

Qız baxıb dedi:

– Ay sənin başına kül olsun. Anamın başı təmizdi.

Qarı dedi:

– Gəl, bu sənin pambığın, gedərsən, qabağına üç cür su gələcək, ağ, qara, qırmızı. Qara suda çimərsən, qırmızı sudan başına çəkərsən, ağ suyu qaşlarına çəkərsən. Elə ki, eşşək anqırdı, dönüb dalına baxarsan.

Qız qayıtdı gəldi, gördü qabağına üç cürə su gəlir. Qarı dediyi kimi qara suda çimdi, ağ suyu qaşlarına çəkdi, qırmızı suyu başına tökdü, eşşək anqıranda dönüb dalına baxdı, eşşəyin başı ona yapışdı. Bədəni oldu qap-qara, bir qara itə oxşadı. Gəldi gördü sarı inək bir iş görməyib. Sarı inəyi götürüb gəldilər kəndə. Anası çıxmışdı qızının yoluna, gördü ondörd gecəlik ay əvəzinə bir qara heybətli meymun gəlir. Arvad vurdu başına, huşu getdi. Elə ki, huşa gəldi qızı ilə birlikdə gəldilər evə Fatmaxanıma kötək vurmağa ki, günah səndədi. Arvad dedi:

– Hər nə varsa, bu sarı inəyin əlinin altındadı.

Arvad özünü vurdu mərizliyə, nıq-nıq-nıqqıldadı, üz-gözünə sarı kök sürtüb yıxılıb yatdı. Axşam oldu, kişi gəldi, dedi:

– Arvad, nə işdi?

Arvad dedi:

– Kişi ölürəm, getdim həkimin yanına, dedilər tövlədəki inəyin əti sənin dərmanındı.

Kişi dedi:

– Bu ki, bir şey deyil, başını kəsərəm, sən yeyərsən.

Fatmaxanım ağladı, dedi:

– Dedi, mənim nənəmin yadigarıdı, gəl, bu inəyi öldürmə.

Kişi dedi:

– Olmaz, gərək sarı inəyin başını kəsəm.

Fatmaxanım gəldi sarı inəyin yanına dedi:

– Səni öldürəcəklər.

İnək dedi:

– Eybi yoxdu, əvəzində ətim sənin ağzında şirin olacaq, onların ağzında isə zəhər kimi. Fəqət sən sümüklərimi gətirib, mənim axurumda quylarsan, hər işin bərkə düşəndə gəlib mənə deyərsən, mən sənin istədiyini verərəm.

Elə ki, sarı inəyin başını kəsdilər, dərisini soyub, ətini pişirdilər, şam vaxtı olanda gətirib tökdülər qablara, qoydular qabaqlarına. Hansı qoydu ağzına, ət oldu zəhər. Amma Fatmaxanım ağız ləzzətilə doyunca yedi. Anası öləndən bəri doyunca çörək yeməmişdir. Arvad ətlərin hamısını Fatmanın qabağına qoyub dedi:

– Ye, irin, çirk yeyəsən.

Bir neçə gündən sonra padşah oğlunun toyu idi. Arvad qızını bəzədi ki, aparsın toya. Fatmaxanım dedi:

– Ay xanım, elə mən də sizinlə gəlim toya.

Arvad dedi:

– Az danış, ay ağzı yanmış, səni aparsam, abrım gedər, otur evdə.

Xülasə, arvad qızı ilə getdilər toya. Fatmaxanım gəlib axurda quyladığı sarı inəyin sümüklərini çıxarıb dərdini ona danışdı. Fövri bir ağ at, bir dəst paltar hazır oldu. Fatmaxanım paltarı geyib, atı minib, birbaşa toy evinə yola düşdü. Toy yerinə yetişən kimi girdi məclisə. Bütün arvadlar, qızlar, gəlinlər Fatmaxanımın paltarına, gözəlliyinə, uca boyuna mat qaldılar. Fatmaxanım dedi:

– Qızlar, icazə versəniz, mən bir az oynayacağam, tez çıxıb gedəcəyəm.

Fatmaxanım başladı oynamağa, bir cibi dolu idi gül ilə, bir cibi də dolu idi torpaq ilə. Gülləri səpdi qız-gəlinlərin başına, torpaqları da analığı və onun qızının gözlərinə səpdi.

Fatmaxanım qayıdıb çıxdı ağ atın üstünə, gəldi evə, məşğul oldu işləməyə. Elə ki arvadla qızı evə gəldilər, Fatmaxanım dedi:

– Həmişə toydan gələsiniz, deyin görüm nə var, nə yox?

Arvad dedi:

– Vallah, bir on dörd gecəlik aya bənzər qız gəldi, oynadı, gülləri səpdi arvadların üstünə, torpağı da bizim üstümüzə, qayıdıb getdi.

İkinci gün yenə də arvad öz qızı ilə durdular toya getməyə, Fatmaxanım dedi:

– Qoyun mən də sizlə gəlim, o gəlib oynayan qızı mən də görüm.

Arvad dedi:

– Ay ağzına yara çıxmış, lal qal, hər nə bəla başıma gəlir sənin bədşumluğundan gəlir, otur aşağı.

Fatmaxanım narahat olub oturdu. Arvad ilə qızı toya getməkdə olsun. Fatmaxanım gəldi sarı inəyin axuruna tərəf, onun sümüyünü çıxardıb dedi:

– Səndən qırmızı at, bir dəst ağ paltar istəyirəm.

Dərhal hazır oldu. Fatmaxanım atı minib, paltarları geydi, birbaşa toy evinə sarı getdi. Padşah oğlunun qaravaşları ilə qapıçıları Fatmaxanıma yol verdilər, o da toy məclisinə girdi. Arvadlar Fatmaxanımın paltarına, xüsusən göyçəkliyinə tamaşa elədilər. Fatmaxanım elə oturmamış başladı oynamağa. Oynayanda bir dəstə gül qızlara verib bir sıxım torpaq atdı analığı ilə qızının gözünə. Sonra qayıdıb, qırmızı atı minib aradan çıxdı, gəldi evə. Elə ki, arvadla qızı gəldilər evə Fatmaxanım dedi:

– Bu gün toyda nə oldu, nə olmadı?

Arvad dedi:

– Dünənki qız bir dəst ağ paltar geyib gəldi toya oynayıb, bizim gözümüzə torpaq, o birilərin üstünə gül səpdi, qayıdıb getdi.

Üçüncü gün yenə də arvadla qızı toya getdilər. Fatmaxanım yenə də sarı inəyin axuruna gedib mətləbini istədi. Bu səfər bir göy dəmir at hazır oldu, üstündə qızıl yəhər, üzəngiləri isə gümüşdən. Fatmaxanım bir dəst əlvan paltar, bir cüt qızıl başmaq geyindi, bir cibinə qızıl pul, bir cibinə kül tökdü. Qalxdı atın belinə, toya sarı at çapdı. Yetişdi, qızlar gördülər ki, bir qız girdi içəri. Fatmaxanım öz ürəyi istədiyi havayla başladı oynamağa. Cibindən bir sıxma qızıl çıxarıb səpdi qızların tərəfinə, bir sıxma kül də səpdi arvad ilə qızının gözünə. Sonra qayıdıb qalxdı göy dəmir atın belinə. Ayağını üzəngiyə qoyanda başmağının bir tayı düşdü hovuzun suyuna.

Fatmaxanım tez gəldi evə, onda gördü ögey ana ilə qızı gözlərini ova-ova gəlirlər. Fatmaxanım dedi:

– Danışın görək, bu gün nə oldu?

Arvad başladı Fatmaxanıma latayir-latayir sözlər deməyə.

Bu, burda qalsın, sizə kimdən xbər verim, padşahın kiçik oğlundan. O bir gün atını gətirdi hovuzda suvarsın. At hürküb geri qayıtdı. Padşah oğlu nökərlərə dedi:

– Axtarın, görün suyun içində nə var.

Axtardılar gördülər bir tay başmaq. Elə ki, padşah oğlu başmağın tayını gördü bir könüldən min könülə başmağın yiyəsinə vuruldu, dedi:

– Görün, bu başmaq kimin ayağının başmağıdı, onu gərək alasınız mənə.

Bütün şəhərləri axtardılar, tapmadılar. Gəldilər Fatmaxanımın yaşadığı kəndə. Hamının ayağını imtahan elədilər, başmağın yiyəsini tapmadılar. Gəldilər Fatmaxanımgilin evinə. Arvad xəbərdar olub, başa düşdü hali-qəziyyə nədi. Fatmaxanımı tutub saldılar təndirə, duvağı qoydular ağzına. Bu tərəfdən padşahın oğlunun məmurları eşitdilər, amma arvad yalnız öz qızını nişan verdi. Başmağı onun ayağına imtahan eləyib gördülər olmur. Dedilər:

– Daha ayrı qızın yoxdu?

Arvad dedi:

– Qızım elə budu ki, var.

Məmurlar ilə kənizlər istədilər qayıtsınlar. Birdən birə xoruz banlayıb dedi:

– Quqquluqu, Fatmaxanım təndirdədi, ayaqları kuflədə, gözləri qan-yaş tökür.

Kənizlər dedilər:

– Arvad, bu xoruz nə deyir?

Arvad xoruza bir təpik atıb, dedi:

– Heç-zad, bu qırılmışlar dən istəyir.

Xoruz yenə başladı oxumağa:

– Quqquluqu! Fatmaxanım təndirdə,
Ayaqları kuflədə,

Dizi üstə naxış tikir,
Gözləri qan-yaş tökür.

Kənizlər duvağı götürdülər, gördülər dan ulduzuna oxşar bir qızdı, yanaqları bənövşə gülü kimi, tellərini töküb aya oxşar buxaqlarının dövrəsinə. Başmağı geydirdilər, gördülər ki, axtardıqları nazənin buradadı. Çox şad oldular. Kənizlər padşah oğluna müjdə verdilər, sən istəyən qızı tapmışıq. Padşah oğlu hökm elədi yeddi gün, yeddi gecə toy tutsunlar. Gəlin çıxan günü ögey ana yenə də Fatmaxanımı tutub saldı təndirə, öz qızını bəzəyib-düzəyib gəlin çıxartdı, dedi:

– Qızımı özüm aparacam gərdək otağına.

Elə ki, istədilər Fatmaxanımın yerinə ögey ananın qızını aparsınlar xoruz yenə də banladı:

– Quqquluqu! Fatmaxanım təndirdə,
Ayaqları kuflədə,
Dizi üstə naxış tikir,
Gözləri qan-yaş tökür.

Padşah oğlunun kənizləri Fatmaxanımı götürüb apardılar. Ögey anasını da bağladılar atın quyruğuna, buraxdılar çölə.

Padşah oğlu ilə Fatmaxanım uzun illər ömür sürdülər, yeddi oğlan, iki qız sahibi oldular…

Su içdi yerə keçdi,
Sən sağ, mən də salamat.

*Söyləyən: Həyat nənə; Toplayanı: Bəxtiyar Nüsrət.*

## DÜNYA GÖZƏLİ

Biri var idi, biri yox idi, Əhməd adlı bir kasıb kişi var idi. Gedərdi çöllərdən tikan qırardı, dalında bazara aparıb, beş şahıya verərdi. Beş şahını da verib çörək alardı. Çox çətinliklə bir çətən külfətini dolandırardı. Kişi canından lap bezmişdi.

Bir gün yenə tikan qırmışdı, bazara aparırdı.

Yolda bərk yorulub dedi:

– Ay ilahi, tikan şələsi mənim belimi yağır eləyib. Mən neyləyim? Bir ölüm də yoxdu, ölüm, canım qurtarsın.

Kişi uzanıb şələsinin yanında yuxuya getdi. Bu zaman bir quş gəlib, onun şələsində yumurtdadı. Yumurta çox gözəl idi.

Kişi yumurtanı padşah oğluna göstərib, dedi:

– Bu qəşəng yumurtanı satıram.

Şahzadə yumurtanı alıb baxdı, gördü bu ləldi, heç qiyməti yoxdu.

Kişi elə bildi ki, şahzadə zarafat eyləyir, dedi:

– Dörd yüz tüməndən aşağı verməərəm.

Şahzadə dörd yüz tümən verib yumurtanı aldı, dedi:

Belə yumurta əlinə düşəndə gətirib mənə verərsən.

Hər gün quş gəlib onun şələsinin üstündə yumurtlayırdı, o da aparıb padşahın oğluna dörd yüz tümənə satırdı.

Get-gedə kişi varlandı, böyük adam oldu. O, bütün dünya bazarlarına gedib alver edirdi. Bir gün quş gəlib onun şələsində yumurtlayanda kişi quşu tutub evinə apardı. Kişi səfərə çıxmaq fikrinə düşdü. Arvadına dedi:

– Arvad, quşun yumurtalarını gündə aparıb, şahzadəyə satarsan, hər yumurtaya dörd yüz tümən verəcək.

Kişinin adı Məmməd idi. Məmməd səfərə çıxdı. Hər gün quşun yumurtasını şahzadəyə arvad aparırdı. Bir gün, iki gün, axırda arvad şahzadəyə vuruldu. Bir gün ürəyini açıb ona söylədi:

– Şahzadə, sənə vurulmuşam, gərək mənlə başbir olasan.

Şahzadə dedi:

– Quşu kəsərsən, ürəgini, böyrəklərini yeyim, sonra səninlə başbir olum.

Arvad razı oldu. Evə gəlib quşun başını kəsdi, plovu dəmə qoyub getdi şahzadəni çağırmağa. Uşaqları qazanın ağzını açıb quşun ürəyini və böyrəklərini yedilər. Bəli, arvad şahzadəni gətirdi. Plovu çəkib süfrəyə düzdü. Şahzadə yeməyə başlayanda baxdı ki, quşun ürəyi, böyrəkləri yoxdu. Arvaddan soruşdu, uşaqlar dedilər:

– Biz yedik.

Şahzadə ayağı qalxıb, dedi:

– Uşaqları öldürərsən, qarınlarından quşun ürəgini, böyrəklərini çıxardarsan, yeyərəm sonra səninlə başbir olaram.

Arvad buna razı oldu. Söz verdi ki, gecə yatanda uşaqları öldürsün. Uşaqlar bunu eşitdilər. Gecə düşən kimi qaçıb, başqa bir padşahın ölkəsinə getdilər. Bunlar bir qəbiristanlıqda yatmaq istədilər. Böyük oğlan Əhməd qardaşı Hümməti burada qoydu. Şəhərə çörək almağa getdi. Gördü adamlar bir yerə toplaşıblar. Bu da getdi, gördü şəhərin padşahı ölüb, onun üçün dövlət quşu uçururlar. Dövlət quşu kimin başına qonsa, onu padşah qoyacaqlar.

Dövlət quşunu buraxdılar. Quş gedib dövrə vurdu, aşağı enib Əhmədin başına qondu. Əhmədi döyüb qovdular. Quşu bir də uçurdular. Quş yenə gəlib Əhmədin başına qondu. Axırda onu bir dama salıb qapını bağladılar. Quşu uçurdular. Quş bacadan girib, damda Əhmədin başına qondu. Soruşdular, gördülər bu oğlan özü də padşah olmaq istəmir. Gətirib onu padşah qoydular. Padşah olandan sonra qardaşı tamam yadından çıxdı. O qəbiristanlıqda qalan qardaşı Əhmədi gözlədi, o gəlib çıxmadı. Əlacsız qalıb yola düşdü. Üç gün yol gedəndən sonra şəhərə çıxdı. Şəhərin bazarına getdi. Bazarda olanlar hamı dağılıb getdi. Bu tək qaldı. Bunu bir tacir gördü. Tacir gördü bu, qərib adamdı, evinə qonaq apardı. Oğlan başına gələni tacirə nağıl elədi. Tacir onu oğulluğa götürdü. Bunun ayağı tacirə düşdü. Tacirin qazancı gün-gündən artmağa başladı. Oğlanın başının altından hər gecə bir kisə qızıl çıxırdı. Oğlan qırx gecənin qırx kisə qızılını götürdü, tacirdən də çoxlu qızıl aldı. Bir başqa şəhərdə bir dükan açdı. Bir gün ona dedilər, filan yerdə bir dünya gözəli var. O, üzünün bir tərəfini göstərir, hər kim baxsa, yüz tümən verir. Oğlan hər gün gedib dünya gözəlinin bir üzünə baxır, yüz tümən verirdi.

Dünya gözəli məəttəl qalır ki, bu necə işdi, bu kimdi ki, gündə mənə yüz tümən verir, yenə qurtarmır. Bir gün oğlan yenə gəldi, yüz tümən verib qızın üzünə baxanda, qız onu evinə apardı. Oğlan baxdı ki, doğurdan da bu dünya gözəli imiş. Qız ondan soruşdu:

– Bu qədər variyyəti hardan alırsan?

Oğlan dedi:

– Bir quşun ürəyini yemişəm, hər yatıb duranda başımın altında bir kisə qızıl olur.

Dünya gözəli ona elə yemək verdi ki, oğlan quşun ürəyini qusdu. Dünya gözəli o saat ürəyi götürüb uddu. Dünya gözəli hər yatıb duranda başının altında bir kisə qızıl olurdu. Oğlan heç tacirin evinə də getmədi, baş götürüb şəhərdən çıxdı. Bir səhraya çatıb gördü ki, üç dərviş üç şey üstündə vuruşurlar. Oğlan dedi:

– Bu nə şeydi ki, üstündə dava eləyirsiniz?

Ona dedilər:

– Şərrimizi sən kəs, kim bu xalçanın üstündə oturub, "həzrəti-Süleyman eşqinə" deyib, haranı istəsə, xalça uçar, hara istəsə onu ora aparar. Fəsi başına qoyub, hər kəsi qamçı ilə vursan, nə desən, o, olar. Süfrəni də açsan, bütün nemətlər üstündə düzülmüş olar.

Oğlan dedi:

– Mən üç ox ataram, hər kəs oxu tez götürüb qayıtsa, istədigi şeyi götürər.

Dərvişlər razı oldular. Oğlan üç ox atdı, bunlar oxun dalısınca yürüşəndə oğlan xalçanı açıb, şeyləri də götürüb, xalçanın üstündə oturub dedi:

– Həzrəti-Süleyman eşqinə, dünya gözəlinin evinə apar.

Xalça göyə qalxdı, onu dünya gözəlinin evinə apardı. Dünya gözəli xalçanı əl-dil ilə Hümmətdən alıb dedi:

– Gəl üstündə oturaq, səyahətə çıxaq.

Hər ikisi xalçanın üstündə oturdular. Dünya gözəli dedi:

Həzrəti-Süleyman eşqinə, dəryanın ortasında cəzirədə olaq. Xalça göyə qalxıb, onları dəryanın ortasında olan cəzirəyə apardı.

Gecə oldu, Hümmət yıxılıb yatdı. Dünya gözəli onun yuxuya getdiyini gördü. Fürsət tapıb, xalçanın üstündə oturub dedi:

– Həzrəti-Süleyman eşqinə, öz evimdə olum.

Xalça göyə qalxıb onu öz evinə gətirdi. O biri tərəfdən Hümmət ayılıb gördü qız yoxdu, xalça da, hər tərəf vəhşi hey-

vandı. Gəzib dolandı, gördü bir alma var. Almadan birini dərib yeyən kimi buynuz çıxartdı, heyvanlar ondan qorxub, səmtinə getmirdilər. Bir qədər getdi gördü ki, gülövşə nar var. Nardan birini yeyən kimi buynuzları düşdü. Bir taxta parçası tapıb dəryaya saldı, üstünə minib kənara çıxdı. Dəryadan çıxandan sonra yola düşüb, düz dünya gözəlinin evinə gəldi. Dünya gözəli işvə-naz atıb, onun könlünü aldı, dedi:

– Səni sınayırdım ki, görəm məni ürəkdən sevirsən?

Hazırlaşırdım bu saat geri qayıdıb, cəzirəyə gələcəkdim.

Amma Hümmət ona inanmadı. Bir alma verdi, qız uzun buynuzlar çıxartdı. Dünya gözəli ağlaya-ağlaya dedi:

– Amandı, Hümmət, məni biabır eləmə, bir çarə elə buynuzu sal.

Hümmət dedi:

– Süfrəni, xalçanı, fəsi, bir də qamçını ver, buynuzlarını salım. Dünya gözəli bu şeyləri ona verdi, oğlan dedi:

– Ürəyi də qus, buynuzları salım.

Qız qusdu, quşun ürəyi gəlib düşdü. Hümmət o saat ürəyi götürüb uddu, qıza bir nar verdi. Qız narı yeyən kimi buynuzları düşdü. Qız birdən qaçıb xalçanı götürmək istədi. Oğlan tez fəsi başına qoyub, dünya gözəlinə bir şallaq vurub dedi:

– Ay tazı, neyləyirsən?

Dünya gözəli bir tazı olub küçəyə düşdü. İtlər onu o qədər boğdular, taqəti qalmadı. Canı tamam yara oldu.

Tazı sülənə-sülənə padşahın barigahının qabağına getdi. Nə qədər döydülər getmədi. Nə qədər tilsimkar, rəmmal var idi, topladılar. Heç biri tazının çıxıb getməyinin səbəbini bilmədi. Şah hər yerə elan verdi, kim tazının məndən nə istədigini bilsə, dünya malından onu qane edəcəyəm. Hümmət bunu eşidib gəldi, dedi:

– Şah sağ olsun, bu dünya gözəlidi. Tazı şəklinə düşüb. Padşah təəccüb eləyib dedi:

– Bu niyə tazı olsun?

Hümmət bütün əhvalatı mən sizə nağıl elədiyim kimi, başdan-ayağa padşaha nağıl elədi. Əhməd padşah baxdı ki, bu, öz qardaşı

Hümmətdi. Öpüşüb görüşdülər. Hümmət bir çubuq vurub qızı öz halına gətirdi. Elə bil gün buludun altından çıxdı. Hamının gözü qamaşdı. Əhməd şah qırx gün, qırx gecə toy elədi. Dünya gözəlini qardaşı Hümmətə aldı. Onlar yaşayıb dövran keçirdilər.

## BACI-QARDAŞ İLƏ DİV

Biri varmış, biri yoxmuş, bir qoca kişi varmış, onun bir qızı, bir oğlu varmış. Qoca hər gün gedir üç qardaş divin anbarından bir dağarcıq darı gətirər, onunla keçinərmişlər.

Bir gün divlərdən biri anbara baş çəkir, görür, oho, anbar yarıdan keçib. Gəlir qardaşlarına xəbər verir. Onlar belə qərara gəlirlər ki, hər gecə bir qardaş anbarda keşik çəksin. Püşk atırlar, əvvəl böyük qardaşa düşür. Böyük qardaşı yuxu aparır, kişini tuta bilmir. Ortancıl qardaş gecə yarısına kimi bir təhər oyaq qalır, lakin gecə yarısı onu da yuxu aparır, o da kişini tuta bilmir. Növbə kiçik qardaşa çatır. Deyirlər kiçik qardaş xəsis olur, yuxu aparmasın deyə barmağını kəsib, yerinə duz tökür. Barmağının göynəməsindən yata bilmir. Gecə yarıdan keçəndə qoca gəlir. Darını dağarcığına yığanda div bunu tutur, "Səni yeyəcəyəm" – deyir.

Deyirlər, can şirindir. Qoca divə deyir:

– Məni yemə, sabah gələrsən, bir qızım var, bir oğlum, verərəm, yeyərsən.

Div qəbul edir. Qoca evlərinə gedir. Qızı ilə oğluna deyir ki, sabah div gəlib sizi yeyəcək.

Bacı-qardaş qol-boyun olub, səhərə kimi ağlayırlar. Bacı qardaşına deyir:

– Divlər gəlməmiş, başımı yuyum.

Başını yuyanda divlərin nəriltisini eşidirlər. Bacı deyir:

– Qardaş, darağı, gili, suyu götür, qaçaq.

Onlar qaçırlar. Qardaşı deyir:

– Bacı, divlər yetişir.

Bacı deyir:

– Suyu at.

Su bir dəniz olur. Div dənizi keçənə kimi bunlar bir az aralanırlar. Bir az getdikdən sonra qardaş deyir:

– Bacı, divlər yetişir.

Bacı deyir:

– Gili at.

Gil bir dağ olur. Divlər dağı aşana kimi bunlar bir az aralanırlar. Bir az getdikdən sonra yenə qardaşı deyir:

– Bacı, divlər yetişir.

Bacı deyir:

– Darağı at.

Daraq bir qamışlıq olur. Divlər qamışlara sancılıb qalırlar.

Onlar gedib bir bulaq başına yetişirlər. Bir az su içirlər. Oğlan bir ov vurur yeyirlər.

Qardaş hər gün ov vurmağa gedir, bacı isə bulağın başında otururdu. Bulağın yanında bir çinar ağacı var idi. Qız bir gün dedi:

– İlahi, nə olaydı bu çinar ağacı başını yerə qoyaydı, mən çıxaydım, onun başına.

Çinar ağacı başını yerə qoydu, qız ağaca çıxdı. Beləliklə, qardaş ova gedəndə qız ağaca çıxır, qardaş ovdan gələndə isə qız ağacdan düşürdü, yeyib içirdilər.

Bir gün şahın kənizi bulaqdan su aparmağa gəlmişdi. Bulağın suyuna düşmüş bir gözəlin əksini gördü. Elə bildi özüdür. "Kül mənim başıma"– dedi:– bu qədər gözəl ola-ola niyə şaha kənizlik edim? Vurdu küzəsini sındırdı. Sabah bir ayrı küzə verdilər, onu da sındırdı. Nəhayət, ona dəmir küzə verdilər. Onu da vurub dəlmək istəyirdi. Qız çinarın başından: "Ay yazıq, o, sənin əksin deyildir, özünü üzmə, mənim əksimdir". Kəniz başını qaldırdı çinarın başında bir qız gördü, nə qız, aya deyir, sən çıxma, mən çıxım, günə deyir, sən çıxma, mən çıxım, həb yerinə atsan, noğul yerinə atsan, yeddi ildən sonra nəşəsi atanın evini yıxar. Qayıdıb macəranı şaha dedi. Şah əmr etdi ki, onu gətirsinlər. Gəldilər qıza dedilər. Qız çinardan enmədi. Şahın əmri ilə əli baltalı, əli mişarlı getdilər ki, ağacı kəsib, qızı

gətirsinlər. Səhərdən axşama kimi əlləşdilər, ağacı yarıya qədər kəsib qayıtdılar. Ertəsi gün qalanını kəsməyə gəldilər. Ağac bitişmişdi. Qayıdıb bu işin qeyri-mümkün olduğunu şaha yetirdilər. Şah çıxış yolu axtarırdı.

Bir qarı dedi:

– Mən gətirərəm.

Şah dedi:

– Onu gətirsən, nə istəsən verərəm.

Qarı bir xonçaya daşlı, torpaqlı düyü qoyub, gəldi bulaq başına, başladı arıtmağa. Düyünü arıta- arıta gözünün yaşını min yerdən tökdü. Çinarın başında qızın ürəyi od tutub yandı. Ordan dedi:

– Ay, qarı nənə, niyə ağlayırsan?

Qarı dedi:

– Aman-gümanda bircə oğlum var idi, o da öldü. Ona ehsan vermək istəyirəm, gözüm yaxşı seçmir, düyünü arıdım. Ürəgim yanır, ağlayıram.

Qız öz-özünə dedi: – "İlahi, nə olaydı, bu çinar ağacı başını yerə qoyaydı, mən qarıya kömək edəydim".

Allahın əmri ilə çinar başını yerə qoydu. Qız düşüb gəldi qarıya kömək eləsin. Qarı qızı küpəyə salıb apardı. Şah qızla evləndi. Amma qız həmişə kədərli idi. Şah bunun səbəbini soruşdu.

Qız, dedi:

– Niyə olmayım, mən burada, sarayda kef çəkirəm, qardaşım isə meşədə-bayırda ac-yalavac dolanır.

Şah əmr etdi onun qardaşını gətirtdirdi. Həmişə xörəyin başı qardaşa gedir, əl-artığını şah yeyirdi.

Şahın kənizi qızın paxıllığını çəkir, onu öldürüb öz qızını şaha vermək istəyirdi. Bir qəsd planı hazırlayıb qızına öyrətdi. Qızı bir gün şahın arvadına dedi:

– Niyə özünü ev dustağı etmisən? Gəl bir çıxaq dəniz qırağını dolanaq.

Şahın arvadı razılıq verdi. Çıxdılar dəniz qırağına. Kənizin qızı ona dedi:

– Burda heç kim yoxdu, paltarını ver mən geyim, görüm yaraşırmı?

Şahın arvadı sadə idi. Qəbul etdi, öz paltarını kənizin qızına geydirdi. Kənizin qızı onu itələyib saldı dənizə. Naqqa balığı onu uddu. Kənizin qızı o paltarla qayıtdı. Bu işi heç kim bilmədi. Bir- iki gün keçdi, oğlan gördü qabaqca xörəyin başı ona gəlirdi, indi isə əl-artığı gəlir. Öz- özünə düşündü ki, bacımın başına nə gəlibsə, dəniz qırağına gedib. Getdi dəniz qırağına. Ağlayıb sıtqadı:

– "İlahi, bu sirri mənə aç " – deyə Allaha yalvardı. Naqqa balığı başını sudan çıxartdı. Balığın qarnından bir səs eşidildi:

– Məni dəryaya atıblar,<br>
Naqqa balıq udubdur,<br>
Şah oğlu Şah İsmayıl qucağımda yatıbdır,<br>
Bir birçəyi qızıl, bir birçəyi gümüş.

Beləliklə, qardaş hər gün dəniz qırağına gəlir, bacısı ilə danışırdı. Digər tərəfdən şah gördü bunun arvadının əxlaqı dəyişib, qabaqkı gözəl, ədəb-ərkanlı arvad deyil. Bu arvad elə bil heç adam görməyib? Qaynını çağırtdırıb, əhvalatı ona danışdı. O, macəranın üstünü açdı. Şah dalğıc göndərdi. Onlar naqqanın qarnından şahın arvadını çıxartdılar. Bir oğlu da olmuşdu. Şahın əmri ilə kənizin qızını atın quyruğuna bağladılar, itləri küşkürtdülər. At götürüldü. Qızı o daşa, bu daşa çırpıb öldürdü. Onlar isə illər boyu xoş günlərlə yaşadılar, mən də sizə xəbər gətirdim.

## QARA ÇUXA

Günlərin bir günündə yoxsulluqdan, qara gündən cana gəlmiş bir kişi qərara gəldi ki, gedib qara çuxasını tapsın. Bir az sudan, çörəkdən götürüb yola düşdü. Getdi, getdi yolun üstündə bir qurda rast gəldi. Qorxdu, dolanıb ayrı tərəfdən getmək istədi. Lakin qurd gücü-billah ilə başını qaldırıb "qorxma"– dedi, – səninlə işim yoxdu.

Kişi qurdun yanına getdi. Qurd dedi:

– Hara gedirsən?

– Qara çuxamın dalınca.

– Onu tapsan, mənim də müşkülümü ona yetir, başım çox ağrıyır. Soruş, gör, bunun dərmanı nədi?

Kişi qəbul edib, ondan ayrıldı. Getdi, getdi bir əkinçiyə yetişdi. Əkinçi yer şumlayırdı. Ona salam verib “Yorulmayasan” – dedi. Əkinçi onun hara getdiyini soruşdu. O dedi:

– Qara çuxamı tapmağa.

– Onu tapsan, mənim də müşkülümü de, bu yerə nə qədər qulluq edirəm, heç nə yetirmir. Gör, bunun səbəbi nədi?

Kişi qəbul edib ondan ayrıldı. Getdi, getdi, gördü bir şah harasa ordu çəkir. Şaha salam verdi. Şah ondan hara getdiyini soruşdu.

Kişi dedi:

– Qara çuxamı tapmağa.

– Onu tapsan, mənim də müşkülümü yetir. Mən hansı padşahla döyüşürəm, axırda məğlub oluram. Soruş, gör, bunun səbəbi nədir?

Kişi qəbul edib ayrıldı. Getdi, nəhayət qara çuxasını tapdı, öz vəziyyətini, yolda başına gələn macəranı ona danışdı. Qara çuxa dedi:

– Şaha deyərsən “Sənin döyüşlərdə məğlub olmağın ona görədir ki, qadınsan!”. Əkinçiyə gəldikdə isə ona deyərsən ki, o yerin altında qızıl var, onu çıxarsa əkini yetirər. Qurda deyərsən ki, onun baş ağrısının dərmanı bir axmağın beynidi, onu yesə başının ağrısı keçər.

Kişi dedi:

– Bəs mən nə etməliyəm?

– Sənin baxtını açmışam, get, işin düzələr.

Kişi qara çuxadan ayrılıb qayıtdı. Gəlib şaha yetişdi. Döyüşlərdə məğlub olmasının səbəbini söylədi. Şah dedi:

– Düzdür, mən qadınam, gəl məni al, sən şah ol, mən sənin arvadın olum.

Kişi:

– Yox, mənim şah olmağa ehtiyacım yoxdu, artıq qara çuxamı tapmışam- deyib, ayrıldı.

Gəlib əkinçiyə yerin altındakı xəzinədən xəbər verdi. İkisi köməkləşib yeri qazdılar, qızılı çıxartdılar. Əkinçi təklif etdi ki, "Gəl, bu qızılı bölək. Sən nə qədər istəyirsən götür". Kişi "Yox, mənim qızıla ehtiyacım yoxdur, artıq qara çuxamı tapmışam" - deyib, ondan ayrıldı. Gəlib qurda çatdı. Qurd dedi:

– Hə. Nə oldu, baş ağrımın dərmanını öyrənə bildinmi?

– Öyrəndim, onun dərmanı bir axmaq adamın beynidi.

Qurd onun başına gələn macəranı soruşdu. Kişi bütün əhvalatı danışdı. Qurd bir az fikirləşdikdən sonra dedi:

– Mən baxıram, dünyada səndən axmağı yoxdu. Baxtına çıxan nə şahlığı qəbul etmisən, nə də qızılı bölmüsən. Səndən axmağını tapmaq olmaz.

Qurd bu sözü deyib, cumub kişinin beynini yedi.

## MƏLİK CƏMİLİN NAĞILI

Biri var idi, biri yox idi, bir padşahın üç oğlu var idi. Böyük oğlunun adı Məlik Məmməd, ortancılın adı Məlik Cəmşid, kiçik oğlunun adı isə Məlik Cəmil idi. Bir gün padşah xəstələndi. Öləcəyi ayan oldu, oğlanlarını cəm elətdirib onlara vəsiyyət elədi, dedi:

– Mən öləndən sonra üç gecə mənim qəbrimin üstündə keşik çəkərsiniz.

Padşah vəsiyyət eləyib canını oğlanlarına bağışladı. Oğlanları onu kəfən-dəfn elədilər, matəm saxladılar. Bəli, gecə araya gələndə, Məlik Cəmil atalarının vəsiyyətini qardaşlarının yadına saldı. Heç biri qarovul çəkmək istəmədi. Məlik Cəmil özü oxunu, yayını, qılıncını götürüb gəldi atasının qəbrinin üstünə. Başladı qarovul çəkməyə. Gecənin bir vaxtında gördü ki, bir qaraltı, qaradonlu budu nərə çəkə- çəkə gəlib dedi:

– Ey padşah, taxtın tarac olsun, yəhərin qanlı olsun, bu saat gəlib, qəbrində sənə cəza verəcəyəm.

Məlik Cəmil bu sözü eşitcək, bir ox kamana qoyub bunu nişan aldı. Ox kamandan çıxanda atlının sinəsindən dəydi, onu atdan yerə saldı. Məlik Cəmil yüyürüb onun başını kəsdi, paltarlarını soyundurdu, paltarları götürdü. Atını minib evinə qayıtdı. Atı mehtərə tapşırıb dedi:

– Bunu elə bir yerdə saxla ki, qardaşlarımın bu atdan xəbəri olmasın.

Mehtər atı aparıb, xəlvət yerdə saxlamaqda olsun, ikinci gün oğlan yenə atasının qəbri üstündə qarovul çəkməyə getdi. Yenə həmin sözləri deyə-deyə ağ geyinmiş ağ atlı bir adam gəldi. Məlik Cəmil onu da öldürdü. Paltarlarını, atını götürdü. Atı gətirib mehtərə tapşırdı, dedi:

– Bunu da o atın yanında saxlarsan.

Məlik Cəmil üçüncü gecə qarovul çəkməyə gedəndə gördü bir qırmızı geyinmiş, qırmızı ata minmiş bir atlı gəldi. Məlik Cəmil bunu da öldürdü. Paltarını soyundurub götürdü, atını da aparıb mehtərə verdi ki, saxlasın.

Ataları öləndə bir vəsiyyət də eləmişdi:

– Mən öləndən qırx gün sonra üç dərviş gələcək. Qızlarımın hər birini dərvişlərin birinə verərsiniz.

Qırx gün tamam olanda atalarının söylədiyi dərvişlər gəldilər. Böyük qardaşla ortancıl qardaş heç dərvişlərin üzünə də baxmadılar. Məlik Cəmil atalarının vəsiyyətlərinə əməl eləyib bacılarını dərvişlərə verdi. Dərvişlər qızları götürüb öz vilayətlərinə qayıtmaqda olsunlar, sizə kimdən xəbər verim?

Qonşu padşahın üç gözəl qızı var idi. Padşah qırx arşın enində, beş arşın dərinliyində bir xəndək qazdırıb hər yerə xəbər göndərmişdi ki, hər kəsin atı bu xəndəkdən tullansa, qızlarımın birini ona verəcəyəm.

Vədə günündə padşah xəndəyin yanında taxtını qurdurdu, vəzir, vəkil, qızları da yanında əyləşdilər. Hər şəhərdən cavan oğlanlar, şahzadələr atlarını buraya topladılar. Məlik Məmməd ilə Məlik Cəmşid də atlarına minib burada hazır dayanmışdılar. Məlik Cəmil isə qardaşlarından xahiş eləmişdi onu da aparsınlar. Amma

qardaşları onu aparmadılar. Qardaşları gedəndən sonra Məlik Cəmil paltarını dəyişib, atasının birinci düşmənindən soyundurduğu qara libası geyib, qara ata minib həmin mərəkəyə gəldi.

Toplaşanlar atlarını nə qədər çapırdılarsa, biri də xəndəkdən sıçraya bilmirdi. Hamısı xəndəyin ortasına düşürdü. Bir də baxıb gördülər ki, qara libas geymiş, qara ata minmiş bir oğlan, budur, yel kimi gəlir. Qara libas geyinmiş oğlan ata bir mahmız vurub xəndəyi quş kimi sıçradı. Xəndəyin o tayında atını padşahın qızlarının yanına sürdü. Qızların birini tərkinə çəkdi, atı qovub gözdən itdi. Bunun kim olduğunu heç kim bilmədi.

Ertəsi gün yenə padşah əyan, əşrəfi topladı, qızları da yanında. Şahzadələr ha atlarını çapdılar, heç birinin atı xəndəkdən sıçraya bilmədi. Məlik Cəmil atasının qəbri üstündə qarovul çəkəndə ələ keçirdiyi ağ libası geyindi, ağ ata minib meydana gəldi. Atı covlana gətirib, quş kimi xəndəkdən sıçratdı, qızın birini də götürüb getdi.

Üçüncü gün yenə padşah dəstəsilə xəndəyin ətrafına gəldi. O istəyirdi ki, qızlarını aparanları bilsin. Yenə də şahzadələrdən heç biri atını xəndəkdən tullada bilmədi. Məlik Cəmil qırmızı paltarı geyindi, qırmızı ata minib gəldi, atı xəndəkdən yel kimi tullatdı, padşahın üçüncü qızını götürüb getdi. Bunun kim olduğunu heç kəs bilmədi. O biri qardaşları isə əliboş, kor-peşiman evlərinə qayıtdılar.

Gecə araya gələndə Məlik Cəmil qardaşlarına dedi:

– Siz atamızın vəsiyyətinə əməl etmədiniz, mən əməl elədim, getdim üç gecə keşik çəkdim, atamın düşmənlərini öldürüb libasını, atlarını gətirdim, bacılarımı dərvişlərə verdim. Mənə uşaq deyib xəndəkdən sıçratmağa özünüzlə aparmadınız. Mən də atamın qəbri üstündə qarovul çəkəndə ələ keçirtdiyim atların hər gün birini mindim, gedib xəndəkdən sıçratdım, şahın qızlarını gətirdim.

Məlik Cəmil böyük qızı böyük qardaşına, ortancıl qızı ortancıl qardaşına verdi, kiçik qızı da özü aldı. Yeddi gün, yeddi gecə toy elədi.

Hər qardaş qızların birini aldığını padşaha xəbər verdi, padşah narazı olmadı. Bir gün padşah qızlarını, damadlarını bağa qonaq çağırdı. Bunlar yığışıf bağa qonağlığa getdilər. Bunlar bağda eyş-işrətdə ikən bir də gördülər göydən bir əl uzandı, Məlik Cəmilin sevgilisini havaya çəkib yox oldu.

Məlik Cəmilin arvadını üç tüklü kosa aparandan sonra hamı məyus oldu. Adamlar dağılıb getdilər. Arvadlar da evlərinə qayıtdılar. Məlik Cəmil mehtərin yanına gəldi. Atlardan birini yəhərlədi, yarığını götürdü, pəhlivan paltarlarını geyindi, ata suvar olub, yola düşdü. Böyük səhra ilə bir müddət yol gedəndən sonra bir bağa çıxdı. Bağa girəndə gördü ki, üç tüklü kosa başını onun arvadının dizi üstə qoyub, yeddi günlük yuxuya getmişdilər. Qızdan xəbər aldı:

– Onun canı hardadır?

Qız cavab verdi:

– O şüşənin içindədir.

Məlik Cəmil cəld şüşəni aldı, yerə çırpdı. Şüşənin içindən göy göyərçin çıxıb qaçmaq istəyəndə, Məlik Cəmil sıçrayıb göyərçini tutub öldürdü. Üç tüklü kosa nərə çəkib cəhənnəmə vasil oldu. Məlik Cəmil qızı götürüb evlərinə gəldi. Qardaşları ilə yeyib-içib dövran keçirdilər.

## PADŞAHLA OĞLU

Qədim zamanlarda acgöz, zalım bir padşah var idi, onun oğlundan-qızından heç nəyi yox idi. Bir gecə padşah yuxuda gördü ki, bir dərviş ona deyir:

– Ey padşah, görürəm, yaman övlad dərdi çəkirsən, onu bil ki, övladın olsa, peşiman olacaqsan.

Padşah dedi:

– Nəyə peşiman olacağam?

Dərviş dedi:

– Nə əksən, onu biçəcəksən, sən rəiyyətinə zülm eyləyibsən, oğlun da sənə zülm eyləyəcək.

Bəli, padşahın yuxusundan doqquz ay, doqquz gün keçdi, arvadının bir oğlu oldu. Uşaq qurşağacan ilan, qurşaqdan yuxarı adam şəklində doğuldu, padşah bunu eşidib halı pisləşdi.

Görmüşük ki, adam aybaay, ilbəil böyüyüb boy atar, amma bu uşaq saatbasaat yekəlirdi, bir-iki ilin içində 18 yaşında oğlan boyda olmuşdu. Bir gün ilan atasının qabağını kəsib dedi:

– Ata, Rum padşahının qızını mənə al, evlənmək istəyirəm.

Atası dedi:

– Ay bədbəxt oğlu, sənə kim qız verər?

Oğlan dedi:

– Onu özüm bilərəm, üç günə kimi, Rum padşahının qızını mənə almasan, səni elə vuracağam ki, bir də özünə gəlməyəcəksən.

Padşahın canına üşütmə düşdü. Vəzir-vəkili çağırıb tədbir istədi. Belə bir qərara gəlirlər ki, ayrı bir qız tapıb aldatsınlar ki, Rum padşahının qızıdı. Padşah həmin gün oğlunu çağırıb dedi:

– Sabah toyundu.

Oğlu dedi:

– Mənə elə bir toy eləməlisən ki, sənin torpağında olan bütün kasıbların, əlsiz-ayaqsızların hamısı orada yeyib-içsinlər. Durub gedəndə də hər adama bir xələt verməlisən. Əgər dediklərimi eləməsən, özünü ölmüş bil.

Bəli, padşah canının qorxusundan xəzinəsinin yarısını xərcləyib, oğlunun toyunu elədi. Özü də bir dələduz qızı tapıb öyrətdilər ki, deyərsən Rum padşahının qızıyam, gecə durub ilan oğlanın başını üzərsən. Qız razılıq verəndən sonra toyu başladı. Üç gün, üç gecə elə toy oldu ki, bütün camaat hamısı xələt alıb getdi. Yatmaq vaxtı gələndə ilan başa düşdü ki, qız onu öldürmək fikrindədi.

Qızı elə vurdu ki, o saat öldü. Səhər padşah əhvalatdan xəbər tutanda canına üşütmə düşdü, ilan padşahı tutub dedi:

– İndi də mənə Çin padşahının qızını almalısan, əgər almasan, səni elə vuracam ki, qaralıb kömürə dönəcəksən.

Padşah nə qədər yalvar-yaxış elədi ki, ay oğlum, gəl, bu sevdadan əl çək, məni xətaya salma.

İlan razı olmadı. Padşah bu dəfə başqa bir qız tapıb, əvvəlki kimi öyrətdi. Oğlunu çağırıb dedi:

– Sabah toyundu.

Oğlan dedi:

– Bu dəfə bütün yoxsulları çağırıb, yeddi gün, yeddi gecə toy eləməlisən, gedəndə hamısına xələt verməlisən.

Padşah qorxusundan xəzinəsinin yarısını da toya xərclədi. Toy gecəsi gəlin evə gələndən sonra oğlan bu qızı da çalıb öldürdü. Aradan neçə gün keçəndən sonra ilan atasının qabağını kəsib dedi:

– Sənin bütün kələklərini bilirəm, mənə aldığın qızlar nə Rum, nə də Çin padşahının qızları idi. Ona görə də onları öldürdüm. Bu dəfə mənə Hind padşahının qızını almalısan. Özü də qırx gün, qırx gecə elə toy eləməlisən ki, dünyada heç kim belə toy görməmiş olsun.

Padşah gördü ki, bu dəfə oğlunun dediyini yerinə yetirməsə canını qurtara bilməyəcək. Odur ki, bütün var-yoxunun hamısını töküb Hind padşahının qızını aldı. Xəzinəsində nə qədər qızıl-gümüş vardısa, hamısını kasıblara payladı, xəzinə tamam boşaldı. Toy gecəsi padşahın əli ürəyinin başında qaldı ki, yəqin ilan bu qızı da vurub öldürəcək. Onda Hind padşahına nə cavab verəcəgəm? Hər tərəfdən ilanla qıza güddükçü qoydu. Güddükçülər gördülər gecənin bir vaxtı ilan dönüb bir gözəl oğlan oldu, elə bil beş gecəlik aydı. Adamlar tez gedib gördüklərini padşaha söylədilər. Padşah sevindiyindən bilmədi nə eləsin. Səhər oğlunu yanına çağırıb dedi:

– Oğul, bu nə əhvalat idi, bir məni başa sal görüm, sən niyə mənə zülm elədin, xəzinəmi boşaltdın?

Oğlan dedi:

– Bütün bunlar sənin elədiyin əməllərin bəhrəsidi, nə əkmişdin, onu da biçdin, zülmlə yığdığın var-dövləti kasıblara qaytardın. Mən də camaatın alqış-duasından qəşəng bir oğlana döndüm.

# BİBİLİCAN, HA BİBİLİCAN!

Bir gün var idi, bir gün yox idi. Allahdan savayı heç kim yox idi. Bir dənə bacı var idi, bir qardaş. Bir gün dedilər ki, duraq gedək ayrı şəhərə, görək nə eləyirik. Burada bir iş yoxdu. Gedərlər, gedərlər yolda qardaş suzdayıb, deyər:

– Bacı, mən suzmuşam.

Oğlanın mindiyi atın ayağının yerindən su çıxmışdı. Oğlan içmək istəyəndə bacısı dedi:

– Başına dolanım, içmə, içsən at olarsan!

Qardaş sudan içər. Gedərlər, it ayağının yerində su durmuşdu, deyər:

– Bacı, mən susuzam, içəcəm.

Bacı deyər:

– Qardaş başına dolanım, içmə, it olarsan.

Qardaş içər. Yola düşərlər.

İndi də Ahu ayağının yerindən çıxan su görürlər.

Qardaş deyər:

– Bacı, mən susuzam, içəcəm.

Bacı deyər:

– Qardaş, amandı, içmə! Ahu olarsan.

Qardaş deyər:

– Ölsəm də, qalsam da gərək bundan içəm.

Başlayar sudan içməyə. Oğlan bir ahu olur. Yazıq bacı götürər ahunu da salar yanına, oturar bir dağın başında.

Padşah şikara çıxmışdı. Gələr görər bir gözəl qız oturub dağ başında, bir dənə ahu otarır.

Padşah deyir:

– Bəh, bəh, burada niyə? Bə bu cür niyə?

Qız açar başına gələni, buna deyər. Padşah bir könüldən min könülə qıza vurular. Qoşuna xəbər verər ki, mən şikarımı elədim. Götürər qızı da, ahunu da gətirər saraya, verər, toy tutarlar. Qızı alar.

Qızın bir qara qaravaşı var idi. Bir gün bunlar gedərlər hamama. Soyunarlar. Qaravaş itələyib qızı salar çar hovuza.

Naqqa balıq qızı udar. Qaravaş xanımın par-paltarın geyər-keçinər, gələr evə.

Padşah deyər:

– Qız, bə niyə bu cür qap-qara qaralıb yanmısan?

Qaravaş deyər:

– Hamamın suyu belimə düşmədi.

Padşahın arvadı boylu imiş. Naqqa balığın qarnında doğur. Bir oğlu olar, adın qoyar İsmayıl.

Bir gün qara qaravaş yeriklər, padşaha deyər:

– Ahunu kəsin, mən yeyim.

Padşah deyər:

– Qız, bu nə sözdü, o, sənin qardaşındı.

Deyər:

– Olmaz. Ahu ətinə yerikləmişəm, gərək kəsəsiz, yeyəm.

Padşah görər olan iş deyil, deyər:

– Ahunu gətirin kəsin.

Ahunu gətirərlər kəsməyə. Ahu üzün dolandırar padşaha. Öz dilicə deyər:

– Qoyun, gedim, bir dolanım, gəlim, kəsin.

Padşah deyər:

– Qoyun getsin dolansın, gəlsin.

Ahu baş alıb gedər çar hovuza. Deyər:

– Bibilican, ha bibilican!
Bibilican, qurbanın olsun!
Asılı qazanlar asılıb,
İtili pıçaqlar itilib,
Qara qaravaş ətimə yerikləyib.

Çar hovuzdan səs gələr:

– Bibilican, ha bibilican!
Bibilican qurbanın olsun!
Qara qaravaş atıbdı,
Naqqa balıq udubdu,
Şah oğlu şah İsmayıl!
Qucağımda yatıbdı.

Saçı da gərdənimi tutubdu.

Ahu qayıdar gələr. İstərlər başını kəssinlər, yenə ahu öz dilicə deyər:

– Qoyun bir gedim, dolanım, gəlim, kəsin.

Padşah deyər:

– Qoyun getsin, dolansın gəlsin.

Ahu baş alıb gedər çar hovuza, deyər:

– Bibilican, ha bibilican!
Bibilican qurbanın olsun!
Asılı qazanlar asılıb,
İtili pıçaqlar itilib,
Padşah deyər qoyun getsin.

Ahu baş alar gedər çar hovuza. Padşah düşər heyvanın dalınca ki, görüm bu heyvan hara gedir qayıdır. Gedər, görər ahu durub çar hovuzun başında deyir:

– Bibilican, ha bibilican!
Asılı qazanlar asılıb,
İtili pıçaqlar itilib,
Qaravaş ətimə yerikləyib.

Çar hovuzdan səs gələr:

– Bibilican, ha bibilican!
Bibilican qurbanın olsun!
Qara qaravaş atıbdı,
Naqqa balıq udubdu,
Şah oğlu Şah İsmayıl,
Qucağımda yatıbdı,
Saçı gərdənimi tutubdu.

Padşah eşitməlisini eşidər, bilməlisini bilər. Əmr elər çar hovuzun suyunu çəkərlər, naqqa balığı çıxardarlar, qarnını sökərlər, qızı, uşağı çıxardarlar. Padşah görər saç dolanıb qızın boynuna. Padşah deyər:

– Burada neynirsən?

Qız deyər ki, qara qaravaş itələdi düşdüm hovuza, balıq məni uddu.

Qara qaravaş evdə oturmuşdu. Görür hay-hayla qızı gətirirlər. Padşah əmr verib qara qaravaşı bağlatdırar qatırların quyruğuna, dağı-daşı o qədər dolandırar ki, tükləri qalar qatırların quyruğunda.

## NARXATIN

Bir nənə ilə bir qızı var idi. Qızın adı Narxatın idi. Nənə bir divə aşiq olub gətirib salmışdı otağa. Bir gün açar qalmışdı evdə. Qız gedib otağı açar, görsün nəmənə var. Açar görər bir dana divdi. Açarları gətirər qoyar yerinə. Axşam nənəsi gələr gedər divi görsün. Divə deyər:

– Nə sən gözəl, nə mən gözəl, illah ki, ağa div gözəl!

Div deyər:

– Nə sən gözəl, nə mən gözəl, illah ki, Narxatın gözəl!

Deyər:

– Sən Narxatını harada gördün?

Deyər:

– Gəlmişdi buraya.

Arvad qızını çıxardıb ötürər eşiyə. Qız da gedər, gedər görər axşam oldu. Bir qapı açıqdı, gedər ora. Gedər dolanar, görər heç kəs yoxdu. Adam-zad yoxdu. Oturmuşdu, gördü yeddi dana oğlan gəldi. Demə, yeddi qardaş imişlər.

Deyərlər:

– Qız, sən burada neyləyirsən, haradan gəlmisən?

Deyər:

– Nənəm divə aşiq olmuşdu. Div məni görüb, nənəm məni ötürüb eşigə. Da, getməyə bir yerim yoxdu. Gəlmişəm buraya.

Qardaşlar deyirlər:

– Lap yaxşı, sən də bizim bacımız!

Hər gün oğlanlar gündüz gedirlər işə, axşam bacılarıynan yeyib, içirlər. Bir gün arvad divin yanına gəlib deyir:

– Nə sən gözəl, nə mən gözəl, illah ki, ağa div gözəl!

Div deyər:

– Nə sən gözəl, nə mən gözəl, illah ki, Narxatın gözəl!

Deyər:

– Vay küçük oğlu, Narxatını eşigə ötürdüm, əl çəkmədin?

Div deyər:

– İndi gedib yeddi qardaşlara bacı olub.

Arvad bu yol divin yanından çıxar gələr. Narxatın da saqqızı çox sevirmiş. Bir az saqqız alar gətirər, buna zəhər vurar, gələr, bu yol Narxatın olan yeri tapar, qapını döyər, qız gedər qapıya görər nənəsidi. Nənəsi hər nə eylər ki, aç qarını, qız açmaz. Bu yol nənəsi saqqızı qapının altından ona uzadıb deyər:

– Saqqız almışdım sənə, götür apar çeynə!

Qız saqqızı götürüb gəlir hovuzun başına. Saqqızı çeynər, amma saqqız zəhərli idi. O yıxılıb orada, hovuzun başında qalır. Axşam qardaşlar gəlib qapını döyür, görürlər ki, açan olmadı. Fikirləşirlər ki, bu da bizə bacı olmadı. Ev-eşigimizi də götürdü apardı.

Duvardan aşıb gəlib görürlər bacıları hovuzun başında yatıb. Görürlər ki, bu ölüb, zəhər veriblər. Həkimə-zada aparırlar. Həkim deyir:

– Da əlac olmaz, zəhər veriblər.

Bu yol bunlar gəlib fikirləşərlər ki, bacımızı necə quyluyaq? Bir xurcun götürərlər, bir tayına qızıl doldurarlar, bir tayına da bu qızı qoyarlar. Salarlar atın üstünə, ötürərlər çölə, bu qız, bu da pul!

Padşah çıxmışdı şikara, görər bir atın üstündə bir xurcun qızıl, bir də qız var. Götürər padşah bunu aparar. Min könüldən ölüyə vurular. Həkimlər deyər:

– Yeddi hovuz süd ver doldursunlar. Bunu, bu yol basarlar bir hovuza, bir az qalar, ordan o biri hovuza. Axırda yeddinci hovuza salıb götürərlər. Qız bir az ayılır, düzəlir. Narxatın dirilir. Padşah bunu alır. Bir ildən sonra Narxatının bir cüt oğlu olur.

Uşaqlar bir az böyümüşdü, gündə gedərdilər padşaha salama.

Yenə bir gün Narxatının nənəsi gedir divin yanına. Deyir:

– Nə sən gözəl, nə mən gözəl, illah ki, ağa div gözəl!

Div deyər:

– Nə sən gözəl, nə mən gözəl, illah ki, Narxatın gözəl!

Deyər:

– Vay, mən Narxatını öldürdüm də, əl çəkmədin.

Deyər:

– Ölməyib, indi padşahın arvadıdı, bir cüt də oğlu var.

Bu nənə, bu yol durar gələr, az gələr, çox gedər, gələr bu padşahın evini tapar. Deyər ki, mən Narxatının nənəsiyəm.

Bir gün qalar, qız deyər padşaha:

– Mən nənəmdən qorxuram, saxlamayın burada!

Padşah deyər:

– Qız, nənəndi da! Nəyindən qorxursan?

Gecə bu yol yatmışdılar. Qızın nənəsi durar uşaqların ikisinin də başını kəsər. Pıçağı da gətirər qoyar Narxatının cibinə. Səhər olar görərlər ki, bu uşaqlar padşaha salama gəlməyib. Padşah adam göndərər ki, uşaqlar gəlməyib. Gələrlər, görərlər uşaqların başın kəsiblər. Da, Narxatın da bilməz ki, pıçağı da qoyublar cibinə. Bu yol Narxatının nənəsi deyər ki, hamının cibini axtarın, hər kimin cibindən qanlı pıçaq çıxsa bilin o kəsibdi. Hamının cibini axtararlar. Heç kimdən pıçağ çıxmaz. Bu yol deyərlər ki, axı Narxatının da cibini axtarın.

Deyərlər niyə? Ana da balasının başını kəsər?

Padşah deyər:

– Axtarın!

Axtararlar. Bunun cibindən qanlı pıçaq çıxar. Padşah qızın gözlərini çıxartdırar, uşaqların da ölüsünü verər bunun qucağına, onu şəhərindən xaric elər.

Bu gedər pirə, yer tapar, gedər pirdə ağlar, ürəyi pis olar. Yuxuda görər ki, bir nəfər gəlir. Buna deyir:

– Yenə ağlayırsan?

Deyər:

– Da niyə ağlamayım? Bir cüt uşağımın başını kəsiblər, padşah özümün gözlərini çıxartıb, gəlib qalmışam burada.

Yuxuda görən adam əlini çəkər bunun gözlərinə, uşaqlarının da başına, bir ovuc torpaq tökər, deyər:

– Dur ayağa, sənə heç nə olmayıb!

Bu, bu yol yuxudan ayılar, görər uşaqları pirin eyvanında oyan-buyana qaçırlar, özünün də gözləri düzəlib. Baxıb görər ətəyindəki torpaq da olub cəvahirat, qızıl. Durar bu yol uşaqlarını da götürər gedər çöldə bir dam düzəldər. Cəvahiratı da xərclədikcə azalmırdı. Nə qədər idi, elə o qədər də qalırdı.

Narxatın uşaqlarını qoyar məktəbə. Uşaqlar bir az böyümüşdü, dərs oxuyurdular. Götürər çöldə bir imarət saldırar nə gözəllikdə, yüz dəfə padşahınkından artıq. Bir kərpici qızıldan, bir kərpici gümüşdən.

Uşaqlar çıxarmışlar çöldə-zadda oynarmışlar. Padşah oraya şikara-zada gedəndə uşaqları, imarəti görərmiş. Gündə buradan keçəndə deyərmiş:

– Vəzir, bu imarət görəsən kimindi, bu cür düzəldiblər?

Padşah uşaqları çox sevirmiş. Gəlib keçəndə dindirərmiş ikisini də. Narxatın uşaqlara tapşırmışdı ki, padşah sizi dindirəndə, sarmaşın ona ki, gəl, gedək bizə.

Bir gün padşah keçəndə, uşaqlar ondan əl çəkmir. Padşah deyir:

– Axı, sizin eviniz hardadı?

Deyərlər ki, bəs o imarət bizimdi.

Uşaqlar çox deyər, padşah getməz. Keçib gedərlər. Vəzir deyər:

– Qibleyi-aləm sağ olsun! Gərək gedəydin. Uşaqlar məyus oldu. Bu dəfə desələr gedək.

Yenə bir də padşah ordan keçəndə, bu uşaqlar əl çəkmədi ki, gedək bizə, gedək bizə!

Vəzir deyər:

– Qibleyi-aləm sağ olsun! Ürəklərini sındırmağa dəyməz. Gedək, ayaq üstə baş vuraq.

Gedərlər padşahla vəzir. Padşah görər ki, balam, yaxşı imarətdi, qəribə dəsgahdı! Bir az oturarlar, durar bunlar getsin.

Uşaqların anası öyrətmişdi: "Qızıl çay qaşığını aparın salın padşahın başmağının içinə".

Bunlar durarlar getməyə, uşaqlar deyir:

– Axtaracayıq!..

Hamını axtararlar. Padşahın başmağının içindən qaşıq çıxar. Narxatın da durmuşdu pərdə dalından qulaq asırdı.

Vəzir deyər:

– Oğlan, padşah da oğurluq elər?

Narxatın deyər?

– Bəs ana da balasının başını kəsər?

Vəzir deyər:

– Bu nə sözdü?

Bu vaxt Narxatın pərdə dalından eşiyə çıxıb deyər:

– Bəs bunlar sənin oğlanlarındı, mən də sənin arvadın Narxatınam.

Açar başının qəziyyəsini nağıl elər padşaha. Padşah onun nənəsini tapıb öldürər, o divi də. Yeyər, içər, mətləbinə yetişər.

## KÜP QARISI

Bir padşah vardı, bunun bir oğlu vardı. Padşahın arvadı vurular öz oğluna. Oğlu deyər ki, sən mənim anamsan. Bu arvad qəbul eləməz.

Oğlan deyər:

– Gedərəm padşaha deyərəm.

Bu arvad görər bu cürdü, tez gedər padşaha deyər.

– Oğlun mənə əl atır.

Padşah da deyər:

– Cəllad gəlsin, bu oğlanın boynun vursun.

Vəzir-vəkil deyər ki, qibleyi-aləm sağ olsun, öldürmə, şəhərindən xaric elə.

Bu, oğlana bir at verər, şəhərindən xaric elər. Oğlan gedər çöldə bir köhül var idi, orada qalar. Gedərdi gündüz şikar elərdi,

gətirərdi, orada yatardı. Bir gün bir dana tülkü keçirdi. Görər burada leş- zad vardı. Oturar, bunları yeyər, deyər:

– Hətmən, burada adam- madam vardı.

Getməz qalar orada. Axşam olar, oğlan gələr, görər bir dana tülkü var, bir az özü yeyər, bir azın da verər bu tülküyə. Bir gün də bir qurd keçirdi, görər tülkü oturub, deyər:

– Tülkü qardaş, nə oturmusan?

Deyər:

– Neyləyim, ağam var mənim, gətirər verər, mən də yeyərəm.

Deyər:

– Tülkü qardaş, mən də qalım?

Deyər:

– Qal da!

Axşam oğlan gələr, görər bir dana qurd var. Öz-özünə deyər:

Bu canavar hardan yığışar?

Yenə vurduğu ovdan bir az özü yeyər, bir az verər onlara. Bir gün də bir dana it keçirdi. Görər tülküynən qurd oturublar. Deyər:

– Tülkü qardaş, qurd qardaş, nə oturmusuz?

Deyərlər:

– Neyliyək? Bizim ağzımız var. Gətirər, verər, biz də yeyərik.

Deyər:

– Mən də qalım?

Deyərlər:

– Qal da!

Axşam oğlan gələr görər bir dana it var. Sabah çox şikar elər, gətirər ki, bu heyvanlar məni dağıdar, qoy qarınların doyurum.

Bir gün yenə bir dana qaraquş keçirdi göydən. Görər tülküynən qurd, bir də it oturublar. Deyər:

– Tülkü qardaş, qurd qardaş, it qardaş, nə oturmusuz?

Deyərlər:

– Neyliyək, bizim ağzımız var, o gətirər, biz də yeyərik.

Deyər:

– Mən də qalım?

Deyərlər:

– Qal da!

Axşam yenə oğlan gələr, görər bir dənə qaraquş var.

Bir gün tülkü durar gedər, bir daşı dığırlada-dığırlada gətirər qoyar altına, deyər:

– Qurd qardaş, it qardaş, qaraquş qardaş, insafdı ki, elə ağa gətirsin, versin, biz yeyək oturaq?

Deyərlər:

– Neyliyək?

Deyər:

– Neyliyəcəyik, durun gedək padşahın qızını gətirək ağaya.

Deyərlər:

Axı olmaz, biz necə gətirə bilərik?

Tülkü deyər:

– Bir az mıncıqdan, zınqırovdan-zaddan tapın, gətirin, bağlayın mənim quyruğuma, deyim sizə.

Taparlar, gətirərlər, bağlarlar quyruğuna, bəzərlər, De- yər mən su gilifindən girərəm, keçərəm içəriyə, it ilə qurd da dursun qapıda, qaraquş göydə dolansın. Qız çıxanda eşiyə onu götürər qaçar.

Durarlar, gedərlər padşahın qızının həyətinə. İtlə qurd durar qapıda, qaraquş göydə. Tülkü gilifdən girib başlar həyətdə oynamağa. Kəniz bunu görər, gedər xanıma deyər:

– Xanım, bir dana şey gəlmiş, elə oynur ki...

Xanım çıxar həyətə, ona baxanda qaraquş qızı götürüb uçar. İtlə tülkü qaçarlar. Gətirərlər qızı qoyarlar köhülə. Qız görər bir dana köhüldə canavar, bikef- məyus oturubdu. Axşam olar, görər tülkü-zad hamısı getdilər.

Ağa görər bu gün tülkü, it pişvaza gəliblər. Tülkü düşər qabağa oynaya-oynaya gələr. Oğlan gələr görər ki, köhüldə bir qız. Deyər:

– Qız, sən hara, bura hara?

Deyər:

– Bunlar gətiriblər, qoyublar bura.

Padşaha xəbər gedər ki, qızını quş götürdü apardı. Padşah bir qarı tapar. Bir gün qarıya pul verər ki, gedib qızı tapıb gətirə.

Qarı gətirər küpü quylar çölün bir tərəfində, gələr oturar oğlanın yolu üstə. Oğlan gələndə deyər:

– Oğul, karvanla keçirdim, düşüb qalmışam yolun üstün- də.

Oğlan deyər:

– Olsun qarı nənə, mənim bir xanımım var, aparram, sən onunla həmsöhbət olarsan.

Səhər olar, bu oğlan yenə durar gedər. Qarı deyər:

– Qızım, bu çölü heç gəzmisən?

Qız deyər:

– Yox, qarı nənə!

Qarı deyər:

– Dur qızım, bu çölü bir dolanaq.

Çıxarlar bu çölü dolanmağa. Yetişərlər qarının basdırdığı küpün yanına. Qız deyər:

– Qarı nənə, bu nəmənədi?

Qarı deyər:

– Nə bilim, qızım əyil, bir bax gör!

Qız əyilib baxanda qarı itələr bu qızı basar küpün içinə, ağzını bağlar, özü də oturar üstündə. Qalxar göyə, aparar padşaha.

Axşam oğlan gələr, yetişər, görər bu gün tülkü başın tutub yatıbdı. Girər görər ki, nə qarı var, nə qız. Öz-özünə deyər:

Ona görə bu tülkü mənə əgri-əgri baxırdı, ha! Köpəgin qızı, qarı!...

Yenə bir-iki gün keçər. Tülkü görər ki, ağaları çox bikefdi. Yenə gedər daşı dığırlada-dığırlada gətirər, qoyar altına, deyər:

– Qurd qardaş, it qardaş, qaraquş qardaş, bilirsiz, nə var?

Deyərlər:

– Yox!

Deyər:

– Allaha xoş getməz ki, ağa gəlib bu cür bikef otursun.

Deyərlər:

– Nə eliyək?

Deyər:

– Gedək qızı gətirək.

Yenə gedər. Tülkünün quyruğuna bir zınqrovdan-mınqrovdan bağlarlar, durarlar, gedərlər. Yenə itlə qurd kəsər qapını, qaraquş göydə dolanar. Tülkü keçər, gedər içəri. Bu qızın kənizini dəgişmişdilər. Ayrı kəniz qoymuşdular yanına. Kəniz çıxar həyətə, görər tülkü həyətdə oynayır. Deyər:

– Xanım, bir dana əntiqə şey gəlib, elə qəşəng oynur ki!...

Qız baxar, görər ki, tülküdür. Gedər qiymətdə ağır, vəzndə yüngül bir şey- mey götürər, çıxar həyətə. Çıxcaq qaraquş bunu qamarlayıb götürər, gedər. Tülkü tez su gilifindən çıxar qaçar. Gətirərlər qızı, qoyarlar köhülə.

Axşam olar, ağanın gəlmək vaxtı çatar. Tülkü deyər:

– Qurd qardaş, it qardaş, qaraquş, gedək ağanı gətirək!

Ağa görər ki, bəli, bu gün yenə tülkünün kefi sazdı, hamı gəlib pişvaza. Gələr görər ki, qız köhüldədi, qızdan soruşar. Qız deyər:

– Bu küpəgirən qarı məni apardı.

Beş-on gün keçər. Padşah qoşun çəkər bu oğlanın üstünə. Qız çıxar köhülün üstündən baxar görər ki, qoşun düşüb oğlanın yolu üstə. Tülkü görər ki, bu qız bikef oldu. Durar baxar görər ki, bəli, qoşun düşübdü ağanın yolu üstə. Daşı dığırlada-dığırlada gətirər qoyar altına, deyər:

– Qurd qardaş, it qardaş, qaraquş qardaş, durun gedək ağanı gətirək!

Bunlar durarlar gedərlər. O qədər gedərlər ki, oğlanı görərlər. Oğlan görər ki, onlar bugün çox uzaqdan gəliblər. Deyər:

– Görərsən, bu gün nə var ki, bunlar buracan gəliblər?

Tülkü düşər qabağa, ayrı yoldan gətirər oğlanı. Oğlan gələr görər ki, qız bikefdi. Soruşar:

– Nə olub?

Qız deyər:

– Bə, dədəm qoşun çəkib, bə sən necə gəldin?

Oğlan deyər:

– Məni tülkü ayrı yoldan gətirib.

Deyər:

– Da, bizimki buracandı, gecəni yataq, görək səhər başımıza nə gələr?!

Yenə tülkü gedər daşı dığırlada-dığırlada gətirər qoyar altına, deyər:

– Qurd qardaş, it qardaş, qaraquş qardaş, bunlar ki, bu cür bikefdilər, duraq biz gedək qoşunu öldürək, quş gözünü çıxardar, itlə qurd boğar, mən də bir başdan başlaram yeməyə.

Bunlar bu yol durarlar gedərlər, girərlər qoşunun içinə bir başdan onları yeyərlər. Sonra başlarını qoyub arxayın yatarlar.

Səhər bu oğlan durar, çıxar baxar görsün qoşun ordadı, ya gedib. Görər ki, hamısı ölüb. Qıza deyər:

– Bizim burada qalmağımızın bəhrəsi yoxdu. Gərək buradan gedək. Tülkügilə də bir illik azuqədi. Cəmdəkləri ha yeyərlər, qurtarmayacaq ki!...

Durub atını minər, qızı da alar atın tərkinə. Çıxıb gedərlər.

## QARAVƏL QARA MƏMMƏD

Hamam hamam içində, xəlbir saman içində, dəvə dəlləklik elər, köhnə hamam içində. Dini Muhəmməd dinində, Muhəmməd camalına bir salavat çevir. Biri var idi, biri yox idi. Allahın kərəmi çox idi, yenə olsun! Bir dana keçəl, Qaravəl Qara Məmməd var idi. Dünyada bir dana qarı nənəsi var idi. Bir gün oğlan nənəsinə dedi:

– Ay nənə, bəs mənim bu dədəm öldü getdi, mənə heç zad qoymadı? Bə bu haranın dədəsi idi?

Qarı dedi:

– Niyə qoymadı oğul, odu bax, duvardaki tüfəng.

Qaravəl Qara Məmməd əl elədi duvardaki tüfəngə, aşırdı çiyninə. Gecə ikən düşdü yola. Az getdi, çox getdi iynə yarım yol getdi. Göz-gözü görmürdü. Şabbadan-şubbadan Qaravəl Qara Məmmədin alnı toxundu əgri iydə ağacına. Başı bulandı qana. Birdən gözü düşdü təpə başında bir canavara. Bir tərəfində

saz çalır, bir tərəfindən işıq gəlir. Qaravəl Qara Məmməd əl elədi tüfəngə, düzəltdi, şaqqıldadıb, bir güllə canavara vurdu. O dəqiqə canavar düşdü Qaravəl Qara Məmmədin qabağına. Qaravəl Məmməd öz-özünə dedi:

– Hələlik bu da bəsdi. Aparaq qoyaq evimizə, işığında oturaq, sazı əlindən alaq.

Qapıya yetişib döydü. Qarı səsləndi:

– Adam, nə adamsan?

Dedi:

– Mənəm, aç, nənə.

Qarı acıqlanıb dedi:

– Get, köpək oğlu!... Nə tez qayıtdın? Get, özünə güzəran qazan. Qapını açmaram.

Qaravəl Qara Məmməd dedi:

– Aç, nənə, bir şikar eləmişəm ki, bir yanında saz çalır, bir yanından işıq gəlir. Daha çıraq yandırmayacaqsan.

Qarı qapını açdı. Qaravəl Qara Məmməd canavarı sürüdü içəri. Otağın bir guşəsində yer elədilər. Qaravəl Qara Məmməd dizin dizinin üstünə aşırıb istədi dincini alsın. O saat gördü qapı döyüldü. Demə, bəs bir qarı Qaravəl Qara Məmmədi görüb padşaha xəbər aparıb ki, ey padşah, taxtın tabut olsun, ürəyin qanla dolsun, nə oturmusan. Qaravəl Qara Məmməd elə bir canavar şikar edib ki, bir yanında saz çalır, bir yanından işıq gəlir. Elə bir canavardı ki, sən kimi şaha layiqdi, nəinki o cür hisli dama.

Şah da adam göndərdi ki, Qaravəl Qara Məmmədi gətirsinlər. Qaravəl Qara Məmməd yola düşdü, gedib şahın evinə çatdı. Şah dedi:

– Şikarında gətirdiyin canavar bizim kimi şaha layiqdi, nə ki qoyula o cür hisli dama. Get, onu gətir mənə!

Qaravəl Qara Məmməd əlini gözü üstə qoyub dedi:

– Həlbət ki, Sizə layiqdi, indicə gedib gətirrəm.

Qaravəl Qara Məmməd o saat gedib canavarı gətirdi. Şah fikirləşdi ona layiq ənam nə ola bilər. Heç zad tapa bilməyib vəzirə dedi:

– Vəzir, ona layiq bir ənam hazırla.

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, bu gün heç, sabah gəlsin ona ənam verim.

Vəzir getdi evə. Başında bir baba taskülahi var idi. Qoydu qabağına, dedi:

– Ey baba taskülah, başına dolanım, bu nə iş idi mən düşdüm? Bu küçük oğlu keçəl hardan tapıldı? Axı, mən necə vəzirlikdən əl çəkim. Verim bir adama oxşamaz keçələ? Mənə bir tədbir tök işim düzəlsin.

Onda gördü baba taskülahdan bir səs gəldi:

– Ey vəziri-külli-əzəm, heç özünə toz qondurma. Bu iş su içimdi. Sabah keçələ deyərsən, gedər qırx madyan südü gətirər. Daha onunki ona dəyər.

Vəzir baba taskülahı götürüb iki əlli qoydu iki qaşının üstünə. Səhər tezdən gün çıxar-çıxmaz, şah geyinməmiş qondu onun qapısına. Padşah dedi:

– Nə var?

– Şaha, bu gecə bir yuxu görmüşəm, gəldim onu deyim.

– Nə yuxu?

– Bəs eşit ki, gecə yuxuda gördüm Qaravəl Qara Məmməd gedib, qırx madyan südü gətirib. Şah, onu göndər getsin gətirsin.

Padşah gülüb dedi:

– Vəzir, bu nə sözdü? Mənim qoşunum qırılıb, qırx madyan südü gətirə bilməmişəm, o, necə gətirəcək.

Vəzir dedi:

– O, əvvəl şikarında bir elə heyvan şikar elədi ki, bir yanında saz çalar, bir yanından işıq gələr, elə onu da gətirər.

Padşah dedi:

– Vəzir, mən ölüm?

Dedi:

– Sən öləsən!

Əmr oldu, Qaravəl Qara Məmməd hazır oldu.

Şah dedi:

– Gedərsən, qırx madyan südü gətirərsən, onda ənam verəcəm.

Qaravəl Qara Məmməd öz qəlbində dedi:

– Qadam sənə də, vəzirliyinə də! Evin xarab olsun, məni hara göndərirsən?

Amma üzə salmayıb dedi:

– Gətirərəm.

Keçəl Qaravəl Qara Məmməd gəldi evə, dedi:

– Nənə, dur, çörək bağla görək.

Dedi:

– Hara?

Dedi:

– Şah göndərir gedim qırx madyan südü gətirim.

Qarı dedi:

– Oğul getmə. Vəzir istəyir səni ölümə verə. Onu helə- helə adamlar gətirə bilməyib, sən necə gətirəcəksən?

Keçəl dedi:

– Ölsəm də, qalsam da, gərək gedəm gətirəm.

Qarı dedi:

– İndi ki, elə oldu, get padşaha deginən qırx tuluq şərab, qırx yük pambıq versin, gəl, mən deyim necə get.

Qaravəl Qara Məmməd üz qoydu padşahın evinə tərəf. Şeyləri alıb qayıtdı.

Qarı dedi:

– Oğul, bunları götürüb gedərsən. Çox gedəndən sonra yetişərsən bir dəryanın qırağına, orada pambıqdan bir hovuz düzəldərsən. Şərabı tökərsən onun içinə. Özün də yüz qədəmlikdə bir çuxur qazıb gizlənərsən. Az keçər, çox keçər, onda görərsən ki, hava qaranlıqlaşdı, göy şaqqıldadı, dərya təlatümə gəldi, su aralandı, dəryadan hezar bir bala dağ təkin heyvan çıxdı. Dalında otuz doqquz balası. Onlar üz qoydular çimənə sarı. Orada çox otlayıb qayıdarlar dərya qırağına, su içməyə. Amandı, oğul, onda özünü görsətmə. Qırx madyan hovuza yetişər. Şərabı iyləyib gedər. Yenə də az-çox otlayıb, gələrlər su içməyə. Bu

dəfə də içməzlər. Üçüncü dəfə də. Day susuzluqdan amanları kəsilmiş, başların soxarlar şərabın içinə doyunca içərlər. Onda sən quş kimi qalxıb minərsən qabaqdakı madyanın üstünə. Bir yumruq qaşqasından vurarsan, özü üz qoyar bu yana sarı. Daha balalarıynan işin olmaz. Onlar özləri dalınca gələcəklər.

Keçəl Qaravəl Qara Məmməd belinə çörək bağlayıb çəkdi çustun dabanın, qırdı yerin damarın, dərələrdən yel kimi, təpələrdən sel kimi, badi- sərsər kimi, baş yastığa, göz yuxuya verməyib, gəldi çatdı dərya qırağına. Bir yekə hovuz tikdi, özü də bir kənar guşədə gizləndi. Az keçdi, çox keçdi, onda gördü hava qaranlıqlaşdı, göy şaqqıldadı, dərya təlatümə gəldi, su aralandı, dəryadan bir bala dağ təkin heyvan çıxdı. Dalında otuz doqquz balası üz qoydular çimənə sarı. Otladılar, susuzdadılar, gəldilər su içməyə. Hovuzu iylədilər, içməyib tazadan üz qoydular çəmənə. Üçüncü dəfə daha amanları kəsildi başların soxdular hovuza. İçdilər, içdilər, kefləndilər. Qaravəl Qara Məmməd aman verməyib quş kimi daşlandı, oturdu qabağındakı madyanın belində, bir yumruq qaşqasından yendirib, budu ha qoyma, otuz doqquz madyan da dalısınca üz qoydu şəhərə sarı. Qırx madyanı evinə yetirib südündən sağdı, padşaha göndərdi.

Bu tərəfdən eşit ki, bir qarı var idi, padşaha xəbər apardı ki, taxtın tabut olsun, ürəyin qanla dolsun! Nə oturmusan ki, keçəl qırx madyanın özün gətirib, ötürüb evinə.

Şah adam göndərdi Qaravəl Qara Məmmədi hazır elədilər. Əmr etdi ki, qırx madyanı gətirib ötürsün padşahın tövləsinə. Elə ki, keçəl də qırx madyanı gətirib ötürdü padşahın tövləsinə, padşah vəzirə bildirdi ki, vəzirliyi versin Qaravəl Qara Məmmədə.

Vəzir dedi:

– Şah, mənim sözüm yoxdu, getsin sabah gəlsin vəzirliyi ona verim.

Vəzir yenə də baba taskülahı qoydu qabağına, dedi:

– Bu küçük oğlu keçəl Qaravəl Qara Məmməd istəyir mənim vəzirliyimi əlimdən alsın. Dünən bir, bu gün iki, o keçəlliyinən istəyir vəzir olsun. Mənə tədbir tök bunun əlindən qurtarım.

Onda gördü taskülahdan bir səs gəldi ki, qorxma, ey vəzir. Bu iş su içimdi. Sabah şaha deyərsən Qaravəl Qara Məmmədi göndərsin, getsin o əjdahanı ki, çoxdandı şaha qənim olub, çoxlu qoşunun öldürüb onu gətirsin.

Vəzir taskülahı öpüb qoydu iki qaşının arasına. Sabah gün çıxar- çıxmaz, şah tumanın geyməmiş aldı qapısını.

Padşah dedi:

– Vəzir, xeyir ola, nə xəbər var?

Dedi:

– Şah, yuxu görmüşəm.

Nə yuxu?

– Dünən yuxuda gördüm ki, keçəl Məmməd gedib əjdahanı gətirib. Çağır getsin gətirsin.

Padşah dedi:

– Vəzir, bu nə sözdü? Mənim qoşunum qırılıb, əjdahanı gətirə bilməyib, indi o, necə gətirəcək?

Vəzir dedi:

– Şah, sən bilmirsən, bir adam ki, əvvəl şikarında elə bir heyvan şikar elədi ki, bir yanında saz çalındı, bir yanından işıq gəldi, qırx madyanı otuz doqquz balasınan tutub gətirdi, elə əjdahanı da gətirə bilər.

Padşah dedi:

– Mən ölüm?

Vəzir dedi:

– Sən öləsən!

Qaravəl Qara Məmmədi çağırdılar. Padşah dedi:

– Qaravəl Qara Məmməd, bir sözüm var. Onu da yerinə yetirsən, daha vəzirlik səninkidi. Gedirsən filan yerdəki əjdahanı öldürürsən öldür, öldürmürsən, diri tut gətir mənim yanıma.

Qaravəl Qara Məmməd öz- özünə dedi:

Qadam olsun sənə də, vəzirliyinə də. Evin xərab olsun, vəzir. Daha iş qaldı mənim başıma gətirməyəsən?

Gəldi evə, nənəsinə dedi:

– Çörək bağla görək, yenə iş çıxdı.

Qarı dedi:

– Oğul, bu yol hara gedirsən?

Dedi:

– Şah göndərir ki, gedim əjdahanı gətirim.

Qarı dedi:

– Oğul, gəl bu daşı ətəyindən tök? Onu gətirmək hər adamın işi deyil. Vəzir istəyir səni ölümə göndərə.

Qara Məmməd dedi:

– Ölsəm də gedəcəyəm, qalsam da! Nənə, bir yol bilirsən öyrət.

Qarı dedi:

– İndi ki belə oldu, bil ki, əjdaha dərin bir dərənin təkində yatıb. Altmış arşın uzunluğudu. Sən çox gedəndən sonra bir uca dağa yetişəcəksən. Qalxarsan dağa, görərsən. Hər nə quş gəlir, heyvan gəlir, daş gəlir, çör-çöp gəlir, hamısı dolur dərənin təkinə. Amandı, oğul, onda dərəyə düşməzsən. Gözləyərsən ki, hər zad öz yerində qala. Onda ki, gördün quş göydən uça-uça gedir, daşlar daha dərəyə tökülmür, demək, əjdaha yuxulayıb. Tez yüyürərsən dərəyə, əjdahanı görərsən ki, yatıb qaşqasından vurub, əjdahanı öldürüb, götürüb gələrsən. Amandı, oğul, qabaqca dərəyə girmə ki, sən də quşlar, daşlar kimi gurup-guruppaz gedərsən əjdahanın kamına.

Qaravəl Qara Məmməd əlin qoydu gözünün üstünə. Belinə çörək bağladı, çəkdi çüstün dabanın, qırdı yerin amanın, dərələrdən yel kimi, təpələrdən sel kimi, badeyi-sərsər kimi, baş yastığa, göz yuxuya verməyib, gəldi çatdı bir uca dağ ətəyinə. Dayanmayıb, dırmaşdı dağın kəlləsinə. Nə gördü? Gördü... Paho! Qəribə aləmdi: hər nə göydən keçər, hər nə daş var, çör- çöp var, hamısı ayaq tutub, baş tutub tökülür dərənin təkinə. Bildi əjdaha oyaqdı. Vaxt o vaxt oldu ki, hər zad öz yerin tutdu. Bu yol üz tutdu dərəyə, yetişdi əjdahanın bərabərinə. Gördü əjdaha nə əjdaha, elə bil dağ idi, böyrü üstə durub. Qaşqasın nişanə alıb vurdu. Birin də, ikisin də. Əjdaha nərə çəkdi, buradan ora kimi süründü, düşdü qaldı. Keçəl yeridi qabağa. İndi də bilmirəm,

onu nə cür şaha gətirdi, özü bilər. Ancaq gətirdi, saldı padşahın qapısına, dedi:

– Götür, düşmənin belə olsun.

Vəzirin əli girdi ürəyinə.

Padşah dedi:

– Vəzir, da bu dəfə bunu əliboş göndərmək olmaz. Gərək vəzirliyini ona verəsən.

Vəzir dedi:

– Qibleyi-aləm sağ olsun, mənim sözüm yoxdu. Getsin sabah gəlsin verim.

Yenə gecə vəzir taskülahı qoydu qabağına, dedi:

– Ey mənim taskülahım, küçük oğlu keçəlin gözü mənim vəzirliyimdədi. Dünən bir, bu gün iki, istəyir vəzir ola. Heç demir ki, mən keçəl babaya vəzirlik nə yaraşar? Ey mənim taskülahım, tədbir tök, məni qurtar.

Onda gördü taskülahdan bir səs gəldi:

– Ey vəziri- gülli- əzəm, heç qorxma. Bu iş mənim əlimdə su içimdi. Sabah şaha deyərsən ki, keçəli göndərsin Firəng şahının qızını gətirməyə.

Vəzir sevindi. Taskülahı öpüb qoydu iki qaşının arasına. Sabah səhərçağı xoruz banından ulduzlar gedəndən sonra qondu padşahın qapısına:

– Şah, yuxu görmüşəm.

– Nə yuxu?

– Şah, gecə yuxuda gördüm ki, keçəl gedib, Firəng padşahının qızını gətirib. Göndər gedib gətirsin. Bu fürsət ələ düşməz.

Padşah güldü, dedi:

– Vəzir, nə deyirsən? Mənim qoşunum onu gətirə bilməyib, Qaravəl Qara Məmməd, bir keçəlin birisi necə getsin gətirsin? İnsaf da yaxşı şeydi!

Vəzir dedi:

– Şah, elə xəyal eləmə. Bir adam ki, əvvəl şikarında elə bir heyvan şikar elədi ki, bir yanında saz çalındı, bir yanından işıq gəldi, qırx madyanı, əjdahanı gətirə bildi, elə bunu da eyləyə bilər.

Padşah dedi:

– Vəzir, mən ölüm?

Dedi:

– Sən öləsən!

Qaravəl Qara Məmməd təzəcə yuxudan ayılmışdı ki, qapı döyüldü.

Qarı dedi:

– Oğul, dur, gör bu yol nə aş bişiriblər?

Uzun sözün qısası keçəl gedib, qapıdan vəziyyəti öyrənib dedi:

– Nənə dur çörək bağla, yenə gedər oldum. Şah əmr eləyib gedəm Firəng padşahının qızın gətirəm.

Qarı dedi:

– Oğul, getmə, vəzir səni ölümə göndərir, o qızı hələm-hələm igidlər gətirə bilməyib.

Qaravəl Qara Məmməd dedi:

– Ölsəm də gedəcəyəm, qalsam da. Yol bilirsən öyrət.

Qarı dedi:

– Bala mən bir yol bilmirəm, özün get, səni Allaha tapşırdım.

Qaravəl Qara Məmməd belinə çörək bağlayıb çəkdi çustun dabanın, qırdı yerin damarın, dərələrdən yel kimi, təpələrdən sel kimi, badeyi-sərsər kimi baş yastığa, göz yuxuya verməyib, az getdi, çox getdi, iynə yarım yol getdi, yetişdi dərya qırağına, gördü bir adama oxşamaz, adam kimi başın salıb dəryaya qurtum-qurtum su içir, hər qurtumunda dəryanın suyu qarış yarım aşağı düşür. Qaravəl Qara Məmməd mat qaldı. Dedi:

– Küçük oğlu, bu haranın su içməgidi?

Div başını qavzadı, dedi:

– Küçük də oğlu, it də oğlu, bunu mənə çox görmə. Onu ona çox gör ki, Qaravəl Qara Məmməd əvvəl şikarında bir heyvan şikar eyləyib ki, bir yanında saz çalır, bir yanından işıq gəlir. Mən onu görsəm, beləsinə qul olaram.

Keçəl Qaravəl Qara Məmməd sevincək gülüb, dedi:

– Gədə, elə mənəm da!

Dedi:

– Sən Allah?!

Dedi:

– Vallah!

Qaravəl Qara Məmməd dəryanın suyun qurudanı özünə qul etdi, yola düşdülər. Az getdilər, çox getdilər, iynə yarım yol getdilər. Bir adama oxşamazın birinə yetişdilər, gördülər neçə dəyirman daşı hər biri bir dağ kimi boynunda dolandırır, hər nə qabağına gəldi vurur, dağıdır. Keçəl dedi:

– Küçük oğluna bax, dəli olub.

Dəyirman daşını fırlandıran durub dedi:

– Küçük də oğlu, it də oğlu, bunu mənə çox görmə. Onu ona çox gör ki, Qaravəl Qara Məmməd əvvəl şikarında elə bir heyvan şikar eləyib ki, bir yanında saz çalır, bir yanından işıq gəlir. Mən onu görsəm, beləsinə qul olaram.

Dəryanın suyun qurudan dedi:

– Gedə, elə bu özüdü da!

Dedi:

– Sən Allah?!

Dedi:

– Vallah!

Qaravəl Qara Məmməd onu da özünə qul eləyib yola düşdülər. Az getdilər, çox getdilər, iynə yarım yol getdilər, bir sapand atana yetişdilər. Yekə- yekə daşları qoyurdu sapandla tulazlayırdı oyan- buyana.

Qaravəl Qara Məmməd dedi:

– Küçük oğlu, bir sapandını saxla görüm, nəçisən! O nə cür sapand atmaqdı?

Sapand atan dayandı, dedi:

– Küçük də oğlu, it də oğlu, bunu da mənə çox görmə. Onu ona çox gör ki, Qaravəl Qara Məmməd əvvəl şikarında elə bir heyvan şikar eləyib ki, bir yanında saz çalar, bir yanından işıq gələr. Mən onu görsəm, beləsinə qul olacağam.

Dedi:
– Gədə, elə bu özüməm də!
Dedi:
– Sən Allah?!
Dedi:
– Vallah!
Keçəl Qaravəl Qara Məmməd onu da özünə qul edib, baş aldılar getməyə. Neçə mənzil gedəndən sonra yetişdilər bir adama oxşamazın birinə. Gördülər bir qulağın altına, bir qulağın üstünə salıb yatıb.
Keçəl dedi:
– Küçük oğlu, bu haranın qulağıdı, salmısan alt- üstünə?
Qulağı uzun ayılıb dedi:
– Küçük də oğlu, it də oğlu, bunu mənə çox görmə ki, bir qulağım altımdadı, bir qulağım üstümdə. Özüm də ağacdan dörd ağaca hər nə danışsalar, eşidirəm. Onu ona çox gör ki, Qaravəl Qara Məmməd əvvəl şikarında elə bir heyvan şikar eləyib ki, bir yanında saz çalır, bir yanından işıq gəlir. Mən onu görsəm, beləsinə qul olacağam.
Dedi:
– Gədə, elə bu mənəm də!
Dedi:
– Sən Allah?!
Dedi:
– Vallah!
Qaravəl Qara Məmməd onu da özünə qul eləyib üz qoydular getməyə. Az-çox gedəndən sonra yetişdilər Firəng padşahının məmləkətinə. Darvazalar bağlanmışdı, neçə qarovul oyan-buyanda durmuşdular. Firəng şahı oturmuşdu qəsrdə, bir anda gördü, oho, qoşunları gəlir. O dəqiqə xəbər yetişdi ki, taxtın çevrilsin, ürəyin qanla dolsun, nə oturmusan. Dörd adama bənzəməz, dilbilməz kəsib darvazanın qabağını deyir:
– Şahın qızını aparacağıq.
Şah dedi:

– Gedin gətirin.

Dəyirman daşını dığırladan düşdü qabağa, üz qoydular şahın qəsrinə. Şah dedi:

– Gedin sabah gəlin, danışaq.

Bu tərəfdən də vəziri çağırıb dedi:

– Bunlarla başarmaq olmaz. Ver car çəksinlər ki, məmə yeyəndən pəpə yeyənəcən mənə qonaqdılar. Özün də aşpazbaşıya de ki, qırx qazan plov bişirsin, qırxıncısına zəhər qatsın, verək bunlara, yesinlər, ölsünlər.

Bu tərəfdən Qaravəl Qara Məmmədgil oturmuşdular, birdən qulağı uzun qəhqəhə çəkib güldü. Dedilər:

– Gədə, nə var? Dəli oldun?

Dedi:

– Yox, şahla vəzir bizə aş bişirirlər.

Dedilər:

– Nə aşı?

Dedi:

– İstəyirlər bizə zəhər verib öldürsünlər.

Dəryanın suyun qurudan dedi:

– Görərik.

Sabah oldu. Məmə yeyəndən pəpə yeyənəcən doldular şahın qəsrinə. Qaravəl Qara Məmməd qullarınan gəldi əyləşdi. Qaravəl Qara Məmməd dedi:

– Padşah, icazə ver, mənim aşpazbaşım da getsin aşpazxanaya baş çəksin.

Padşah dedi:

– Eybi yoxdu, getsin.

Keçəl dəryanın suyun qurudanı göndərdi. Aşpazbaşı qırx qazan düyünü dəmləyib, qırxıncısını zəhərləyib, əl beldə, dəsmal çiyində dayanmışdı. Dəryanın suyun qurudan dedi:

– Aşpazbaşı, mən də Qaravəl Qara Məmmədin aşpazbaşıyam, icazə versən qazanlara baş çəkərəm.

Sonra keçdi əvvəlinci qazanın başına. Ağzını açıb aşpazbaşıya əl elədi, qazanı siyirib qoydu ağzına, uddu. Di, o birisi, di bu birisi, qırx qazanın düyüsünü yedi. Aşpazbaşı dedi:

– Düyülər necə bişib?

Dəryanın suyunu qurudan dedi:

– Çox gözəl!

Sonra keçdi oturdu yerində. Padşah dedi plovu gətirsinlər. Aşpazbaşı yeridi qabağa. Qazanın ağzını götürdü. Gördü dərman üçün bir dənə düyü qalmayıb. O qazan, bu qazan, qırx qazandan heç nə tapa bilmədi. Əli girdi ürəyinə . Padşah xəbər göndərdi. Bildi ki, bu iş keçəlgilin işidir. Hirsindən dil- dodağın gəmirdi. Hərəni bir dillə yola saldılar ki, bu günkü qonaqlıq qaldı sonraya. Qaravəl Qara Məmməd də qullarını götürüb getdi.

Padşah dedi:

– Vəzir, qaldıq bu dələduzların əlində. Tədbir tök.

Vəzir dedi:

– Şah, de polad hamamı qızdırsınlar. Onları dolduraq ora, qapıları bağlayıb, bacadan o qədər su tökək ki, boğulsunlar.

Padşah dedi:

– Vəzir, yaxşı fikir eləmisən.

Keçəl qullarla əyləşmişdi. Birdən qulağı uzun qəhqəhə çəkib güldü. Dedilər:

– Gədə, nə var? Dəli olmusan?

Dedi:

– Yox dəli olmamışam, vəzir bizə aş bişirir.

– Nə aşı?

– Bizi salacaqlar polad hamama, su töksünlər boğulaq. Dəyirman daşı dığırladanla dəyirman suyu qurudan dedi:

– Görərik!

Sonra dəyirman daşı dığırladan dedi:

– Mən daşlarımı da aparacağam!

Sabah padşah adam göndərdi, beşini də dəvət elədilər polad hamama. Qapıları bağladılar. Hamamın üst bacasını açdılar. Şarşor su tökdülər. Dəyirmanın suyunu qurudan necə ki, ağzın açdı

bacanın altına qoymadı bir damcı su dama. Çox vaxtdan sonra üzün tutdu dəyirman daşı dığırladana, dedi:

– Çatdadım axı! O daşları hansı günə saxlamısan?

Bu söz ağzından çıxan kimi başladı dəyirman daşı oynatmağa. Hamamın polad daşları çat bağladı, baca açıldı. Dəyirmanın suyunu qurudan necə ki, ağzını dayadı puf elədi, Firəng padşahının məmləkətinin yarısını sel götürdü. Xəbər getdi Firəng padşahına ki, taxtın tabut olsun, ürəyin qanla dolsun, nə oturmusan ki, məmləkətinin yarısını sel götürübdü. Bir dənə qızından ötrü niyə öz xalqını ölümə verirsən ? Qızını ver, götürsünlər getsinlər, yaxamız qurtarsın.

Firəng padşahı axırda çarəsiz qalıb Qaravəl Qara Məmmədi çağırıb dedi:

– Bu qız, bu da siz, götürün gedin.

Qaravəl Qara Məmməd qızı kəcavəyə mindirib, dörd qul yanında yola düşdü. Mənzil teyyi-mənazil gəldilər öz şəhərlərinə. Adam göndərib şaha xəbər verdi ki, Firəng padşahının qızını gətirdim, qabağa çıx.

Padşah əmr elədi, qoşun atlandı, çalhalnan qabağa çıxdılar. Qaravəl Qara Məmməd şəhərə varid oldu. Qızı bir baş apardı öz evinə, padşahı saymadı. Xəbər çatdı padşaha ki, evin yıxılsın, anan mələr qalsın nə oturmusan ki, keçəl Firəng qızını özünə çıxdı. Padşah adam göndərdi ki, Qaravəl Qara Məmməd tez qızı gətir mənə. Elə bir qız mənim kimi şahlara layiqdi. Nə ki, sən kimi kor- keçələ. Keçəl də adam göndərdi ki, padşah, bilirsən ki, heç bilmirsən, bil və agah ol, əvvəl:

– Biri ki əvvəl şikarında elə bir heyvan şikar eliyə ki, bir yanında saz çala, bir yanından işıq gələ, qırx madyanı, əjdahanı tuta gətirə, Firəng padşahını bezdirə, qızını ala gətirə, səni də, vəzirini də darmadağın edə bilər. Bu saat mənim şikarımı, qırx madyanımı özümə ver, çıx bu şəhərdən get, ya da gəlib taxtını belinə tabut eləyəcəm.

Padşah vəziri çağırıb dedi:

– Vəzir, tədbir tök görək bu küçük oğlu bizi işə qoyacaq.

Vəzir dedi:

– Tədbir yoxdu. O küçük oğlu keçəl hər nə istəsə elər, yaxşısı budu başımızı götürüb, qaçaq gedək bir ayrı yerə.

Durdular təl-tələsik yır-yığış eləyib şəhərdən çıxdılar. Keçəl də taxta əyləşib, nənəsini də özünə vəzir elədi. Sonra yeddi gün, yeddi gecə toy tutub şadmanlıq elədi. Firəng padşahının qızını aldı.

## QIZIL ALA BALIQ

Bir gün var idi, bir gün yoxdu, günlərin bir günündə bir padşah var idi. Bunun üç oğlu var idi. Vurar bir gün bu padşahın gözləri tutular. Həkim-təbib əlac eliyə bilməz. Axırda biri deyər:

– Qibleyi-aləm sağ olsun, sənin gözünün dərmanı bir qızıl ala balıqdır ki, filan dəryada olur.

Şahın böyük oğlu durar ayağa, gedər dərya qırağına, tor atar, tutmaz. Ortancıl oğlan gedər, tutmaz. Axırda balaca oğlan gedər, tutar balığı. Baxar görər bir balıqdı ki, Allahın kərəm dəryası cuşa gələndə, onu xəlq eləyib. Öz- özünə deyər: "İnsaf deyil bu kiçik balığı tutasan". Atar dəryaya qoyar gələr. Şeytan tez yetirər özün padşahın yanına. Deyər ki, hal- qəziyyə belə oldu. Oğlan gələr evə deyər:

– Ağa. Tuta bilmədim.

Şah deyər:

– Mirqəzəb hazır olsun.

Vəzir deyər:

– Qurban, sən öz oğlunu öldürsən, hamı səni töhmət elər. Öldürmə, xarici-bələd elə.

Bu əmr elər, oğlanı şəhərdən çıxarsınlar. Oğlan gələr nənəsinin yanına, deyər:

– Nənə, məni xarici-bələd elədilər, bir sözün var, mənə de.

Nənəsi gətirər üç dana kökə verər, deyər:

– Hər kim qabağına çıxsa, bir dana kökə ver, denən:

– Ala, böl.

Gördün ki, yarıdan çoxun verdi sənə, onla yoldaş ol, yarıdan azın verdi, qayıt ayrı yolunan get.

Oğlan kökələri alar, düşər yola. Gələr, bir nəfərə rast gələr, kişi deyər:

– Oğul, hara gedirsən?

Deyər:

– Bəs dədəm məni xarici-bələd eləyib, gedirəm, görüm hara yetişərəm.

Deyər:

– Mən də dünyadan doymuşam, elə sənlə yoldaş olacağam.

Bunlar gələrlər, yetişərlər bir yerə. Oğlan çıxardar kökələrin birin verər ona, deyər:

– Ala, böl yeyək.

Kişi kökələri alar. Bölər, yarından çoxunu özü götürər, azı verər oğlana. Oğlan kökəni yeyər, deyər:

– Da, mən getmirəm, qayıtmalı oldum.

Qayıdar, bir ayrı yolnan başlar getməyə, Görər bir nəfər gəlir. Deyər:

– Qardaş, hara gedirsən?

Deyər, bəs dədəm məni xarici-bələd eləyib.

Deyər, yaxşı oldu, elə mən də sən dərddəyəm. Gəl, gedək.

Bunlar gələrlər, gələrlər, aclıq qələbə elər. Oğlan çıxardar bir kökə verər, deyər:

– Böl, yeyək.

Bu alar kökəni bölər, yarıdan çoxunu özü götürər, azı verər oğlana. Oğlan deyər:

– Da mənim getməyim olmadı.

Durar yola düşər gəlməyə, görər bir oğlan gəlir. Deyər:

– Hara?

Deyər:

– Hali- qəziyyə belədi, dədəm məni xarici- bələd eləyib, məni özünə yoldaş elə.

Deyər:

– Olsun!

Bunlar gələrlər, gələrlər, ta aclıq qələbə eylər.

Oğlan çıxardar kökəni: ─ Al, böl, yeyək!

Deyər:

– Özün böl!

Çəkiş-bərkiş, axırda yoldaş olar, bölər. Üçdən birini özü götürər, kəsərin verər oğlana. Oğlan deyər:

– Mən, nənəm deyən adamı tapmışam.

Bunlar gələrlər, gələrlər, yetişərlər bir şəhərə. Dostu deyər:

– Oğlan, indi ki, gedirik bu şəhərə, mən nə desəm sözümə bax, özbaşına bir iş görmə. Bir də hər nəmənə tapsaq, ortadan böləcəyik.

Deyər:

– Olsun!

Deyər:

– Götür kitab, qələmdan, çıx bazara. Bu şəhərin padşahının qızının dili bağlıdı. Hər nə qədər falçı-rəmdar gətiriblər, dilin aça bilməyib. Get bazara, denən, rəmdaram, falçıyam. Desələr, "Oğlan, lal dili aça bilərsən?". Denən "Bəli".

Oğlan deyər:

– Mən hardan başarıram.

Deyər:

– Sənin işin yoxdu, gəl, mənim yanıma deyim.

Oğlan sabah durar bazara gedər.

Deyər:

– Falçıyam, rəmdaram!

Padşahın adamları gələr deyər:

– Lal dili açarsan?

Deyər:

– Açaram!

Deyər:

– Bu şəhərdə adam qalmayıb, şahın qızına baxmasın. Gəl, gedək, bəlkə sən onun dilini açdın.

Deyər:

– Qələmdanım qalıb evdə, qoy gedim gətirim.

Gələr evə görər yoldaşı oturub. Deyər:
– Necə oldu?
Deyər:
– Heç zad durublar, məni gözləyirlər.
Deyər:
Sənin işin olmasın, get şahlığa denən, padşah, vəzir-vəkillər eşitsinlər, naxoşun yanında. Denən, qəlyanı həyətdə hovuzdan doldurun gətirin, qəlyan danışsın, qulaq asın.
Oğlan durar, gələr şahlığa. Deyər:
– Qızı gətirin, dilin açım.
Şah, vəzir-vəkil hamısı düzülüb oturar. Oğlan deyər:
– Qibleyi- aləm!
Deyər:
– Bəli!
Deyər:
– Durub qulaq asın. Qızın dilin açaram! Qəlyanı həyətdə hovuzdan doldurun, gətirin.
Qəlyanı doldurarlar, gətirərlər, qoyarlar ora. Oğlan deyər:
– Qəlyanla bir neçə kəlmə söhbət elə, qulaq asaq. Sonra üzün tutar padşaha deyər:
– Qibleyi-aləm sağ olsun, durub qulaq asın. Qəlyan başla.
Qəlyan başlar:
Salamdan sonra bir gün var idi, bir gün yox idi. Bir padşah var idi, bunun oğlu yox idi, bir gün aynaya baxar, görər saqqalı ağarıb. Deyər: ─ Mən, gör, nə bədbəxtəm ki, indiyədək övladım olmayıb. O zaman piri-məddah qapını döyər, gələr içəri. Deyər:
– Qibleyi-aləm, niyə pozğunsan?
Deyər:
– Bu sinnə gəlmişəm, övladım yoxdu.
Çıxardar bir alma verər, deyər:
– Yarısını böl, ver hərəminə, yarısını da özün ye. Amma uşaq olandan sonra, onu üç ay mən aparacağam.
Deyər:
– Olsun!

Bir müddət keçər, bunların bir oğlu olar. Oğlan böyüyər, olar on sinində. Padşah deyər:

– Əlhəmdulla, baba dərviş gəldi.

Bu söz ağzından çıxcaq, qapı taqqıllanıb döyülər. Haman baba dərviş girər içəriyə, deyər:

– Oğlandan ötrü gəlmişəm.

Deyər:

– Baba dərviş, oğlanı nə elərsən, öz ağırlığı qədər pul verirəm.

Deyər:

– Olmaz, vədə kəsmişəm.

Axırda bu oğlanı götürər aparar. Bir qədər yol gedərlər, ta yetişərlər dərya qırağına, Dərviş deyər:

– Oğlan, bax gör, dəryada nə görürsən?

Oğlan deyər:

– Bir imarət görürəm.

Dərviş deyər:

Gedərsən o imarətə, içində bir gəbə var, o gəbəni götürərsən, gətirərsən bura. Amma gəbəni açmayasan ha!

Deyər:

– Yaxşı.

Oğlan dəryanın üstündən yeriyə-yeriyə gedər yetişər imarətə. Girər içəri. Görər heç zad yox, təkcə bir dana gəbə var. Gəbəni götürər öz-özünə deyər: - "Açım görüm içində nə var...." Gəbəni açar, görər heç zad yox. Bir dana kibrit qutusu. Əlin atar bir dana kibrit çəkəndə bir bərk şaqqıltı gələr. Padşahın qızı birdən deyər:

– Oğlanın ürəyi pis olmadı?

Oğlan deyər:

– Qibleyi- aləm, sağ olsun, qızın dili açıldı?!

Padşah deyər:

– Bəli!

Vəzir deyər:

– Xeyr.

Qəlyan deyər:

Baba, dürüst qulaq asın. Qızın dilin açıram.

Oğlan kibriti atar yerə. İmarət dağılar. Bir taxta parası üstə gəlib yetişər bir meşəyə. Kibritin içindən əli kürəklilər çıxıb, yeri kürəkləyərlər. Sonra əli süpürgəlilər çıxıb süpürərlər. Sonra əli kürəklilər çıxıb dövrə vurub oturarlar. İçəridən bir qız çıxıb taxtın üstündə oturub, deyər:

– Hanı mənim namizədim?

Deyiblər:

– Odu bax, qorxudan ağaca çıxıb.

Deyər:

– Gedin, gətirin!

Gedərlər oğlanı gətirərlər. Oğlan oturar orada eyş-işrətlə məşğul olar. Səhərə yaxın oğlan kibrit qutusun bağlar. Əli kürəklilər, əli süpürgəlilər, əli çəməlilər, qız, hamısı girər qutuya. Bu, durar gələr yetişər bir karvansaraya bir dəvəlik tutar. Karvansaraçı öz- özünə deyər:

– Oğlan, bu bir tək adamdı, dəvəliyi neylər? Bunda bir iş var.

Gecə yavaşca gələr qapının deşiyindən baxar, görər oğlan bir kirbit çıxartdı, çəkdi. Qutunun içindən bir dəstə əli süpürgəli çıxdı yeri süpürdü, sonra bir dəstə əli çəməli çıxdı. Bir taxt qoydular, bir qız çıxdı, oturdu taxtda, başladılar eyş- işrətə.

Karvansaraçı tez gəldi padşaha xəbər verdi ki, bir oğlanda bir gəbə var ki, yer üzündə sənə layiqdi. Padşah əmr elədi getdilər oğlanı tutdular, apardılar saldılar zindana. Qutunu da aldılar.

Bir gün padşahın qızı oturmuşdu, dedi:

– O qutunu gətirin görüm nə cürdü. Qızları yığır başına, gedirlər bağa. Qız qutunu çıxardar, bir kibrit çəkər. Şaqqıltı gələr. Padşah qızı birdən deyər:

– Bəs qızın bağrı çatlamadı.

Qəlyan deyər:

– Qibleyi- aləm sağ olsun, eşitdiz ki, qızın dili açıldı?

Dedilər:

– Eşitdik.

Çoxu dedi:

– Biz eşitmədik.

Dedi:

– Axı dedim durub qulaq asın...

Qız kibriti çəkdi, bir dəstə əli kürəkli çıxdı, vurdu qızları dağıtdı, sonra bir dəstə əli süpürgəli çıxdı, yeri süpürdü. Sonra bir dəstə əli çəməli taxt gətirdilər. Bir qız çıxdı dedi:

– Hanı mənim namizədim?

Dedilər:

– Tez olun, gedin gətirin.

Əli çəməlilər getdilər zindana. Oğlanı çıxartdılar, gətirdilər. Oğlan kibriti götürdü, düşdü yola getdi. Yolda dərvişə rast gəldi. Dərviş dedi:

– Oğlan, gəbəni gətirdin?

Oğlan:

– Bəli.

Dərviş gəbəni alar, oğlanı aparar basar bir daş kələyinin altına, gələr, kibriti çəkər. Yenə əli kürəklilər, əli süpürgəlilər, əli çəməlilər çıxar, mizi gətirərlər. Qız deyər:

– Hanı mənim namizədim?

– Odu ha, daş kələyinin altında.

Qız deyər:

– Gedin, gətirin.

Gedərlər, gətirərlər. Oğlan qılıncı çəkər, dərvişin boynun vurar. Sonra kibriti qutudan götürər, gələr dədəsinin yanına. Qibleyi-aləm sağ olsun, indi dürüst qulaq asın. Qızın dilin açıram:

Bir gün bir dərzi, nəccar, bir abid yol gedirdilər. Gecə zamanı yetişdilər bir meşəyə, dedilər burada yataq, səhər açılsın, duraq, düşək yola gedək. Biri dedi:

– Oğlan, burada qurd-quş bizi dağıdar.

Deyərlər ki, növbətilən hərə bir az artıq qalsın. Nəccar deyər:

– Siz yatın, mən oturmuşam.

Bunlar yatar, nəccar görər yuxusu gəlir. Bir dənə ağac kötüyü görər, onu yontalar elər adam. Bir azdan sonra dərzini ayıldar, deyər:

– Dur, bir az da mən yatım.

Dərzi durar, görər, oho, bunlardan sonra birisi də orada yatıb baxar, görər bir dana ağacdan qızdı. Bu da başlar buna bir dəst paltar tikər. Sonra abidi oyadar, özü gedər yatar. Abid durar görər ki, bir nəfər də yatıb o tərəfdə.

Deyər: – Görəsən bu kimdi?

Baxanda görür ki, bir dana taxtadan qızdı.

Deyər: – Dərzi mənə gül vurub. Kələk gəliblər mən nə edim? Nə eləyim. Əlini götürər göyə deyər: – Allah, sən də buna ruh ver!

Allah ona ruh verər. Səhər olar, dərzi ilə nəccar oyanar görər ki, bir dana qız oturub orada. O deyər bu mənimdi, bu deyər, bu mənimdi. Siz deyin görək bu kimin idi? Birdən padşahın qızı o tərəfdən deyər:

– Nəccar fəhlə pulun alsın, dərzi də əl muzdun, o qız yetişər abidə.

Qəlyan deyər:

– Qibleyi- aləm sağ olsun, eşitdin qızının dili açıldı?

Hamı deyər:

– Bəli, eşitdik.

Oğlan deyər:

– Qəlyanı aparın, boşaldın hovuza gəlin.

Apardılar boşaltdılar.

Padşah deyər:

– Oğlan mən nəzir eləmişəm, hər kim mənim qızımın dilini açsa, qızımı verəcəyəm ona. İndi götür qızı apar.

Oğlan deyər:

– Eybi yoxdur, qoy gedim yoldaşıma deyim gəlim.

Gələr görər yoldaşı oturub. Deyər:

– Necə oldu?

Oğlan hali-qəziyyəni deyər. Yoldaşı deyər, dur get, qızı gəti.

Oğlan gedər, qızı alar gətirər. Padşah buna xələt, cəvahirat verər, yola salar. Bu iki yoldaş gələrlər, gələrlər, axırda yetişərlər dərya qırağına. Yoldaşı deyər:

Mən burada səndən ayrılıram, gətirin malları bölək. Gətirərlər, hər nəmənə qazanmışdılar bölərlər. Sonra yoldaşı deyər:

– İndi də qızı bölək.

Qızın yenə dili tutular.

Oğlan deyər:

– Axı, qızı necə bölək?

Deyər:

– Danışdığımız budu.

Deyər:

– Baba, heç mən istəmədim, götür qızı sən.

Deyər:

– Olmaz, gərək bölək.

Deyər:

– Mən bölə bilmərəm. Özün hər nə eləyirsən, elə.

Oğlan üzün çevirir o yana. Yoldaşı gətirər qızı bağlar ağaca, qız dinə bilmir. Yoldaşı qılıncını çəkər, yumular üstünə. Qız onu görcək birdən öyümə gələr. Bir dana ilan boğazından çıxıb düşər yerə. Yoldaşı deyər:

– Oğlan, gəl böldüm.

Oğlan gələr görər qız ağacda, deyər:

– Hanı böldün?

Deyər:

– Elə belə bölərlər. Bu qızın dilin açmamışdın, indi açıldı. Dur, qızı da götür, get. Mən də gedim öz yoluma.

Bunu deyər atılar dəryaya, olar bir qızıl ala balıq. Deyər:

– Oğlan, məni tanıyırsan?

Deyər:

– Mən indi tanıdım.

Balıq dərya qırağından bir az torpaq götürər, verər oğlana, deyər:

– Apar, bunu çək dədənin gözləri toxdasın.

Oğlan gələr torpağı dədəsinin gözlərinə çəkər. Dədəsinin gözləri sağalar. Sonra çıqqasını qoyar oğlanın başına, özü şahlıqdan əl çəkər. Oğlan yeyər, içər, mətləbinə keçər.

## GÜL SİNAVƏRƏ NƏ ELƏDİ, SİNAVƏR GÜLƏ NƏ ELƏDİ?

Bir gün var idi, bir gün yoxdu. Bir dana Hatəm var idi. Bu Hatəm səxavətli, əliaçıq idi. Uşaqlıqda süd yeyəndə, ağzın əmməkdən çəkərdi, verərdi ayrı uşaqlara. Bunun bir imarəti var idi, qırx qapısı. Hamı gələrdi xörək yeyərdi, çıxanda bir dövri qızıl verib gedərdilər.

Bir gün bir dərviş gələr qapıdan girər, çıxanda bir dövri qızıl alar. Keçər o birisi qapıdan, genə yeyər, içər, çıxanda bir dövri qızıl alar. Üçüncü qapıdan keçəndə deyərlər:

– Pəh! Oğlan, na tamahkarmışsan? İki qapıdan girdin, yedin, qızıl aldın, bəsdi da, çıx get!...

Dərviş qızılları atar yerə, deyər:

– Vah! Vah! Hatəm elə bu? Şəhərdə bir padşah qızı var, qırx qapısı var. Bir gündə qırx qapısından girsən, yesən, çıxanda qızıl verərlər. Bir nəfər də deməz ki, hardan gəlirsən, hara gedirsən.

Hatəm bir barmağın dişlər, deyər:

– Gərək gedəm, mən bu qızı alam.

Gələr şəhərə gedər qızın imarətinə, görər bəli, bir imarətdir özününkündən yüz dəfə yaxşı. Qırx qapıdan girər, yeyər, içər, çıxanda bir dövri qızıl alar. Heç kəs də bir söz deməz. Axırda gələr qızın yanına, deyər:

– Gərək gələsən mənə.

Qız deyər:

– Mənim başlığım ağırdı, gətirə bilməzsən.

Deyər:

– Hər nəmənə olsa, gətirərəm.

Deyər:

– Filan şəhərdə bir nəfər əzançı var, axşamçağı gülə-gülə çıxar dama, şövqi-zövq ilə əzan verər. Qurtarandan sonra başına vurar, döşünə döyər, yıxılar huşdan gedər. Onun sirrindən məni hali elə, mən də öz sirrimi sənə deyim.

Hatəm gedər əzançının şəhərinə. Axşamüstü görər, bəli, bir nəfər kişi çıxdı dama gülə- gülə başladı əzana, qurtaranda başına döydü, yıxıldı yerə. Elə ki, özünə gəldi, Hatəm gedər yanına, deyər ki, bu gecə sənin qonağınam.

Əzançı deyər:

– Eybi yoxdu.

Şam başında Hatəm çəkilər kənara deyər:

– Öz sirrindən məni hali eləməsən, yemərəm.

Əzançı deyər:

– Qardaş şamını ye, mən sirrimi heç kəsə demirəm. Filan şəhərdə bir kor yolçu var. Bir qədər pul verərsən deyər:

– İnsafın olsun. Onun sirrin mənə gətirsən, mən də öz sirrimi bildirərəm.

Hatəm səhərçağı düşər yola, gedər, gedər, az gedər, çox gedər, bir qədər yol gedər, yetişər bir şəhərə. Görər bir kor yolçu oturub. Bir qızıl qoyar ovcuna, deyər:

– İnsafın olsun.

Bir dana qızıl verər, genə deyər:

– İnsafın olsun.

Hatəm hər nə qədər pul verər buna, deyər:

– İnsafın olsun.

Axırda Hatəm deyər:

– Qardaş, öz sirrini mənə de görüm, yəni, necə, insafın olsun?

Yolçu deyər:

– Mən sirrimi heç kəsə demirəm. Əgər istəsən biləsən, gərək mənə deyəsən: Gül Sinavərə nə eylədi, Sinavər gülə neylədi? Ama onu da bil ha, o, indiyəcən öz sirrini heç kəsə deməyib. Hər kimə də desə, onu öldürər.

Hatəm yenə sübhçağı durar düşər yola, gələr. Çöli-biyabanda görər hay-küy gəlir. Yaxınlaşanda görər üç dana div bir-birilə savaşırlar. Elə ki, Hatəmi görərlər deyərlər:

– Dinməyin, bəni- adəm gəldi, o, bizim malımızı bölər.

Hatəm deyər:

– Nə var, nə olubdu?

Divlər deyərlər:

– Bizim dədəmizin bir az malı qalıb, gəl, onu böl. Bir dana həzrəti-Süleyman xəlçasıdı ki, hər yerə, deyəsən aparar, bir üzükdü, hər kim barmağına taxsa, qeyb olar, o hamını görər, heç kəs onu görməz. Bir də süfrədi ki, hər vaxt açsan cürbəgür xörəklər düzülər. Əgər dədəmizin malını yaxşı bölsən cik-cik yeyəcəyik. Bölməsən səni kabab çəkib yeyəcəyik.

Hatəm deyər:

– Şeyləri qoyun yerə. Mən üç dana ox atacağam. Hər kim əvvəl gətirsə, xalçanı verəcəm ona. Ondan sonra gətirənə üzüyü verəcəyəm. Axırda gətirənə süfrəni.

Divlər dedilər:

– Görünür bəni-adəm başlar bölməyi.

Hatəm üç dana ox çıxardar nə qədər gücü var idi atar. Divlər hücum apararlar oxların üstünə. Hatəm tez üzüyü taxar barmağına, süfrəni götürər, minər xalçaya deyər:

– Həzrəti-Süleyman eşqinə, məni qoy Sinavərin qapısına.

O dəqiqə yetişər bir şəhərə, görər böyük bir qapıdır. Qapını döyər, deyər:

– Mən Allah qonağıyam, gecəni mənə bir yer verin.

Deyərlər:

– Eybi yoxdu.

Hatəm görər otaqda bir dana qəfəs var. İçində bir qatır. O yanda bir it durub. Şam başında kişi tökdü itin qabağına, it yedi doydu. Apardı artığını tökdü qatırın qabağına. Qatır yemədi. Kişi getdi bir dana quru kəllə gətirdi, qatırın gözünün qabağında bir- iki ağac çəkdi kəlləyə. Qatır başladı yeməyə. Onda bu yol kişi Hatəmə dedi:

– Qonaq, bismillah!

Hatəm dedi:

– Gərək məni bu sirrdən agah eliyəsən, niyə qatır yemədi, kəlləsinə döydün, yedi?

Kişi dedi:

– İndiyəcən heç kim mənim sirrimi eşiyə çıxarda bilməyib. Hər kimə desən, öldürrəm. Canın salamat qalsın deyə, başını sal aşağı, çörəyini ye. Neçə gün də qalırsan, qal, çıx get işinə- dərdinə.

Hatəm dedi:

– Deməsən, yemərəm.

Kişi yapışar Hatəmin əlindən aparar bir qəbiristana. Deyər:

– Görürsən? Bunların hamısına demişəm, sonra öldürmüşəm.

Hatəm dedi:

– Nə olar, mən onlardan qaraqaş, qaragöz deyiləm ki, de, məni də öldür.

Kişi dedi:

– Gəl, şamını ye, deyim.

Şamdan sonra kişi deyir:

– Bəs, qulaq as. Mənim adım Sinavərdi. Bir dana əmqızım vardı. Adı Gül idi. Bunu aldılar mənə. Gecənin bir vaxtı gördüm Gül girir yerimə. Bədəni bum-buz. Dedim:

– Ay əmqızı, niyə belə?

Dedi:

– Əmi oğlu, səbr eləmirsən, hey gedirəm eşiyə.

Bir gün getdim, gördüm atım bulum- bulum bulanır. Dedim:

– Ay mehtər, bunun arpasın niyə kəsirsən? Mən ki, neçə vaxt var onu minmirəm. Niyə gərək belə arıqlaya?

Mehtər dedi:

– Ay ağa, hər gecə gəlirsən, at istəyirsən, bəs nəmənədi? Mən gördüm, paho, elə bil, burada bir iş var. Dedim:

– Bu gecə gəlib, istəsəm vermə.

O gecə özümü verdim yuxuya, gecənin bir zamanı gördüm əmqızım durdu ayağa, mənim paltarımı geydi, şəmşirimi çəkdi, dedi:

– Vurdum! Oyaqsan vurdum boynun getsin. Mən xımımı çəkdim, dinmədim. Əmqızım çıxdı eşiyə getdi tövləyə. Mehtərə dedi:

– Atı çək eşiyə.

Mehtər dedi:

– Axı səhər özün dedin vermə.

Çəkiş-bərkiş, axırda atı mindi getdi. Mən də bir ayrı at mindim düşdüm dalınca. O getdi, mən getdim, o getdi, mən getdim. Axırda yetişdi bir mağaraya. Girdi içəri, mən də dalınca. Gördüm qırx hərami oturub. Qırx həramibaşı əmqızımı görcək çığırdı:

– Çəpəl həramzadə, bə harada idin?

Əmqızım dedi:

– Köpək mehtərə öyrətmişdi, atı vermiyəsən, yubandım.

Qırx həramibaşı dedi:

– Axı deyirəm, qoy öldürüm, qoymursan, sabah öldürərəm.

Başladılar bu yol şərab içməyə. Gördüm bunlarla başaranmayacağam. Şərablarına bir az bihuşdarı vurdum. Hamısı huşa getdi. Qırxının da başın kəsdim. Qırx həramibaşını saldım torbaya, əmqızımı da qoydum atın üstünə gəldim. Səhərçağı əmqızı ayıldı, dedim:

– Əmqızı, bir dana yuxu görmüşəm. Yuxuda gördüm ki, gecənin bir zamanı sən ayıldın, durdun ayağa, mənim paltarlarımı geyindin, qılıncı çəkdin, dedin:

– Ayıqsan, vurum!

Mən səs vermədim. Sən getdin, mehtərdən at istədin. Mehtər dedi:

– Özün demisən vermə.

Sən axırda zor elədin, atı aldın. Mən də dalınca. Yetişdin bir mağaraya girdin içəri. Mən də dalınca. Gördüm qırx hərami oturub. Qırx həramibaşı sənə dedi:

– Çəpəl həramzadə, sən haradaydın?

Sən dedin:

– Köpək tapşırmışdı mehtər atı verməsin, yubandım.

Qırx həramibaşı dedi:

– Axı, deyirəm qoy öldürüm, qoymursan. Sabah başın kəsərəm.

Mən onların şərabına bihuşdarı qatdım. Hamısı içdi, yıxıldı. Mən girdim bir- bir onların başın kəsdim. Qırx həramibaşının başın da qoydum torbaya, gətirdim, səni də gətirdim.

Əmim qızı dedi:

– Bu yuxu deyil, aşkardı, hanı baş?

Mən torbanın başın açdım. Baş yerə düşdü. Əmim qızı bir ovsun oxudu. Mənim üzümə püflədi, dedi:

– Get, eşşəyin biri eşşək.

Mən oldum bir dana eşşək, vurdular, saldılar eşiyə. Bir nəfər məni tutdu, apardı evinə. Gündə mənə kül çatardı, daş çatardı. Belim şilim-şəhrə olmuşdu. Yonca, saman, arpa qabığıma tökürdülər, yemirdim, çörək verirdilər yeyirdim. Ev sahibi arvadına deyirdi:

– Arvad, bu eşşək adama oxşayır.

Bir gün həyətdə oturmuşdum. Bədənim işdən şırım- şırım sızıldayırdı. İki dana quş gəldi oturdu ağacda. Biri dedi:

– Bacı!

O biri dedi:

– Can bacı!

Dedi:

– Bilirsən bu kimdi?

Dedi:

– Bu, Sinavərdi, əmqızısı ovsun oxuyub olub eşşək. İndi bu ev sahibi ayıq olaydı, bizm sözümüzü eşidəydi. Bizim ayağımız altına iki dənə yarpaq düşəcək. Yarpaqları döyüb suya töksələr, sonra qaynadıb eşşəyin başına töksələr, dönüb adam olar.

Demə bəs ev sahibi ayıqmış, yarpaqları götürdü, həvəngdə döydü, suya tökdü. Suyu qaynadıb mənim başıma tökdü. Mən yenə oldum adam. Gəldim evimizə. Elə qapıdan girmək istəyirdim, əmqızım bir ovsun oxudu, püflədi üzümə, dedi:

– Get, itin biri it!

Mən oldum bir dana it. Durdular saldılar eşiyə. Getdim bir qəssab dükanına. Sümük atdılar yemədim. Ət atdılar yemədim. Özləri kabab yeyirdilər, başımnan görsətdim. Bir az verdilər, yedim. Əlimlə qoydum ağzıma. Onlar biri-birinə dedi:

– Bura bax, bu heç itə oxşamır. Adam kimi xörək yeyir.

Neçə gün mən orada qaldım. Genə bir gün o iki quş gəldi, oturdu ağacda. Biri o birinə dedi:

– Bacı!

O biri dedi:

– Can bacı!

Dedi:

– Bunu tanıyırsan?

Dedi:

– Yox, tanımıram.

Dedi:

– Bu haman Sinavərdir ki, əmqızısı eşşək eləmişdi. Biz dərman elədik, oldu adam, gənə əmiqızı eləyib it. Bu qəssab ayıx olaydı, sözlərimi eşidəydi, bu davanı deyərdin, bunu basaydı xəznəyə, bu olaydı adam. Sonra özü də bu davanı oxuyaydı, Gülü görəndə puflayaydı üzünə. Qəzadan qəssab ayıq idi. Məni hamama apardı, davanı dedi, məni basdı xəznəyə, mən tazadan oldum adam. Quşlar öyrədən davanı tez- tez dedi ki, yadımdan çıxmaya. Oxuya-oxuya gəldim evə. Elə ki, gözüm Gülə sataşdı davanı üzünə püflədim, dedim:

– Get, qatırın biri qatır.

Əmqızım oldu bir qatır, tutdum bağladım evdə. İndi o, vaxtdan itimə xörək tökərəm, o yeyər, doyar, artığın tökərəm qatıra. Yeməz, gətirərəm qırx həramibaşının kəlləsini qabağında qoyaram, başlar yeməyə. Bu mənim sirrim. İndi ki, bildin, dur aparım öldürüm.

Hatəm deyər:

– Eybi yoxdu, qoy mən iki rükət namaz qılım, öldür.

Durar, xalçanı açar. Oturar üstündə, üzüyü taxar barmağına, deyər:

– Həzrəti- Süleyman eşqinə, məni qoy "İnsafın olsun" deyən korun qapısına.

Sinavər ha oyana baxar, buyana baxar, görər Hatəmdən əsər yoxdu. Elə ki, Hatəm yetişər korun qapısına, dönər girər içəri. Kor deyər.

– Sən gəldin?

Hatəm deyər:

– Gəldim.

Başlar bu yol hali-qəziyyəni deyər. Kor deyər:

– İndi ki, belə oldu. Bəs qulaq as:

Günlərin bir günündə biz iki yoldaş idik, qardaşdan artıq, kəndin qoyunun dağda otarırdıq. Bir gün süd sağmışdıq, kasaya qoymuşduq soyusun. Qaşığı da qoymuşduq kasanın üstünə. Qardaşım yatdı, dedi:

– Süd soyuyanda məni oyat, durum yeyək.

Bir azdan sonra mən qardaşımı oyatdım ki, ayağa dur süd soyudu. Gördüm milçək kimin tələsik gəldi qaşığın üstündən keçdi girdi qardaşımın burnuna. Qardaşım oyandı dedi:

– Qardaş niyə məni oyatdın. Bir yaxşı yuxu gördüm. Yuxuda gördüm getmişəm süd dəryasına. Süd dəryasından keçdim, yetişdim bir qalaya, keçdim qalanın içərisinə, küp-küpə söykənib, dolu qızıl ilə. Əl atdım qızıllardan cibimə doldurdum. Sən yuxudan oyatdın.

Dedim:

– Qardaş, bu yuxu döyül, dur, ağa, bəs, hali-qəziyyə belədir.

Gəldik, kələyin dibini sökdük, bəli, gördük doludu qızılla. Oranı basdırdıq, gəldik daş kələyinin yanına. Qardaşım girdi içəri. Qızıl küpləri bir-bir verdi eşiyə. Axırıncını verəndə şeytan məni tovladı ki, daşı sal qardaşının başına ölsün, qızılların hamısı özünün olsun. Bir daşı dığırlatdım aşağı, düşdü qardaşımın başına. Yel əsdi, tufan qopdu, hava qaranlıqlaşdı. Göz-gözü görmürdü. Mən üzüquylu düşdüm. Bir azdan sonra ayıldım gördüm da gözüm görmür. Qızıllardan da əsər yoxdu. O zamandan deyirəm:

– İnsafın olsun. Çünki o vaxt qardaşımı öldürməsəydim, indi belə olmazdı.

Səhər çağı Hatəm həzrət- Süleyman xalçasına minər, gələr əzançının evinə. Açar kor kişinin sirrini deyər. Əzançı deyər:

– Bəs mən də öz sirrimi sənə bildirirəm.

– Günlərin bir günündə mən çıxdım dama, əzan verməyə, gördüm bir kiçik quş durub damda. Əzanı verdim, qurtardı, qanad-qanada çaldı getdi. Sabah, birisi gün qız gəldi, əzan qurtarandan sonra uçdu getdi. Axırda bir gün dedim:

– Səni and verirəm məni yaradan Allaha! De görüm, sən kimsən?

– Mən pəriyəm. Sənin əzanının səsini çox sevirəm. Hər gün gəlirəm, qulaq asıram.

Dedim:

– Gəl, səni alım.

Dedi:

– Bəni-adamda vəfa olmaz, sən məni saxlaya bilməzsən.

Dedim:

– Yox, elə də deyil. Saxlayaram.

– Şərt elə ki, mənim dalıma əl vurmayasan, bir də mən hər nə eləsəm, dinməyəsən.

Dedim:

– Eybi yoxdu.

Mən bunu aldım. Bir müddət keçdi, bir cüt oğlan doğuldu. Bir gün vurdu nənəm naxoşladı, öldü. Qız getdi çıxdı nərdivana. Nə qədər dedik en, gəl aşığı, gəlmədi. Gətirdik ölünü aparaq, başladı gülməyə, güldü, güldü, yenmədi. Apardıq ölünü basdırdıq. Qayıtdım evə, gördüm evi yuyur. Hirsləndim ki, mənim nənəm ölüb, sən niyə gülürsən? İndi yenə evi yuyursan .

Dedi:

– Niyə, şərt eləmişdik mən hər nə eləsəm, dinməyəsən.

Sonra başladı dedi ki, adam öləndə, hər yan dizəcən qan olur. Mən çıxdım nərdivana ki, qana batmayım. Bir də sənin nənən ölməmişdən qabaq bir küftə bişirmişdi, eşşək başın uzatdı: "Mənə də!" Bir küftə atdı ağzına. Ölünün qabağında atılıb düşdü. Mən ona güldüm. Da bir söz tapmadım deyəm.

Bir gecə də öz-özünə dedim: görəsən bunun dalında nə var ki?... Yatmışdı, yavaş- yavaş əlimi apardım kürəyinə, bir cüt qanad var idi. Elə ki əlim dəydi, dik gözlərini açıb dedi:

– Gördün, deyirəm bani- adamda vəfa olmaz:

Dedim:

– Bilmədim, əlim dəydi, güzəşt elə. Saymadı. Durdu uşaqlarını da vurdu qoltuğuna, uçdu getdi. Mən qaldım yalqız. Hər nə qədər başıma-gözümə vurdum, bir zad olmadı. İndi mən hər gün sevinə- sevinə çıxaram dama, əzan verəm. İki uşağımı saxlar yanında, durar qabağımda. Əzan qurtaranacan durar. Sonra uçar gedər, nə qədər yalvararam saymaz. Başıma- gözümə vuraram gedərəm.

Hatəm durar gələr padşahın qızının yanına. Hamının sirrini ona deyər.

Yeddi gün, yeddi gecə toy tutarlar. Qızın əlini tapşırarlar Hatəmin əlinə. Hatəm divlərdən aldığı süfrəni açar, xalq gəlsin nə qədər yeyəcək yesin...

# V. ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

Abad evlər bülbülüyəm, viran evlər bayquşu.
Ac qudurğan olar, çıplaq – oynağan.
Ac ölməz, gözü qaralar, borclu ölməz, üzü saralar.
Aca dedilər: "Hara gedirsən?". Dedi: "Toxun yanına".
Acıxan yanağından, susuyan dodağından bəllənər.
Açıq ağız ac qalmaz.
Açılmamış süfrənin bir eybi var, açılmışın min eybi.
Adam özü yüngül olmasa, el yığılıb yüngül eyləməz.
Adamdan eşşək olmasa, eşşəgin biri min tümənə çıxar.
Adamlıq matah degil ki, gedib bazardan alasan.
Adın nədi? Nökər. Bəs niyə durmusan bekar. Aç qapını, ört qapını.
Ağa toxdu, nökərə bir çörək çoxdu.
Ağaca balta vurdular, dedi: "Sapı özümdəndi".
Ağac bar gətdikcə başını yerə əyər.
Ağac dibindən su içər.
Ağzımı yandıran aş oleydi, başımı sındıran daş oleydi.
Ağzında yaxşı yer eləməsən, bağban armudu verməz.
Ağlamayan uşağa süd verməzlər.
Ağıl ağıldan ötkün olar.
Ağıllı çırmanınca, dəli vurar çaydan keçər.
Ağız yandıran aş gendən bəlli olur.
Ağızdan çıxan başa dəgər.
Ağır xəstəliyə düşdü ölmədi, üzüldü öldü.
Axan qan damarda qalmaz.
Ax-vaynan çıxar kasıbın canı, ölənəcən deyər "Allah kərimdi".
Alacağı bir piltə, pambığın batmanın soruşur.
Alaqarğa suda çimsə qaz olmaz.
Altmış yaşında saz çalmaq öyrənən qiyamətdə çalar.
Altı yaşında qıllı dana, indi düşüb meydana.
Allahın acını heç kim doyuranmaz.

Allah eşşəyi tanıdı, buynuz vermədi.
Allah bəlavi saxlasın, dəva istəməz.
Allah bir obada iki itin adını bir eləməsin.
Allah sağ gözü (əli) sol gözə (ələ) möhtac eləməsin.
Allah verdikcə bəndə gümana düşər.
Allah heç yatanın dalınca oyaq qoymasın.
Allah qocalıq ilə yoxsulluğu bir yerə salmasın.
Alıcı quş dimdigindən bəlli olar.
Alana qədər oğlan evi, ölənə qədər qız evi.
Aman diləyəni öldürməzlər.
Ana kimi yar olmaz, Vətən kimi diyar.
Ananın ürəyi yanar, dayənin ətəyi.
Anlamaza söz qandırmaq, dəvəyə xəndək atlatmaq.
Anlamaza desən qulunam, deyər: "Gəl, aparım, satım səni".
Anlayan özü anlar, anlamazı ha qandır.
Anlayanla daş daşı, anlamazla bal yemə.
Arpanı töküblər itin qabağına, sümüyü töküblər atın qabağına.
Arpanı daşlı yerdən, qızı qardaşlı yerdən.
Arsız adama söz neyləsin, qoxumuş ətə duz neyləsin?
Arvad ailədəndi, oğul beldəndi, arada qardaş tapılmaz.
Arvad evdə iki olsa, ev süpürülməmiş qalar.
Arvad malı – baş toxmağı.
Arvad nə bilir dağda dumandı, evdə oturub hökmü rəvandı.
Arvad var ev yapar, arvad var ev yıxar.
Arvadın yalağı səməni qoyar, kişinin yalağı baqqal dükanı açar.
Asan ələ gələn asan da əldən gedər.
Aşağa başda oturmur, yuxarı başda yer yoxdu.
Aşın boşluğu dənin yoxluğundandı.
Ata-anasına xeyri olmayanın heç kimə xeyri olmaz.
Atadan qalan mal şam kimi yanıb qurtarar.
Ata olmayan ata qədri nə bilir?
At ələ düşər, meydan ələ düşməz.
At özümdən, don özümdən, bəyə nökərəm.

At olanda meydan olmaz, meydan olanda at olmaz.
Atdan düşmüşəm, addan ki düşməmişəm.
At da yeddi gündə bəllənər, it də yeddi gündə bəllənər.
Atın arığına yabı deyərlər, igidin yoxsuluna – dəli.
Aya o qədər baxma gəlsin düşsün ayağının altına.
Ayağının biri bu dünyada, biri o dünyada.
Ayranım budu, yarısı sudu, içsən də budu, içməsən də.
Aynaya necə baxarsan, özünü hayla görərsən.
Ayı boğulanda balasını ayağı altına alar.
Ayıdan bir tük də çəksən qənimətdi.
Ayın on beşi qaranlıq olsa, on beşi aydınlıqdı.
Ayının əlіdüşənini oynadarlar.
Ayının min bir oyunu var, bir armud üstə çıxardar.
Az söylə, çox dinlə.
Az versən küsür, çox versən qusur.
Bacarırsan dost qazan, düşman ocaq başında.
Baxdın yarın yar degil, tərgid qılmaq ar degil.
Baş-başa söykənməsə daş yerindən tərpənməz.
Baş kəsənin, daş kəsənin, ağacı yaş kəsənin axırı olmaz.
Başuva kül eləsən də, bari uca küllükdən elə.
Baş yekə oldu nə fayda, içində beyin gərək.
Bağban paxıl olmasa bağa duvar nə gərək?
Bağ yiyəsi bağına qıydı, bağban bir salxıma qıymadı.
Bayramda döyülən də olur, söyülən də.
Beş barmağın beşi də bir degil.
Beşdə alacağım yox, üçdə verəcəyim.
Belə yerdə otur ki, deməsinlər dur burdan.
Biri batman olanda o biri yarım batman gərək.
Birini kəndə qoymurdular kədxudanın evini soruşdu.
Biz umud olduq daza, daz da özün qoydu naza.
Bir acıyanda özünü saxla, bir çəçiyəndə.
Bir azdan qalar, bir çoxdan.
Bir ağızdan çıxan min ağıza yayılar.
Bir işi qurtarmamış, o biri işə əl qoyma.

Bir barmaq buynuz bir arşin quyruqdan yaxşıdı.
Bir tikəni bilməyən min tikəni də bilməz.
Bir çirağ işığında yüz adam işıqlanar.
Bir dəli quyuya bir daş salar, min ağıllı çıxardanmaz.
Bir subay oğlan, bir mitil yorğan.
Bir şəhərə girdün, gördün hami kor, sən də ol kor.
Bir qaş-qabaq yüz qonağı qovar.
Bir gün bayrama qalsa da qış qışlığını işlər.
Bilməmək eyib dəgil, soruşmamaq eyibdi.
Borclunun dili qısa olar.
Borc verməklə ödənər, iş görməklə tükənər.
Bostanı bar saxlar, arvadı ər.
Boş eşşək yorğa gedər.
Böyük başın böyük də bəlası olar.
Böyüklərlə otur-dur, kiçiklərə göstər yol.
Böyügünü tanımayan tanrısını da tanımaz.
Böyügə, böyük deyiblər, kiçiyə kiçiy.
Bu arxa bir su gəlib, ümid var bir də gələ.
Bu ilki sərçə bildirki sərçəyə ciy-ciy öyrədir.
Bu da eşşəgin sürür ki, mən də mamağanlıyam.
Buğda olmayan yerdə darını gözə təpərlər.
Buğda çörəyin olmasa buğda dilin olsun barı.
"Buğdam var" demə anbara tökməyəncə, "Evim var" demə içinə girməyincə.
Bu qulağından alıb, o biri qulağından ötürər.
Bu gün ilən çörək qazan, apar ver Nurcahan yesin, dindirmə yaman desin.
Bulanmasa durulmaz.
Bundan Fatiya tuman olmaz.
Cavan ikən qocalmağa güc saxla, varlı gündə yoxsulluğa pul saxla, savaşanda barışmağa üz saxla.
Cavanlıqda daş daşı, qocalanda iç aşi.
Canımı da alırsan, barı gülə-gülə al.
Candan qonşu payı olmaz.

Can sənin, cəhənnəm tarinin.
Ceyranın qaçışını gördüm, atımdan əl üzdüm.
Cidanı oğurlayan gizlətməsini də bacarar.
Cinə börk tikər, şeytana papış.
Cins madyan balasını döşündə saxlar.
Cütçü yağınlıq istər, yolçu quraxlıq.
Cütə gedən öküz gözündən tanınar.
Cüyüdün əli boşa çıxanda köhnə hesabları araşdırar.
Çax-çax başını yerə döyər, dəyirman işin işlər.
Çarığını tapan patavasını da tapar.
Çarıqlı çarıqlı ilə, sarıqlı sarıqlı ilə.
Çağrılan yerə ərinmə, çağrılmayan yerdə görünmə.
Çağrılmayan yerə itilə pişik gedər.
Çağrılmamış qonağı qaş-qabağla qovarlar.
Çaqqaldan çox çarıq aparan olmaz, yenə də ayaqyalındı.
Çay quşunu çay quşu ilə vururlar.
Çərçinin andı yığışar, eşşəginin qıçı sınar.
Çərşab-corab içində hamı arvadlar gözəldi.
Çəkirtgə suyuna göndərdilər, getdi çəkirtgə gətirdi.
Çivizəni çox əlləsən çiban olar.
Çıraq öz dibinə işıq verməz.
Çirkin bəzənincə toy əldən gedər.
Çılpağın yol kəsəndən nə pərvası.
Çiy süd qaymaq bağlamaz.
Çobansız sürü yol azar.
Çobansız qoyuna qurd girər.
Çobanın köylü olsa təkədən pənir tutar.
Çoxa tamah sallayan azı da əldən verər.
Çox and içənin andına inanmazlar.
Çox it hürməgini başarmaz, kəndə qonaq artırar.
Çox bilən az danışar.
Çox bilib az danışmaq igidin ləngəridi.
Çox bilən çox çəkər.
Çox danışan çox yanılar.

Çox danışanın ağzı yekə olar.
Çox küplər yanında küzələr sınıb.
Çox adam dədəsinin gözünü çıxartdı, ki, bəlkə ona Koroğlu desinlər, amma kor kişinin oğlu dedilər.
Çor deyənə can desən, bilməm nəyin əskilər.
Çörəyi at dəryaya, balıq bilməsə xaliq bilər.
Çölmək dığırlanar, qapağın tapar.

Çölmək deyər: "Dibim qızıldan",
Qaşıq deyər: "Mən dolanıb çıxmışam".

Çölməyə verə-verə çıxar qazan bahasına.
Çörəylə quyuya düşən çıxanmaz.
Çürük taxta çüy saxlamaz.
Dabbağ bəyəndiyi dərini yerdən yerə vurar.
Dadanmısan dolmaya, bəlkə bir gün olmaya.
Dadanannan quduranı saxlamaq olmaz.
Darğa əmimdi, day nə qəmimdi.
Daş üstə əkin əkilməz.
Daş daşa söykənər, duvar olar.
Daş düşdügü yerdə ağır olar.
Daşqın su körpü yıxar.
Davada halva paylamazlar.
Dağ uçmasa dərə dolmaz.
Dağ başından duman əksik olmaz.
Dağ dağa yetişməz, adam adama yetişər.
Dağ nə qədər uca olsa, üstündən yollar aşar.
Damı yıxdım ki, kurəmağından qurtulam.
Danışan yayınar, yeriyən büdürər.
Darvaza qapısını bağlamaq olar, xalqın ağzın bağlamaq olmaz.

Dedilər: "Əzrail uşaq paylir".
Dedi: "Hələ mənimkin əlimdən almasın".

Dedi: “Nuru evdə?” Dedi: “Qızı da evdə”, Dedi: “Onda oldu nur ələn-nur”.
Dədə olmasan, dədə qədri bilməzsən.
Dədə evində də qarabəxt, ər evində də.
Dədəm mənə kor dedi, hər gələni vur dedi.
Dərd batmaninən gələr, misqalınan çıxar.
Dərdli deyingən olur.
Dərdməndin dərdini aləmdə dərd əhli bilər.
Dərd var gələr keçər, dərd var dələr keçər.
Dərdin qoy üstə, onu da mən çəkərəm.
Dərziyə dedilər: “köç”, ignəsini taxdı yaxasına.
Dəryaya düşən ilana sarılar.
Dəgirmanın yaraşığı torba ilə çuvaldı.
Dəli dəlini görcək çomağını yan tutar.
Dəlinin nə toyu olsun, nə yası.
Dəliyə bir daş atsan, səni daşa doluyar.
Dəmir qapının da taxta qapıya işi düşər.
Dəyənək dəlinin, süpürgə gəlinin.
Dəgirmana dən tökməsən daş dönər daşı sürtər.
Dəmiri nəm çürüdər, adamı qəm.
Dəvəçi ilə qohumluq edənin dərvazəsi gen gərək.
Dəvə də dama çıxarmış, dam duvarı yıxarmış?
Dəvənin dizin bağla, sonra Allaha ismarla.
Dəvənin göylü qanqal istəsə, boynun uzadar yeyər.
Dəvəni yel aparsa, keçini göydə aparar.
Dəvə Nəzərəm, belə gəzərəm, milçək tutaram, başın əzərəm.
Dəvə gördüm, quyruğun görmədim.
Dirini öldürmək olar, ölünü diriltmək olmaz.
Dişdən artar, işdən artmaz.
Dili uzun olanın başı bəlalı olar.
Dili ilə ilanı yuvasından çıxardar.
Dinməyənin də bir dinəni var.
Dost üzündən tanınar, düşmən gözündən.
Dostu tapmaq asandı, saxlamaq çətin.

Dost vuran daş bərk incidər.
Dost dostla tən gərək, tən olmasa gen gərək.
Dost min olsa azdı, düşmən bir olsa çox.
Dostluğu ayı dostluğudu.
Dostunu tanıt mənə, mən deyim “kimsən” sənə.
Dostun sənə versə qum, sən onu ovcunda yum.
Doşab almışıq mürabba çıxıb.
Dovşan uyuduğu yerdə ovlanır.
Doğru söz söyləyəni doqquz kənddən qovarlar.
Donuzdan bir tük də çəksən qənimətdi.
Duvarı alçaq olanın, duvarından baxarlar.
Düşman səni daşinan, sən düşmanı aşinan.
Dünyanın quyruğu uzundu.
Düzəlib hər yarağı, qalıb saqqal darağı.
Dünya beşdi, hər beşi heşdi.
Dünyada ən gözəl şey-əldən gəlsə yaxşılıq.
Dünyada adama bir pislik qalar, bir yaxşılıq.
Dünya malı dünyada qalır.
“Dünya mənim” deyənin dünən gəldik yasından.
Dünyanın çətin işi qanmazı qandırmaqdı.
Düzlükdə yeriyənmir, şumda şıllaq atır.
Düşünə-düşünə görsə işi, sonra peşmanlıq çəkməz kişi.
Düşmən qarışqa olsa, sən onu bir fil sana.
El öz dəlisini yaxşı tanır.
El elə sığışar, ev-evə sığışmaz.
El ilə gələn qara gün bayramdı.
El sevəni hamı sevər, el deyəni hamı deyər.
Ellərə gülən canım, el mənə gülər oldu.
Elə söz danışır ki, pişmiş toyuğun gülmağı gəlir.
Elə yerdə otur ki, deməsinlər dur burdan.
Eşitdigini unut, gördügünü tut.
Eşşəkdən soruşdular: “Gündə nə qədər yol gedərsən?” Dedi: “Onu bizdən soruş”.
Eşşəgə dedilər: “Mərifətini göstər”, yıxıldı külə ağnadı.

Eşşəgim ölmə yonca bitincə, yoncam saralma torba tikincə.
Eşşəgin canı ağrıyanda atdan yeyin gedər.
Eşiyə çıxıram tarı döyür, içəri girirəm qarı döyür.
Eybli eybin bilsə başına yarpağ örtər.
Eybi kim deyər? Eybəcər. Soğanı kim yeyər? Dərdəcər.
Evində yox urvalıq, könlündən keçir darğalıq.
Ev yiyəsi evinin qibləsini yaxşı tanır.
Ev satan bir il dövlətli olur, ev alan – bir il kasıb.
Əbləh odu dünya üçün qəm yeyə, tarı bilir kim qazana, kim yeyə.
Əcəl şeytan işidi.
Əcəl dedigin göznən qaş arasındadı.
Əkinini sütül yeyən, xırman vaxtı sülənər.
Əldən tutan az olar, ayaqdan çəkən çox.
Əli kəsik əli kəsigi tapır.
Əlindən iş gəlməyən zoru dilinə verər.
Əlinən açılan düyünü dişivə salma.
Əlli yaşında qıllı dana indi düşüb meydana.
Ər əri yoldaşlıqda, ev evi qonşuluqda tanır.
Ərincə bezi kimi nə enə yarar, nə boya.
Ərkəksən də doğ, dişisən də doğ.
Əsili tapmaq çətindi, saxlamaq asan.
Əsli olmasaydı, Kərəm çöllərə düşməzdi.
Ət dırnaqdan ayrılmaz.
Əzrail gələndə soruşmaz, neçə oğlun, qızın var?
Fələkin qaydasıdır dağı çəkər dağ üstə.
Fələkin belə işləri nə çox: Aslanı ac gəzdirər, tülkünü tox.
Gah baba dayı minər, gah da day babanı.
Gec gəldi, tez öyrəndi.
Gec gələn qonaq öz kisəsindən yeyər.
Gecə görülən iş səhərə tapılmış olur.
Gedər bağlar qorası, qalar üzlər qarası.
Gedirəm dost yanına, üzüm ağ, alnım açıq.
Geydin mübarək olsun, çıxart özgə malıdı.

Gətirənə el gətirər, yel gətirər, sel gətirər, aparanda el apa-rar, yel aparar, sel aparar.

Gərəkməzi saxla bir gün gələr gərək olar.

Gəzən ayağa daş dəgər.

Gəl bunu istəmə məndən, buz kimi suyu səndən.

Gəldi qaşın düzəltsin, vurdu gözün çıxartdı.

Gəldi kəbab iginə, gördü eşşək dağlırlar.

Gələn ilə qardaşdı, gedən ilə yoldaş.

Gülmə gülünc olana, özün gülünc olarsan.

Gəlin oynaya bilməz, deyər otaq əgridi.

Gizli düşman ilan kimidi, sürünə-sürünə gələr.

Gordan gələn mən, cəhənnəmdən xəbər verən sən.

Görükən kənd bələdçi istəməz.

Göz gördü, könül sevdi, mənim nə günahım var?

Göz nədən qorxar, gördüyündən.

Gözünün yaşına baxaq, ya əlinin daşına?

Gözə gəlməyən gəlinin salamı da söyüşdü.

Gözəl ağa çox gözəl idi, vurdu çiçək çıxartdı.

Göy göbəgin yerə dayasa da, bildigindən əl çəkməz.

Gönülsüz verilən aş, ya qarın ağrıdar, ya baş.

Gönül sevən gözəlin nə ağı, nə qarası?

Gönül sevən göyçək olar.

Gönül gözdən su içər.

Gönül nə mey istər, nə meyxana, gönül dost istər, bunlar hamısı bəhanə.

Gül getdi, yerində xar qaldı, mənə də bu yadigar qaldı.

Gün öz işığını kimsədən əsirgəməz.

Gündüz təsbih çevirər, gecə qovurma qovurar.

"Gülüstan"ı yeddi yaşında oxuyan yetmiş yaşında başa düşər.

Gündüz çırağ yandıran gecə qaranlıqda qalar.

Gün keçər ömür ötər, dəli söyünər bayram gəlir.

Gündüz gedər dar-dar elər, gecə gələr yer dar elər.

Günü ilə yanı qoduxlunun günü qaradı.

Günə baxanın gözü qamaşır.

Ha uzaq olsa yol, ha yaman olsa el.
Haca gedən gəldi, saca gedən gəlmədi.
Hacı Hacını Məkkədə, dərviş dərvişi təkyədə görər.
Hamama girən tərlər çıxar.
Hamamdan çıxanın əri olasan, səfərdən gələnin arvadı.
Hamıya itlər hürəndə bizə də gözü açılmamış küçüklər hürər.
Haqq başı ağır olar, hardasa gəlib çıxar.
Haqq-hesabın düz eylə, hər yanda üzün olsun.
Haqq söz acı olar.
Haqq söz danışanın börkünün tiyəsi yırtıq olar.
Haqq verməzin adını qoyarlar Haqqverdi.
Halalzadə barışdırar, haramzadə qarışdırar.
Harda aş olsa orda başdı.
Hara ağrısa can ordadı.
Hatəmlik vardan olar, var olmasa hardan olar?
Heç bəndənin yarası göz qabağında olmasın.
Heç bir nəyi olmayan heç bir nə də itirməz.
Heç kəs öz gözünü kor istəməz.
Heç kəsin adı çıxmasın.
Heç kəsin çırağı səhərəcən yanmasın.
Heç kim adama dədəsi xeyrinə quş tutmaz.
Heyvanı budundan dağlarlar, insanı ürəyindən.
Hesabı düz olanın alnı açıq olar.
Hər atılan daşın dalısınca getməzlər.
Hər gedişin bir gəlişi var.
Hər nə töksən aşuva, o çıxar qaşığuva.
Hər nə versən əlinlə, o qalacaq səninlə.
Hərə öz arşını ilə ölçər.
Hər adamın öz adı var, hər yemişin öz dadı.
Hər ağlar gözlüyə aşiq deyilməz.
Hər evin öz qaydası, hər şəhrin öz dəbi var.
Hər duran sudan içmək olmaz, hər axan çaydan keçmək olmaz.
Hər şeyin tazası, dostun köhnəsi.

Hər quş öz yuvasının ağasıdı.
Hər kəs özün bəgənər, dəvə də dizin bəgənər.
Hər kəs istər arvadın boşasın, üstünə bir ad qoyar.
Hər kəsin bir dərdi var, heç kəsə deməz, ağlar.
Hər kimin bağı var, ürəgində dağı var.
Hər gələn sel kötük gətirməz.
Hələ-hələlər eləyib, kərtənkələlər neyləsin.
Həm oxuduq, həm oxutduq, həm hamısını unutduq.
Həmişə cücə səbəd altda qalmaz.
Həsən də qəlyan, Hüseyn də qəlyan çəkər, tənbəki bol olanda Ənsəm də qəlyan çəkər.
Həkimə getsən dava verər, falçıya getsən dua.
Həyası olmayanın imanı hardan olar?
Həyalıya can qurban, uzaq gəz həyasızdan.
Hirs gəlir, göz qızarır, hirs gedir, üz qızarır.
Hiylə ilə iş görən möhnət ilə can verər.
Xara tumanım xarıldar, bağırsaqlarım qırıldar.
Xala evinə dadanan ər evinə duruş gətirməz.
Xanım sındıran qabın səsi çıxmaz.
Xeyir istə qonşuva, xeyir gəlsin başuva.
Xeyri olsaydı, adı olardı Xeyrulla.
Xoruz çox olan yerdə səhər tez açılar.
Xoş gəldin dərbədar, xoş gördük məndən bətər.
Xonaxa xonaxanın hesabın qəlbində elər.
İçdim üzüm suyunu, tökdüm üzüm suyunu.
İçərim özümü yandırır, eşigim özgələri.
İki arvadlı kişi gecəni şamsız yatar.
İki arvadlı kişinin ağzının dadı olmaz.
İki ağız bir olsa, bir ağız heç olur.
İki əlin var, ikisini da borc elə, başını qeyim saxla.
İkibaşlı canavardan çəkinmə, ikidilli adamdan çəkin.
İki bit, bir birə kətxudanı saldılar girə.
İki qarınlı eşşəgin on şahilik da qoduğu olar.
İlan vuran yatar, ac yatmaz.

İlan çıxdığı bacani yaxşi tanı.
İlan hər yerə əgri getsə öz yuvasına düz gedər.
İp qırılmır, can çıxmır.
İp nə qədər uzun olsa, yenə doğanaqdan keçər.
İstədi qaşın düzəltsin, vurdu gözün çıxartdı.
İstir sudan keçsin, ayağı da islanmasın.
İş tərsinə gələndə tər halva diş sındırar.
İşdən artmaz, dişdən artar.
İşin yoxdu, şahid ol, pulun yoxdu zamin ol.
İt ac qalanda köhnə kolluqları axtarar.
İt əlindən sümük gəmirmək olmur.
İt itilə dalaşar, qurd görəndə arxalaşar.
İt itlığından əl çəksə sümsünmağından əl çəkməz.
İt iki sümük tapanda birin dal gününə saxlar.
İtburnu da özünü meyvə sanar.
İt qursağı yağ götürməz.
İt nə qədər kök olsa da qovurmalığa yaramaz.

İtə dedilər: "Niyə hürürsən?"
Dedi: "Qorxuduram".
Dedilər: "Niyə?"
Dedi: "Qorxuram".

İt hürdü çərçi gəldi, elə bildim elçi gəldi.
İt yatar qaya kölgəsinə, deyər bəs öz kölgəsidi.
Kamışa çimdik neynər?
Kamış nə bilir Cəmal ağa kimdi?
Kar etməz, yaraşdırar.
Kasıb bazarın çıxarı olur, gəliri olmaz.
Kasıb taza paltar geyəndə soruşarlar: "Hardan gətirmisən?" Varlı paltar geyəndə deyərlər: "Mübarəkdi".
Kasıb dad tapdı, qan tapmadı.
Kasıb yemağa çörək tapmaz, itinin adını tapmaz, itinin adını gömuş qoyar.

Kasıbı dəvə üstə böyə sancar.
Kasıbın ağzı aşa yetişəndə başı daşa yetişər.
Kasıbın zəfəranına sarı kök deyərlər.
Kasıbın sacı qızanda kündəsi qurtarar.
Keçəl başın qoruyar, kor da iki gözünü.
Keçəlin utanması, börkü düşənəcəndi.
Keçinin qoturu sərçeşmədən su içər.
Kənkan quyunu nə qədər dərin qazsa özünü onun təkində görər.
Kiçikdən xəta, böyükdən əta.
Kişi qızı olunca, kişi arvadı olasan.
Kişi kişidən qorxmaz, kişi kişidən utanar.
Kişinin yüz yeyicisi olsun, bir deyicisi olmasın.
Kimisi körpü tapmır keçməyə, kimisi su tapmır içməyə.
Kor ölər adı qalar badam göz.
Kor eşşəgin kor da nalbəndi olar.
Kor quşun yuvasını tarı öz əlilə yapar.
Köpəgin uzun quyruğlusundan, adamın topa buğlusundan əlhəzər.
Kök arıxlayınca arığın canı çıxar.
Kölgədə yatan biçinçinin orağı iti qalar.
Küçük hürə-hürə köpək olur.
Kürd gözdən qızarar, tat dizdən.
Kürkü yayda al, orağı qışda.
Küləş tez yanar, tez də külü sovrular.
Qabağa keçirsən deyirlər bicdi, dalda da qalırsan, deyirlər gicdi.
Qapı buzovundan öküz olmaz.
Qatıq calansa yeri qalar, ayran calansa nəyi qalar?
Qaçan da Allahı çağırır, qovan da.
Qaçanı qovmazlar, yıxılanı vurmazlar.
Qardaş qardaşı pıçaqlamış, dönmüş tazadan qucaqlamış.
Qarğa gəldi kəhlik yerişi yerisin, öz yerişin də itirdi.

Qapımdakən qapımı yeyər, eşigə çıxar, canımı yeyər, öləndən sonra malımı yeyər.
Qaraçi qızından xatın olmaz, dilənməsə qarnı dolmaz.
Qarışqanın ölümü yetəndə qanad çıxardar.
Qarın boğazdan aşağıdı.
Qarın doyuran aşı göz tanır.
Qala içindən alınar.
Qalan işə qar yağar.
Qanı qan ilə yumazlar, qanı su ilə yuyarlar.
Qazan qarası yuyular, üz qarası yuyulmaz.
Qazandığını itlər yeyər, yaxasını bitlər yeyər.
Qaş ilə göz, yerdə qalanı söz.
Qeyniyən qazan gizlincə, ibarət də gizlincə.
Qəcələ dədəsi xeyrinə ağac döyməz.
Qərib adam baxışından tanınar.
Qərib itin quyruğu iki qıçının arasında olar.
Qəlb mal yiyəsinə qayıdar.
Qəlb dedigin şişədir, yamamaq olmaz.
Qırx ilin dilənçisidi, hələ indi soruşur: cümə günü haçandı.
Qırmızı tumannım parıldar, bağırsaqlarım qırıldar.
Qız idim, sultan idim, adaxlandım, xan oldum, ərə getdim, qabaqlarda qul oldum, birin doğdum, astanada çul oldum.
Qızı saldım beşigə, cehizin çək eşigə.
Qızıldan balta çəkdirsən, gedər düşər kol dibinə.
Qızım sənə deyirəm, gəlinim sənə andırıram.
Qış çıxar, üzüqaralıq kömürə qalar.
Qismət olsa gələr Yəməndən, qismət olmasa çıxar dəhəndən.
Qismət də var, hümmət də var.
Qoca öküzü öldürmək olar, hürkütmək olmaz.
Qoç öz buynuzundan kirayə istəməz.
Qışın çəni qar gətirər, yazın çəni bar gətirər.
Qodux böyüyər, çulu böyüməz.
Qorxma qışdan yaz gələr, qorx payızdan dalısınca qışı var.
Qurda dedilər: "Nə vaxt yaylağa gedirsən?"

Dedi: “Bizimki el ilədi”.

Qurd dumanlıq sevər.
Qurda sən tikmək öyrət, yırtmaq dədə peşəsidi.
Qurd qarıyanda itlərə gülünc olar.
Quru oduna yaşlar yanar, alışar, daşlar yanar.
Quş dimdigindən, insan dilindən tələyə düşər.
Quş var ətin yeyərlər, quş var ət yedirərlər.
Qulaq gündə bir söz eşitməsə kar olar.
Qumarın udmağı da uduzmaqdı.
Qorxursan pişikdən, niyə çıxırsan deşikdən?
Qolun sınağı boyuna yükdü.
Qonaq dedigin ev yiyəsinin dəvəsidi.
Qonağa get deməzlər, başmaqlarını cütlərlər.
Qonağın ruzusu özündən qabaq gələr.
Qonaq bir gün olar, iki gün olar, nə ki ili başdan başa.
Qonağın utanmazı ev yiyəsini evdən qovar.
Qonşu aşı dadlı olar.
Qonşudan gələn pay dadımlıq olar, doyumluq olmaz.
Qonşu mıncığını oğurlayan gorda taxar.
Qohum acısı, qovun acısı.
Qonşuya umud olan şamsız qalar, oynaşa umud olan ərsiz.
Qohumun kimdi? – Yaxın qonşu.
Qoy desinlər: “Məmqulunun custu var, kim nə bilər, altı yoxdu, üstü var”.
Qoyun olmayan yerdə keçiyə Əbdülkərim deyərlər.
Qoyun quzu ayağı basmaz.
Qoyunu qoyun, keçini keçi ayağından asarlar.
Qurban olum, təsbih, sənə, heç kəs güman etməz mənə.
Lalın dilin nənəsi bilər.
Ları xoruz banlamaz, banlasa vəqt anlamaz, anlamaza söz demə, anlamayıb, anlamaz.
Leş düşən yerə quzğun qonar.
Ləlşuvun bərkdə əli yoxdu.

Lələ köçüb, yurdu qalıb.
Mal gedər bir yana, iman gedər min yana.
Malım xarab olunca, qarnım xarab olsun.
Malı çox, günü qara.
Malını itlər yeyər, canını bitlər.
Malını qeyim saxla, qonşunu oğru tutma.
Malı yox oğru apara, imanı yox şeytan apara.
Mal yeməzin malın bir qəllaş yeyər.
Mama iki olanda uşaq tərsə gələr.
Mama nə qədər çox olsa, genə güc doğana düşər.
Mərd özündən görər, namərd özgədən.
Məscidin qapısı açıqdı, itin həyasına nə gəlib?
Mən ölüm, sən ölsən iş qabaqdan getməz.
Mən bir şey deyirəm, sən bir şey eşidirsən.
Mən deyirəm xacəyəm, deyir neçə oğlun var?
Mən motaldan əl çəkmişəm, motal məndən əl çəkmir.
Mənə bax nə haldayam, yara bax, nə sallanır.
Mənimki belə gətirdi çarxı dönmüş fələkdən.
Məyər mən ovcumu iyləmişəm?
Məyər boyaqxana küpüdü, basasan çıxardasan?
Məyər biz ögeyik, siz doğma?
Məyər sən Məkkədən gözü palçıqlı gəlmisən?
Məyər mən saqqalımı dəgirmanda ağartmışam?
Meşədə qurd az idi, biri də gəmiynən gəldi.
Meyxanaçıdən şahid istədilər, üzüm ayaqlayanı gətirdi.
Meyvəli ağaca daş atarlar.
Milçək murdar olmaz, gönül bulandırır.
Mindin atın sağrısına, qatlaş yanın ağrısına.
Min xala bir yerə yığışsa, bir ananın yerini verməz.
Minə dözən, min birə də dözər.
Müftə sirkə baldan şirin olar.
Nacins qarpızın toxumu çox olur.
Nahaq qan yerdə qalmaz.
Namaza meyli olanın qulağı azanda olar.

Namərdi bir gördün, bir də görsən namərdsən.
Naşılığın bizim keçəl başımızda çıxardır.
Nə əkərsən, onu biçərsən.
Nə Allahdan qorxur, nə bəndədən utanır.
Nə üçdə alacağı var, nə beşdə verəcəyi.
Nə özü yeyir, nə özgəsinə dadızdırır.
Nə balını yeyərəm, nə bəlasını çəkərəm.
Nə tüfəngə çaxmaqdı, nə qapıya toxmaq.
Nə dindən keçir, nə imandan.
Nə sən gəl, nə də səfər ayının axır çərşənbəsi.
Nə bağım, nə bacatım, bir özüm, bir hacatım.
Nə gələnə üz göstər, nə gedəni qovala.
Nə gözüm görsün, nə göylüm istəsin.
Nə nisyə verərəm, nə dalınca gedərəm.
Nənəm mənə kor dedi, hər yetəni vur dedi.
Nə yatdıq, nə uzandıq, hazır oğlan qazandıq.
Nə yaraşır arığa, gedə girə qoruğa?
Nə yoxsuldan alacağın olsun, nə varlıya verəcağın.
Nisyə aparan çənə vurmaz.
Nisyə çaxır içən iki dəfə keflənər.
Növbə bizə çatanda çırağın yağı qurtardı.
Ocaqdan köz əksik olmaz.
Oddan gül törər, güldən ot.
Odun gətir, su gətir, uşaq işədi, gəl götür.
Od hər yerə düşsə özünə yer açar.
Oğru qalana yanar, ev yiyəsi gedənə.
Oğruluğunun əvvəli, o da düşdü ay işığına.
Oğul fərli olsa, neyləyir dədə malın, fərsiz olan neyləyir dədə malın.
Ox ki, kamandan çıxdı gedəcək, yox çarəsi.
Olar aşım suyu, olmaz başım suyu.
Olan yarma qaynadar, olmayan barmaqların oynadar.
Olanda göz qızarar, olmayanda üz qızarar.

Onda ki varım idi, keçi qılı şalvarım idi, indi ki, yoxum olub, itlər mənə qohum olub.
Orağı qışda al, kürəyi yayda.
Otuz iki dişdən çıxan min obaya yayılar.
O qədər ölmədik ki, evdən xəbərçi gəldi.
Öküz özünə yonca əkəndə başı ağrıyar.
Öküzün taydı, işin zaydı.
Ölü öldü öz borcunu ödədi, vay qalanın halına.
Ölü durub mirdəşiri yuyar.
Ölülər elə bilir ki, dirilər halva yeyir.
Öz çörəyini özgə süfrəsində yemə.
Özgənin ördəyi qaz görünər, özgənin tarlası düz görünər.
Özün kor olsan da vuruşun kor vuruşuna oxşamır.
Özüvi yorulmuş bilsən, yoldaşuvi ölmüş bil.
Paxıl artsa qurd artar.
Paxıla Allah verməz, versə də xeyrin görməz.
Palaza bürün, el ilə sürün.
Pay bölənə pay qalmaz.
Pəniri dəri saxlar, arvadı əri.
Pəh ilə plov olmaz, yağ ilə dügü istər.
Pis adamın yeddi evli qonşuya zəhəri var.
Pişmişin dadı yağdı, aşpazın üzü ağdı.
Pişik olmayan yerdə siçanlar baş qopardar.
Pul pulu qazanar, pulsuzun işi uzanar.
Pulsuz adam bazardan qıvraq keçər.
Pulluya bəli deyərlər, pulsuza “dəli”.
Pulun oldu min, köhlən atı min.
Pulun var iriş, pulun yoxdu sürüş.
Rahatlıq istəyənin dili lal, qulağı kar, gözü kor olmalı.
Rəşbərin qırx ildə tapmadığını, tacir qırx gündə tapar.
Rəşid oğlu vurmağa dədəsindən izin istəməz.
Sabahacan kim ölə, kim qala?
Salavatla donuz darıdan çıxmaz.
Sağ baş yastığa gəlməz.

Sağ yeri qoltuq altındadır, onu da ərkən kəsib.
Saqqal ilə kamil olsaydı kişi, keçiyə gəyişərdilər hər işi.
Saqqalım yoxdu keçmir işim.
Savaşan qurtular, şahid keçən qurtulmaz.
Sayılı pul tez qurtarar.
Selgahda ev salanın evini sel aparar.
Səbr ilə halva bişər, ay qora səndən, bəsləsən atlas olar tut yarpağından.
Səhərin soyuğunu sayma, axşamın ayazında qalma.
Sərbaz nə bilir heyva kaldı?
Səfərdə əlivi saxla, məclisdə dilivi.
Sən oxuyanı mən toxumuşam.
Sən tülki olsan, mən sənin quyruğunam.
Səndən hərəkət, Allahdan bərəkət.
Sən gördügün ağaclar, kürəkligə kəsilib.
Sən mənim bir üzümü ağart, mən də sənin iki üzünü ağardım.
Sən vurmadın, mən yıxmadım, bəs mənə nə gəldi?
Sən vuranda su çıxar, mən vuranda qan.
Sənə bir aş bişirim, yağı üstündə bir qaşıq dursun.
Səhvi dəyirmançı elər, buğda aparan, un gətirər.
Sərçədən qorxan darı əkməz.
Sərçənin özü nədi ki, kəllə-paçası nə ola?
Sınıq kuzədə su durmaz.
Siçan olmamış dağarcıq dibi dəlir.
Siçanla pişik barışa, vay baqqalın halına.
Siçan yuvasına girmirdi süpürgəni quyruğuna bağladı.
Sizə yağan o qardan bir gün də bizə yağar.
Sizin evdə yeyək, içək, bizim evə qonaq köçək.
Soruşa-soruşa İstanbula getmək olar.

Soruşdular: “Eynalı necə İmamzadadı?”
Dedi: “Bax zəvvarına”.

Soğan yeməmisən, nə uçun acışırsan?
Sonku peşmançılıq bərə bitirməz.

Sözdə usta, işdə xəstə.
Söz sözü gətirər, arşın bezi.
Söz çox uzanarsa, dadını əldən verər.
Sözün düzünü uşaqdan soruş.
Su öz yolun tapar.
Su başdan bulanıqdı.
Subay gözü ilə qız alma, gəlin gözü ilə bez alma.
Susamış it kəhrizə baxar.
Su ki, başdan aşdı, istər bir qarış, istər min qarış.
Su hər şeyi təmizlər, öz qarasından savay.
Soyunandan sonra başuva qızıl sal get.
Suyu susuyana, qoy içsin qana-qana.
Süddən ağzı yanan, ayranı püfləyə-püfləyə içər.
Südlü qoyunu sürüdən ayırmazlar.
Sürü qoyun sizdə, satdıq bizdə.
Sürüyə qurd girəndə, köpəgin yuxusu gələr.
Şappadan-şuppadan, birdən-birə gözlənilmədən.
Şaftalı gəlməmiş tabağı gəlib.
Şah gəldisindən keçdi.
Şəyird toxusa bez toxur, usta toxusa tez toxur.
Şahpalıtdan yağ çıxmaz.
Şahın iti kimi çağıranda gəlmir, küşkürdəndə tutmur.
Şahın də qaraçıya işi düşür.
Şərabdan dönmə sirkə kəsərli olur.
Şərikli qazan gec qaynar.
Şir qocalanda özünə gülməyi gəlir.
Şirin dil ilanı yuvasından çıxardar.
Şirni olmayan yerdə iydəyə qaqa deyərlər.
Şeytanla buğda əkənin xirmənini yel aparar.
Şimşək çaxmasa göy hardan gurlar?
Şoran yerdə nə ot bitər, nə sünbül.
Şuxluğun sonu davaya çökər.
Tabağı düz qoy, canım, baxılmağa üz qoy, canım.
Tapan tapanın olsa çöldə çoban xan olar.

Tarlanın daşlısı, qızın saçlısı, öküzün yekə başlısı.
Taza süpürgə təmiz süpürər.
Taza küzə suyu sərin saxlar.
Taza gəldi bazardan, köhnə düşdü nəzərdən.
Tazanın hizligindən dovşan samanlıqda balalar.
Tayun-tuşun bab ilə, görən desin ha belə.
Tavusun lələkləri başının bəlasıdı.
Tez ələ gələn tez əldən gedər.
Tələdən özün qurtaran tülkü bir də tələyə düşməz.
Təndir istikan çörəyi yapmaq gərək.
Tısbağa qınından çıxdi, qınını bəgənmədi.
Tikan əkən gül biçməz.
Tikan olub ayağa batıncan, gül olub yaxaya sancıl.
Tikə ilə dost olan illər küsülü qalar.
Tikə dostundan dost olmaz.
Tikə qarın doyurmaz, məhəbbət artırar.
Tikəni elə götü ki, uda biləsən.
Toy da olsa toyuğun yasıdı, yas da olsa toyuğun yasıdı.
Toyuğu buğda anbarına salsan eşinmağından əl çəkməz.
Toyuq ölsə bir çəngə tükdür, dəvə ölsə bir dəvəyə yükdü.
Toyuğun pis iki sarılı yumurtar.
Toyuq istər qaz yerişi yerisin, öz yerişin da yadırğar.
Toyuq tapanın muştuluğu bir yumurtadı.
Turşulu aş yaxşı olar, bir gün sizdə, bir gün bizdə.
Tutulmayan oğru xandan, bəgdən yeydir.
Turş alçadı, görənin ağzı sulanır, yeyənin dişi qamaşır.
Tulanın axmağı tutduğunu buraxır, qaçanın dalınca qaçar.
Tumançağın yuxusuna büzməli tuman girər.
Tülkü çox bilmişlikdən tələyə düşər.
Tülkü deyər: "Özümdən ötrü demirəm, amma üzümsüz bağın kökü qurusun".
Tülkü suvaqlı bağa girməz.
Tülkü var baş qopardar, qurdun adı bədnamdı.

Tülküyə dedilər: “Toyuq kababı yeyirsən”.
Dedi: “Elə söz deyirsiz adamın gülmağı gəlir”.

Ucuzluqda alanın, bahalıqda satanın üzün görmə.
Uç gecəlik ayı hamı görər.
Utanmasan oynamağa nə var ki?
Ulduzu barışanın söyüşü də salamdı, ulduzu barışmayanın salamı da söyüşdü.
Ulu sözünə baxmayan uluya-uluya qalar.
Uşaq atadan yetim qalmaz, anadan yetim qalar.
Uşaqsız ev barsız ağaca bənzər.
Uşaq vardını, yoxdunu bilməz.
Uzun, uzun arzular, qısa, qısa ömürlər.
Üz üzdən utanar.
Üzlü daş yerdə qalmaz.
Üzlü qonaq özü utanmaz, ev yiyəsini utandırar.
Ürəkdən ürəyə yol var.
Üzünə baxırsan hüri-pəridir, içinə baxırsan qıllı dəridir.
Üz verəndə astarını da istəyir.
Üzümlü bağım olsun, görəsən bildirçin necə quşdu.
Üz versən qohumluq iddiası elər.
Var idi yağım, balım gəlirdilər qonşularım, qutardı yağım balım, gəlməz oldu qonşularım.
Vardan verən utanmaz, yoxdan verən dəlidi.
Vardı pulun, hamı qulun, yoxdu pulun, açıqdı yolun.
Varlığına tələsən yoxsulluğa tez düşər.
Varlının arabası dağdan aşar, yoxsulun arabası düzənlikdə yolun çaşar.
Varlı umduğundan yeyər, yoxsul tapdığından.
Varlının varı yoxsulun əngin yorar.
Vaxtsız açan tez solar.
Vaxtında görülməyən iş həmişə görülməmiş qalar.
Vaxtı buraxsan hədər, çəkərsən ağır zərər.
Ver əlindəki sapı, dur dolan qapı-qapı.

Verdigin bir yumurta, onu da yırta-yırta.
Verdin doyur, vurdun yıx.
Vermə sən doqquzu, yeyərsən toppuzu, verərsən otuzu.
Verən əl alan əldən üstündü.
Verib peşman olunca verməyib peşman ollam.
Vəsmə bol olanda qaşa da çəkərlər, gözə də.
Vurdu daşa, çıxdı daşa.
Vursan öləcək, vurmasan çərəkini əlindən alacaq.
Vurursan ölür, kiş deyirsən getmir.
Yağışdan qurtulduq, damcıya düşdük.
Yağına qıymayan çörəyi yavan yeyər.
Yağlı əlivi çək öz başına.
Yağlı idi, pişik apardı.
Yaxşı atın, yaxşı arvadın qadasını almalı, yaman atın, yaman arvadın noxtasını salmalı.
Yaxşı dost adamın pisini üzünə deyər.
Yaxşı dost qardaşdan irəlidi.
Yaxşı dost yaman gündə bəllənər.
Yaxşı ordunu şişirtməsən, bağban armud verməz.
Yaxşı övlad üz ağardar, yaman övlad üz qızardar.
Yaxşını hamı yola verər, sən gəl pisi yollandır.
Yalan söz qəlp maldı, qayıdar yiyəsinə.
Yalançı kimdi? Eşitdigin söyləyən.
Yalançı tamahkarı aldadar.
Yalançının evinə od düşdü, heç kəs inanmadı.
Yalançının şahidi yanında olar.
Yaman günə qatlaşan yaxşı günə tez çatar.
Yanmayanda yanmaz, istər püflə, yaxşı ətəklə.
Yara sağalar, yeri qalar.
Yaralı eşşək bərk anqırar.
Yarı gör, özün danış, ev yıxar ara sözü.
Yarımadıq istisindən, kor olduq tüstüsündən.
Yayda hər divarın dibi bir evdi.

Yaz günü penir-çörək yarpızınan, yay günü yavan çörək qarpızınan.

Yaz qışdan bəlli olur, qız qardaşından.

Yay var, qış var, nə tələsik iş var.

Yaz əkinçidi, qış dilənçi.

Yazan sən, pozan sən, bəs kimdir deyir yalansan?

Yeddi qonşu bir çölməyə möhtacdı.

Yekə tikə boğazda qalar.

Yel aparan yelinki, yerdə qalan mənimki.

Yelin dalısı yağış olur, şuxluğun dalısı – döyüş.

Yemək ilə doymayan barmaqlamaqla hardan doyacaq?

Yer bərk olanda öküz öküzdən görər.

Yesəm qüvvətim artar, versəm, hörmətim artar.

Yetim uşaqsan, qıvrıl yat.

Yetimə vay-vay deyən çox olar, çörək verən olmaz.

Yetimi döymə, vurma, çörəgin əlindən al.

Yeyən ağız örgəşər.

Yeyəndə qolçamaqdı, işləyəndə çolaqdı.

Yeyən qurtardı, yalan qurtarmadı.

"Yeyirsənmi?" xəstəyə deyərlər.

Yığıntı daşdan qalaq olmaz.

Yıxılan adamı əli ağaclı da vurar, əli ağacsız da.

Yoxa qələm işləməz.

Yoxsul adam, pul tapsa da gizlətməyə yer tapmaz.

Yoxsullar əkər, yoxsullar biçər, dünyanın kefin varlılar çəkər.

Yoğurd tökülsə yeri qalar, ayran tökülsə nəyi qalar?

Yoğunu yorğun aldadır.

Yolçunun üzü qaradı, torbası dolu.

Yoldaşsız yol uzanar.

Yol həramisi ol, yoldaş həramisi olma.

Yolsuzu yola tapşır, yol onu yollandırar.

Yoluqda nə var yalaq apara?

Yorğun atı qamçılasan şıllaqlar.

Yuxarı kənd su içər, aşağı kənd and.

Yumurtlamadı, falanı da içdi.
Yurd yeyəsiz qalanda donuz dama dırmanar.
Yük əgməsə daş qürbətə düşməz.
Yükün yüngülü mənzilə tez çatar.
Yügürən at arpasını artırar.
Yügürən at özünə qamçı yedirtməz.
Yüz batman tanbaki çəkilib, bu indi soruşur: "Ölən kim idi?".
Yüz gün yaraq, bir gün görək.
Yüz il sel oya bilməz bir gün qəm oyan yeri.
Yüz ignə yığışa bir çuvalduz yeri verməz.
Zalim olma, asılırsan, məzlum olma, basılırsan.
Zalimin şəmi səhərəcən yanmaz.
Zirəng quş dimdiyindən tora düşər.
Zor qapıdan girəndə, haqq qapıdan çıxar.
Zornan çirkin gözəl olmaz.
Zurnanı naşı əlinə versən, gen başından püflər.
Zurnanın səsini gendən eşidəndə xoş gələr.

# VI. TAPMACALAR

1. Aldım bir danə, sındırdım oldu min danə.
2. Ağac başında qarğa, ağzı dolu qovurğa.
3. Ağacın için oydular, kəndə koxa qoydular.
4. Ağac başında boxça, nə boxçadı, nə taxça.
5. Ağac başında ağ pambıq.
6. Ağac başında ağ yanaqlı qız.
7. Ağzı qara, üzü yox, suda üzər, gözü yox.
8. Ağzı vardı, dişi yox, onu döyməyən kişi yox.
9. Ağzın açar, zəhər saçar, onu görən qorxub qaçar.
10. Ağırlığın yer götürər, ruzusun Allah yetirər.
11. Ağzı yuxarı baxar, altından yağış axar.
12. Axşam baxanda çox olur, səhər baxanda yox olur.
13. Araz qırağı düzdü, sanasan əlli-yüzdü, oğlu davaya gedir, anası hələ qızdı.
14. Aslan kimi mırıldar, tumarlasan xoruldar.
15. Ata minər süslənməz, yerə düşər paslanmaz, suya düşər işlənməz.
16. Atılıb düşər, susuz bişər.
17. Ayağı var qaçanmaz, qanadı var uçanmaz.
18. Azan verər, namaz qılmaz, arvad alar, kəbin bilməz.
19. Bağda sürünər, gözər, az-az görünər, gəzər, oxşayır bir yumağa, qorxuram əl vurmağa.
20. Başında var budağı, gəzir meşəni, dağı.
21. Bazarda olmaz, tərəzidə durmaz, ondan şirin zad olmaz.
22. Bir quşum var, dərisi puldan, gözləri nurdan.
23. Buxari, ha buxari, buxaridan yuxari, ordan bir kişi çıxdi, çiyni qara çuxali.
24. Cani vardi, qani yox, yer altında sani yox.
25. Carçisi çox, bazari yox, gələni çox, gedəni yox.
26. Çiçəkləri gül degil, ağappaqdı qar degil, isti verər, yun degil.
27. Çoxlu tağ atar, torpaqda yatar, qoyma yetişsin, kal- kal dər apar.

28. Çöl var, çöl var, çölmək var, onu durub bölmək var, həştad səkkiz düyündə doxsan doqquz ilmək var.

29. Çöldə degil, evdədi, nə yerdə, nə göydədi.

30. Çömçə başi məndiri, belində var kəndiri, milçək qonsa vizildar, əl dəgəndə sızıldar.

31. Daşi dəmirə çaxdım, pambığı oda yaxdım.

32. Deyə bilmir sözünü, yandırır öz- özünü.

33. Dəryada bir ev gördüm, üstündə var dam-baca, yeriyir yavaş- yavaş, tapmacadı- tapmaca.

34. Dona bürünməz, gözə görünməz, dilindən üzülməz.

35. Dörd qardaş ha ötüşür, bir- birinə çata bilmir.

36. Düz əkdim, əgri bitdi.

37. Dümdüz idi meşədə, evdə ayrı peşədə, ilan kimi uzanar, bir ağ köynək qazanar.

38. Evləri qonşu iki qardaş var, hər bir şeyi görürlər, bir-birini görə bilmirlər.

39. Evimizdə bir kişi var, iki haçalı dişi var.

40. Əl ilə tutmaq olmaz, göz ilə görmək olmaz.

41. Əl işidi, əl işi, onu geydi bir kişi. O hansı çuxadı ki, yoxdu heç bir tikişi.

42. Əl ilə yapılar, qulağa taxılar.

43. Əl qədər məzar, hər yeri gəzər.

44. Ət dirəyinin başında, dəmir deşikli papaq.

45. Ət sandığım, yetmiş yeddi qat, sandığım, kir içində yat sandığım.

46. Əyri boyun, yaşıl papaq, suda gəzər, yastı yapalaq.

47. Əzilməz, üzülməz, süfrəyə düzülməz.

48. Əzəl meşədə idi, indi yaraq olubdu, babama dayaq olubdu.

49. Əziziyəm su arar, yerin bağrın su yarar, göydə bir maydan gəzir, ağlar, yeri suvarar.

50. Gedər, gəlməz, yatar, durmaz, yeyər doymaz.

51. Gedər, gedər, iz qoymaz, qayıdanda toz salmaz.

52. Gecə yumular, səhər açılar.

53. Gözü yox, qulağı yox korlara yol göstərər.
54. Göydən bir noğul düşdü, toyuq ona yürüşdü.
55. Göydən düşdü yer onu içdi.
56. Göydən düşdü beş yemiş, bir-birindən xoş yemiş, səkkiz dənəsi gün görmüş, doqquzu gün görməmiş.
57. Göydə doğular, yerdə boğular.
58. Göydə uçar görünməz, yerə düşər sürünməz, doğar, törər, əri yox, qanadının pəri yox.
59. Gündən güclü, yeldən gücsüz, yoxdur gözü, ağlar özü.
60. Gün çıxanda gülər, gün batanda mürgülər.
61. Hacidi, ha hacidi, başmaği darıncıdı, zoğ atar, yarpaq verməz, görək nə ağacidi?
62. Hacilar Haca gedər, cəhd elər gecə gedər, bir yumurta içində, qırx-əlli cücə gedər.
63. Halım haldan yuxari, qonub güldən yuxari, bir əcayib quş gördüm, dizi beldən yuxari.
64. Haydi, haydi, haraydi, baxın, görün, nə haydi, içinə bir od düşüb, görün, nə hay- haraydi?
65. Hər qurd ipək sarımaz, ayağ tutar yeriməz, min il də gəlib keçsə, yaxşı- yaman çürüməz.
66. Heyvan kimi sapsarı, dibi incə, başı əyri, ağacından dərərəm, ləzzət ilə yeyərəm.
67. Həm misdi, həm gümüşdi, arası döyülmüşdi.
68. Həlmə, həlmə həlməsi, həlmə xatın döyməsi, hər kəs onu tapmasa, bir tüməndi çörməsi.
69. İçi qırmızı, üsti buz, eşigi (əti) şirin, içi qoz.
70. İki öküz bir yerdə, biri aldı, biri çal: al yatır, tərpənmir, çal uçur, görsənmir.
71. İki fənər, gündüz yanar, gecə sönər.
72. İki quşum var çiyinlərdən yuxarı, hər nə baxıram heç birini görənmirəm.
73. İgnəsi çox, tikəni yox, əti dərman, özi heyvan.
74. Kolları gəzər posa- posa, qıçları uzun, qolu qısa.
75. Qanadı var uçanmaz, quru yerdə qaçanmaz.

76. Qanadı var uçmağa, ignəsi var sancmağa.

77. Qara quşu quyruğundan asarlar, ələ alıb düz qazana basarlar.

78. Qatarlanıb gedərlər, bizə salam edərlər.

79. Qatar-qatar uçarlar, şahın görcək qaçarlar, gündüzləri otlar, gecələri köçərlər.

80. Qara toyuq, qarnı yarıq.

81. Qırat qovar, boz at qaçar, boz at qovar, qır at qaçar.

82. Qırmızı nar, hər yerdə var.

83. Qızıl ağac yırğalanır, sırğaları sallanır.

84. Quşum əcaib quşdu, özü qibləyə tuşdu, ot otlar quzu kimi, su içməz necə quşdi.

85. Quyruğundan tutmayınca yuvasına yönəlməz.

86. Lələm deyir düz durdum, əgri yatdım, düz durdum, yüz il erkək qoynunda, gəlib yatdım, qız durdum.

87. Mavi tarla üstündə, ağ göyərçin yellənir.

88. Meşədə başın kəsdilər, şəhərdə leşin satdılar, oda düşdü alışdı, tüstüsü havaya qarışdı.

89. Meşədə ha meşədə, beş qardaş var meşədə, beşi də bir peşədə.

90. Məmmədbağır bağında, gül bitər budağında, yel vurar yelləndirər, sırğaları qulağında.

91. Mənim beş qardaşım var, biri hər gün danışar, ikisi qulaq asar, ikisi durub baxar.

92. Məni belə yeməzlər, mənsiz heç nə yeməzlər.

93. Məni mənicə, məndən uca, kürsü boyunca, kürsüdən uca.

94. Mindirdilər ağaca, çıxartdılar yamaca, qoydular bir yerə ki, nə qapı var, nə baca.

95. Nar danəsi, nur danəsi, yer üzünün bir danəsi.

96. Nədəndi ha nədəndi, nərmə- nəzik bədəndi, plovun yaraşığı, görən rəngi nədəndi?

97. Nəfəsi var, qanı yox, cəsədi var, cani yox.

98. Nə əli var, nə ayağı, qapi açar dəli sayağı.

99. Nə dərd qanar, nə gedər, mən getsəm o da gedər.

100. O nədi ki, ayağından asılır?

101. O nədi ki, əl vurarsan qanı çıxar?

102. O nədi ki, işığı var, istisi yox.

103. O nədi ki, silahı yox atışar, atışıban bir-birinə qatışar?

104. O nədi ki, qulağından kəsilər?

105. O tayda durar gedər, boynunu burar gedər, bir sürüyə soxulsa, qırxını qırar gedər.

106. Onun adı Pəridi, göylümə müştəridi, gecə anadan oldu, səhər durdu, yeridi.

107. O yanı mərmər, bu yanı mərmər, içində gəzir nazənin dilbər.

108. Paltarınan isti suya salarlar, asanlıqla paltarını soyarlar.

109. Püstədi, ha püstədi, təxti-rəvan üstədi, quzi kimi ot otlar, su içməgə xəstədi.

110. Rəcəbi kənddə gördüm, yaman sifətdə gördüm, igirmi dörd ulduzu, dörd ayın altda gördüm.

111. Saqqalı var bir qucaq, belində neçə qurşaq.

112. Sularda batar, quruda yatar, hoppanar düşər, ovurdları şişər.

113. Suya düşər islanmaz, yerə düşər paslanmaz.

114. Şəkərə bənzər, dadı yox, havada uçar, qanadı yox.

115. Şəhrəbani, gəzər obani, alti ayağı var, iki dabani.

116. Şirin olur, bal degil, yağa oxşayır, yağ degil, rəngi ağdır qar degil.

117. Tap, bu nədi, tapmaca, ayaqları yapmaca, gözləri piyalaca.

118. Tap, bu nədi, tapmaca, sürüdə saqqallı qoca.

119. Torpaq degil, daş degil, quri degil, yaş degil, buynuzi var, qoç degil, qanadı var, quş degil.

120. Uzi bircə barmaq, quyruği on bir qarış.

121. Uzun qız oba gəzər, xəmirlə özün bəzər.

122. Üsti taxta, altı daş, səkkiz ayaq, iki baş.

123. Yayda qurudurlar, qışda əridirlər.

124. Yer altdadı evləri, əyri-üyri yolları, nə incədi belləri.

125. Yerim dərin dəryalar, məndən qiymətli nə var.

126. Yol üstə qazan qaynar.

127. Yumuri mərmər daşı, içində bəklər aşı, pişirərsən aş olar pişirməsən quş olar.

128. Yük altında iki tas, birin qaldır, birin bas.

129. Zirzəmidə Yusif oturub, qulaqların qısıb oturub, nə dinir, nə danışır, elə bil küsüb oturub.

## CAVABLAR:

1. Hap
2. Xaşxaş
3. Çanaq
4. Yuva
5. Qar
6. Alma
7. Zəli
8. Həvəngdəstə
9. İlan
10. Təzə doğulmuş körpə
11. Aşsüzən
12. Ulduzlar
13. Arı
14. Pişik
15. Gün işığı
16. Qovurğa
17. Xərçəng
18. Xoruz
19. Kirpi
20. Maral
21. Yuxu
22. Balıq
23. Tüstü
24. Qarışqa
25. Qəbiristan
26. Pambıq
27. Xiyar
28. Balıqçı toru
29. Pəncərə
30. Saz
31. Çaxmaq daşı
32. Qovurğa
33. Gəmi
34. Söz
35. Arabanın təkərləri
36. Tağ
37. Oxlov
38. Gözlər
39. Qayçı
40. Yel
41. Yapıncı
42. Sırğa
43. Başmaq
44. Üskük
45. Ana bətni
46. Ördək
47. Daş
48. Əl ağacı
49. Bulud
50. Tüstü, kül, təndir
51. Kölgə
52. Sarmaşıq
53. Əsa, əl ağacı
54. Tut danəsi
55. Damcı, yağış
56.17 rükət namaz
57. Yağış
58. Yarasa
59. Bulud
60. Günəbaxan
61. Maral buynuzu

62. Nar
63. Çəyirtkə
64. Samovar
65. Yaxşı ad
66. Armud
67. Pul sikkəsi
68. Üzərlik
69. Hülü
70. Od-tüstü
71. Gözlər
72. Qulaqlar
73. Kirpi
74. Dovşan
75. Balıq
76. Arı
77. Çömçə
78. Durnalar
79. Durnalar
80. Ocaq
81. Gecə və gündüz
82. Od
83. Zoğal ağacı
84. Barama qurdu
85. Qaşıq
86. Xurma ağacı
87.Dərya və yelkən
88. Ağac
89.Corab milləri
90. Gilənar
91. Ağız, qulaq, göz
92. Duz
93. Çıraq
94. Cənazə
95. Quran
96. Zəfəran
97. Köpük
98. Yel
99. Kölgə
100.Qoyun
101.Şah tut
102.Ay
103.Buludlar
104.İt küçüyü
105.Canavar
106.Cücə
107.Dil
108.Yer alması
109.Barama qurdu
110.At nalı və mıxları
111.Süpürgə
112.Qurbağa
113.Ay işığı
114.Qar
115.Tərəzi
116.Qaymaq
117.Dəvə
118.Təkə
119.Kəpənək
120.Saplı ignə
121.Oxlov
122.Vəl və öküzlər
123.Qurut
124.Qarışqa
125.Mərcan
126.Qarışqa yuvası
127.Yumurta
128.Körük
129.Küp

# VII. BAYATILAR

Aşığam can burada,
Ləli-mərcan burada.
Yarı burada gördüm,
Qoy verim can burada.

Ördək burda, qaz burda,
Gəlin burda, qız burda.
Hara gedək, sevgilim,
Bahar burda, yaz burda.

Kətanın var daraqda,
Bir yar sevdim İraqda.
İraqda olur – olsun,
Sevgisi var ürəkdə.

Əzizim yarı yolda,
Kim gördi yarı yolda?
Xəyalın olmasaydı,
Qalardım yarı yolda.

Ay gədikdən doğanda,
Soğan qabıq qoyanda.
Mən alnuva yazıldım,
Sən anadan doğanda.

Qolbağısı qolunda,
Gəzər bulaq yolunda.
Sən nə qədər gözəlsən,
Mələk varmı soyunda?!

Qalanın bucağında,
Od yanar ocağında.
Qoy məni öldürsünlər,
Yarımın qucağında.
Alma atdım qızlara,
Dığırlandı düzlərə.
Bir gün peşman olarsan,
Danışdığın sözlərə.

Atladım bağdan-bağa,
Əlim dəgdi çardağa.
Dünyadan kam almamış,
Necə girim torpağa.

Əzizim, alma qala,
Boşqaba alma qala.
Namərd ilə dost olma,
Düşərsən qalmaqala.

Əzizim, alma qala,
Boşqaba alma qala.
Mən səni gizli sevdim,
Saldılar qalmaqala.

Ocağı yaxşı qala,
Odun qoy yaxşı qala.
Nə ola bu dünyada,
Pis ölə, yaxşı qala.

Mən aşiq ay camala,
Yar əldən ay cam ala.
Götür üzdən örtüyün,
Baxım bir ay camala.

Yarı yolladım yola,
Gözlərim dola-dola.
Buluda çox yalvardım,
Üstünə kölgə sala.

Aşiq naçar ağlama,
Pis gün keçər ağlama.
Fələk bağlı qapını,
Bir gün açar ağlama.

Saatın tərsə taxma,
Dönüb dalıya baxma.
Özün gör, özün bəyən,
Ellər sözünə baxma.

Ağ alma, qızıl alma,
Nimçəyə düzül alma?
Çirkin al nəcib olsun,
Bəd əsil gözəl alma.

Arif odu söz qana,
Söz anlaya, söz qana.
Sənə süd verən ana,
Olsun mənə qaynana.

Əzizim, daldasına,
Mərd igit dalda sına.
Namərd aslan olsa da,
Sığınma daldasına.

Mən aşığam ayına,
Bəndəm qaşın yayına.
Qorxuram kirpik çalam,
Üzündən göz yayına.

Baharsız daşdı dünya,
Çürük ağaşdı dünya.
Kimə deyim dərdimi?
Bütün qan-yaşdı dünya.

Mən aşiq yaralılar,
Dərdlilər, yaralılar.
Təbibi burda gördüm,
Yığılın yaralılar.

Yol üstündə var çinar,
Yarpağı dinar-dinar.
Çətin işə düşmüşəm,
Qutarsın pərvərdigar.

Bağlarında üzüm var,
Getmə dayan, sözüm var.
Gözlərindən qorxuram,
Qaşlarında gözüm var.

Bu dağda maralım var,
Ox dəgdi yaralım var.
Nə gecə yuxum gəlir,
Nə gündüz qərarım var.

Sözü sözdən alan var,
Zülfün üzə salan var.
Gedirsən, tez qayıt gəl,
Gözi yolda qalan var.

Mən aşığam bir ay var,
Bir ulduz var, bir Ay var.
Gündə gördüyüm yarı,
Görməmişəm bir ay var.

Qara dağın düzü var,
Düzlərində quzi var.
İki könül bir olsa,
Kimin ona sözü var?

Narınc idim, sıxdın yar,
Xatirimi yıxdın yar.
Dost-düşmən arasında,
Çox vəfasız çıxdın, yar.

Dağlar başı tütündü,
Kimin qəlbi bütündü?
Əyil, öpüm üzündən,
Dünya ölüm-itimdi.

Mən aşığam, yaz, göndər,
Payız göndər, yaz göndər.
Kağaz ələ düşməsə,
Yarpaq üstə yaz, göndər.

Əzizim, bir-bir düşər,
Ox yaydan bir-bir düşər.
Cəfa çəkdigim günlər,
Yadıma bir-bir düşər.

Əzizim sulu gözlər,
Səndəki doli gözlər.
Aşiq hicran çölündə,
Oturub yoli gözlər.

Əzizim kimi gözlər,
Tar çalan simi gözlər.
Qaşın kimi qaş olmaz,
Gözlərin kimi gözlər?

Dağlardan səda gələr,
Məzlumlar dada gələr.
Gəlsin mənim canıma,
Sənə hər qada gələr.

Kəməndin atan tellər,
Aşiqin satan tellər.
Əl vurma, çalar səni,
Qıvrılıb yatan tellər.

Gecələr, il gecələr,
Dərdimi bil gecələr.
Mən burda qan ağlaram,
Sən orda gül gecələr.

Qaşın kim ala bilər?
Gözün kim ala bilər?
Səni mənim əlimdən,
Görüm kim ala bilər?

Armud daldan süzülər,
Yerə düşər büzülər.
Bir dana bizə verin,
Xəstəmiz var, üzülər.

Şərbətə fincan gəti,
Laləyə mərcan gəti.
Görüşümə gələndə,
Cismimə bir can gəti.

Piyaləni düz gəzdir,
Bir özün iç, bir gəzdir.
Dünyaya sənsiz baxsam,
Gözlərimə mil gəzdir.

O da məni yandırar,
Bu da məni yandırar.
Soyundum suya düşdüm,
Su da məni yandırar.

Ovçi bərədən gəlir,
Dağdan, dərədən gəlir.
Dağda qar yox, bulud yox,
Bu sel haradan gəlir?

Keçdi bizim çağımız,
Xəzan oldu bağımız.
Yel əsdi, yağış yağdı,
Töküldi yarpağımız.

Əzizim məni tapar,
Dərd gələr məni tapar.
Göydən hər bəla gəlsə,
Axtarar məni tapar.

Qaşların qatar-qatar,
Kirpigin oxlar atar.
Yarpaqların gül açmış,
Dodaqların bal satar.

Qızılgül üç gül açar,
Üç yarpaq, üç gül açar.
Çağırsan Əbülfəzli,
O, yaxşı müşkül açar.

O tay bu taya baxar,
Arasından çay axar.
Kor olsun mənim gözüm,
Sənsiz dünyaya baxar.

Mən aşiq oda yaxar,
Qəlyanın oda yaxar.
Dost-dostunun yolunda,
Canını oda yaxar.

Bu bazar, uzun bazar,
Barmaqlarım xətt yazar.
Xudam yazan yazını,
Bəndə nə deyər pozar.

Gecələr, zar gecələr,
Verməz zinhar gecələr.
Ay batdı, Ülkər çıxdı,
Gəlmədi yar gecələr.

Hay salıram oyanmır,
Dərdə, qəmə boyanmır.
Eşq oduna düşmüşəm,
Mən yanıram, o yanmır.

Araz, Araz, xan Araz,
Dəryaya baxan Araz.
Nişanlım gəmidədi,
Gəl, eyləmə qan Araz.

Gecə uzun, ay batmaz,
Dərdlilər gecə yatmaz.
Sənun kimi gözəli,
Tanrı bir də yaratmaz.

Dağlarda yağış durmaz,
Qar yağar, yağış durmaz.
Gözəldə nə qaydadı,
Zülfüni yığışdırmaz.

Əzizim, gedər, qalmaz,
Axar su gedər, qalmaz.
Vəfalıya can qurban,
Vəfasız gedər qalmaz.

Əzizim, ay utanmaz,
Gün çıxar, Ay utanmaz.
Pisin, pis əməllərin,
Üzünə say utanmaz.

Əziziyəm, yüz il gəz,
Yüz il dolan, yüz il gəz.
Vəfalı yar yolunda,
Heç gəzməsən, yüz il gəz.

Bu gələn özün bilməz,
Danışa sözün bilməz.
Hər gəlib su dolduran,
Çeşmənin gözün bilməz.

Dağlar, siz nə dağlarsız?
Qardan kəmər bağlarsız.
Gül sizdə, bülbül sizdə,
Daha niyə ağlarsız?

Bağa girmərəm sənsiz,
Gülün dərmərəm sənsiz.
Dağda ahu mələsə,
Bil ki, o, mənəm sənsiz.

Ay ordan tək-tək doğar,
Gün burdan tək-tək doğar.
Sənin kimi oğlanı,
Analar tək-tək doğar.

Əzizim, daşa çalar,
Su özün daşa çalar.
Yemə namərd çörəyi,
Qayıdar başa çalar.

Göydə qara buludlar,
Parə-parə buludlar.
Mənim ərzi-halımı,
Apar yara, buludlar.

Gül açıb ara bağlar,
Bəzənib bara bağlar.
Aşiq yüz söz qoşsa da,
Axırın yara bağlar.

A dağlar, bizim dağlar,
Sizə var sözüm dağlar.
Ala gözli ceyrana,
Vurğunam özüm dağlar.

Aşiq aranı dağlar,
Peykan yaranı dağlar.
Könül istər, əl çatmaz,
Kəsib aranı dağlar.

Əziziyəm axşamlar,
Çıraq yanar axşamlar.
Evli evinə gedər,
Evsiz harda axşamlar.

Mən aşığam hər aylar,
Hər ulduzlar, hər aylar.
Başım cəllad əlində,
Dilim səni haraylar.

Üzülmüşəm, üzülmüş,
Xumar gözlər süzülmüş.
Varmı bir mənim təki,
Əli əldən üzülmüş.

Sular axmaq ögrənmiş,
Bəndi yıxmaq ögrənmiş.
Mənim bu cahil göylüm,
Xatir yıxmaq ögrənmiş.

Ana başa tac imiş,
Hər dərdə əlac imiş.
Bir övlad qocalsa da,
Anaya möhtac imiş.

Başın nədən ağarmış,
Saçın dən-dən ağarmış.
Sənə güvəndiyim dağ,
Sənə də qar yağarmış.

Daşları açdım ancaq,
Belimdə sarı sancaq.
Nə qız oldum, nə gəlin,
Odlara yandım ancaq.

Qalx, gedək burdan artıq,
Baş açıq, yaxa yırtıq.
Biz dedik qəm azalsın,
Qəm gəldi qəmdən artıq.

Aman, aman ayrılıq,
Olur yaman ayrılıq.
Eşidəndə başımdan,
Qalxır duman ayrılıq.

Yaşildi başın, ördək,
Qələmdi qaşın, ördək.
Həmişə cüt gəzərdin,
Hanı yoldaşın ördək.

Aman fələk, dad fələk,
Heç olmadın şad fələk.
İçirdigin şərabdan,
Özün də bir dad, fələk.

Mən aşiq əsdi fələk,
Səbrimi kəsdi fələk.
Hər yerdə çadır qurdum,
Tənəfin kəsdi fələk.

Qaşların qara, gözəl,
Dərdimə çara, gözəl.
Səndən əl götürmərəm,
Çəksələr dara, gözəl.

Quzum gəl, ay quzum gəl,
İşıqlı ulduzum gəl.
Özgə qurban kəsmənəm,
Sənə qurban özüm, gəl.

Xoya gəl, Mərəndə gəl,
Bağdan bar dərəndə gəl.
Bir gəldin, xəstə gördün,
Bir də can verəndə gəl.

Əzizim güldən gözəl,
Oxur bülbüldən gözəl.
Yar mənə bir gül verib,
Özü o güldən gözəl.

Ağacdan quş tutaram,
Qanadın boş tutaram.
Desələr yarın gəlir,
Bir ay oruc tutaram.

Mən aşiq, ağladaram,
Yarımı bağladaram.
Ürək dərdimi desəm,
Dünyanı ağladaram.

Dəsmalın ağ saxlaram,
Yuyaram ağ saxlaram.
Bir də yanıma gəlsən,
Yüz il qonaq saxlaram.

Getdi gülüm, ağlaram,
Oldi zülüm, ağlaram.
Əsdi vədə küləyi,
Təkdi gülüm, ağlaram.

Sünbülləri bağlaram,
Ürəkləri dağlaram.
Gecə-gündüz yolunda,
Ah çəkərəm, ağlaram.

Qızılgüləm, aşmaram,
Aşsam da dolaşmaram.
Sən dövlətli, mən kasıb,
Mən sənə yaraşmaram.

Yaralıyam yatmaram,
Güni günə satmaram.
Yardan gələn bu dərdi,
Ayrı dərdə qatmaram.

Bağa girmişcə varam,
Gülün dərmişcə varam.
Yarı yuxuda görsəm,
Özün görmüşcə varam.

Bu gecə uymamışam,
Baş yerə qoymamışam.
Quran gəti, əl basım,
Mən səndən doymamışam.

Mən aşiq güldən allam,
Gülabı güldən allam.
Bağda bülbülüm ölsə,
Qanını güldən allam.

Yersiz söz danışmanam,
Hər işə qarışmanam.
Çəkil, dindirmə məni,
Küsmüşəm barışmanam.

Dərya kimi bulannam,
Bağça kimi sulannam.
Sağ gözüm sənə qurban,
Sol gözümlə dolannam.

Ustalar ustasıyam,
Xəncərun dəstəsiyəm.
El bilir, aləm bilir,
Gözlərun xəstəsiyəm.

Əzizim fikr eylərəm,
Yolunda fikr eylərəm.
Ölsəm də yarın adın,
Qəlbimdə zikr eylərəm.

Güləm, gülə neylərəm?
Gülə xidmət eylərəm.
Versələr öz gülümü,
Özgə gülün neylərəm?

Əziziyəm çönmərəm,
Çağırmasan çönmərəm.
El-tayfanı ataram,
Amma səndən çönmərəm.

Mən aşiq səsə gülləm,
Naləyə, səsə gülləm.
Yad eldən qaça bilsəm,
Yolları kəsə billəm.

Dolanıb dağ gəzirəm,
Bülbül tək bağ gəzirəm.
Əlli yerdən yaram var,
Genə də sağ gəzirəm.

Güldanda gül əkirəm,
Güldən gülab çəkirəm.
Düşəsən eşq oduna,
Görəsən nə çəkirəm.

Bülbüləm nəva bilməm,
Dərdliyəm dəva bilməm.
Başımda bir sevda var,
Başımnan sova bilməm.

Əzizim üzdən oldum,
Söhbətdən, sözdən oldum.
Bir bivəfa yolunda,
Ağladım gözdən oldum.

Hər dərdə dözən mənəm,
Əlimi üzən mənəm.
Göz yaşlı, ürək dağlı,
Sərgərdan gəzən mənəm.

Mən aşiq günə düşdüm,
Kölgədən günə düşüb.
Düşmənə xəbər olsun,
O deyən günə düşdüm.

Kölgədən günə düşdüm,
Bağlı düyünə düşdüm.
Fələk, qapın çırpılsın,
Sən deyən günə düşdüm.

Saraldım, qəmli oldum,
Yaman dərdə tuş oldum.
Səni sevəndən bəri,
Yuvasız bayquş oldum.

Açdım, açdım gül oldum,
Boy atdım, sünbül oldum.
Bir dil bilməz quşuydum,
Oxudum, bülbül oldum.

Bağçalarda gül mənəm,
Bülbül sənsən, gül mənəm.
Mən səndən ayrılalı,
Ağlayaram, gülmənəm.

Əzizim, bir də görüm,
Səni mən bir də görüm.
Görmüşəm, doymamışam,
Aç üzün bir də görüm.

Mənim bu yanmış göylüm,
Dərdə qalanmış göylüm.
Bildir günüm xoş keçdi,
Bu il talanmış göylüm.

Dumanlı dağlar göylüm,
Niskilli bağlar göylüm.
Nə açılar, nə gülər,
Həmişə ağlar göylüm.

Qeybətə düşdü yolum,
Düşmən alıb sağ-solum.
Eldən ayrı düşəli,
Buxovlanıbdı qolum.

Əzizim necə dönüm,
El yatsın, necə dönüm.
Kafər dinindən dönməz,
Mən səndən necə dönüm.

Mən aşiq and içmişəm,
Bağından gül biçmişəm.
Gözəllərin içində,
Bircə səni seçmişəm.

Damnan dama gəlmişəm,
Gül dərmağa gəlmişəm.
İtirmişəm yarımı,
Axtarmağa gəlmişəm.

Əzizim, mən də yetim,
Asta get, mən də yetim.
Hamı arzuya çatdı,
Gün olsun mən də yetim.

Mən aşiq necə keçim?
Bu sudan necə keçim?
Dünyanı namərd alıb,
Mərdləri necə seçim.

Əzizim, qora dərdim,
Möz altdan qora dərdim.
Gözlədim, yar gəlmədi,
Apardım gora dərdim.

Əziziyəm, var dərdim,
Yol dərmanım, var dərdim.
Xar əkənlər, gül dərdi,
Mən gül əkdim, xar dərdim.

Səni bülbül bilərdim,
Sarı sünbül bilərdim.
Baxçamızda açılmış,
Bir qızılgül bilərdim.

Əzizim, ağlamazdım,
Gülməzdim, ağlamazdım.
Bilsəydim ayrılıq var,
Sənə bel bağlamazdım.

Saçın hörmağa gəldim,
Halın sormağa gəldim.
Məramım bu dəgildi,
Üzun görmağa gəldim.

Əzizim, yaralandım,
Ox dəgdi, yaralandım.
Xəncəl vurdun, dəgmədi,
Dilindən yaralandım.

Sutək arxa dolandım,
Saptək çərxə dolandım.
Zalım fələk əlindən,
Qorxa-qorxa dolandım.

Yandım, Allahım, yandım,
Sümmə billahım yandım.
Daş olsaydım ərirdim,
Torpaq oldum, dayandım.

Əzizim, hara gedim?
Haram var, hara gedim?
Düşmüşəm eşq oduna,
Bilmirəm hara gedim?

Əzizim, məst olaydım,
Yar səndən məst olaydım.
Bir piyalə ləbindən,
Mən içib məst olaydım,

Ay, kaş, dərviş olaydım,
Yollar üstə duraydım.
Həftədə bir, ayda bir,
Səni görmüş olaydım.

Yanan çırağ olaydım,
Yolda qırağ olaydım.
Yarım suya gələndə,
Qaynar bulağ olaydım.

Fələki dindireydim,
Bilməzin bildireydim.
Mənə yazi yazanda,
Qələmin sındıreydim.

Aşiq süzgün gözlərim,
Qəmdən üzgün gözlərim.
Gözəldən doya bilməz,
Baxsa yüz gün gözlərim.

Qərənfil əsdi, neylim?
Səbrimi kəsdi, neylim?
Üzdə dost, dalda düşman,
Mən belə dostu neylim?

Başuva mən dolanım,
Mən dönüm, mən dolanım.
Tanrı səni saxlasın,
Kölgəndə mən dolanım.

Sonayam, göl üstəyəm,
Bülbüləm gül üstəyəm.
Gəl bir, qol-boyun olaq,
Gedirəm yol üstəyəm.

Əzizim, necə sayım?
Dərdim çox, necə sayım?
Sənsiz keçən günləri,
Ömürdən necə sayım?

Suyu içənə qurban,
Sözü seçənə qurban.
Dünayada dostum çoxdu,
Candan keçənə qurban.

Əzizim quzu qurban,
Qoç qurban, quzu qurban.
Mərdin bir tək tükünə,
Namərdin yüzü qurban.

Namə yazdım qaradan,
Dağlar qalxsın aradan.
Qovuşdursun bizləri,
Yeri-göyü yaradan.

Bağlar silkindi bardan,
Düşmən kam aldı yardan.
Nola bir xoş gün gələ,
Biz də qurtaraq dardan.

İşim aşmadı başdan,
Gözüm doymadı yaşdan.
Fələk mənə versəydi,
Verərdi əzəl başdan.

Dağların harayından,
El köçər harayından.
Mərdin daxması yaxşı,
Namərdin sarayından.

Dolan, gəl bizə, ceyran,
Zülfün tök üzə, ceyran.
Qorxuram yad ovçudan,
Gəl çıxma üzə, ceyran.

Gedirəm, sən qalarsan,
Meylin kimə salarsan?!
Yuvasız bayquş kimi,
Daldan dala qalarsan.

Alma versəm almazsan,
Sən almadan qalmazsan.
Hansı bağın gülüsən?
Açılarsan solmazsan.

Qaşlarun aldırmısan,
Gözlərun doldurmusan.
El bilir, aləm bilir,
Sən məni yandırmısan.

İlqarın oldi yalan,
Göylümi etdin talan.
Ayrılsın ayrı düşsün,
Bizə ayrılıq salan.

Köynəgi yaşıl oğlan,
Əcəb yaraşır oğlan.
Gözüm gözünə düşcək,
Dilim dolaşır oğlan.

Gəlirdim yollarından,
Min bir xəyallarından.
Gəl bir qol-budaq olaq,
Həmayil qollarından.

Şimşək çaxır gözlərdən,
Qan-yaş axır gözlərdən.
Nə olmuş ya İlahi?
Alov qalxır sözlərdən.

Çəkilməz duman yerdən,
Küsəllər uman yerdən.
Bir maral itirmişəm,
Gəzirəm guman yerdən.

Uçaram gülünüzdən,
Qaçaram əlinizdən.
Bir yaşıl baş sonayam,
Düşərəm dilinizdən.

Şalı asdım dirəkdən,
Bir ah çəkdim ürəkdən.
Sənsiz sağalmaz yaram,
Təbib gəlsə Firəngdən.

Mən aşığam, qəm əldən,
Qoymaz məni qəm əldən.
Getsə dünyalıq getsin,
Getməsin həmdəm əldən.

Mən aşığam əzəldən,
Yar yarın verməz əldən.
Dostum var, düşmənim var,
Salma məni nəzərdən.

İstəkanın bullurdan,
İstərəm cani-dildən.
Gəti caynaq çəkişək,
Sən dodaqdan, mən dildən.

Əzizim, dağıt üzdən,
Zülfünü dağıt üzdən.
Göylüm elə virandı,
Seçmərəm dağı düzdən.

Əzizim, keçdi məndən,
Ox atdı keçdi məndən.
Mərdlərə körpü oldum,
Namərdlər keçdi məndən.

Sular axar dərindən,
Dağlar oynar yerindən.
Şad göylüm viran oldu,
Dünyanın dərd-qəmindən.

Mən aşiq, nə gözlərsən,
Gözlərim nə gözlərsən?
O yar səni gözləməz,
Sən onu nə gözlərsən.

İşini al ələ sən,
Ömri vermə yelə sən.
Hər işdə səbirli ol,
Peşman olar tələsən.

Çıxaram dağlara mən,
Baxaram yollara mən.
Bir günə qatlanmazdım,
Qatlandım illərə mən.

Bir yaralı qoçam mən,
Yerim yoxdu uçam mən.
Ürək ki, süfrə degil,
Hər gələnə açam mən.

Od tutub yanaram mən,
Gizli söz qanaram mən.
Gözlərim yar yolunda,
Günləri sanaram mən.

Nə desən qanıram mən,
Səni yar tanıram mən.
Mənə od nə gərəkdi,
Odsuz da yanıram mən.

Üzüyündə qaşam mən,
İgitlikdə başam mən.
Yaxşı gündə gəz, dolan,
Pis gündə yoldaşam mən.

Gedirəm sərdəşdə mən,
Olmuşam sərgəştə mən.
Gəlib əcəl fərmanı,
Yazılmışam başda mən.

Zəfəransan, zirəsən,
Sən hər dərdi biləsən.
O günə qurban olum,
Sən qapıdan girəsən.

Dolangilən dağı sən,
Məclisdə ol sağı sən.
Bülbül ol, qon budağa,
Bəzə bizim bağı sən.

Çıxaram dağlara mən,
Yerim yoxdi qaçam mən.
Ürək ki, süfrə deyil,
Hər gələnə açam mən.

Bulağı başı ilən,
Dibinin daşı ilən.
Yara bir namə yazdım,
Gözümün yaşı ilən.

Əzizim aydın olsun,
Ay doğsun, aydın olsun.
Eşitdim yarın gəlir,
Gözlərin aydın olsun.

Qaşların yay mənimçin,
Yanağın ay mənimçin.
Mən ölsəm sənə qurban,
Sən ölsən vay mənimçin.

Getdigin Məşəd olsun,
Yolların gülşad olsun.
Səni məndən edəni,
Nə gülsün, nə şad olsun.

Əzizim, gözün aydın,
Ay çıxdı, gözün aydın.
Yardan sənə xoş xəbər,
Sənin də gözün aydın.

Ürək yara olmasın,
Sınsın yara olmasın.
Rəngin qara olsa da,
Qəlbin qara olmasın.

Qızılgül ərsin-ərsin,
Qızılgülü kim dərsin?
Ürəginin mətləbin,
O ağam Əli versin.

Sarı çuxam yırtılsın,
Yaxam səndən qurtulsun.
Qarğışa dilim dönməz,
Burnun yerə sürtülsün.

Aşıq sözə gəlməsin,
Ceyran düzə gəlməsin.
Getsin qara buludlar,
Bir də bizə gəlməsin.

Bu dağda əkdim əkin,
Aldılar əlimdəkin.
Nə kafər, nə müsəlman,
Olmasın sənin təkin.

Əzizim qərə xalın,
Can alır qərə xalın.
Ürəyimə xal saldı,
Ağ üzdə qərə xalın.

Əlində bayda gəlin,
Durubdu çayda gəlin.
Allah mətləbin versin,
Açılan ayda gəlin.

Aşiqin çoxdi sənin,
Kiprigin oxdi sənin.
Yolunda can qoymuşam,
Xəbərin yoxdi sənin.

Gözlərin şuxdi sənin,
Kiprigin oxdi sənin.
Dərdin məni öldürür,
Xəbərin yoxdi sənin.

Gəlin, gəlin, qız gəlin,
İncilərin düz gəlin.
Yeddi oğul istərəm,
Sonbeşigin qız gəlin.

Ay çıxdı, qadir Allah,
Təqsirim nədir, Allah?
Ya mənim sevgilimi,
Ya mənə səbir Allah.

Ağlaram özüm Allah,
Kor oldu gözüm Allah.
İl gəldi başa çatdı,
Mən necə dözüm Allah.

Araz üstə, buz üstə,
Kabab yanar köz üstə.
Qoy məni öldürsünlər,
Bir ala göz qız üstə.

Bulud gəlir dağ üstə,
Şeh tökülür bağ üstə.
Şamamanı gizlətmə,
Qoy görünsün tağ üstə.

Gün keçdi pərdə-pərdə,
Qatlanıram hər dərdə.
Yurdum –yuvam dağılıb,
Qalmışam quru yerdə.

Ovçular duran yerdə,
Oxunu quran yerdə.
Ovçu, əlin qurusun,
Mənə ox vuran yerdə.

Qızılgül üzüləndə,
Gilabı süzüləndə.
Sevgi yadıma düşür,
Gözəllər düzüləndə.

Dağların o üzündə,
Ceyran otlar düzündə.
Mən yarımı tanıram,
Qoşa xal var üzündə.

Mən aşiq yaman gündə,
Boynumda vardı kündə.
Hər yaxşı yüz yaşasın,
Ölsün yüz yaman gündə.

Bu dərə uzun dərə,
Baxdıqca uzun dərə.
Burda bir bağ saldırdım,
Yar gələ üzüm dərə.

Məktub yazdım mən sizə,
Ayrılıq düşdi bizə.
Allah qismət eyləsə,
Oturarıq diz-dizə.

Araz qırağı meşə,
Gəti dəsmalın döşə.
Arasına gül düzüm,
Dövrəsinə bənövşə.

Əziziyəm, gün gələ,
Ay çəkilə, gün gələ.
Ömrümü bada verdim,
Gözlədim xoş gün gələ.

Mən aşiq gülə-gülə,
Gül əkdim gülə-gülə.
Düşmən evimi yıxdı,
Üzümə gülə-gülə.

Yolların başı ilə,
Üstünün daşı ilə.
Sənə bir kağız yazdım,
Gözümün yaşı ilə.

Mən aşiq öz günümə,
Dərdlərə döz günümə.
Düşmən əlimə düşsə,
Salaram öz günümə.

Varımdı sözüm sənə,
Düşübdü gözüm sənə.
Pulum yox qurban kəsim,
Qurbanam özüm sənə.

Mən aşiq, neylim sənə,
Düşübdü meylim sənə.
Mən dönsəm, üzüm dönsün,
Sən dönsən neylim sənə.

Dərdin danış bilənə,
İş başına gələnə.
Açma ürək dəftərin,
Hər üzüvə gülənə.

Fələgin qəhri mənə,
Heç gəlməz rəhmi mənə.
Aləmə şərbət verdi,
İçirtdi zəhri mənə.

Mən aşiq gözlərinə,
Qoy baxım gözlərinə.
Canım canına qurban,
Gözlərim gözlərinə.

Mən aşiq yerişinə,
Qurbanam yerişinə.
O qədər ölməyəydim,
Çataydım görüşünə.

Mən aşığam üzünə,
Heyranam qaş-gözünə.
Sən məndən əl çəkməzdin,
Baxdın əğyar sözünə.

Əzizim güni-günə,
Gəl, satma güni-günə.
Keçən günə gün çatmaz,
Calasan güni-günə.

Gəlinə bax, gəlinə,
Zülfün alıb əlinə.
Şirin-şirin danışır,
Mən qurbanam dilinə.

Mən aşiq verdiginə,
Həmd olsun verdiginə.
Verərsə xudam versin,
Qul nədi, verdigi nə?

Mən aşığam, gülüm vay,
Bülbülüm vay, gülüm vay.
Bir bağda bağban oldum,
Heç dərmədim gülüm vay.

Əzizim, nar ağacı,
Bar verməz nar ağacı.
İnadımdan keçmərəm,
Qurulsa dar ağacı.

Bu dağların yamacı,
Çoxli-çoxli ağacı.
Mən bir dərdə düşmüşəm,
Yarımdadı əlacı.

Dost əlindən al oxi,
Al, kamanə sal oxi.
Göz yaşilə ərzəm var,
Yetişcağın al oxi.

Divara sancdım mıxi,
Gözümə gəlməz yuxi.
Mən yadına düşəndə,
Yazdığım şeiri oxi.

Ərkin dami ucadı,
Üsti baca-bacadi.
Kişi saqqalın qırxdır,
Arvad deyir "qocadı".

Göyərçin havadadı,
Uçmayıb yuvadadı.
Gözlərim yar yolunda,
Əllərim duvadadı.

Qərənfil qutudadı,
Xumar göz yuxudadı.
Qəm çəkmə, dəli könül,
Mətləb verən Xudadı.

Bu dərə buz bağladı,
Dibi yarpız bağladı.
Getdim dərdsiz yanına,
O, məndən çox ağladı.

Cığatı buz bağladı,
Yanı yarpız bağladı.
Məni gəlin oxladı,
Yaramı qız bağladı.

Göydə bulud oynadı,
Gözüm yardan doymadı.
Çatmış idim xoş günə,
Namərd fələk qoymadı.

Əgnimə əkilibdi,
Sünbülüm tökülübdi.
Zülfündən bir tel göndər,
Kəfənin tikilibdi.

Ağ alma xallanıbdı,
Ağacdan sallanıbdı.
Almanı göndərən yar,
Kimlərə aldanıbdı?

Burdan bir atlı keçdi,
Nalın parlatdı, keçdi.
Hər kəsə vəfa qıldım,
Məni ağlatdı keçdi.

Yar mənə baxdı, getdi,
Qəlbimi yaxdı, getdi.
Ağlamaqdan göz yaşım,
Sel kimi axdı getdi.

Araz buruldu, getdi,
Suyu duruldu, getdi.
Mən dedim yar incidi,
Demə yoruldu, getdi.

Quşlar göydə pər açdı,
Günəş yerə nur saçdı.
Yar məndən ayrılanda,
Üzümün rəngi qaçdı.

Dərya səndən kim keçdi,
Kim qərq oldi, kim keçdi?
Sən məndən üz döndərdin,
Xəyalından kim keçdi?

Burdan bir atlı keçdi,
Atın oynatdı, keçdi.
Gün kimi işıq saldı,
Ay kimi batdı, keçdi.

Mən aşiq, gülə baxdı,
Bülbüllər gülə baxdı.
Bir gözəl gülümsədi,
Ağzından gülab axdı.

Əzizim, yazan yoxdi,
Dərdimi yazan yoxdi.
Qürbətdə düşüb ölsəm,
Qəbrimi qazan yoxdi.

Əzizim, bad apardı,
Bad əsdi, bad apardı.
Cəfasını mən çəkdim,
Səfasın yad apardı.

Mən gedəndə bahardı,
İldırımlar çaxardı.
Yara namə yazanda,
Göz yaşlarım axardı.

Balıq suda yan verdi,
Yaram coşdi, qan verdi.
Dost məni yoxsul görcək,
Üz çevirib yan verdi.

Uzaqdan bir yel əsdi,
Səbrim-qərarım kəsdi.
Sağ gözüm sənə qurban,
Sol gözüm mənə bəsdi.

Ay dolandı, il aşdı,
Bağım, bağçam gül aşdı.
Yalvardım danışmadı,
Küsən kimi dil aşdı.

Ay çıxdı düzə düşdi,
Qıvrım tel üzə düşdi.
Fələk bir iş işlədi,
Ayrılıq bizə düşdi.

Gedirəm yolum dağdı,
Gör nə heyvalı bağdı.
Unutmaram yarımı,
Nə qədər canım sağdı.

Əzizim, mənə dəgdi,
Daş atdın mənə dəgdi.
Fələgin hicran oxi,
Qurtuldi mənə dəgdi.

Məni bir ilan çaldı,
Dilimi bilən çaldı.
Üzdə dost, dalda düşman,
Üzümə gülən çaldı.

Ay batdı, qaş qaraldı,
Bu gün rəngim saraldı.
Yardan ayrı düşəli,
Dünya mənə daraldı.

Yar məni dərdə saldı,
Qəmdən bənzim saraldı.
Mənim ağlar gözlərim,
Viran bağa su saldı.

Aşiq arada qaldı,
Peykan yarada qaldı.
Qohum uzaq, yar iraq,
Nəşim arada qaldı.

Aman amana qaldı,
Halım yamana qaldı.
Yarın gül üzün görmək,
Axır zamana qaldı.

Asmada üzüm qaldı,
Dərmədim, gözüm qaldı.
Yarım getdi, gəlmədi,
Ürəkdə sözüm qaldı.

Ağ maya düzdə qaldı,
Yükü Təbrizdə qaldı.
Oğlanı dərd apardı,
Dərmanı qızda qaldı.

Əziziyəm, nə qaldı?
Nə payladı, nə qaldı?
Fələk mənim başıma,
Gətirməmiş nə qaldı?

Ağac əkili qaldı,
Yaxam söküli qaldı.
Hamı murada çatdı,
Boynum büküli qaldı.

Əlində fənər gəldi,
Əqlimə nələr gəldi.
Dünyadan kam almadım,
Başıma nələr gəldi.

Bir gül əkdim, xar oldi,
Kətan köynək dar oldi.
Mənə söz verən dilbər,
Özgələrə yar oldi.

Dost bizə gəlməz oldi,
Dərdimi görməz oldi.
Mən ona neyləmişdim,
Halimi bilməz oldi.

Söz deyən aşiq oldi,
Elə yaraşıq oldi.
O gün yar bizə gəldi,
Evimiz işıq oldi.

Aylar keçdi, il oldi,
Su bulandı lil oldi.
Məni bu dərdə salan,
Ağzımdakı dil oldi.

Qızılgül dən-dən oldi,
Dərmədim xəndan oldi.
Mən səndən ayrılmazdım,
Ayrılıq səndən oldi.

Samavarım quruldi,
İçində su duruldi.
Köhnə yaram üstünə,
Taza yara vuruldi.

Bağda güllər biçildi,
Gül tikandan seçildi.
Bircə yol səni görcək,
Tutqun göylüm açıldi.

Bu ay mənim ayımdi,
Kimlər mənim tayımdi.
Gözümdən axan qan yaş,
Fələk verən payımdi.

Əzizim gülüstandi,
Aç, oxu, “Gülüstandi”.
Bülbülün göz yaşından,
Bağçada gül islandi.

Mən aşiqəm üz qandı,
Sinə qandı, üz qandı.
Ev yıxmaq bir qan olsa,
Könül yıxmaq min qandı.

Qızılgül axçalandı,
Dibi tabağçalandı.
Səni kimlər qarğıdı,
Paltarın boğçalandı.

Dəryalar adalandı,
Şərablar badalandı.
İçdim qəm piyaləsin,
Dərdim ziyadalandı.

Dağlar başı dumandı,
Elin halı yamandı.
Yar yıxdı göylüm evin,
Bax, ürəgim virandı.

Bu dağlar kömürdəndi,
Keçən gün ömürdəndi.
Gözəldən vəfa umma,
Ürəyi dəmirdəndi.

Dişlərin içi dəndi,
Dürdəndi, incidəndi.
Özün əcəb gözəlsən,
Dilin can incidəndi.

Mənim adım Həsəndi,
Mənzilim Daşkəsəndi.
Fələkə bel bağlama,
Fələk zəncir kəsəndi.

Şaftalı çiçəkləndi,
Qərənfil ləçəkləndi.
Ağla, gözlərim, ağla,
Ayrılıq gerçəkləndi.

Gözlərin xumar indi,
Yaş tökər, yumar indi.
Tök zülfün üzün üstə,
Könül nar umar indi.

Dağdan yenən sürüdi,
Dağı duman bürüdi.
İlqarsız yar yolunda,
Cavan ömrüm çürüdi.

Bu gəlin üskülüdi,
Əlində yas gülüdi.
Neçə yerdən yaram var,
O da yar niskilidi.

Qaşların qibləgahdı,
Qiblə desən günahdı.
Dağlara duman çöksə,
O da mən çəkən ahdı.

Burdan uzaq Gəncədi,
Zülfün pəncə-pəncədi.
Ölüm Allah işidi,
Ayrılıq işgəncədi.

Aşıq sözün gizlədi,
Sözün düzün gizlədi.
Sən baxçaya çıxanda,
Lalə üzün gizlədi.

Mən gedəndə qış idi,
Güllər doli quş idi.
İstədim namə yazım,
Barmaqlarım üşüdi.

Əzizim yar dağıdı,
Bu dağlar yar dağıdı.
Hər yerdə yuva salsam,
Fələk yıxar, dağıdı.

Əzizim, üzmə bari,
Qaşların süzmə, bari.
Aşnalıq başarmırsan,
Dostluğu pozma bari.

Dağların sal buzları,
Sal daşı, sal buzları.
Hər gecə fərağında,
Sayıram ulduzları.

Əzizim, yar diyari,
Yar yurdi, yar diyari.
Alçaq ol, uca dağlar,
Görünsün yar diyari.

Qaşların zülqədəri,
Ucları mil qədəri.
Hər səhər üzün görsəm,
Açılar gül qədəri.

Təbrizin küçələri,
Banlayır beçələri.
Sənsiz gözüm yol çəkir,
Bu uzun küçələri.

Su gələr millındiri,
Bağçanı güllındiri.
Dərdlini dindirməyin,
Dərd onu dillındiri.

Əzizim, dalda yeri,
Yel tutmaz dalda yeri.
İki könül bir olsa,
Tez tapar dalda yeri.

Aşığam, o yan yeri,
Yuxudan oyan, yeri.
Yüz il sel oya bilməz,
Bir gün qəm oyan yeri.

Qırmızı yasdıq üzü,
Qoyunlar otlar düzü.
Gəl otur həmdəm olaq,
Danışaq dərdimizi.

Gedirdim bağ arası,
Tapdım bir nar danası.
Gönül sevən göyçəyin,
Nə ağı, nə qarası.

Xalların üz qarası,
Yaxşıdı göz qarası.
Hər qara, yuyulsa da,
Yuyulmaz üz qarası.

Ceyranam çöl dəlisi,
Sonayam göl dəlisi.
Siz məni qınamayın,
Olmuşam el dəlisi.

Eləmi ay qabağı,
Buluddu ay qabağı.
Yetimin üzü gülməz,
Açılmaz ay qabağı.

Bülbüllər süzər bağı,
Dolaşıb gəzər bağı.
Camalın gül qonçəsi,
Açılsa, bəzər bağı.

Xırdaca cib piçağı,
Oldum ellər qaçağı.
Bir səhər gül, bir axşam,
Bir də günorta çağı.

Aşiq gəzir mahali,
Sözlə bəzir mahali.
Çox gəzib, çox dolanan,
Hər işdən olur hali.

Mərd sözi sözdən ali,
At qaçar, parlar nali.
Mahir ovçi ovlaqda,
Nişani gözdən ali.

Yolum daşli-qayali,
Hər işdən olum hali.
Görəsən heç tapılar,
Mən tək başı bəlali.

Maralın izi qanlı,
Topuğu, dizi qanlı.
Ovçular ov vurdular,
Tutdular bizi qanlı.

Əzizim, ay incəli,
Getdikcə ay incəli.
Sənə baxan gözlərim,
Nə batar, nə dincəli.

Açılaram gün kimi,
Oxuram bülbül kimi.
Göylümə dəyən olsa,
Sarallam sünbül kimi.

Əzizim, mən qurbani,
Gözləri min qurbani.
Apar Mina dağında,
Sən də kəs mən qurbani.

Mən aşığam Həsəni,
Həqq saxlasın Həsəni.
Xəstə göyli nar istər,
Mənim göylüm ya səni.

# VIII. LƏTİFƏLƏR

## *MOLLA NƏSRƏDDİN LƏTİFƏLƏRİ*

### ÇER BİRİ İKİ GÖRƏR

Gecənin birində Mollanın arvadı sözarası ondan soruşur:

– Ay kişi, deyirlər, çerlər biri iki görur, sən buna nə deyirsən?

Molla deyir:

– Vallah, mən də belə bir söz eşitmişəm, amma doğrusu sınamamışam. İndi ki, bunu yadıma saldın, bizdən bir az yuxarıda bir çer adam olur, dur, gedək, bunu ondan soruşaq.

Molla ilə arvadı durub özlərilə də bir fanus* götürüb o adamın qapısına gəlirlər. Qapını döyürlər. Adam qapıya gəlib soruşur: – "Nə işiz var?"

Molla ilə arvadı bir-birinə baxıb mətləbi deməgə utanırlar. Axırda Molla üzünə üz bağlayıb deyir: "Doğrusu, biz eşitmişik çerlər biri iki görür, gəldik soruşaq ki, bu söz düzdi, ya yox?"

O adam deyir: "Əqlizə dua yazım, gecənin bu vəqti dörd-dörd adam, iki-iki fanus gəliblər görsünlər çer biri iki görər, ya yox?"

### SƏNDƏN DƏ BEŞ KƏLMƏ SÖZ SORUŞMAQ OLMUR

Molla bir gün arvadından soruşur:

– Arvad, bizim bu qonşumuz dəmirçi Əhmədin adi nədi?

Arvad deyir:

– Ay kişi, məyə özün demirsən Əhməd?

Molla deyir:

– Bura bax, yahaldım** ha, deyirəm, onun işi nədi?

Arvad yenə deyir:

– Ay balam, məyə, özün demədun dəmirçi?

---

* fanus-fənər

** yahaldım-yanıldım

Molla deyir:
– Əcəb, genə də yahaldım ha, istirdim diyəm harda oturar?
Arvad deyir:
– Ay əqlsiz kişi, məyə özün demədün bizim qonşumuz?
Molla başını bulaya-bulaya deyir:
– Ay canım, səndən də beş kəlmə söz soruşmaq olmur.

## DƏLİ-DİVANƏLİGİN ÇARƏSİ

Bir gün qonşulardan biri Mollanın yanına gəlib qızının əlindən şikayət edib deyir: Ay Molla, əlim ətəguvə, bu qız lap dəli-divanə olub, səhər-axşam damda-divarda gəzir, heç cürə dəlil-nəsihət də götürmür. Sən buna bir dua yaz, ya bir dərman ver, bəlkə bir az sayxışa.

Molla deyir: “O qız ki, sən deyirsən, onu nə dua ilə, nə də dərmanla sayxışdırmaq olmaz. Məndən soruşsan, sən ona bir ər tap, onda görəcaqsan ki, bütün dəliligi toxtayacaq”.

## SƏN Kİ GÜNDƏ BURDASAN

Molla bir gün birisi ilə sözləşir, sonra da əlbəyaxa olurlar. Onları tutub aparırlar darğanın yanına. Sən demə, bir neçə gün ondan qabaq da Mollanı ayrı bir məsələ üçün həmin darğanın yanına aparmışdılar.

Darğa Mollanı görcək deyir: “Molla, səndən heç gözlənilməzdi, bu neçə gündə bu ikinci dəfədi ki, sən buraya gəlirsən”.

Molla soruşur: “Bura gələndə məyə nə olar?”

Darğa deyir: “Necə ki nə olar? Məyə sən bilmirsən ki, düz adamın yolu bura düşməz?”

Molla deyir: “Mənim ömrümdə cəmi iki dəfə yolum bura düşüb, amma sən hər gün burdasan”.

## ŞİKAR İTİ

Mollanın yaşadığı şəhərin bir cilis* hakimi var idi. Hakim bir gün Mollanı görüb dedi: "Eşitmişəm sən şikarı çox sevirsən. Səndən xahişim budu ki, mənə yaxşi bir tazı tapasan".

Molla söz verir ki, onun xahişin yerinə yetirsin.

Bir neçə gün sonra o bir yekə çoban iti tapıb boynuna ip salıb hakimin yanına aparır. Hakim köpəgi görən kimi təəccüblə Molladan soruşur:

– Sən bu köpəgi nəyə bura gətirmisən?

Mölla deyir: – Məgər siz özüz deməmişdiniz?

Hakim deyir: – Mən səndən bir beli incə tazı istəmişdim, amma sən mənə bir sürü iti gətirmisən.

Molla deyir: – Xatiriz cəm olsun, bu it bir həftə sizin evizdə qalsa, beli tazı belindən çox incələcək.

## ÖZ KÖLGƏNDƏN QORXMUSAN

Birisi Mollanın yanına gəlib deyir: – Dünən gecə bir dev yuxuma gəlib, çox qorxmuşam.

Molla soruşur: – O nə cür idi?

Adam cavab verir: – Yekə başı var idi, bir xalvar ləşi, kürək kimi dişi, dəvə kimi ayaqları, yelpik kimi qulaqları…

Molla onun sözünü qurtarmağa möhlət verməyib deyir:

– Bildim, bildim, dalisini demə. Sən yuxu görməmisən, ayıqlıqda öz kölgəni divarda görüb ondan qorxmusan.

## ƏMMAMƏNİN İŞİ

Savadsızın biri əlində bir cızmaqara kağaz gətirib Molladan istəyir ki, onu oxusun. Molla nə qədr kağazı o yan-bu yan eləyir, bir şey başa düşə bilmir, çarəsiz kağazı gətirənə qaytarıb deyir:

---

*cilis- xəsis

– Mən bu kağazdan heç nə başa düşmədim.

Adam Mollanın başına-ayağına baxıb deyir:

– Sən ki bir dana kağazı oxuyanmırsan, bəs nəyə bu böyüklükdə əmmaməni başuva qoymusan?

Molla fövrən əmmaməni öz başından götürüb adamın başına qoyub deyir:

– Əgər əmmamə ilə kağaz oxumaq olar, buyur, oxu.

## SƏBR EDƏNLƏRƏ BEHİŞT VƏDƏSİ VERİLMİŞDİ

Molla bir gün söhbət arasında arvadına deyir: – Arvad, bilirsən, biz bu dünyada bir ağ gün görmədik, amma bilirəm ki, o dünyada kef çəkəcəyik. Çünki ikimiz də dinməz-söyləməz behiştə gedəcəyik.

Arvad soruşur: – A kişi, de görüm, bunu kim sənə deyib?

Molla deyir: – Heç kəs mənə deməyib. Bunu özüm başa düşmüşəm. Biz ikimiz də ömür boyu biri-birimizin kifir sir-sifətinə baxıb səbir eləmişik. Odur ki, yerimiz behiştdü.

## EŞŞƏK İLƏ İNƏGİN FƏRQİ

Mollanın bir eşşəgi, bir inəgi, bir də xırdaca töyləsi var idi. Töylə elə balaca idi ki, eşşək orda yatanda inək ayaq üstə qalardı. İnək yatanda eşşək yatmağa yer tapmazdı.

Molla eşşəgini çox istədigi üçün bir gün Allaha yalvarar ki, “Allah, bu inəgi öldür, bəlkə eşşək rahatlığa çıxa”.

İki gün sonra səhər töyləyə gələndə görür ki, eşşək ayaqlarını dirəyib ölüb.

Molla bu hadisədən çox mütəəssir olub üzünü göyə tutub deyər: “Ağzıma daş-torpaq, min ildi Allahlıq edirsən, hələ inək ilə eşşəgi bir-birindən ayırd edə bilmirsən?”.

## İKİ XƏRCİ BİR ELƏMƏK

Molla evini təmir edirmiş. O dülgərə deyir ki, döşəmənin təxtələrini tavana, tavanın təxtələrini döşəməyə salsın. Dülgər bu işin səbəbini soruşur.

Molla deyir: – Mən yaxınlarda evlənəcəyəm. Deyirlər, adam evlənəndə altı üstünə, üstü altına gəlir. İstirəm bu təmirdə iki xərci bir eləyim.

## DADI BİR OLUR

Molla bir gün eşşəginə iki səbət üzüm çatıb evinə gətirirmiş. Şəhərə gircək uşaqlar başina yığılıb deyirlər: "Molla, biz sənun üzümündən heç dadmamışıq".

Molla uşaqları çox görüb hər birinə neçə gilə üzüm verir.

Uşaqlar deyirlər:

– Molla, iki-üç giləden bir şey olmaz.

Molla deyir: – Uşaqlar, siz üzümi dadmaq istirdiz, onun bir giləsi ilə bir salxımının dadi bir olur.

## ƏLƏ SALMAĞIN QAŞİ OLUR, YA GÖZİ?

Mollanın aşnalarından biri hər yerdə özünü tərifləyib deyərmiş ki, heç kəs məni ələ sala bilməz. Bir gün Molla özündən razi adami ələ salmaq üçün ona deyir:

– Sən burda otur, mən gedim evə baş vurum gəlim, onda gör səni necə ələ salacam.

Molla bu sözdən sonra gedir. Adam ha gözləyir ki, Molla indi gəlir, bir saata gəlir, amma Molladan xəbər olmur.

Axırda, o üzünü orada oturanlara tutub deyir:

– Gördüz? Molla gördü ki, məni ələ sala bilmiyəcək naçarlıqdan əkildi.

Oradakilərdan biri gülə-gülə deyir:

– Kişi, ələ salmağın qaşi olur, ya gözi? O, indi iki saatdi səni gözi yolda qoyub, özi gedib kefinin dalinca.

## İSTİRAHƏT SAATI

Birisi Molladan soruşur ki, sən igirmi dörd saatda neçə saat dincəlirsən?

Molla deyir:

– Gecələr beş-alti saat özüm yatanda, gündüzlər də nahardan sonra bir-iki saat "o" yatanda.

Adam soruşur:

– O, kim olmuş ola?

Molla cavab verir:

– Bizim əyal.

Adam deyir:

– Qanmaz kişi, mən soruşdum sən özün neçə saat dincəlirsən? Mənim sənin əyalın ilə nə işim var?.

Molla cavab verir:

– Qanmaz özünsən, məyər sən bilmirsən ki, onun yuxuda olduğu iki saat da mənim dincəlmək saatım sayılır.

## HƏQQ SÖZ YAMAN-YOVUZ İSTƏMƏZ

Mollanın bir qarı nənəsi var idi. O, bir gün dost-aşnalara nənəsini tərifləyir ki, Allah nənəmin ömrünü uzun eləsin, o, həmişə mənim başımın ucalığı, evimin xeyir-bərəkətidi.

Adamlardan birisi deyir: – İndi ki, sən nənəndən bu qədər razısan bəs nəyə ona bir əl-ayaq eləmirsən?

Molla bu sözdən narahat olub yaman-yovuz deməyə başlayır. Mollanın nənəsi oğlunu bu halda görəndə deyir: – Oğlum, həqq söz yaman-yovuz istəməz.

## SƏXAVƏTLİ KİŞİ

Molla naxoş olmuşdu. Bir gün məhəllə mollasını çağırıb dedi:

– Bir vəsiyyətnamə yazsın ki, o evlənəndən sonra ərindən min dinar xüms və zəkat babətindən müstəhəqlərə, beş yüz dinar oruc-

namaz olmağa, üç yüz dinar qapi qonşuya ehsan verməgə ayırsınlar. Yerdə qalanını da arvadı ilə uşaqları arasında bölsünlər.

Vəsiyyətnaməni yazan Mollanın bu qədər pulu olduğundan heyrətdə qalıb dedi:

– İndi ki pulların veriləcək yerini məlum elədin, yaxşi olar onları gizlətdigin yeri də diyəsən.

Molla dedi:

– Mömin, öz aramızda qalsın, pul-mul arada yoxdu. İstədim vəsiyyətnaməni oxuyanda desinlər, "rəhmətlik nə səxavətli kişi imiş".

## AXMAQ

Bir gecə Mollanın arvadı yuxuda qışqırmağa başlayır. Molla səsə oyanır. O, arvadını oyadıb soruşur:

– Nə xəbərdi? Niyə qışqırırsan?

Arvad deyir: – Yuxuda gördüm, bir uca yerdən düşdüm, bədənim bumbuz oldu. Qapı qonşu yığışıb cənazəmi qəbiristana apardılar. Görkan məni qəbrə qoyanda qorxudan qışqırmağa başladım. Elə onda sən məni oyatdın.

Molla bu sözləri eşidəndə iki əlli başına vurub deyir:

– Mən çox axmaq iş görmüşəm, düz yaxam əlindən qurtaran ləhzədə səni oyatmışam.

## SƏN GETMƏSƏN, MƏN GEDƏCAĞAM

Molla bir gün şəhərin hakimindən bezikir. O, hakimin yanına gəlib ondan soruşur:

– Cənab hakim, sən bu, vilayətdən çıxıb gedəcağsan, ya yox?

Hakim bu sözdən çox təəccüblənib deyir:

– Molla bu nə sözdü? Sənə nə dəxli var ki, mən bu vilayətdən çıxıb gedəcağam, ya getməyəcağam?

Molla hakimin cavabında deyir:

– Çox mənə dəxli var, istirəm bilim gedəcaqsan, ya getməyəcaqsan?

Hakim əsəbani boğub deyir:

– Yox, getməyəcağam, hər nə əlindən gəlir elə.

Molla cavab verir:

– Əlimdən nə gələcək, sən bu vilayətdən getməsən, çarəsiz mən başımı alıb gedəcağam.

## SƏN DƏ DÜZ DEYİRSƏN

Molla şəhərdə qazi olduğu zaman birisi onun yanına gəlib bir özgəsindən şikayət edir. O sözlərində özünü həqqli, qarşı tərəfi günahkar qələmə verir, sonra da Molladan nəzir istəyir:

Molla deyir:

– Sən düz deyirsən, haqq səninlədi.

Sabahisi gün o biri tərəf Mollanın yanına gəlir, o da özünü həqqli bilib günahi o biri tərəfin boynuna atır. Molla onun da sözlərin eşidəndən sonra deyir:

– Sən düz deyirsən, həqq səninlədi.

Mollanın arvadı pərdənin dalından onun hər iki tərəfə həqq verməsini eşidib soruşur:

– Kişi, bu nə cür qəzavətdi? Sən dünən həqqi o tərəfə verdin, bu gün də bu biri tərəfə verirsən.

Molla bu sözü arvadından eşitcək deyir:

– Arvad, sən də düz deyirsən.

# *ELAT LƏTİFƏLƏRİ*

## BURDAN HÜSEYN KÜRD GİLİFDƏN KEÇİB

Dərviş qəhvəxanada Hüseyni-Kürdün nağılını deyirdi. O, qalalar alan Hüseyni-Kürdün çıxılmaz, bağlı bir qalaya necə, nə yoldan girə bilməsini, qalanın içini qədəmbəqədəm gəzməsin-

dən, hər tərəfinə baş çəkməsindən söz açdı. Nağıla qulaq asanlardan biri çox təəccüblə soruşdu:

– Baba dərviş, sən heç buyurmadın pəhləvan bu qalanın içinə necə girdi?

Dərviş bir an düşünüb, sonra özünü sındırmadan "Hüseyni-Kürd burada gilifdən keçib" – deməklə, sözünə idamə verdi.

## BU HƏR GÜNKÜ ŞİLƏDİ, BU GÜN ÇARŞAB-CORAB ELƏYİB GƏLİB

Arvad yoxsulluqdan neçə gün dalbadal ərinin naharına şilə bişirir. Axır gün kişi bezikib deyir:

– Sabahdan ya mən bu evdə, ya sənin pişirdiyin şilə…

Sabahısı gün kişi nahara gələndə arvad bir boşqab yarpaq dolması onun qabağına qoyur. Kişi dolmanı bir az oyan-buyan edəndən sonra deyir:

– Elə hər günkü şilədi, bu gün də çarşab-corab geyinib gəlib.

## BU DİL Kİ, SƏNDƏ VAR, YÜZ İL BU BAŞI SAXLAR

Bir gün Kürdoğlu küçələri gəzirdi. Bir qapının qabağından keçəndə eşitdi ki, kişi arvadına deyir:

– Arvad, sən mənim bu başımı görürsən, indiyədək onu heç kəs sındırmayıb, bundan belə də sındıra bilməz.

Arvad dedi:

– Ay kişi, bu camaatı ki, mən tanıyıram, qorxuram bir gün sənin sınmaz başını da sındırsınlar.

Kürdoğlu bu sözləri eşidəndə, öz qəlbində dedi:

– Ay köpək oğlu, köpək, mən sabah sənin başıvi sındırım, özün tamaşa elə.

Sabahısı gün Kürdoğlu oralardan keçəndə gördü həmin kişi bostan suvarır. Qabağa gəlib dedi:

– A kişi, məyə korsan, görmürsən mənim tikanlarım susuzluqdan yanır, sən suyu bağlamısan öz bostanuva?

O, bunu deyə-deyə yüyürüb beli kişinin əlindən aldı, suyu çevirdi tikanlığa. Kişi işi belə görəndə, savaşıb-dalaşmaq əvəzinə başladı dil-ağız eləməyə:

– Ay başına döndüyüm, nə olar ki, əvvəl sən tikanlığuvi suvar, əgər vaxt olsa, sudan artıq gəlsə, mən də bostanımı suvararam.

Kürdoğlu altdan yuxarı kişiyə baxdı dedi:

– A kişi, doğru deyirdin, bu dil ki səndə var, yüz il o başı saxlar.

## EŞŞƏYİM, ÖKÜZÜM, QOYUNUM SƏNSƏN!

İsfahanın zalım hökmdarı Zilli-Sultan Bəxtiyar xanlarından Hüseynqulu xanı İsfahana çağırır, çoxlu izzət-ehtiramla orada saxlayır. Bir gün hökmdar Hüseynqulu xan, şəhərin ayrıbaş bəyləri hökümət talarında oturmuşdular. Heç gözlənilmədən başı açıq, ayağı yalın, bir lur məclisə soxulub salam edir. Xan başını qovzuyub deyir:

– Sənə kim deyib şəhərə gələsən, sənin burda nə işin var?

Lur deyir:

– Xan gəldim səni ziyarət edəm.

Xan əsəbiləşib deyir:

– Axmaq, arvaduvi, uşağuvi, eşşəyuvi, öküzuvi, qoyunivi başına buraxıb, necə ağac piyada, başaçıq, ayaqlayın gəlmisən məni görməyə?

Lur deyir:

– Xan başuva dönüm, arvadım da sənsən, uşağım da sənsən, eşşəyim də sənsən, öküzüm də sənsən, qoyunum da sənsən.

## İNDİ BİR AZ DA SƏN YE, MƏN MOVULDAYIM!

Birisi şorbaya çörək doğrayıb, əvvəl tikəni ağzına aparanda üzbəüzdə oturub gözünü onun əlinə tikən pişik movuldadı. Adam çarəsiz əlindəki tikəni pişiyin qabağına qoydu. O, ikinci tikəni götürüb, hələ ağzına aparmamışdı ki, genə pişik movuldadı. O, ikinci tikəni də pişiyin qabağına qoydu. Üçüncü, dör-

düncü tikələr də qabaqkı tikələrin tayı oldu. Adam bunu görəndə kasanı pişiyin qabağına qoyub dedi:

– İndi bir az da sən ye, mən movuldayım!

## MƏN NADİR QULUYAM, PUL İSTƏYİRƏM!

Nəql edirlər Nadirşah Hindistanı tutandan sonra Dehli əhalisini yaman bezikdirir. Cana gəlmiş dehlililər bir gün çox oxunaqlı yazı ilə bu sözləri yazıb Nadirin gəlib keçdiyi yol üstə asırlar: "Sən əgər Allahsan, sənə biz də gərəkdir. Əgər şahsan, sənə rəiyyət gərəkdir. Bu qədər zülm, talan hindi xaraba qoyacaq".

Nadirin gözü yazıya sataşcaq Mirzə Mehdi xandan soruşur:

– Oxu görüm, orada nə yazıblar?

Mirzə Mehdi xan yazılan sözləri oxuyur. Nadir bir az fikrə gedib sonra deyir:

– Bu sözlər mənim qulağıma girməz, nə bilim, mən Allaham, ya şaham, mən Nadirquluyam, pul istəyirəm.

## BUNDAN SONRA ƏLUVİ ÖZ CİBİNDƏ QIZDIR!

Cibkəsən əlini saymazyana birinin cibinə uzadır. Adam duyuq düşüb, onun əlini öz cibində yaxalayıb deyir:

– Mənə bax görüm, sənin əlin mənim cibimdə neyniyir?

Cibkəsən deyir:

– Məni bağışla, əlim üşüdü, istədim onu qızışdıram.

Adam ona möhkəm bir sıxaki yendirib deyir:

– Bundan sonra əluvi öz cibində qızdır!

## BUNUN TOXUMUN YER ÜZÜNDƏN KƏSSƏNƏ

Günlərin bir günü bir qoca dərviş kənd evlərinin birində qonaq qalır. Ev yiyəsi şama təndirdə balqabaq bişirmişdi. Balqabaq qocafəndi olduğundan dərviş ondan doyunca yeyir, yeyə-yeyə də ev yiyəsindən soruşur:

– Ay qardaş bişirdigin bu yeməyin adı nədi?

Ev yiyəsi deyir:

– Baba dərviş, bunun adı məhsənə!

Dərviş deyir:

– Bunun toxumundan dağı, daşı əksənə.

Dərvişə yer salırlar, yatır. Amma balqabaq başlır azar verməgə. Dərviş səhərəcən qıvrılır-açılır. Səhər olcaq o, ev yiyəsini səsləyib genə soruşur:

– Ay Hamaş, dedin gecə bişirdiyin yeməgin adı nədi?

Ev yiyəsi deyir:

– Məhsənə.

Dərviş qarın ağrısından ikiqat qaldığı halda deyir:

– Ay Hamaş, bunun toxumunu yer üzündən kəssənə!

## AY DƏDƏ, BUĞ YAĞUVİ PİŞİK APARDI

Özünü olduğundan varlı-karlı göstərmək istəyən tək ağalardan biri hər gün məhəllə çayxanasına gedəndən qabaq Şah Abbasın bığlarını eşib, kağız arasında saxladığı quyruq dərisi ilə yağlayıb işıldadardı. Bir gün genə o, çayxanada qəlyan damağında o yandan-bu yandan söhbət açandan sonra sözü yağdügünə gətirib çıxardır və deyir:

– İki gün qabaq Sərabdan bizə kərə yağı göndəriblər, sizi inandırıram mən indiyə qədər belə yağ görməmişəm. Dügünün üstünə ki qoyursan, adam əl vurmamış ətrindən məst olur. O, bunu deyə-deyə əlini bığlarına çəkib deyir:

– Mən deyirəm siz eşidəsiniz. Gərək bir gün gəlib yeyəsiniz, görəsiz!..

Onun sözü qurtarmamışdı ki, balaca qızı qaça-qaça çayxanaya girib dedi:

– Ay dədə, buğ yağuvi pişik apardı…

## VER SUYA İÇ, VER SUDAN KEÇ!

Yayda Kərbala ziyarətinə gedən bir şahsevən, hava isti olduğundan hər dəfə su içəndə, İraqda olan ziyarətgahları ziyarət

etmək üçün sudan keçəndə pul verirdi. O, ziyarəti qurtarıb qayıdandan sonra görüşünə gələnlər ondan bu səfərdə nələr gördüyünü soruşanda o deyir:

– Nə görəcağam, ver suya iç, ver sudan keç!

## SƏN KÜRƏKƏNSƏN, YA NƏKİRÜ-MÜNKÜR?

Utancağın biri toy gecəsi təzə gəlinə yanaşmaq üçün çox götür-qoydan sonra özünü əli qılıncına vurub soruşur:

– Sən bilirsən üsuli-din neçə danadı?

Tələ çırtmış qızlardan olan təzə gəlin onun cavabında atmaca ilə deyir:

– Denən görüm, sən kürəkənsən, ya Nəkirü-Münkür?

## GƏLƏNDƏ BİR ŞEYİ GƏTİRMƏYƏN, GEDƏNDƏ DƏ BİR ŞEYİ APARMAZ

Bir qıtmır, üzlü kəndli var idi. O, hər vaxt şəhərə gələndə əli-qolundan uzun şəhərdəki qohumunun evinə gələr, günlərlə sallanıb qalardı. Bir dəfə o genə neçə gün qonaq qalandan sonra kəndə qayıtmaq istəyəndə ev yiyəsi arvadına deyir:

– Sən onun sovqatını verib yola salanda ona denən ki, kənddən bizə bəzi şeylər gətirsin, bəlkə bu yolnan onun şərini başımızdan sovaq.

Arvad selə-sovqatı verəndə ona deyir:

– Şəhərdə süpürgə, əriştə, bir də qurut tapılmır, zəhmət olmasa, bu dəfə şəhərə gələndə bir neçə dana süpürgə, bir az da əriştə ilə qurut gətir.

Kəndli deyir:

– Ay mənim başım üstə. O yollanıb gedir. Bir müddət sonra o genə bir gün boş eşşək ilə tapılır. Küçə qapısına çatanda, başlayır heyvan eşşəyi bərk döyəcləməyə. Sonra ucadan deyir:

– Süpürgə çatdım, gətirmədin, əriştə çatdım, gətirmədin, qurut çatdım, gətirmədin, indi nə üzünən istərsən evə girəsən?

Ev yiyəsi onun hay-küyünə qapıya çıxıb deyir:

– O heyvanı döyəcləmə, gələndə bir şey gətirməyən gedəndə də bir şey aparmaz.

## BU AYAQDAN TÜLKÜNÜNKÜ QALIB ALLAHA

Birisini gördülər bir qat kəmənd, bir qəbzə tüfəng, bir dana it, bir dana nizə, bir çuval saman ilə gedir. Biri soruşdu:

– Bu şeyləri özünlə hara aparırsan?

O dedi:

– Tülkü şikarına gedirəm. Əvvəl çalışacağam onu kəmənd ilə tutam, kəməndlə tutammasam, çalışacağam tüfəng ilə vuram. Tüfəng ilə vurammasam, iti dalınca salacağam. İt ilə də tutammasam, tülkü qurtulub qaçıb yuvasına girsə, nizə ilə onu bezikdirəcağam, yuvası çox dərin olsa, nizə bir iş görənməsə, yuvasının ağzında saman yandıracağam!...

Soruşan adam onu sözünü bitirməyə qoymayıb dedi:

– Bu ayaqdan tülkününkü qalıb Allaha!

## OLAR AŞIM SUYU, OLMAZ BAŞIM SUYU

Arvad yuyunmaq istəyirdi. Qazanı su ilə doldurub ocaq üstə qoydu. Ərinə tapşırdı bazardan aş göyü alıb gətirsin. Kişi evdən çıxandan sonra qonşunun qızı gəldi, söz-söhbət arasında soruşdu:

– Qazanda nə bişirirsən?

Arvad dedi:

– Kişi aş göyü gətirsə aş bişiracağam.

Qız dedi:

– Bəlkə kişin gec gəldi? Onda nə olar?

Arvad dedi:

– Olar başım suyu, olmaz aşım suyu!

## TEHRANA GEDİB "ARİ" GƏTİRİB

Birisi vilayətdən Tehrana gedir. Bir müddət orada qalandan sonra vilayətə qayıdır. Görüşə gedənlər ondan hər nə soruşurlar, o, cavabında "ari" deyir. Bu söz görüşə gedənlərin ağzına düşür. Görüşə getməyənlər soruşurlar:

– Ay canım, bu sözü siz haradan öyrənmisiz?

Onlar deyirlər:

– Haradan öyrənacağıq, filani Tehrana gedib oradan sovqat gətirib.

## DİLƏNÇİLİK ÇÖRƏYİ YEYƏN ÖKÜZ CÜTƏ GETMƏZ

Əkinçi şum qurtarandan sonra öküzü özbaşına buraxıb, bir tərəfdə dincəlməyə başladı. Öküz otlaya-otlaya kölgəliyə gəlib çıxdı. Kölgəlikdə bir nəfər dilənçi torbası yanında yatmış idi. Öküz yaxınlaşıb torbada hər nə ki var idi yedi. Çox keçmədən dilənçi ayıldı, gördü öküz torbasında olanları yeyib. O, öküzün yiyəsinin yanına gəlib dedi:

– Sənin öküzün mənim torbamda hər nə var idi yeyib, sən gərək onun ya özünü, ya pulunu mənə verəsən. Öküz yiyəsi dedi:

– Bu arada əgər bir nəfər verəcaqlı olsa, o da sənsən.

Dilənçi dedi:

– Hələ mən niyə?

– Çünki sən mənim öküzümə dilənçilik çörəyi yedirtmisən, dilənçilik çörəyi yeyən öküz də cütə getməz!

## BİZ İNƏKDƏN VAZ KEÇDİK, SƏN DƏ YAZIQ İTİ AZ DANLA

İki oğru bir gecə birinin inəyini aparmağa gəlirlər. Evin iti bunu duyub başlır hürməyə. Kişi başa düşür ki, evdə oğru var. Durub çıxır qapıya ki, bəlkə oğrular onu görüb, inəyi aparmaqdan əl götürsünlər. Amma pəyənin bacasından baxanda görür

oğrulardan biri öküzün boyunduruğun açır, o birisi də şana götürüb əlinə gələni sinəsinə yığır. İşi belə görəndə o başlayır iti danlamağa: Olmaya mənlə şəriklisən, aparır mənim malımı aparır, sən niyə özüvi yırtırsan?

– Qardaş, aparırsız, aparın şana da üstələmə, halal xoşuz olsun!

Oğrular bu sözləri eşidib səslənirlər:

– A kişi, biz inəkdən vaz keçdik, sən də yazıq iti az danla!

## GECƏ QIZDIRDI, GÜNDÜZ ÖLDİ!

Birinin dədəsi naxoşladı, naxoşluğu uzun çəkdi. Sonra da vurdu öldü. Yaxından-uzaqdan gələnlər hər biri oğlandan dədəsinin nədən naxoşladığını, nə üçün sağalmayıb dünyadan getdiyini soruşanda oğlan başlayırdı uzun-uzadı nağıl etməyə. Buna görə də sözün uzanması ilə nahardan qabaq gələnlər nahara, axşam tərəfi gələnlər də şama qalırdılar. Şəhərin yemək axtaranları, qarın doyduranları da bunu eşidib, bir dəstə nahardan qabaq, bir dəstə də orada axşamçağı döşəyirdilər. Günlər bu sayağı ötür, hər dəfə evdə iki dəfə süfrə açılırdı. Oğlan birdən ayıldı gördü kü, bu uzun-uzadı danışmalar əcəb baha başa gəlir. Bu gün sabah var-yoxdan çıxacaq. Buna xatir soruşanda ki, dədən necə ölüb? O, qısaca deyirdi: – Heç necə, gecə qızdırdı, gündüz öldi.

## GAMIŞ KİMİ SUYA BATIR

Xan at bazarında bir yarış atı seçib almaq istəyirdi. Yoxlayandan sonra, gözü ceyran kimi bir ata düşür. At tanıyan bir ağsaqqal ona yanaşıb deyir:

Sən o atı alma, o, səni el içində başı aşağı elər. Xan ağsaqqalın sözün hesaba almır, atı alıb gətirir. At yarış günü bütün atları dalda qoyur, amma yarışın qurtaran yerində gözü suya düşcağın cumuxub suya yatır. Xan adam göndərib, ağsaqqalı

çağırır, ondan atın suya batan olmasını haradan bildiyini soruşur. Ağsaqqal deyir:

– Bu atın anası tez ölüb, onu gamış südü ilə bəsləyiblər, buna görə də, o, su görcək gamış kimi suya yatır.

## ZƏHMƏT OLMASA, APAR DƏVƏNİ ÖZ QAPINDA XIXLA

Şahın xəzinəsini daşıyan dəvələrdən biri itir. Şəhərin quldurlarından biri onu tapıb evinə aparır. Yükünü yendirib, əmin yerdə gizlədəndən sonra iz itirmək üçün dəvəni evdən çıxarıb, şəhərin uzaq məhəllələrinin birində yazıq bir adamın qapısında xıxlamaq istəyir. Ev yiyəsi dəvənin böyürtsünə qapıya çıxıb soruşur:

– Sən nə iş görürsən?

O cavab verir:

– İstirəm bu yolunu azmış dəvəni burda xıxlayam, bəlkə yiyəsi onu görüb aparsın.

Onun kələyini duyan ev yiyəsi deyir:

– Zəhmət olmasa, apar dəvəni öz qapında xıxla!

## ÜÇ AY MƏN SƏNƏ GƏLƏLİ, ÜÇ AY SƏN MƏNİ ALALI, RƏCƏB, ŞƏBAN, RƏMƏZAN – BU OLAR DOQQUZ AY

Avam bir kişinin arvadı evləndiklərindən üç ay sonra bir uşaq doğur. Kişi arvaddan soruşur:

– Uşağın anadan olması 9 ay çəkir. Bu necə işdi ki, sən üç ayda doğdun?

Arvad deyir:

– Bizim uşaq da doqquz ayında doğulub. Üç ay mən sənə gələli, üç ay sən məni alalı, rəcəb, şəban, rəməzan – bu elər 9 ay.

## BUNDAN SONRA NAHARI BURDA YE, ŞƏTƏL ATMAĞI SAXLA ÖZ EVİZƏ

Bir evdə nahar yeyirdilər. Birisi də içəri girib bir tərəfdə oturdu. Nahar yeməkdə olanlar ona süfrəyə yaxınlaşmağı təklif etdilər. Adam dedi:

– Mən evdə nahar yemişəm, indi ki, israr edirsiz, bir balaca şətəl ataram (əl dolaşdıraram).

O, bunu deməklə süfrəyə çəkildi, o birilərə macal vermədən yeməyə başladı.

Süfrə başındakılardan biri dedi:

– Xahiş edirik bundan sonra naharı burda ye, şətəl atmağı (əl dolandırmağı) saxla öz evizə.

## AÇIQ AĞIZ AC QALMAZ

Vaiz minbərdə qiyamət günündə mömünlərə veriləcək böyük-böyük əcrlərdən danışırdı. Vaiz qurtarandan sonra oradakı arvadlardan biri ona deyir:

Həzrəti-ağa, Siz tamam yaxşı əcrləri mömünlərə (kişilərə) bağışladız, buyurun görək axirətdə arvadlara nə çatacaq?

Vaiz deyir:

– Həmşirə, nigəran olma, açıq ağız ac qalmaz.

## AL BU QƏDƏYİ, GEDİM KƏLLƏ QƏNDİNİ DƏ GÖNDƏRİM GƏLSİN

Birisi dərziyə iki arşın yarım qədək gətirdi ki, bir don tik-sin. Dərzi qədəyi ölçüb bir tərəfə qoydu. Adam işin əl muzdusun soruşdu. Dərzi bir para təvrüfdən sonra dedi:

– Sizin rəhmətlik abu bu cürə işlərə həmişə iki arşın yarım qədək, bir kəllə qənd verərdi. Siz də hər nə versəz, öz başızın ucalığıdı.

Cavan adam dedi:

– Mən ki rəhmətlik abudan qabağa keçənmərəm, al bu qədəyi, gedim kəllə qəndini də göndərim gəlsin.

## HAKİMİN ADAMI HƏR NƏ İSTƏSƏ ELƏR

Birisi hökumət adamlarının biri ilə əlbəyaxa oldu, çəkiş-bərkişdən onun qulağını dişi ilə qopardı. Hakim adamı gətirdi. Bu işin günahını boynuna almağı ondan tələb etdi. Adam dedi:

– Mən bu işi görməmişəm. O, qulağını özü qoparıb.

Hakim dedi:

– Məyər adam öz qulağını da dişi ilə qopara bilər?

Adam cavab verir:

– Yox, bu işi edə bilməz amma o, hökumət adamıdı, hökumət isə hər nə istəsə edər.

## DÖVLƏT ADAMIDI, ÖZ HAQQIN İSTİR

Soyuq, boranlı qış gecələrinin birində həkimi yuxudan ayıldıb, gözlənilmədən naxoşlamış hakimi görməyə apardılar. Amma həkim naxoşa baxandan sonra onu icrət verməmiş yola saldılar. Buna baxmayaraq, həkimi çağırmağa gedən fərraş hakimin yaxasından yapışıb haqq-hesab istədi. Hakim özünü onun əlindən qurtarmaq üçün həkimin yanına qayıtdı, ona şikayətləndi. Amma həkimin cavabı ona bu oldu:

– Demək olar, dövlət adamıdı, öz haqqını istəyir.

## ALMANI AT GÖYƏ, YERƏ DÜŞÜNCƏ YA NƏSİB, YA QİSMƏT

Şahzadələrdən birisi axşam şikardan qayıdanda şəhərə yaxın görkəmi yorğun bir qocaya rast gəlir. O, bunu uğursuzluq sayıb, yazıq qocanı öldürtməyi əmr edir. Ölümü göz önündə görən qoca qurtulacaq yolu olmadığından, şahzadəyə çevrilib deyir:

– İndi ki məni öldürməyə əmr etmisən, mənə heç qurtulacaq yolu qalmayıb, əlindəki almanı at göyə, yalnız yerə qayıdınca, mənə aman ver.

Şahzadə deyir:

– Sən yaşamağı o qədər sevirsən ki, almanın göydən yerə düşməsini də qənimət bilirsən?

Qoca deyir:

– Yox, mən ömrümü eləmişəm, amma kim bilir, alma yerə düşüncə, kim ölə, kim qala.

Şahzadə gülümsəyib, almanı göyə atır. Alma gedib, fırlana-fırlana qayıdır. Almanın fırlanmasından şahzadənin atı hürküb, şahzadəni elə yerə çırpır ki, bir də yerdən qalxanmır. Şahzadənin adamları qocanı övliya sayıb öz halına buraxırlar. Qoca yoluna davam edir, dililə dodağı arasında deyir:

Almanı at göyə, yerə düşüncə ya nəsib, ya qismət.

## HESAB BİLMİRSƏN, YA QAZIQ YEMƏMİSƏN?

Hakimlərdən birisi bir günahkarı cəzalandırmaq üçün əmr elədi ona yüz yol qazıq (ağac mıx) işlətsinlər.

Qaravullar yazığın yaxasından tutub, hökmü yerinə yetirmək üçün aparanda, o, ucadan bağırır ki, hakimə ərzim var. Hakim deyir:

– Qoyun sözün desin.

Məhkum deyir:

– Qurban, sən ya hesab bilmirsən, ya qazıq yeməmisən!

## HƏZRƏTİ-XIZIRI GÖRDÜK, İKİ QRAN DA CƏRİMƏSİN ÇƏKDİK

Əkinçi eşitmişdi hər kim Xızır peyğəmbəri görsə, ondan hər nə istərsə yerinə düşər. Bir gün bel əlində su suvardığı yerdə birisi onunla üzbəüz gəlib dedi:

– Ay kişi, mən Xızıram, hər nə istəyin var, məndən istə.

Əkinçi deyir:

– Ay canım, mənlə boş-boşuna baş qoşma, sən haradan Xızır ola bilərsən. Məndə o bəxt harda var ki, Xızır mənə rast gələ.

Xızır nə qədər israr edir, kişi inanmır ki, inanmır. Xızır onun inanmadığını görüncə üz qoyur getməyə, kişi daldan çağırır:

– Əgər Xızırsan, bu beli kürək elə.

Dərhal bel kürək olur. Əkinçi bunu görüncə deyir:

– Həzrəti-Xızırı gördük, iki qran da cərimısin çəkdik.

## BELƏ BÖRKÜN VAR, APAR QOY CƏBRAYILIN BAŞINA

Uzun müddət başıaçıq gəzən bir adam küçə-bağdan keçə-keçə birdən köylündən bir börk keçir, öz-özünə deyir:

– Allah, nə olardı, mənə də bir börk verəydin.

Bu ara divarın dalında su arxını arıdan bir kimsə palçığın içindən cırıq, bulaşıq bir börk tapır. O, börkü belin ucunda var qüvvəsilə divarın o biri tərəfinə tullayır. Qəzadan börk də rast gəlir, düşür börk arzusu köylündən keçən yazığın başına. Kişi əvvəl çox sevinir, amma onu əlinə alıb görəndə bərk darılır, qeyz ilə börkü tazadan divarın o biri tərəfinə tullayıb, deyir:

– Belə börkün var, apar qoy Cəbrayılın başına!

## DƏDƏSİNƏ KƏFƏN ALMAĞA GEDİB

Qaradağın kəndlərindən birində birisi Allahın rəhmətinə gedir. Qonum-qonşu onu yerdən götürmək üçün hər biri bir iş dalınca gedir. Ölənin oğlunu da kəfən almağa göndərib deyirlər:

– Çaparaq get!

Oğlan bazara çatar-çatmaz görür bir neçə adam işləməyə Mazandarana gedir. O da atasına kəfən almağı unudub, bu adamlara qoşulub gedir…

Ay keçir, il dolanır, oğlan evlərinə qayıdır. Görüşünə gələn qonum-qonşular ondan soruşurlar:

– Ay balam, sən bizləri gözü yolda qoyub hara çıxıb getdin?

Oğlanın duruxub cavab verə bilmədiyini görən ağsaqqalardan birisi deyir:

– Babam, onu çox danlamayın, dədəsinə kəfən almağa getmişdi.

## BUNU PULUŞU İLƏ YEYİRƏM, O BİRİSİNİ DANALAYIB YEYƏCAĞAM!

Ucuzluq illərində yeyimcilin biri üzüm satana yanaşıb deyir:

– Neçə verim, məni üzümdən doyurasan?

Üzümçü adamı başdan ayağa süzüb öz-özünə deyir:

– "Nə qədər qarınqulu olsa da, bir sələdən çox üzüm yeyə bilməz ki…" Bu hesabla deyir:

– İki qran ver.

Kişi iki qranı verir, üzümçü də bir dolu sələ üzümü onun qabağına qoyur. Adam başlır üzümdən yeməyə, amma üzümçü baxır ki, o, üzümü puluşdan ayırıb, yemək əvəzinə puluşu ilə birlikdə yeyir. O deyir:

– Üzümü elə yeməzlər, onu puluşdan ayırıb yeyərlər.

Adam deyər:

– Bunu puluşu ilə yeyirəm, o birisin puluşdan ayırıb yeyəcağam.

## YA MUSA, KÖTƏYİ DƏ YEDİN, SÜDDÜ AŞI DA

Deyirlər bir gün Musa peyğəmbər münacatda Allahdan soruşur:

– İlahi, mən bu gün nə yeyəcağam?

Nida gəlir:

– Sən bu gün nahara süddü aş yeyəcaqsan.

Musa peyğəmbər Allahın hökmündən özünü qurtarmaq üçün üz qoyur dağa-daşa sarı getmağa. Çox yol gedəndən sonra acımış halda bir çobana rast gəlir, ondan yeməğa bir şey istəyir. Çoban da əl üstü süd sağıb, dağırcıqdakı dügüdən töküb, tələsik süddü aş düzəldir, qonağın qabağına qoyur. Musa süddü aşı

yeməkdən çəkinir. Çoban Musanın süddu aşı yemək istəməməsindən acığı tutub əl eliyir ağaca, bir-ikisini Musaya yedizdirir.

Həzrəti-Musa canının qorxusundan süddü aşı dibinəcan yeyir. Göydən nida gəlir:

– Ya Musa, kötəyi də yedin, süddü aşı da!

## HƏR KƏS ÖZ İTİRDİYİNDƏN DANIŞIR

Birisinin dəvəsi itmişdi. Axtara-axtara gəlib bir bulaq başına çatdı. Gördü bir qız bulaqdan su doldurur. Soruşdu:

– Ay qız, sən buralarda bir dəvə görmədin?

Qız dedi:

– Sən nə danışırsan, məni kəndxudanın oğlu istədi getmədim.

Dəvəsi itən dedi:

– Mən soruşuram, dəvəmi itirmişəm. Sən onu görməmi- sən?

Qız dedi:

– Məni əmim oğluna verdilər, getmədim.

Dəvəçi nə qədər itmiş dəvəsindən soruşdu, qız özünə gələn elçilərdən danışdı.

Axırda dəvəçi hirslənib dedi:

– Ay canım, mən itirdiyim dəvədən soruşuram. Sən evinizə gələn elçilərdən danışırsan.

Qız dedi:

– Hər kəs öz itirdiyindən danışır.

## BU İL İKİMİZDƏN BİRİNİ EVLƏNDİR, GƏLƏN İL DƏ DADAŞIMI

Kişinin iki oğlu var idi. Oğlanların hər ikisi evlənmək yaşına çatmışdılar. Hər vaxt arvad kişi ilə uşaqları evləndirməgin danışanda, kişi əlinin boş olduğundan, iki toyun birdən xərcini ödəyə bilmədigindən şikayətlənirdi. Bir gün genə arvadla kişi oğlanların evləndirilməsi barədə deyişəndə kiçik oğlan bir tərəfdə oturub qulaq asırdı. Oğlan ananın israrın, atanın inkarın görəndə birdən dilə gəlib deyir:

– Ay canım, siz nə üçün işi belə çətinləşdirirsiz? Bu il ikimizdən birini evləndirin, gələn il də dadaşımı.

## HALAL XOŞUN OLSUN!

Bir yol kəsənin nənəsi oğlundan istədi halal qazancından ona bir kəfən alsın. Oğlan yolda başı sarıqlı alimə rast gəlib sarığı onun başından qapıb dedi:

– Bunu mənə halal elə.

Amma alim bu işdən boyun qaçırdı.

Yolkəsən sağdan-soldan onu dolaşdırmağa başladı. Alim işi pis görüb dedi:

– Yaxşı halal elədim. Halal xoşun olsun!

O, kisibi evə gətirəndə nənəsi soruşdu:

– Bir de görüm, onu necə aldın?

Yol kəsən dedi?

– Əvvəl vermək xəyalı yox idi, elə ki, kötəyi yedi, onun "halali-xoşun olsun" səsini göydə mələklər də eşitdi.

## SƏN ÇOX BİLİRSƏN, YA ALLAHIN PEYĞƏMBƏRİ?!

Birinin bir qoca qarı nənəsi var idi. Qarını gecələr yuxu aparmazdı. O, səhərəcən zayıldayıb oğlunu da yatmağa qoymazdı. Bir gün oğlan qarını bir səbətə qoyub, dalına alır, Həzrəti-Musanın yanına gətirib deyir:

– Ya Musa, mənim bu nənəm gecəni səhərəcən nə özü yatır, nə də məni yatmağa qoyur.

Musa peyğəmbər deyir:

– Sən ona bir ər tap.

Oğlan deyir:

– Ya Musa, axı, o, çox qocadı.

Qarı bu sözləri eşitcək, əlini səbətdən çıxarıb, oğlanın başına bir qapaz salıb deyir:

– Sən heç utanmırsan, peyğəmbərin sözün yerə salırsan. Mənə bir de görüm, sən çox bilirsən, ya Allahın peyğəmbəri?

## AYINI DEMƏ, AYI PİS CANAVARDI

Birisi meşədə ayıya tuş gəlir. Ayı adamı qarmalayıb yerdən-yerə vurur. Adam zərbələrin ağırlığından huşdan gedir. Ayı onu ölmüş sanıb başına buraxır ki, sorası gün gəlib, onun qoxmuş ətindən yesin. Huşdan getmiş adam neçə saat sonra ayılıb, işinin dalınca gedir. Amma onun yedigi zərbələrdən hər iki qulağı kar olur.

Bu hadisədən sonra o, ayıdan bərk qorxduğu üçün iki nəfəri bir-birilə danışan görəndə elə bilir ayıdan danışırlar. Buna görə də deyir, ayını demə, ayı pis canavardı.

## ACIN İMANI OLMAZ

Birisi acından bıxmışdı. Şeytan ona öz əlilə yemək gətirib dedi:

– Mən sənə yemək verirəm, bu şərt ilə ki, yeyib doyandan sonra imanuvi mənə verəsən.

Adam qəbul edir, yeməkdən doyunca yeyir. Yeməkdən çəkiləndən sonra şeytan deyir:

– Yaxşı, indi sən imanuvi ver mənə.

Adam deyir:

– Mən yox şeyi sənə haradan verim.

Şeytan soruşur:

– Məyə demədin imanın mənim olacaq.

Adam deyir:

– Mən bu sözü ac ikən dedim, acın ki imanı olmaz!

## QATIR ALAN SOVUŞDU

Bir gün həkim bəzəkli-düzəkli qatıra minib, şəhərə dolanmağa getmişdi. Yol üstə tazaca həşiş çəkmiş bəngilərdən biri nəşəli olduğundan soruşur:

– Qatır satdıqdı?

Hakimin yasavulları onu tənbeh etmək istədikdə hakim qoymur. Axşamüstü hakim haman yoldan qayıdanda genə gözü haman adama sataşır, ona deyir:

– Qatırı neçəyə alırsan?

Adamın halı özünə qayıtdığı üçün deyir:

– Qatır alan sovuşdu.

## BURA GƏLƏNLƏR HAMISI ƏVVƏL GƏLƏNDƏ DEYİR MƏN ŞAHAM

Deyirlər Rza şah bir gün Tehranda dəlixanaya baş çəkməyə gedir. Dəlixananın məsulları xəbərnak dəliləri daldada gizlədib bir neçə xətərsiz dəlini azad buraxırlar. Rza şah oyan-buyanında gəzənlərlə görüşəndə dəlilərdən biri onun qabağını kəsib deyir:

– Səni bura taza gətiriblər?

Rza şah deyir:

– Yox, məni gətirməyiblər, mən özüm gəlmişəm. Məyə sən məni tanımırsan, mən Rza şaham.

Dəli gülə-gülə baş barmağını üzü yuxarı tutub deyir:

– Bura gələnlər hamısı əvvəl gələndə deyir:

– Mən Rza şaham.

## XAN SƏN DEMƏSƏYDİN, BİZ TÜKLÜ-TÜKLÜ YEYƏCƏKDİK

Bir yoxsul şikarçının əlinə bir şey toxtamırdı. Bir gün bir bala ördək vurur, onu evinə aparmaq əvəzinə xana hədiyyə aparır ki, bəlkə ondan bir ənam ala. Xan cılız adam olduğundan hədiyyəni onun özünə qaytarıb deyir:

– Mən onu sənin özünə bağışlayıram. Onu aparарsan evə tüklərini yolarsan, qızardıb uşaqlarla yeyərsən.

Şikarçı onun cavabında deyir:

– Xan, sən buyurmasaydın, biz tüklü-tüklü yeyəcəkdik.

## HAMAMDA DƏLİ VAR

Hamamda yuyunmağa gələn dəlinin birisi hamamı başına götürmüşdü. O, birini döyür, birini söyür, var gücü ilə çığır-bağır salırdı. Bu ara hamamda soyunmaq istəyən bir müştəri soruşur:

– İçəridə nə hay-küydü?

Dedilər:

– Nə olacaq, hamamda dəli var.

Adam öz-özünə deyir:

– İndi ona dəlinin necə olduğunu göstərərəm.

O içəri girər-girməz dəlini altdan-üstdən dolaşdırır, elə bağırır ki, hamam cingildəyir. Əvvəlki dəli bunu görcək əl-ayağın yığışdırıb yuyunmamış, qaça-qaça gəlib paltarlarını götürüb küçəyə çıxır.

Onu bu halda görənlər soruşurlar: "Bəs niyə belə?"

O deyir:

– Deməyin, hamamda dəli var…

## KİŞİ QIZIL KİMİ SÖZ DEYİR

İki adamın davası qaziyə yetişir. Onlardan biri tez gəlib, özü ilə bir qaz gətirib qazinin həyətinə buraxdı. O biri tərəf gəlib çatandan sonra qazi sual-cavabda qaz gətirənin tərəfini saxlamağa başladı. Sonda gələn bunu duyunca neçə dana qızıl sikkə çıxartdı, onları astaca qazinin oturduğu döşəyin altına buraxdı. Qazi bunu duyunca sözü dəyişdi, sonra gələnə haqq verməyə başladı. Qaz gətirən adam bunu duyunca boynunu uzadıb həyətə baxdı, qazı qazinın yadına salmaq istədi. Qazi onun bu işini görüb dedi:

– Sən nə qaz kimi boynunu uzadırsan, kişi qızıl kimi söz danışır.

## KEÇİNİ ÖZ AYAĞINDAN, QOYUNU DA ÖZ AYAĞINDAN ASARLAR

Harun ər-Rəşid çox zalim xəlifə imiş, xalqa cövrü-cəfa edərmiş. Bəhlul onun işlərindən narazı olduğu üçün heç vaxt gülməzmiş. Bir gün Harun onun nə üçün həmişə dalğın olduğunu soruşur, amma Bəhluldan cavab eşitmir.

Belə olanda Harun bir nəfər çağırıb ona tapşırıq verir ki, sən Bəhlula bildirmədən hər yerdə onun dalınca gedəcəksən. Harda onun gülməyini görsən, gəlib mənə xəbər verəcəksən. Adam günlərlə Bəhlulun dalınca gəzir.

Bir gün Bəhlul qəssab dükanının qabağından keçəndə orada dayanır, qənarələrdən asılmış ət şaqqalarına baxıb gülür. Adam gəlib bunu Haruna xəbər verir. Harun Bəhlulu çağırıb soruşur:

– Sən qəssab dükanında nə üçün güldün?

Bəhlul deyir:

– Mən çox nigəran idim ki, sənin xalqa etdiyin bu azar-əzab bir gün mənim də ayağımı tutar. Amma qəssab dükanına baxanda bildim ki, keçini öz ayağından, qoyunu da öz ayağından asarlar.

## QILINC HAMAN QILINCDI, QOL HAMAN QOL DEGİL!

Belə nağıl edirlər ki, Çaldıran vuruşundan sonra Osmanlı xəlifəsi məktub yazıb Şah İsmayıldan xahiş edir bu vuruşda top lüləsini iki bölən qılıncı ona göndərsin.

Şah İsmayıl Xəlifənin istəyini yerinə yetirib, haman qılıncı ona göndərir. Xəlifə adamlarının hüzurunda qılıncı top lüləsinə yendirir, amma qılınc dəmirə işləmir. İş belə olanda Xəlifə ikinci məktubu qızılbaş şahına göndərir, gileylənir ki, qardaşı bir qılıncı ondan əsirgəmiş, onun yerinə bir Təbriz gurdası göndəribdir. Şah İsmayıl məktubun cavabında yazır:

– Qardaşım, qılınc haman qılıncdı, qol haman qol degil!

## SƏNDƏN ADAM ÇIXMAZ!

Günlərin birində dədənin oğlu ilə sözü çıxdı. Dədə acıqlanıb dedi:

– Səndən adam çıxmaz.

Oğlan bu sözdən inciyib baş alıb özgə diyara getdi. Orda çox eniş-yoxuşdan sonra dədəsi yaşayan şəhərin hökumət fərmanını aldı. O, şəhərə gəlincə hər şeydən əvvəl hökm elədi dədəsini əlibağlı yanına gətirsinlər. Onun gözü dədəsinə sataşcaq dedi:

– Ay kişi, sən deyirdin məndən adam çıxmaz. Bax, indi öz şəhərimə hakim olmuşam.

Dədə gülümsəyib dedi:

– Mən demişdim səndən adam çıxmaz, deməmişdim səndən hakim çıxmaz. İndi genə sözümün üstündəyəm. Sən adam olsaydın, dəduvi qolubağlı gətirməzdin.

## DAYIN GƏLİB DƏDƏ MALIZI BÖLUŞMƏYƏ

Oğru gecə evin divarından düşdü. Evin gəlini südəmər uşaqla dəhlizdə yatmışdı. Oğru əl qoydu evi yığışdırmağa. Bu ara uşaq vəngildədi, gəlin uşağın səsinə ayıldı, gördü oğru yığışdırır. Dedi:

– Quzum, ağlama, dayın gəlib dədə malımızı bölüş- dürməyə, qoy görək özü nə götürür, bizə nə qoyur.

Oğru bu sözləri eşitcək, qolları susaldı. Oğurladığlarını bağlamaq üçün gətirdiyi məndəni yerə sərili qoyub getdi.

# IX. YUXU YOZMALARI

**Açar** – yuxuda uğursuz evlənmək və həsrət çəkməyə yozulur. Açarı qapı üstündə görmək – həbsə alınmaq və itkin düşməkdir. Açarla bağlı qapı açan – ağır bir işi müvəffəqiyyətlə başa çatdıracaq.

**Ada** (cəzirə) – yuxuda ada görmək yalnızlıq və dostlarından iraq düşmək kimi yozulur. Adanın dəryada batmasını görmək – arzu etdiyin adamla evlənmək deməkdir. Adada yanar dağ görən – dost və qohumlarından özünü qorusa yaxşıdır.

**Ağac** – yuxuda ağac görmək, ümumiyyətlə, bolluq və sevinc nişanəsidir. Meyvəli ağac – yuxu görənin arzularının doğulmasına və qazanc əldə etməsinə işarədir. Meyvəsiz ağac – ümidsizlik və əli boşa çıxmaq deməkdir. Ağacla dövrəli bağça, ya meşə görmək – yaxınlardan yardım görmək; ağaca çıxmaq, ya ağac üstündə oturmaq nəvə-nəticə sahibi olmağa yozulur.

**Ağrı** (dərd) – yuxuda ağrı çəkmək və ya yaralanmaq tərsinə yozulur. Yuxuda dərdli bir adama çarə etmək uğurluğa nişanədir.

**Axirət** – yuxuda axirəti görən adam ailəsi ilə birlikdə asudə, rahat ömür sürəcək. Axirətə qovuşmaq – uzun bir səfərə getmək, axirətdən qovulmaq – itkinlik və səfalət deməkdir.

**Axmaq** – yuxuda bir axmaqla üzbəüz olmaq, həyatda yanlış addım atmaq və özünə zərər toxundurmaq kimi yozulur.

**Alma** – yuxuda alma görmək, hər ülgüdə olur-olsun, xoş və aydın taleyə işarədir.

**Ana** – yuxuda öz anasını görən mirasa çatır; anasını naxoş görən – önəmli bir məsələ üçün münaqişə edir; anasını ölmüş görmək – böyük bir sevinc; anasını düşkün görmək – ailə üzvləri arasında nifaq kimi yozulur.

**And** – yuxuda düz and içmək – düşmənə qalib olmaq, yalan and içmək – yoxsulluğa, gərginliyə uğramaq kimi yozulur.

**Araba** – çoxyozumlu yuxudur. İkiöküzlü araba – məqsədə çatmaq; dördöküzlü araba – böyük məqam tapıb, amma fövrən əldən vermək; yüklü araba – işlərdə başarı qazanmaq, arabanın sınması – səfərdən, ya evlənməkdən əli çıxmaq; arabanın dalınca qaçmaq – uzun zaman işsiz, arabadan düşüb yaralanmaq, ya onun altında qalmaq – gözlənilməz sərvətə çatmaq kimi yozulur.

**Arpa** – xeyrə yozulur. Arpa əkmək – işlərdə müvəffəqiyyət qazanmaq, arpa çörəyi yemək – dostlarla səmimi olmaq, arpa tarlası – bolluq nişanəsidir.

**Arı** – yuxuda arının güllərdən bal yığmasını görən hörmət və rütbə qazanır. Ətrafında arı vızıltısı eşidənin – işlərində dəyişiklik üz verər; arı ilə dolu bal pətəyi görən – naxoş olar.

**Armud** – armudun özü, ya ağacı – yuxuda umduğuna çatmaq, şirin armud yemək – halal mala əl atmaq deməkdir.

**Asqırmaq** – yuxuda asqırmaq – xoş xəbərlərlə yozulur, yuxuda özünün və ya özgəsinin asqırmasını görən – sağlam və ya şən yaşamağa çatır.

**Aslan** – yuxuda aslan görən – bir təhlükəyə uğrayacaq, ancaq bir dost əli ilə bu təhlükədən qurtaracaq. Aslan ilə danışmaq – qüdrətli dostlar tapmaq, aslanın üstünə minmək – böyük nailiyyətlərə əl atmaq, aslan əti yemək – varlanmaq və rahat yaşamaq, aslanın ardınca qaçmaq – düşmənlərin duzağına düşmək kimi yozulur.

**Aşpaz** – yuxuda aşpaz, ya aşpazlıq görmək – bolluğa və yaxşı günlərin qabaqda olduğuna işarədir.

**At** – ümumən xeyrə yozulur. Ağ at – çox şad bir xəbər eşitmək, qara at – ağır bir düşüncəyə dalmaq, qoca at – boş işlər dalınca sürünmək, ata minmək – muradına çatmaq, atdan düşmək – aldanmaq, atı yem yeməkdə, ya kişnəkdə görmək – yaramaz bir qadın təhlükəsinə uğramaq, at balası, dayça görmək – boşboğazlıqdan bəlaya düşməyə yozulur.

**Ata** – yuxuda atanı gülər üzlü görmək – işlərin avand olması ilə yozulur. Atanı qüssəli və dalğın görmək – sizdən inciklİyinə işarədir. Dünyadan getmiş atanı görmək – onun xatirəsinə daha da saygı bəsləməyinizi tələb edir. Atanın ailəni buraxıb getməsi – acı bir xəbər alacağınıza işarədir.

**Atlanmaq** – yuxuda bir yerdən bir yerə atlanmaq – bir haldan başqa hala düşmək nişanəsidir. Yuxarıdan aşağıya atlanmaq – yoxsulluğa düşmək, aşağıdan yuxarıya hoppanmaq – qazanc, məqam, rifah; xəndəkdən, çaydan, uçurumdan atlanmaq – çətinlikdən qurtarmaq deməkdir.

**Ay** – yuxuda ayı görmək – ümumiyyətlə, məhəbbət və bolluq nişanəsidir. Ayı tamam görmək – işlərdə bacarıq və irəliləmə; ayı qırmızı görmək – səfər və yolaçıxma; ayı buludla örtülü görmək – sevgi itkisi və göz xəstəliyi; ayı ağ və parlaq görən – qız olsa evlənəcək, qadın olsa gözəl bir qız doğacaq, subay kişi olsa gözəl bir qadınla evlənəcək, qoca, ya qarı olsa, gözəl bir nəvəsi olacaq; ayı gündüz görən – günlərini boş işlərlə keçirəcək; ayı hərəkətdə görən – sevincli bir xəbər alacaq; ayın tutulduğunu görənin əqrəbalarından birisi sarılıq xəstəliyinə tutulacaq.

**Ayaq** – yuxuda sağlam ayaq görmək – sağlıq və sevinc nişanəsidir. Kəsik ayaq – qatma-qarışlıq və dalğınlıq; topal ayaq – kədər və acı xəbər; ayaq yumaq – ümid və istək; çılpaq ayaq – öz eybini örtməyə çalışmaq; ağ ayaq – dostların səni tərk edəcək; qız ayağı – izlədiyi işdə yaramaq; qadın ayağı – yaşayışda arası kəsilməz çətinlikdir.

**Ayaqqabı** (başmaq) – yuxuda taza ayaqqıbı geymək bir qız, ya bir oğlana evlənmək nişanəsidir. Başmaq nimdaş olursa, evləndiyi qadın dul olur. Ayaqqabını ayaqdan çıxarıb, tazadan geymək arvadla kişinin dalaşıb yenidən barışmağı deməkdi.

**Ayna** – yuxuda aynaya baxmaq taza yar-yoldaş tapmaq, aynada özünü gözəl görmək etibardan düşmək; özünü çirkin görmək – başladığı işin düzgün olması; qoca görmək – yoxsullaşmaq; ayna silmək – böyük ad-san qazanmaq; ayna itirmək – qazanc əldə etmək deməkdir.

**Baba** – babanı yuxuda görmək – ümid, rahatlıq, rifah içində xoşbəxt ailə qurmaq deməkdir. Babanı evdən uzaqlaşdırmaq – acı xbər, pərişanlıq kimi yozulur. Babanı nənə ilə dalaşmaqda görmək – ailədə ayrılıq nişanəsi, babanı yenidən evlənmiş görmək – uğur deməkdir.

**Baca** – yuxuda baca görmək – qazandığını itirmək; baca təmizləmək – naxoşluqdan qurtarıb sağlamlaşmaq; bacanın hörülməsi – ailəyə kədər üz vermək; bacanın uçulması – ailədən birinin naxoşlanması və dünyadan getməsi kimi yozulur.

**Badam** – yuxuda badam uğurlu olur. Badam dərmək ya badam satın almaq – yararlı bir işə çatmaq, ya evlənmək, badam yemək – çox sevincli bir hadisə ilə üzbəüz gəlmək, gül açmış badam – cavan oğlan tərəfindən bəgənilmək kimi yozulur.

**Bağ, bağça** – yuxuda bağ-bağça – xeyir və aydınlığa yozulur. Özünü bağda gəzişməkdə görmək – çox böyük sevinc və rahatlığa çatmaq deməkdir; bağ-bağçada oturub dincəlmək – sağlamlıq və səadət nişanəsidir; bağ-bağçada işlədiyini görən adam – ömrünün yaşlı çağlarında özünü saf və səmimi dostlar arasında görəcək.

**Bağlanmaq** – yuxuda özünü bağlanmış görmək – işlərin pozğunluğuna; arvad ilə kişinin özlərini birlikdə görmək – bağlı olduqları dərin məhəbbətə; köpək bağlamaq bir şeydən öncə sevinməyə, lakin sonra kədərlənməyə; oğru əli ilə yataqda bağlanmaq – bəxtin üz çevirməsinə; dirəyə bağlanmaq səfalətə yozulur.

**Bal** – yuxuda bal görən – gözəl bir qadınla evlənər; bal tutmaq (yığmaq) – başladığı işə müvəffəq olmaq; bal satmaq – uzaqdan gələn xəbərdən acınmaq; ağ bal – dərya səfəri; bal pətək içində – işlərin tərsə getməsinə işarədir.

**Balıq** – yuxuda balıq görən həyatda uğur əldə edir; balıq tutmaq – haqlı olmadan yaşayışdan şikayətlənmək; balıq satmaq – tutduğu işdə qazanc əldə etmək; balıq təmizləmək – bir dolandırıcıya rast gəlmək kimi yozulur.

**Balta** – yuxuda balta görən – çox çabalayır, lakin istəyinə çatmır. Balta ilə ağac kəsmək – bir eşq macərasına tuş gəlmək; balta ilə vəhşi heyvan öldürmək – düşmənlərə üstün çıxmaq; baltanı sapsız görmək – evləndigindən məmnun qalmamaq deməkdir.

**Bayram** – yuxuda bayram görmək – ya bayram mərasimində iştirak etmək, ya da yaşayışda şadlıq, bolluq və qəmqüssənin məhvi kimi yozulur.

**Beşik** – yuxuda əyal və övlad kimi yozulur. Beşik qayırmaq, ya beşik almaq – subay üçün evlənmək, evli üçün uşağı olmaq nişanəsidi. Uşağı beşikdə yatızdırmaq – ailəsinin xidmətində olmaq deməkdi.

**Bənövşə** – yuxuda kökü üstə bənövşə görmək xeyrə yozulur. Kökündən qoparılmış bənövşə ayrılıq, kədər və ziyana işarədi.

**Biz** – yuxuda biz görmək ağıl və tədbirin nişanəsidir. Əlində biz heyvanları sürdüyünü görən dəyərli bir işi nəticəyə çatdıracaqdır.

**Bilərzik** – yuxuda bilərzik izzət, hörmət nişanəsidi. Bilərziyi qoldan çıxarmaq dostlar arasında soyuqluq, ayrılıq, birinə bilərzik vermək ona yaxşılıq etmək nişanəsidi.

**Boğulmaq** – yuxuda boğulduğunu görən şəxs fırıldağa və kələyə uğrayır. Suda boğulduğunu görən təlaş və qeyrət nəticəsində boğulan yerdən yardım görür, bir möhtərəm adamın himayəsindən faydalanır.

**Bomba** – yuxuda bomba görmək ağır xərcə düşmək; bombanın partlayışını görmək yoxsulluq və səfalət; bombadan yaralanmaq işdə yarımaq və məhəbbətin artması; bomba qumbaraları vermək kədər və qorxulu səfər; bomba ilə oynama gözlənilməz qəza deməkdir.

**Boxça** – boxça yuxuda bir çox hallarda səfər kimi yozulur. Yuxuda boxça görənin səfərə gedəni gəlir, boxça dolusu parça görən pul qazanır. Bir yerdə çoxlu boxça görənin çoxlu qonağı gəlir və xərci qat-qat çoxalır; boxçanı səfər vaxtı unudanın ev işlərində qarışıqlıq üz verir və rahatlığı pozulur.

**Boyunbağı** – yuxuda boyunbağı görmək – kişi üçün sıxıntı, kədər, xəstəlik; qadın üçün evlənmək – övlad, var-dövlət kimi yozulur.

**Böcək** – yuxuda böcək görmək – əlindən iş gəlməz düşmən və ya qovğaçı bir kişi, ya alaşa bir arvadla üzbəüz olmaq deməkdir. Böcəyi öldürmək, kədər və sıxıntıdan, düşmən şərindən qurtulmaq kimi yozulur.

**Buğa** – yuxusunda buğa görən, ya buğa ilə dögüşən itirdigini tapır. Buğanı yaralayan, ya öldürən özgələrdə qısqanclıq doğurur. Buğanı evində görmək məqam və rütbəyə çatmaq deməkdir.

**Buğda** – yuxuda buğda görən bütün arzularına çatar. Buğda görmək xeyirli bir işə əl qoymaq, buğda sünbülü – bir itki tapmaq; buğda satmaq – ər-arvad arasında dalaşma və ayrılıq; buğdanı yandırmaq – zərər, ziyana uğramaq deməkdir.

**Bulanmaq** – yuxuda istər suyun, ya havanın bulanmasını görmək kədər, darlıq və öz əlilə özünə zərər toxundurmaq kimi yozulur.

**Buzov** – yuxuda buzov görən səfərə çıxar; buzovu boğazlayan görən səfərdən yarımçıq qayıdır. Buzovu tutmaq ümidvarlıq və təsəlli; buzov əti yemək varlanmaq deməkdir.

**Buz** – yuxuda buz yemək keçici bir xoşluq; buz satın almaq, buzu ərimәkdə görmək – dostlarını itirmək deməkdir.

**Bulud** – bulud yuxuda bolluq və bərəkət nişanəsi olduğu halda, işlərin qatma-qarışıqlığına da nişanə ola bilir.

**Bülbül** – yuxuda bülbül görmək dalaşma və qovğaya düşmək deməkdir. Yuxuda bülbül tutmaq – eşq və məhəbbət ilqarı bağlamaq; bülbül nəğməsini dinləmək – sevincək xəbər eşitməyə işarədir.

**Cam** (pəncərə şüşəsi) – yuxuda pəncərəyə cam saldırmaq subay üçün nişanlanmaq, evli üçün övlad, işçi camaat üçün bəhrəli iş deməkdir. Pəncərə camının sınması yuxarıdakının əksi kimi yozulur. Camın silinib təmizlənməsi məhəbbətin daha da artması, gəlirin çoxalması, şırtanaqlı cam bunun əksi kimi yozulur.

**Canavar** (qurd) – yuxuda canavar görmək sevinc və şad xəbər kimi yozulur. Canavarı yaralamaq, ya öldürmək karlı bir işə əl qoyub, ad-san qazanmaq; canavarın həmləsinə tuş olmaq– zərər və ziyana düşmək; canavar balası səmərəsiz evlilik deməkdir.

**Ceyran** – yuxuda ceyran ovlamaq ixtiyarı olmadan bir qadının toruna düşmək, ceyranın qaçmasını görmək çox ağır bir eşq macərası keçirmək (sevdiyi halda sevilməmək), ceyranın buynuzlarını görmək, ummadığı yerdən mirasa çatmaq və düşmənlərə qələbə çalmaq kimi yozulur.

**Cənazə** – yuxuda cənazə görmək həm xeyrə, həm də şərə yozula bilər. Cənazədə izdiham, cənazə sahibinin böyük məqama çatmasına, cənazənin havada uçması o yerlərdə dəyərli bir adamın dünyadan getməsi, cənazənin özü-özünə yeriməsini görən qız, ya ərsiz qadının evlənməsinə, cənazəni yalqız görmək cənazə sahibinin etibardan düşməsinə işarədir.

**Cənnət** (behişt) – yuxuda özünü cənnətdə görən, ya onun meyvələrindən dadan, ömrü şən və şadman yaşar. Cənnətdən qovulmaq naxoşluq və səfalət, cənnətdə mələklərin ortasında olmaq bir gözəl ilə evlənmək və böyük bir mirasa, ya sərvətə malik olmaq deməkdir.

**Cəhənnəm** – cəhənnəm yuxuda yoxsulluq, fəlakət, kədər və cəfa kimi yozulur. Cəhənnəmə getmək həbsə alınmaq, fəlakətə uğramaq, cəhənnəm odunda yanmaq oğru, yolkəsən və qanlı qatil bir uşağın olacağına işarədir. Cəhənnəmdən çıxmaq işlərin yaxşılığa yönəldiyinə işarədir.

**Cəvahir** – yuxuda cəvahir görən dövlətlənmək arzusunda olduğu halda səfalət və yoxsulluğa düşür. Cəvahir toplamaq bir şeyi itirmək və ondan kədərlənmək deməkdir. Cəvahir satmaq həmişəlik kədərdən qurtarmaqdır.

**Cəşn** (şadyanalıq, qonaqlıq) – yuxusunda cəşn görən ağır bir sıxıntı keçirir, ancaq bunun sonu salamatlıqdır. Cəşnə dəvət olmaq – düşmənlər sənə tələ qururlar, sayıq ol, aldanmayasan. Cəşndən qayıtmaq sıxıntıdan qurtarmaq deməkdir.

**Cigər** (ağ) – cigər yuxuda şadlıq və sevinc nişanəsidir. Birindən cigər almaq sevincli bir hal duymaq, birinə ağ cigər vermək ona xeyir vermək deməkdi.

**Cigər** (qara) – qara cigər yuxuda varlanma, övlad, bilik, bolluq nişanəsidir. Qara cigər yemək çox pula çatmaqdır. Birindən qara cigər almaq onun varından və biliyindən faydalanmaqdır. Qara cigər tapmaq ummadığı bir adamdan yaxşılıq görəcəyini göstərir.

**Corab** – yuxuda corab alanın çıxarı gəlirini üstələyəcək. Rəngli corab ötəri bəzək-düzək, iplik corab asudə yaşayış, yamaxlı corab işdə bacarıq və cəsarət, corabı soyunmaq qüssə və iftiraya uğramaq kimi yozulur.

**Cövüz** (girdəkan) – yuxuda cövüz vuruşma və vuruşdurma deməkdir. Cövüz yığmaq yersiz bir hərəkətlə başqalarını bir-birinin canına salmaq, cövüz yemək işləri düzəlmək, çürük cövüz pis halda aldanmaq, cövüzü qabıqdan arıtmaq düşmənlərə qalib gəlmək, cövüz ağacına çıxmaq nüfuzlu bir adama söykənib, ondan faydalanmaq deməkdir.

**Çadır** – yuxuda çadır qurmaq xeyrli işə əl qoymaq, çadır içində oturmaq şan-şöhrətə çatmaq, çadır yığmaq işlərin alt-üst olması və ziyana uğramaq nişanəsidir.

**Çalı tikanı** – yuxuda çalı tikanı görmək işlərin qatma-qarışıqlığı və kədər nişanəsidi. Çalı tikanını söküb atmaq ağırlıqlar və kədərlərdən qurtuluşa işarədir.

**Çamur** (palçıq) – yaş palçıq yuxuda xeyrə yozulur. Quru palçıq onun əksinə yozulur. Çamurlu yol nəticəsiz səfər, çamurlu düzənlik bir düşmənin səni izlədiyinə işarədir.

**Çaqqı** – yuxuda çaqqı görmək ailədə dedi-qodu kimi yozulur. Açıq çaqqı düşmənlərin sıxıntısına düşmək, böyük çaqqı bir təhlükəyə uğramaq, sınıq çaqqı əldən getmiş yaşayışı yenidən aramaq, ağ sinli çaqqı nemət və izzət, qara saplı çaqqı kədərə və böyüklərdən danlaq eşitmək, çaqqı tapmaq işlərin qatma-qarışıqlığı, çaqqı satmaq qüssə və ağrılardan qurtarmaq deməkdir.

**Çaqqal** – çaqqal yuxuda nankor, rəhmsiz və zalım bir mövcudu bildirir. Çaqqal ilə döyüşmək bir yaradılışa ilişmək, çaqqal tutmaq düşmənə əl qatmaq deməkdir.

**Çeşmə** – çeşmə yuxuda məşğələ, qazanc və bolluq deməkdir. Çeşmədən su içmək işdə özgələrə şərik olmaq, çeşmədə yuyunmaq qüssədən və naxoşluqdan qurtulmaq nişanəsidir.

**Çınqıl** (xırda daş) – çınqıl yuxuda gahdan pul, gahdan bəla nişanəsidir. Birinə çınqıl vermək ona mənfəət yetirmək, birindən çınqıl almaq qazanca əl tapmaq, çoxlu çınqıl bir yerdə – varlanmaq, göydən çınqıl yağmaq, bir rəvayətə görə, ölkədə bolluq, əksi rəvayətə görə afət kimi yozulur.

**Çırpıntı** – yuxuda özünü çırpıntıda görən adam yaşayışda sıxıntı çəkəcəkdir.

**Çinar** – çinar yuxuda zənginlik və var-dövlətin artması deməkdir. Uca çinar iqbal və sağlamlıq, sınmış çinar bir günahsızın cəzalanması, qurumuş çinar qorxulu bir qovuş, çinara çıxmaq məqamın artması, çinara su vermək fikir və ürək rahatlığı, çinardan düşmək iflasa uğramaq kimi yozulur.

**Çiçək** – çiçək (gül) yuxuda sağlamlıq və səadət nişanəsidir. Çiçək alıb-vermək sevindirici xəbər eşitmək, gül-çiçək ilə örtülü bir bağça ümidlərin güllənməsi və parlaq bir gələcəyin qarşıda olması deməkdir.

**Çörək** – çörək yuxuda xeyrə yozulur. Çörək yemək uzaqdakı istəkliyə çatmaq, süfrədə çörək çox qazanclı bir işə, çörək bolluğu var-dövlət, çörəkçi ilə dalaşmaq şərəf deməkdir.

**Daban** – yuxuda başmaq dabanı görmək övladla bağlı olur. Sağ daban oğlan uşağı, sol daban qız uşağına yozulur. Yuxuda dabansız başmaq görənin uşağı olmayacaq, olsa da qalmayacaq.

**Daş** – yuxuda yerdə daş yığını görən səfərə çıxır, çöldən (ya dağdan) daş daşıdığınıı görən kələk ilə pul qazanır, xırda daşları gizlicə cibinə qoyan özgələrin malını çalar, daşı ayrı daş üstə qoyan malını istəmədən özgəsinə verər. Özgəsinin özünə daş atdığını görən iftiraya düşər, birinə daş atmaq ona iftira atmaqdır, daşla quş vurduğunu görən istəyinə müvəffəq olur. Göydən yağan daş ölkəni fəlakətə salar.

**Daşınma** – yuxuda daşınma (bir yerdən başqa yerə, küçəyə) görmək əcəli bir səfərə, ya səyahətə çıxmağa işarədir.

**Dağ** – yuxuda dağa çıxmaq və özünü dağın zirvəsinə çəkmək işdə və ya yaşayışda uca yerlərə çatmaq nişanəsidir. Dağdan aşağı enmə işi əldən çıxmaq, dağdan yuvarlanıb düşmək yorğunluq və pərişanlıq deməkdir. Dağın hər tərəfini yaşıl görmək rahatlıq və rifaha yozulur.

**Dalğa** – dalğa yuxuda kələkbaz bir adamla üzbəüz gəlmək, dəryada dalğaların köpürdüyünü görmək bir qız uşağı olacağına, dalğalar arasında boğulduğunu görmək xeyirli bir görüşə çatmaq, dalğaları kükrəmiş görmək bir həsrətin sona çatması, dalğaların qayalara çarpması ağır bir işə əl atmaq və çətinliklə bir arzuya çatmaq kimi yozulur.

**Dana** – yuxuda dana, öküz və inək kimi yozulur. Dana almaq qazanc, şərəf, etibar, dana satmaq öz əlilə pərgarını pozmaq deməkdir.

**Dar ağacı** – dar ağacı yuxuda xeyrə yozulur. Yuxuda özünü dar ağacından asılı görmək qazanc, rahatlıq və xoşluq sanılır. Dar ağacında ipin boynuna keçirildiyini görmək çalışqanlıq, dar ağacından ipin qırıldığını görmək faydalı bir işə əl qatmaq deməkdir.

**Daraq** – yuxuda daraq yaxşı bir adamla dostlaşmaqdır. Daraq ilə darandığını görən muradına çatar.

**Darı** – yuxuda darı əkmək, almaq, darı çörəyi yemək uzun-uzadı sıxıntıdan qurtulub, rahatlığa çatmaqla yozulur.

**Davat** – yuxuda davat görənin qazandığını özgələr yeyər. Dolu davat çalışqan olsa, xeyrizə, tənbəl olsa zərərizə qurtaracaq. Boş davat sağlamlığızın ziyan görməsi, davat almaq qəmin şadlığa çevrilməsi, sınıq davat haram mal əldə edəcək kimi yozulur.

**Dəgirman** – dəgirman yuxuda görmək gizli bir işin aşkara çıxması, dəgirmanda dən dartmaq bolluq və rifah, dəgirmançıya un vermək bezikmə və məyusluq, dəgirmançıdan un almaq yersiz fikirlərə dalmaq deməkdir.

**Dəli** – yuxuda dəli görmək boşuna çalışma və nəticəsiz işlə yozulur. Dəli ilə qonuşmaq, ya oturub-durmaq şübhəli adamlarla əl-ələ sürtmək deməkdir. Dəli ilə dalaşmaq ailədə bir təhlükənin yaranacağına işarədir. Dəlinin həmləsinə tuş olmaq gözlənilməz bir şadlığa çatmaq deməkdir.

**Dəliqanlı** – yuxuda sevimli və üzügülər bir dəliqanlı görmək sevinc və iqbal, xəşm və qaraqabaqlı dəliqanlı kin-küdurətə işarədir.

**Dəllal** – yuxuda dəllal görmək, ya dəllala iş tapşırmaq çoxlu dedi-qodu və yalan-palana şahid olmaq və yaxasını yaltaq adamların əlinə vermək kimi yozulur.

**Dəmir** – yuxuda dəmir tapdamaq birinin sizlə pis davranacağı deməkdir. Əyri-üyrü dəmir görmək yaxınlarınızdan birinin sizdən incimək nişanəsidir. Dəmirdən qayrılmış alətlər əmin-amanlığa çatmaq deməkdir.

**Dərviş** – yuxuda dərviş görmək xeyrə yozulur, dərvişlə qonuşmaq bir zəngin, ya ariflə dost olmaq və ondan faydalanmaq deməkdir. Özünü dərviş biçimində görmək qəni, ya arif olacağınıza işarədir.

**Dərya** (dəniz) – yuxuda dəryanı sakit və durğun görmək bolluq və rahatlıq anlamındadır. Dəryanı dalğalı və köpürmüş görmək bir təhlükəyə uğramaq, saf və mavi dərya işlərdə uğur qazanmaq, tutqun və bulanıq dəniz işlərin tərsə gedişi kimi yozulur.

**Dərs** – yuxuda özünü dərs oxumaqda görənin qabağına canlara dəyən dost çıxar. Dərs oxumaqdan boyun qaçırmaq tənbəlliyə, dərsini oxuyub bitirmək az zamanda ad və etibar sahibi olmağa yozulur.

**Dəri** – yuxuda dəri xoş bir xəbərdən sevinməkdir. Dəridən paltar geymək ihanətə uğramaq, yalançı və fırıldaqçı adamlarla əl-ələ sürtmək deməkdir.

**Dilənçi** – yuxuda dilənçilikdə özünü görmək varlanmaq nişanəsidir. Dilənçini evində görənin iqbalı üzünə güləcək, dilənçini döyüb-söymək özgənin yardımına möhtac olmaq deməkdir.

**Dirək** – yuxuda dirək işlərində bacarıqlı olmaq, dirəyin sınması ümidsizliyə uğramaq, dirək qoymaq (salmaq) işlərin düzəlişi, dirək çıxarmaq aclıq, kədər və öz əli ilə işini korlamaq, dirəyə minmək görəcəyi işdə bacarıqlı olmaq deməkdir.

**Diş** – diş yuxuda övlad və qohum-qardaş deməkdir. Dişi laxlamaq ata-ana, övlad, ya qohum-əqrəbalardan birinin naxoşluğu, onlardan birinin zərər-ziyana düşməsi, dişin yerindən çıxması onlardan birinin fənası deməkdir.

**Divar** – yuxuda divar görən işlərində ehtiyatlı olmalıdır. Divar düzəltmək xoş xəbər eşitmək, divar yıxmaq səadətə uğramaq, yıxıq divar üstünə çıxmaq işdə məvəffəq olmaq, divar altında qalmaq bir iftiraya hədəf deməkdir.

**Doğmaq** – yuxuda uşaq doğulduğunu görən xoş xəbər eşidir. Yuxuda arvadının qız uşağı doğduğunu görən kişinin oğlu, əksinə oğlan uşağı görənin qızı olur.

**Dost** – yuxuda dost görmək xeyrə yozulur. Yuxuda dost tapmaq ayıqlıqda dost qazanmaq deməkdir. Yuxuda dosta yaxşılıq, ya dostun yaxşılığı iki başlı yardım kimi yozulur.

**Dovşan** – yuxuda dovşan tutan evlənir. Dovşanın başını kəsdiyini görən kişi, ya arvad bir-birindən ayrılır. Dovşanın ölüsünü görmək xeyrə yozulmaz.

**Durna** – yuxuda durna görən uzaq bir səfərə çıxar, qürbətdə durna görən yurd-yuvasına qayıdar. Durnanın yuxuda hər şəkildə görüşü xeyrə yozulur.

**Duz** – yuxuda zəhmətsiz ələ gələn vara işarədir. Duzun satın alındığını görən, ya onun birisi tərəfindən verildiyini görən rahat pul qazanar, naxoş olsa sağalar. Birinə duz vermək ona maya verməkdir.

**Düşmən** – yuxuda düşmənini görən evində və işində özünü bir xətər və qovğadan qorumalıdır. Düşmən ilə yola çıxmaq işdə müvəffəq olmaq, düşmən ilə bir süfrədə oturmaq sevgidə müvəffəq olmaq, düşmənlə qonuşmaq bir xətəri başdan sovurmaq, düşmənlə əylənmək özünü qorumaq üçün ehtiyatlı davranmaq kimi yozulur.

**Dükan** – yuxuda dükan – arzulara çatmaq, alver bolluğu, ailə xoşbəxtliyi kimi yozulur. Dükanda müştəri qalabalığı işlərin pozğunluğu və kasadlıq, dükanın yandığını görmək ailə rahatsızlığına işarədir.

**Elçi** – yuxuda elçi görənin işi hiyləbazların əlinə keçər. Elçi qadın görən davranışlarını dəyişdirməzsə hamıya gülünc olar.

**Ev** – yuxuda şadlıq və sevincə işarədir. Olduğu evdən daha yaxşı bir evə köçmək qazanc və rütbənin artması, uca ev tikmək – aydın gələcək, alçaq ev – ümidsizlik, umduğundan fayda görməmək, ev yıxmaq – uğursuzluqla üzbəüz gəlmək deməkdir.

**Evlənmək** – yuxuda istər qız olsun, istər oğlan – evləndiyini görsə varlanır. Qız ya oğlan üzdən öpürsə, arzusuna çatır.

**Əcnəbi** – yuxuda əcnəbi görmək qorxu və həyəcan deməkdir. Əcnəbi ilə yola çıxmaq – ölüm qorxusu, əcnəbi ilə bir süfrədə oturmaq – uzun sürən qazanc, əcnəbi ilə evlənmək – asudə yaşayışa işarədir.

**Əl** – yuxuda incə və yaraşıqlı əllər görmək – əl işlərində uğur qazanmaq, davamlı və qüdrətli əllər görmək – dünya işlərində (siyasətdə, sənətdə, vərdişdə) gözə çarpan müvəffəqiyyətlərə çatmaq, əllərini kirli görmək – gələcəkdə ağır işlərlə uğraşmaq, əllərini yumaq – özünü bəyənən bir adam olmaq, əllərini və barmaqlarını itirmək – işlərin tərsə gedişinə yozulur.

**Əlcək** – təzə əlcək sevinc və şadlığa, yırtıq əlcək üzüntüyə, əlcək almaq – bir dost tərəfindən qonaqlığa çağrılmaq, bir yerdə çoxlu əlcəkli adam görmək – bir yaramaz işin cəzasını çəkmək deməkdir.

**Əncir** – yuxuda təzə ənciri fəslində yemək – evlənmək, şadlıq, var-dövlətə, fəslindən qıraq yaş əncir yemək – qəm və yoxsulluğa işarədir. Quru əncir – var-dövlətin üstələnməsi deməkdir.

**Ərzaq** – yuxuda çoxlu ərzaq aldığını və topladığını görənin qarınquluqdan və boğaz otarmaqdan çəkinməsi gərəkdir.

**Ətir** – yuxuda ətir görmək evlilər üçün uğur və xoşbəxtlik, subaylar üçün evlənmək kimi yozulur. Özünə ətir səpmək (vurmaq) yaxında bir aydınlığa çatmaq deməkdir.

**Ərə** – yuxuda əlində ərə olduğunu, ya birindən ərə aldığını görmək – varın və övladın artması deməkdir. Ərə ilə bir şeyi kəsən – muradına çatır. Ərə ilə odun kəsən düşməninə üstün gəlir.

**Əriştə** – yuxuda əriştə kəsmək acgözlülük və qarınquluğa işarədir. Əriştə şorbası, ya əriştə aşı içmək – mədənin sağlamlığına dəlalət edir.

**Ət** – yuxuda ət bişirdiyini görən – məqsədə çatmaqda çox çalışmalıdır, ət satdığını görən – çalışmayınca qazana bilməyəcək. Ət kəsdiyini və doğradığını görən – ağır və kədərli işlərə uğrar. Quzu əti görən – fikirlərini dəyişdirməli, keçi əti görən – düşməndən çəkinməməli, quş əti – uzun ömür, donuz əti – gizli bir işin üzə çıxması, balıq əti – şadlıq və səadətdir.

**Falçı** – yuxuda falçı – yalançı, hiyləgər bir adamla yozulur. Falçıya getmək, kitaba baxdırmaq, dua yazdırmaq bir kələkbazın yalanlarına aldanmaq, fal açdırmaq, fala baxmaq – xəyal və uydurmaya qatılmaq deməkdi.

**Fanus** (fanar) – yuxuda gündüz və aydınlıqda fanus görmək – puç və faydasız işlərlə uğraşmağa işarədir. Gecə qaranlıqda görülən fanus – qazanc və fayda deməkdi. Fanus yandırmaq – xeyirli bir işə başlamaq, fanusu söndürmək – yaxşı bir işi öz əlilə dağıtmaqdır. Gecə zamanı çoxlu fanusların küçə-bazarda yandığını, hər tərəfi işıqlandırdığını görmək ölkənin abadlaşma və rifaha çatmasına işarədi. Yanan fanusların birdən-birə sönməsi – o ölkənin səfalətinə, orada böyük bir adamın aradan getməsinə işarədir.

**Fəqir** – yuxuda özünü fəqir (yoxsul) görmək – varlanmaq nişanəsidi. Fəqirə yardım etmək – bir fəlakətdən qurtarmaq, fəqirdən bir şeyi almaq – varlı bir adamdan xeyir görmək, fəqirin səndən bir zad dilədiyini görmək – şad bir xəbər almaq deməkdi.

**Fəvvarə** – yuxuda fəvvarə – yaşayışda bolluq və rifaha yozulur. Evində fəvvarə saldırdığını görən – evli olsa varlanır, subay olsa evlənir.

**Firuzə** – adaxlılar üçün bu bahalı daşı yuxuda görmək gələcək xoşbəxt həyatdan xəbər verir. Cavan qızın yuxuda firuzə görməsi – ərinin onu çox istədiyinə yozulur.

**Fışqırıq** – fışqırıq (fit) səsi yuxuda cürbəcür yozulur. Ucadan verilən fışqırıq pul itkisinə, alçaqdan verilən fışqırıq yaxınları ilə daha nəzakətli olmağa yozulur.

**Fırtına** (tufan) – yuxuda fırtına görən yaxın günlərdə bir şaşdırıcı xəbər, ya gözlənilməz bir hadisə ilə qarşılaşacaq. Fırtına yağış, göy gurultusu, şimşək çaxma ilə görünərsə, o yerdə istər quruda, ya dəryada olsun fəsad və pozğunluq üz verəcəkdir.

**Fil** – yuxuda fil görmək – əyri gövdəli və heybətli bir adamla üzbəüz gəlmək deməkdir. Filə mindiyini görmək – yüksək məqama çatır, fildən düşdüyünü görənin işi kasada uğrar.

**Gecə** – yuxuda qaranlıq gecə görmək – qəm və kədər, aylı-ulduzlu, aydınlı gecə-sevinc, evini qaranlıqda görmək uzun və zəhmətli səfər, tutqun gecənin birindən aydınlığını görmək – sıxıntıdan qurtarmaq, aydınlığın birdən-birə qaranlığa çevrilməsi işlərin gözlənilmədən pozulması və sıxıntı çox düşməsi deməkdir.

**Gəlin** – yuxuda dünya ilə yozulur. Cavan və gözəl gəlin halal mal və məşru (qanuni) qazanc, yaşlı və çirkin gəlin – haram mal və naməşru qazancdır. Bakirə qız gəlin olduğunu görsə – muradına çatar.

**Girdab** (burğuc) – girdab yuxuda – təhlükə, zərər və kədər kimi yozulur. Girdaba düşdüyünü görən – fəlakətə uğrar. Düşdüyü girdabdan qurtulduğunu görən təhlükə və fəlakətdən qurtarar.

**Göz** – yuxuda qara göz görmək – etiqad, bilik, şadlıq və sevincə, abi göz – xəyalpərvərliyə, yaşıl göz – etiqadsızlığa, ala göz – xoş fikirliliyə işarədi. Gözdə hər cür zəiflik və çatışmazlıq – kədər və sıxıntı, hər cür qüdrət və xeyrə yozulur.

**Gözlük** – yuxuda gözlük almaq, tapmaq, taxmaq – subay üçün evlənmək, yoxsul üçün varlanmaq, alverçi üçün qazanc, məhbus üçün azadlıq, xəstə üçün şəfa və hər halda xeyrə yozulur.

**Gözətçi** – yuxuda gözətçi görmək, ya gözətçi olmaq bacarıq və qüdrətin çoxalmasına işarədir.

**Göyərçin** – yuxuda bir göyərçinin uzaqdan uçub gəldiyini, ya birinin sənə göyərçin verdiyini görmək uzaq yerdə xoş xəbərlər almaq və əlinə mal toplamaq kimi yozulur. Yuxuda başına, ya çiyninə göyərçin qonduğunu görən səadətə uğrar. Göyərçini qaçırmaq, satmaq, öldürmək fənadır.

**Göy qurşağı** – yuxuda göy qurşağı görən adam, görəcəyi işlərdə müvəffəqiyyət qazanır, bütün istəkləri yerinə yetirilir.

**Gül** – yuxuda adamın sevdiyi və xoşladığı gülü görməsi – xoş günlərə çatmasına, gül toplaması – xoş xəbərlər eşidəcəyinə və arzularına çatmasına, topladığı gülün rəngi qırmızı olursa sevinc və sözünün ötgünlüyünə, ağ olursa-dövlət və iqbala, sarı olursa – xəstəliyə yozulur.

**Halva** – yuxuda halva dadlı söz və qiymətli öyüd kimi yozulur. Halvaçı kəramətli bir kimsə anlamındadır. Yuxuda birinin sənə halva verməsi ondan maddi və mənəvi faydalandığına, sənin birinə halva verdiyin onun haqqında yaxşılıq edəcəyinə işarədir.

**Hamam** – yuxuda hamama girmək – sıxıntı və kədər, hamamdan çıxmaq şadlıqdı. Hamamda yuyunub arınmaq – borcdan qurtarmaq, suyun dağ olduğu – həyatda xəstəlik və taqətsizlik, ılıq olduğu sağlamlıq və işlərin qərarında olduğunu göstərir.

**Haca getmək** – yuxuda Məkkəyə getmək, ya özünü Məkkədə ziyarətdə görmək, istək və arzuların yerinə yetirilməsinə işarədir. Yuxuda Məkkəyə getmək istədiyi halda gedə bilməzsə – muradına çatmayacaq.

**Həb** – yuxuda həb görmək – hər şəkildə olursa-olsun, yalan, fırıldaq, aldanmaq, aldatmaq kimi yozulur.

**Həcamət** (Qanalma) – yuxuda həcamət etdiyini görən naxoş olsa toxtar, sıxıntıda olsa – rahatlığa çıxar, həbsdə olsa – qurtulur, işdən çıxarılıbsa – işə çağırılar.

**Həsir** – yuxuda həsir üstə oturduğunu görən peşimanlıq doğuran bir işə əl atar, həsirə büründüyünü görən – təkcə özünü

düşünər. Təzə həsir aldığını görən evlənir, həsirin oğurlandığını görən işini əldən verir.

**Həvəngdəstə** – yuxuda biri-birindən ayrılmaz iki şərik deməkdir. Həvəngdəstəni birlikdə görən – qazanca çatacaq, onları tək-tək görən – gözlənilən qazancın ələ gəlmiyacağına işarədir.

**Hörümçək** (toratan) – yuxuda hörümçək (toratan) bir dəcəl və azar verən adama tuş gəlmək deməkdi. Hörümçəyi öldürən hiyləgər bir düşməndən qurtarır. Hörümçək toru evdə yoxsulluq nişanəsidi. Onu evdən süpürüb atan yoxsulluqdan qurtarır.

**Xərmən** – yuxuda xərmən görmək – zəhmətlə mal artırmaq deməkdi. Xərmənin yandığını, sel apardığını, ya hər surətdə olur-olsun aradan getdiyini görənin varı əlindən çıxar və fəlakətə uğrar.

**Xəmir** – yuxuda xəmir yoğurmaq xeyirdi. Mayalı xəmir işlərin uğurlu olduğuna və qazanclı peşəyə işarədir.

**Xəncər** – yuxuda xəncər kin və düşmənçilik nişanəsidir. Bir xəncər tapdığını, aldığını, belinə bağladığını görən düşmənə qələbə çalar. Xəncərin itməsi, ya sınması düşmənə basıldığına işarədi.

**Xəstəlik** (naxoşluq) – yuxuda xəstəlik xeyrə yozulur. Tanınmış bir adamın xəstəliyini görən – düşmənə basılır, vuruşda yaralanır. Yuxuda baş ağrısı günah işlər, qulaq ağrısı zərər-ziyan, göz ağrısı – qəm və kədər, ürək ağrısı – harama yetmək, bel ağrısı – fəqirlik və iftira kimi yozulur.

**Xurma** – yuxuda xurma almaq, xurma dərmək, xurma yemək – qazanc və sevinc, xurma ağacı əkmək – şərəf və şöhrət, xurma ağacını kəsmək, ya onun üstündən düşmək xeyrə yozulmur.

**İcrət** – yuxuda birindən icrət almaq, ya birinə icrət vermək – xeyir-bərəkətə yozulur. Bu icrət verənin icrət alana xeyirxahlıq nişanəsidi.

**Kabab** – yuxuda kabab çəkmək üçün ət hazırlayan qazanclı və rahat bir iş arar. Erkək qoyun ətindən kabab yemək xəstələnməyə, dişi qoyun ətindən kabab yemək – arvadının xəstələndiyinə, quzu ətindən kabab yemək uşaqlarının xəstələnməsinə işarədi. Kabab hər ətdən olur-olsun xeyrə yozulmur.

**Kağız** – yuxuda öz əlində kağız görmək – ehtiyacın ödənməsi, işin görüləcəyi kimi yozulur. Kağız yazmaq – bir məsələni aşkara çıxarmaq, kağızlarla uğraşan birisini görmək – insanlara yol qoyan, vəhiylə öyrədən bir adamla üzbəüz olmağa, kağız almaq – xoş xəbər almaq və murada çatmağa işarədir.

**Karxana** – yuxuda karxana görən – dünya işləri ilə uğramaq deməkdi. Karxanada işlər görmək – işlərin yaxşılığına, karxanada yatmış görmək – işlərin pozulmasına işarədi. Karxanada işdə olmaq bir iş başına keçmək, karxanadan çıxmaq – işindən çıxarılmaq deməkdi.

**Kasa** – yuxuda dolu kasa qismət, boş kasa üzüntü, qızıl və gümüş kasa bol qazanc və işdə uğur, kasada su içmək – bir sevgi xəbəri, kasadan su yerə tökmək – bir itkidir.

**Keçə** – yuxuda keçəyə bürünmək – get-gedə yoxsulluq, kədərli günlərə uğramağı, güllü keçə xoş xəbər eşitməyi, yırtıq keçə gələcəkdə var-dövlətə çatmağı bildirir.

**Kəhrəba** – yuxuda xırda kəhrəba görmək – çətinliklə ələ gələn qazanc, iri kəhrəba – uzun sürən xəstəlik deməkdi. Yuxuda kəhrəbadan boyunbağı taxan qadın – varlı, lakin əxlaqsız bir kişi ilə evlənər, əlində olan kəhrəbanı itirmək və ya birinə vermək yaxşı yozulur.

**Kəklik** – yuxuda kişi üçün gözəl bir arvad və qadın üçün yaraşıqlı bir ər deməkdir. Bir kəklik gördüyünü, tutduğunu, ya aldığını görən evlənir. Kəklik satmaq arvadından ayrılmaq deməkdir. Kəklik əti yemək təzə paltar geyəcəyə işarədir.

**Kənd və kəndli** – yuxuda abad kənd görmək – rifah və bərəkət, xarab kənd görmək – fəqr və fəlakət deməkdir. Özünün kənd əhlindən olduğunu görən – xalqa xeyirli işlər görür, bir kəndli ilə münasibətdə olan xeyirli bir adamla dost olur.

**Kürk** – yuxuda qışda kürk geymək – xoş günlər və şadlığa, yayda kürk geymək – sıxıntı və kədərə yozulur.

**Külə** – yuxuda külə adam görən – düşmənə qələbə çalar. Bir külə ilə qonuşan – yalançı və kələkbaz bir adama uğrayar, lakin ondan zərər görməz. Külə bir qadınla görüşən – işində ziyan görər.

**Kül** – kül yuxuda faydasız bilik və mal kimi yozulur. Yuxuda kül yığdığını, aldığını, daşıdığını görən – bilik və malından nə özü faydalanır, nə də özgəsinə bəhrə verir. Kül yediyini görən haram yeyər. Öz başına kül səpdiyini görən – gördüyü yaramaz işdən peşmanlıq çəkər. Kül üstündə oturmaq – fisqifəsadla uğraşmaqdır.

**Küncüt** – yuxuda küncüt – get-gedə artan var ilə yozulur. Küncüt almaq xeyirli, satmaq fənadır. Küncüt əkmək bəhrəli işə əl atmaq, əzib yağını çıxarmaq – varından yaxşı faydalanmaqdır.

**Maşın** – yuxuda maşın görmək, hər cür maşın olursa-olsun, işlərin və yaşayışın asanlaşmasından xəbər verir

**Mağara** – yuxuda qaranlıq, darısqal və nəmli mağara – sıxıntı, ölüm, qəbir, işıqlı və geniş mağara – çətinlikdən qur-

tarma, mağaraya girib oradan salim çıxmaq isə əmin-amanlığa çatmaq kimi yozulur.

**Mal-davar** – yuxuda gomuş, inək, qoyun kimi sağmal heyvanları görmək – uğur və yemək anlamında yozulur.

**Matəm** – yuxuda hər cür matəm və əza mərasimi görmək, ya onda iştirak etmək, gələcəkdə xoş və aydın günlərdən xəbər verir.

**Maya** (acıtma) – yuxuda maya ruh düşgünlüyünə işarədi. Mayanın daşıb-qabarması – ruh düşgünlüyündən qurtarıb könül xoşluğuna çatmaqdı.

**Mayallaq vurmaq** – yuxuda başı üstə mayallaq vurmaq gündəlik davranışlarında ciddi olmağa və lovğalıqdan çəkinməyə işarədi.

**Meşə** – yuxuda meşə görmək böyük, alicənab bir adamla görüşdür. Meşədə gəzinmək, ya orada dincəlmək, o adamın himayəsində olmaq, meşədə qurumuş ağacları yığmaq – xeyir və mənfəətə, yaş ağacı kəsmək – yaxşılıq qarşısında yamanlıq kimi yozulur.

**Meyvə** – yuxuda ağacdan meyvə dərmək yaxşı işlərə əl atmaq, həm də etibarın çoxalması kimi yozulur. Yuxuda meyvə yemək, meyvədən özgəsinə pay ayırmaq ruzunun bolluğu deməkdir. Yetişməmiş kal meyvə dərmək – tələsik, düşüncəsiz iş görməyə yozulur.

**Məhkəmə** – yuxuda haqq-hüquq işləri ilə məşğul olan xeyir-bərəkətə, qazanc və rifaha, lakin cəza məhkəməsi görmək – sıxıntı və zərər-ziyana yozulur.

**Mələikə** – yuxuda mələikə görmək – tam xeyrə yozulur. Mələikənin bir yurda endiyini görmək o yurdda yaşayanların nemətə çatmasına, qəm və kədərdən qurtulmasına işarədi. Bu mələikə ilə uçmaqda olduğunu görən – dünya və axirətdə rastgar olur. Bir mələikə ilə qonuşduğunu görən – böyük qazanca çatar. Özünü mələikə surətində görən – izzət və hörmət qazanır.

**Məmə** (əmcək) – məmə yuxuda qız uşağı ilə yozulur. Məmələrin baş verməsi, ya məmənin yanında ayrı məmələr çıxdığını görən – qız uşağının çoxluğuna, məmələrin xırda, ya görünməz olması – qız uşağının olmayacağına yozulur. Məmədən süd axdığını görmək – imanın kamilliyinə nişanədir. İki məmədən süd axdığını görən – subay olsa evlənir, evli olsa varlanır.

**Məmə** – bir boylu qadın, ya onun ailə adamlarından biri yuxuda məmə görərsə o qadının çox sağlam bir uşaq dünyaya gətirməsinə işarədir.

**Mərcan** – yuxuda mərcan – əyal və övlad ilə yozulur. Mərcan almaq, ya mərcan tapmaq – subay üçün evlənmək, evli üçün övladdır. Birindən mərcan alan – onun varından faydalanır.

**Mərmər** – mərmər yuxuda var və sevinc ilə yozulur. Ağ və parlaq mərmər – halal mal, qırmızı mərmər mirasdan qalma mal, qara (şəvə) mərmər – oğurluq və əyrilikdən ələ gələn mal deməkdi.

**Mürəbbə** – yuxuda mürəbbə – bol gəlir və varlanmaq nişanəsidir. Evdə mürəbbə bişirmək rahatlığa çıxmaq deməkdi.

**Mürəkkəb** – yuxuda mürəkkəb görmək – yaşayışda çalışqanlığa və murada çatmaq nişanəsidi. Mürəkkəbin calandığını görmək zərərə işarədi. Davatın mürəkkəblə dolu olduğunu görmək ailə həyatında salihə və savadlı bir əyal deməkdi.

**Müştəri** – yuxuda müştəri görmək bir darda qalmış, çarəsiz adamla rastlaşmaq nişanəsidir.

**Nal** – yuxuda hər nə şəkildə olur-olsun, nar görmək qazanc və şad xəbər kimi yozulur. Minik heyvanlarının nallandığını, ya özü nalladığını görən işlərində göstərdiyi bacarıq və ardıcıllıqdan dövlətlənər. Nal düzəltdiyini, ya tapdığını görən – faydalı bir işə əl qoyar. Nalı itirmək, nalı birinə vermək xeyrə yozulmur.

**Namaz** – hər niyyətə olur-olsun üzü qibləyə namaz qılmaq – dünya və axirətə uğramaq, murada çatmağa yozulur.

**Nanə** (nəna) – yuxuda nanə görmək xeyrə yozulmur. Nanə satın almaq, nanə dərmək, nanə yemək – qəm, qüssə və ağır yaşamağa işarədi.

**Naz-qəmzə** – yuxuda naz-qəmzə satan adam istər qız, ya oğlan olsun – sevgidə uğursuzluğa uğrayacaqdır.

**Nərdivan** – yuxuda nərdivana qalxmaq – böyük bir işi başa çatdırmaq sayəsində şan-şöhrətə çatmaq, nərdivandan enmək – ələ düşmək, böyük bir fürsəti əldən vermək, nərdivandan yıxılmaq düşmənə basılmağa işarədi.

**Novdan** – yuxuda novdan görmək – tanınmış və xoşniyyət bir adamla tanış olmaq, yağış yağmadan novdandan su axdığını görmək – fitnə və fəsada, yağış yağarkən novdandan saf və dumduru suyun axdığını görmək – bolluq və ucuzluq, suyun bulanıq gəldiyini görmək – qıtlıq nişanəsidi.

**Novruz bayramı** – yuxuda Novruz bayramını görmək – böyük şadlıq və aydınlıq kimi yozulur, hər cür darlıqdan, üzüntüdən qurtarmaq, arzu-istəyə çatmağı göstərir.

**Nuh** – yuxuda Nuh peyğəmbəri görmək – səadətə yozulur. Yuxu görən olduqca uzun yaşayır, hər cür gözlənilməz hadisələrdən qurtarır, çətinliklərə üstün gəlir.

**Ocaq** – yuxuda ocaq qurmaq, ya ocaq alışdırmaq – evlənmək və ailə qurmağa yozulur. Ocağı yanıq halda görən – ailəsi ilə şən və məsrur yaşar, ocağın sönməsini, ya yıxılmasını görmək – ailədən nemətin azalması və rifahın zəvalı ilə yozulur.

**Od** – yuxuda od görənin uzaqdakı qohumundan xəbər gələr. Od yandıran kədərli xəbər eşidər. Odu söndürmək – səfalətdən qurtarmaqdır. Qaranlıqda xalqa yol göstərmək üçün yandırılan od – təcrübə və bilgiyə yiyələnmək, gündüz yel üstə yandırılan od – boş işlərlə məşğul olmaq deməkdir. Oda ibadət etmək – şeytanın qulluğunda olmağı, od yediyini görən – yetim malı və ya beyt-lümala əl dolaşdırmağı göstərir. Göydən od yağmaq – o yerdə yaşayanların ağır sıxıntıya məruz qalacaqları ilə yozulur.

**Odun** – yuxuda odun (istər yaş, istər quru) görmək düşmənlik, münaqişə, həsadət və dedi-qodu ilə yozulur. Dağdan, ya meşədən odun qırıb gətirmək, ya odun alıb satmaq – camaatla söz güləşdirməkdə, ya çəkiş-bərkişdə olmaq deməkdi.

**Ox** – yuxuda ox atmaq – elçi göndərmək kimi yozulur. Ox nişana tuş olursa, göndərilən elçi işi bitirir, dəymirsə iş korlanır. Atılan oxun süzub getdiyini görənin şöhrəti çoxalır. Onun camaat arasına düşdüyünü görənin sözü ötgün olur.

**Omba** – yuxuda omba (bud) görmək – yuxu görənin öz ailəsinə-obasına bağlı olduğunu bildirir. Ombasında ağrı duyan adam qəribliyə düşər.

**Ordu** – yuxuda ordu görmək, ya orduda olmaq – arada bir pozğunluğun və münazeənin baş verəcağına işarədir.

**Oruc tutmaq** – yuxuda ramazan orucunu tutduğunu görən – o ili naxoş olmaz, yaşayışda korluq çəkməz. Nafilə oruc tutmaq – bəşarətə, qazanc, darlıqdan qurtarmaq ilə yozulur. Bilmədən orucunu yeyənin ruzusu bol olur. Bilə-bilə oruc yeyənin əlindən xəta çıxar.

**Öpüş** – yuxuda boyun öpmək – ehtiyacdan qurtarmaq və düşmənə qalib gəlmək deməkdir. Bir adamla öpüşmək, ya qucaqlamaq məqsəd və istəyə çatmaq nişanəsidir.

**Ördək** – yuxuda bir tək ördək görmək – xoşbəxt ailə qurmaq, bir sürü ördək görmək – ucuzluq, bolluq və bərəkətə yozulur. Üzməkdə olan bir dəstə ördəyi görmək – yaşayışdan razı qalmaq deməkdir.

**Ögey** – yuxuda ögey ata, ana, qardaş görmək – ürək sıxan bir xəbər eşitməyə yozulur.

**Öküz** – yuxuda öküz görmək – şadlıq, var-dövlətə işarədi. Öküzü oxşamaq xeyirli bir işə əl qatmaq, öküzə dəymək – zərər görmək, öküzə minmək – iqbala çatmaqdı. Ətli-öküz – xeyir bərəkət, arıq öküz – darlıq və yoxsulluq deməkdi.

**Ölü** – ölü yuxuda xəbər deməkdi. Bir ölü ilə qonuşduğunu görən – ölü gülər üzlü olursa – yaxşı, dalğın olursa – yaman xəbər eşitməkdir. Ölmüş atasını, ya anasını dirilmiş görən – murada çatır.

**Ölmək** – yuxuda öldüyünü görən – çox yaşayar. Öləndən sonra dirildiyini görən – əldən çıxan mal və işinə təzədən yiyələnər.

**Önlük** – yuxuda cırıq bir önlük görmək – yaxın günlərdə təzə paltar geyinməyə işarədi.

**Paça** – yuxuda qoyun, ya inək kimi əti yeyilən heyvan paçası almaq, ya yemək, qüvvət və qazanca yozulur. Paçanı satmaq, özgəsinə bağışlamaq, ya atmaq – qüvvətdən düşmək və qazancın azalması deməkdi.

**Pambıq** – yuxuda pambıq yığdığını görənin əlinə halal mal toxtar, yatağa – yasdığa pambıq döşədiyini görən evlənir, pambıq atdığını, ya satdığını görən biri ilə dalaşır.

**Pərdə** – yuxuda pərdə – qəm-qüssə deməkdi. Pərdə köhnə və yırtıq olursa – qəm-qüssə tez ötüşür, təzə olursa uzun sürər. Pəncərə pərdəsi sirr anlamındadı, onu açmaq sirrin üstünü açmaq, onu çəkmək (örtmək) sirri gizli saxlamaq nişanəsidi.

**Pəri** – yuxuda pəri görmək – pəri gülərüzlü və gözəl olursa – bəşarət, qızğın və çirkin olursa – fəlakətdi.

**Pəncərə** – yuxuda pəncərə görmək – mala-mülkə və xoş-bəxtliyə çatmaqdı. Yuxu görən – sıxıntı içində olursa, ondan qurtulur, xəstə isə sağalır, subay isə evlənir və xoşbəxt həyat sürür, evli isə rifaha çatır.

**Pənir** –yuxuda pənir görmək, ya pənir yemək qazanc və varlanmaqdır. Pənir quru (köhnə) olursa – zəhmət ilə ələ gələn qazanc, təzə isə rahatlıq ilə gələn qazanc sayılır.

**Portağal** – yuxuda portağal görmək, almaq və yemək – portağal şirin olursa – var-dövlət, turş olursa – sıxıntı və nasazlıqdı.

**Posgül** (məngülə) – yuxuda posgül – istər ipək və istərsə də iplikdən olur-olsun – izzət, ehtiram, murada çatmaq, evli üçün övlad və səfər, subay üçün evlənmək deməkdi.

**Püfləmək** – ocağı alışdırmaq üçün püfləmək- gizlin işin aşkara çıxacağına işarədi.

**Saat** – yuxuda saat görmək – təzə bir xəbər almaq, saat zəngi eşitmək – bir çağırış almaqdır. İşlək saat çalışqanlıq, yatmış saat durğunluq nişanəsidi.

**Saç** – yuxuda saç var-dövlət və uzun ömrə yozulur. Arvadın yuxuda saç hörməyi xeyrə yozulur. Kişi yuxuda saçın uzanmasını görsə – boylu arvadı oğlan doğacaq. Yuxuda saçını kəsmək, ya saç kəsdirmək yaxın günlərdə görüləcək işin təhlükəli olmasını bildirir. Saçın tez ağardığı – çalışqanlığa, saqqalın bir başa ağardığı – yoxsulluğa yozulur.

**Saqqa** (su paylayan) – yuxuda saqqa olub, xalqa su paylamaq xeyirxahlıq deməkdir. Saqqa kimi öz evinə su daşımaq pul birikdirmək, suyu başqa evlərə daşımaq – əlində olan pulu özgələrə bağışlamaq, camaatdan su istədiyini soruşduğunu görən – xalqı doğruluğa yönəltmək kimi yozulur.

**Saman** – yuxuda saman, ya samanlıq görmək – asan qazanca çatmaqla yozulur. Samanlıqda ot, ya saman yığmaq – varlanmaq deməkdi.

**Saqqız** – yuxuda saqqız – zəhmətlə ələ gələn mal hökmündədir. Saqqız çeynəmək – dedi-qoduya işarədir. Saqqız almaq zəhmətlə qazanc, saqqız oda atmaq – dünya malından sarı başını qovğaya salmaq anlamındadır.

**Sel** – şiddətli yağışdan yaranan sel – ağır xəstəlik, ya üzüntüyə bir səfər deməkdir. Selin dərələri, düzləri, kənd və şəhərləri basması insanlar haqqında işlədilən haqsızlıq və zülm kimi yozulur.

**Səccadə** – namaz səccadəsi yuxuda əsləhə kimidi: satmağı uğursuz, almağı uğurlu olur. Özünü səccadədə oturmuş görən – özgələrə yaxşılıq edər. Yun, ya pambıq səccadə riyakarlıq və camaatı aldatmaq nişanəsidi.

**Salam vermək** – yuxuda özündən kiçik adama salam vermək, axirətdə savab qazanmaq, camaat arasında hörmət tapmaq kimi yozulur. Küsülü adama salam vermək o adamın üstün gələcəyinə nişanədi. Bir düşmənlə salamlaşıb qucaqlaşmaq – barışıq, kin və küdurətin ortadan qalxması kimi yozulur.

**Səs** – yuxuda gözlənilməz səs eşitmək, lakin onun nədən və haradan gəldiyini başa düşməmək – ayıqlıqda bir para şayiələr eşidəcağıza işarədi.

**Soğan** – yuxuda soğan görmək, ya soğan soymaq yaltaqlıq və hiyləbazlığa yozulur.

**Soxulcan** – (bağırsaq qurdu, kədu qurdu) – yuxuda soxulcan görənin çevrəsini pis xasiyyətli adamların almasına yozulur.

**Söz** – yuxuda bir uşağın sizlə danışması – öyüd və nəsihət alacağınıza işarədir. Yuxuda bir dilsizi başa düşməyiniz, ya bir quş ilə qonuşduğunuz böyük maddi, ya mənəvi imkana çatacağınıza yozulur. Yuxuda düşmənin sizinlə danışması ayrılıq və küdurətin vüsala çevriləcəyinə işarədir.

**Su** – yuxuda su – var-dövlət və xoş yaşamaq kimi yozulur. Saf və təmiz su – ucuzluq, bolluq, ədalətin yayılmasına işarədir. Özünü təmiz suya atmaq – sevincə, bulaşıq suya atmaq – darlıq və kədərə yozulur. Durğun suya düşmək çətinliyə və qüdrətə işarədir.

**Susamaq** – yuxuda susuz olub – su içmək, sağlamlıq, halal mal əldə etməklə yozulur. Susamış bir adama su verənin yaxınlarından biri tezliklə evlənəcək. Susuzluğunu hiss edib, əli suya çatmadığı halda gözlənilmədən su görmək – ağır nigaranlıqdan qurtulmaq deməkdi.

**Süd** – yuxuda sud almaq, sud içmək – xoş yaşamaq, qazanc, sağlamlıq nişanəsidir. Süd bişirdiyini görən – xeyirli bir işə əl qoyacaq. Südün bişirilərkən çürüyüb, ya calanması – başlanılan işin boş olacağına yozulur.

**Süfrə salmaq** – yuxuda süfrə ömrün uzunluğuna işarədi. Yeməklərlə dolu süfrə görmək nemət bolluğuna, boş süfrə kasıblığa yozulur. Ağ və geniş süfrə – yaxınlarda bir süfrədə oturmağa işarədi.

**Sünbül** – yuxuda sünbül tarlası görmək – şad xəbər eşitmək, dərilmiş sünbül qəm və kədər, yaxınlardan birinə sünbül qoparıb vermək, ondan ayrı düşmək, fəslindən qıraq sünbül görmək vəsvəsə nişanəsidir.

**Sürgün** – yuxuda sürgün edilmək, ya yurd-yuvasından zorakı qürbətçiliyə düşmək – çıxılmazlığa uğramaq və həbsə alınmağa işarədi.

**Sürmə** – yuxuda sürmə satmaq, almaq, yaxmaq – həmişə xeyrə yozulur. Gözü ağrıyan adamın yuxuda sürmə çəkməsi – gözlərinin sağalmasına, bir qızın, ya bir dul arvadın gözünə sürmə çəkməsi onun yaxında evlənməsinə işarədir.

**Sürü** – yuxuda dördayaqlı sürünü görmək – qabaqda sevincli günlərin olacağına işarədi.

**Sütun** – sütun yuxuda, hər sütun olur-olsun, bir ev və avadanlıq sahibi olmağa işarədi.

**Tabut** – yuxuda tabut görmək – dövlət, qazanc, şərəf və etibar sayılır. Bir tanış adamı tabut içində görmək yaxın günlərdə onun sağ-salamat xəbərini almaqdır. Tabutda yad adam görmək irəli günlərdə yaxın dostluq və tanışlıq sahibi olmağa yozulur.

**Tacir** – yuxuda tacir görmək – xalq arasında hörmətli sayılan bir adamla tanışmaq deməkdi. Özünün tacir olduğunu görən – böyük hörmət və etibar qazanacaqdı.

**Tava** – tavada yemək bişirdiyini görən – rahat yaşar. Bazardan tava aldığını görənin ürək yandıran arvadı, ya xidmətçisi olur.

**Taxt** – yuxuda özünü taxt üstə oturmuş görən əgər bacarıqlı və əhli-adamsa yüksək məqam tapır, əgər bacarıqsız və naəhlsə müsibətə uğrar.

**Tər, tərləmək** – yuxuda tər içində olduğunu görənin hacəti rəva olur. Alnından tər axdığını görən çalışmaqla məqsədə çatar. Adi halda tərləmək varlı üçün varın artması, yoxsul üçün varlanmaq, xəstə üçün sağalmaq, kasıb üçün qazanc nişanəsidi.

**Təndir** – evində təndir düzəltdiyini görən, hər sinifdən olursa-olsun, yaşayışda istədiyinə çatar. Qışda təndirdə qızışdığını görən – rahatlıq tapar, yayda təndirdə qızışan naxoş olar. İçində kül, ya yanacaq olmayan təndir görmək xeyrə yozulmaz.

**Təvaf** – yuxuda Kəbəni təvaf elədiyini görən əsir olsa azad olar, fasiq olsa tövbə edər, subay olsa evlənər, tacir olsa qazancı artar, fəqir olsa dolanışığı düzələr.

**Tısbağa** – bir yerdə, bir yol üstə tısbağa görmək – oraya yaxın bir yerdə bir qədri-qiyməti bilinməyən Allah adamı yaşadığına işarədir.

**Tif** – yuxuda tif kimi yoluxucu naxoşluqlardan birinə bulandığını görmək qəm, kədər və sıxıntı kimi yozulur. Bu kimi naxoşluq tutana yardım etmək – bir çətinlikdə çırpınana yardım

deməkdi. Özünün tif tutub kimsənin ona əlac etdiyini görən hər yandan yardım görəcək.

**Toxum** – yuxuda toxum səpmək bol ruzu nişanəsidi.

**Torba** – yuxuda torba görmək, torba tikmək, torba almaq – subay adam üçün evlənmək, evli adam üçün xeyir-bərəkət kimi yozulur.

**Torpaq** – yuxuda torpaq qazmaq – varlanmaq kimi yozulur. Sarı torpaq, qızıl, ağ torpaq – gümüş, qırmızı torpaq – mis, boz və qara torpaq – pul deməkdi. Üst-başını torpaqlı görənin əlinə pul gələr. Yelin toz-torpağı bir yerdən başqa yerə sovurması bu yerdə yaşayan xalqın ədalətsizliyə uğrayacağına yozulur.

**Toyuq** – yuxuda çoxlu toyuğu olduğunu görən – camaata başçı olur. Toyuq başı kəsmək əyaldan ayrılmaq kimi yozulur.

**Toz** – yuxuda üstünə, başına, üzünə-gözünə toz qonduğunu görənin əlinə haradansa pul keçəcək. Tozun yel ilə havalandığını görmək – nə isə baş verəcəyi ilə yozulur.

**Tövbə** – yuxuda tövbə və istiğfar etdiyini görənin ruzi və gəliri çoxalır.

**Tülkü** – yuxuda tülkü görən hiyləgər, kələkbaz (düzənçi), yalançı bir kişi, ya bir arvadla üz-üzə gələcək. Tülkü ilə dostluq edən yalançıya aldanır. Bir tülkü tutduğunu görən bir düzənçi ilə münasibətdə olacaq. Tülkü dərisi əldə etmək hiylə ilə qazanca çatmaq deməkdi.

**Tüfəng** – dostlar və qohumlar arasında ziddiyyət və çəkişmə baş verəcək kimi yozulur. Yuxuda tüfəng səsi gözlənilməz xəbərdir.

**Ürpənmək** (tükləri biz-biz durmaq) – yuxuda vücudunun ürpəndiyini görmək – Allahdan qorxmaq və ürəyi yumşaqlıq nişanəsidi. Qorxulu bir şeydən tükləri ürpənən adam sıxıntı və darlıqdan qurtarar.

**Ürkmək** - yuxuda ürkmək və çəkinmək xeyrə yozulur. Düşmənindən ürkən ona basılır, şeytandan ürkən ona aldanır, gördüyü işin cəzasından ürkən cəzalandırılır.

**Üşütmə** - yuxuda üşüdüyünü görən adam əlindən çıxan xətanı özgədən yox, özündən görməlidir. Başqa bir anlama görə, yuxuda üşüdüyünü görən qabağa çıxan xətanı sovacaqdır.

**Ülgüc** – yuxuda ədavət, yaman söz və acı dil anlamındadı. Ülgüclə bir şeyi kəsmək başlanılmış işin yarımçıq qalacağını bildirir. Ülgüclə ət doğramaq camaatı özündən incik salmaq deməkdi.

**Ütmək** (tüklərini odda yandırmaq, qursalamaq): yuxuda tülkü dərisini, ya bir heyvanın kəlləpaçasının tüklərini ütən bir adam borc, çətinlik, töhmət və qəmdən qurtulur.

**Ütüləmək** – yuxuda qırışıq bir parça, ya paltarı ütülədiyini görən adam qatma- qarışıq işlərini ağıl və tədbir ilə avanda salır. Yuxuda dağ ütü zəkavətə, soyuq ütü tədbirə dəlalət edir.

**Yaba** (şana): yuxuda yaba görmək düzəlməz sıxıntıya uğramaq kimi yozulur.

**Yatmaq** – yuxuda xoşbəxt ailə qurmaq və şən yaşamaq anlamında olur. Yataqları yanbayan salmaq evə qonaq gələcəyinə nişanədi. Yataqda rahatca yatıb yuxulamaq sıxıntıdan qurtulmaq deməkdi.

**Yarış** (müsabiqə) – yuxuda bir yarışa (müsabiqəyə) qoşulmaq və o yarışı udmaq – yaşayışda uğur qazanmaq, yarışı uduzmaq – peşmançılıq kimi yozulur.

**Yaralanmaq** – yuxuda yaralanmaq, ya birini yaralamaq, vuranın vurulana yaxşılıq edəcəyi kimi yozulur.

**Yastıq** – yuxuda ümumiyyətlə, yastıq xeyrə yozulur və bir çox hallarda xeyirxah xidmətçi anlamında olur. Cavan adamın yumşaq yastığa söykənməsi onun bolluğa çatacağına, yaşlı adamların isə xoş rahatlığa çatacağına işarədir. Divar yastığı yuxuda zənginlik, şərəf və etibar sayılır.

**Yasəmən** – yuxuda yasəmən ağacını çiçəkləyəndə görmək – şadlıq və fərəh doğurur. Birinin sənə, ya sənin birinə yasəmən gülü verməsi – onunla tez, ya gec dalaşacağından xəbər verər. Yasəmən vaxtında gül açanda – bərəkət, vaxtından qıraq açanda – fənadır.

**Yabancı** (yad kimsə) – yuxuda bir yad (yabancı ) adamla görüşmək yəni bir iş görmək, ya imkana çatmaq kimi yozulur.

**Yaxa** – paltarın yaxasının təmiz olması qazanc, çirkli olması ziyana işarədi.

**Yaxşılıq** – yuxuda birinin haqqında yaxşılıq etmək, ya möhtac bir adamın əlindən tutmaq – şad xəbər eşitmək, şadlığa uğramaq kimi yozulur.

**Yazı yazmaq** – yuxuda savadsız bir adamın özünü yazmaqda görməsi, onun camaat işlərində bacarığına işarədi. Savadlı adamın yazı yazması vəfaya, bolluğa çatmaq kimi yozulur. Öz yazdığını oxuya bilmədiyini görən günahlarından tövbə edir.

Kitab yazdığını görən, lakin onu tamamlaya bilməyənin işləri yarımçıq qalar.

**Yaşmaq** – yuxuda yaşmaq görmək xoş xəbər eşitməyi ifadə edir. Yuxuda yaşmaqlı qadın görən oğlan, ya qız xoşbəxt ailə quracaq.

**Yaşıllıq** – yuxuda göz işləyən yaşıllıq görmək uzun ömür və böyüklük nişanəsidi. Yuxusunda yaşıllıq görən, ya yaşıl paltar geyən qız tanıdığı və sevdiyi oğlanla evlənib bəxtiyar yaşayacaq.

**Yağ** – yuxuda hər cür yağ, can yağı, quyruq yağı, kərə yağı görmək səadət, xoş günə doğru addımlamaq kimi yozulur.

**Yağma, yağmalamaq** – yuxuda hər hansı bir şeyin yağmalandığını görmək, o şeyin çox bol olmasına dəlalət edir. Bir dükanın yağmalanması o dükan sahibinin yaxşı bazarlıq etməsi, bir evin yağmalanması o evin varlanması və bir şəhər, ya ölkənin yağmalanması o şəhər, ya ölkənin rifahlanması kimi yozulur.

**Yağış - yağmur** – yuxuda vaxtlı-vaxtında yağan yağış bərəkət və rəhm, vaxtsız yağış ziyan və fəlakət deməkdi. Bir bölgə, ya bir ölkəyə asta yağan yağış – bolluq və rifah, şiddətli yağış – gözlənilmz bəla və naxoşluq əlamətidi.

**Yaqut** – yuxuda yaqut bolluq və yaşayış deməkdi.

**Yaltaq** – yuxuda yaltaq adamla üzbəüz gəlmək, ya onun yaltaqlığından xoşlanmaq yaramaz adamlardan çəkinmək kimi yozulur.

**Yanaq** – yanaq yuxuda açıq, tutqun olduğuna görə fərqli halda yozulur. Qırmızı və şad yanaq çətinliklərdən qurtulub, se-

vincə çatmaq; solmuş və tutulmuş yanaq qorxu və üzüntü anlamındadı.

**Yaralanmaq** – yuxuda yaralanmaq, ya birini yaralamaq, vuranın vurulana yaxşılıq edəcəyi kimi yozulur.

**Yelpik** – yuxuda yelpik almaq, ya tapmaq yoxsulluq və darlıqdan qurtarıb rahatlığa çatmaqla yozulur.

**Yeralması** – yuxuda yeralması var-dövlət nişanəsidi. Yeralması almaq, bişirmək, yemək qazanc deməkdi. Böyük miqdarda yeralması bolluq bərəkət nişanəsidi.

**Yıxmaq** – yuxuda salim və sığınağa yarar bir binanı yıxmaq – öz əlilə özünə toxunmaq kimi yozulur. Uçub tökülmədə olan bir binanı yıxmaq – ağır bir zərər və fəlakətin qabağını almağa işarədi.

**Yol** – yuxuda xeyirli səfər və sağlıq kimi yozulur. Yuxuda yola çıxmaq – çətinlikdən rahatlığa və darlıqdan genişliyə çıxmaq deməkdi. Yolda rahat və yüngül mənzilə rahat çatmaq və ağır yerimək istəyinə çətin çatmaq deməkdi. Yolun abad olması ölkədə işlərin sağlam gedişi və onların xarab, pozğun olması bunun əksinə işarədi.

**Yonca** – yuxuda yonca əkmək, yonca dərmək, yonca bağışlamaq, xeyir işlərə əl atacağa yozulur.

**Yorğan** – yuxuda yorğan görməyin ayrı-ayrı yozmaları olur: yuxuda yorğan aldığını görən – evlənir. Yorğanın yandığını, ya oğurlandığını görən arvad, yaxud kişi – bir-birindən ayrılır. Yorğanın təzəliyi və təmizliyi dincəlmək və səadət, onun çirkliyi və yırtıqlığı pozğunluq nişanəsidir.

**Yumurta** – yuxuda toyuğun yumurtasını görən adamın uşağı olacaq. Yuxuda çiy yumurta yemək sıxıntı və riyakarlığa işarədi. Pişmiş yumurta yemək rahat qazanca çatmaq deməkdi. Yuxuda yumurtanı qabıqlı yeyən adam örtülü məsələnin üstünü açar.

**Yun** (pəşm) – yun yuxuda xeyrə yozulur. Əyrilmiş yun dövlətdi. Bir yastığa, yatağa yun doldurmaq evlənməyə işarədi.

**Yuxu yozan** – röyada yuxu yozan görmək- qəmli olsa, sevinir, şad olsa- qəmli olur. Dilək və istəkləri olanlar murada çatar, itkin gedənlərdən xəbər çıxar.

**Yuva** – yuxuda quş yuvası görmək ailənin səadət və rifaha çatması ilə yozulur.

**Yuyunmaq** – yuxuda saf və təmiz su ilə yuyunduğunu görən sıxıntı və qəm- qüssədən qurtarar. Naxoş olsa sağalar. Bulaşıq su ilə yuyunan sıxıntı çəkər, borclu düşər və xəstələnər.

**Yük** – yuxuda dalında şələ, yük götürdüyünü görən böyük rütbəyə çatacaq, yuxuda səfər əsbabı yığılmış heybə, xurcun, məfrəş kimi şeylər təmiz və təzə olursa xoş və xeyirli, köhnə və çirkli olursa səfər sıxıntılı keçəcəkdi.

**Zahı** (ikicanlı arvad) – yuxuda zahı görən kişi uğurlu işlərə çatır. Yuxuda arvadın özünü doğum yatağında görməsi yüngül naxoşluq, yatağından qalxmış görməsi sağlamlıq nişanəsidi.

**Zanbaq** – yuxuda xoş arzular kimi yozulur.

**Zeytun** – yuxuda zeytun ağacı əkmək xeyirli bir işə əl qoymaq, zeytun ağacına çıxmaq, ya ağacdan zeytun dərmək, bol- bol qazanca çatmaq, zeytun dənəsi, ya zeytun yağı yemək sağlamlıq və sevinc ilə yozulur.

**Zəhər** (səm) – yuxuda özünü zəhərlənmiş görən adam çox yaşar. Zəhər düzəltmək, ya zəhər satmaq- haramdan mal qazanmaq, birinin əlindən zəhər içmək, ya birinə zəhər içirtmək ona xeyir-bərəkət yetirmək kimi yozulur.

**Zəlzələ** – yuxuda görülən zəlzələ yüngül (asta) olursa fəlakət, ağır (viranedici) olursa yoluxucu xəstəlik, ümumi bəla nişanəsidi.

**Zənbil** – yuxuda bolluq və xoş yaşayış nişanəsidi.

**Zəncir** – yuxuda əlini, ayağını, özünü zəncirlə bağlı görmək zərər, sıxıntı, naxoşluq, kədər, bağlandığı zəncirin qırıldığını görmək darlıqdan, sıxıntıdan, kədərdən qurtarmaq kimi yozulur.

**Zindan** – yuxuda dəmirçi, ya başmaqçı zindanı görmək bir rəvayətə görə – qüdrət və bir rəvayətə görə dövlətlə yozulur. Bir zindana yiyələnən qüdrətli və zəngin olur. Zindan itirənin gücü və dövləti azalar.

**Zindan** (məhbəs) – yuxuda zindana düşdüyünü görən qəm və kədərə uğrar, zindandan buraxıldığını görən sevinc və sağlamlığa uğrayacaq.

**Zınqırov** (zəng) – yuxuda zınqırov səsi, ümumiyyətlə, xeyrə yozulur. Cavan oğlan, ya qız üçün xoşbəxt ailə qurmaq, yaşlı kişilər və arvadlar üçün yaşayışlarında xoş dəyişikliklər olacağına işarədi.

**Zibil, zibillik** – yuxuda zibil və zibillik görmək çoxlu mal-dövlətə çatmaq və yoxsulluqdan qurtarmaq kimi yozulur.

**Zirə** – yuxuda zirə görmək xeyrə yozulur. Zirə həm də sağalmaz xəstəliyə işarədi.

**Ziyil** – yuxuda, ümumən xeyrə yozulur. Əlində, ayağında ziyil çıxmasını, ya artmasını görən varlı-karlı olur.

**Zopa** – yuxuda zopa gəzdirmək – yaxınlarınızdan yaxşılıq görəcəyinizə, zopa ilə birini vurmağınız düşmənlərinizə qalib çıxacağınıza işarədi.

**Zökəm** – yuxuda zökəm olduğunu görən adam işlərində ehtiyatlı olmalıdı.

**Zurna** – yuxuda zurna görmək, ya onun səsini duymaq yaxşı söz dinləməyə yozulur. Zurna aldığını görən sevinəcək, zurna çaldığını görən xoş xəbər eşidəcək.

**Zümrüd** – yuxuda zümrüd görmək halal mal əldə etməyə yozulur.

# X. UŞAQ FOLKLORU

## LAYLALAR

Bir gül əkdim boyunca,
Əyilmədim doyunca.
Ömrüm, günüm uzansın,
Öz balamın toyunca.

Balam laylay, a laylay,
Quzum laylay, a laylay.

Laylay dedim yatınca,
Gözlərəm ay batınca.
Zara-zinhara gəldim,
Sən hasilə çatınca.

Balam laylay, a laylay,
Nazım laylay, a laylay.

Quşlar uçur havada,
Balası var yuvada.
Gözüm boy atmağında.
Dilim sənə duada.

Balam laylay, a laylay,
Gözüm laylay, a laylay.

Balam gəlir yatmağa,
Böyüyüb boy atmağa.
Səhər yuxusu şirin,
Qıymıram oyatmağa.

Balam laylay, a laylay,
Gözüm laylay, a laylay.

Laylay, əməyim bala,
Duzum, çörəyim bala.
Tanrıdan əhdim budu,
Görüm köməyin, bala.

Laylası dərin bala,
Yuxusu şirin bala.
Tanrıdan əhdim budu,
Toyunu görüm, bala.

Laylay quzum ağlama,
Ürəyimi dağlama.
Böyü bir qoç igid ol,
Mənə ümid bağlama.

Laylay dedim adına,
Haqq yetişsin dadına.
Boya-başa çatanda,
Məni də sal yadına.

Dağların laylasına,
Gözlərin qarasına.
Atalar qurban olsun,
Öz körpə balasına.

Qalalar, ay qalalar,
Laçın orda balalar.
Ana balasın verməz,
Məgər zorla alalar.

Şan bağlayan arılar,
Qonar gülə sarılar.
Balama qurban olsun,
Yaşı ötmüş qarılar.

Qapımızda var çinar,
Yarpağı dinar-dinar.
Mənim bir tək balamı,
Saxlasın pərvərdigar.

Dağ başında qalam var,
Ürəyimdə nalam var.
Xəlqin dövləti, malı,
Mənim də bir balam var.

İgid qalasın istər,
Dağın lalasın istər.
Mən balamı istərəm,
Balam balasın istər.

Bağda bülbül oxuyur,
Saça sünbül toxuyur.
Balamı iyləyirəm,
Elə bil gül qoxuyur.

Ətiri güldən gəlir,
Güldən, sünbüldən gəlir.
Balamın gül beşikdə,
Yuxusu birdən gəlir.

Boya, buxuna dol, gəz,
Boynuma dola qol, gəz.
Cavanlar sırasında,
Sən də bir igid ol, gəz.

Mənim gül-butam, oğlum,
Ətrinə batam, oğlum.
Bir arzum var ürəkdə,
Toyunu tutam, oğlum.

Laylay balam, can balam,
Mən sənə qurban balam.
Ağlayıban göylümi,
Gəl, eləmə qan, balam.

Uyu balam, yat balam,
Qızılgülə bat, balam.
Qundağını bağlayım,
Şirin-şirin yat, balam.

Laylay balam, gül balam,
Gül balam, sünbül balam.
Laylayımla yatgilən,
Oyatsın bülbül balam.

Yaylığı kirli balam,
Qəlbi fikirli balam.
Tay-tuşların içində,
Mənim şəkilli balam.

Yol üstə bulaq ollam,
Yatmaram oyaq ollam.
Sən mənim öz balamsan,
Özüm göz-qullaq ollam.

Balam, bir söyün, görüm,
Sərv təki boyun görüm.
Tanrıdan arzum budu,
Balamın toyun görum.

Balama can demişəm,
Ağlasa can demişəm.
Balam dil açan gündə,
Quzu qurban demişəm.

Laylay dedim, yat dedim,
Yastığa baş at dedim.
Bala nazın mən çəkim,
Boya-başa çat dedim.

Laylay mənim bəbəyim,
Həm arzum, həm diləyim.
Dar gündə, dar ayaqda,
Sənsən mənim köməyim.

Mən aşiq quzu qurban,
Qoç qurban, quzu qurban.
Hər səhər boyun görsəm,
Kəsərəm quzu qurban.

Laylayım, sözüm qurban,
Ağlasın gözüm qurban.
Böyü, boya-başa çat,
Boyuna özüm qurban.

Laylay dedim ucadan,
Səsim çıxmır bacadan.
Allah səni saxlasın,
Çiçəkdən, qızılcadan.

Laylay dedim yatasan,
Qızılgülə batasan.
Qızılgülün içində,
Şirin yuxu tapasan.

Laylay dedim yatasan,
Dərdi, qəmi atasan.
Qzılgül bağın olsun,
Gül-çiçəyə batasan.

Oğul sən yarağımsan,
Güzgüsən, darağımsan.
Hər gün lazım olmasan,
Dar gündə dayağımsan.

Bir səs gəlir ellərdən,
Şirin-şirin dillərdən.
Tanrı, balamı saxla,
Ağır aylar, illərdən.

Dağlarda lalam sənsən,
Alınmaz qalam sənsən.
Kimim, kimsənəm yox,
Bir şirin balam sənsən.

Məni oyaq qoyan sən,
Qızılgülə boyan sən.
Öpüm şəhla gözündən,
Yatdın bəsdir, oyan sən.

Balamsan sən, nəyim sən,
Arxamsan, köməyimsən.
Mən sənin əziz anan,
Sən mənim diləyimsən.

Xırdacasan, məzəsən,
Sən hər güldən təzəsən.
Qurban olum o günə,
Ayaq tutub gəzəsən.

Laylay dedim biləsən,
Düşməyəsən dilə sən.
Boya-buxuna çatıb,
Oynayasan, güləsən.

Balamı tanıram mən,
Hər sözün qanıram mən.
Yuxuda ah çəkəndə,
Od tutub yanıram mən.

Laylay dedim gündə mən,
Kölgədə sən, gündə mən.
İldə qurban bir olsa,
Sənə qurban gündə mən.

Bala, ömrün çox olsun,
Göylün gözün tox olsun.
Sənə laylay çağırım,
Düşmanların yox olsun.

Bağçamızda bar olsun,
Heyva olsun, nar olsun.
Sən ayaq aç, gəz dolan,
Düşmanların xar olsun.

Dağlar gül-çiçək olsun,
Yarpağı ləçək olsun.
Bir bala görsədin ki,
Balamdan göyçək olsun.

Qızılgül bağın olsun,
Bağlar oylağın olsun.
Tanrıdan arzum budu,
Sevimli çağın olsun.

Qurbanın quzi olsun,
Quzunun yuzi olsun.
Quzudan qurban olmaz,
Qoy anan özi olsun.

Bağçalar bağa dönsün,
Bağım yaylağa dönsün.
Bircə kəlmə din, danış,
Ürəyim dağa dönsün.

Balam oynur, yatmayın,
Sözünə söz qatmayın.
Laylay çalın balama,
Yatanı oyatmayın.

Balam yatır beşikdə,
Bülbül oxur eşikdə.
Sən yat, yuxun alginən,
Mən durmuşam keşikdə.

Evində, eşigində,
Yat, quzum, beşigində.
Bir mən, bir dan ulduzu,
Durmuşuq beşigində.

Anan tel düzər sənə,
Bacın gül düzər sənə.
Tanrıdan əhdim budu,
Dəgməsin nəzər sənə.

Laylay, a balam laylay,
Alınmaz qalam laylay.
Sənə kəc baxanları,
Yandırsın nalam, laylay.

Laylay, bülbülüm, laylay,
Sarı sünbülüm, laylay.
Bağçalarda gül çoxdu,
Bir qızılgülüm laylay.

A, laylay, quzum laylay,
Ayım, ulduzum laylay.
Sən hasilə çatınca,
Hər dərdə dözüm laylay.

A laylay, gülüm laylay,
Gülüm, bülbülüm laylay.
Böyü, sənin sayəndə,
Mən də bir gülüm, laylay.

Laylay, maralım laylay,
Gəlmir qaralım laylay.
Böyü, bir qoç igid ol,
Sənə yar alım laylay.

Nərgizi üzüm, laylay,
Yaxana düzüm laylay.
Səni övləndirəndə,
Toyunda süzüm, laylay.

A laylay, butam laylay,
Qardaşım, atam laylay.
Gözləyirəm yatasan,
Mən də bir yatam, laylay.

A laylay, nənə laylay,
Can deyim sənə laylay.
Sənə gələn dərd-bəla,
Qoy gəlsin mənə, laylay.

Bala dadi, bal dadi,
Bala adam aldadi.
Yaxşısına can qurban,
Pisi verər bal dadi.

Ay doğdi, yana döndü,
Ulduzlar sana döndü.
Bala dərdi çəkməkdən,
Ürəyim qana döndü.

Laylayın bir quş idi,
Hasara qonmuş idi.
Əl uzatdım tutmağa,
Mələklər tutmuş idi.

Oxşasın dilim səni,
Böyütsün elim səni.
Meydanda at oynadan,
Bir igid bilim səni.

Atıban tutdum səni,
Əcəb ovutdum səni.
Can qoydum, cəfa çəkdim,
Şükür, böyütdüm səni.

Atım, tutum balamı,
Şəkərə qatım balamı.
Atası evə gələndə,
Qabağa tutum balamı.

## NAZLAMALAR

Cürü cürülər yarpağı,
Astanalar torpağı.
Balamı sevməyənin
Gözünə bibər yarpağı.

Balama qurban inəklər,
Balam haçan iməklər!

Balama qurban tülkülər,
Balam haçan mürgülər?

Balama qurban yaylaqlar,
Balam haçan oynaqlar?

Bir bölük atlar, çəməndə otlar,
Göyçək arvadlar, bu balama qurban.

Dağın maralı, çölün ceyranı,
Dünyanın malı, bu balama qurban.

Balama qurban sərçələr,
Balam haçan dirçələr?

Balama qurban ilanlar,
Balam haçan dil anlar?

Balama qurban dayçalar,
Balam haçan əl çalar?

Balama qurban ozanlar,
Balam haçan söz anlar?

Ağrıdı başım, yoxdi sirdaşım,
Qohum-qardaşım bu balama qurban.
Çaydakı qazlar tükün tarazlar,
Cehizsiz qızlar bu balama qurban.

Çöldə meşəlik, gül bənövşəlik,
Mən həmişəlik bu balama qurban.

Səndən aralı, rəngim saralı,
Dağlar maralı bu balama qurban.

Bazarda atlar, boynu xamutlar,
Noğul nabatlar, bu balama qurban.

İlxıda atlar, çöldə göy otlar,
Ərsiz arvadlar bu balama qurban.

Dağda darılar, sünbül sarılar,
Qoca qarılar bu balama qurban.

Yaşıl söyüdlər, yekəbaş itlər,
Dağdaki qurdlar bu balama qurban.

Göydə ulduzlar, şaxtalı buzlar,
Nişanlı qızlar bu balama qurban.

Tüstüsüz damlar, sarı badamlar,
Tənbəl adamlar bu balama qurban.

Bazarda qazlar, tükünü tozlar,
Balama qurban küsəyən qızlar.

Çeşmələr, çaylar bir-birin haylar,
Balama qurban ulduzlar, aylar.

Badam badami, alim qadanı,
Balama qurban kəndin adamı.
Bağda xəzəllər yerdə süzəllər,
Balama qurban hami gözəllər.

Ağ əllər, ağ biləklər,
Bağçada qar kürəklər.
Atası evə gələndə,
Gah yerir, gah iməklər.

Çoban-çoban əlləri,
Ağrimasin qollari.
Ağrısa da ağrısın,
Özgələrin qollari.

## ARZULAMALAR

Belə balalardan, Allah,
Tök bacalardan, Allah.
Hər evə beş-beş versən,
Bizə ver on beş, Allah.

Allah bundan beş dana ver,
Göydə uçan quşlara ver.
Həsrətdə qalmışlara ver,
Evdə qarımışlara ver.

Atıb tutaram səni,
Şəkərə qataram səni.
Atan evə gələndə,
Qucuna ataram səni.

Dil aç, açsın sünbüllər,
Gülgilən, gülsün güllər.
Quşlar avaza gəlsin,
Durnalar yaza gəlsin.
O gün olsun, maralım,
Sənə gözəl yar alım.
Həna əlimə yaxım,
Qönçə telimə taxım.

Deyək, külək, gülüşək,
Yaradana şükr edək.
Gülüm nay, bülbülüm nay,
Qadani mən alim, nay.

Balam qönçə gülümdi,
Gülümdi, bülbülümdi.
Gülüm nay, bülbülüm nay,
Mənim şirindilim nay.

Qurban deyim, can deyim,
Canımı qurban deyim.
Gülüm nay, bülbülüm nay,
Başına mən dönüm, nay.
Gözəl, gözün qurbani,
Şirin sözün qurbani.
Nə şirin danışırsan?
Danış dilin qurbani.
Gülüm nay, bülbülüm nay,
Qurbanın mən olum nay.

## DÜZGÜLƏR

### HAVALAN, HA HAVALAN

Havalan, ha havalan,
Havalandıq uçmağa
Həqq qapısın açmağa.
Qanadımız üzüldi,
El yaylağa düzüldi.
El yaylaqdan gəlincə,
Buğdaları dərincə,
Qocabaşi kəsdilər.
Qıntırğadan qılınc yaği,
İçində qurd-quş yaği.
Qurd-quş yağı dərmandı,
Canım sənə qurbandı.
Yoldaşlar hami getdi,
Oyunlar burda bitdi.

### YAĞIŞ YAĞAR

Yağış yağar yağa-yağa,
Guşad düşər bizim bağa.
Gəlin gedək oynamağa,
Oynamağın vəqti dəgil,
Qızılgülün təxti dəgil.
Qızılgülü əkərlər,
Misqalinan çəkərlər,
Gəlmə bizim Dərbəndə,
Mənlə səni görərlər.

### TÜLKİ, TÜLKİ

Tülki, tülki, tünbəki,
Quyruq üstə lümbəki.
Ala aslan ağamız,
Qara qaplan qağamız.
Xoruz bizim mollamız,
Çaqqal bizim çavuşumuz,
Ala qarğa carçımız,
Sağsağan xəbərçimiz,
Toyuq bizim çərçimiz,
Durun gedax bazara,
Qorxan düşsün azara.
Tülki, tülki, tülki səni,
Öldürəllər bil ki məni.

## USTU BUDİ

Ustu budi ha, ustubudi,
O kişi mənim dostum idi.
Getdi bazara (Gilana),
gəlmədi,
Yaylığım aldi, vermədi.

Yaylığımın ucu qərə,
Yollandım İmamyarə.
İmamyarı öldürdülər,
Ağ şala geydirdilər.

Ağ şalın saçaqları,
Düm qara bucaqları.
Vurdum, sandıq açıldı,
İnci, mərcan saçıldı.

İnci, mərcan fil-fili,
Gəl, oxi bizim dili.
Bizim dil Urmi dili,
Urmudan gələn atlar,
Ağzında yüyən çatlar.

Heyvanın ağacları,
Baş gətirməz başları.
Vurdum başı üzüldi,
El yaylağa düzüldi,
Yarın canı üzüldi.

## ƏLİMİ BIÇAQ KƏSİBDİ

Əlimi bıçaq kəsibdi,
O yana qaçdım, tütün idi,
Bu yana qaçdım, tütün idi.
Sarı köynəyun bütün idi,
Sarı köynəyun saçağı,
Qırağında bıçağı,
Əlimi bıçaq kəsibdi,
Dəstə bıçaq kəsibdi.
Yağ gətirin yağlayaq,
Dəsmal gətirin bağlayaq.
Dəsmal dəvə boynunda,
Dəvə Şirvan yolunda,
Şirvan yolu sərbəsər,
İçində güllər əsər,
O güldən birin üzeydim,
Tellərimə düzeydim,
Qərdəşimin toyunda,
Oturub, durub süzeydim,
Şirvan yoli buz bağlar,
Dövrəsi yarpız bağlar.
Boyunbağı düzeydim,
Xan dayımın toyunda,
Dureydim, oyniyeydim.

## ÜŞÜDÜM, HA ÜŞÜDÜM

Üşüdüm, ha üşüdüm,
Dağdan alma daşıdım,
Almacığım aldılar,
Mənə zülüm saldılar.
Mən zülmdən bezaram,
Dərin quyu beş keçi,
Hanı bunun ərkəci?
Ərkəc qazanda qaynar,
Qənbər yanımda oynar.
Qənbər getdi oduna,
Qarğı batdı buduna.
Qarğı dəgil, qəmişdi,
Beş barmağım gümüşdi.
Gümüşi verdim tata,
Tat mənə darı verdi.
Qanadlandım uçmağa,
Həqq qapısın açmağa.
Həqq qapısı kiliddi.
Kilid dəvə boynunda,
Dəvə Gilan yolunda.
Gilan yolu sərbəsər,
İçində meymun gəzər,
Məni gördi, ağladi,
Tumanına qığladı.
Tumani dəlik-dəlik,
Qurbağa bölük-bölük,
Balaları haxladım,
Həsənxana saxladım,
Həsənxanın nəyi var?
Çaqqır-çuqqur çayı var,
Evində bir lüti var.

Üşüdüm ha, üşüdüm,
Dağdan alma daşıdım,
İlxı çıxdı yoluma,
Bir baxdım sağ-soluma,
Atlar gələr sürü ilə,
Boğuşar bir-birilə.
Kəhər, Qəmər, boz atlar,
Otların başı otlar.
Mindim Bozun boynuna,
Sürdüm Xalxal yoluna.
Quş kimi qanad açdım,
Dağlar, kədiklər aşdım.
Xalxal yolu daşlıca,
Usta qələm qaşlıca.
Usta məni oxitdi.
Qara saçımı toxitdi.
Qara saçımın şəvəsi,
Qızıldandı düyməsi.
Düşündüm mən iş nədi,
Atım burda kişnədi,
Atım niyə kişnədi?
Arpa-saman istisən?
Arpanı kimdən alım?
Xan qızı, xandan alım,
Xan qızı xalı toxur,
İçində bülbül oxur.

Mamani ha, mamani,
Balam kimi gül hani?
Gül hani, bülbül hani?
Balam gül tək açacaq,
Yurda ətir saçacaq,

Oxuyacaq, yazacaq,
Obasında, elində,
Anasının dilində
Şirin sözlər yazacaq,
Adlım* şair olacaq.

Mamani ha, mamani,
Balamı yaxşı tani.
Balam gecələr yatar,
Səhər tezdən oyani.
O mənə yoldaş olar,
Göylümə sirdaş olar.
Balam mənim qucaqda,
İşim, gücüm bucaqda,
Qazan qaynar ocaqda,
Gözüm qalıb ocaqda.

Mamani ha, mamani,
Tanrı saxla balami.
Balam söyür anami,
Anani, həm atani.
Xırdaca körpə ağlayar,
Ürəgimi dağlayar.

Allah, buna ver yoldaş,
Bir qumral telli qardaş.
Qardaşilə oynasın,
Mən də baxım öyünüm,
Lap ürəkdən söyünüm.

Qavalı çala-çala getdim
bağa,
Bağdakı qızlariynan
oynamağa.
Əl atdım böyük qızın
məməsinə,
Kiçik qız harayladı
nənəsinə.
Nənəsi çıxdı dama,
Bir daş vurdu qabırğama.
Qabırğamı tuta-tuta,
Getdim xana.
Xan dedi:
– Qaşı qərə, gözi qərə,
Nə düşmüsən bu çöllərə?
Verrəm səni
İgidlərə.
Bağlatdırram söyütlərə.
Yügütdürrəm ağ itlərə.
Bilcək mənim dərdim,
odum,
Əmr elədi:
Uzun-uzun uzatdılar,
Qabırğamı sazatdılar.
Xan dedi:
"Altına həsir salın,
Şeh keşməsin.
Üstünə çadır çəkin,
Gün düşməsin.
Atına arpa verin
Kişnəməsin.
İtinə sümük tökün
Hürməsin".

---
* adlım- məşhur

# ACITMALAR

## HƏSƏN AĞA

Həsən ağa,
Doldi yarağa,
Mindi ulağa,
Yollandı bağa,
Bir quş vurdi,
O da qurbağa.
Başını kəsdi,
Özi yemədi,
Verdi qonağa.
Qonaq yemədi,
Saldı yağa,
Özi təllədi*,
Düşdi yatağa.

## NƏYİMƏ GƏRƏK?

Bizə üç ad bəllidi,
Şəkərlidi, ballıdı.
Fatmə, Tükəzban,
Zübeydə bir can.

Fatmə, Tükəzban,
Qarışdı hər yan.
Kişnədi göylər,
Dağıldı yerlər.
Fatmə, Zübeydə,
İkisi bir boyda.
Fatmə savaşdi,
Zübeydə qaşdi.
Divardan aşdi,
Başmağa düşdi,
Zığa bulaşdi,
Təndirə düşdi.
Fatmə təndirdə,
Ayağı kəndirdə
Fatmə biçində,
Qan-tər içində,
Cırığdı doni.
Neyniyir oni.
Tükəzban yatır,
Qız demə qatır,
Ayağı kəndirdə,
Nəfəsi kəndirdə.
Ömri axırdi,
Yeri naxırdi.

---

- təllədi- çox yedi

## SINIQ QOL HA, SINIQ QOL

Sınıq qol ha, sınıq qol,
Suya gedər sınıq qol,
Sudan gələr sınıq qol.
Evdə çox iş olanda,
Sallanıb qalar sınıq qol.
İp atmağa gedəndə,
Su çəkmağa gedəndə,
Ot dərmağa gedəndə,
Sallanıb qalar sınıq qol.
Yağlı çörək görəndə,
Düm-düz durar sınıq qol.

## MƏN DƏ SƏNLƏ

Gəl, gedax bağa
Mən də sənlə.
Çıxaq budağa
Mən də sənlə.
Şaftalı dərək
Mən də sənlə.
Cibi doldurax
Mən də sənlə.
Bağban gələndə
Mən də sənlə.
Qaçıb gizlənək
Mən də sənlə.
O bizi görsə
Mən də sənlə.
Tutmaq istəsə
Mən də sənlə.
İti küşgürtsə
Mən də sənlə.
Divardan aşaq
Mən də sənlə.
Qaçaq qurtulaq
Mən də sənlə.

## KEÇƏL

Keçəl, keçəl, bamiyə,
Getdi həkimxaniyə.
Həkimxana bağlıdı,
Keçəlin başı yağlıdı.

Keçəl, keçəl, daz keçəl,
Tayı tapılmaz keçəl.
Qış çıxıb qurtarıbdı,
Budu gəlir yaz, keçəl.

Keçəl, aşın bişibdi,
Noxudları şişibdi.
On iki keçəl bir yerdə,
Xarta-xarta düşübdi.

Keçəl deyər: "Vay başım,
Qazanda qaynar aşım.
Aşımı içən öleydi,
Başıma siçan oleydi".

Keçəl, keçəl, mərəndi,
Yaxası düymələndi.
Eşitdi saçlı gəlir,
Başına gül ələndi.

Keçəlin xundi başi,
Eşşəyə mindi başi.
O yanda dava düşdi,
Bu yanda sındı başi.

## SANAMALAR

İynə, iynəcə,
Uci düyməcə,
Bal ballıca,
Ballı keçi,
Şam ağacı,
Şatır keçi.

Qoz ağacı,
Qotur keçi.
Happan, huppan,
Yarıl, yırtıl,
Su iç, qurtul.

## BARMAQLAR

Bura bir xrmən idi,
İçi doli dərman idi.
Bura bircə quş qondi,
Bu vurdi, bu tutdi,
Bu bişirdi, bu düşdi.

Bu deyər: "Gəlin, gedək oğurluğa",
Bu deyər: "Hani nərdivan?"
Bu deyər: "Məndən uca nərdivan?"
Bu deyər: "Axı Allah var, peyğəmbər var".
Sən də ki kül qalasan, böyümiyəsən.

## YANILTMACLAR (ÇAŞDIRMALAR)

Bizim küçənin döngəsi, qoşqa inəyin cöngəsi, quqqulu qu, bir dana bisti* tapmışam.

Boz atın boz torbasın boş as başından, apar islat, gətir yaş as başından.

Bu ev mənim babamın imiş.

Gəl gedək qonum-qonşuyla bayramlaşaq, qonum-qonşu bayramlaşsa da bayramlaşaq, bayramlaşmasa da bayramlaşaq.

Girdim təndirə, sildim, süpürdüm, silkindim çıxdım.

Gəl gedək bu çəltiki toxmaqlayaq, toxmaqlasan da mən toxmaqlayacağam, toxmaqlamasan da toxmaqlayacağam.

Kəsilməlini kəsmək istəsən də kəsməlisən, kəsmək istəməsən də kəsməlisən.

Qırx gün, qırxının da qulpu qırıq gün.

Qalayçi Qasım qara qazanı qalaylaya-qalaylaya qovzayır, qoyur.

Qatığı sarmisaqlasan da yemək olar, sarmisaqlamasan da.

Ocağı sən alovlandırma, alovlandırsan da alovlanacaq, alovlandırmasan da alovlanacaq.

Şəhərə girdi on beş boz eşşək, beşinin yüki bez-buz eşşək, beşinin yükü duz-buz eşşək, beşinin yüki qoz-buz eşşək.

Tək-tək dükcə, cüt-cüt dükcə, üç cüt dükcə.

Yüyürüb yüyürəni yürüdə-yürüdə yükümü yerinə yetirdim.

---

*bisti – xırda qara pul

# QARAVƏLLİLƏR

## XORUZLA PADŞAH

Günlərin bir günündə xoruz küllükdə eşinə-eşinə bir bisti tapdı. O sevincək hər tərəfə səs saldı:

– Quqqulu qu, bir dana bisti tapmışam, quqqulu qu, bir dana bisti tapmışam.

Xoruzun vəktsiz banlaması şahı acıqlandırdı. O, qulamlarına dedi:

– Gedin, o həramzadənin bistisini alın, səsini batırın.

Qulamlar gedib bistini aldılar, lakin xoruzun səsi nə ki batmadı, bəlkə bir daha ucaldı:

– Quqqulu qu, padşah məndən yoxsul imiş.

Şah öz işindən peşman olub dedi:

– Aparın onun bistisini verin özünə, bəlkə səsin kəsə.

Lakin xoruzun səsi genə hər tərəfə yayıldı:

– Quqqulu qu, padşah məndən qorxarmış.

Bu söz şahı yerindən oynatdı. O dedi:

– Gedin o həramzadəni tutun gətirin, başını kəsin.

Xoruzu tutub gətirdilər, aşpaz piçağı onun boğazına qoyanda genə səsləndi:

– Quqqulu qu, nə iti piçaq imiş.

Şah dedi:

– Onu bu gün naharda dügü üstə qoyun, hüzura gətirin.

Xoruzun tüklərini ütüb basdılar qazana. Qaynar qazanın içindən xoruzun genə səsi gəldi:

– Quqqulu qu, nə isti hamam imiş.

Nahar çağı onu pilov üstə qoyub gətirdilər. Xoruz genə banladı:

– Quqqulu qu, nə ucaca dağ imiş, qar kimi ağappaq imiş.

Şah qolların çirmayıb xoruzu yeməgə başladı. Xoruz şahın boğazından keçəndə genə səsləndi:

– Quqqulu qu, nə darca küçə imiş. (sonradan səs dərindən eşidildi: “Nə poxlu pəyə imiş”).

O qədər çəkmədi şahın qarnı quruldamağa başladı. Şah çəkildi xəlvətə, iş döndü qiyamətə.

## QARI İLƏ BİZOVİ

Biri var imiş, biri yoxuymyş, günlərin bir günündə bir qarı nənənin ceyran baxışlı, maral duruşli, quyruği saçaq, alnı qaşqa bir bizovi var imiş. Amma heyif ki, pəyədə onun yeri darmış. Qarı nənə genə günlərin bir günündə şaxtalı bir qış günündə bizovini suvarmağa apardı. Bizov buzun üstün çıxar-çıxmaz ayağı sürüşdi, yerə yıxıldı. Qarı nənə çox çalışdı, çox əlləşdi, bizovi bir təhər yerdən qovzadı. Amma doğrusu yoruldi, hirsli-hirsli üzün buza tutub dedi:

– Ay buz, sən nə yamansan!

Buz dedi: "Mən yaman olseydim, gün məni əritməzdi".

Qarı nənə üzüni Günə tutub dedi:

– Ay Gün, sən nə yamansan!

Gün dedi: "Mən yaman olseydim, bulud qabağımı kəsməzdi".

Qarı nənə üzüni buluda tutub dedi:

– Ay bulud, sən nə yamansan!

Bulud dedi: "Mən yaman olseydim, yel məni dağıtmazdı".

Qarı nənə üzüni yelə tutub dedi:

– Yel sən nə yamansan!

Yel dedi: "Mən yaman olseydim, yağış məni yatırtmazdı".

Qarı nənə üzüni yağışa tutub dedi:

– Ay yağış, sən nə yamansan!

Yağış dedi: "Yaman olseydim, göy məndən bitməzdi".

Qarı nənə üzüni qoyuna tutub dedi:

– Ay qoyun, sən nə yamansan.

Qoyun dedi: "Yaman olseydim, qurd məni yeməzdi".

Qarı nənə üzüni qurda tutub dedi:

– Ay qurd, sən nə yamansan.

Qurd dedi: "Mən yaman olseydim köpək məni boğmazdı".

# XI. XALQ MAHNILARI

## APARDI SELLƏR SARANI!

Arpa çayı aşdı, daşdı
Sel Saranı aldı qaçdı.
Ala gözlü, qələm qaşdı
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!
Apardı sellər Saranı!
Bir şirin dilli balanı!

Arpa çayı dərin olmaz,
Axar sular sərin olmaz,
Sara kimi gəlin olmaz,
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!

Arpa çayı düşüb ada,
Yaradan yetişsin dada,
Sarı başmaq üzür suda,
Apardı sellər Saranı!
Bir şirin dilli balanı!

Sel Saraya oldu yağı,
Su bürüdü solu, sağı,
Yasa batdı toy otağı,
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!
Mən bu bağa girməmişəm,
Qonçə gülün dərməmişəm,
Mən Saranı görməmişəm,
Apardı sellər Saranı!
Bir şirin dilli balanı!

Olduq əcəb günü qara,
Dərdimizə yoxdu çara,
Sara həsrət qaldı yara,
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!

Gedin deyin Xançobana,
Gəlməsin bu il Muğana,
Muğan batıb nahaq qana,
Apardı sellər Saranı!
Bir şirin dilli balanı!

Arabalar qoşa-qoşa,
Qurban olum qələm-qaşa,
Oğlan, əlin çıxdı boşa,
Apardı sellər Saranı!
Bir ala gözlü balanı!

## GEDİRƏM GÜLÜSTANA

Gedirəm gülüstana gül alam, atam,
Gül alam, atam!
Alagöz sevgilimi axtaram, tapam,

Axtaram, tapam!
Sevgilimi tapmışam, ürəkdən şadam,
Ürəkdən şadam!
Əksin məndədi, vermiyacağam,
Səndən xoşgilin neyliyacağam!

Dəsmalun doludu narın qənd ilən,
Narın qənd ilən!
Sən yeri naz ilən, mən Dərbənd ilən,
Mən Dərbənd ilən!

Məni çağıranda, çağır qənd ilən,
Çağır qənd ilən!

Sevgilim əlində qara çətiri,
Dara tellərivi, səpim ətiri,
Səpim ətiri!
Məhəbbət gözdə olar, çəkər gətiri,
Çəkər gətiri!
Əlində dəsmal, ucunda güli,
Sevgi bir olar, nə ki bir süri.

## AHU KİMİ GÖZLƏRUN

Ahu kimi gözlərun,
Şirin-şirin sözlərun,
Sən mənimsən, mən sənun,
Qucaqlama dizlərun.
Canım, gözüm, hər sözüm,
Sənsiz mən necə dözüm.

Sənsən mənim öz gülüm,
Çəməndəki bülbülüm,
Mən səndən əl üzmərəm,
Sənsən mənim sevgilim.

Ay qız, dur gəl yanıma,
Qadan balan canıma,
Mən səndən əl üzmərəm,
And olsun imanıma.

## PƏNCƏRƏDƏN DAŞ GƏLİR

Pəncərədən daş gəlir,
Xumar gözdən yaş gəlir.
Səni mənə versələr,
Allaha da xoş gəlir.

Evləri su başında,
Gözüm qaldı qaşında,
Sevdim bir yosma ceyran,
On dörd, on beş yaşında.

Evlərində süsəni,
Barışdırın küsəni,
Göz açdım səni gördüm,
İstəməm özgəsini.

Su saldım bağa neylim,
Dəgməz yar bağa neylim,
Yarım ceyran balası,
Gəlməz oylağa neylim.

## KÜÇƏLƏRƏ SU SƏPMİŞƏM

Küçələrə su səpmişəm,
Yar gələndə toz olmasın.
Elə gəlsin, elə getsin,
Aramızda söz olmasın.

Samavara od salmışam,
İstəkana qənd salmışam,
Yarım gedib tək qalmışam,
Nə şirindir yarın canı.

Piyalələr irəfdədi,
Hər biri bir tərəfdədi,
Görməmişəm bir həftədi,
Nə əzizdir yarın canı.

Samavarı alışdırın,
Maşa salın qarışdırın,
Yarım məndən küsüb gedib,
Onu mənlə barışdırın.

## GƏLMİŞƏM OTAĞUVA

Gəlmişəm otağuva oyadam səni, qaragilə, oyadam səni!
Nə gözəl xəlq eyləmiş yaradan səni, qaragilə, yaradan səni.
Götürərəm qaçaram, aradan səni, qaragilə, aradan səni.

Yaralıyam, dəgmə, dəgmə, dəgmə, dəgmə!
Gül budağın əgmə, əgmə, əgmə, əgmə!

Qapımızın qabağı su gələn arxdı, qaragilə, su gələn arxdı,
Durum çıxım qapıya, yar gələn vəxdi, qaragilə, yar gələn vəxdi.

Yarımı görməmişəm ovqatım təlxdi, qaragilə, ovqatım təlxdi.

**Nəqərat**
Ayağımı əzibdi küçələr daşı, qaragilə, küçələr daşı,
Yanağımı yandırıb gözümün yaşı, qaragilə, gözümün yaşı.
Sənə qurban olum, yarın yoldaşı, qaragilə, yarın yoldaşı.

**Nəqərat**
Təbrizin küçələri dolanbadolan, qaragilə, dolanbadolan,
Sən ki məni sevmirsən, get ayrı dolan, qaragilə, get ayrı dolan.
Nə sənə qız əskikdi, nə mənə oğlan, qaragilə, nə mənə oğlan.

**Nəqərat**
Dərbənd aralı, göylüm yaralı, sevdigim yardan, qaragilə, düşdüm aralı,
Qızılgül əsdi, səbrimi kəsdi, gəl insaf eylə, qaragilə, ağlama bəsdi.

## YERİ DAM ÜSTƏ YERİ

Yeri dam üstə yeri,
Ay qızıl cam üstə yeri,
Ayaqlarun incisə,
Ay çıx, sinəm üstə yeri.

Getdim, gördüm yar otaqda,
Qoşa-qoşa xal yanaqda,
Öpüş yeri var buxaqda,
Al yanaqda, al dodaqda, gül yanaqda.

Yeri, yeri naz oğlan
Ay bazarda bezar oğlan.
Al qələmi əlinə,
Mən deyəni yaz oğlan.

Zərxardan arxalıq,
Ay əşrəfidən yaxalıq,
Bir öpüş ver cüt xaldan
Dadına yetişsin xalıq.

**Nəqərat**
Ayağında çəkməsi,
Ay qızıldandı düyməsi,
Nazlı ceyrana bənzər
Yarın özün öyməsi.

## YERİ HA, YERİ HA

Yeri ha, yeri ha, küsmüşəm səndən,
Ayrılıq şərbətin içmişəm səndən, ay dilbər!

Sən bir sərv ağacı, mən bir göyərçin,
Əgər qonmuşudum, uçmuşam səndən, ay dilbər!

Gedirsən, gəlirsən, xəbərim olsun,
Gülüş piyalələr mey ilə dolsun, ay dilbər!

Əgər yar sındırır, ver mənim olsun,
İndi anlamışam özgə yarın var, ay dilbər!

Yeri ha, yeri ha, gilanarun var,
Məni öldürməyə ixtiyarın var, ay dilbər!

## SƏNİ YANASAN, AY QIZ!

Bulaq başı toz olar, dəstə-dəstə qız olar,
Əyil dəsmalın götür, mən götürsəm söz olar.

Səni yanasan ay qız!
Yandım, yanasan ay qız!

Xiyabanın arası, gilənarın dənəsi,
Orda bir yar sevmişəm, şux tərlanın balası.

**Nəqərat**
Söyüd bağı bizimdi, hər tərəfi üzümdü,
Bu sözlərinə gərək bir oğlan bir qızındı.

**Nəqərat**
Açıq qoy pəncərəni, gözüm görsün gələni,
Necə qəbrə qoyallar yar dərdindən öləni.

## DƏRYADA DƏRYALIQLAR

Dəryada dəryalıqlar, suda oynar balıqlar,
Qolların sal boynuma, deyirlər ayrılıq var.
Ölürəm, ölürəm yar, yazığam yar, qəribəm, ay aman.

Dəryada quşüzümü, oğlan eşit sözümü,
Eşitməsən sözümü, öldürrəm öz-özümü,
Ölürəm, ölürəm yar, yazığam yar, qəribəm, ay aman.

Gül üstə bülbül qonar, bülbülsüz güllər solar,
Sevgi adı gələndə, ürəyim qanla dolar,
Ölürəm, ölürəm yar, yazığam yar, qəribəm, ay aman.

## QARAGİLƏ

Uca dağlar başında narınc qaşlaram, qaragilə, narınc qaşlaram,
Yarımın ayağına corab başlaram, qaragilə, corab başlaram,
Yarım getsə səfərə, mən naxoşlaram, qaragilə, mən naxoşlaram,
Əlində qarman, ver yeni fərman,
Allah eləsin, qaragilə, dərdivə dərman!
Qaradı, qaşların, arasında bax, qaragilə, arasında bax!
Bivəfa sevgilimin vəfasına bax,
Aç ürəyim başını, yarasına bax, qaragilə, yarasına bax!
Qızılgül xəndan, verin qəlamdan,
Ölüm yaxşıdır, qaragilə, aşiq olmaqdan,
Evimizin qabağı su gələn arxdı, qaragilə, su gələn arxdı,
Durum, çıxım qapıya, yar gələn vəxdi, qaragilə, yar gələn vəxdi!
Yarım gəlib çıxmayıb, ovqatım təlxdi, qaragilə, ovqatım təlxdi!
Ay gözəl oğlan, getmə, bir dayan,
Sevirəm səni, qaragilə, eşqimə inan!

## İRƏVANDA XAL QALMADI

İrəvanda xal qalmadı,
O xal, nə xaldı ora döydürmüsən?
De görüm, nə xaldı ora döydürmüsən?

Məndə daha can qalmadı,
O xal, nə xaldı qoşa döydürmüsən?
De görüm, nə xaldı qoşa döydürmüsən?

Xal mənim, ixtiyar mənim
Xəlqə nə vardı, bura döydürmüşəm!
Yarım deyibdi, qoşa döydürmüşəm!

İrəvanda mən işlərəm,
O xal, nə xaldı, ora döydürmüsən?
De görüm, nə xaldı, üzə döydürmüsən?

Xəncərimi gümüşlərəm,
O xal, nə xaldı, üzə döydürmüsən?
De görüm, nə xaldı, qoşa döydürmüsən?

Xal mənim, ixtiyar mənim,
Xəlqə nə vardı, bura döydürmüşəm!
Yarım deyibdi, qoşa döydürmüşəm!

İrəvandan xal istərəm,
O xal nə xaldı, ora döydürmüsən?
De görüm nə xaldı, ora döydürmüsən?

Mən səni özüm istərəm,
O xal nə xaldı, ora döydürmüsən?
De görüm nə xaldı, ora döydürmüsən?

Xal mənim, ixtiyar mənim,
Xəlqə nə vardı, bura döydürmüşəm!
Yarım deyibdi, qoşa döydürmüşəm!

## MƏNİM İPƏK YAYLIĞIM VAR

Mənim ipək yaylığım var, görməyə gəlin,
Aşiqlərə mən sataram, almağa gəlin.

Mənim qaşlı belbağım var, görməyə gəlin,
İncə bellərə sataram, almağa gəlin.

Mənim büllur qədəhim var, görməyə gəlin,
Gəlinlərə mən sataram, almağa gəlin.

Mənim səndə darağım var, görməyə gəlin,
Uzun saçları sataram, almağa gəlin.

Mənim əlvan örpəyim var, görməyə gəlin,
Gözəl qızlara sataram, almağa gəlin.

## AXŞAM OLCAQ

Axşam olcaq çıraqları yandırram,
Ay nadan balam, ay nadan!
Qaş-göz ilən sözümü sənə qandırram,
Ay nadan balam, ay nadan!
Özgə yar tutaram, səni yandırram,
Ölürəm a ceyran, a ceyran balam.
Axşam olcaq su səpərəm güllərə,
Ay nadan balam, ay nadan!
Qəza işi saldı məni çöllərə,
Ay nadan balam, ay nadan!
Mənim salamımı yetir ellərə,

Ölürəm a ceyran, a ceyran balam!
Yarı yola saldım, göylüm bulandı,
Ay nadan balam, ay nadan!
Evə gəldim, ev başıma dolandı,
Ay nadan balam, ay nadan!
Anası, bacısı göylümü aldı,
Ölürəm a ceyran, a ceyran balam!
Yazığam, a ceyran, a ceyran balam!
Balam, ay balam!

## AMAN NƏNƏ

Asta yeri kəmər düşər belindən,
Aman nənə, zalım nənə, yar nənə!
Ayrı düşdüm gülümdən, bülbülümdən,
Aman nənə, zalım nənə, yar nənə!

O qədər sevirəm, düşməz dilimdən,
Aman yar ay, zalım yar ay,
Gözəl yar ay, gül yarım!
Aman nənə, zalım nənə, yar nənə!
Yar nənə hey, yar nənə hey, yar nənə!

Bir yaylığım vardı gülü özündən,
Aman nənə, zalım nənə, yar nənə!
Düşür boynuma özü-özündən,
Aman nənə, zalım nənə, yar nənə!
Mən də dedim, küsdün mənim özümdən,

**Nəqərat**
Yarıma demişəm mənə saz alsın,
Aman nənə, zalım nənə, yar nənə!
Onu çalım dərdi-qəmim azalsın,
Aman nənə, zalım nənə, yar nənə!
Məgər mən ölmüşəm yarım qız alsın?

**Nəqərat**
Bəs sən demişdin sənə yar ollam!
Aman nənə, zalım nənə, yar nənə!
Qəmli günümdə sənə qəmxar ollam!
Aman nənə, zalım nənə, yar nənə!
Dur gəl yanıma, sənə qurban ollam!

## QALANIN DİBİNDƏ

Qalanın dibində bir daş olaydım,
Gələnə, gedənə yoldaş olaydım,
Bacısı göyçəyə qardaş olaydım,
Atma daş, tökmə yaş, mən yaralıyam,
Şəkinin, Şirvanın, Xoy maralıyam.

Qalanın dibində əkərlər darı,
Əkərlər, biçərlər yarıbayarı,
Yar mənə göndərmiş heyvaynan narı,
Atma daş, tökmə yaş, mən yaralıyam,
Şəkinin, Şirvanın, Xoy maralıyam.

## BU GƏLƏN YAR OLAYDI!

Bu gələn yar olaydı,
Qoynunda nar olaydı,
İkimiz bir köynəkdə,
Yaxası dar olaydı.

Bu gələn yar olaydı,
Gözü ceyran gözüdü,
Bir keçdi tanımadım,
Bir baxdım, yar özüdü.

Bu gələn yara bənzər,
Boyu çinara bənzər,
Nə gözəl nazənindi,
Sevgilim yara bənzər.

## BU DƏRƏ UZUN DƏRƏ

Bu dərə uzun dərə, getdikcə uzun dərə,
Burda bir bağ saldırram, yar gələ, üzüm dərə.

Bu dərənin uzunu, çoban qaytar quzunu,
Çoxdandı görməmişəm şux yarımın üzünü.

Durma qapı dalında, gözüm qaldı yolunda,
Gedim anama deyim, gəlim qalım yanında.

Su gəlir lülə-lülə, yar gəlir gülə-gülə,
Əlində ipək dəsmal, tərini silə-silə.

## EVLƏRİNİN DALI YONCA

Evlərinin dalı yonca,
Yonca qalxıb yar boyunca,
Boyu uzun, beli incə.

Üç telli, dörd telli, beş telli durna,
Sən haralısan, haralı durna!

Sən getmisən dağlar saralı durna!
Ovçu əlindən yaralı durna!
Yaralı, yaralı, yaralı durna!

Evlərinin dalı təpə,
Yağış gəlir səpə-səpə,
Oyadıram öpə-öpə.

**Nəqərat**
Evlərinin dalı qaya,
Qayadan baxarlar aya,
Mənim dərdim gəlməz saya!

**Nəqərat**
Evlərinin dalı hasar,
Gün gələr kölgəni basar,
Oxuram, yar qulaq asar!

**Nəqərat**
Corabının üstü buta,
Mənim ahım səni tuta,
Məni saldın yaman oda.

## SAMAVAR ALMIŞAM

Samavar almışam, silənim yoxdu,
Bir dərdə düşmüşəm, bilənim yoxdu,
Göz yola tikmişəm, gələnim yoxdu,
Ay Allah, bu ceyran niyə gəlməz oldu,
Aşdı bu uca dağları, görünməz oldu.
Samavar almışam, silə bilmirəm,
Bir dərdə düşmüşəm, deyə bilmirəm,
Bu acı dərmanı yeyə bilmirəm.

**Nəqərat**
Samavar almışam, rəngi sarıdı,
Soruşun bu ceyran kimin yarıdı,
Məni yara qovuşduran tarıdı.

**Nəqərat**
Samavar almışam dörd yanı yarpız,
Soruşun bu ceyran kimin yarıdı,
Məni yara qovuşduran tarıdı.

**Nəqərat**
Samavar almışam dörd yanı yarpız,
Sənə qurban olum xırdaca baldız,
Qardaşın gedəli qalmışam yalqız.

## GİRDİM YARIN BAĞÇASINA

Girdim yarın bağçasına çiçəklər açmış,
Yarım mənim ürəyimə yaralar saçmış.

Gəl, gəl, gözəl yarım, sevirəm səni,
Əgər qismətim olarsan, alaram səni.

Girdim eşqin dəryasına gəmim olmadı,
Gənc yaşımda bir qız sevdim, mənim olmadı.

**Nəqərat**
Yar yolunda dağlar keçdim, sulardan içdim,
Min bir gözəl gördüm, ay qız, tək səni seçdim.

**Nəqərat**
Girdim yarım bağçasına, heyvalıq, narlıq,
Məni yardan eyləyəni görməsin sağlıq.

## NƏ BAXIRSAN YANI-YANI

Nə baxırsan yanı-yanı,
Olum gözlərin qurbanı,
Əvvəlki məhəbbət hanı?

Səni yanasan, ay qız!
Odlanasan, ay qız!
Bircə danasan, ay qız!

Belə yanı baxmaq olmaz,
Ləbin kimi qaymaq olmaz,
Ay qız səndən doymaq olmaz.

## YERİŞİ BUDU BUNUN

Əlində saza yanım,
Etdigin naza yanım,
Baş qoyum dizin üstü,
Qış yatım, yaz oyanım.

**Nəqərat**
Yerişi budu bunun,
Boyu qumrudu bunun,
Yaşılbaş sonalar tək,
Məskəni sudu bunun.

Əlində ipək yaylıq,
Həqq versin sənə sağlıq,
Gəl, rəqibi qan ağlat,
Qalsın sənə üz ağlıq.

**Nəqərat**
Əlində vardı kaman,
Könlümə saldı güman,
Bu qaş-göz ki, səndədi,
Nə dil qoyar, nə iman!

## QAŞUN ARASINDA XALUN

Qaşun arasında xalun,
Nə gözəldi gül camalun,
Bilmirəm nədi xəyalun,
Kafir qızı yandım axı,
Al qana boyadım axı!
Alagözlüm, al bu canım,
Ayrılığa yox tavanım,
Sənə qurban olsun canım.

**Nəqərat**
Yarım gəlir uzaqdan,
Mənə göz eylir iraqdan,
Əlində gül budaqdan.

## BAŞUVA DOLANIM

Başuva dolanım, harda qalmısan?
İntizar gözümü yolda qoymusan.
Belə məlum olur məndən doymusan.
Getdi yar, getdi yar, aldatdı məni,
Yarımın qüssəsi saraltdı məni.

Mən sənə neyləmişəm, ceyran balası,
Ürəyimə vurmusan hicran yarası,
O yarı mən sevirəm, yoxdi çarası.

**Nəqərat**
Boynuma salmısan zülfündən zəncir,
Mən sənun əsirinəm, gəl, məni dindir,
Şirin-şirin danışıb məni sevindir.

## YAR BİZƏ QONAQ GƏLƏCƏK

Şamamalar irəfdədi,
Hər biri bir tərəfdədi,
Görməmişəm bir həftədi,
Yar bizə qonaq gələcək,
Bilmirəm nə vaxt gələcək.

Samavara od salmışam,
İstəkana qənd salmışam,
Yarım gedib tək qalmışam.

**Nəqərat**
Şamamalar xallı-xallı,

Yar geyinib allı-allı,
Boyu bəstə, üzü xallı.

## GÜL OĞLAN

Qızılgül oyum-oyum,
Dərim qoynuma qoyum,
Yağış yağar, yer doymaz.
Mən səndən necə doyum.
Özü bir gül, sözü bir gül,
Saçı sünbül, gül oğlan!

A boz papaq, tirmə çuxa,
Çit arxalıq, gül oğlan,
Atını yan çək, hamıdan göyçək gül oğlan!
Top qara bircək, gül oğlan!

**Nəqərat**
Bu dağdan aşmaq olmaz,
Narıncı başmaq olmaz,
Bir cüt öpüşdən ötrü,
Yarla savaşmaq olmaz!

## QAŞLARIN KAMANDI

Qaşların kamandı, göydi gözlərun,
Hər baldan, şəkərdən şirin sözlərin,
Sən mənim qəlbimsən, nazlı dilbərsən,
Eşqimdən, dərdimdən, sən bixəbərsən.

Ah çəkdim, ağladım, görmədim vəfa,
Yandırdın qəlbimi çox çəkdim cəfa,
Sənun tək dilbərin eşqin ataram,
Axtarıb vəfalı sevgi taparam.

Hər gülün cilvəsi bir bahar olar,
Yetişər xəzanı, gülüstan olar,
Fəxr etmə, nazənin gül cəmaluva.
Soldurar ruzigar, qalmaz haluva.

## UCA DAĞ BAŞINDA

Uca dağ başında ceyran yol eylər, ceyran yol eylər,
Su duran yerləri ördək göy eylər, ördək göy eylər,

Yar gülə-gülə, naz gülə-gülə,
Aşiq olmuşam bir şirin dilə.

Uca dağ başında bir süri ceyran, bir süri ceyran,
O xumar gözlərə olmuşam heyran, olmuşam heyran.

Uca dağ başında bir sələ üzüm, bir sələ üzüm,
Yarın ayrılığına mən necə dözüm, mən necə dözüm?

**Nəqərat**
Uca dağ başında nar dənəsiyəm, nar dənəsiyəm,
Atamın, anamın bir dənəsiyəm, bir dənəsiyəm.

## AY GÖZƏL, GÖZƏL!

**Oğlan:**

Ay gözəl, gözəl, gəl gedax bağa,
Qoy bircə baxım, o gül yanağa!

**Qız:**

Yanaqlarımı neylirsən, oğlan,
Dağlarda çiçək görməmisənmi?

**Oğlan:**

Ay qız sevmişəm, gül cəmaluvi,
Gəl, insaf eylə, göstər xaluvi.

**Qız:**

Oğlan neylirsən, mənim xalımı,
Məgər, heç mixək görməmisənmi?

**Oğlan:**

O bal dodağın dərdimə dərman,
Onları mənə göstər bir, canan!

**Qız:**

Oğlan, neylirsən dodaqlarımı,
Məgər beçə balı görməmisənmi?

**Oğlan:**

Sən bizim eldə bir nazlı dilbər,
Səbrim qalmadı, qaşuvi göstər!

**Qız:**

Oğlan, neylirsən mənim qaşımı,
Gecələr hilal görməmisənmi?

## YAR ÜZÜ XALLI CEYRAN

Ağ dəvə düzdə qaldı, yükü Təbrizdə qaldı,
Oğlanı dərd apardı, dərmanı qızda qaldı.

Yar üzü xallı ceyran, dodağı ballı ceyran,
Verməərəm öz xalımı, gəlsə yüz əlli ceyran.

Bulaq başı toz olar, dəstə-dəstə qız olar,
Əyil dəsmalın götü, mən götürsəm, söz olar.

Bülbül kimə naz eylər, hayanda pərvaz eylər?
Gül butası dibindən oğlan qıza göz eylər.

## O YANA DÖNDƏR MƏNİ

O yana döndər məni, bu yana döndər məni,
Sağ yanım yaralıdı, sol yana döndər məni,
Ürəyimdə yara var, təbibə göndər məni.

Bu gələn yar özüdü, gözü ceyran gözüdü,
Bir keçdi tanımadım, bir baxdım, yar özüdü.

Evlərində qalı var, dodağında balı var,
Mən yarımı tanıram, yanağında xalı var.

Bu dağlar uca dağlar, bülbüllər yuva bağlar,
Gözlərində cadu var, baxdıqca dilim bağlar.

## ÇIXDIM DƏRBƏND BAŞINA

Çıxdım Dərbənd başına, yazı yazdım daşına,
Gəlib-gedən oxusun, nələr gəldi başıma.

Dərbənd başı toz olar, dəstə-dəstə qız olar,
Əyil dəsmalın götü, mən götürsəm söz olar.

Dərbənd başı tütündi, yarın ağzı bütündü,
Əyil öpüm üzündən, dünya ölüm-itimdi.

## SÜRMƏLİ QIZ

Sudan gələn sürməli qız,
Çox incidir kuzə səni.
Şux cəmalun şölə salır,
Gəlməyəsən gözə səni.

Kuzəsi çiyindən aşır,
Saçlar topuğa dolaşır,
Nə geysən, sənə yaraşır,
Ay qız, gəl, aman günüdü,
Sevgimin yaman günüdü.

Kuzəni əlindən allam,
Qolumu boynuva sallam,
Ay qız səni özüm allam,
Di dur gəl, aman günüdü,
Sevgimin yaman günüdü.

Kuzəvə ipək düzərəm,
Eşqunlə çöllər gəzərəm,
Sənsiz mən necə dözərəm,
Ay qız, gəl, aman günüdü,
Sevgimin yaman günüdü.

Kuzə suyu şərbət olar,
Bulaq üstə söhbət olar,
Mənsiz sənə zəhmət olar,
Ay qız, gəl, aman günüdü,
Sevgimin yaman günüdü.

Evlərinin dalısın köçdüx,
Ayıldux, suyundan içdux,
Biz bu yerə qərib düşdüx,
Ay qız, gəl, aman günüdü,
Sevgimin yaman günüdü.

## SU GƏLƏR AXAR GEDƏR

Su gələr, axar, gedər, vərni* yıxar gedər,
Neynirəm eylə yarı, yandırar, yaxar gedər.
Bala yarım, neynim, neynim, gözəl yarım, neynim, neynim,
Aç qolların sal boynuma, ay dəliqanlı!
Aman şəkərli, ballı, aman qeymaq dodaqlı!
Suya denən axmasın, yar yolunu yıxmasın,
O gözlərə tapşır ki, özgəsinə baxmasın.

---
*vərni – suyun qabağına qoyulan maneə

**Nəqərat**
Yelə denən əsməsin, yar yolunu kəsməsin,
Yara salam göndərdim, heç vaxt məndən küsməsin.

## QARA GÖZLƏR

Məndən ayrı gəzən yardan,
Yanıq bağrım üzən yardan,
Kəklik kimi süzən yardan,
Könül gəlmiş zara gözlər,
Qara gözlər, qara gözlər,
Qara gözlər, qara gözlər.

Adım dildən-dilə düşdü,
Sona vurdum, gölə düşdü,
Məcnun olub çölə düşdü,
Könül olmuş yara gözlər.

Dağlardan yel əsər gedər,
Söz qılıncdı kəsər gedər,
Söz deməmiş küsər gedər,
Neyləmişəm yara gözlər.

## ARAZ AXAR LİL İLƏ

Araz axar lil ilə, yarım oynar gül ilə,
Hamıya can bağışlar, məni saxlar dil ilə.

Araz, Araz, xan Araz, dəryaya axan Araz,
Sevgilim gəmidədi, gəl eyləmə qan Araz.

Arazı ayırdılar, qumunan doyurdular,
Mən səndən ayrılmazdım, zulumnan ayırdılar.

Arazın eşqinə bax, urusun məşqinə bax,
Dərd əlindən oxuram, deyirlər eşqinə bax.

# XII. EL DEYİMLƏRİ

Abrısını ötəginə bürmək.
Abrısını satın almaq.
Abrını yeyib həyanı belinə bağlamaq.
Abnabnatlıqdan düşüb, azvaya dönmək.
Acığındın zəncir gəmirmək.
Acığını udmaq.
Acından qurut qapmaq.
Açaram sandığı, tökərəm pambığı.
Açmamış qapı qoymamaq.
Açıq qıfıla açar.
Adam olub adamlara qoşulmaq.
Adam içi görməmək.
Adı it dəftərində olmamaq.
Adı dildən-dilə düşmək.
Adı qulağına demək.
Adın eşit üzün görmə.
Adını özgəsindən soruşmaq.
Adı var, özü yox.
Al almamış töylə basdırmaq.
Altından çıxmaq.
Altından girib üstündən çıxmaq.
Ağrımaz başına saqqız salmaq.
Ağzı işdə olmaq.
Ağzı qulağının dibinə getmək.
Ağzı var, dili yox.
Ağzına it başı almaq.
Ağzına çullu dovşan yerləşməmək.
Ağzına gələni demək.
Ağzına yoğurd almaq.
Ağzını açıb gözünü yummaq.
Ağzını Allah yoluna açmaq.
Ağzının dadı getmək.

Ağzının suyu açılmaq.
Axırı bir yana çıxmamaq.
Axırına adam əti yeyir.
Arada yeyib ortada gəzmək.
Ara qarışıb məssəb itdi.
Aranda tutdan olduq, dağda qurutdan.
Aralarından qıl keçməz.
Araya it ölüsü atmaq.
Araya fitə atmaq.
Araya söz qatmaq.
Arpası artıq düşmək.
Arxasını yerə gətirmək.
Arvad hamamına dönmək.
Arı yuvasına çöp uzatmaq.
At arıq, mənzil uzaq.
At izi at izinə qarışmaq.
Atdan düşüb eşşəgə minmək.
Atdığını vurmaq, tutduğunu qoparmaq.
At qaçdı, palan düşdü.
At görəndə axsar, su görəndə susar.
Atı itirib, noxtasını axtarır.
Atını hər tərəfə çapmaq.
Ayaq basmağa yer olmamaq.
Ayaqları özünün olmamaq.
Ayağının biri bu dünyada, biri o dünyada olmaq.
Ayağına qara su yenmək.
Ayağının altına sabun çəkmək.
Azacıq aşım, ağrımaz başım.
Babalarının yanına getmək.
Babalı deyənlərin boynuna.
Bacadan düşmə.
Bağrı çatlamaq.
Bağrı qana dönmək.
Bağrını qana döndərmək.

Baha oturmaq.
Baltası daşa dəymək.
Baltanı dibdən vurmaq.
Bal yeyib bəlasını çəkmək.
Başına and içmək.
Başına it oyunu gətirmək.
Başına iş açmaq.
Başına çıxarmaq.
Başa daş salmaq.
Başına girməmək.
Başında turp əkmək.
Başından, canından keçmək.
Başından yekə danışmaq.
Başının üstünü kəsmək.
Başını bir yerə yığmaq.
Başını qaşımağa macalı olmamaq.
Başını qanadının altına almaq.
Başını sındırıb, ətəginə qoz tökmək.
Başını küt bıçağa sürtmək.
Başını götürüb getmək.
Başmaqları da razı olmaq.
Başmaqlarını qabağına cütləmək.
Bataqlıqdan çəkib çıxartmaq.
Batırmamış ocaq başı qoymamaq.
Belinə çöpdən dirək.
Beş barmağı kimi tanımaq.
Beynini aparmaq.
Beynini doldurmaq.
Bərkdə əli olmamaq.
Bəli deyib bəlaya düşmək.
Bir ayağı bu dünyada, bir ayağı o dünyada.
Bir budağa çıxıb min bir budağı silkələmək.
Bir-birinin əlindən qapmaq.
Bir atımlıq barıtı olmaq.

Bir ayağı burda, bir ayağı gorda.
Bir oxunan iki nişan vurmaq.
Bir daş altdan, bir daş üstdən.
Bir şahiya dünbik çalmaq.
Bir köynək çox yırtmaq.
Bir göyüldən min göyülə aşiq olmaq.
Birinin toyuğuna kiş deməmək.
Birini bilirsən, birini bilmirsən.
Bığdan kəsib saqqala qoymaq.
Bığının altından keçmək.
Boğazından artırmaq (kəsmək).
Boğazını yırtmaq.
Boyun əti olmaq.
Boynuna almaq.
Boynuna qoymaq.
Boynuna yıxmaq, boynundan atmaq.
Burun-qulağına qurd düşmək.
Burun tovu vermək.
Bu qulağından alıb o biri qulağından ötürmək.
Bu gün-sabah eləmək.
Burnunu hər deşiyə soxmaq.
Burnunun ucundan uzağı görməmək.
Burnunun yelilə xərmən sovurmaq.
Bu xına o xınadan deyil.
Burnundan gətirmək.
Büküb boxçaya qoymaq.
Canamaz suya çəkmək.
Can bir qəlib olmaq.
Can-ciyər olmaq.
Candı, badımcan degil.
Can deyib can eşitmək.
Can damarından tutmaq.
Canımın dərdindən.
Canımı hara qoyum?

Canını boğazına yığmaq.
Canını dişinə tutmaq.
Canının hayında olmaq.
Canyananlıq göstərmək.
Ceyran belinə minmək.
Cılğı çıxartmaq.
Cındırından cin hürkür.
Cınqırı çıxmamaq.
Cızığından çıxmaq.
Ciblərini doldurmaq.
Cibişdana buraxmaq.
Cibinin pambıqları əlinə gəlmək.
Cidanı çuvalda gizlətmək.
Cik-bikinə bələd olmaq.
Cilov gəmirmək.
Cilovunu yığışdırmaq (çəkmək).
Cin atına minmək.
Cinə dəmir görsətmək.
Ciyərinə xal düşmək.
Ciyərini şişə taxmaq.
Cin ayrı, şeytan ayrı.
Cum-cum dəryası.
Cücə banından durmaq.
Cütünə bir səqqə vurmaq.
Çadrasızlıqdan evdə qalmaq.
Çağrılmamış bayatı.
Çaxır səpmək.
Çaş-baş düşmək.
Çaşqa-çoşqa olmaq.
Çala-çala bir havaya bənzətmək.
Çal-çatlasın, vur partlasın.
Çanağı başında çatlatmaq.
Çaya çatmamış çırmanmaq.
Çayda balıq yan gedər, açma yaram qan gedər.

Çayda balıq sövdası.
Çənə yarışdırmaq.
Çənəsi qızışmaq.
Çim altdan qurbağa baxır.
Çinədanı boş olmaq.
Çiy süd əmmiş.
Çomağın o biri başın çevirmək.
Çöp uzatmaq.
Çörəyini çeynəyib ağzına qoymaq.
Çörəyi qeybdən bişmək.
Çörəyində çiyi olmamaq.
Çöl quşu, biyaban daşı.
Çömbəlməyənəcən hürə bilməmək.
Çürüyünü çıxartmaq.
Dada yetmək.
Dadı heç yana çatmamaq.
Dağa-daşa düşmək.
Dağı- dağ üstünə qoymaq.
Dalı-qabağını düşünməmək.
Dalını dağa söykəmək.
Dar dibindən qurtulmuş.
Daş atıb başını altına tutmaq.
Daş olub quyuya düşmək.
Daşbaş eləmək.
Daş daş üstə qalmamaq.
Daşın böyüyündən yapışmaq.
Daş kimi düşmək.
Daşla dilə gəldi.
Daşını birdəfəlik atmaq.
Dava dağarcığı.
Dərə xəlvət, tülkü bəy.
Dəryada balıq sövdası eləmək.
Dərisini sudan çıxarmaq.
Dəvə oynayanda qar yağar.

Dəvəni çömçəylə suvarmaq.
Dəvəni yükü ilə yemək.
Dəyməmiş qapı qoymamaq.
Dırnaq yeri tapmaq.
Dibinə daş atmaq.
Diri-diri qəbrə qoymaq.
Diş ilə, dırnaq ilə.
Dişi bağırsağını kəsmək.
Dilinin dibindən çıxanı demək.
Dil qoymaq (öyrətmək).
Dili ağzında diş (dinc) durmamaq.
Dili ilə ilanı yuvasından çıxarmaq.
Dilində tük bitmək.
Dilini qarnına qoymaq.
Dilinin ucunda olmaq.
Divara dirəmək (qısnamaq).
Divarını kənardan qoymaq.
Dodaqları yer süpürmək.
Dondan dona girmək.
Doşab almışıq mürabba çıxıb.
Dovşana qaç, tazıya tut demək.
Dördəlli tutmaq.
Dörddə alacağı yox, beşdə verəcağı.
Dörd divar arasında qalmaq.
Dövrəsinə qələm çəkmək.
Döşünə düşmək (yatmaq).
Düdüllü vermək.
Dünya başına dar olmaq.
Dünyadan əl çəkmək.
Dünyanı ikiəlli tutmaq.
Dünyanı başına götürmək.
Erkək eşşək altından qoduq axtarmaq.
Əcəl mayallaq olmaq.
Əcəli cəhrə əyirmək.

Əl aparıb gətirmək.
Əl altından çıxmaq.
Əl-ayağa dolaşmaq.
Əl-ayağı suslaşmaq.
Əl-ayağını yığışdırmaq.
Əl ilə verib ayaq ilə axtarmaq.
Əlbəyaxa olmaq.
Əldən-dişdən düşmək.
Əldə-başda gəzdirmək.
Ələ baxmaq.
Ələ sərimək (dolamaq).
Əlləri dalında gəzmək.
Əlli-ayaqlı itmək (yoxa çıxarmaq).
Əli ayağından uzun.
Əli boşa çıxmaq.
Əli dinc durmamaq.
Əli hər şeydən üzülmək.
Əli işdə, gözü oynaşda.
Ələyib kəpəginə qatmaq.
Əli qulağında, qulağı əlində olmaq.
Əlinin içinnən gəlir.
Əlindən tutmaq.
Əlindən zara gəlmək.
Əlini ağdan-qaraya vurmamaq.
Əl-üzünü bir mama yuyub, bir də mürdəşir yuyacaq.
Əlini döşünə vurmaq.
Əlini gözünün üstünə qoymaq.
Əlini kola-kosa atmaq.
Əlinin dalı-qabağını tanımamaq.
Əlinin dalını yerə vurmaq.
Ənginin altına salmaq.
Ərməni kəndi, hamam burğusu.
Əriyib yerə girmək.
Ətəgini əlinə vermək.

Ətəgindən tutmaq.
Ətəgini belinə vurmaq.
Əti dırnaqdan ayırmaq.
Əti sənin, sümükləri mənim.
Əzib suyunu çıxarmaq.
Gah nala, gah mıxa vurmaq.
Gec gəlib, tez örgənmək.
Gəl, bu daşları ətəgindən tök.
Gəmidə oturub gəmiçi gözü çıxarmaq.
Gəmiləri qərq olmaq.
Gizlənpac oynamaq.
Göbələk kimi yerdən çıxmaq.
Götür-qoy eləmək.
Göylünü ələ almaq.
Göylü-gözü tox (adam).
Göydə qapmaq.
Göyə çıxarmaq.
Göz açıb özünü görmək.
Göz üstə yerin var.
Göz bəbəyi kimi qorumaq.
Gözdə-qulaqda olmaq.
Göz gəzdirmək.
Göz verib işıq verməmək.
Gözü yolda, qulağı səsdə olmaq.
Gözdən tük qapmaq.
Gözləri batmaq (çuxura getmək).
Gözləri dolmaq.
Gözləri qan çanağına dönmək.
Gözləri kəlləsinə çıxmaq.
Gözlərinə inanmamaq.
Gözü bağlayıcı oyununa oxşamaq.
Gözü ayağının altını görməmək.
Gözü dörd olmaq.
Gözü yol çəkmək.

Gözünü yumub ağzını açmaq.
Gözünün qorasını sıxmaq.
Göz gəlib yerə dayansa da.
Güdaza vermək.
Gününü göy əskiyə tutmaq.
Günü-günə satmaq.
Günahı deyənlərin boynuna.
Gün ilə batıb gün ilə çıxmaq.
Gün verməmək, gününü qara eləmək.
Gününü dabbağxanada tanımaq.
Hadaran-padaran danışmaq.
Havadan vurmaq.
Havası özündə olmamaq.
Havayı danışmaq.
Heç tatın dəftərində adı olmamaq.
Heç kim heç kimin ərizəsini oxumur.
Heç kimin burnu da qanamadı.
Hələ görməli günlərim var.
Hələ yoğunu yorğan altındadı.
Həm özündən, həm də özgəsindən eləmək.
Həm nala vurur, həm də mıxa.
Hər ağızdan bir avaz (səs) gəlmək.
Hər itə bir çörək borclu olmaq.
Hər sözü bir söz etmək.
Hər sözə burnunu uzatmaq.
Hər necə çalsalar elə də oynamaq.
Himi bir yerə qoymaq.
Huşunu başına yığmaq.
Huydu-huyduya götürmək.
Hürkütməyincə saymaq.
İki ayağını bir başmağa soxmaq.
İki əlli yapışmaq.
İki yol ayrımında olmaq.
İlan ağzından qurtulmaq.

İlan yeyib əjdaha olmaq.
İlanı Seyid Əhməd əlilə tutmaq.
İlanın quyruğunu ayaxlamaq.
İnanan daşa dönsün.
İpə-örkənə gəlməmək.
İşi başından aşmaq.
İşi bəndə düşmək.
İşin içində olmaq.
İşinin üstündə olmaq.
İşıqlığa çıxmaq.
İsti aşına soyuq su qatmaq.
İsti-soyuğa düşmək.
İşdə barmağı olmaq.
İşi Allaha qalmaq.
İt ilində.
İt də getdi, ip də getdi.
İtdi-batdıya salmaq.
İt ilxısı, köpək sürüsü.
İt kökündə yaşamaq.
İt yerinə qoymamaq.
İt yesə gözləri ağarar.
İtimin qurd dayısı.
İtin quduran yeri.
İyi burnundan getməmək.
İynə yemiş itə dönmək.
İynəsi tikiş tutmaq.
İynə salmağa yer yoxdu.
İynə ilə gor qazmaq.
Kasıblığın daşını atmaq.
Kafi kuf anlamaq.
Keçən xərmənləri sovurmaq.
Kefi doxsan doqquzu vurmaq.
Kefi huşdurumu vurmaq.
Kefi saz olmaq (durulmaq).

Kefinə soğan doğramaq.
Kəbinim halal, canım azad.
Kəbininə yazılmaq.
Kələfçənin başını itirmək.
Kisəsinin dibinə daş atmaq.
Kirpiyi ilə yollar daramaq.
Kirpiyi ilə od götürmək.
Kökündən vurmaq (baltalamaq).
Kölgəsindən qorxmaq (hürkmək).
Köhnə bazara taza nırx qoymaq.
Köhnə kolluqları eşələmək.
Körpü altda dəlik tapmaq.
Kürkünü sudan çıxartmaq.
Kürkünə birə düşmək.
Kürkünü tərsə geyib, alnına ayna taxmaq.
Küləkli gündə pambıq atmaq.
Qabağına daş dığırlatmaq.
Qabağında şir kimi durmaq.
Qabağdan gələni qapır, daldan gələnə təpik atır.
Qabağından yeməmək.
Qabağına aş qoydum, iki əlini boş qoydum.
Qabağına daş dığırlatmaq.
Qabağında tir-tir əsmək.
Qabağında dörd qat olmaq.
Qapaz altında qalmaq (canı çıxmaq).
Qapısı açıq olmaq.
Qapısı bağlanmaq (çırpılmaq).
Qapını dabanlıqdan eləmək (çıxartmaq).
Qapı-qapı gəzmək.
Qapıdan qovursan bacadan gəlir.
Qapısını it açar, pişik örtər.
Qapını qoyub pəncərədən gəlmək.
Qapı dalına düşmək.
Qapısı açıq.

Qapını dabanlıqdan çıxartmaq.
Qara sudan qaymaq tutmaq.
Qarışqa yuvasına su calamaq.
Qaravaş əlinə ciyər düşüb.
Qarnının ağrısını bilməmək.
Qarışqa yuvası kimi qaynaşmaq.
Qat-qat əl tökmək.
Maddə bağlamaq.
Malı öz boğazından aşağı getməmək.
Maqqabı bura darı üstə qoymaq.
Matı meyxanası.
Maya baş çıxmaq.
Mazamata mindirmək.
Meydan oxumaq.
Meydan gəzdirmək.
Meydana qoymaq.
Meydanda tək (yalqız) qalmaq.
Meydanı boş görmək.
Məğlətə salmaq.
Məkkədən gözü palçıqlı gəlib.
Məmmədxan qalibi olmaq.
Məmə yeyəndən, pəpə yeyənə qədər.
Mərdi qova-qova namərd eləmək.
Mərəkə qoparmaq.
Məşrutəsini alıb.
Məyə mən ovcumun içini iyləmişdim?
Məyə mənim zərbxanam var?
Mırsığını sallamaq.
Mızıqqılı keçmək.
Mitili açılmaq.
Mitili küçəyə atmaq.
Mirta salmaq.
Milçəkdən fil düzəltmək.
Minillik xərmənləri sovurmaq.

Min bir fırıldaqdan çıxmaq.
Min cırına bir cır cırmaq.
Min dərənin suyunu bir-birinə qatmaq.
Min güzəyə qulp qoymaq.
Mindigini saymamaq.
Müştəri gözü ilə baxmaq.
Ölüb-ölüb ölümlərdən qurtarmaq.
Ölüb dirilmək.
Ölümü gözü ilə görmək.
Ölümlə gizlənpaç oynamaq.
Öpüb gözünün üstünə qoymaq.
Öz adını özgədən soruşmaq.
Öz adını özgəsinə qoymaq.
Öz bildigini dədəsinə də verməmək.
Öz canının hayına qalmaq.
Öz xoşuna qoymaq.
Öz qulaqlarına inanmamaq.
Özü ilə qəbrə aparmaq.
Özü deyib özü eşitmək.
Özündən çıxmaq.
Özündən dəm vurmaq.
Özündən düzəltmək.
Özünü ortaya atmaq.
Özünü o yerə qoymamaq.
Özünə iş açmaq.
Öz payına qalmaq.
Paçalarını çırmalamaq.
Pambıqla baş kəsmək.
Papağını qabağına qoyub fikirləşmək.
Papağını göyə atmaq.
Papağını yanaki qoymaq.
Pasını açmaq.
Pay verib dərdindən ölmək.
Pələsək vurmaq.

Pətəsi suya düşmək.
Pıçaq bəndə (sümüyə) dayanmaq.
Pıçı-pıçı, Araza itin qıçı.
Pis-pis qabaxdan gəlməlikdədir.
Pis yollara çəkib aparmaq.
Pişik öldürüb göz qorxutmaq.
Pişmiş toyuğun gülməyi gəlir.
Pişik nərdivanı buraya gətirdi.
Pişigim-pişigim ilə saxlamaq
Piyini canına çəkmək.
Pul kimi qızarmaq.
Pulu xoruz səsi eşitməmək.
Saatına düşmək.
Saç-saqqalından utanmaq.
Saç-saqqalı bir-birinə qarışmaq.
Saç-saqqalı dəyirmanda ağartmaq.
Saçı uzun, ağlı güdə.
Salam verdik, borclu çıxdıq.
Saman altından su yeritmək.
Sağına-soluna baxmaq.
Saqqalım yoxdu, sözüm keçmir.
Saqqalını uşaq-muşaq əlinə vermək.
Saqqızını oğurlamaq.
Sarımsağı döyülü qalmaq.
Sayır-bayır danışmaq.
Sevincindən şıltaq işlərə əl atmaq.
Səsinin yoğun yerinə salmaq.
Sən deyən olsun, qoy yatsın.
Səninkini yeyək, mənimkini oynadaq.
Səsi yeddi evli qonşuya getmək.
Sıxıb suyunu çıxarmaq.
Sillə ilə üz qızartmaq.
Siçan olmamış dağarcıq dibi dəlmək.
Siçan dəligindən (deşigindən) satın almaq.

Sinə dəftər olmaq.
Soyuq təndirdə çörək yapmaq.
Soyub, soyub quyruğunda murdar etmək.
Soyuq təndirdə isti çörək.
Söz aparıb gətirmək.
Söz arasına söz qatmaq.
Söz altında qalmamaq.
Söz başına keçmək.
Söz burada qalsın.
Söz güləşdirmək.
Sözü ağzında bişirib çıxartmaq.
Sözünün üstünü açmaq.
Sözün var, söz danış.
Sözün çürüyünü çıxartmaq.
Sözünü ağzında qoymaq.
Sözünü şəkərlə kəsirəm.
Sözünü yerə salmaq.
Sözünün üstündə durmaq.
Sözünün üstünə çıxmaq.
Sözə quyruq bənd eləmək (bağlamaq).
Sözləri tərsə gəlmək.
Suruşquluya dəm vermək.
Su içim saatda.
Su ilə od arasında qalmaq.
Su başdan bulanıqdır.
Su sudan tərpənməmək.
Susuz aparıb, susuz gətirmək.
Sular baş yuxarı axır.
Su görəndə susar, at görəndə axsar.
Sungə çıxmaq.
Suyu bahasına.
Suyun lal axanı, adamın yerə baxanı.
Suyu üfüləyə-üfüləyə içmək.
Suyu sovrulmuş dəyirmana oxşamaq.

Suyu süzülə-süzülə getmək (qayıtmaq).
Suyu kuzədə, günü bacada görmək.
Suyun şırıltısına qulaq vermək (asmaq).
Süd gölündə üzmək.
Südü köpüklənmək.
Sümük sındırmaq.
Sümükləri çıxmaq.
Sümükləri sürmə olmaq.
Sümüyünə işləmək.
Süpürgə çəkmək.
Sürt-pürt eləmək.
Şadlığına şitlik etmək.
Şaftalı gəlməmiş, tabağı gəlib.
Şal sallamaq.
Şaha burxana gedir.
Şah gəldisindən keçdi.
Şatırı işdən çıxmaq.
Şeir deyib qafiyəsində qalmaq.
Şeytan atına minmək.
Şeytan ilə darı əkmək.
Şeytana dərs vermək.
Şeytan fəhləsi olmaq.
Şeytana papış tikmək.
Şələsini bağlamaq.
Şələ-şüləsini dalına vermək.
Şətəl atmaq.
Şərti şumda kəsmək.
Şirə vermək.
Şişə çəkmək.
Şorba qızdırmaq.
Şorbanın suyunu çoxaltmaq.
Şuşki salmaq.
Taxta-para üstündə oturmaq.
Tamah dişini çəkmək.

Tanrısına təpik atmaq.
Tamah dişini çəkmək.
Tapmaca demək.
Tazadan dünyaya gəlmək.
Təkədən pendir tutmaq.
Tərəzi dibi yerə vurmaq.
Tikan üstündə oturmaq.
Ting-tufa tutmaq.
Toqqanın altını bərgitmək.
Tovbaltma vermək.
Toyuq bir qıçlıdı ki, bir qıçlıdı.
Tutmacası tutmaq.
Tutduğunu buraxmamaq.
Tuf deyirsən yerə düşür.
Tuluğu çox su tutmaq.
Tülkü tozanağı salmaq.
Tük salmaq.
Tükü tükdən seçmək.
Tükü yatımına (xabinə) sığallamaq.
Tüpürdügünü yalamamaq.
Tütəginin dilini çəkmək.
Uc-uca düyünləmək.
Ucu-bucağı görünməyən.
Ucun alıb ucuzluğa getmək.
Ulduzları barışmamaq.
Ulduzu batmaq.
Ulduz-ulduzu çağırır.
Usta tərpənmək.
Uşaqlığı yadına düşmək.
Uzaqdan-uzağa baxmaq.
Uzun sözün qısası.
Yaxa qurtarmaq.
Yaxası ələ keçmək.
Yaxasını ələ vermək.

Yağ-bal içində üzmək.
Yağışdan qurtulub yağmura düşmək.
Yalvar-yaxar etmək.
Yaman günə (kökə, hala) düşmək.
Yan-yörəsini qapmaq.
Yanı ilə yağa (quymağa) düşmək.
Yarasını tazalamaq.
Yarpaq kimi əsmək.
Yaşından yuxarı danışmaq.
Yerin əgridi, «düz otur» deməmək.
Yerini xoş görmək.
Yer yerinə oldu, su suyuna.
Yeddi dəgirmanın suyunu bir-birinə qatmaq.
Yol gözləmək.
Yol üstündə olmaq.
Yola nərdivan qoymaq.
Yoldan çıxartmaq (eləmək).
Yoluna salmaq (qoymaq).
Yuxuya qalmaq.
Yumurta yükü aparmaq.
Yumurtası tərsə düşmək.
Yumşaq yerin beldarı.
Yuyulmamış qaşıq kimi özünü araya atmaq.
Yüz altuna dünbək çalmaq.

# XIII. YEKANAT VƏ HƏMƏDAN FOLKLORU

## Yekanat mahalında Novruz bayramı

Kəhrizyekəndə Novruz bayramına "Əmir bayramı" da deyirlər. Bildiyimizə görə Həzrəti-Əli Əleyhəssəlam Novruz bayramında xilafətdə oturmuşdur. Beləliklə, bu bayrama məzhəbi rəng verərək bu rəsmləri mütəəssib adamların etirazlarından qorumuşlar.

"Novruz" kəlməsi müxtəlif anlamlarda yozulub. O cümlədən Novruz kişilərə qoyulan adlardandır. Habelə Novruz gül adıdır. Yazın ilk günlərində qar əriməyə başladıqda, hələ başqa otlar, güllər göyərməmişdən təpələrdə, dağlarda ərimiş qar arasından özünü eşiyə atmış, bir ağ saqəli, göy rəngli, tək güllü, balaca və zərif bir gülün adına da Novruzgülü deyirlər.

## Axır çərşənbə

İlin axır çərşənbəsi müxtəlif mərasimlərlə tutulur. Çərşənbədən qabaqkı axşam od yandırıb, üstündən atlanarlar. Odun üstündən atılanda bu sözləri deyərlər: "Ağırlığım, uğurluğum düşsün bu od üstünə". Bu gecə "yeddiləvin" hazırlanar. "Yeddi ləvin" yeddi növ quru yemişdən olur. O cümlədən, iydə, kişmiş, cövüz (qoz), badam, basdıq, tut qurusu və sairləri demək olar.

Bu gecə evlərdə küftə bişirilər, sayı ailənin sayına görə olar və bir dənə də "qayib payı" adı ilə artıq salınar ki, qonaq yetişsə, onun da payı olsun.

Arvadlar və qızlar niyyət edib qonşu qapılardan qulaq asarlar, ya bir neçə nəfər danışan adamların yanından keçərək, eşitdikləri sözləri öz yanlarında təbir edərlər. Ona görə hər evdə yaxşı sözlər danışmağa çalışarlar ki, əgər qulaq asan olmuş olsa, xeyrə yoza bilsin. Ata-ana uşaqlara, danışıqlarına məvazib olmaq üçün təkid edərlər. Özləri də o gecə uşaqları danlamaqdan və qarğış etməkdən çəkinərlər, xüsusilə ölüm barəsində söhbət etməzlər.

Bu gecənin rəsmlərindən biri şal, ya bərək sallamaqdır. Cavan oğlanlar qonum-qonşu damına gedərək, şal, ya bərəklərini (bel şa-

lını) bacadan içəriyə sallayarlar. Ev sahibi onun ucuna bayramlıq olaraq bir zad bağlayar, nişanlı oğlanlar qaynatanın damına gedib, şal sallayarlar. Sabah hamı səhər tezdən yuxudan durar. Oğlan uşaqları evdən çıxıb, üç dəfə su arxından atılarlar. Bəziləri qəbiristanlığa gedib, orada olan daş qoçun qarnının altından keçərlər.

Arvadlar isə o başdan özlərini kəhrizə yetirərlər və səhənglərini doldurub qayıdarlar. Bu su gərək gün çıxmamışdan evə yetişmiş ola. Su qabı evə yetişincə yerə qoyulmamalıdır. Bu suya çərşənbə suyu deyirlər. O gün çay gərək bu su ilə qoyulsun. Deyərlər çərşənbə suyu üçün hər kimin muradı olsa, ona yetişər.

Bayramdan qabaq evləri tökər, təmizlər və çırparlar. Ev çırpmaq bu mənadadır ki, qəbiristanlığın şimalında "Əliyar güneyinin" ətəyində olan, məxsus ağ (müxtəsər sarıya çalan) bir torpaqdan gətirib, yekə teştlərdə suya töküb, süpürgəni ona batırıb divarlara çırparlar. Beləliklə, divarları ağardarlar.

**Ürfə.** İlin axır gününə ürfə deyirlər. Hər evdə bu gündə halva bişirilib novalaya (lavaş arasına) büküb dəstərxana bağlayıb, qəbiristanlığa apararlar.

Hər tayfa öz qəbiristanlığında bir başdan başlayaraq, hər kəsin ən yaxın və əziz adamının qəbrinə yetişdikdə qəlbirlərini qəbrin üstünə qoyub, fatihə verərlər. Fatihə verildikdən sonra dəstərxan açılar, qəlbirlərdəki halva orada olanların arasında paylanar. Bu iş axıracan davam edər. Beləliklə, bir növ halva ilə dolu gedən qəlbirlər cürbəcür halvalarla dolu evə qayıdar.

**İlin təhvil olması.** İlin təhvil olması zamanı qabaqcadan təqvimlərə yazılmış olar. Lakin o zaman yaxınlaşdıqda, bir məryəm qurdunu bir mis tasın içinə salıb ətrafında oturub, ona göz tikərlər. Məryəm qurdu dalısı üstə aşanda deyərlər il təhvil oldu. Bir-birləri ilə görüşüb-öpüşüb bayramı təbrik edərlər. Uşaqlara bayramlıq verərlər. Uşaqlara alınan təzə paltarları bayramın qabaqkı axşamı onların ixtiyarlarında qoyarlar. Ciblərinə, ovuclarına yemiş, şirni tökərlər. Uşaqlar təzə paltarlarını başları üstə qoyub sabahın həvəsi ilə şirin yuxuya dalarlar.

**Hüzür yerləri.** Bayramın ilk günü hüzür yerlərinə gedərlər. Hüzür yeri keçən ildə bir adamı ölmüş evə deyirlər. Son illərdə hüzür yerlərinə getmək rəsmini də ürfə gününə salıblar ki, daha bayram günü qəm-qüssə və ölüm söhbəti arada olmasın. Bayram günü hamı təzə paltar geyib, görüş üçün bir-birlərinin evinə gedərlər. Uşaqlara hər yerdə pul, rəngli yumurta kimi bayramlıqlar verərlər.

Tayfa əhalisi bir yerə yığışıb, birlikdə tayfa evlərinə gedib, bayramı təbrik edərlər. Hər evdə, şirni, quru yemişlər, plov, halva, qızılgül mürəbbəsi və sairə yeməklər qaba qoyular. Ev sahibi gələnlər üçün, alma, boyalı yumurtadan-zaddan verər və bu bayramlıqlar arada paylanar. Əlbəttə, payın çoxunu uşaqlara verərlər.

İl təhvil olanda hamı çalışır ki, öz evində ailəsinin yanında olsun. Bayramın ilk dörd günü o ilin dörd fəslinin nümunəsi kimi nəzərdə tutular, onların üzü ilə gələn fəsillər barəsində qəzavət olunar. Bayram günləri "sizdəh" gününə qədər böyüklü-uşaqlı küçələrdə (arvadlar həyətlərdə) cürbəcür oyunlar oynarlar. Böyüklər badam ilə "təkmə cüt" (tək, ya cüt) oynarlar. Bu oynanılan badamların sayı çox olduğuna görə ovucda gətirmək əvəzində yerdə bir miqdar ayırıb əl altda saxlayaraq, hərifdən tək, ya cüt dediyini soruşar, sonra bir dəfə badamları cüt-cüt sayıb udub – uduzanı təyin edərlər. Badam sayı əl-əl sayılar, hər əl də beş dənədir, məsələn, 42 dənə badam olsa, bu hesabla səkkiz əl ilə bir cüt olar.

Kişilər küçələrdə pullu aşıq qumarı oynayar, yumurta döyüşdürərlər. Arvadlar da "löpik mıncıq" (beşdaş) oyunu kimi oyunlarla məşğul olarlar.

**Sizdəh günü (13-cü gün).** Sizdəh günü Yekanatda başqa yerlər kimin tutulmaz, təkcə oğlan uşaqları, yeniyetmələr iştirak edər, neçə nəfər birlikdə naharlarını götürüb çölə, yaxın dağlara gedərlər. Böyüklər demək olar ki, bu işə qarışmaz, kənddən eşiyə çıxmazlar. Bəzən qızlar, arvadlar fürsətdən istifadə edərək, çölə pencərə gedib, eyni halda şənlik edərlər. Üst-üstə demək olar ki, sizdəh /13/ mərasimi Yekanatda məxsusən, fars tərəfləri kimi tutulmaz.

Sizdəh günü, demək olar ki, bayram günlərinin qurtarmağı deməkdir. Bu gündən sonra səfərə gedən çoxalar. Kəhrizlərin suyuna qıra (qərə) atılar və əkinçilərə su verilər. Mədrəsələr

açılar, iş günləri rəsmən başlayar. Deməli sizdəh günü qış rahatlıqlarının, bayram günlərinin sonu, ciddi çalışmaların, fəaliyyətlərin başlanğıcının bəşarətçisidir.

## BAYRAM OYUNLARINDAN ÖRNƏKLƏR

### Yumurta döyüşdürmə (çaqqışdırma)

Kəhrizyekənddə Novruz bayramı günlərində müxtəlif oyunlar oynanılır. Bu oyunların biri yumurta döyüşdürmək oyunudu ki, bişmiş yumurta ilə iki adam arasında iki (ya bir qatar) yumurta ilə oynanılır. Oyunçuların biri (yumurtası bərk olan) yumurtanı ovucunun içində gizlədib, təkcə onun baş tərəfini bir az açıq qoyaraq yatar, o biri açıq qalan yerindən mülayim döyər. Hər kəsin yumurtasının başı sınsa, o biri tərəfini (künəsini-arxasını) döndərib ovucun içində saxlayır. O biri hərif yumurtasının başı ilə yenə də çaqqışdırar. Bu zaman iki halət üz verə bilər. Əgər o yumurtanın künəsi sınsa, yumurtanı hərifə verməlidi. Əgər o biri salim yumurtanın başı sınsa, bu dəfə o, yumurtanı döndərib, yatar və yumurtasının hər iki tərəfi sınan hərif yumurtanı o biri hərifə verməli olar. Bu oyunda bəzən hər iki yumurtanın hər iki tərəfi sınar. Bu zaman udub, uduzmaq arada olmaz, hər kim öz yumurtasına sahib olar.

Lakin bu oyun sadə yox, çoxlu təşrifat, çənə vurmaqla keçirilər. O cümlədən hər iki hərif hər iki yumurtanı dəfələrlə dadarlar. Yumurtanı dadmaq belədir ki, həriflər yumurtanın hər iki tərəfini ehmalca üst ənglərinin qabaq dişinə döyərlər. Onların səsindən yumurtaların hansının bərk olduğu bilinər. O zaman bir-birlərinə "Sən yat..., sən yat" deyirlər. Əlbəttə, yumurtası bərk olan yatmalıdı. Yatmaq isə haman yumurtanı ovcunda gizlədib, aşağıda saxlamaqdır. Bəzən yumurtaların biri bərklikdə tapılmış olursa, o biri hərif onu başa-baş döyüşdürməyə hazır olmaz. O şəxs yumurtasının başını bir az əyməlidir. O biri tərəf mürəttəbən "əy", ya "əyil" deyə yumurtanı əyməyə əmr edir. Yumurtanın nə qədər əyilməli olduğunu təyin etmək üçün o şəxs

(yumurta sahibi) barmağında ağzından bir az tüpürcək götürüb yumurtanın başından bir az aşağı tüpürcək ilə bir xal salar. Bu zaman yenə də çənə vurmaq başlanır.

– Yox... bir az aşağılıq (xal) sal...hər halda razılaşdıqdan sonra o xal salınan (əyilən) yumurta yatmalı, o biri tərəf yumurtasının başı ilə mülayimətlə o xalın yerindən o yumurtanın başına çalmalıdır. Bəzən hərif çətin razılaşsa, o biri hərif haman şəraitdə yumurtaları əvəz etməkdə hazır olar.

Qatar oyununda bir neçə (məmulən – 10) yumurtanı qatar düzərlər. Bu oyun məlulən çoxlu bişmiş yumurta hazırlamış olan dükanlarda oynanılmış olar.

Hər iki hərif yumurtaları dadıb neçə dəfə yerlərini dəyişdirəndən sonra nəhayət onların biri bir tərəfdən yumurtanı götürüb yatar (ovcunun içində saxlayar), o biri hərif də ikinci yumurtanı götürüb, onun ovcundakı yumurtanın açıq qalan yerindən (başından) çalır. Yumurtalar bu çaqqışdırmada bir-bir sınarlar və hər kəsin əlindəki yumurtanın hər iki tərəfi sınsa, onu yerə qoyub, qatardan bir ayrı yumurta (tərtib üzü ilə) götürər. Burada yumurtası sınan yatmalıdır. Oyunun sonunda hər kimin əlində bir tərəfi, ya iki tərəfi salim yumurta qalsa, o, oyunu udmuş olur, yumurtaları götürər. O biri tərəf isə yumurtaların pulunu dükançıya verər. Söz yox iki, bu oyunların şirinliyi, gözəlliyi də haman təşrifatlarda, çənə vurmaqlardadır.

Buna görə də Yekanatda bərk yumurtalayan toyuq qədri bilinər. Bir atalar sözündə deyilir ki: "Toyuğun pisi bərk yumurtalar". Misri toyuq (morql-şaxdar) adlanan ev quşlarının yumurtası məmuli toyuqlardan çox bərk olar.

## RƏSMLƏR, QAYDALAR

Xüsusi qonaqlıqlarda çay verəndə əgər doymuş olsan, gərək stəkanı nəlbəkidə yanı üstə yatırdasan, yoxsa nə qədər ki, stəkan yatmayıbdı çay veriləcək.

– Biri ilə əl verəndən sonra əli (işarə barmağının yanından) öpərək alına qoyarlar.

– Arvad çətin doğanda, bir nəfər çıxıb damda əzan verər.

– Ölü öləndə qara paltar əvəzinə göy paltar geyilər. Amma gəlinlərə ərindən savayı hər kimi də ölsə ər evi tərəfindən “Sənin ərin hələ sağdır” deyə qara, ya göy geyməyə icazə verilməz.

– Ölünü taxta üstə (məmulən küçə qapısının bir yanını çıxarıb) qazanlarda qızdırılmış su ilə yuyurlar.

Sonra pambıq taxıb, kafur vurub, iki dənə qoltuq ağacı qoltuqlarına qoyarlar. Bu ağaclar söyüd ağacından kəsilər, təqribən bir qarış boyda olur. Yolda tabut aparanlar tez-tez dəyişərlər. Qəbiristanlığa yetişməmiş tabutu yerə qoyub, kəndin mollasının dalında üzü tabuta eyni halda üzü qibləyə sarı durub meyit namazı qılırlar. Sonra aparıb iki ip köməkliyi ilə qəbrə sallayar, qəbrin içində bir iki nəfər ölünü sağ çiyni üstə (üzü qibləyə) qəbrin dar qismətində (ləhəd) zorla yerləşdirib, bir nəfər əlini çiyninə qoyub, təlqin edəndən sonra sal daşları üstünə qoyub, sonra torpağı töküb qəbri doldururlar.

– Qurban bayramı yeddi ləvin günü (axır çərşənbə) hər evdə küftə bişirilər.

– Qara bayram – ölüsü ölənlər üçün qabaqdan gələn məzhəbi bayram (qurban, ya oruc bayramı, hansı olsa) və gələn Novruz bayramı o ölünün qara bayramı sayılır.

– Oğlan uşaqları mədrəsə yaşına yetişməmiş 5-6 yaşlarında kəsilərlər (xətənə olarlar) .

– Yekanatda o biri yerlər kimi müxtəlif münasibətlərdə “pay” aparılar. Bu isə çox evlərə ağırlıq edər, bu paylar məmulən neçə dənə yumurta, ya bir tas qatıq, ya çox vaxt bir-iki tikə qənd olar, çox mühüm olsa isə “kəllə qənd” aparılar.

– Orucluğun 28-də (İbni-Müncəm günü) məmulən sarımsaq yeyərlər ki, ağızlarından pis qoxu gəlsin.

– Yekanatda yas məclisində ölü sahibi (arvadlar) ölən şəxsə ağlayarlar. Başqa arvadlar isə hər kəs öz ölülərini yanarlı sözlə ağılarla oxşayıb ağlayar, bəzən keçmiş babalarını, atasını oxşayıb ağlayar, beləliklə, ölülər heç vaxt yaddan çıxmazlar.

## İNAMLAR

Yekənlilərin (bəzi ayrı yerlər kimi) inamlarına görə heyvanatın çoxu əvvəlcə adamlar imiş, sonra dönüb heyvan olublar.

Məsələn:

– Meymun adam imiş, lakin əli bitli-bitli (dırnaqları ilə bit öldürdüyü halda) əlini xəmirə vurub, odur ki, meymun olub.

– Tısbağa – dəyirmançı imiş, özgələrə un borc verərmiş, lakin unu verəndə bala kasa ilə verib, alanda böyük çanaqla alarmış. Odur ki, Allahın əmri ilə tısbağa olub, kiçik kasa altda, böyük kasa üstündə qalaraq bu iki kasanın içində həmişəlik zindanda yaşamışdır.

Bubəbu – bir gəlin imiş. Bir gün həyətdə lüt oturub başını daramaqda ikən qaynatası xəbərsiz həyətə daxil olurkən gəlin xəcalətindən Allahdan istəyir ki, onu bir quş eləsin. Elə oradaca darağı başında quş şəklinə düşür.

– Qəyələnquş (qaranquş) – Qəyələnquş iki cürdü, biri düm qara olub, saatlarla göydə uçar. Heç yerdə qonub qalmaz. Yuvadan çıxıb, yuvaya da bir baş qayıdar. Uca yerlərdə yuva qoyar, adamdan uzaq gəzər. Bir növü isə qanadları qara, bədəni ağ, uzun quyruğu olur. Adama çox yovuşar, yuvasını evlərin içində, ya eyvanda nifən (səqf)nin tirlərinin böyründə, ya divarların lap başında (evin içində) ağızlarında palçıq çöp gətirərək möhkəm bir şəkildə qayırar. Bu quşlar fəzlərini yuvadan eşiyə salarlar, amma ev əhli bundan narahat olmaz. Ancaq yuvanın altına kağız, ya köhnə parça salar, gündə süpürərlər.

Kimsə bilməz ki, hər il yazda tapılıb gələn bu quşlar keçən ilki quşlardır, yainki onların bildirki böyümüş balalarıdır. Çünki əhalinin əqidəsinə görə qəyələnquş bir ildən artıq yaşamaz. Buna görə də qalib bir əfsanələri də var: deyirlər, dünyanın əvvəllərində ömür paylananda hamı quşlar paylarını almışdılar. Təkcə sərçə ilə qəyələnquş qalıbmış. İki qalan ömrün də biri "min" il, o biri isə "bir" il imiş. Sərçə bir hoqqa qayıraraq, qəyələnquşdan soruşur: "Sən bu ömürlərin hansını götürmək istəyirsən, Min ili istəyirsən, ya bir... ili" (bir kəlməsini çox uzadır). Qəyələnquş bir ilin çox

olduğunu zənn edərək, deyir ki, mən həmən o bir .... ili istəyirəm. Odu ki, sərçə min il yaşayır, qəyələnquş isə bir il.

Bir ayrı əfsanədə deyilir ki, İbrahim peyğəmbəri oda atıb, yandırmaq istəyəndə qəyələnquşlar dimdiyində su gətirib, odun üstünə tökürdü. Sərçə isə dimdiyində çöp gətirib oda salaraq onu daha da qızışdırırdı.

Sərçə kənddə çox olur. Heç kəsin ondan acığı gəlməz. Ancaq yaz-yay ox atan ilə vuran olsa, yaxud qışda otağa salıb qapını bağlayıb, bir-bir tutub boğazlarını üzüb bir tərəfə atan olsa, kiminsə ürəyi yanmaz.

– Qəcələ-(sağsağan) – qəcələ xoş xəbərlər gətirər. Hansı həyətdə otursa, bu deməkdir ki, onların səfərdən gələnləri olacaq. Bu zaman ev sahibi oturub kimin səfərdən gəlməyi barəsində fikirləşər. İllərlə gedib unudulmuş adamlar yada düşərlər.

– Bayquş – (bəyquş) bəd əməl olar, hansı evə qonsa, ora tezliklə darmadağın olar. Xaraba yerləri sevər, oralarda yaşayar.

– Cərcək – (Xərçəng) adamı dişləsə, eşşək anqırmayınca, gecələr adamın yuxusuna gələr.

– İsti suyu yerə tökəndə, ya gecə qaranlıqda gedəndə “bismillah” deməsən, cinlər arxalanar, adama sələmə yetirərlər. Çünki cin “bismillah”dan qorxar, eşidən kimi qaçar.

– Qəbiristanlığı barmaq ilə göstərmək yaxşı deyil. Əgər biri iştibahən görsətsə, tez barmağını dişləyib, ayağının altına qoymalıdı.

– Ayət-ül-kürsi oxuyub, ətrafa püfləsən dövrəndə bir qala düzələr ki, oğru yol tapıb, içəri gələ bilməz.

Deyirlər, keçmişdə bir tacir çöldə yükləri açıb qalmalı olur. Gecə ayət-ül-kürsi oxuyub, ətrafa püfləyib yatır. Ancaq demə ki, onun bir kəlməsini qələt oxumuş imiş, elə ordan da bir dəlik qalır, oğru gəlib haman dəlikdən girib şeylərin aparır. Səhər taciri-binəva durub görər ki, lələ köçüb yurdu qalıb, ticarədən heç zad qalmayıbdır.

– Şiələrin nəzərincə “Quran” 33 cüzv imiş. 3 cüzvünü ikinci xəlifə oğurlayıb, odur ki, indi 30 cüzv qalıbdır (Əlbəttə, bu yanlış bir fikirdir. “Quran” əvvəldən də 30 cüzv imiş).

Deyərlər, bir evdə oxuyan olmasa, o evdə kitab saxlamaq günahdı. Odur ki, bir savadlı adam ölüb gedəndə kitabları ya ayrı adama verməli, ya aparıb məscidə qoymalısan. Odur ki, bəzi məscidlərdə minbərin altı kitabla dolu olar, xüsusən, İmamzadə minbərinin altı.

Amma təzə dərs oxuyan, ağ ilə qaranı seçən uşaqlar hərdən gedib, minbərin altında toz basmış kitabları alt-üst edərək, "əz-vareq" (vərəq-vərəq) edərlər. Beləliklə, kitablar dağılıb aradan gedər. Bu kitablar içində "Quran" kimi kitablar da olar. Onları dağıdıb, ayaqlamaq günah sayılır. Buna görə bu kitabları aparıb, qəbiristanlıqda yer qazıb hamısını quylamışlar. Ancaq gələcəkdə əgər ittifaqən bu çürümüş kar-kağızlar torpaq altından kəşf olunsa, nə kimi fərziyyələrin qabağa gələcəyi məlum deyil.

– Səfərə çıxanda tülkü qabağa çıxsa, ya pul sikkəsi tapılsa, səfər xoş olar.

– Düyü dənəsi yerə düşsə, insan onu kirpikləri ilə yığmalıdır.

– Biri and versə, əlbəttə anddan keçmək olmaz, ancaq o andı batil etmək üçün lazımdır deyilsin: "Aşqa-puşqa, tu, qara yerə". Əlbəttə, bu uşaqlar arasında rəsmdir.

– Nəqqaşlıq etmək günahdı, çünki çəkilən adam və heyvanlar o dünyada nəqqaşdan can istəyəcəklər.

– Havada bir neçə bulud tikəsi olub, yağış yağanda, bir tərəfdə də gün görsənəndə deyərlər ki, "Qurd doğur".

– Hava guruldayanda deyərlər ki, "imam"lar at çapırlar, atların ayaqlarının səsidi.

– Uşaqlar oynayanda əgər yağış başlasa, anasının ilki olan bir uşaq bir "ərsin", ya ayrı dəmir parçası eşiyə atıb, bu ibarəni desə -"mən anamın ilkiyəm, ağzı qara tülküyəm" yağış kəsər.

– İldırım yerə düşəndə "almaz" olar. Həmçinin deyərlər ildırım keçədən keçməz. Deyilənə görə xarici məmləkətlərin birində olsun ki, Rusiyətdə bu işi təcrübə edib bolluca almaz ələ keçirtmişlər.

– Əjdahanın vücuda gəlməsi: - deyirlər pələng özündən ucasını görə bilməz. Ay çıxanda ayı bütünlükdə başının üstündə

görəndə, dağlardan yuxarı gedər, lap başa çatanda genə də ayı özündən üstdə gördükdə, hirslənib aya tərəf atılar, dərəyə düşüb ölər, bədəni qurdlanar, həmən qurdlar böyüyüb əjdaha olarlar.

– Əjdaha yer üzündə qalmaz, göydən zəncir sallanıb, onu yuxarıya çəkərlər. Bunu öz gözləri ilə görüb, ya zəncirlərin səsini eşitmək iddiası edənlər də olur.

– İlan əti yeyən adam cadu qüdrəti tapar. İlanı bişirib yemək üçün gərək bir qarış başından və bir qarış da quyruğundan kəsəsən.

– Biri kefsiz olub, başı ağrısa, bir Quranı gətirib onun üzünün qabağında saxlayıb üç dəfə açıb, möhkəm büküb, onun tozunu naxoşun burnuna versən, yaxşı olar.

– Bəzi uşaqların boğazları ağrayanda məşhur olan bəzi arvadlar gəlib, onun boğazında bir şeyin qaldığını iddia edir, çox təşrifatdan sonra görürsən ki, onun burnundan püfləyərək, boğazından toxum, toxum qabığı, bəzən də alça, ya ərik dənəsi kimi bir şeylər çıxardarlar ki, guya boğazında qalmış imiş. Hətta bəziləri çıxardılan toxumun, ya ərik dənəsinin orda göyərib zoğ və yarpaq verdiyindən də söhbət edir.

– Qırxlı uşağın üstünə getsən, o adamın ağırlığı uşağın üstünə düşər. Odur ki, uşağın qırx günü olunca evə gələnlər eşikdə dayanarlar, uşağı evdən çıxarıb, həyətə, ya soyuq olsa, ayrı otağa keçirdərlər. Gələn qonaq evə girəndən sonra uşağı onun dalısınca evə gətirirlər. Əlbəttə, o adam dubarə o evə gəlsə, daha bu işə ehtiyac yoxdur.

– Zahı arvad başının altına bir dəmir bıçaq, qayçı kimi bir şey qoymalıdı. Eşiyə çıxanda da o bıçaq ağzı açıq halda əlində olmalıdı. Bu iş görülməsə, al onu aparar yəni – alıbani – al arvadı ona və uşağına xətər yetirər. Bəziləri deyərlər uşağı aparar, ya öldürər, yaniki zahının ciyarını çıxardar. Odu ki, zahını heç vaxt tək qoymaq olmaz.

– Albani (alyabani) başqa “al”, ya “al arvadı” kimi adlar ilə İranın hər yerində mərufdur. Deyilənlərdən məlum olur ki, əvvələn, dişidi, lüt və paltarsız dolanar, çox da uzun olur. Odu ki, çox uzun adamı ona oxşadarlar. Onun rəngi barəsində söhbət

olmayıbdırsa, lakin ağ dərili olduğu güman olunur. Buna aşağıda verdiyimiz məlumatlar yol göstərə bilər. Dediyimiz kimi, inamlara görə bu mövcud zahı arvadlara ziyan yetirə bilər. Xüsusən altıncı gecə onun xətəri lap çoxdur. Ancaq onun barəsində bir dastan hamı tərəfindən mənimsənilərək nəql olunur.

Çox adamlar iddia edirlər ki, onların ikinci, ya üçüncü babaları bir alyabanini tutub saxlamış imiş. Guya bu mövcudun döşünə sancaq taxsan heç yerə gedə bilməz, özü də guya o sancağı çıxartmağa qadir olmaz.

Azad olandan sonra guya bir dəfə gəlib damın bacasından başını içəri soxaraq, ev əhli ilə danışıbdı. Ondan insanın ətinin harasının çox ləzzətli olduğunu soruşanda: "dabanı", deyə cavab vermişdir. Beləliklə, məlum olur ki, o zavallı mövcud elə hamının babasına tutulub və hamısına da onların yeddi arxdan dönənləri ilə işi olmadığı barədə söz verib və bunların hamısından da iki nəsildən artıq keçməmişdir. Və hələlik 5 nəslə qədər xəyalları rahat olmalıdı. Çünki kişinin qızı söz verib və sözünün üstündə durubdu. Amma bununla belə genə də arvadlar qorxurlar, dəmirsiz eşiyə çıxmazlar, başlarının altına da bir zad qoyarlar. Bu barədə məzəli məsəl vardır.

– Bir nəfər qaranlıqda gedərkən, demə, börkünün dimdiyindən bir ağ sap sallanmış imiş. Amma o sapa yaxın olduğuna görə onu bir uzun ağ bir şey kimin qabağında durduğunu zənn edir. Bu ağ mövcud o, qabağa getdikcə onunla gedir. Bədənini qorxu bürüyür. Onun nə ucalıqda olduğunu bilmək üçün başını yavaş-yavaş yuxarıya qovzayır, görür ki, hər nə qədər yuxarıya baxırsa, o göyə çəkilib, başı görsənmir. Bu zaman bu ağ, uzun mövcudun alyabani olduğunu yəqin edərək, elə oradaca bağrı çatlayıb ölür.

– Deyərlər "Buvə" nifildən adamın üstünə düşsə çala bilər. Çalanda adam tez ölə bilər. Odu ki, buvə adamı çalan kimi o, gedib qəbiristanlıqda yol üstündə durub deyər: "İndi çaldığım adamın cənazəsini gətirəcəklər".

– Süftə – dükançılar süftə eləməmiş nisyə verməzlər. Çünki əvvəl satım, hər nə cür olsa, axşamacan o cür gələr. Bəzi

adamların “əli” yüngül olar, əgər səhər əvvəl müştəri bu cür adam olsa, o gün alver yaxşı gedər.

– Su içəndə bir əlini başına qoymalısan. Bu cür eləməsən, içilən su başa çıxar.

– İnama görə buludlar dəryadan su götürüb başqa yerlərə səpərlər.

– Yağış – bəziləri öz gözləri ilə buludu, dəryadan su götürüb qovzananda gördüklərinə and içərlər.

– Göydə ulduz axanda deyərlər ki, bir nəfər öldü. Çünki hər kəsin göydə bir ulduzu var, o, ölən kimi ulduzu axıb yerə düşər.

– Gün tutulanda deyərlər İrana zərəri var, amma ay tutulanda Osmanlıya zərər eylər. Günün tutulmağına deyirlər ki, bir əjdaha göydə günəşi kamına çəkmək istəyir. Bu zaman arvadlar əjdahanı ürküdüb, günəşi qurtarmaq üçün damlara çıxıb, mis qabları bir-birinə çalıb, səs salırlar. Beləliklə, əjgaha günü boşlayıb qaçır, gün azad olub yenə də parlayır.

– Yekanatda yağış az yağsa da, qar çox gəlir. Deyərlər ki, Həzrəti-Peyğəmbər qar gələndə əbasını başına çəkərək, deyərdi ki, o qar anbarını ki, mən göydə görmüşəm.... o, qurtaran deyil.

– Məkkə yolu – göyün ortasından – Şimaldan Cənuba çəkilən Məkkə yoludur. Oradan karvanlar gəlib getdiyi, çoxlu saman töküldüyünə görə bu yol ağdır.

– İt uluyanda – qurd səsi verəndə deyərlər ki, göydən bəla gələcəkdir. Bu zaman insanın bədənini qorxu bürüyür.

– Toyuq banlasa başı kəsilməli, ya bir seyidə verilməlidir.

– Yuxuda “diş düşmək” insanın bir yaxın adamının ölməyinin əlamətidi.

Yuxuda ata minmək böyüklük əlamətidi. Hər halda yuxunun özündən mühüm onun yozulmasıdır. Onu əvvəl yozmaq çox əhəmiyyətlidir. Odur ki, yuxunun mənası yaxşı olmasa da, “Allah xeyir eləsin”, “xeyirdir, inşallah”, “bir kaffarə ver” kimi sözlər deyərlər. Hətta yuxu sahibi yuxusunu nəql eləməkdən qabaq bir yuxu görmüşəm, “Allah xeyir eləsin” deyir. Deyərlər bir nəfər yuxuda görür ki, hamıdan ucada duracaqdır. Həmən yuxunu bir

başqasına dedikdə, deyir ki, bu yuxunun mənası odur ki, sən padşah olub, hamıdan başda olacaq idin, lakin o, əvvəl təbir edən pis təbir etdiyinə görə səni dara çəkəcəklər. Və o cür də olur. Axşam olmamış o biçarəni günahsız dara çəkirlər. Odur ki, yuxunu hər kəsə deməzlər, başı çıxana, yaxşı yozana müraciət edərlər.

– Yeriyə-yeriyə aya baxmaq yaxşı deyil.

– Aya çox baxan dəli olar.

– Bizdə "yeylər" "cin" adlı əfsanəvi mövcudlara deyirlər, onların aşkar adlarını çəkməkdən qorxurlar. Guya insanın gözə görünməyən, ya hər vaxt istəsələr görükən mövcudların içində bir həmzadı bahəm doğulmuş vardır ki, hərdən əziyyət eylər. Bismillahdan qaçarlar. Gecə qaranlıqda yol gedəndə "Bismillah" deməsən mümkündür ki, ayaqlanar. İsti su da eşiyə atanda, bu kəlməni deməsən, onlar yanar. Onda adama ziyan yetirmiş olarlar. Bunların yeri məmulən hamamlarda, xaraba dəyirmanlar kimi yerlərdə olar.

– İtmiş bir şeyi axtaranda şeytana nəhlət, lənət desən, tez tapılar. Çünki çox vaxt bu şeyləri şeytan gizlətmiş olur.

– Süpürgə ilə süpürəndə əgər bir adama dəysə, onda süpürgədən bir çöp sındırıb atarlar.

– Yol yeriyəndə biri-birinin ayağını ayaqlasa, ayağı ayaqlanan dönüb o birisilə "ayaqlaşdıq, gəl əl verək" deyə əl verər.

– Deyirlər şeytanın bir qıçı arvad, bir qıçı isə kişidi, birbirinə sürtdükcə balalayıb tökər.

– Donuza barmaq vursan yumaq ilə təmizlənməz, o barmaq gərək kəsilə.

– Qarışqa: Deyərlər, Həzrəti-Süleyman bir gün bir qarışqaya deyir ki, nədəndi sənin belin belə nazik, amma başın belə yekədi? Qarışqa cavab verir ki, belimin nazikliyi qənaətcillikdəndi. Çünki mən ildə fəqət bir dənə buğda yeyirəm, başımın yekəliyi isə ağlımın çoxluğundandı.

Həzrəti Süleyman "İmtahan edirik" deyə, əmr edir qarışqanı bir mücrüyə salıb, bir buğda dənəsi də yanına qoyub, ağzını bağlayıb möhürləyirlər. Bir ildən sonra açanda görürlər ki, qarışqa buğdanın təkcə yarısını yeyib. Bunun illətini soruşanda

deyir ki, “dedim bəlkə yadından çıxdı bu mücrünün ağzını il başında açmadız, barı bir illik də xörəyim olsun”. Beləliklə, qarışqa hər iki iddiasını sübut edir.

– Üzərlik salmaq nəzərlənməyin qabağını alır, adamı bəd nəzərdən qoruyur. Nəzərlənməyə göz vurmaq da deyilər, uşaqların qollarında dua, ya pitik olar. Bu pitik göy parçaya müsəlləs şəklində tikilər, üstünə bir göy mıncıq xərmöhrə tikilər. Bu da uşağı bəd nəzərdən, başqalarından hifz edər.

– Gələcək işlərdən söhbət edəndə “inşallah” demək lazımdı.

– Bir uşağı tərif edəndə “maşallah”deməsən göz dəyər.

– Bıçağın ağzını açıq qoymaq yaxşı deyil. Gecə yatanda xüsusən yaşlı arvadlar təşəhhüdlərini, əşhhüdlərini deyərlər: yataram inşallah, duraram inşallah, durmasam əgər əşədü iləhə illəllah”. Əgər yuxuda ölsən, dünyadan müsəlman kimi gedərsən.

– Qarğa yol yeriyəndə hoppana-hoppana gedər. Deyərlər bir zaman qarğa istədi ki, kəklik kimin yerisin, çox çalışdı, amma gördü ki, işi deyil, qayıtdı ki, öz yerişini yerisin, gördü ki, yadından çıxıbdı. O vaxtdan demə atılı-atılı qaldı. Ordan da bu məsəl qalmışdı ki, “Qarğa gəldi kəklik yerişi yerisin, öz yerişini də yadından çıxartdı”.

– Deyərlər, Ay oğlandı, Gün qız, ha gedərlər bir-birlərinə yetişməzlər.

– Deyərlər: pis vaqiə üçü bir-birinin dalısınca gələr. Odu ki, iki bəd ittifaq xətərsiz keçəndə deyərlər ki: “Allah üçüncüsündən saxlasın”.

– Bir zad sınanda, sahibinin dilxoşluğu üçün deyərlər: “Eybi yoxdu, qada, bəla idi, getdi”. Yəni mal ziyanı cana yetişəcək ziyanların qabağını tutar.

– Subay qalmaq dinin dediyinə görə günahdı. Deyərlər, subay adama dam, divar qarğış edər, oruc-namazı da düz olmaz. Odu ki, sini keçmiş arsız qarılar özlərini zahiri olaraq, bir kiçik oğlan uşağına, ya bir kor, ya əlil dilənçiyə sığə edir.

– Qurbağaya əl vursan, əlinə ziyil düşər.

– Keçi, ya qoyun itib gecə çöldə qalsa, bir məxsus dua oxuyub, bir bıçağa püflüyüb, bıçağı bağlarlar: – Deyərlər "qurdun ağzını bağladım". Daha qurd o davarı yeyə bilməz.

– Diz qucaqlamaq, ya əli qoltuğuna qoymaq yaxşı deyil.

– Bir oğlan uşağının əli ağır olsa birini vuranda çox incitsə deyərlər, dul arvad alacaq.

– Hər kəs çölmək, ya qazan dibi yalasa, deyərlər ki, toyunda qar yağar.

– Bəzilərinin dilinin üstünə pay çıxar. Deyərlər, özgə adamın payını yeyəndə o cür olar. Onun əlacı budu ki, bir nəfərə deyər "dilimə pay çıxdı", o da deyər ki, "tüpür yerə düşsün", o da tüpürər, pay bərtərəf olar.

– Deyərlər, şeytan kiçik uşaqları aldadır, deyər ki, axşamacan mənlə işlə, axşam bir şahı verəcəm. Axşam olanda, onu da verməz. Odu ki, kiçik yaşlı uşaqlar axşamacan çabalarlar, heç yorulmaq bilməzlər. Bir məsəl də var deyərlər ki, "uşaq şeytan qalasıdı".

– Biri gedib bir yerdə ölsə, deyərlər ki, torpaq çəkdi.

– Evdən çıxıb səfərə gedənin dalısınca su səpsən tez qayıdar, ya müzahim qonaq çıxıb gedəndə, dalısınca qara çölmək sındırsan bir də qayıtmaz.

– Adamın gözü atsa, qonaq gələcək. Söz olanda deyərlər: elə filankəsdən ötrü, gözümüz atır. Adamın əli qaşınsa, deyərlər "əlinə pul gələcəkdi".

– Çörəyi ayaqlasan, gözünü tutar, evin bərəkəti qaçar.

– Uşaqlar böyüklərin dövrəsinə dolananda mane olub deyərlər ki, "başa dolanmaq pis olar".

– İt qorxaq adamı tanıyar, ona da hücum edər. Çünki itdən qorxan adamın başından yaşıl işıq qövzanar və beləliklə, it qorxaq adamı tanıyar.

– Bir evdə ilan olsa, onu öldürməzlər. Deyərlər, o ilan o evin sahibidi. Əməldə də bu ilanın ev əhli ilə işi olmaz, bəlkə də onlara adət etmiş olar.

– Qarpız qabığı kəmirənin başına keçəl düşər.

– Bir məclisdə çox məzəli sözlər deyilib gülüşülsə, deyərlər çox güldük ziyanını çəkərik.

– Adam birinin bədbəxtliyinə, ya pis gününə gülsə, deyərlər, gülmə, başıya gələr.

– Tək səbir – bir yerə yollananda, ya bir məsələ barəsində danışılanda, səbr gəlsə o işdən əl çəkmək yaxşı olar. Getmək məcburi olsa, bir az ayaq saxlayıb, bir salavat çevirib sonra getmək lazımdır.

– Çoxlarının bu işdə dərin etiqadları var və səbir gələn işi görməyə onları heç vəsilə ilə razı salmaq olmaz. Amma əgər səbir cüt gəlsə əsəri olmaz. İkidən artıqda gəlsə ki, "soyuq dəymə"dir deyə işlərinin dalısınca gedərlər. Beləliklə, səbir ilə asqırmanın fərqi var. Səbir o işin şərli və ziyanlı olduğunu göstərir. Bir az ayaq saxlamaq onların nəzərincə, o xətərin soruşub getməyinə səbəb olur.

Deyirlər, məsələn, əgər o saat eşiyə çıxsan mümkündür ki, səni maşın bassın. Amma bir az gec getsən, o maşın keçmiş olar.

Əgər bir iş barəsində və gələcəkdə nə iş görüləcəyi barəsində fikir qabaqdan tutulubsa söhbət olanda səbir gəlsə, o səbri təyid və ümidvarlıq əlaməti sayaraq, deyələr "Səbir gəldi, ya səbr sahibi! Səbir deyir səbr eylə, işlər hamısı düzələr".

– Səfərə çıxanda səbir gəlsə, hökmən səfər dala salınmalıdır. Odur ki, o zaman çalışarlar ki, kiçik uşaqlar yaxında olmasınlar.

– İstixarə etmək də işlərdə, məxsusən əgər adam iki köyüllü olsa, təsmim tuta bilməsə, onun müsbət, ya mənfən təsmim tutmağına köməklik edər. İstixarəni bəzən mollaya, savadlı adam yanına gedib "Quran"dan tutarlar.

Məmuli işlərdə təsbih və ya çərəkədən istifadə edərlər. Məsələn, bir neçə dənə mıncıq ayırıb, bir çərək bir dəfə "xeyir" gəlsə, istixarə yol verib, "şər" gəlsə məlumdur ki, istixarə yol verməyib və görülən iş zərərli olacaqdır.

– Bir kibrit ilə üç siqar yandırmaq yaxşı deyil, üçüncü siqar üçün o kibriti keçirdib, bir ayrı kibrit yandırılmalıdır.

– Boylu arvadın başına özü bilmədən duz töksən, əgər o, əlini başına çəksə, qız doğar, burnunun altına çəksə isə oğlan doğacaq.

– Cavan arvad, əri ölsə bir kuzə su aparıb, onun qəbrinin üstünə tökməli, kuzəni orada daşa çırpıb sındırmalıdır.

– Əjdaha dağı – Yekanatın cənub səmtində qərar tutan iki hündürlüyə ağ və qara əjdaha deyərlər. Qara əjdahanın bir yeri çuxurdu. Belə deyirlər ki, ora onun boynudur, ağ əjdaha ilə dava edərkən o çuxur ağ əjdahanın onun boynundan qopartdığı yerdi.

– Ölü dəfn olunan günün axşamı qəbrin ayaq tərəfində od yandırırlar.

– Xoş saat – Səfərə çıxmaq üçün "xoş saat" təyin olmalıdı. Talibən molla, ya savadlı yanına gedib səfərə çıxmaq gününü təyin edirlər. Bəzi günlər "nəsdir, o günlərdə mühüm iş görmək, o cümlədən, səfərə çıxmaq yaxşı deyil. Üst-üstə hər qəməri ayında yeddi gün nəhs sayılır. Bu günlər ibarətdir ayın üçü, beşi, on üçü, on altısı, iyirmi biri, iyirmi dördü, iyirmi beşi. Bu məsələ qədimdən İranda rəsm imiş. Necə ki, Əbu Nəsr Fərhani öz "Nəsib-əl-subyan" əsərində bu günləri belə nəzmə çəkmişdir. Sətri tərcüməsi belədir:

"Yeddi gün hər ayda, bil, nəhs sayılır,
Çalış o günlərdə əzaba düşmə,
Üçü, beşi, on üçü bir də on altısı
İyirmi bir, iyirmi dörd, iyirmi beşlə",

– Müsəlləh – el ocağı kimi anılır. Yekəndə yağışı çağırış kimi keçirilir. Xüsusən yazın orta və axır aylarında əkinəcəklər susuzluqdan yanıb, quruyur. Havada bir tikə də olsa bulud tapılmaz. Hər yerdə, hər məclisdə söz-söhbət elə bu barədə yağışın yağmamasından olar. Bir gün qərar qoyub hamı kişilər kəndin şərqində olan imamzadəyə gedərlər.

Kəndin mollası, bəzən yuxarı Yekənin mollası da gəlib "növhə" və "mərsiyyə" oxuyar, kişilər doyunca ağlayıb əl göyə götürüb Allahdan yağış istəyirlər. Əgər o günlərdə yağış yağmasa, bu səfər arvadların növbətidir ki, el ağacına çıxsınlar. Amma arvadların getməsi kişilərdən tamamilə fərqlidir. Onlar

“pinik” deyilən bir şəkildə gedər, ağlamaq əvəzinə çətir tutarlar. Təyin olunmuş gündə arvadlar qab-qacaq, samavar, çaydan və sursat götürüb, imamzadəyə yollanar, onun ətrafında dəstə-dəstə ocaq qurub samavara od salıb çay qoyub şənlik salır, oynayıb oxuyurlar. Onlar kişidən xali olan çölü, dağ-daşı başlarına alırlar. Qavalaşma-sulaşma... şuluq və şadlıq, gülüş səsləri dağ-daşı bürüyər. Günü bu cürə, şənliklə başa yetirib, axşamçağı şuxluq ilə kəndə qayıdarlar. Gah da görərsən ki, o günlərdə yağış yağdı. O zaman arvadlar döş verib şişərlər ki, “Hə gördüz? Kişilər yağış yağdıranmadılar, amma biz yağdırdıq”.

– Dolu bağlamaq – yağış azlığından əlavə dolu yağması da bir böyük bəladır. Məhsulun yetişən çağı, bir də gördün ki, dolu tökülüb ağacları, bitkiləri qırıb yerə tökür. Odu ki, dolunu qabaqcadan bağlamaq lazım görülür. Dolunu bağlamaq üçün “dua” yazılır. Duanı çölməklər içinə qoyub, kəndin ətrafında yerə quyulayırlar. Bu işə məmur olanlar da işləri bitməyincə kimsə ilə danışmamalıdır. Dolunu bağlayanda o qədər möhkəm bağlayırlar ki, hətta bir damcı yağış da buludlardan aşağı düşməyə imkan tapmır. Bu mərasimlərdə bəzən məzəli, şirin hadisələr də baş verir ki, illərlə dillərdə nəql olunur. El ocağının adətlərindən biri də budu ki, arvadlar səhəng və çaydan, ya ayrı əllərinə keçən qabları su ilə doldurub bir seyidin başına tökürlər. Yaxud onu tutub suya basırlar. Beləliklə, yağış yağmalı olur.

## MƏZƏLİ SÖZLƏR

Bəzi sözlər zahirdə mənasız, namərbut nəzərə gəlir, lakin məclisi şirinlətmək üçün ağıza gətirilir. Məsələn bir qonaqlıqda, çaydan doymaq bilməyən bir kəs belə deyir:

– Çayın ikisi qaydadı, üçü cana faydadı, keçdi beşə, vur on beşə. On beşi keçdi, say nədi? Bir başdan tök iç da....

Onun müqabilində çox çay içən barədə deyirlər: Nə xəbərdi? Qarnınızda paltar yumursunuz ki...

Saqqalım çıxınca canım çıxaydı. Bəzi adamlar şuluqbaz olurlar, hər sözün qabağında bir başı yuxarı cavab verirlər.

Məsələn, deyəndə ki, filan işin, ya sözün əsli var? Deyər: – Əsli olmasaydı, Kərəm dağda-daşda nə qayırardı?!

Ya qapı döyüldükdə, biri soruşanda ki, nə barədə danışırsız, deyər:

– Heç zad baba.. Kənddən gələn var idi. Qatığın arşınını soruşurdu. Parçanın batmanını.

Biri sözü çətin başa düşəndə deyərlər: – Gəl, bu yol yumurtanı düyünlə, buna söz başa sal.

Biri bir işdə şikəst tapanda, xüsusən uşaqlar bir işi görə bilməyib bir yerləri inciyəndə lağ ilə deyərlər: – Sən ki üzmək bacarmırsan, ağac başında nə qayırırsan.

Biri Tehrana gedib qayıtdıqda, dedilər farsca öyrənmisən?

Dedi:

– Hə.

Dedilər, qarışqaya farsca nə deyirlər?

Dedi:

– Çox kiçik şeyləri öyrənməmişəm.

Dedilər:

– Dəvəyə nə deyirlər?

Dedi:

– Çox yekə şeyləri də öyrənməmişəm.

Biri də Tehrana gedib qayıtdıqda, soruşdular ki: — Farsca öküzə nə deyirlər?

Dedi: – Qav.

Dedilər, buzova nə deyirlər? Demə buzovun farscasını bilmirmiş. Deyir ki, buzova heç zad deməzlər, səbr elərlər, yekələndən sonra deyərlər “Qav”, yəni öküz.

Biri də Tehrana gedib qayıtdıqda, soruşmuşdular ki: — Tehranda nə öyrəndin?

Dedi: – Arpaya “cov” deyirlər, buğdaya “kəndom”, darıya ad qoyanda, mən gəldim.

Biri çox ac olanda deyir: – Acımdan dişlərim sümüyə dönübdü.

Birinə yalandan can yandıranda deyərlər: – Öləndə canım çıxaydı.

# QARAVƏLLİLƏR VƏ LƏTİFƏLƏR

## Hədi, Hüdü, bir də mən

Hədi idi, Hüdü idi, mən idim, getdik şikara gördük bir ov. Dedim, Hədi, tüfəngin var?

– Yox.

– Hüdü tüfəngin var?

– Yox.

– Məndə də biri vardı, lüləsi yox.

– Hədi fişəngin var?

– Yox.

– Hüdü fişəngin var?

– Yox.

Məndə də biri var, barıtı yox.

Bu barıtsız fişəngi, lüləsiz tüfəngi qoyub nişana getdim. Ovu lap alnının ortasından vurdum.

Hədi bıçağın var?

– Yox.

Hüdü bıçağın var?

– Yox.

Məndə də biri var, tiyəsi yox.

Bu tiyəsiz bıçaqla ovun başını kəsib, dərisini soydum.

Hədi, qazanın var?

– Yox.

– Məndə də biri var, dibi yox.

Gətirib bu dibi yox qazanı gövhan ilə dəlib, ocaq üstə qoydum bişməyə, ətlər tökülüb suyu qaldı. Oturduq yeməyə.

Amma çox yağlı idi, mənim sağ əlim yağlı oldu, çəkdim sol başmağımın üzünə, sağ başmağım acıq eləyib getdi. Dağa çıxdım, görmədim, daşa çıxdım görmədim. Gedib düzdə iynə ilə bir quyu qazdım. İynəni sancdım quyunun tərkinə, çıxdım iynənin üstünə, gördüm odu ha başmaq tayım Muğanda çəltik əkir.

Getdim Muğana, dedilər səbr elə çəltik yetişsin, biçib, döyüb, götürüb gedək.

Bir gün getdik biçməyə, gördük qabanlar düşüb çəltiyi yeyirlər. Hirslənib orağı atdım qabana. Orax keçdi qabanın quyruğunun altına. Qaban qaçdı, oraq biçdi, qaban qaçdı, oraq biçdi, çəltiklər hamısı biçildi. Yığıb tayaya vurduq.

Bir gün getdik, gördüm ki, bir dəstə at düşüb tayaya çəltikləri yeyirlər. Bir daş götürüb atdım, dəydi atın nalına.

Naldan bir od atılıb düşdü tayaya. Çəltikləri söküb qırağa atdım, bir də gördüm çəltiyin içindən bir palan çıxdı. Palanı sökdüm, gördüm içindən bir quvlan çıxdı. Quvlanı açıb oxudum, gördüm mənim bu dediklərimin hamısı yalan imiş.

## Xeyir söyləməz

Bəzi adamlar hər nə soruşsan, insana pis xəbər verərlər. Xeyir söz ağızlarından çıxmaz. Bunlara "xeyir söyləməz" adam deyirlər. Bir gün biri Məşhəddən qayıtmışdı, kənd əhli onun pişvazına gəlmişdi. Hamı "xoş gəldin" deyir və "Ziyarət qəbul" deyə, əlini sıxırdılar. Bir zaman gördü bir əhşur ("xeyir söyləməz") şəxslərdən biri qabağa gəlir, əl verib öpüşəndən sonra Məşhəddən gələn adam öz yanında dedi ki, mən bundan hər kimi soruşsam deyəcək ki, ölübdü, yaxşısı budu ki, bir qara itimiz var, onu soruşsam desə ölübdü, cəhənnəməcən, əhəmiyyəti yoxdur. Bu mənzur ilə dedi:

– Filankəs, bizim bir qara itimiz var idi, o, nə haldadır?

Xeyr söyləməz qəmgin qiyafə tutaraq cavab verdi: — Öldü, da....

Məşədi kişi ürəyində gülümsünərək yenə soruşdu:

– Eh, nə cür oldu, öldü?

Xeyir söyləməz dedi:

– Vallah, o sarı inəyiniz mundar olandan sonra onun ətindən yemişdi, odur ki, öldü.

Məşədini bir az nigaranlıq basdı, dubarə soruşdu:

– İnək niyə öldü bəs?

Xeyir söyləməz bir ah çəkib dedi:

– Eh, sahibsiz mal o cür olar da... Rəhmətlik anan mərhum olandan sonra daha inəyə baxan olmadı öldü da.

Məşədinin bədəni silkələndi.

– Ey vah, - dedi, anam ölübdü. Onun ki, bir zadı yoxuydu.

Xeyir söyləməz kədərli halda:

– Vallah, nə deyim,... oğlanlarınızın quyuya düşüb ölməyini eşidəndə birdən elə yazığın bağrı çatladı... biçarə...

Məşədi kişi ikiəlli başına vuraraq:

– Oğlanlar quyuya düşdülər?... Onlar quyu başında nə qayırırdılar?

Xeyir söyləməz bir az duruqsunaraq:

– Eh baba.... Nə qədər ki, rəhmətlik anaları sağ idi, uşaqları qoymazdı evdən eşiyə çıxsınlar. Amma....

Məşədi kişi başını yolub ağlayaraq soruşdu ki:

– Tifaqın dağılsın bu xəbərlərin ilə de görüm evdə sağ qalan var, ya yox?

Xeyir söyləməz dedi:

– Vallah mən bundan artıq bir zad bimirəm. Ancaq indi gələndə, gördüm ki, sizin küçə qapınızı palçıqlayıblar. İki nəfər həyətinizə saman boşaldırlar.

## Şəqq-ül-qəmər

Bir kişi evinə qayıdarkən, arvadının üzündə cırmaq yeri gördükdə, təəccüblə soruşdu:

– Mah ruyində nədi əbru kimi ləkkə təri?

Arvad özü də şeir əhli imiş, cavabında deyir:

– Mustafa barmağdır şəqq eləyibdi qəməri.

Beləliklə, “şəqq-ül-qəmər” hədisindən istifadə edərək, oğlu Mustafanın (Peyğəmbərin də bir adı Mustafa imiş) üzünü cırdığını zərifliklə bəyan edir.

## Ağıllı nökər

Bir xanın bir düşüncəli nökəri var imiş. Bir gün qonaqlıqda üç düyü dənəsinin ağasının saqqalına düşdüyünü gördükdə, məclis əhli bilməmiş o düyüləri götürsün deyə nökər bu şeiri oxuyur:

Ağalar ağası, bəylərin xası,
Bir söz ərz eyləyim, öldürmə məni.
Zərifşan dağında, üç ov görmüşəm.
Göndər beş qardaşı yendirsin onu.

Ağa nökərin işarəsini başa düşüb əlini saqqalına çəkib, düyüləri yerə salır.

## İki yalançı

Bir gün bir şəhərin məşhur yalançısı o biri şəhərdəki yalançını görüb, onunla bağlaşmaq üçün o şəhərə gedir. Soruşub yalançının evini tapır. Qapını döydükdə, beş- altı yaşlı kiçik bir qız qapını açır.

Kişi uşaqdan soruşur ki:

– Qızım dədən haradadı?

Qız deyir:

– Göy yırtılıb, dədəm gedib onu yamamağa.

Kişi bunu eşitdikdə, elə ordan qayıdır. Öz-özünə deyir:

– Bir adamın ki, beş yaşında uşağı belə bir yalan deyə, o da yer yalanı əvəzinə göy yalanı deyə, gör özü nəmənə ola bilər.

## Əlif ilə Gilif

Bir gün bir uşağı məktəbə qoyurlar. Molla əvvəl günü əlifbanın ilk hərfini öyrətmək üçün bir hərfi göstərib deyir:

– Denən Əlif

Uşaq deyir: – Gilif

Molla deyir: – Əlif

Uşaq yenə deyir: – Gilif

Molla hər nə qədər uşağı vurub deyir ki, desin Əlif, uşaq deyir Gilif. Molla daha yorulur.

Bir nəfər deyir: – Ay uşaq, sənin beynin daşdı, dəmirdi, nədi? Bir Əlifi öyrənmək ki, bir zad deyil, onun üstündə bir belə kötək niyə yeyirsən?

Uşaq deyir: – Baba mən Əlifi elə əvvəl gündən öyrənmişəm, amma qorxuram deyəm Əlif, dalısınca deyə ki, denən "be".

## Marağaya təşrif aparmısan?

Bir gün yenə iki nəfər oturmuşdular, bir söz tapa bimirdilər danışsınlar. Handan-gecdən biri o birindən soruşdu:

– Marağaya təşrif aparmısız?

Dedi: –Yox.

O dedi: – Mən də yox.

Dedi: – Nə olsun ki?

Dedi: – Söhbətdi eləyirik da.

## Üstəki yorğanı götü, tərlədim

Biri qızdırmışdı, evdə hər nə var idi üstünə saldılar, yenə də deyirdi üşüyürəm. Bir su ilə dolu qazan qalmışdı, onu da o biri şeylərin üstündən qoydular. Naxoş tərpəşdikdə, qazanın suyu töküldü üstünə, çığıraraq dedi:

– Üstəki yorğanı götürün, deyəsən tərlədim.

## Adını demə, bas belimə

Biri də yenə qızdırmışdı, evdə hər nə var idi saldılar üstünə, yenə deyirdi ki, üşüyürəm. Biri dedi ki, daha bir zad qalmayıb, təkcə bir palan qalıb. Naxoş dedi:

– Adını demə, qoy belimə.

## İssi bir yannan, farsi bir yannan

Biri yay fəslində Tehrana gəlmişdi. Tehranın da yayı issi olur. Qayıdandan sonra soruşdular ki: – Filankəs, səfərin necə keçdi?

Dedi: – Nə xoş keçəcək, issi bir yannan, farsi bir yannan, dədəmi yandırdılar.

## Şah nə yeyir?

Iki nəfər kəndli oturub danışırmışlar. Biri o birindən soruşur:

– Ədə, görəsən şah nə yeyir?

Yoldaşı cavab verir ki, nə yeyəcək, rəhmətliyin oğlu, şah cılğa piy yeyər də.

O biri təəccüblə deyir:

– Pəh, atoynan, onda tikəsi bir tümənə başa gələr, ha...

## Üzüm ağ oldu

Bir gün bir maldar adam səfərə getdikdə, yüz dənə qoyunu bacısı oğluna tapşırıb gedir. Bacısı oğlu da qoyunların hamısını satıb xərcləyir. Bir müddətdən sonra dayı gəlir bacısı oğlunun yanına, deyir: – De görüm, qoyunlar nə haldadı, haradadılar?

Bacıoğlu deyir, dayı otur, hesab eylə də.

Sonra deyir:

– Dayı, doayıdan doydaq uşdu, qırx beşi daşdan düşdü, iyirmisin verdim qəssaba, iyirmisin gətirmə hesaba. Bu oldu səksən beş, qaldı on beşi, on dördünü də qurd yedi, qaldı birisi.

Bu zaman yanındakı dərini dayısının qabağına qoyaraq deyir:

– Bu da o birisinin dərisi.

Bu zaman dayı əsəbiləşib oyan-buyana baxıb bir qatıq kasasını yanında gördükdə götürüb bacıoğlunun başına çalır. Bacıoğlu əli ilə qatığı üzündən silərək, başını göyə tutaraq deyir:

– Şükür olsun Allaha, dayımın yanında üzüm ağ oldu!

## Farsi yaz, özü bilər

Ərdəbildə bir kişi oğlu Sahabı məktəbə qoymuşdu, amma Sahab şuluqluq etdiyinə görə müdir onu mədrəsədən qovmuşdu. Atası yalvarsa da, müdir sözündən dönməmişdi. Kişi bu işdən çox narahat olub, əlacı onda görmüşdü ki, şahın özünə bir ərzi-hal yazsın. O bir mirzəyə müraciət edir. Mirzə qələm-kağızı hazırlayıb müntəzir olur. Kişi əsəbi halda boğazını şişirdib səsini yoğunlaşdıraraq deyir:

– Götü bir kağız yaz Alahəzrətə (Əlahəzrətə)... sən elə Farsi yaz, o, özü bilər. Yaz ki, Alahəzrət. Bu ağa müdir neçə gündür ki, bizim Sahabı məktəbdən tızıxdırdı. Ordan buna bir hay-hüşt elə, bəlkə ağa müdir Sahabı məktəbə qoysun ki, bir yasindən-zaddan öyrənsin... axı ölülərimiz yasindən ötrü itin korluğun çəkirlər.

## Karın köyləndəki

Kar bir kişi zəmisində cüt sürürdü. Öküzlər yeri sökə-sökə o baş-bu başa gedib qayıdırdılar. Kişi də cütün dalısınca hərdən öküzlərə hey-hey deyərək dərin xəyala dalmışdı. Fikirləşirdi ki, əgər bu yerə yaxşı müştəri düşsə, satsa onun pulu ilə nə işlər görə bilər. Sonra deyirdi ki, yox mənim atamdan qalan elə bu zəmidi, bizim elə bu yerdən güzəranımız çıxır. Bu zaman yoldan keçən bir adam deyir ki: - A kişi, Allah qüvvət versin.

Kar cütçü səsi duyub cavab verir ki:

– Yox, qardaş, satmıram, dədəmdən qalan elə bu bir tikə yerdi, onu da satsam qalaram ac.

Yolçu kişi təəccüblə baxıb dubarə harayladı ki:

– A kişi, deyirəm Allah qüvvət versin, yorulmayasan.

Kar kişi yenə deyir: – Yox, qardaş, çox üz vurma, dedim satmaram, bu yer dədəmdən yadigardı.

Yolçu kişi dodaqlarını büzərək yolunu davam etdirdi.

Cütçü kişi gün bir az əyiləndən sonra öküzləri açıb evə qayıdır. Öküzləri həyətə buraxıb, üzünü arvadına tutaraq deyir:

– Arvad, bu gün yerə bir yaxşı müştəri düşmüşdü, amma hər nə üz vurdu, dedim satmaram, bu yer dədəmin yadigarıdı.

Sən demə, arvadın da qulaqları ağır eşidirmiş. Fikri-zikri təzə tuman yanında imiş. Çünki tumanı çox köhnəlib, cırılmışdı. Gülərək kişisinə cavab verir ki:

– Özün bilərsən kişi, hər nə alsan, geyərəm, bez də alsan, şal da alsan geyərəm. Ancaq tuman olsun ki, bədənimi örtsün.

Sonra arvad sevincək evə qayıdıb gülə-gülə qızına deyir:

– Qızım atan gəlmişdi ki, istəyirəm sənə tuman alam. Dedim ki, hər nə alırsan, al, özün bilərsən. Mənə fərqi yoxdu.

Demə qız da dədə-anası kimi kar imiş. Sevinc ilə yerindən durub gülümsünərək deyir:

– Ana, siz böyüksüz, mənim ixtiyarım sizin əlinizdədi, hər kimə versəz gedərəm, məndən niyə soruşursunuz?

Qız bunu deyib, həyətdə günün altında oturan böyük nənəsinin yanına qaçaraq deyir:

– Nənə, ata-anam istəyirlər məni ərə versinlər. Dedim hər kimi onlar məsləhət görsələr gedərəm.

Qoca qarı nənəsinin də qulağı tutulmuşdu, eşitmirdi. Dedi bəlkə nahar barəsində onun fikrini soruşur, deyir:

– Bala hər nə bişirirsiz, bişirin, amma elə bir zad olsun ki, mənim dişim yoxdu, yeyə bilim.

## Heyvanlarla ilgili məsələlərdən

Dəvələri tuturdular.

Tülkü də qaçırdı, bir nəfər dedi:

– Nə olubdu, niyə qaçırsan?

Tülkü dedi: – Dəvələri tuturlar.

Dedi: – Sən ki dəvə deyilsən.

Dedi: – Mən sübut eləyincə ki, mən dəvə deyiləm, dərimi boğazımdan fırığ çıxardarlar.

## Ağılsız qurd

Biri vardı, biri yoxdu, bir qurd vardı. Bu qurd acmışdı. Çıxır bir zad tapmağa bir qoyuna rast gəlir. Deyir acam, səni yeyəcəm.

Qoyun deyir: – Olsun da... amma mən yaxşı oynuyuram, qabağca qoy bir az oynayım.

Qurd deyir: – Eybi yoxdu, oyna.

Qoyun başlar oynamağa, yavaş-yavaş uzaxlaşır, birdən qaçır.

Sonra bir qurd gəlib bir quzu görür. Deyir: – Səni yeyəcəm.

Quzu deyir ki, mən çox arığam ətimin dadı, duzu olmaz, qoy gedim bir az otlayım, dad-duz tapım, gəlim, ye.

Qurd deyir: – Olsun.

Ordan gəlir bir keçiyə rast gəlir. Deyir: – Səni yeyəcəm.

Keçi deyir: – Mən arığam, bir dəri, bir sümüyəm. Səni doyurmaram, qoy gedim iki-üç dənə də keçi gətirim, hamımızı birdən ye.

Qurd deyir: – Yaxşı get, amma tez gəl.

Ordan gəlir bir eşşəyə rast gəlir. Deyir: – Səni yeyəcəm.

Eşşək deyir: – Sənin rəhmətlik dədən mənim dədəmi yeyəndə, yorğan-döşək üstündə yemişdi, qoy gedim yorğan-döşək gətirim, yat üstündə rahatlıqla məni ye.

Qurd deyir: – Olsun, get, amma tez qayıt, gəl.

Sonra ata rast gəlir. Deyir: – Acam, səni yeyəcəm.

At deyir: – Olsun da, amma mənim nalımın altında bir bayatı var, əvvəlcə onu oxu, sonra istəsən məni ye. Sonra at dal qıçını qovzayır. Qurd atın dalısına keçib üzünü yaxınlaşdıranda, at bir təpik vurur, qurdun dişləri sınır tökülür, özü də bir tərəfə tullanır. At da qaçır. Qurd ac və yaralı halda ağlayaraq belə oxuyur:

Harda gördün qoyun, ye qalsın quru boyun, neynirsən oyun-moyun?

Harda gördün quzu, ye qalsın quru dizi, neynirsən dadı-duzu?

Harda gördün keçi, ye qalsın quru qıçı, neynirsən iki-üçü?

Harda gördün eşşək, ye qalsın quru köşşək, neynirsən döşək-möşək?

Harda gördün at, ye yanında yat, neynirsən barat-marat?

## *Molla Nəsrəddin barədə lətifələrdən*

Bir gün Molla Nəsrəddinin evini oğru aparmışdı. Səhər qonşuları yığılıb Mollanı danlamağa başladılar. Biri deyir:

– Molla, niyə qapını möhkəm bağlamamışdın ki, oğru aça bilməyə.

Biri deyir: – Kişi, sən necə yatmısan ki, oğru gəlib bilməmisən?

O biri deyir: – Kişi, sən niyə qiymətli şeyləri bir yerdə gizlətməmişdin?

Hərə bir söz dedikdə, Molla deyir:

– Bəs məlum ola ki, oğrunun heç günahı yoxmuş, hamı təqsirlər məndə imiş.

* * *

Bir gün Mollanın bir cüt çuvalını oğurlamışdılar. Molla car çəkib dedi:

– Oğrular dedilər, bu Molladan hər nə desən çıxar, yaxşısı budu çuvallarını verək. Gətirib çuvalları qaytarır, sonra deyirlər:

– Molla sən ki, belə təhdid edirdin, de görək, çuvalların tapılmasaydı, nə iş görəcək idin?

Molla deyir: – Heç... Evdə böyük xurcunumuz var idi, onu aradan kəsib, iki çuval edəcəkdim.

## *Bəhlul Danəndə barədə lətifələr*

### Dalı yana bir zad qoy

Bir gün məclisdə ağsaqqallar Bəhlul Danəndəni danlayıb nəsihət edirlər ki, pullarını korlamayıb, dalı yana bir zad qoysun. Bəhlul üzdən gülüb deyir: – Yaxşı bundan sonra edərəm.

Bir azdan sonra şam araya gələndə, Bəhlul bir kasa xörək götürüb, dalında gizlədir. Şamın arasında bir də görürlər ki, Bəhlulun dalında pişiklər boğuşur. Deyirlər:

– Bəhlul, genə nə iş çıxardıbsan orda?

Bəhlul deyir: – Bir iş görməmişəm, bir zad dalı tərəfə qoymuşdum, indi pişiklər vərəsəlik üstündə savaşırlar.

## Əcaib səslər

Bir gün Bəhlulu nəsihət edib evləndirdilər. Bəhlul ilə gəlini bir otağa salırlar. Bəhlul gəlini uzadıb qarnını açıb, qulağını gəlinin qarnına qoyub, bir az qulaq asdıqdan sonra birdən qışqıraraq otaqdan çıxır, başına vura-vura qaçmağa başlayır. Tökülüb Bəhlulu tutub deyirlər:

– Bəhlul sən ki, ağıllı olmuşdun, bu nə işdi görürsən?

Bəhlul deyir: – Axı, siz bilmirsiz, mən qulağımı gəlinin qarnına dayadıqda, gördüm elə bir əcaib səslər gəlir ki, vəhşət elədim. Biri deyirdi: – Dədə, mən acam, çörək ver, biri deyirdi: – Dədə, başmağım yoxdu, başmaq al, biri deyirdi: – Dədə naxoşam, biri deyirdi... Xülasə, o qədər qəribə səslər eşitdim ki, qorxumdan qoydum qaçdım.

## Adamcıl qurd barəsində söyləmələr

Bu söyləmələrdə türklərin ən qədim inamlarının nişanəsi və izlərini görmək olar. Deyilənə görə gecə yarıları eşiyə başı açıq çıxan arvadın başına "don" – qurd cildi atılır. Beləliklə, o arvad gecələr qurd donuna girib, adam yeyər, gündüz olduqda hava işıqlanmamış gəlib donunu çıxardıb gizlədər və evdar arvad kimi evin işlərinə baxar. Odu ki, arvadlara gecə başı açıq eşiyə çıxmaq çox sifariş olunar.

İndi isə Yekanatda şayiə olan bu söyləmələrdən ikisini təqdim edirik.

## Birinci söyləmə

Deyirlər bir igid kişinin oğlu varmış. Bir gün qış fəsli bu oğlan ayrı bir kənddən qayıdarkən, bir dəstə qurda rast gəlir. Qurd qışda çox xətərli olur. Yayda qarınları tox olduğuna görə adam ilə işləri olmaz. Amma qışda aclıqdan hücum edirlər. Onlar əvvəlcə dal ayaqları ilə qarı adamın baş-gözünə sovurub ka-

rıxdırar və bir ləhzə qəflətdən istifadə edərək adamı parçalarlar. Qurd tək olsa, onun öhtəsindən gəlmək çətin olmaz. Bu zaman çuxanı çıxarıb qollarına dolayıb qurdun ağzına verərək, həmişə səfərdə götürülən ağacla onun başına tapdayaraq öldürərlər.

Əlqərəz, igid və qorxmaz cavan qurdlardan beşini öldürər, özü də yaralanar.

Bu xəbər ataya çatanda o deyir ki:

– Yox, mənim oğlum yaralanmaz, yaralansa o mənim oğlum deyil.

Kəndlilər təəccüblə soruşurlar:

– Sənin oğlun beş qurdu öldürüb, nə üçün sən onun yaralandığını qəbul edə bilmirsən?

Atası deyir: – Qulaq verin mən onun dastanını deyim, görün ki, mən haqlıyam, ya yox?

Ata söhbətə başlayır:

– Cavan çağlarımda bizim yerdə əcaib bir hadisə üz verdi. O da bu idi ki, ölü quylanan gecəsi bir heyvan gəlib, qəbri qazıb onu çıxardıb yeyirdi.

Günlərin bir günü mənim igidlikdə çox məşhur dayım öldü. Dayımın cənazəsi çıxardılıb yeyilsə idi, mənim üçün çox baş alçaqlığı ola bilərdi. Odur ki, dedim dayımın qəbrinin yanında mənim üçün də bir çuxur qazdılar. Gecə sıyırma qılınc əldə çuxura girib gizləndim. Gecə yarısı bir qurda bənzər heyvanın qəbrə yaxınlaşıb, ayaq tərəfdən qəbri sökməyə başladığını görüb qılınc əldə onun üstünə yumuldum. O heyvan da mənim üstümə atıldı. Saatlarla bir-birimiz ilə qucaqlaşıb sürüşdük, gah o məni, gah da mən onu alta basırdıq. Bədənim neçə yerdən yaralanmışdı.

Bu çəkişib-sürüşmə hava işıqlanacan davam etdi. Az qalırdı ki, mən ona zor gəlib başını yerə çırpıb dağıdım, birdən qışqırdı ki:

– Evin yıxılsın, məni öldürmə, mən bir qızam, gecələr qurd donuna girirəm.

Beləliklə, mən ondan əl çəkib, qurd donunu çıxardıb yandırdıqdan sonra onunla evləndim. Bu oğlan o evləndiyim arvadın balasıdır. Odur ki, deyirəm qurddan olana qurd neyləyə bilər?

## İkinci söyləmə

Deyirlər bir zaman bir kənddə gecələr qurd gəlib uşaqları apararmış. Kənd əhalisi kəndin ətrafında gecələr səhərə təkin keşik çəkərmiş. Amma genə də bu iş davam tapar, gecədə bir uşaq yox olarmış.

Kəndlilərin biri bu barədə öz arvadından şübhələnir. Gecə oyaq qalaraq, güdüb arvadın yerindən durub eşiyə çıxmasını görür. Kişi də onun dalısınca durub, onu pusur. Görür ki, arvad qalağın içinə girdi. Amma bir az sonra qalağın içindən bir qurd çıxıb duvardan atılıb getdi. Səhər işıqlananda isə gördü ki, qurd qayıdıb gəlib, qalağa daxil oldu, az müddətdən sonra isə arvad qalaqdan çıxıb gəlib yerinə girdi. Səhər arvad kəhrizə su gətirməyə gedəndə kişi qalağa girib, onun qurd donunu yandırır. Donun yanmaq iyisi kəhrizdə arvadın burnuna dəydikdə, səyənki yerə çırpıb evə qaçır. Amma don yanıb qurtarmış, arvad isə rahatlığa çıxmışdı.

## Cinlər ilə bağlı söhbətlər

Keçmiş evlərdə hamam yox idi. Ümumi hamamlar kişilər üçün olub. Arvadların ayrıca hamam günü olardı. Kişilər, xüsusən namaz qılanlar qüsul etmək üçün səhər tezdən durub hamama gedərdilər.

Bir nəfər səhər tezdən durub hamama gedir. Gedir görür hamam açıqdı, gəl-get var, bu da gedir bir tərəfdə soyunub içəri girir. Əvvəl xəzinəyə girir, sonra çıxıb bir guşədə kisə çəkmək istəyir. Birdən gözləri çimənlərdən birinin ayağına sataşır. Görür ki, bunların ayaxları keçi ayağı kimidi. O birilərə baxır görür bəli... hamısının keçi kimi dırnaqları var. İşi anlayıb tələsik durub eşiyə qaçıb paltarlarını geyir. Üzünü hamamçıya tutaraq deyir: – Usta içəridəki adamların hamısının dırnaqları var.

Camadar qıçını altından çıxardaraq deyir: – Yəni bu cürdürlər?

Kişi görür ki, onun dırnağı var, qorxudan yıxılıb huşunu itirir.

## Hacı ilə şeytan

Bir gün bir lotu adamın işi çox dala düşmüşdü. Günü çox pis keçirdi. Şeytanın ürəyi lotuya yandı. Yanına gəlib dedi:

– Lotubaşı niyə belə qəmginsən?

Lotu dedi: – Vallah, bir yandan gəlirim gəlmir, xərcliyim yoxdu, bir yandan borclu düşmüşəm, güzaranım çox pis keçir.

Şeytan dedi: — Qüssə eləmə, mən bir yaxşı ərəbi at olaram, apar məni sat, xərclə. Şeytan bunu deyib, vird oxuyub bir ərəbi at oldu. Lotu sevincək atın cilovundan yapışıb, şəhərə çıxartdı. Bir dövlətli Hacının qapısının qabağına gətirdi. Hacı eşiyə çıxanda gözü bir gözəl ata sataşdı.

Hacı dedi: – Lotubaşı, bu atı haradan almısan? Nə yaxşı atdı.

Lotu dedi: – Hacı ağa, bu atı əmirlərdən biri mənə bağışlayıb, satıram.

Hacı dedi: – Neçəyə deyirsən?

Dedi: – On min tümənə.

Hacı dedi: – Yaxşı atdı, amma bu qiymətə dəyməz.

Lotu dedi: – Hacı ağa, bundan artığa dəyər, pula ehtiyacım var ona görə satıram.

Oyan- buyan Hacı atı lotudan 8 min tümənə alıb evə apardı.

Hacı atın şövqündən yerdə-göydə durmurdu. Bir təmiz otağı boşaldıb, atı oraya bağladı. Pərvanə kimi onun başına dolanırdı, sığallayıb tumarlayırdı.

Axşamçağı özü atın cilovundan yapışıb, onu suvarmağa gətirir. At ağızını su axan lüləyə dayayıb içməyə başlayır. Hacı da ləzzət ilə ona baxaraq, ağzı ilə fışqırıq çalırdı. Bir də gördü atın ağzı, burnu su lüləsinin içinə girib. Hacı gördüyünə inana bilmirdi. O yekəlikdə atın başı bu darlıqda su lüləsinə necə girirdi. Dili tutulub mat qalmışdı ki, bir də gördü atın başı tamamilə su lüləsinin içindədi. Hələ atın boynu da yarıya kimi lüləyə girmişdi. Hacı hər nə gücü var idi cilovu çəkdi. Atın qabaq ayaqları da lüləyə girdi. Hacı çığırıb haray çəkdi. Uşaqlar Hacının dövrəsini alıb, işin nə yerdə olduğunu soruşdular.

Hacı dedi: – Nə olacaq, evim yıxılıb, səkkiz min tümənlik atım su içərkən girdi su lüləsinə.

Uşaqlar qah-qah çəkib güldülər, Hacını huya basaraq dedilər:

– Hacı, dəli olmusan, ya nədi? O yekəlikdə at nə cür bu darlıqda lülənin içinə girə bilər?

Hacı hirslənib uşaqları qovaladı ki:

– Dəli özünüzsüz, cədd-əbadızdı, hələ mənim öz dərdim özümə bəs deyil, mənə dəli adı da qoyursuz...

Bu zaman böyüklər yığılıb Hacını danlayıb dedilər:

– Hacı, sənin saqqalın ağarıb, nə üçün uşaqlara baş qoşursan?

Hacı dedi: – Axı bilmirsiz, mənim atım su içəndə, su lüləsinin içinə giribdi. İndi bular da mənimlə baş-başa qovuşurlar ki, Hacı dəli olubdu.

Dedilər: – Axı, Hacı, sən özün bir fikirləş, gör o yekəliklə at nə cür bu darlıqda lülənin içinə girə bilər. Bu lüləyə barmaq da girə bilməz.

Hacı dedi: – Vallah, mən də bilirəm ki, ağıla sığışan iş deyil, amma nə eləyim. Mən öz gözüm ilə gördüm ki, at bu su lüləsinə girdi.

Camaat dedilər: – Biçarə Hacı dəli olubdu.

Hacı bu sözü eşitdikdə, genə də hirslənib xalqa hücum gətirərək yamanlanmağa başladı. Xalq da onu huya basıb, oynatmağa başladı. Bu zaman məmurlar gəlib, Hacını tutub idarəyə apardılar. Orda davanın səbəbini soruşduqda, Hacı qəziyyəni onlara da nəql elədi. Qazi başını tovlayıb dedi:

– Hacını dəlixanaya aparın, qalar evdə arvad-uşağa sədəmə vurar. Yaxşı olandan sonra evinə qaytarın.

Hacı dəlixanada özünü dəlilər arasında gördükdə, vəhşətə düşüb çığırıb səs salmağa başladı ki: – Axı, mənim haram dəlidi, məni niyə buraya salmısız?

Məmurlar dedilər: – Hacı, eyb eləməz, inşallah tezliklə toxtarsan.

Sabah doktor gəlib Hacı ilə keyf-əhval etdikdən sonra bir qədər danışdı. Hacı sağlam adamlar kimi ona cavab verirdi.

Doktor dedi: – Hacı, məncə səndə heç nə yoxdu, mən təəccüb edirəm ki, səni buraya salıblar.

Hacı dedi:

– Doktor, vallah, mənim heç nəyim yoxdur, fəqət bir haqq söz danışdığım üçün məni gətirib buraya salıblar.

Doktor dedi:

– O haqq söz nədi?

Hacı dedi:

– Sözün düzü bir gözəl at almışdım. Apardım suvaram, əvvəlcə başı, sonra da tamam bədəni su lüləsinin içinə girərək qeyb oldu.

Doktor gördü ki, ağlı çox da salim deyil. Gətirib bir neçə iynə vurdu. Sonra da neçə nəfər Hacının dostlarından onun dəli olduğunu soruşmaq üçün gəldilər. Çoxlu söhbət etdikdə, hamısı təəccüb etdilər ki, Hacı bu ağıl-huşu ilə nə üçün dəlixanaya salınıb. Ancaq fəqət at barəsində dediyi sözlər onun dəliliyini göstərirdi.

Onlardan bir neçəsi doktorun yanına gəlib, ona dedilər ki, Hacının hər zadı düzgün və öz yerindədi, fəqət bu at barəsində danışanda çaşır. İndi bir cürlük ilə, o kəlməni başından çıxardın getsin işinin dalınca.

Sabah doktor gəlib Hacıdan soruşdu:

– Hacı, at necə oldu?

Hacı dedi: – At girdi su lüləsinə.

Doktor göstəriş verdi, iki nəfər Hacını yerə uzadıb yoğun ağacla döyməyə başladılar. Hacının bağırtısı göyə çıxdı. Sabah doktor genə gəlib, Hacıdan soruşdu ki: – Hacı, at hara girdi?

Hacı dedi: – Su lüləsinə.

Doktor genə əmr elədi, Hacını saldılar kötək altına.

Bir aya qədər hər gün doktor Hacıdan bu sözü soruşdu. Hacı da bu cavabı verirdi və doktor da onu ağac altına saldırırdı ki, bəlkə bu sözü başından çıxarda. Bir gün dostlardan biri Hacının yanına gəldi, gördü Hacı bir dəri, bir sümük olubdu.

Soruşdu ki: – Hacı niyə belə olubsan?

Hacı dedi: – Bəs ki, məni döyüb incidirlər.

Dostu dedi: – Nə üçün səni vururlar?

Hacı dedi: – Mən bir at almışdım. At su içəndə girdi su lüləsinə. Odu ki, gündə məni vururlar ki, niyə deyirsən at girib su lüləsinə.

Dostu dedi: – Hacı elə şey olmaz ki...

Hacı dedi – Axı mən öz gözümlə gördüm ki, at girdi su lüləsinə.

Dostu dedi: – Tutax ki, düz deyirsən. Amma sən görürsən ki, bu söz üstə gündə səni döyürlər, demə, yoxsa, bu kötəklərin altında ölərsən.

Hacı bir az düşünüb, dedi: – Sən düz deyirsən, bunlar məni öldürərlər. Sabahdan daha demərəm. Sabah doktor gəlib soruşduqda Hacı dedi:

– At əlimdən qurtarıb qaçıb.

Doktor dedi: – At su lüləsinə girməyibdi?

Hacı dedi: – Əlbəttə ki, yox. O yekəlikdə at necə su lüləsinə girə bilər?

Doktor sevinib dedi: – Hacı yaxşı olubdu, daha boşlayın getsin. Hacı evinə qayıtdıqda, su lüləsinin qabağından keçəndə bir də gördü ki, atın qulaqları və burnu su lüləsindən eşiyə çıxıbdı. Dedi:

– Mən bilirəm ki, sən oradasan, amma o kötəklərin qorxusundan daha deyə bilmərəm.

# NAĞILLAR

## AĞ AT, QARA AT

Biri var idi, biri yox idi. Allahdan qeyri heç kəs yox idi. Bir padşah var idi. Bu padşahın bircə qızı var idi ki, çoxları elçi gəlmişdilər. Amma şahın qızı bir şərt qoymuşdu. O da ibarət idi bir neçə tapmacadan, demişdi hər kim bu tapmacaların cavabını verə bilsə, ona gedəcəm. Padşah da hər yerindən duran qızına elçi gəlməsin deyə tapmacanı tapa bilməyənlər üçün ölüm cəzası nəzərdə tutmuşdu. Bir neçə nəfər gəlib tapmacanı tapa bilmədikləri üçün həbsə alınmışdılar. Müntəzir idilər ki, onların sayı qırxa yetişəndə hamısının bir yerdə boyunlarını vursunlar.

Bu zaman bir div tanınmamaqdan ötrü özünü adam şəklinə salıb şəhərə gəlmişdi. Amma ölüm cəzasından qorxurdu, çalışırdı ki, bir təhər o tapmacaların cavabını ələ gətirsin, sonra elçiliyə getsin, o gözəl qızı ələ gətirib yesin.

Hər gün gedib qızın bağının ətrafında gəzərək qızı görürdü. Bir gün qız bağa gəlib bir duvarın ayağında köşkdə oturub öz-özü ilə danışırdı. Div də duvarın o biri tərəfində gizlənib qulaq asırdı ki, bəlkə onun sözlərindən bir şey ələ gətirə bilə. Qəzadan qız ki öz-özünə danışırdı, birdən öz elçiləri yadına düşdü ki, heç birisi dediyi tapmacaları aça bilməmişdilər. Qız ki özünü bağda tək gördü, uca səslə gülərək, dedi, axı bu tapmacaları açmaq çətin deyil, qara toyuq qarnı, qarnı yarıq, haman buxarıdır da. Bunu bilməyə nə var? Bizim evdən sizin evə yol salmış da siçandır da, bunun da bir çətinliyi yoxdur ki.

Bunu da deyək ki, qədimdə kəndlərdə damın duvarında bir ocaq qayırıb divarın içindən də tüstü çıxmaq üçün bir lülə yol dama düzəldərdilər. Buna buxarı deyilərdi. Onun içi qaralardı. Bu tapmaca o buxarıya aid idi.

Hər halda div duvarın dalısından bu sözləri eşitcək, haman xoşhal olub, sabah şahın sarayına gedib qızına elçi olduğunu bildirdi. Padşah əvvəlcə ona nəsihət verdi. Dedi cavansan özünə rəhm

elə. Çoxları gəlib, bu müəmmanı aça bilməyərək, həbsə düşüb ölümlərinin intizarındadılar. Div israr elədi ki, yox mənim qanım o birilərindən qırmızı deyil. Nəhayət, padşahın qızı gəlib arada çəkilən bir pərdənin dalında oturub, müəmmalarını şərh elədi:

– Qara toyuq, qarnı yarıq?

Div cavab verdi ki, bu duvar buxarısıdı.

Qız təəccüb etdi, amma bir söz deyə bilməzdi, çünki bu şərti o özü qoymuşdu. Çarəsiz qalaraq ikinci tapmacanı belə şərh elədi:

– Bizim evdən sizin evə yol salmış?

Div dedi: – O da siçandı.

Hamı heyrətdə qaldı, qız təəccübdə qaldı, atasına dedi: - Mən bu adama getmək istəmirəm. Atası dedi bu qeyri-mümkündü, mən neçə nəfəri bu məsələ üstündə zindana salıb məhbus etmişəm. İndi ki bu cavan o tapmacaları açıbdı, sən ona getməlisən.

Beləliklə, div gedib iki at, biri ağ, biri qara gətirdi. Əvvəlcə ağ atı qabağa gətirdi. Qız minmək istədikdə, qara at səsləndi ki, ona minmə, yoxsa dərdi-sərə, bədbəxtliyə düşərsən, mənə min.

Qız qara ata sarı gəlib ona mindi. Div ağ ata minib padşahla görüşüb yola düşdü. Yolda div qıza dedi sən get, mən atdan yenirəm ki, patavalarımın bağını bağlayım. Qız qara atın üstündə getməkdə oldu. Qara at qıza dedi: – Dön bir dalıya bax, gör nə görürsən? Qız baxıb gördü ki, bir div gəlir, alt dodağı yer süpürür, üst dodağı göy süpürür. Qara at dedi ki, o, haman sənin ərindi ki, öz həqiqi qiyafəsini tapıbdı. İndicə gəlib, səni bir tikə eləyib, yeyəcək.

Qız dedi: – Bəs nə etməliyik?

Yol üstə bir ağac var idi. Qara at onun yanında durub qıza dedi: – Sən çıx ağacın başına, mən burada olsam, qoymaram sənə bir ziyan yetişsin. O, səni öz qəsrinə aparıb axırıncı otaqda zəncirə çəkəcək, sonra rahatlıqla gəlib səni yeyəcək. Amma mən hər nə cür olsa, sənə nicat verməyə gələrəm. Nə vaxt mənim səsimi eşitdin, bil ki, qapıları sındırıb eşiyə çıxmışam. Üçüncü səsdən sonra sənin yanındayam.

Qız atın üstündən əlini uzadıb, bir budaqdan yapışıb ağacın başına çıxdı. Div gəlib gördü ki, əli qıza çatmayacaq, bir yandan da qara atdan qorxurdu. Qara atın noxtasından yapışıb, öz imarətinə aparıb, altı otağın içindən keçirib, yeddinci otaqda onu zəncirlədi, qızın yanına qayıtdı, dişlərini qayçı kimi ağaca çəkməyə başladı. Bu zaman qara atın səsi eşidildi. Qız bildi ki, qara at zəncirləri qırıb. İkinci səsi eşidəndə bildi ki, qara at qapıları sındırıb, imarətdən eşiyə çıxıbdı. Div dişlərini hələ ağaca çəkməkdə idi. Ağac yerə yıxılan zaman qara at üçüncü dəfə səslənərək özünü yetirib, iki ayaqları ilə divin kəlləsinə elə çaldı ki, div yerə düşüb huşdan getdi. Qız tez atılıb qara atı minərək, oradan uzaqlaşdı. Onlar yolda bir çobana rast gəldilər. Qız hər nə qızıl bəzəyi var idi, çobana verib, onun paltarını alıb əyninə geydi, öz paltarlarını isə çobana bağışladı. Gəlib-gəlib bir şəhərə çatdı. Hər kəs adını soruşdu dedi: “Alı”. Gedib o şəhərin padşahının sarayında, şahzadəyə nökər oldu. Şahzadə onun gözəlliyindən heyrət qalmışdı. Onun barmağında üzük yeri və biləklərində bilərzik yerini gördükdə, şəkkə düşdü. Anasına dedi: – Ana bunun barmağında üzük yeri, qollarında bilərzik yeri var.

Anası dedi: – Bir zad dəyil, onu imtahan edərik. Ona güldən yataq düzəlt, qız olsa, güllər ölüşgüyər, amma oğlan olsa, yox.

Şahzadə onun yanına gəlib dedi: – Alı, bu gecə yataqlarımızı güldən düzəldib, gül üstə yatacağıq.

Qız gəlib bu sözü qara ata dedi. Qara at dedi: – Sən səhərədək yerdə yat, səhərə yaxın durub güllərin üstündə yat, beləliklə, güllər ölüşgəməz.

Qız elə o cür elədi.

Şahzadə səhər gəlib, baxdı gördü güllər təzə qalıbdı. Anasına dedi ki: – Ana, güllər əsla ölüşgəməmişdir. Amma onun əllərində bilərzik yeri, barmağında üzük yeri var, mən yəqin bilirəm ki, Alı qızdı.

Anası dedi: – Sabah onunla güləş, o zaman bilərsən ki, o qızdı, ya oğlan.

Şahzadə Alıya dedi ki, sabah mənimlə güləşəcəksən.

Qız genə gəlib macəranı qara ata danışdı. Qara at dedi: – İki cəviz ilə bir yerkökü şalvarında gizlət, o, sənə əl atacaq, onda sənin oğlan olduğunu yəqin edəcək. Bu hadisə də o cür oldu. Şahzadə gəlib macəranı anasına söylədi, lakin dedi ki, mən hələ də inanmıram. Çünki onun qolunda bilərzik yeri, barmağında üzük yeri var. Ana, vallah, Alı qızdı.

Anası dedi: – Belə olsa, sabah onu göl başına apar, ikiniz də soyunub göldə çimin. Onda daha səndə şübhə yeri qalmaz.

Qız genə qara atın yanına gəldi. Qara at dedi: – Daha çarə yolu qalmayıb, sözün düzünü ona de. Sabah qız şahzadəyə dedi ki, o qızdı. Lakin divin macərasını ona demədi. Şahzadə bu xəbəri eşitdikdə sevindi. Ona arvad paltarı geyindirib onu aldı.

Yeddi gün, yeddi gecə toy tutdurdu. Bir müddət keçdikdən sonra şahzadə padşahlığa çatdı. Məmləkətə baş çəkmək məqsədilə bir uzun səfərə getməli oldu. Qız boylu idi. Doqquz ay, doqquz gün, doqquz saat, doqquz dəqiqə keçdikdən sonra gözəl bir oğlan dünyaya gətirdi. Şahzadənin anası bir kağız yazıb, bir nökərin vasitəsi ilə oğluna göndərdi. Yazdı ki, oğlun olmuşdur, tezliklə evə qayıt. O tərəfdən div qızdan bir xəbər bilmək üçün yeddi yolun üstündə bir ev salıb gəlib-gedənlərdən qızı soraqlaşardı. Haman nökər oradan keçəndə, div onun hara getdiyini soruşdu. Əhvalatdan xəbər tutdu. Ona gecə orada qalmağı dəvət etdi. Gecə durub onun ciblərindən kağızı tapıb oxudu. Sonra o kağızı cırıb, bir ayrı kağız anasının dilindən yazdı ki: – Oğul, aralıq qızı elə bundan artıq olmaz. Sən gedən gündən hər gün biri ilə oyan-buyandadır. Daha bizdə abır-həya qoymayıbdır. Kağızı qoydu nökərin cibinə. Səhər nökər gedəndə sifariş elədi ki, qayıdan baş da gəlib ona qonaq olsun. Nökər getdi kağızı şahzadənin əlinə yetirdi. Şahzadə kağızı oxuduqda çox narahat oldu. Həm də çox təəccüb elədi. Cavabında yazdı ki, mən tezliklə qayıdacağam, mən gəlincə bir təhər keçinin, ta gəlim, görüm qəziyyə nədi? Nökər kağızın cavabın alıb yola düşdü. Gecə genə gəlib divə qonaq oldu. Div oyanandan sonra kağızı onun cibindən çıxardıb bir ayrı kağız onun yerinə qoydu ki: "Mən

gəlincə, onun uşağını da ətəyinə qoyub, evdən eşiyə qovun. Mən gəlib onu orada görsəm, hamınızın boynunu vurdutduracağam”. Kağızı anaya verdilər, ana da gəlinə verdi ki, oxusun. Gəlin kağızı oxuyub ağladı. Kağızın məzmununu anaya dedi. Ana bilmirəm nə üçün belə yazıbdı. Amma ki, o şahdı, gəlsə məni də, səni də, oğlunu da öldürər. Sən başın sağ qalmaq üçün uşağını götürüb bu diyardan çıx get.

Qız ağlar gözləri ilə qara atı minib, uşağını qucağına alaraq, baş alıb getdi. Bir biyabandan keçərkən qara at dedi: – Mənin ömrüm başa çatmışdır. Sən daha tək qalacaqsan, ölümə dünyada çarə yoxdur. Lakin mən öləndən sonra mənim qarnımı yırt və bağırsaqlarımı dövr-ha-dövr hasar kimi ətrafına çək, özün də uşağın ilə mənim qabırğalarımın arasına gir. Beləliklə, hər xətərdən, amandan qalarsan.

Qara at öldü. Qız o dediyi kimi onun qarnını söküb bağırsaqlarını dövriyə çəkdi. Özü də uşağı ilə onun qabırğalarının arasına sıxıldılar. Səhər göz açıb gördü atın qabırğaları böyük bir imarət olub, bağırsaqlar da uca bir hasar divarına çevrilib. Arada bir bağ gülşən olub, hər cür meyvə ağacı desən onda tapılar. Beləliklə, qız orada yaşamağa başladı.

O tərəfdən şahzadə səfərdən gəlib arvad-uşağını görmədikdə macəranı soruşdu. Anası kağızı göstərib dedi ki, özün yazmışdın....

Şahzadə dedi bu mənim yazdığım kağız deyil. Nökərdən təhqiqat etdikdə məlum oldu ki, o gedib-gələndə gecələri bir yerdə qonaq qalmışdı. Adam yollayıb divi tutdurub öldürtdü. Amma daha qızdan, oğlundan bir xəbər almadı.

Bir gün şah şikara çıxmışdı. Bir şikar vurdular, amma od-ocaq olmadığı üçün yaxında bir imarət gördükdə oraya sarı yollandılar. Lakin imarətin əzəmətindən heyrətə gəldilər. Fikirləşdilər kimdir ki, biyabanda belə bir imarət saldırıb, şəhərdən, kənddən uzaq yaşayır? İmarətdən tüstü çıxdığını gördükdə nökərlərinə dedi ki, o şikarı aparıb, o evdə kabab edib gətirsinlər. Nökər gəlib qapını döydü. Qız qapını açdı. Nökər ağasının xahişini

dedi. Qız dedi gəl bişir. Nökər tərif etdikdə, o şəxsin onun əri olduğunu başa düşdü. Nökər imarəti görüb ağzı açıla qalmışdı. Bir də gördülər ki, kabablar yandı. Qız dedi: – Ey ağasından ağıllı, kabablar yandı.

Qız dedi ki, yoldaşlarına de ki, bu gecə mənə qonaq olsunlar. Nökər yanıq kabablarla ağasının yanına qayıtdı, xanımın dediklərini ona dedi. Şah başının adamları ilə imarətə getdi. Qız üzünə niqab salıb onları qəbul etdi. Onlar yatandan sonra meyvələrdən dərib, şahzadənin xurcununa doldurdu. Qonaqlar getmək istədikdə qız bildirdi ki, xurcunlarınızı axtaracağam, görüm buradan bir şey götürüb aparmırsınız ki. Yoxlayanda şahın xurcunundan meyvələr çıxdı. Qız şaha dedi ki, sən burda oğurluq eləmisən. Bunlar getsinlər, amma sən burada qalmalısan. Şahın yoldaşları eşiyə çıxandan sonra qız üzünü açdı. Şah gördü ki, bu, onun öz arvadıdı. Şah çox üzrxahlıq elədi. Məktubun dəyişilməsini də nağıl elədi. Dedi bəs bu oğlan da mənim oğlumdu? Arvadı dedi, bəli.

Onlar oradan çıxıb şəhərə gəldilər, şadlıq elədilər. Onlar yedilər, içdilər, qara yerə keçdilər. Siz də yeyin-için. Mətləbimuradınıza yetişin.

## YEDDİ QARDAŞ BİR BACI

Biri vardı, biri yoxdu, bir arvadın yeddi oğlu vardı. Bu arvad genə də boylu olur, oğlanlar şikara gedirlər, deyirlər ana bu dəfə də oğlan doğsan bir daha bu evə ayax qoymayacayıq.

Ana deyir: – Əgər qız doğsam qapıdan bir ələk asaram. Yox, əgər oğlan doğmuş olsam, qapıya bir tüfəng asaram ki, biləsiz.

Arvad bir qız doğdu, qonşunun arvadına dedi ki, qapıdan bir ələk as, çünki oğlanlarıma demişəm qız doğsam qapıya ələk asacam, oğlan doğsam tüfəng. Əgər tüfəng assam, oğlanlarım qoyub gedərlər, bir daha bu evə qədəm qoymazlar.

Qonşu arvad çox paxıl idi, ələk əvəzinə qapıdan bir tüfəng asdı. Oğlanlar şikardan qayıdanda uzaxdan tüfəngi görüb qayıtdılar. Gedib uzaxlarda dam-daş tikib orada qaldılar. Günüzlər şikara gedir, ovladıqlarını gətirib yeyirdilər.

Bu qız böyüdü. Bir gün bir qoyun qarnı almışdılar, apardı su başında yusun. Birdən bir qarğa gəlib qarını götürüb apardı. Qız quşun dalısınca qaçdı. Qarğa gəlib qardaşların duvarına qondu. Qız hər tərəfə baxdı, gördü duvarlar ucadır. Darvaza da bağlı idi. Su gilifi vardı, ordan həyətə girdi, qarnı qarğanın ağzından aldı, amma qayıdanda axtardı, su yolunu tapa bilmədi. Otaqların qapısı açıq idi. İçəri girib evi tör-töküntü, toz-torpaq basmış gördükdə ev-eşiyi silib-süpürüb, təmizlədi. Evdə ət vardı, qazana töküb bişirdi, qardaşlar gələnə yaxın gedib döndərmənin altında gizləndi. Oğlanlar evə gəldikdə xörəklərini hazır görüb təəccüb qaldılar. Bunun kimin işi olduğunu bilmədilər. Qərara gəldilər ki, sabah qardaşlardan biri damda gizlənsin, bacadan evi güdsün, görsün xörəyi bişirən kimdi?

Böyük qardaş dedi: – Mən qalaram, siz gedin şikara.

Böyük qardaş damda oturub, gözlərini bacadan içəriyə zillədi. Bir müddətdən sonra yuxusu tutdu. Qız döndərmənin altından onun yatdığını gördükdə eşiyə çıxıb, evi təmizləyib, xörəyi bişirib, genə də döndərmənin altında gizləndi. Qardaşlar gəlib evi genə təmiz görüb, xörəyi hazır gördükdə böyük qardaşlarından bunun səbəbini soruşdular. Amma o dedi ki, heç kimi görməyib. Bir zaman gördüm ki, ev süpürülüb, xörək isə bişibdir.

Sabah ikinci qardaş dedi mən qalacağam, görüm bu işləri görən kimdi, haradan gəlir? Sabah o da bir müddət bacadan gözlərini evin içinə zillədi, sonra onu da yuxu apardı. Qız çıxıb evi-eşiyi süpürüb-təmizləyib, xörəyi bişirib, genə də gedib döndərmənin altında gizləndi. Altı qardaş bu cür oldular. Kiçik qardaşa növbə yetişəndə, dedi mən bu gün bu işin üstünü açaram. O da bir müddət bacadan içəri baxdı, bir zaman gördü gözlərini zilləməkdən yuxusu tutur. Barmağını kəsib, üstünə az duz tökdü, onun acışmasından daha yuxusu qaçdı. Amma yalandan özünü yuxuya vurdu. Bir zaman gördü ki, bir qız döndərmənin altından çıxıb, evi süpürməyə başladı. Tez damdan aşağıya yenib, qızdan soruşdu ki: – "Sən kimsən?"

Qız başına gələnləri, oraya girməsini nağılladı. Axşam qardaşlar qızı evdə görəndə, dedilər elə biz yeddi qardaşa bir bacı lazımdır. Belə yaşamağa başladılar.

Bir gün bacı naxoşlayıb ölüm ayağına düşdü. Qardaşların əllərindən bir iş gəlmirdi. Bir dəvə gətirib üstünə xurcun qoyub qızı bir taya, o biri taya da qızıl-gümüş doldurdular. Bir kağız yazıb içinə qoydular ki, hər kim bu dəvəni tapsa, bu pulları qızın sağalmasına, ya əgər ölsə, onu “kəfən və dəfn” etməyə xərcləsin. Dəvəni gətirib, bir yola ötürdülər. Dəvə baş alıb getdi, bir şəhərdə bir şahzadə dəvəni görüb ovsarından yapışıb öz sarayına apardı. Orda yükü açdıqda, bir qızın cənazəsini və bir tay dolu qızıl-gümüş gördülər. Kağızı oxudular. Bir ayna gətirib qızın burnunun qabağına tutdular. Gördülər ki, qızın hələ nəfəsi var, ölməyibdir. Həkim gətirib dava-dərman etdikdə qız sağaldı. Şahzadə qızı aldı. Bir ildən sonra bir oğlan sahibi oldular. Oğlan böyüyüb yeddi yaşına çatdı. O tərəfdən də qardaşlar bir müddətdən sonra bacılarından bir xəbər tutmaq fikrinə düşdülər. Hər biri bir libas ilə hərəsi bir tərəfə düşüb bacılarını ölmüş bilib onun qəbrini axtarmağa başladılar. Kiçik qardaş çoban paltarı geymişdi, gəlib həmən bacısı olan şəhərə çatdı. Orada bir neçə uşaq oynayırdı. Uşaqların biri udmuşdu, lakin o biri uşaqlar bunu qəbul etmirdilər. Biri dedi: – “Get, ey anası nə bəlli, naməlum udmamısan”...

Oğlan anasının yanına qayıdıb vəziyyəti ona danışdı. Kiçik qardaş bunu eşidib maraqlanır, işin nəticəsini bilmək üçün orada oturur.

Oğlanın anası ona deyir: – Get, uşaqlara de ki... yeddi dayımın canı, udmuşam, ey udmuşam.

Uşaq qayıdıb, bu sözü dedikdə, dayısı bilir ki, bu elə bacısının oğlu olmalıdı. O, saraya gedir, bacısını görüb tanıyır. Sonra düşüb qaradaşlarını axtarıb tapır, bacılarının yanına gətirir. Deyirlər ki, bizim atamız-anamız indi qocalıb, biz onların yanlarına getmək istəyirik. Qız deyir mən də gedirəm. Gəlib görürlər ata-ana qocalıb yerə yapışıblar. Ana qızını gördükdə, tanıyır, deyir ki, bu sizin

doğma bacınızdı. Beləliklə, hamı xoşhal olub, şadlıqla yaşayırlar. Siz də sağ-salamat olun, arzularınıza yetişin.

## BƏHLULUN TƏDBİRİ

Qədim zamanlarda biri Bağdada işləməyə gedir. 3-4 ay işləyir 500 dinar pul qazanır. Bu kişi istəyir ki, 500 dinar da əlavə qazanıb min dinar edib, vilayətinə qayıtsın. Ancaq 500 dinarı itirib, oğurlatmaqdan qorxur. Odu ki, bir əmin adam axtarır. Ona deyirlər, get Bəhlulu tap o, sənə bir yol göstərər. Kişi çox axtarandan sonra Bəhlulu tapır, görür uşaq kimi bir qəmiş ağacı minib, oyan-buyana çapır. Kişi naümidliklə dərdini Bəhlula deyir. Bəhlul deyir:

– Apar pullarını bir salim adama tapşır.

Bunu deyib, qəmiş atına bir qamçı vuraraq, uzaqlaşır. Kişi mat qalaraq, bazara qayıdır. Hücrələrin birində görür ki, saqqalı hənalı, üz-gözü səfalı bir adam döşəkçənin üstündə oturub, təsbih çevirməkdədi. Öz-özünə fikirləşir ki, əzası düzgün adam olsa-olsa budur. Qabağa gedib salam verir. Hacı mehribanlıqla salamı alıb onu əyləşməyə dəvət edir. Qəhvəçini çağırıb, çay sifariş verir. Sonra ondan gəlməsinin məqsədini soruşur. Kişi utana-utana deyir:

–Vallah, Hacı ağa, bir az pulum var, qorxuram yanımda saxlayam oğurlayalar. Odur ki, bir Allah bəndəsi axtarırdım ki, pullarımı onun yanında əmanət qoyum. Dedim elə siz etibarlı adamsız, sizə zəhmət verim ki, bir ay bu pulu mənim üçün saxlayasız, vətənə gedəndə gəlib sizdən alam.

Hacı deyir: – Eybi yoxdu, oğlum, verin saxlayaram.

Kişi pullarını Hacıya təqdim edib, mürəxxəs oldu. Bir müddətdən sonra 500 dinar da yığıb, vətənə getmək qəsdinə düşdü. Hacının dükanına gəlib, ucadan salam verdi. Amma Hacı başını aşağı dikmişdi, salamın cavabını vermədi. Kişi bir də salam verir. Hacı saymazyana başını bir az qovzuyub, salamın cavabını vermək əvəzinə dedi:

– Nə istəyirsən?

Kişi qısıla-qısıla dedi: – Hacı ağa, istəyirəm, Allah qoysa, vətənə qayıdım.

Hacı dedi: – Vətənə qayıtmağının mənə nə dəxili var?

Kişi dedi: – Hacı, o əmanəti sizdən almaq istəyirdim.

Hacı dedi: – Hansı əmanəti?

Kişi dedi: –O beş yüz dinarı ki sizə vermişdim, saxlayasız?

Hacı dedi: – Çıx get işinin dalınca, mən məgər sənin dədənin sandıqdarı idim ki, əmanət saxlayam?

Kişi dedi: – Allah eləməsin, Hacı ağa, siz bizim başımızın tacısınız. Mənə lütf eləmişdiz, pulumu alıb saxlamışdız.

Hacı əsabani olub dedi: – Get-get, oğul, Allah ruzunu ayrı yerdən versin, mən əmanət zad saxlayan deyiləm.

Kişi bir də təkrar etdikdə, Hacı acıqlanıb dedi:

– Dedim, itil get, biz əmanət qəbul etmirik, əmanət alanda, qəbiz veririk. Get özgə adamın başına börk qoy, bizim başımıza börk keçməz.

Kişi yalvardıqca, Hacı daha da hirsləndi. Kişi dedi: – Hacı ağa, Allaha xoş getməz, o pulu mən 4 aya işləyib, tər tökmüşəm, əllərim qabar olubdu.

Hacı daha da hirslənib dedi: – Hoqqabazın biri hoqqabaz, indi məmur çağırıb səni həbsə saldırram.

Kişi qorxusundan kor-peşman qayıtdı. Bəhlulu axtarmağa başladı. Axırda Bəhlulu qəmiş atını çapdığı yerdə tapıb, qolundan tutub dedi: –Bəhlul ağa, Bəhlul ağa, başına dönüm, bircə dayan, gör mənim başıma nə gətiriblər?!

Bəhlul qəmiş atının başını çəkərək dayandı.

Kişi dedi: – Yadında olsa, bir ay qabaq mən səndən əmin adam soruşdum ki, pullarımı tapşıram. Siz də buyurdunuz ki, bir əzası dürüst adama ver. İndi həman əzası dürüst adam mənim pullarımı vermir. Gəl, mənim pullarımı ondan al.

Bəhlul dedi: – Burada dayan, qoy məm atımı bağlayım, karvansaraya gəlim, görüm nə deyirsən.

Bunu deyib atını çapıb getdi. Bir azdan sonra gəlib kişiyə dedi: – Gəl gedək, o Hacını mənə göstər.

Kişi Bəhlulu gətirib, uzaqdan Hacını ona göstərdi.

Bəhlul dedi: – Sən bir tərəfdə dur, mən Hacının yanına gedərəm. Nə vaxt mən əllərimi bir-birinə çaldım, gəl Hacıdan pullarını istə.

Bəhlul üz-gözünə bir az torpaq-palçıq yaxıb, bir ağac da əlinə alıb Hacının dükanına gəlib salam verdi. Hacı gülər üzlə onun salamına cavab verib dedi:

– Buyurun.

Sonra da qəhvəçi şagirdi səsləyib çay sifariş verdi.

Bəhlul dedi: – Hacı ağa, mənə bir qəziyyə üz verib, sizdən əmin bir adam tapmadım ki, nəql eləyim.

Hacı dedi: – Buyurun-buyurun, xatiriz cəm olsun, hər nə istəyirsiz deyin. Bəhlul oyan-buyana baxıb dedi: – Hacı ağa, siz şəhərin yarım ağaclığında olan "Baba bağını" tanıyırsız?

Hacı dedi: – Əlbəttə ki, tanıyıram, uşaqlıqda hər gün uşaqlarla oraya badam oğurluğuna gedərdik. Allah günahı- mızdan keçsin, onda uşaq idik, anlamırdıq, böyüyəndən sonra düşünüb tövbə elədim.

Bəhlul dedi: – Bəli... Dünən orada cüt sürürdüm, yer yaş idi, cüt quyulanırdı yerə. Öküzlər cütü zor ilə çəkib çıxarırdılar. İki dəfə o baş bu başa getmişdim, bir də gördüm ki, cüt bir şeyə ilişdi. Öküzlərə güc verdim, bir də gördüm bir yoğun zəncir yerdən çıxıb, bir deşik açıldı. O deşiyi bir az genəldib başımı içəri uzatdım, gördüm aşağıda qırx danə böyük küp var ki, ağızlarında qızıl qapaq, qapaqların üstündə qızıldan xoruz mücəssəməsi var.

Burada Bəhlul əllərini bir-birinə çalaraq dedi:

– Amma heyif olsun ki, bilmədim o küplərin içində nə var.

Hacı dedi: – Əlbəttə onların içində hətmən qızıl olmalıdı. Sonra nə elədin?

Bu zaman pul verən kişi Bəhlulun əllərinin səsini eşitdikdə tez özünü yetirib, salam verib dedi: – Hacı ağa, həmşəhərlilərimiz gedirlər, mənim pulumu verin, onlar ilə gedim.

Hacı gördü əgər bu kişiyə desə ki, hansı pul, kəndli şəkkə düşüb gedəcək xəzinə əldən çıxacaq. Odu ki dedi:

– Dadaş indi bu ağa ilə söhbət edirik, get yarım saatdan sonra gəl, pulunu al, apar.

Kişi dubarə gedib yanda dayandı.

Hacı dönüb Bəhlula dedi: – Hə, de görüm sonra nə elədin?

Bəhlul dedi: – Heç, oranı torpaqlayıb, üstünü örtdükdən sonra cütü aparıb zəminin o biri tərəfindən saldım. Beş-altı yol o baş bu başa getdikdə, genə də gördüm ki, cüt bir zada ilişdi. Öküzlərin gücləri çatmadı ki, çıxartsınlar. Naçar qalıb özüm torpaqları oyan-buyana verdim, gördüm bir böyük zəncir çıxdı, bir az da qazandan sonra gördüm zəncirin ucu bir sal daşa bənddi. Daşı götürəndə bir sərdabə açıldı, içəri girdim, gördüm qırx küp var, hər küpün ağzında gümüşdən qapaq, qapağın üstündə gümüşdən xoruz mücəssəmələri.

Bəhlul genə də əllərini bir-birinə çalaraq dedi: – Amma heyif olsun ki, bilmədim küplərin içində nə var?

Hacı dedi: – Hətmən onların içində gümüş pul varmış.

Bu zaman pul sahibi Bəhlulun əllərinin səsini eşitdikdə tez gəlib məzlumcasına Hacıya dedi ki: – Hacı ağa, yoldaşlarım gedirlər, müntəzirimdirlər, mənim pulumu verin gedim.

Hacı dedi: – Bir az get dolan, pullarını verim, apar.

Sonra Bəhlula dönüb dedi: – Hə... Sonra neylədin?

Bəhlul dedi: – Heç onların da üstünü torpaqlayıb cütü aparıb o biri tərəfdən saldım. Yenə də bir neçə dövr oyan-buyana gedib qayıtdıqdan sonra gördüm dubarə cüt bir şeyə ilişdi, yenə də torpağı oyan-buyana verdikdə, bir zəncir, sonra bir sərdabə açıldı. Baxdım gördüm genə də küplər yan-yana düzülübdülər, hər küpün ağzında qırmızı yaqutdan qapaq, hər qapağın üstündə yaqutdan qayrılmış xoruz mücəssəmləri...

Burada Bəhlul əllərini bir-birinə çalaraq dedi: – Amma heyif olsun ki, bilmədim küplərin içində nə var.

Hacı dedi: – Hətmən küplərin içində yaqut varmış.

Bu zaman kişi Bəhlulun əllərinin səsini eşitdikdə genə də özünü yetirib dedi: – Hacı ağa, sən Allah, yoldaşlarım yol üstündədirlər, məni yola salın gedim.

Bu zaman Bəhlul Hacıya xitab edərək dedi: – Bu kimdi? Hey gəlir söhbətimizi kəsir?

Hacının ki, ağzının suyu lap axmaqda idi, dedi: – Oğul, sənin pulun dükanın dal tərəfində taxçadakı küpdədir, get, götür apar.

Kişi tələsik içəri girib, küpənin içindəki pulları götürüb sevincək halda xudahafizləşib getdi. Bəhlul sözünə davam edərək dedi:

– Bəli, Hacı ağa, işi bu cür gördükdə, oranı da torpaqlayıb, cütü o biri tərəfə apardım, orada da bir neçə baş gedib-gəldikdə, genə də cüt bir neçə zəncirə ilişdi. Zənciri çəkdikdə, bir baca açıldı, özümü içəri saldım, gördüm, bəh, bəh. Küplərin üstündə almazdan qapaqlar. Qapaqların üstündə almazdan xoruz mücəssəmələri, çıraq kimi işıldayırlar. Onların birinin qapağını götürüb gördüm içi dolu almazdı. Tələsik özümü saldım küpün üstünə ki, ciblərimi doldurum. Ətəyim ilişdi xoruzun dimdiyinə, yıxıldım palçıqların üstünə, bu zaman birdən yuxudan ayıldım. İndi gəlmişəm, sizdən soruşam görəm mənim boynuma qüsul gəlibdir, ya yox?

Hacı dəli kimi qızararaq dedi:

– Tifaqın dağılsın, bunlar hamısı yuxu idi?

Bəhlul üz-gözünü silərək dedi:

– Bəli... Hacı ağa, sən xəyal edirdin ki zahirdi?

Hacı Bəhlulu tanıyıb dedi:

– Allah evini yıxsın, məni biçarə elədin.

Bəhlul gülərək uzaqlaşdı.

## KEÇƏLİN XƏZİNƏ TAPMASI

Birinin arsız keçəl bir oğlu vardı. Əlini ağdan-qaraya vurmazdı. Elə deyərdi ver yeyim, ört yatım, gözlə canım çıxmasın. Biçarə kişi gecə-gündüz cüt sürüb, bel vurub, əkin edərdi, anası yazıq da paltar yumaqdan, çörək yapmaqdan əl-ayaxdan düşmüşdü. O ikisi qazanıb, gətirərdilər, keçəl rahatcasına oturub yeyərdi.

Bir gün keçəlin anası dedi: – Oğul, yarım saat get, o cütü atanın əlindən al, sür, qoy o gəlib naharını yesin.

Keçəl dedi: – Mən gedə bilmərəm, cütü qoysun, gəlsin. İstəyirsiz bu yolla məni yavaş-yavaş işə çəkəsiz?

Anası dedi: – Yox, oğlum, bu dəfə elə əvvəl axırdı, daha bundan sonra sənə heç iş tapşırmaram!

Keçəl dedi: – Bu dəfə gedirəm, amma bundan sonra mənə iş desəz dünyanı dağıdaram.

Anası dedi: – Olsun.

Keçəl gedib cütü atasından alıb sürməyə başladı. Atası nahar yemək üçün evə gəldi. Amma yorğun olduğuna görə nahar yeyəndən sonra yuxusu tutub yatdı. Keçəl yarım saat cüt sürdükdən sonra gördü dədəsi gəlmədi. Öz-özünə dedi:

– Bunlar məni bu yol ilə işə çəkmək istəyirlər. Yaxşısı budu cütü şuma salıb sındırım, daha bunlar tövbə eləsinlər, mənə iş deməsinlər.

Bu xəyal ilə bir böyük daşı nəzərə alıb, cütü ilişdirdi ona, öküzlərə bir iki ağac vurdu. Öküzlər güc verdilər, amma keçəlin şansından cüt sınmaq əvəzinə, o yekəlikdə daş yerindən qovzanıb bir tərəfə dığırlandı, altından bir quyu açıldı. Keçəl gördü quyunun içi doludu böyük-böyük qızıl xumları ilə. Xumların birinin ağzını açdı, gördü ləl cəvahir ilə doludu. Keçəl fikrə düşdü, dedi əgər mən bu qəziyyəni dədə-nənəmə desəm, onlar məni işlədəcəklər. Yaxşısı budu ki, bu yoldan keçənlərdən birini çağırım, xəzinəni ona verim, ta özüm rahat olum. Bu xəyal ilə yoldan keçən iki atlını səsləyib dedi:

– Ey ağalar, gəlin bura, sizə bir yaxşı sözüm var.

Atlılar atlarının başını keçələ sarı döndərdilər. Amma keçəl birdən peşman olub öz-özünə dedi: – Ey dili-qafil, sənin atan-anan gecə-gündüz mal kimi işləyib, axşamadək tər tökürlər, arpa çörəyini doyunca tapıb yeyə bilmirlər. İndi insaf deyil, mən bir belə qızılı müftəsinə verim, özgələr aparsın. Bu zaman atlılar yetişdilər. Keçəl daha bir söz tapıb deyə bilməyib, gülərək dedi:

– Hey... ağalar, mən istəyirəm sizdən soruşam ki, bu qırmızı öküz bu qara öküzün nəmənəsidi?

Atlılar baxıb gözlərini ağardaraq, atlarını döndərib getdilər. Keçəl dediyi sözlərdən peşman oldu, dedi, ey kaş verəydim, aparaydılar, yoxsa dədə-nənəm bunları daşıyanda məni də işə çəkəcəklər. Odur ki, dubarə atlıları səsləyib dedi:

– Ağalar, gəlin bu dəfə düzünü deyəcəm.

Atlılar dedilər bu keçəl sözsüz deyil, gedək görək nə demək istəyir. Dubarə keçəlin yanına gəldilər. Onlar gəlincə keçəl genə də ata-anasının kasıblığını yadına salıb peşman oldu ki, niyə bir halda ki, ata-anası bu çətinliklə rüzgar keçirdirlər, bir belə xəzinəni verim özgə adam aparsın? Odu ki, genə onları ələ salaraq dedi:

– Axı mənim dədəm deyir ki, bu qırmızı öküz bu qara öküzün əmisi oğludu. Mən istəyirəm görüm ki, sizin başız çıxar, görəsiz ki, bunlar doğurdan da bir-birləri ilə qohumdurlar, ya yox?

Atlıların biri hirslənib qamçı ilə beş-altı dənə keçəlin kəlləsinə vurannan sonra yola düşdülər.

Keçəl genə işləməyin qorxusundan dedi qoy çağırım qızılları verim aparsınlar rahat olum. Ata-anam cəhənnəm, mən ki, işləmirəm. Onlar qazanırlar, mən yeyirəm, mənə nə var ki, onlar çox zəhmət çəkirlər. Odu ki, atlıları bir də səsləyib dedi:

– Gəlin, bu dəfə lap doğrusun deyəcəyəm.

Atlıların biri dedi: – Gəl gedək işimizə, bu keçəl bizi ələ salar. O biri dedi, yox, bu keçəldə bir söz var, amma qorxur ki, bizə desin. Bu dəfə hətmən deyəcəkdi. Bir də atlarını döndərib keçələ tərəf gəldilər, amma keçəl genə də ata-anasının bədbəxtliyini yadına salıb peşman oldu. Atlılar gəlib keçəli dilə tutdular ki, qorxmasın, hər nə bilir, desin.

Keçəl dedi:

–Axı, mən sizdən qorxuram. And için ki, məni vurmayacaqsız, düzünü deyim.

Atlılar ikisi də and içdilər ki, işləri olmayacaq. Keçəl dedi ki, sözün düzü budu ki, mən sizi ələ salmışam, lap sadəsi sizi sərmişəm.

Atlılar and içdiklərinə görə bir zad deməyib atlarını qovub uzaqlaşdılar. Keçəl fikir-xəyal içində evlərinə gəldi. Ata-anası dedilər ki, keçəl, bəs niyə öküzləri özbaşına buraxıb gəldin?

Keçəl dedi ki, gəlmişəm sizə bir mənfəətli söz deyəm, amma bir şərt ilə ki, məni işlətməyəsiz.

Dedilər: – Yaxşı, işlətmərik, de görək nə var?

Keçəl dedi: – Bir dənə qızıl xəzinəsi tapmışam, amma gərək özünüz daşıyasız, mən əlimi vuran deyiləm.

Dedilər: – Eybi yoxdu, sən get yorğanı çək başına yat, heç kəsə də bir söz demə, biz gecə ilə qızılları evə daşıyarıq. Keçəl xəzinənin yerini deyib, yorğanı başına çəkib yatdı.

Hava qaranlıqlaşandan sonra ər-arvad çuval, kisə götürüb, qızılları evə daşımağa başladılar. Amma səhərə az qalmış gördülər ki, hava işıqlanır, hələ qızıllar qurtarmayıbdı. Anası gəlib keçəli oyadıb, dedi:

– Bala, qızılları daşıyıb qurtarmışıq. Amma bir azca qalır, indi hava işıqlanır, hamı görər, qızıllar əlimizdən çıxar. Dur, bir-iki ayaq da sən kömək elə. Daha söz veririk ki, bundan sonra heç vaxt sənə iş tapşırmayaq.

Keçəl deyinə-deyinə durub bir balaca torba götürərək qızıl daşımağa başladı. Hava işıqlanınca işlərini qurtardılar. Amma keçəlin canı acımışdı. Öz-özünə dedi, eybi yoxdu, mən bunun əvəzini çıxaram. Bilirdim ki, bu işin axırı mənə ziyan yetirəcəkdir. Odu ki, bu xəyal ilə bir dənə xum qapağı, hər xumdan da bir-iki qızıl götürüb, dağarcığına doldurub başının altına qoyub yatdı ki, səhər aparıb, padşaha görsədib qəziyyəti desin. Amma anası keçəli yaxşı tanıyırdı. Gördü ki, keçəl çox oyan-buyana vırnıxır, bildi ki, bir əməli var. Keçəli yuxu aparandan sonra gəlib dağarcığı yavaşca başının altından çəkib çıxartdı. Gördü hamısı qızıldı. Onları boşaldıb, yerinə saxsı sınığı doldurub, xum qapağının əvəzinə də bir sınıq kasa qoyub, dağarcığın ağzını bağlayıb keçəlin başının altına qoydu. Səhər keçəl yuxudan durub dağarcığı götürüb, birbaş şahın sarayına yollandı. Qaravullar qabağını kəsdilər, keçəl hay-küy saldı:

– Baba, qoyun gedim içəriyə. Mən bir xəzinə tapmışam.

Şah səs-küy eşitdikdə, xəbər aldı ki, nə olubdu?

Dedilər, bir keçəl oğlan gəlib, deyir xəzinə tapmışam. Şah dedi:

– Qoyun gəlsin.

Keçəli saraya ötürdülər. Padşah soruşdu ki, nə var?

Keçəl dedi: – Qurban, mən bir xəzinə tapmışdım, gecə atamla, anam daşıyıb evə apardılar.

Şah dedi: – Hardan məlum ki, sən düz deyirsən?

Keçəl dedi: – Qurban, nümunələrini gətirmişəm.

Şah dedi: – Çıxart görüm.

Keçəl dağarcığın ağızını açıb yerə boşaltdı. Gördü ki, hamısı saxsı sınığıdı.

Şah dedi: – Tapdığın xəzinə budu?

Keçəl gördü ki, börk başına keçibdi. Genə axmaqcasına gülərək dedi:

– He, he, he, qurban, düzü budu ki, sizin xanım bu saxsı sınıqlarının sayıca bizdən on şahılıq pul, bu sınıq kasa dolusu da un borc alıb, nə vaxtdı ki, gətirib vermir, məni də dərbara qoymurlar, odu ki, xəzinəni bəhanə eləyib gəlmişəm ki, borclarımı xanımdan alım.

Şah acıqlanıb dedi: – Aparın bu axmağa yüz şallaq vurun.

Keçəl şallaqları yedikdə harayı göyə çıxdı. Dedi:

– Şaha deyin düzünü demək istəyirəm.

Şah əmr etdi ki, vurmasınlar, görək nə demək istəyir.

Keçəli dubarə şahın yanına gətirdilər. Şah dedi:

– Keçəl, nə demək istəyirsən?

Keçəl dedi: – Qurban, istəyirəm deyim ki, bu şallaqlar məni incidir. Tələbimizi vermirsiz, verməyin. Özümü barı ötürün, qoyun gedim.

Şah vəzirə baxıb dedi: – Elə bil bu bədbəxt divanədi.

Vəzir dedi: – Qurban, bu adam zahirdə sözlü adama bənzəyir.

Şah dedi: – Bir meydanda böyük bir təpə saman tökün, keçəli onun arasına qoyun, samana od vurun. Əmri yerinə yetir-

dilər. Samanın acı tüstüsü keçəlin boğazına doldu. O az qaldı ki, boğulsun. Çığırıb dedi:

– Qurban, bu dəfə düzünü deyəcəm.

Keçəli genə də şahın yanına apardılar.

Şah dedi: – De görüm, nə var?

Keçəl dedi: – Qurban, çox hirslisiz, mənə əziyyət verirsiz. And için ki, əziyyət verməyəcəksiz, deyim.

Şah and içdi ki, əziyyət verməyəcək.

Keçəl dedi:

– Lap düzü budu ki, qurban, istədim gəlib səni yaxından görəm.

Şah and içdiyinə görə bir söz deməyib, əmr elədi keçəli eşiyə çıxartsınlar. Keçəl dağarcığını götürüb, evlərinə gəldi, gördü evləri yerində yoxdu. Bir də baxıb gördü anası qəşəng libas geyib, ləl-cavahir ilə özünü bəzəyib.

Keçəl dedi: – Ana, bəs evimiz hanı?

Anası dedi: – Oğul, şəhərin o tərəfində iki imarət almışıq, biri dədən ilə mənimki, biri də səninkidi. Kəniz, nökər tutmuşuq ki, sənə xidmət eləsinlər. Sən fəqət ye, yat, ayrı işin olmasın. İndi gəl, get hamama, təzə libaslarını göndərim, geyin, get öz qəsrivə.

## ŞAH ABBAS İLƏ DƏRVİŞ HÜSEYN

Biri vardı, biri yoxdu, İsfahan şəhərində bir pinəçi vardı ki, Şah Abbasa çox bənzəyirdi. Şah Abbas da bunu bilirdi. Bir gün Şah Abbas təsmim tutur ki, dərviş libasında Təbrizə gedib oranın vəziyyətindən, məmurların xalq ilə rəftarından xəbərdar olsun. Amma keçmişdə şahlar paytaxtlarından uzaxlaşsaydılar, muxalifləri baş qovzayıb, tac-taxta sahib olardılar. Odu ki, Şah Abbas vəzirinə dedi ki, mənim səfərim mümkündü ki, uzun çəksin, əsaslı bir fikir etmək lazımdı. Şah ilə vəzir belə məsləhət gördülər ki, şahın müxalifləri onun getməyindən xəbərdar olmamaqları üçün o pinəçini gətirib, sarayda öz yerinə qoysun.

Vəzirin əmri ilə bir arvada bir miqdar yağlı kökə verirlər ki, nəzir adı ilə bazara aparıb, paylasın. Kökələrdən birinə bihuşdarı

vurulmuşdu. Onu pinəçiyə verdilər. Pinəçi kökəni yeyən kimi aşdı. Vəzirin adamları dərhal onu bir palaza bürüyüb, saraya gətirib, paltarlarını çıxardıb, şahanə paltar geydirərək, şahın yatağına saldılar. Dörd nəfər gözəl kəniz də onun ətrafında durub, ona yelpik ilə yel vurmağa başladılar.

Şah Abbas belə gördükdə, dərviş libası geyib, az gəldi, çox gəldi, bir müddətdən sonra Təbrizə yetişdi. Bir gün gəzə-gəzə yolu gəcil qapısından düşdü. Qədim zamanlarda gəcil qapısında bir qəbiristanlıq vardı, onun ətrafında geniş, açıq bir yer olduğuna görə, bir tərəfində dərvişlər mərəkə tutar, bir tərəfində meymun oynadan, ilan oynadan, kəndirbazlıq eləyən, köhnə şey-şüy satan kimi büsatlar qurarlarmış. Şah Abbas gördü bir nəfər dərviş mərəkə qurubdu. Bu da araya girərək, bir ürfani şeiri xoş səslə oxumağa başladı. Sonra da dövrədəkilərdən dövran yığdı, tamaşaçılar Şah Abbasın sözlərindən, səsindən xoşları gəldiyi üçün artıq pul verdilər. Şah Abbas da o pulların hamısını gətirib o dərvişin kəşkülünə tökdü. Dərviş Hüseyn dedi:

– Baba dərviş, bu pullar sənə verilibdi, sən də götürməlisən.

Şah Abbas ki özünü dərviş Abbas adı ilə tanıtdırırdı dedi:

– Yox, mərəkəni sən qurmuşdun, sənə də yetişir.

Dərviş Hüseyn dedi:

– Bəs gəl yarı bölək.

Dərviş Abbas dedi yox, mən bir şahı da götürmərəm. Dərviş Hüseynin ondan xoşu gəldi, dedi:

– Baba dərviş, elə bil ki, sən bu şəhərdə qəribsən.

Dedi: – Bəli, dərviş.

Dedi: – Bəs elə isə bu gecəni mənə qonaq ol.

Dərviş Abbas da qəbul edib, dərviş Hüseynin evinə gəldi. Gecə şam yeyəndən sonra dərviş Abbas dedi: – Dərviş Hüseyn, mənim adətimdi gecələr şəhərə çıxıb dolanıram, şəhərin xəlvətliyindən ləzzət alıram.

Dərviş Hüseyn dedi: – O cür olsa, mən də səninlə gələrəm ki, tək qalmayasan.

Beləliklə, iki dərviş evdən çıxıb, gəzə-gəzə bazara tərəf gəldilər. Bazarın içi qaranlıq idi. Bir də gördülər ki, bir yerdən işıq görünür və o işıqda bir neçə nəfər əllə şəmədə deyirlər. Dərviş Abbas dedi: – Gedək, görək onlar nə qayırırlar.

Dərviş Hüseyn dedi: – Qardaş, ağrımaz başımıza niyə saqqız salaq, bizə nə vardı onlar ya darğadırlar, ya oğru. Hər halda bizə xətərdən savayı bir şeyi yoxdur.

Dərviş Abbas dedi: –Mən gərək gedəm, bunların işlərindən baş çıxardam. Sən gəlmirsən gəlmə.

Dərviş Hüseyn dedi: – Canım, gözüm, gəl, bu daşı tök ətəyindən.

Qəbul eləmədi.

Dərviş Hüseyn gördü yaxşı deyil ki, qonağını orada tək qoya, naçar qalaraq onunla gəlib o adamlara yaxınlaşdılar. Gördülər iki nəfər bir zərgər dükanının qapısını sındırıb bir böyük kisə qızıl eşiyə çıxardıb üç hissəyə bölməkdədir.

Dərviş Abbas dedi:

– Bunlar kimdi?

Dərviş Hüseyn dedi:

– Bunların biri darğa Qafar, biri də darğa şəyirdi İbrahimdi. Səsin çıxartma, onlar bizim burada olduğumuzu bilsələr, ölümümüz yəqindir.

Darğa Qafar qızılları üç yerə böldükdən sonra İbrahimə dedi: – Bu pulların birini aparıb qazının evinə, birini hakimin evinə təhvil verərsən. Bu biri də mənim payımdı, sənə də öz payımdan bir az verərəm.

İbrahim dedi:

– Axı, darğa başı, biz bu bazarın darğasıyıq, bu bədbəxtlər bizə pul verirlər ki, onların dükanlarını, hücrələrini gözləyək ki, oğru aparmasın, indi Allaha xoş getməz ki, biz özümüz onların mallarını oğurlayaq. Onlar bizim ümidimizə gedib evlərində rahat yatırlar. Səhər deməzlər ki, siz bu bazarda idiniz, necə oğru gəlib dükanı kəsdi ki, siz bilməmisiniz.

Darğa dedi:

– Axmaq-axmaq danışma, onlar gedib hakimə, ya qazıya şikayət edəcəklər. Onların da payını qabaqdan yolluyuram da.

İbrahim genə dedi:

– Axı darğa başı, bu iş yaxşı iş deyil, insafsızlıqdı.

Darğabaşı hirslənib dedi:

– Artıq danışsan deyərəm, boynunu vurarlar. Bu sözlər sənə yetişməz, ya Allah, götü apar, tez yetir ki, indi səhər açılar.

İbrahim itaət edərək, üç kisəni bağlayıb, dalısına ataraq, getdi. İbrahim bazardan çıxandan sonra dərviş Abbas ucadan öskürdü. Dərviş Hüseynin ürəyinin bəndi lap qırıldı, əlini onun ağzına tutaraq dedi:

– Allah sənin evin yıxsın, tifağın dağılsın, nə qayırırsan. Bizi ölümə vermək istəyirsən?

Amma şansları gətirdi ki, darğabaşı mültəfit olmadı. İkinci dəfə dərviş Abbas lap ucadan öskürdü. Dərviş Hüseyn özünü dərviş Abbasın üstünə salaraq, ağzını bərk-bərk tutub dedi:

– Evin yıxılsın, sən dəlisən, nəsən, nə iş görürsən?

Amma daha iş-işdən keçmişdi, darğabaşı onların səslərini eşidib bir fışqa çaldı, qaravullar tökülüb dərvişləri tutdular.

Darğa dedi:

– Bəs siz ki hər gecə gəlib bu dükanları kəsirsiz, yaxşı əlimizə düşdüz.

Dərviş Hüseyn yalvarmağa başladı:

– Vallah, biz oğru deyilik. And içdi ki, bizim heç zaddan xəbərimiz yoxdu. Dərviş babanın biriyik, ancaq bu axmaq oğlu axmaq bizi evdən eşiyə çəkib bazara gətirdi ki, bir az dolanaq. Yoxsa biz oğru deyilik.

Dərviş Abbas dedi: – Yox, ağa yalan deyir, bu dükanları biz kəsirik, bizim işimiz elə oğurluqdu.

Dərviş Hüseyn acıqlı halda qayıdıb dedi:

– Kişi, sən məgər dəlisən? Biz nə vaxt dükan kəsmişik. Niyə yalandan bizə günah düzəldirsən?

Sonra dönüb darğabaşına dedi:

– Ağa, vallah bu yalan deyir, bizim əsla ruhumuzun da bu işlərdən xəbəri yoxdu.

Dərviş Abbas qayıdıb dedi:

– Ağa, bu dərviş yalan deyir, dükanların hamısını biz kəsirik. Bizim elə işimiz budur.

Dərvişlərin ikisini də sarıyıb, həbsxanaya apardılar. Səhər darğa qəziyyəni hakimə, qazıya dedi:

– İki nəfər adam tutmuşuq, biri dəli kimin bir zaddı, özü and içir ki, dükanları biz kəsirik.

Dedilər yaxşı oldu, bunları dara çəkərik xalqın zənni itər, bizə bədgüman olmazlar. Amma eşidin dərvişlərdən. Elə ki dərvişlərin ikisini bir zindana saldılar, dərviş Hüseyn düşdü dərviş Abbasın canına, o ki var vurub yorulandan sonra dedi:

– Filan, filan olmuş, biz nə vaxt dükan kəsmişdik ki. Özünü dərdi-sərə saldın. Məni də yazıq, biçarə elədin, günahsız yerə ölüm ayağına gətirdin, balalarımı yetim qoydun.

Dərviş Hüseyn deyib-deyib qızışandan sonra genə də durub dərviş Abbası salırdı kötək altına, dişləyirdi. Dərviş Abbas da heç zad demirdi.

Əlqissə, səhərçağı ikisini də götürüb, hakimin, sonra da qazının yanına apardılar. Dərviş Abbas dedi:

– Allahdan gizlin deyil, sizdən nə gizlin, dükanları biz ikimiz kəsirdik.

Dərviş Hüseyn hər nə and içdi, dedilər, yox yoldaşın deyir, danmağın faydası yoxdu. Dubarə zindana qaytardılar. Qərar oldu ki, kəndlərdə, şəhərdə car çəksinlər ki, bir gün hamı gəlib, şəhərin meydanında yığılsınlar ki, iki nəfər çox zəbərdə oğrunu dara çəkəcəklər.

Amma Dərviş Abbas zindana qayıtdıqdan sonra bir kağız vəziri Allahverdi xana yazıb qəziyyəni şərh etdi, sifariş elədi ki, tezliklə onların hamısını İsfahana gətirtsin. İyirmi dənə qızıl sikkəsini də kürəyində gizləmişdi. Çıxardıb bir nəfər qaravula verib dedi:

– Bu qızılların onu sənin, onunu da bir adama ver, bu kağızı tezliklə vəzir Allahverdi xana yetirsin.

Vəzir kağızı alan saat əl-ayağa düşüb, fövri bir rəsmi fərman yazıb çapar ilə Təbrizə yola saldı ki, hakimə yetirsinlər. Çaparlar gecəni-gündüzə salıb, kağızı Təbriz hakiminə yetirdilər. Hakim kağızı açıb gördü ki, vəzir Allahverdi xan Şah Abbasın tərəfindən yazıbdı ki: – "Eşitmişəm, neçə vaxt idi Təbrizdə oğurluq tapılmış, gecələr dükan-bazarı kəsirmişlər. Siz indi oğruları İsfahana göndərin. Həm oğrular burada cəzalarına yetişsin, həm də dövlət xidmətküzarları xələtlərini alsınlar".

Hakim çox şad olub, qazıya da xəbər verdi.

Sabah beş yüz atlı götürüb, darğabaşı ilə İbrahimi də götürərək, oğrular ilə birlikdə İsfahana yola düşdülər.

Dərviş Hüseyn İsfahanda dardan asılacağını yəqin etdikdə əllərini dərviş Abbasın boğazına qoyaraq, boğmaq istədi. Hakimin əmri ilə dərviş Hüseynin qollarını ağır zəncir ilə bağladılar, əl-ayağına buxov vurdular. Hakim dedi bu dərviş Abbas görünür ki, düz adamdı, onu elə açıq qoyun rahat dolansın.

Xülasə bu minval ilə yol gəlib, qəti-mənazil, teyn-mərahil edərək, İsfahana bir ağac qalanacan yetişdilər. Hakim dəstur verdi ki, gecəni orada qalıb, yorğunluqlarını çıxardıb, toz-torpaqlarını təmizləyib, sabah tezdən şəhərə girsinlər. Dərviş Abbas gecə qaranlığında dolana- dolana uzaxlaşıb şəhərə tərəf qaçdı, özünü dərbara yetirdi.

Amma indi sizə kimdən deyim, o Şah Abbasın yerində oturan pinəçidən. Pinəçi şahın sarayında ipək yorğan-döşəyin üstündə huşa getdikdə, əynindəki fakir libasları, özünü qu tükü ilə düzəlmiş yorğan-döşək balışların içində qoyulmuş halda, bir şahanə imarət içində gördükdə, gözlərini sığarlayıb açdı. Elə bildi ki, yuxu görür. Bu zaman ətrafındakı gözəl kənizlər onun ayıldığını gördükdə, "Qurban, salam, səhəriz xeyir" – deyə təzim etdilər.

Pinəçi bir-iki dəfə "Bismillah" dedi ki, əgər bunlar əcinnə olsalar, qaçsınlar. Amma qaçan olmadı, əksinə olaraq qızlar gəlib onun əl-ayağını ovdular. İki huri kimi qız qızıl aftafa-ləyənə su töküb, əl-ayağını yuyub, yumşaq hövlələr ilə quruladılar. Pinəçi mat qalmışdı. Hamı, qurban deyə təzim edirdi.

Pinəçi özünə deyirdi ki, bunlar yuxu da olsa, çox şirin yuxudu. Yaxşısı odu ki, ləzzət alım, axırı hər nə olur olsun.

Bu zaman cürbəcür xörəklərlə dolu neçə məcməi gətirdilər. Pinəçi o xörəkləri o vaxta kimi nə görmüş, nə də adlarını eşitmişdi. Görməmiş adamlar kimi özünü saldı xörəklərin üstünə, bilmirdi ki, ağzına qoysun, ya gözünə təpsin. Bu zaman bir sərkərdə içəri girib, təzim eləyib dedi:

– Qibleyi-aləm, sədri-əzəm izni-dəxul istəyir.

Pinəçi dedi:

– "Sədri-əzəm" istəyir, kim istəyir?

Sərkərdə dedi:

– Qurban, cənab vəzir şərəfyab olmaq üçün icazə istəyir.

Pinəçi elə bildi ki, ev sahibi gəlib icazə istəyir.

Dedi:

– Denən, pulum yoxdu, bir də hələ ay başı olmayıb ki?...

Vəzir ki, pərdənin dalında durmuşdu, gördü çox yubansa, iş xarablaşacaq, içəri girib salamla təzim elədi, pinəçi vəzirin dəmdəsgahını gördükdə, özünü itirib, cəld ayağa qovzanıb dedi:

– Qurban, bəndə ilə fərmayişin var?

Vəzir əvvəlcə işarə elədi ki, qızlarla sərkərdə getsinlər. Sonra dedi:

– Qibleyi-aləm sağ olsun, hətmən keçən gecə narahat yatmısız, bəndə vəzir Allahverdi xanam, icazə buyursaz kənizlər gəlib bir az çalıb oynasınlar, bəlkə bir az halınız düzələ.

Pinəçi bir az vəzirə baxıb qəhqəhə çəkib güldü, sonra dedi:

– Eybi yoxdu, gəlsinlər, çalsınlar, oynasınlar.

Vəzir əllərini bir-birinə çaldıqda, pərdələr kənara gedib, qırx incə qız, hərəsinin əlində bir cürə musiqi aləti, bir cismi də oynuya-oynuya dəm tutdu. Musiqi səsi göyə qovzandı. Oynuyanlar süzə-süzə pinəçinin qabağında o üz-bu üzə keçirdilər, bir-birindən gözəl idilər.

Pinəçi bilmirdi ki, hansına baxsın, ancaq axmaq-axmaq gülür, ağzının suyu axıb, ipək paltarlarının döşünü isladırdı.

Pinəçi işin nə olduğundan baş çıxara bilmədiyinə görə daha fikirləşmədi, öz-özünə dedi:

–İndi ki, mən şahanə bir vəziyyətdə nazü-nemət içindəyəm, hər nə olursa-olsun, mən öz keyfimdə olmalıyam. Hər gecə iki kəniz biri sağında, biri solunda yatırdı. Axırıncı gün ki, Şah Abbas saraya varid oldu ittifaqən elə o gündə hərəmxana xacələrindən biri iş üçün onun yanına gəldiyi üçün pinəçi şahın hərəmxanası olduğundan xəbərdar olmuşdu. O, xacənin vasitəsi ilə bilmişdi ki, onun hər gecə gördüyü gülüzlü kənizlərdən əlavə hərəmxana adlı bir yerdə nə qədər gözəl-gözəl xanımları da var imiş. O gün dəstur vermişdi ki, hərəmlərdən biri hüzuruna gəlsin. Şahın sevgili hərəmlərindən biri qulluğa gəlmişdi, amma nə cür olsa, hərəmlər böyük adamların qızları olduğuna görə düşüncələri çox idi, yetişən kimi pinəçinin rəftarından, danışığından şəkkə düşmüş, bilmişdilər ki, bu padşah deyil. Ona görə də bir nəfəri əl altından vəzirin evinə göndərib qəziyyəni xəbər vermişdi.

Eyni halda özü də şaha dalbadal şərab içirdərək, söhbət ilə gecəni keçirdirdi. Vəzir sifariş alan kimi durub ev paltarı ilə saraya qaçdı. Elə o zaman Şah Abbas dərviş paltarında saraya girmişdi. Vəzir şahı gördükdə təzim etdi. Şah pinəçinin harda olduğunu soruşduqda, vəzir otağı nişan verdi, şah gəlib pərdənin dalısından baxıb, hərəmini orda gördükdə, qanı cuşa gəldi. Hərəminə işarə elədi ki, eşiyə çıxsın.

Qız Şah Abbası dərviş paltarında gördükdə, tanıyıb pinəçidən icazə istəyərək, eşiyə çıxdı. Vəzir bir az bihuşdarı davası verdi, qız içəri gəlib, davanı xəlvətcə bir piyalaya töküb, şərab ilə doldurub pinəçiyə verdi. Pinəçi içən kimi dalı üstə aşdı. Şah Abbas içəri girib əmr elədi pinəçinin öz paltarlarını geydirib, aparıb dükanına qoysunlar.

O tərəfdən Təbriz hakiminin adamları bir zaman gördülər ki, dərviş Abbas yoxdu. Hər yanı axtardılar, tapılmadı. Hakimə xəbər verdilər. Hakimin iki əli oldu, bir başı ki, indi sabah mən şaha nə deyəcəm.

Dərviş Hüseyn dedi:

– Mən sizə demədim bu zalımın oğlu sizin başıza börk qoyacaq. Ancaq elə mən biçarəni bədbəxt eləyib, özü qaçıb canını qurtardı. Hakim əmr elədi atlılar tökülüb, hər yanı gəzib, dərvişi tapıb gətirsinlər. Atlılar tökülüb şəhəri küçə-küçə axtardılar. Bazara gələndə gördülər bir pinəçi dükanı açıqdı, bir nəfər də yatıbdı. Çırağ yandırdılar, gördülər haman dərviş Abbasdı. Amma pinəçi libası geyib. Atlılar pinəçini saldılar kötəyin altına, pinəçi çığırdı ki:

– Vəzir, qoyma vursunlar, mənim sərkərdələrim hanı?

Dubarə vurmağa başladılar ki:

– Axmağın biri axmaq, vəzir kimdi? Sərkərdə kimdi, yuxu görübsən, xeyir olsun. Pinəçi dəli kimi ayağa qalxıb dedi:

– Siz kimsiniz? Nə cürət ilə mənim sarayıma girmisiz? Bəs mənim sərkərdələrim hardadır? Heç bilirsiz mən kiməm? Qibleyi-aləməm, yer üzünün zilli-ilahisiyəm....

Atlılar daha gülməklərini saxlaya bilmədilər. Əllərini ağızlarına təpib güldülər.

Dedilər:

– A kişi yuxuda nə görürdün, düş qabağa gedək, vaxtımız yoxdu.

Pinəçi dedi:

– Hara gedək?

Dedilər:

– Yoldaşın dərviş Hüseynin yanına, bu dəfə ağır zəncirlər səninkidi.

Pinəçi dedi:

– Mən oğru deyiləm.

Dedilər:

– Bəs niyə indiyədək dərviş Hüseyn deyirdi, biz oğru deyilik, sən deyirdin ki, yalan deyir, biz dükanları kəsirik. İndi deyirsən "Nə hamam, nə tas". Yallah, düş qabağa görək.

Xülasə pinəçini sürüyə-sürüyə ortaya gətirdilər. Və ağır zəncirlər boynuna salıb, ayaqlarını bağladılar.

Pinəçi çığırdı ki:

– Axı hansı oğurluq, hansı dükan kəsmək?! Vallah mənim heç nədən xəbərim yoxdu.

Dərviş Hüseyn dedi:

– Hə, indiyədək mən deyirdim, bizim xəbərimiz yoxdu, sən deyirdin yox, elə bizim işimizdi... Biz dükanları kəsirdik, indi nə oldu, sözünü dəyişdirirsən? Ağlın başına gəldi. İndi bu qara o qaralara bənzəməz. Sən də dansan, mən deyərəm ki, bizim ikimizin işimizdi.

Səhər tezdən hakimin əmri ilə ordu atlandı, gəlib saraya çatdılar. Şah Abbas onların intizarında idi. Əmr etdi ki, varid eləsinlər. Padşah dustaqları gördükdə, soruşdu ki, bunlar kimdi?

Hakim təzim edərək ərz elədi ki:

– Qurban, bunlar həmin Təbrizin məşhur oğrularıdı.

Pinəçi başladı ağlamağa ki:

– Mən oğru deyiləm... Mənim ruhumun da xəbəri yoxdu.

Dərviş Hüseyn qabağa atılıb dedi:

– Qurban, bu yalan deyir, biz oğruyuq, Təbrizin dükanlarının hamısını biz ikimiz kəsmişik. Amma bircə xahişim var. O da budu ki, məni oğurluğa salan bu yoldaşımdı. İcazə verin mən özüm öz əlimlə bunu boğum, acığı canımdan çıxsın.

Şah dedi ki, bir sapur gətirin, verin bu dərvişin əlinə. Dərviş Hüseyn sapurla elə vurdu ki, pinəçinin başı göydə fırlandı. Sonra dərviş Hüseyn dönüb şaha dedi ki:

– İndi qurban, verin mənim də boynumu vursunlar.

Şah dedi:

– Hələ tələsmə, vaxtında....

Sonra hakimdən soruşdu ki:

– Qəziyyə nə cürdü, tərif elə....

Hakim dedi:

– Qurban, bu iki nəfər neçə vaxt idi ki, Təbriz əhalisini zara gətirmişdi. İndi xidmətizdə bağlı durublar, biri cəzasına yetişib, o birisi qalır.

Şah dedi:

– Əhsən.

Sonra iki nəfər sərkərdələrinə dedi ki, hakimi aparın rahatlayın, yorğundur.

Hakim şad oldu. Sərkərdələr onu çıxardıb, həyatda qurulan dar ağacının birinin altında saxladılar.

Hakim dedi:

– Nə eləmək istəyirsiz, şah buyurdu məni rahatlayın.

Dedilər:

– Bundan artıq rahatlamaq olmaz.

Tənabı boğazına salıb, yuxarıya çəkdilər. Sonra şah qazıdan əhvalatı xəbər aldı. Qazı dedi:

– Qurban, biz şəriət məmuruyuq, vəzifəmiz budu ki, bu cür məlunları tutub cəzalarına yetirək.

Şah əmr etdi onu da aparıb rahatlasınlar. Sonra darğadan bir neçə söz soruşdu, dəstur verdi ki, onu da aparıb rahatlasınlar.

Şah dərviş Hüseyn ilə İbrahimdən soruşdu, ki, siz də rahatlaşmaq istəyirsiz.

Hər ikisi dedilər ki, hərçənd biz öldürülməliyik, lakin əvvəlcə bir az rahatlaşmaq yaxşı olar. Şah əmr etdi ki, onları o birilərin yanına aparsınlar, əgər onların vəzlərindən xoşları gəlsə, onları da rahatlasınlar.

İbrahim ilə dərviş Hüseyni həyətə gətirdilər. Onlar dar ağaclarını gördükdə qışqırdılar:

– Qurban, qələt eləmişik, biz çox rahatıq, bundan artıq rahatlaşmaq istəmirik.

Şah gülüb dedi:

– Dərviş Hüseyn, mən həmən dərviş Abbasam ki, sənə bir belə dərdisər düzəltmişəm. İndi səni Təbrizə hakim, İbrahimi də Təbrizə darğa elədim. Gedin xalq ilə ədalət, insaf ilə rəftar eləyin.

Bizim də sözümüz burda başa çatdı. Onlar yedilər, içdilər, qara yerə keçdilər. Siz də yeyin, için, mətləb-muradıza yetişin.

# GÖZƏL FATMA

Bir kişinin dari-dünyada bir arvadı, bir Fatma adlı qızı, bir sarı inəyi, bir xoruzu vardı. Vurdu bir gün arvad naxoşlayıb öldü. Ölərkən vəsiyyət edib dedi:

– İnək ilə xoruz qızımın cehizidi. Heç kəsin haqqı yoxdu ki, onları ondan alsın.

Arvad öləndən bir müddət keçəndən sonra kişi gedib bir arvad aldı. Ondan bir qara çirkin qızı oldu. Onun adını paxıllıqdan Fatma qoydu.

Analıq arvad ögey qızı Fatmaya çox əziyyət eləyirdi. Onu görməyə gözü yox idi. Gündə səhərçağı bir-iki çörək dəstərxana qoyub inəyi otarmaq adı ilə çölə göndərirdi ki, gözünün qabağından uzaq olsun. Hər gün də bir dəstə yun verərdi ki, çöldə bekar qalmasın, onları əyirsin. Fatma hər gün səhər gedib, axşam yorğun-arğın evə qayıdardı.

Bir gün yel Fatmanın yununu götürüb apardı. Yunun dalısınca qaçan Fatma meşəyə yetişdi. Meşədə bir qarı arvada rast gəldi. O qarı bir kolluxda yaşayırdı. Fatma salam verdi, dedi, qarı nənə, yel mənim yunumu bura gətiribdi.

Qarı dedi, eybi yoxdu qızım, sən gəl, mənim başıma bax, bitlərimi bir az arıtla, mən də sənin yununu tapıb verim əlinə.

Fatma baxdı gördü qarının başını bit, sirkə basıbdı. Amma Fatma ədəbli, şirindilli qızdı. Kimsəni özündən incitməzdi.

Dedi:

– Qarı nənə. Nə təmiz başın var, lap anamın başına bənzəyir.

Qarının bu sözdən xoşu gəldi.

Dedi:

– Qızım, yunun o bucaqdadı, get, götü apar.

Qız bucağa baxıb gördü ki, pıspısılı məryəm qurdu bucaqda qaynamaqdadı. Dedi:

– Qarı nənə, nə təmiz bur-bucağın var.

Fatmanın bu sözləri qarının xoşuna gəldi.

Dedi:

– Qızım evinizə qayıdanda, yolda üç bulaq görəcəksən. Birinci bulağın suyu ağdı, onda çimərsən, bədənin ağarar, ikinci bulağın suyu qaradı, o suyu başına, qaşlarına çəkərsən, tüklərin qaralar. Üçüncü bulağın suyu isə qırmızıdı. Ondan bir az yanaqlarına, dodaqlarına yaxarsan ki, qırmızı olsun.

Fatma yununu götürüb qarı ilə xüdahafizləşdi. O, birinci bulağa çatdıqda, soyunub çimdi, bədəni ağappaq süd kimi ağardı. İkinci bulağın suyundan tüklərinə, qaşlarına vurdu, şəvə kimi qaraldı. Üçüncü bulağın suyundan da bir azca yanaqlarına, dodaqlarına yaxdı, üzü günəş kimi işıqlandı.

Evə qayıdanda kəndin adamları tamaşaya töküldülər. Fatmanın üzü doğurdan da, gün kimi şəfəq salırdı. Ögey ana Fatmanı belə gördükdə, təəccübləndi. Dedi:

– Bu işlərin hamısı bu inəkdədi. Səhər inəyi öz qızına tapşırdı ki, aparıb otarsın. Bəlkə o da bu cür göyçək olsun.

O qızın da yununu yel apardı. Qız yun dalısınca qaçdıqda həmən qarıya rast gəldi, yununu istədi, qarı nənə dedi, gəl, əvvəlcə mənim başıma bax. Qız qarının başına baxdıqda, dala çəkildi, dedi, sənin başın nə kifirdi, qarı nənə? Bit-sirkə götürüb gedir. Qarı dedi, olsun, get, yun o bucaqdadı, götü get. Qız bucağa baxdıqda, dedi:

Əh....Əh...., nə kifir bur-bucağın var, qarı nənə? Pıspısalar balalayıb.

Qarı dedi:

– Olsun, eybi yoxdu qızım, indi sən evizə qayıdanda, üç bulaq görəcəksən. Birinci bulaqda tüklərini, qaşlarını yuyarsan. Ordan keçdikdə ikinci bulağa çatarsan, o bulaqda soyunub çimərsən. Üçüncü bulağın suyundan gözlərinə çəkərsən. Qız xudahafizləşib yola düşdü.

Gəlib birinci bulaqda tüklərini yudu, qaşlarına çəkdi. Başı, qaşları ağappaq oldu. İkinci bulaqda çimdi, bədəni əvvəldən qara idi, daha da kömür kimi qara oldu. Üçüncü bulağın suyundan gözlərinə çəkdi, gözlərinin içi qıp-qırmızı qan kimi qızardı. Lap

əcayib bir şey oldu. Qız kəndə girəndə camaat onu görüb qorxudan qaçdılar. Elə bildilər ki, xortdan gəlib. Qızın anası səs-küyü eşitdikdə eşiyə çıxdı. Elə bildi ki, onun da qızı o biri Fatma kimi gözəlləşibdi. Amma bir zaman gördü ki, qızı lap qorxmalı bir şey olubdu. Çox narahat oldu. Dedi hər nə var bu inəkdədi. Əri evə gəldikdə dedi, bu inəyi öldürməlisən. Kişi bu sözü qəbul eləmədi.

Gözəl Fatma gedib qəziyyəni inəyə nağılladı.

İnək dedi:

– Olsun, məni öldürəndən sonra mənim sümüklərimi aparıb, tövlədə axurda quyla. Hər vaxt sənin işin bərkə düşsə, gəlib o sümükləri açıb çıxart. Mənim iri sümüklərim sənə paltar, kiçik sümüklərim qızıl-gümüş, ziynət olar. Boyun-boğazını, biləklərini bəzəyər.

Kişi arvadın sözü ilə məcbur qalıb inəyi kəsdi. Ətini qazana töküb bişirdilər. Amma onun əti hamının ağzında zəhər kimi acı oldu. Belə ki, yeyə bilmədilər. Amma Fatmanın ağzında bal kimi şirin idi, iştah ilə yeyirdi.

Arvad kişiyə dedi:

– Bax, gör bir necə yeyir, acı-macı bilmir.

Bir gün kənddə bir toy olur. Arvad öz qızını, uşaqlarını geyindirib toya aparır. Fatmaya deyir ki, biz gəlincə sən evdə qalmalı, evi təmizləyib qabları yumalısan. Fatma ev-eşiyi tez-tez təmizləyib, qabları yudu, gedib axurdan inəyin sümüklərini çıxardıb, açdıqda, içində bir dəst ipəkdən, atlazdan tikilmiş gözəl paltar, bir cüt qızıldan başmaq gördü. Geyinib toy məclisinə yollandı. Yolda bir dəsmal gül götürüb gedib məclisdə oynadı. Hamı bu qızın gözəlliyindən, libaslarından, cürbəcür ziynətlərindən, göyçək hərəkətlərindən mat qaldılar. Qız dedi:

– Bizim köçümüz gedəcək, mənim mütəzirimdirlər, hərəyə bir gül verdi. Bacısına, analığına yetişəndə külü onların gözlərinə sovurub qaçdı. Onlar gözlərini ovuşdurana kimi bu aradan çıxdı. Tez özünü evə yetirib, libasları gizlədib, paltarlarını geyib oturdu. Analığı ilə ögey bacısı narahatlıqla qayıdıb, vaqiəni gördülər.

Sabah toyun ikinci gecəsi gəlin çıxma günü idi. Analıq qızını götürüb getdi. Fatmaya tapşırdı ki, ev-eşiyi silib, süpürüb,

qab-qacağı yusun. Onlar gedəndən sonra qız gedib axuru qazdı, gördü yenə də bir dəst ayrı rəngli libas, bir cüt qızıl başmaq axurun içindədi. Götürüb geydi, özünü toya yetirdi. Yenə də oynadı, hamıya gül verib, analığı, bacılığının gözlərinə kül səpərək aradan çıxdı. Gələndə yol üstü dəryanın kənarından keçəndə tələsikdən başmağının bir tayı ayağından çıxıb itdi. Yenə də evə gəlib paltarlarını dəyişib yerində oturdu. Analığı ilə bacılıq genə də donquldana-donquldana evə qayıtdılar.

O tərəfdən padşahın oğlu qulamları ilə dərya kənarından keçəndə, o qızıl başmaq tayını tapdı. O başmağın zərifliyindən, gözəlliyindən heyrətdə qalıb, onun sahibini axtarıb onunla evlənmək qəsdinə gəldi. Anasını bir neçə nəfər ilə göndərdi ki, gedib qapı-qapı gəzib, başmaq sahibini tapıb ona alsın.

Ana qapı-qapı gəzdi, başmağı bir-bir qızların ayağına imtahan elədi. Amma başmaq heç kimin ayağına olmadı. Bu zaman analıq Fatmanı təndirdə gizlədib, təndirin duvağını da qoydu.

Fatma təndirdə öz-özünün işığında naxış tikməyə başladı. Şahzadənin anası onların evlərinə çatdı. Arvad öz qızını gətirdi, hər nə güc verdi, qızın kobud ayaqları başmağa yerləşmədi. Soruşdular burada ayrı qız yoxdu?

Arvad dedi:

– Yox, elə bu qızdı.

Bu zaman xoruz banlayıb dedi:

– Quqquluqu, Fatma xanım təndirdə, naxışı diz üstə, öz-özünün işığında naxış tikməkdədir.

Adamlar gedib təndirin duvağını götürdülər, gördülər bir gözəl-göyçək qız təndirin içində özünün işığında naxış tikməkdədi. Əlindən yapışıb eşiyə çıxartdılar, başmağı ayağına geydirib, gördülər ki, lap onun ayağının qəlibidi. Qızı çox izzət, ehtiram ilə götürüb, şahzadənin sarayına apardılar. Şahzadə yeddi gün, yeddi gecə toy tutdurub o qız ilə evləndi. Vurdu qız boylu oldu, çox yerdə belə bir rəsm vardı ki, gəlinlər cümə günləri atası evinə gedib orda başını yuyardı, yaxud çimərdi. Bir cümə Fatmanı anası evinə göndərdilər. Anası dedi ki, gəl dəryanın

qırağında başını yu. Fatma su kənarında, daş üstə oturdu, analıq birdən daldan itələyib Fatmanı dəryaya saldı. Fatma dəryaya düşən kimi bir naqqa balıq onu uddu. Arvad onun paltarlarını öz qızına geydirib, saraya göndərdi. Sifariş elədi ki, üzünü açmasın. Desin ki, bizim adətimizdi ilk övladımız dünyaya gəlmiyincə üzümüzü açmırıq. Amma şahzadə qızın rəftarından, şübhəyə düşdü, bildi ki, arvadı Fatma deyil. Atasına dedi ki, burda bir sirr var. Adam göndərdi ki, əsil Fatmanı axtarıb tapsınlar.

Bir gün dərya kənarından keçəndə, xoruz yenə də banladı.

– Quqquluqu.... Fatma xanım dəryada, naqqa balığın qarnında, uşağı qucağında.

Şahzadə əmr elədi, tor atıb naqqa balığı tutdular. Fatma xanımı uşağı Məhəmməd qucağında balığın qarnından çıxartdılar. Şahzadə onu götürüb saraya gətirdi. Dedi:

– Təndiri yandırsınlar.

Fatmaya dedi ki:

– Mən qılıncımı təndirə atacağam, deyəcəm ki, hər kim məni çox sevir, qılıncımı təndirdən çıxartsın, ancaq sənin işin olmasın.

Şahzadə gəlib qılıncı atdı təndirə, dedi:

– Hər kim məni çox istəyir qılıncı təndirdən çıxartsın.

Çirkin Fatma dedi:

– Mən çıxardaram.

O, təndirə əyiləndə, onu təndirə basıb, duvağını qoydular. Çirkin Fatma badam gözü ilə qızarmış təndirdə yanıb büryan oldu. Onu çıxardıb, bir böyük xonçaya qoyub üstünə örtük çəkib, anası evinə göndərdilər. Qulamlar o xonçanı arvada verib, dedilər kürəkənin sənə bir pay yollayıb. Arvad dedi:

– Qoyun bir bucaqda qalsın.

Uşaqlar gedib örtüyü açdılar, yanmış çirkin Fatmanın cəsədini tanıdılar. Gəlib analarına dedilər ki, ana, o büryan deyil, Fatma bacımızdı. Arvad gəlib gördü ki, qızıdı, vəziyyəti bildi.

Şahzadə dubarədən toy tutub şadlıq etdirdi. Onlar yedilər, içdilər, qara yerə keçdilər. Siz də yeyin, için, mətləbi-muradınıza yetişin.

## TAPMACALAR

O nəmədə? Gecə səpdim noxudu, səhər gördüm yoxodu (Ulduzlar).

O nəmədə? O yan pərçin, bu yan pərçin, içində bir cüt lalə göyərçin (Göz).

O nəmədə? Hacılar Həccə gedər, vaxt olur gecə gedər. Bir yumurta içində qırx dənə cücə gedər (Nar).

O nəmədə? Günüzlər kəniz, gecələr xanım (Süpürgə).

O nəmədə? Qara şikar burada yatar, şax budağın ətrafa atar (Qarpız tağı).

O nəmədə? Bir təpədə bir qucaq vərək (Baş və tükü).

O nəmədə? Çöl yerdə çölmək qeynər (Qarışqa yuvası).

O nəmədə? Yuxarı gedər işi var, aşağı gələr yükü var (Qaşıq).

O nəmədə? Bacadan düşər sınmaz, taxçadan düşər sınar (Yumurta).

O nəmədə? Biz bəzədik, taxçaya düzdük. Otuz iki qız idik, atulduq düzüldük (Ağızda dişlər).

## BAYATILAR

Bulaq başında durma,
Gözlərin dolandırma,
Qız yarın burda dəgil,
Gəl, məni utandırma.

Damda durana qurban,
Əldə Qurana qurban,
Mən ki yarı görmədim,
Yarı görənə qurban.

Pəncərədə üzüm var,
Ana, sənə sözüm var,
Bir həyətdə üç bacı,
Kiçiyinə sözüm var.

Qaşların aldı məni,
Kəməndə saldı məni.
Gözlərin şahmar ilan,
Dolandı çaldı məni.

Qərə qoyun, mələmə,
Ağ məmələr dələmə,
Biz ikimiz adaxlı
Mən ölüm, naz eləmə.

Arxaluqun büzmə, yar,
Əlin məndən üzmə, yar,
Kirpiklərin ox kimin,
Sinəm üstə düzmə, yar.

Dama çıxma toz olur,
Abı dönüb bez olur,
Əyil dəsmalın götü,
Mən götürsəm söz olur.

Xərməndə yatan oğlan,
Köynəgi kətan oğlan
Adaxlın apardilar,
Bixəbər yatan oğlan.

Əsgəriyəm kişmişəm,
Cibdən cibə düşmüşəm,
Mən bir dənə el qızı,
Qəriblikə düşmüşəm.

Gəlin çıxaq damlara
Yalvaraq imanlara,
Su səpək güzgü tutaq,
Qardaş gələn yollara,

Su gəlir bağa neynum,
Dəyir yarpağa neynum.
Yarım mənnən küsübdü,
Gəlmir otağa neynum.

Damnan dama damımız.
Qoşadu eyvanımız,
Sən ordan çıx, mən burdan,
Kor olsun düşmanımız.

Ay gedər batan yerə,
Yar gedər yatan yerə,
Bir xəlbir buğda gətir,
Gedək nar satan yerə.

Nadan yar ey, nadan yar,
Gözəl gül oynadan yar,
Sən ki bu cür deyildin,
Səni örgədənmi var?!

Qoz ağacu qolun yar,
Qol boynuna salım yar,
Mənsiz necə dözürsən?
Daş ürəkli zalum yar.

Qoz ağacı dəgiləm,
Hər gələnə əgiləm
Əgil üzündən öpüm.
Mən özgəsi dəgiləm.

Suğranı çayda gördüm
Əlində bayda gördüm
Bir öpdüm, bir dişlədim.
Onnan nə fayda gördüm.

İmam Rza bağları,
Yaşuldu yarpaqları,
İmam versin mətləbim,
Yandurum çıraqları.

Həmədan yoli daşdu,
Quşlaru qızıl başdu,
Mən öz yarım tanıram.
İncə boy, qələm qaşdu.

# UŞAQ FOLKLORU

## Üşüdüm ha, üşüdüm

Üşüdüm, ha üşüdüm,
Damdan alma düşürdüm,
Almacuğım aldilar,
Mənə zülm verdilər,
Mən zülmdən bezaram,
Yerdə quyu qazaram.
Yerdə bir quyu ərkək,
Ərkək qazanda qaynar.
Qəmbər dövründə oynar,
Qəmbəri qurd apardi,
Quyruğu yerdə qaldi
Quyruğun satdım tata.
Tat mənə darı verdi,
Darım səpdim quşa.
Quş mənə qanad verdi,
Qanadlandım uçmağa.
Haq qapusin açmağa.
Kilid babam boynunə.
Babam Girman yolinə,
Girman yolu sərbəsər.
İçində mahu gəzər,
Mahu doğdu bir oğlan.
Adin qoydu Güloğlan,
Güloğlan getdi oduna.
Qarği batdı buduna,
Qarği degil qəmişdi,
Beş barmağı gümüşdü.

# XIV. ETNOQRAFİK CİZGİLƏR

## Sağlamlıq rüsumatı və baş verən dəyişikliklər

Lap qədimlərdə yeməyi əl ilə yeyirdilər. Süfrəyə bir dənə dəsmal qoyardılar. Dəsmal parçadan olardı. Yemək yeyəndən sonra böyüklər əvvəlcə barmaqlarını yalardılar. Bu işi savab sanardılar. Sonra o dəsmalla əllərini silərdilər. Axırda kiçiklərə verərdilər.

Sonralar kasaya su tökər, yeməkdən sonra bir-bir əllərini su içində yaxalardılar. Amma hər kəsin özünün cibində bir dəsmalı olardı, onunla əllərini qurudardılar.

Bir müddətdən sonra aftafa-ləyəndən istifadə eləmək dəb oldu. Aftafa-ləyəni dolandıran olardı. O adam qolunun üstünə hövlə də salardı. O gedib hər kəsin qabağında əyləşərdi, əvvəlcə aftafadan su tökərdi, əllərin yuyardılar. Sonra onlar ağızlarına su alıb, tökərdilər ləyənə, sonra da hövlə ilə əllərini qurulardılar.

Sonralar qaşıq, bıçaq işlətmək dəb oldu. Qaşıqla xörək yeyərdilər, amma bir-birinin qaşığından istifadə etməkdən çəkinməzdilər. İndi belə şeylər dəb deyil. O zaman bəzi xanımlar əllərini qurulamaq üçün çar qatlarının ucundan istifadə edərdilər. Bir müddət sonra da hər evdə bir hövlə asardılar. Ev əhli hamısı ondan istifadə edərdi. İndi hər kəsin özünün bir şəxsi hövləsi var.

Suyu kasada, ya da bir saxsı bardaqda içərdilər. Amma qonağa həmişə kasada su verərdilər. Sonralar bir parçda su qoyardılar, bir livan da qoyardılar ki, hamı ondan istifadə eləsin. Bir qab vardı, adına "soğan su yeyin" əşgənə deyirdilər. O qab böyük olardı. Ətin suyunu onun içinə tökər, içinə çörək doğrardılar. Sonra hamı əl uzadıb o qabdan yemək götürərdi. Çilov-xuruşu da böyük qaba çəkərdilər. Hamı o qabdan xörək götürərdi.

Üç-dörd uşaq üçün bir yorğan-döşək salardılar. Gecələr yatmadan qabaq uşaqlar üçün nağıl deyərdilər. Əgər evdə külfət olsaydı, bu iş onun boynuna idi, olmayan surətdə ata-analar özləri uşaq yatana kimi ona nağıl deyərdilər. Uşağa on yaşına kimi şam verməzdilər. Uşağı axşam əzanından bir az sonra yatırar-

dılar. Qonaq yanına uşaqları on beş yaşınadək qoymazdılar, heç yerə aparmazdılar. Həftədə bir dəfə böyük babası evinə gedərdilər. Böyük baba evdə olmasaydı, xala evinə gedərdilər.

On beş-iyirmi gündən bir hamama gedərdilər. Meyvə ilə xörəyin yaxşısını qonağa verərdilər. Uşağın qonaq yanında danışmaq haqqı yox idi. Evdə artıq qalan, əl dəymiş yeməyi ev işçisi yeyərdi. İşçiyə iki dəst paltardan artıq almazdılar, ona maaş da verməzdilər. Əgər o, kənd əhli olsaydı, xərmən vaxtı iyirmi batman buğda verərdilər. O yazıq köhnə yataqda yatardı. Dincəlmə zamanı çox az olardı. Evin bütün işlərini o görərdi. Evin külfəti evli olmasaydı, onu ərə verib cehizini də verərdilər.

## Hamam vəsaili və işlənən rüsumat

Hamamda işlənən vəsail bunlardan ibarət idi: bir böyük mis tas, ağzında bir çel tas, içi yazılı bir kiçik tas, bir məcməyi, lif və daraq qoymaq üçün birayaqlı sini, alta salmaq üçün kilim, tirmə süzəni ki kilimin üstündən salınır, tirmə boxça ki üstünə mirvari tikərdilər, paltarı onun içinə bükərdilər. Mərmər daşdan ayaq altı olardı ki, ayağa həna qoyanda, ayaqları onun üstünə qoyardılar. Ayaq daşının üstü qızıl, ya gümüşlə bəzədilmiş, ya da sadə olardı.

Xanımların boxçalarını qulluqçuları çiyinlərində aparardılar. Hamamın qapısında boxçanı camadara təhvil verərdilər. Xanım hamamın içinə girəndə suçu gəlib vəsaili içəri aparardı və tası su ilə doldurub hazır qoyardı. Xanım içəri girəndən sonra hamamda tanış adam görsəydi, aparıb bir qab su o adamın çiyninə töküb deyərdi: "Həmişə təmizlikdə". O da ayağa durub təşəkkür edərdi. Bir atalar sözü də bu barədə var: "Hamam suyuyla dost tutur". Hamamda dəllək də olardı, o, bir hacəmət ilə ülgüc torbaya qoyub belinə bağlardı. Uşaqlar həcəmət qoymaqdan və xəzinədən qorxardılar. Analar uşaqlarına müxtəlif şeylər boyun olardılar ki, onların sözünə baxsın. Həcəmət almaq üçün əvvəl uşağın başına sabun çəkərdilər. Onun köpüyü uşağın gözünü tutardı. Bu zaman dəllək həcəməti yapışdırardı uşağın kürəyinə. Sonra sorup

qopardı. Bu vaxt uşağın naləsi göyə qalxardı. Həcəmət qoyan ülgücnən çırtardığı yerdən üç-beş şüşə qan alardı. Xəzinənin suyunu ayda bir dəfə boşaldardılar.

Hamamın xəzinəsinin suyundan iki dəfə istifadə edərdilər, bir hamama girərkən çirkləri islanmaq üçün, bir də suya çəkilmək üçün.

Çimən yerdə özlərindən kiçik xanımlar onların başına su töksəydi, onun əvəzində qızlarını yollardılar ki, əvəzində o xanımın başına su töksünlər. Əgər qızları yanlarında olmasaydı, dəlləyi yollardılar. Təzə gəlin hamamda ərinin bibisini, ya xalasını görsəydi, soyunmazdı. Əyləşərdi ki, onlar çıxandan sonra gedib yuyunsun. Amma əgər lapdan varid olsaydı və onların birini içəridə görsə idi, birçəklərini və saçların açıb, gözəndəlik kimi üzünə tökərdi, bir cam su aparıb tökərdi bibi və ya xalanın başına. Sonra da gəlib hamamın xəlvət yerində əyləşərdi. Dəllək gedib orada onu yuyundurardı.

O zaman xan və naib arvadları tez-tez hamama varid olardılar. Əgər hamamda bir nəfər onların üstünə su sıçratsa, ya da hörmətsizlik eləsə idi, o xanım dəlləyə əmr edərdi ki, fitəni eşib, suya bassın. Sonra onlar o adamı döyərdilər.

## Baş və paltar yumaq üçün işlədilən şeylər

Keçmişdə baş yumaq üçün xalxal gilindən istifadə edərdilər. Sonralar ətirli sabun və marağa sabunuyla, indi isə şampunla yumaq dəb olubdur.

Paltarları çoğanla yuyardılar. Çoğan bir cür şirədir ki, köpüklənir və kənd əhli baharın axırlarında çoğanı yığıb, qurudandan sonra onu döyüb ələkdən keçirərdilər. Öz paylarını götürəndən sonra qalanını satış üçün şəhərə gətirərdilər. Ağ paltarları o zaman da sabunla yuyardılar.

## Çay üçün şirnilər

Çayı lap qabaqlar kişmişlə içərdilər. Sonralar ağ və sarı nabatla, son zamanlarda isə rus qəndi ilə içərlər.

## Evlərdə işlənilən yağlar

Kərə yağını əridib, sarı yağa döndərərdilər. Hərdən quyruq yağı da sarı yağa qatardılar və yemək bişirəndə ondan istifadə edərdilər. Sonralar təzə kərədən və zeytun yağından xörək hazırlamağa başladılar.

Xuruşt üçün səbzəvatı qurudardılar, bardağa yığıb, qışda işlədərdilər. Səbzəvatı zirzəmidə saxlayardılar. Bu səbzidən qovurma səbzi və başqa yeməklər bişirərdilər.

## Qonaq otağının bəzənməsi

Qonaq otağının yerini fərşlə döşəyərdilər. Ümumən fərşi ortaya salıb, oyan-buyanına isə keçə salardılar. Yorğan-döşəyi də bağlama çarşabına bağlardılar və bağlamanın üstünə mütəkkə qoyardılar. Mütəkkələrin üzləri tirmə, ya məxmərdən olardı. Mahutdan poşti olardı ki, qonağın dalına qoyardılar dayanmaq üçün. Kəndlərdə keçə işlədərdilər. Keçənin üstünə qırmızı, yaşıl mahut çəkərdilər ki, buna fərş üstü deyirdilər.

## Qulluqçular

Qulluqçular ağalarına və onların ailələrinə təəssüblü və vəfalı olardılar. Ağa bir qonaqlığa gedəndə, qulluqçu da onunla gedərdi. Qapı ağzında dayanıb qol bağlayardı. Deyirlər bir zaman bir qulluqçu ərbabı ilə şam qonaqlığına gedir. Qol bağlayıb ağanın hüzurunda dayanır. Şam yeyəndə iki-üç dənə düyü ağanın saqqalına düşür. Qulluqçu da bunu görür və istəyir ki, bunu ağaya yetirsin. Deyir: "Qurban olum, ağalar ağası, Qarabquş dağında bir cüt hərami var, beş atlı ilə onu endirin". "Beş atlı" beş barmağa işarədir.

## Qış ayları və günləri

Qışın böyük çilləsi qırx, kiçik çilləsi iyirmi gün olur. Dörd gün böyük çillədən və dörd gün kiçik çillədən olan günlərə çar-çar deyirlər. Çillə beçə qarı və küləyi on gün olur. Qış qarı və

hacıleylək qarı iyirmi gündür. Hacıleylək bu günlərdə köçməyə başlayır. Beləliklə, baharın gəlməsindən xəbər verirlər. On yeddi gün bayrama qalanda bir yel əsir ki, ona vədə yeli deyirlər. O yel əsən zaman ağaclar canlanıb ayılırlar. Əgər bu yel insana dəysə, cavanlıq gətirər. Kiçik çillənin axırıncı çərşənbəsi qar yağar. Bu zaman deyirlər: "Çərşənbə qar altda qaldı."

## Məscidlər

Ərdəbildə olan məscidlər bunlardır: Ağa Mirəliəkbər məscidi, Hacı Mirsaleh ağanın iki məscidi, Tabar məscidi, Məscidi Camsə, Üçdükan məscidi, Pir Əbdülməlik məscidi, Alaqapı məscidi, Sərçeşmə məscidi, Cameə məscidi, Ağapağı Xərməni məscidi, Abrəvan məscidi, Bağmeşə məscidi, Sərtipabad məscidi, Rəhmaniyyə məscidi, Seyidabad məscidi, Yasavul məscidi, İldırımşah məscidi, Qacariyyə məscidi, Cəlilşah məscidi, Yağlı Əliyyə məscidi, Mənsuriyyə məscidi, Böyük məscid, Soltanbad məscidi, Sənkər məscidi, Göy məscid, Həsənabad məscidi, Kərbalayi Əlişah məscidi, Qüdsi məscidi, Mövla məscidi, Tonçular məscidi, Əxirəl məscidi, Pir palanduz məscidi, Daşçılar məscidi, Təbrizlilər məscidi.

## Darvazalar

Şəhərin bir neçə darvazası var: Astara darvazası, Alaqapı darvazası, Üçdükan Alaqapısı, Dərvazayi-Mişkin, Dərvazayi-Təbriz. Darvazaların qapısı var və qapılarda gözətçi dayanır.

## İllik tədarüklər və çörək bişirmə

Dəyirmanda növbəyə dayanardılar. Un dartandan sonra gətirib evlərdə kəndulara tökərdilər. O zaman hər kəsin evində bir taxta kəndu olardı. Onu aşpazxanada yerləşdirərdilər. Kəndunun iki qapısı vardı. Biri üstə ki, unu dəyirmandan

gətirəndən sonra oradan içəri tökərdilər. Biri də ətəkdə olardı ki, işlətmək üçün un istəyəndə o kiçik qapıdan götürərdilər.

Hər kəsin evində təndiri olardı və çörək bişirərdilər. Bu iş üçün bir üyüdən çörəkçi, bir vedrəçi və bir nəfər də kündəsalan olardı. Xəmiri adətən gecə elərdilər, çörəkçi və köməkçiləri səhərəcən oyaq qalardılar. Ev yiyəsi onlara yağ və şəkər verərdi. Onlar xəşil bişirib yeyərdilər. Səhərəcən başlarını qatmaq üçün çay, qış fəslində badam və girdəkan içi yeyərdilər. Bəzən də nağıl deyərdilər. Xəmir eləyəndə deyirdilər ki, bir ayağı yüngül gəlsin üstünə. Səhər vaxtı dünyaya gələn adamın ayağı yüngül olur. Əgər belə adam iş üstünə gəlsə işləri yüngül keçər. Çörəyi hər on beşdə, ya ayda bir bişirərdilər. Təndir iki dənə olardı: biri böyük təndir; biri də xırda təndir. Kiçik təndirdən bişirmək üçün istifadə edərdilər. Külüçə bişirəndən sonra bir böyük kaşı hədik aşı bişirərdilər. Bu aşı nahara, ya da şama yeyərdilər. Aşı bişirmək üçün ona paxla ləpəsi, yarma, buğda yarması, noxud və düyü qatıb, sonra sarı yağ və su da ona artırardılar. Çörəyi bişirəndən sonra qurudub yığardılar. Gündəlik ehtiyacları qədər su səpib yumşaldar və sonra yeyərdilər.

## Başqa il hazırlıqları

Altı batman əriştə kəsib, qurudardılar. Əriştənin yarısını plov, yarısını da əriştə aşı üçün ayırardılar.

18 kilo mühəmmədi gülü alıb, onun gülabın çəkərdilər. Ondan orucluq ayında firni üçün istifadə edər və məhərrəm ayında rövzədə paylardılar. Bir və ya iki dənə qoç alıb kəsərdilər. Ətini qış qovurması üçün tikə-tikə doğrayıb, soğanla qovurardılar, küpələrə yığıb, qışda ondan xuruşt, abgüşt bişirərdilər. Qoçu soyan zaman onun dərisini çıxardardılar. Bu dəridən penir yığmaq üçün istifadə edərdilər. Dəridən ayran tökmək üçün də istifadə olunardı. Beş banka turşu, beş banka mürəbbə düzəldib, qışa saxlayardılar. 5-6 xalvar kömür alıb arıdardılar və sonra onu quru yerdə saxlayıb, qışda kürsüyə qoyardılar.

Kömürün ovağını yumrulayıb kündə kimi düzəldərdilər. Quruyandan sonra manqala xəkənin altından düzərdilər. O qızarıb, kürsünü yaxçı isti eləyirdi.

İldə lazım olduqları qədər buğdanı düyü kimi məcməyidə arıdıb, sonra yuyub quruyandan sonra dəyirmanda dartırardılar.

İldə 15 kisə düyü alıb, arıdıb, qəlbirə vurar, qablara yığıb il ruzamarı eləyərdilər. 7-8 xalvar odun yardırıb ocaq və peç üçün anbara yığardılar, qışda yandırardılar.

2 tay yerkökünü torpağa quylardılar ki, qışda bişirib yesinlər. Yerkökünü bəzi vaxtlarda saman içində saxlayardılar. Astara şəhərində qovunu saxlamaq üçün tor toxuyardılar. Və qovunu torun içində zirzəmidə göydən asardılar. Üzümləri tavandan asar və qışa saxlardılar. Girdəkan qurudub qablara yığar, il boyu fisincan bişirən zaman istifadə edərdilər.

## Həzrəti-Xızır nəbiyə inanışlar və onun üçün olan nəzirlər

Həzrəti-Xızır nəbiyə nəzir edən şəxslərin nəzirləri qəbul olsa idi, Həzrəti-Xızır adına qovud qoyardılar və qonum-qonşuya, qohum-əqrəbaya paylardılar. Qovud düzəltmək üçün noxud və buğdaya qənd ya şəkər qatıb dartar, onu bir təştin içinə töküb üstünə bir parça salar, otaqda süfrə açıb süfrənin içinə qoyardılar. Onunla bərabər aftafa-ləyən, canamaz, daraq, ayna və bir qayçı qoyardılar. Üstünə bir pərdə çəkərdilər. Bir çıraq da yandırıb, yanıq qoyub, qapını bağlayıb gedib yatardılar. Əqidələri var idi ki, Həzrəti-Xızır nəbi gələr və aftafa-ləyəndən istifadə edib, dəstəmaz alıb, orada olan canamazla namaz qılardı. Gülabdan gülab töküb üzünə çəkər və aynaya baxıb başını darayardı. Sonra qayçı ilə bir əlini qovudun üstünə basar və beləliklə, Həzrəti Əlinin rəddi qovudun üstünə düşər, qovud təbərrük olardı. Bundan sonra qovuddan boşqab-boşqab qonum-qonşuya göndərərdilər. Qışda böyük çillədən 4 gün qalanda və kiçik çillənin əvvəl dörd günlüyünü xeyirli günlər sayırdılar. O 8

günün içində Allah-təalanın icazəsilə yerə gizli nəfəs gəlir və yer bala-bala buğlanır, qar əriyirdi. Böyük çillədən 10 gün qalan günlərə deyirlər kürd oğludur. Bu günlərdə havada külək olur, Kürdoğlu günləri və adı barədə bir hekayə vardır. Deyirlər bir kürd oğlu var imiş. Onun anası istəyir onu evləndirsin. Şama qonaq çağırar və oğlundan istəyir ki, getsin qonşu kənddən qazan gətirsin. Oğlan gedir, qazanı alır və evlərinə sarı yollanır. Yolda külək başlayır. Kürdoğlu görür külək tezliklə kəsilən deyil, yerə əyləşir və qazanı başına çevirir. Səhərə kimi bu halətdə qalır. Səbuh adamları dalısınca gedirlər. Yerə baxa-baxa gedirmişlər ki, onun ölüsün tapsınlar. Görürlər ki, bir yerdə qaraltı görsənir. Yaxınlaşıb görürlər ki, Kürdoğlunun nəfəsindən qazanın həndəvəri bir az ərgindir. Yol açır və onu diri görürlər. Sonra anasına muştuluq aparırlar. Anası deyir ki, mən saçımı suya salmışdım, amma saçım donmamışdı. Mən bundan bildim ki, oğlum üçün bir xətər yoxdu. Əgər donsa idi, xətərli ola bilərdi. Sonra da oğlana toy tuturlar. Ona görə də bu günləri Kürdoğlu günü adlandırırlar.

## Müxtəlif inam və adətlər

Bayramdan 45 gün keçmiş günə erməni xaçı deyirlər. Rəvayətə görə guya erməni xaçını suya salar və ondan sonra bir yağış yağar ki, onun adına "leysan" deyirlər. Bir də deyirlər ki, ermənilər bu yağışın suyundan bir qaba yığıb tüklərini kəsib salırlar o yağışın suyuna və yer yağışdan doyandan sonra erməni xaçını sudan çıxardırlar.

Kiçik çillə deyib: Əgər böyük çillənin qüdrəti məndə olsaydı uşaqların ayaqlarını qundaqda və gəlinlərin əllərini yağ bardağında dondurardım.

Yayın orta ayına xurma bişən ay deyirlər. Yayın orta ayında hərdən bir soyuq düşür, ona boran deyirlər. Keçmişdə bir nəfər çöldə bu borana rast gəlir, ayaqlarını soyuq alır. Bir məsəl də var deyirlər: "Niyə bizə gəlmədin, ayaqlaruvi boran almışdı?"

## Xanımların boyluluq dövrləri və uşaqların dünyaya gəlməsi

Xanımların yerikləri 40 gün sürür. Gərək boylu xanımları 4 ay bərk qoruyasan. Boylu xanımları qoymazdılar ki, bir əxlaqı fasid adamdan tikə alsın, deyirdilər əgər pis adamdan tikə alsa, uşaq o cəhətdən həmin şəxsə oxşayar. Həm əxlaqi cəhətdən, həm də zahiri cəhətdən. Əks sürətdə, əgər tikə verən şəxs yaxşı adam olsa, uşaq ona oxşayar.

O zaman oxumuş yox idi. Mamaçalar təcrübəli olurdular. Deyirlər əgər yerikləyən zaman narı dənələyib aynanın üstünə töksən və üzüqoylu düşüb əlin köməyi olmadan onu dodaqlarla yesən, uşaq gözəl olar. Nar qırmzı alma qabığı ilə yeyilsə, uşaq imanlı olar. Boylunu heyvanlara baxmaqdan çəkindirərdilər, deyirdilər baxan surətdə uşaq onlara bənzəyər. Əgər uşaq sağlam olsa, üçüncü aydan boylu xanımın ürəyinin çırpıntısı artar.

Niyar kəndində bir imanlı şəxsin məqbərəsi var. Oranın İmamzadə olduğuna inanırlar. O zaman boylu xanımı oraya aparardılar. Oranın xadimi bir tikə sapa dua oxuyardı ki, bu işin adına ovsunlamaq deyərdilər. Ovsunlanmış sapı boylu xanımın boynuna salardılar. Bir dənə də qoyun ürəyi alıb verərdilər, xadim onu da ovsunlar və qəbrin üstünə sürtərdi. Bir zərrə də torpaq götürüb ürəyin üstünə səpərdi və sonra deyirdi: “Ovsunladım, apar bu ürəyi kabab elə, yaxçı olarsan”. Xanım da ürəyi kabab eləyib yeyər, sapı da boynundan asardı. Bir azdan sonra deyərdi ürəyim aram oldu.

9 aydan sonra doğum zamanı çatanda, əlli-altmış nəfər yaxın adamları nahara, ya da şama çağırardılar. Mamanı da çağırardılar. O gələndə özü ilə bir qalın sap gətirib, ülgücü o sapa salıb boynundan asardı. Bir şam kəllə qənd də əlində olduğu halda içəri girərdi. Mama bu işi xanımların ilk uşaqları olduğu zaman edirdi. O şalı işıq üçün və şirinini şirinlik, təbrik üçün gətirərdi. Sonra zahının dalına bir yumruq vurub, deyərdi: “Oba köçdü, sən də köç”. Beləliklə, xanımın qarnındakı uşağa sifariş edərdi ki, oba köçdü, sən də bu işıqlı dünyaya köç.

Qonaqlar bir böyük evə yığışardılar. Bir cecim gətirib, evin ortasına salardılar. Bir məcməyini də onun üstünə qoyardılar. Bir miqdar da kül onun içinə tökərdilər. Bir kərmə zahının sağ ayağının altına, birini də sol ayağının altına qoyardılar. Kərmələrin üstünə parça çəkərdilər. Zahının ən yaxşı paltarlarını geydirərdilər. Bir qırmızı çadra da başına örtərdilər. Çadranın cinsi atlaz, ya madamnandan olardı. Gəlinlik gecəsinin kələsini də üzünə salardılar. Zahı gərək özünü möhkəm tutaydı. İki qız uşağı əllərində şam onun sağ-solunda dayanardılar. Qonaqlarla zahının arasına bir çadra çəkərdilər.

Uşaq dünyaya qədəm qoyan kimi mama bir dənə böyük soğan gətirərdi. Zahı gərək dişini qabıqlı soğana basaydı, amma qopartmamalıydı. Soğanı bir kabab şişinə çəkirdilər. Zahı onu əlində tutub yavaş-yavaş qabaqca saldıqları yorğan-döşəyə sarı gedirdi. Sonra şişə çəkilmiş soğanı onun başının altına qoyurdular. Bu vaxt hamı zahının adını Məryəm çağırardı. Zahını yerinə sarı aparan zaman biri ona deyirdi: “Məryəm”, o da deyirdi “bəli”. Dön daluva bax. Zahı dönüb dalına baxar və üç dəfə bu sözləri təkrar edərdi. Bu sözlərin mənası budur ki, yenə də gələcəkdə zahı uşaq sahibi olsun. Zahını yerinə salandan sonra şamları söndürərdilər. Əlbəttə, şam yandırmaq, qırmızı paltar geydirmək ilk uşaq dünyaya gələn zaman edilərdi, sonrakı uşaqlarda bunu etməzdilər.

Sonra mama əlinə bir kabab şişi götürüb, otağın divarlarına cızıq çəkərdi. O, bu işi görən zaman bir nəfər ondan soruşardı: “Niyə cızıq çəkirsən?” O deyərdi: “Məryəm hasarı çəkirəm”. Onlar 3 dəfə bu işi təkrar edərdilər. Sonra bir miqdar kəklikotu həm zahının üstünə, həm də yerinə və otağa səpərdilər. Uşaq sahibi olan kişi uşağı üçgünlük olan kimi bir qurban kəsərdi. Qurbanı kəsmədən əvvəl onun gözünə sürmə çəkərdilər. Elə haman mili ilə də uşağın gözünə sürmə çəkərdilər. Qurbanın qanından da uşağın qaşlarının arasına sürtərdilər. Qurbanın ətini isə yoxsullara pay yollayardılar.

Uşaq doğulan zaman qadına bir miqdar düyü verərdilər. O, gərək düyünü yeyəydi. Onlar bu işi çox zəhmətlə görərdilər.

Sonra da iki xurma, bir piyalə də yağda qovurulmuş kişmiş verərdilər.

Uşağın göbəyini kəsib, bir tay başmağa bağlar, döşəyinin altına qoyardılar. Keçi qılından düzəlmiş qalın sap da paltarının altından uşağın qoluna bağlanardı.

Doğuşdan sonra zahı iki saat oyaq qalmalı idi. Guya o yatan vaxt albastı gəlib onun ürəyini aparar. Bir qızıl da otağın qapısının rizəsinə vurardılar ki, qulyabanunun gəlməsindən otağı qorusun. Deyirdilər ki, qulyabanu dəmirdən qorxar, qızılı görcək qaçar. Əgər o içəri girə bilsə, uşağa, anasına zərər yetirər.

Bu işləri gördükdən sonra mama gəlib zahının qarnı üstündə işlərdi, sonra ondan soruşardı ki, ağırsan, yüngül? O da deyərdi "yüngül".

Sonra biri muştuluqçu kimi gedib qadının yaxın qohum-qardaşına xəbər verərdi. Əgər uşaq oğlan olsaydı, ona yaxşı ənam verərdilər, əgər qız olsaydı, hamının ovqatı acı olardı. Zahı isə bu zaman yatmaq bəhanəsilə yorğanı başına çəkib ağlardı. Yanında olan əqrəbası da tutqun, narahat olardılar. İlk gün zahıya yemək üçün quymaq verərdilər. İçmək üçün su verməzdilər, deyirdilər su başına çıxar, amma istədiyi qədər ona çay verərdilər, hərdən o gizlicə su götürüb içərdi. Zahı gərək on gün üzünə su vurmuyaydı. Otağın pəncərəsini də açmazdılar. Zahının yanına gələn qonaq gərək qapı qabağında dayanaydı. Mama uşağı qucağında götürüb, qapı ağzına apardı və uşağı yuxarıda tutardı ki, qonaq onun altından içəri girsin. Deyirdilər əgər qonağın yanında duası olsa, uşaq dönər, yəni ölər, ya da ki, yuxusu olmaz. Yeddi gecəsində uşaq gərək mama nənənin, ya da başqasının qucağında saxlanaydı. Çünki gecəquşu o gecə gəlib, uşağın başı üstündən sovuşub ona zəfər yetirərdi. O quşa bəziləri şəbnərə deyirlər. Həmin gecə dama bir daraq sancar, bir qədər də darı yerə səpərdilər. Bir az da qabda su qoyardılar ki, quş gəlsə o darıdan yesin, uşağa zəfər yetirməsin. Uşağın qundağında bir gözmuncuğu, bir dənə al muncuğu, bir qanlı babaqurlu, bir kəhraba, bir kəvaz muncuğu, bir göy muncuq, bir

şəvə, bir balaca saat açarı, bir şəbəkərə quşunun əli və bir dənə də vanikad qoyardılar.

Yeddinci gecə zahının anası qonaqlıq üçün hazırlıq görüb, əlli-altmış nəfər qonaq çağırardı. Yaxın qonaqlar hərəsi bir hədiyyə gətirərdilər. Məsələn, paltar, vanikad, guşvarə, şirni və s. Uşağı bir tirmə çarqata bükər, aparıb ağaların məclisində bir alim şəxsin qucağına verərdilər. O şəxs uşağın qulağına əzan deyib, adını əgər qız olsaydı Fatma, oğlan olsaydı Məhəmməd çağırardı. Ondan sonra uşağı xanımların məclisinə gətirərdilər. Böyük ananın, ya bir yaşlı xanımın qucağına verərdilər. Sonra deyirdilər: "Al bu uşağı, ver bu uşağı, Allah saxlasın bu uşağı".

Bu işdən sonra uşağı öpər, bir-bir qonaqların qucağına verərdilər. Bu gecə mama nənə gərək uşağı sübhə kimi yerə qoymayaydı. Deyirdilər qoyan suratdə uşağa zəfər toxunar, zahının görüşünə gələn uzaq qohumlar da hərəsi şaxə nabat gətirərdilər. Bir qran pul da mama nənəyə verərdilər. Mama nənəyə verilən pulun adına göbək pulu deyirdilər.

Uşağın onuncu günü mama onu bazarlığa aparardı. O, əvvəl uşağı hamama aparardı. Hamamın xəzinəsinin suyundan bir az götürüb, uşağın damağına sürtərdi. O sudan bir az da zahı üçün gətirərdi. Sonra uşağı boyaqçı yanına aparardı. Boyaçı ipləri boyayan rəngdən götürüb barmağı ilə uşağın iki yanağına möhür kimi nişan vurardı. Bu işin müqabilində bir miqdar pul da alardı. Oradan uşağı karvansaraya və xarrat bazarına aparardılar. Bazardan bir dənə taxta qaşıq alardılar. Sonra kuzə bazarına gedib, bir miqdar noxud və kişmiş alar, axırda da şirniçiyə gedib, bir az noğul alardılar. Oradan birbaş evə qayıdardılar.

O uşaqla evə çatan kimi qapıda dayanardı. Zahıya xəbər verərdilər ki, onların pişvazına çıxsın. Zahı dayanardı, əvvəl uşağı içəri keçirərdilər, sonra o içəri girərdi.

Onuncu gün gərək oğlanın anası qonaqlıq versin. Mərasimə "Su tökdü" deyirlər. Onlar nahar verib, hamamı qoruq edirdilər. Hamama getmək mərasimi nahardan sonra olardı. Hamı xəzinəli hamama gedirdi. Hamama gedən qonaqlar zahı ilə birlikdə

gedərdilər. Bir nəfər 7 dənə girdəkan götürürdü. Yolda yeridikcən hərdən birini zahının ayağı altına qoyardılar. O da girdəkanları sındırardı. Hamamın damına atardı. Doğduğu gün şişə çəkilən soğanı da hamamın damına atıb deyirdi: "Ağırlığı atdım dama".

Sonra zahı hamamın içinə girərdi. Onun qulaqlarının hərəsinə bir yumurta sarısı tökərdilər. Bir dənə yumurta sarısın da içərdi. Onun bütün bədəninə zirə, girdəkan içi və bal qarışdırıb sürtərdilər. İki saatdan sonra mama nənənin icazəsi ilə zahının bədənin yuyurdular. Sonra qonaqlardan nəziran eləmək üçün hamamın içinə bir neçə məcməyi qax və əncir islanmışı, alma paludəsi, kasaların içində nar, gülab, çay və şirni gətirərdilər. Qonaqlar ilə zahı onlardan yeyərdi. Hamamdan çıxanda qonaqlar ev sahibi ilə görüşüb gedərdilər. Amma yaxın adamlar bacı, xala zahını evə aparardılar. O günü də zahı yorğan-döşəkdə yatardı. Sabahı gün ayağa qalxıb, məmul işlərinə başlardı.

## Uşaqların diş çıxartma mərasimi

Uşaq diş çıxartmaq yaşına yetişəndə dişlik bişirərdilər. Əgər uşaq vaxtından qabaq diş çıxartsaydı, bunun yönümünü xoş bilməzdilər. Evin böyük analarından biri o uşağın sağ əlini onun öz başına uç dəfə qoyub götürürdü və deyirdi: "Nüfusun düşsün öz başuva". O uşaqdan acıqları gələrdi və deyərdilər: "Uşaq bədyümən və "ecaz"dır ki, dişi tez çıxıb". Əgər bu işi görməsəydilər, o uşağın anası, ya da atası ölərdi. Bununla uşağın öz ölümün istərdilər.

## Qız uşağının təlim yaşı

Qız beş yaşına çatanda ona namaz, "əlhəmdullilah qülvallahı" öyrədərdilər. Altı yaşında namaz qılar, 7 yaşında məktəbə Quran dərsinə gedərdi. Qız "Quranı" oxuyub qurtarandan sonra anası bir qonaqlıq verərdi. Bu işin adına "Quran çıxma" deyərdilər. Bu mərasimdə məktəb uşaqları hamısı yığışardılar və qızın dalında

dayanardılar. O qız da axund bacının müqabilində əyləşərdi. Axund Quranın əvvəlinci surəsini açıb deyərdi oxu. O oxuyardı və xəmmullah kəlməsi dilinə gələndə haman axund bacı bir əməlli-başlı sillə o qıza vurardı. O, uşaqların mübəssər, nəzm və intizam məmuru idi. Bir ipək dəsmal axund bacının əlinə verərdi və o, uşağın iki əlin dəsmalla bir-birinə bağlardı. Haman dəsmal və sillə ki axund bacı vurardı, getmək icazəsi nişanəsi idi. Uşaqlar da oxucunun yanına yığışardılar. Tələbənin əlləri bağlı olduğu üçün xəlifə onunla yanbayan gedərdi və ona yardımçı olardı. Sonra hamılığnan Quran çıxan qızın evinə yetişərdilər. Qızın anası onların qabağına çıxardı. O, əlində bir xələt gətirib xəlifəyə verərdi. Xəlifə xələti alandan sonra qızın əllərin açardı. Sonra anası onu bağrına basıb nəvaziş və təqdir edərdi. Sonra çağırılanlar hamısı içəri keçərdilər və nahar edərdilər. Şirni, meyvə və çay ilə onlardan pəziralıq edərdilər. Axund bacıya da bir məcməyidə nahar, kəllə qənd və bir xələt, on tümən gümüş pul yollardılar.

Qız uşağı Quranı çıxan kimi təhsili tamam olunmuş sanılırdı və onun ata-anası ona başqa kitabı oxumaq və ya məktub yazmaq icazəsi verməzdi.

## Qızlar və elçiləri

Qız 12 yaşına çatan kimi evdə anaları onlara ev süpürmək, qab yumaq, tikiş tikmək, ət asmaq və s. öyrədirdi. Bu zaman qıza elçi gəlmək zamanı idi. O zaman elçilər gəlib əyləşər və əvvəl bir az su istəyirdilər. Qızın anası tez bilərdi ki, bunlar elçidir. O, qızına deyirdi ki, su gətir. Qız gedib pal-paltarın dəyişib, sonra su əlində gəlib salam verərdi və gələnlərin hər birisin böyük bilsəydi, əvvəlcə suyu ona təklif edərdi. Qız ayaq üstə dayanardı ki, o, suyu içsin. Bu fasilədə gələnlər onun qədd-qamətinə baxardılar. Sonra başqalarına da su təklif edərdi. Suyu bir böyük kasada gətirirdi. Bu mərasimdən sonra daha qız gözə görünməzdi.

Sonra qızın anası onların kim olduğunu öyrənmək istəyərdi. Onlar kim olduğunu deməzdilər. Qızın anasının sualının qaba-

ğında deyirdilər: "Yenə də gələcəyik, o zaman bilərsiz və tanıyarsız". Bu söhbətdən sonra durub gedəndə, əgər görsəydilər ki, başmaqlarını cüt qoyublar etiraz edərdilər ki, niyə başmaqlarımızı cütdəyibsiz. Biz yenə də gələcəyik. Bu sözdən məlum olardı ki, qızı bəyəniblər. Əgər bəyənməsələr, sözsüz və sakit gedərdilər. Əgər qız çirkin olsa, yainki anası çox hörmət eləsə, gedib oğlana və anasına tərif edərdilər ki, bir anası var, bağlama bağlamışdı. Əgər dağdan fırratsaydın, gedib dərənin dibində qalardı və açılmazdı. Qız özü çox qabiliyyətli idi, çubuq istədik, gətirdi, gətirəndə əlində çox xoştərkib tutmuşdu. Əgər qız gözəl olsaydı deyirdilər: "Doşaba getdik, şansımıza mürəbba çıxdı".

Bəyənən surətdə 3 gündən sonra yenə də oğlanın bibisi gedib söz açardı. Onun istəyinin qabağına qızın anası deyirdi hələ möhlət verin bizim qabaqda müsafirətimiz var. İyirmi gün sonra bir də oğlan evi gələrdi. Qızın anası deyərdi: - Dədəsi deyir ki, hələ uşaqdı və getməli vaxtı deyil. Onlar gəlib bir neçə kişi yollayırdılar qızın dədəsinin yanına. O da bir neçə gün möhlət istərdi və sonra axtarışa gedərdilər və oğlan barəsində məlumat toplayardılar. Onun əxlaqı barəsində istədiklərin öyrənərdilər. Əgər yaxşı nəticəyə çatsaydılar, bu dəfə elçilər gələndə bir şaxə nabat onlara verərdilər. Bu müsbət cavab göstərmək üçün idi.

Ondan bir neçə gün sonra oğlan evi şirni içmək üçün qız evindən icazə alardı. Şirni içdi mərasiminə hər iki tərəfdən 7-8 nəfər ağsaqqal və ağbirçək çağırardılar. Ondan sonra gəlinin görüşünə gedərdilər. Getməzdən əvvəl bir kasa nabat sifariş verərdilər. Onu qarpız şəklində, yaqut rəngində düzərdilər.

Bu mərasimdən üç həftə sonra şal, üzük aparardılar. Bunun üçün bir taqə tirmə, 3 dəst paltarlıq, bir dənə üzük, 3 xalça aparırdılar. Şirniyə çağırılan qonaqlar kifayət qədər olurdu. Şal-üzük məclisinə çalğı da aparırdılar. Sonra mərasim başlanardı. Qayınana gəlinin məclisə gəlməsini istərdi. Gəlin üzük saldı üçün içəri girərdi, onun başında çadra, üzü bürüklü olardı. Sonra qayınana özü üzüyü gəlinin barmağına salıb, bir qırmızı çarqat onun çadrası üstündən başına salar, üzündən öpüb, qayıdıb

əyləşərdi. Oğlan evi gətirdiyi tirməni gəlin əyləşən səndəlin üstünə çəkərdi. Gəlinin baldızı bir az noğul, 2 qran xırda pulu qarışdırıb, gəlinin başına səpərdi. Oğlanın bacısı sonra xonçanın yanında əyləşərdi. 3-4 dənə şirni boşqaba qoyub, qonaqların qabağına qoyardı. Qonaqlar şirnini alıb, dəsmallarına yığarlar. Şirni paylanandan sonra qonaqlar gedərdilər. Beləliklə, məclis qurtarırdı. Bir neçə həftə sonra damad ətirdən, dəsmaldan, sabun, ya corab alıb, verərdi kiçik bacısına və o, gəlin üçün apardı. Bu zamana kimi nə oğlan qızı görərdi, nə də qız oğlanı. Qızı oğlana onun nənə, bibi, yaxud bacısı seçirdi.

Gəlin bir müddət adaxlı qalardı. Novruz bayramında ona bayramlıq göndərərdilər. Bayramlıq bunlardan ibarət idi: bir dəst paltar, bir qızıl qolbaq, bir bulut şirni, bir batman düyünün plovu, neçə toyuq qıyması, balıq, kükü, kərə, mürəbbə və turşu. Oğlan adamları buna bayram plovu deyərdi.

Bayramlığı aparmaq üçün qabaqca qız evini xəbərdar edərdilər. Onlar da bu mərasim üçün yaxın qohumlarından çağırardılar. İki nəfər də oğlan evindən bayramlığı aparanlarınan gedərdi və şama da qalardılar.

Orucluqda da oğlan evi iyirmi nəfərlik xörək bişirib, qız evinə yollayırdı. Buna "İftar aşı yollamaq" deyirdilər. Bayram aşı bunlardan ibarət idi: Çilo kabab, kükü, firni, yoxdər behişt, müşkü firni, həliləbadam, rizə küftə, halva, bal, kərə, mürəbbə, biləng, qaymaq, züləbya və bamiya. Bunların hərəsindən bir bulut yollardılar.

Əgər gəlin ilə baldızı birlikdə bir yerə toya dəvət olunsaydılar, qayınanası onunçün bir xonça şirni, bir qəvara parça və bir qızıl sancaq yollardı. Bunun adına "rüsum" deyirdilər.

Ev sahibinin gəlini ilə qonaq gəlini bir araya gətirərdilər. Qonaq gəlinin xələtin cibinə, sancağın sinəsinə, şirnini də məclis əhlinə paylardılar. Onun baldızı qabağında oynardı.

Oğlan evi təzə gələn meyvələrdən bir yeşik qız evinə yollardı və buna "nübarlıq" deyirdilər. İndi də bu rüsum vardır. Oğlanın bacısı hərdən oğlanın tərəfindən bir kiçik hədiyyələrlə ge-

dib gəlinin halın soruşur. Oğlanla qızın icazələri yoxdu ki, bir-birilə görüşsünlər. Oğlan öz ürəyində qızın qardaşını qıza oxşadardı, amma qız onun qardaşını da tanımazdı ki, ona oxşatsın.

Bir müddət sonra oğlan evindən gəlib kəbin kəsmək üçün icazə alardılar. Bu mərasimə "kəbin kəsdi" deyirdilər. Bu mərasim üçün də bir neçə dəst paltar, üç xonça şirni, bir qızıl saat, qənd, çay, işçilərə xələt bir ayna, bir cüt lalə, iki dənə vəziri şamı, bir zər, zivərlə bəzənmiş məcməyiyə qoyardılar. Üstünə bir qırmızı örtük çəkib, gətirərdilər, lalələri də əldə götürərdilər, bir məcməyiyə də bir at yəhəri çevirərdilər. Bir şal da onun üstünə çəkərdilər. Qayınananın icazəsilə gəlini gətirib yəhər qaşının üstə əyləşdirərdilər. Sonra kəbin siğəsi oxunardı. Bir nəfər mömünə xanım Həzrəti-Yusif surəsini oxuyardı. Oxuduqca bir kasa suya piləyərdi, sonra qızın anası o suyu bir şüşəyə töküb saxlayardı. Həna günü hamamda suyu gəlinin başına tökərdilər.

Sonra bir neçə xoşbəxt xanımlardan gəlinin başı üstə ağ parça tutardılar. İki nəfər də iki tikə qənd götürüb, parçanın üstündə bir-birinə sürtərdi. Qəndin tozu töküldükcə, onlara xoşbəxtlik arzu eləyirdilər.

Kəbin kəsildikdən sonra da damadın icazəsi yoxdu ki, gəlini görsün. Qonaqlara qulluq keçən məclislərdəki sayaq olardı. Məclisdə olan xanımlar qonaqlıqda daddıqları şirnidən evlərinə də aparardılar. Bunu xoş yemək sayardılar. Bu mərasimdən bir neçə həftə sonra gəlinə parça aparmaq üçün icazə alardılar. Buna "parçakəsdi" deyirdilər. Bu cəşn təqribən axır cəşn sayılardı. Yenə də qonaq çağırardılar. Bu mərasimdə qonaqların sayı daha artıq olardı. Bu cəşn üçün də 6 dəst paltarlıq, bir cəvahir, ya qızıl sinəzir, 4 xonça şirni, gəlinə layiq başqa ziynət şeyləri, qənd, çay, xələt qoyub bunları qız evinə yollardılar.

Qonaqları çağırmaq üçün bir nəfər işçi yollardılar. Və o, qonaqları dəvət edərdi. O, hər kəsin qapısına dəvət üçün getsə idi, hərə bir qran gümüş pul ona verərdi. Əgər biri pul verməkdə geciksəydi, deyərdi: xanım nə verəcəksən ver, çox yerə getməliyəm.

Toyda hədiyyə üçün oğlanın yaxın qohumları, xanəvadəsi xələt, ya da qızıl sikkə verərdi. Qonaqlar yığışandan sonra çay verilərdi.

Gəlin içəriyə gələn zaman bərk üzünü bürüyərdi. İki nəfər onun qollarından yapışıb, içəri gətirər, üstünə tirmə salınmış səndəlin üstündə əyləşdirərdilər. Deməliyəm ki, gəlin içəriyə sazla, avazla varid olardı. Gəlinin səndəlisinin sağ-solunda 2 nəfər dayanıb yanıq lalələri tutardılar. Əlbəttə, gəlin qayınanasının icazəsilə əyləşirdi.

Oğlanın bacısı bir boşqab rəngli noğul, 2 qran gümüş pulu xırdalayıb, gəlinlə bəyin başına səpərdi. Sonra da onların qabağında oynayardı. Oğlanın bacısı oynayandan sonra növbə qızın bacısına çatardı. Ondan sonra yaxın qohum-əqrəba oynayanlara şabaş verərdi. Çalğıçılara isə xələt verərdilər.

Bundan sonra gəlini başqa bir otağa aparardılar. Bu dəfə növbə parçakəsdi üçün aldıqları paltarlığın göstərməsinə çatardı. Onlar şirni xonçalarını əvvəlcə gətirib düzərdilər. Sonra hər şeydən qabaq bir bulut şirni bəy üçün ayırırdılar. Sonra bir nəfər oğlan qabaqca işarə etdiyim sayaq xonçaların şirnilərini paylayardı. Başqası da parça xonçasının qabağında əyləşərdi. Oğlan evi tərəfindən gələn parçaları, paltarları göstərib, axırda da "mübarək olsun" deyirdilər. Qonaqlar hamısı birağızdan "mübarək olsun" deyirdilər.

Bu mərasimdən sonra növbə sazəndələrə yetişərdi. Məmulən onlar 3 nəfər olardılar, ikisi çalardı, biri oynayardı. Oynayan əvvəl gedib, dizi üstə qayınana qabağında oynayardı. Qayınana əgər varlı olsaydı bir qızıl yarım əşrəfi onun alnına yapışdırardı. Pullu olmayan surətdə bir dənə iki qaranlıq gümüş sikkə lütf eləyərdi. Əgər biri pul verməsəydi, o, etiraz edib deyərdi: "Niyə gəlib tamaşa edib qulaq asdın?" Hətta toy sahibləri onlara pul verməzdilər. Onlar tamaşaya gələnlərdən, qonaqlardan dövran yığardılar. Dövrandan sonra qonaqlar dağılışıb evlərinə yollanardılar. Onun sabahı 3-4 nəfər səliqəli şəxslər qayınana ilə birlikdə nahara qız evinə gedərdilər. Oğlan evindən qayınanadan

başqa təkcə bir nəfər gedərdi, qalanı qız evindən olardılar. Qayınana seçən parçalardan gəlin üçün üç dəst paltar kəsərdilər. Gəlin o paltarların bir dəstin öz gələcək oğlunun toyuna saxlayardı. Paltarın 2 dəstini isə geyərdi. O paltarlar köhnələndən sonra yenə də qayınananın icazəsilə parçalardan bir dəst də paltar tikdirərdi. Paltarı xəyyata vermək üçün cümə axşamını yaxşı gün sayardılar, onlar təqvimə baxıb saat xoşlar, deyərdilər ki, qəmər əqrəbdə olsa ulduzları barışmaz. Cümə axşamını toy üçün də münasib bilirdilər.

Gündüz gəlini qız-gəlinlər, bəyi isə cavan dost-familləri hamama aparardılar. Hamamda gəlinin əllərinə, ayaqlarına həna yaxardılar. Bu mərasim çalğıçıların həmrahlığı ilə olardı. Çağrılan qonaqları şirin çay ilə nəziralıq edərdilər. Bu mərasimdə şam da yandırardılar. Gəlin əlini başına qoyardı, biri onun ovcunun içinə həna tökərdi. Qız-gəlinlər o hənadan götürmək üçün qapan-qapan salardılar. Ondan hərəyə bir zərrə yetişərdi, hər kəs barmağını ona batırardı. Gəlini yuyundurandan sonra hamı başına yığışıb, geyindirərdi. Geyinəndən sonra başına çadra salardılar. Onun üstündən də bir duvaqlıq çarqatı başına salıb bir dənə kəllə də çarqatın üstündən üzünə salardılar. Kəllə zərli sapla toxunardı və ziynət üçün gəlinin üzünə salardılar. Gəlini faytonda əyləşdirərdilər. Onun o tərəf, bu tərəfində iki nəfər yanan şam tutardı. Damad ilə gəlinin bacıları onun sağ-solunda əyləşərdilər, fayton yola düşərdi. Gəlin faytonda qabaqda, çağırılan qonaqlar da piyada onun dövrəsində hərəkət edərdilər. Qız evinə yetişən kimi bir nəfər evin işçilərindən üzərrik yandırardı. Sazəndələr də çala-çala evə varid olardılar. Məşşatə gəlini bəzərdi. Gəlin qonaqların içində əyləşərdi, qız-oğlanlar da onun başına pul, noğul səpib oynayardılar.

Qız evində də bu mərasim üçün oğlan evinə xonça bəzəyib göndərərdilər. Xonçaya bəy üçün şalvar, köynək, hamam hacatı, ətir, corab, dəsmal, tirmə göndərərdilər. Bəyi qardaşları, dostları sazəndələrin həmrahlığı ilə hamama aparıb gətirərdilər. Bəyin sag-solunda şam yandırardılar. Sonra qız evindən gələn xonçanı

qonaqların içinə gətirərdilər. Bəyin atası gəlib bir tirmə gətirərdi, o tirməni pərdə kimi tutardılar. Onun dalında oğlanın atası qız evindən gələn paltarları bəyə geyindirərdi. Aşıqlar, sazəndələr çalıb bəyin boyuna oxşardılar. Oğlanın qardaşı, dostları qabağında oynardılar. Sağduş-solduş da pul, noğul paylardılar.

Bir gün də qız evinin cavanlarını oğlan evi çağırardı. Qız evi də oğlan evinin cavan qız-gəlinlərindən dəvət edərdi. Bu gecə şamdan sonra məclis artıq qızışardı. Hər iki evin qonaqları sübhəcən çalıb-oynardılar. Sübh vaxtı çalğıçılar mürəxxəs olub gedərdilər. Qonaqlar da dağılışardılar.

Sabahı qız evi xəbər göndərərdi ki, axşama üç saat qalanda cehizi yollayacağıq. Bu münasibətlə oğlan evinin qonaqları qız evi elan eləyən saatdan oğlan evinə yığışardılar. Qızın cehizi evdə lazım olan tamam vəsaildən ibarət olardı. Qızın cehizini beş-altı xanım gətirərdi. Qızın anası qızı üçün qənd, çay, hübubat da qoyardı. O, oğlanın yaxın qohumlarına, işçilərinə xələt qoyardı. Cehiz ilə gedən xanımlar apardıqları vəsaili təhvil verərdilər, açıb bir-bir oğlan evinin qonaqlarına da göstərərdilər. Sonra da aparıb gəlinin evinə düşürərdilər.

Əgər qız gətirən cehiz qayınananın istədiyi qədər olsaydı, o, çox təşəkkür elərdi, amma əgər olmasaydı deyirdi: “Bir qız almışıq, cehizi yox”.

Ağaların, xanımların xələtin bir böyük padnosa (siniyə) qoyub, üstünə bir tirmə örtük çəkərdilər. Onu bir ağbirçək zənənlə oğlan evinə göndərərdilər. Oğlanın anası da xələti gətirənə bir yaxçı xələt verərdi.

Toy gecəsi aşpaz ev sahibinin hesabına 30-40 şiş kabab hazırlayıb bişirər, qonaqlara yollardı. O kababdan hər kəs bir tikə götürər, yerinə pul, ya da qızıl qoyardı. Bir əmin adam onları yığıb, aşpaza verərdi. Bu aşpazın ənamı sayılardı. Mən bir toyda iştirak etmişdim. Orada kəndin kəndxudasının, ərbabının, ağsaqqallarının xanımları da iştirak edirdilər. Yuxarıda dediyim kimi kabab gətirdilər. Hərə bir tikə götürdü, yerinə qızıl qoydu, kəndlilərin biri də kabab götürmüşdü, o, tez durdu ağzındakı

kababı çıxardıb həyətə atdı. Mən soruşdum ki, kabab acı idi ki, çıxardıb atdın? O dedi: “Yox, mən nə kabab yeyirəm, nə də qızıl verirəm”. Sonra artırdı ki: “Nə yaxşı udmamışam”.

Toy gecəsi aşpaz xələt almıyınca qazanın ağzın açmazdı. Bəyin anası xələt verəndən sonra o, qazanın ağzını açardı. Qız evində də bu tərtiblə aşpaza xələt verilirdi. Gəlini bəxt evinə köçürən zaman evlərinin işçisi gedib qapını iki əlli daraqlayıb deyirdi: “Xələtimi verməsəz, qoymaram gəlini aparasız”. Bəyin qardaşı, ya da dayı, əmisi onun xələtini verər, onu razı salardılar.

Qədimdə gəlini şam yeməyindən qabaq aparardılar. Gəlini aparmaq üçün oğlanın qohumlarından böyük bacısı, xalası, dayısı arvadı ərlərilə gələrdilər. İki nəfər də qonşu məhlə ağsaqqallarından gətirərdilər. Gəlini aparan zaman qız evində siniyə bir şaxə nabat qoyub, gətirib oğlanın bibi, ya xalasının qabağına qoyardılar, onlardan xahiş edərdilər ki, bundan başqa onların evindən bir şey aparmasınlar. Axı qayda idi ki, gəlini aparan zaman gəlinin dalınca gələnlər qız evindən bir şey oğurlayırdı. Oğurlanan əşyanı oğlan evində gəlinə verərdilər.

Oğlanın bacısı gəlinin sağ ayağındakı corabına bir qızıl sikkə, sol ayağındakına bir gümüş sikkə salardı. Etiqada görə bununla gəlinin ayağı düşərgəli olardı. Gəlinin üzünü bəzəyən zaman yəni qaşını, üzünü alan zaman, gərək məşşatə bəyin hesabına bir qızıl sikkə gəlinin dilinin altına qoyaydı ki, o qaşını almağa icazə versin. Sonra gəlini aparmaq üçün icazə alardılar. İki nəfər onun qolundan yapışıb, qonaqların yanına gətirərdi. Bu vaxt yeddi-səkkiz oğlan uşağı əlində ruman gələrdi. O, 4 metr qırmızı rumanı 3 dəfə gəlinin belinə bağlayıb açardı, hər dəfə deyirdi: “Nənəm bacım düz gəlin, qəddi-qaməti düz gəlin, yeddi oğlan istərəm, bircə dənə qız gəlin”. Sonra gəlinə deyirdi: “Deyinən o adam mənəm”. Sonra gəlini dəhlizə çıxardardılar, atası ona xeyir-dua verib deyərdi: “Qızım xoşbəxt olasan, yarıyasan, çox yaşayasan, qəyim-qədim olasan, ayağuvnan nemət aparasan, ruzulu olasan, səni qayın nənüvə külfət verim, sahibuvin itaətində olasan. Allahı yaddan çıxartmayasan, namazündə tənbəl

olmayasan, get, səni Allaha tapşırıram. Bu ağ paltarla gedəsən, kəfənlə çıxasan". Sonra da bir həzin əzan onun qulağına oxuyardı. Qızını öpəndən sonra onu aparmağa icazə verərdi.

Gəlini aparanda başına bir qırmızı çadra örtərdilər ki, o da üzünü bərk tutardı. Çadranın üstündən bir qırmızı çarqat, onun üstündən də kəllə sallardılar. Bir nəfər qabaqda yeriyib ayna tutardı. İki nəfər də sağ-solunda şölə tutardılar. Gəlinin üzü örtülü olduğu üçün onun əlindən yapışıb yeridirdilər. Qabaqda bir dərviş qəsidə deyirdi: "Gəlin gəlsin, xeyir görsün, oğlu da olsun". Hamı bu sözə Allah-Allah deyirdi və tez-tez də tilavat çevirirdilər. Bəyin evinə çatanda biri qabağa çıxardı, səslənib deyirdi, gəlin gəlsin, xeyir görsün. Camaat da Allah-Allah deyirdi. Bir nəfər də qurban kəsirdi. Qurbanın başını küçənin o tərəfinə, bədənin də bu tərəfinə qoyardılar. Gəlin gərək qurbanın başına dolanaydı. Bəyin sağduş ilə solduşı bəyi gəlinin pişvazına gətirərdilər. Bəy gəlinə üç alma vurardı. Almanın bəziləri gəlinin kürəyinə, bəziləri də üzünə dəyərdi. Hərdən də almanın zərbəsindən gəlinin burnundan qan açılardı. Gəlin dəhliz qapısına çatan kimi bəy qaçıb damdan onun başına noğul səpərdi. Qayınana da dəhlizdə bir dənə teşti üzüqoylu qoyub, gəlini onun üstündən keçirərdi. Bir nəfər də üzərrik yandırardı. Qayınana bir həvəng dəstəsin də gəlinin ayağına yaxın hərlədərdi. Gəlini qonaq otağına aparıb üstünə tirmə çəkilmiş bir səndəlin üstündə əyləşdirərdilər. Sonra da qonaqlara şam verilərdi, bundan sonra qayınana gəlinə icazə verərdi ki, hücrəsinə getsin.

Toyun sabahı nahardan qabaq gəlinlə bəy gizlicə qızın anasının görüşünə gedərdilər. Qızın anası bir tinə qızıl bəyə hədiyyə verərdi. Onlar yarım saat əyləşib qayıdardılar. O gün nahara qız evindən bir qədəh quymaq, iki kəllə qənd yollardılar. Nahar üçün yaxın qohumlarından da qonaq olardı. Toyun sabahkı gecəsində 40 nəfərin şam yeməyi qız evindən oğlan evinə gələrdi. Bu mərasimin adına "Plov" deyərdilər. Oğlan evi gecə üçün qonaq çağırırdı. Qız evi də 5-6 nəfər çağırıb onları

oğlan evinə yollardı. Bu gecə gəlin də süfrə başına gələrdi, amma qayınanasından üzün bürüyürdü.

Onuncu gündə 20-30 nəfər yaxın qohumlardan nahara qonaq çağırardılar. Oğlanın bacısı gedib gəlini qayınananın hüzuruna gətirərdi. Bu mərasimin adına "Əl öpdü" deyirdilər. Gəlin əlində bir gülabdan içəri girərdi. O, yenə də üzü bürülü varid olar, başla salam verərdi, dillə salam vermək eyib sayılardı.

Gəlin varid olduğu kimi gərək əvvəlcə qayınanaya salam verə, sonra da əlindəki gülabdan onun əlinə töküb, onun çiynindən öpərdi. Qayınana də bir qızıl sikkə, bir qızıl gərdəbdən verərdi, gəlin onun əlindən öpərdi. Qalan yaxın adamlar da ona qızıl hədiyyə edərdilər. Sonra qayınana ona öz mənzilinə getməyə icazə verərdi. Əgər toyun üçüncü günü Novruz bayramına rastlaşsaydı, gəlinin qayınarvadı gələrdi, bayram təbriki demək üçün onu qayınatalarının yanına aparardı. Ona nə cür təbrik deməyi də öyrədərdi. Deyirdi denən: "Hacı əmi bayramın mübarək". Sonra gəlin qayınatanın əlinə gülab tökərdi. Bundan sonra qayınata ona icazə verərdi ki, öz mənzilinə qayıtsın. Sonra qız evi qızları, kürəkənlərini, onun ata-anasını, başqa yaxın adamlarını məclisə dəvət edərdi. Bu mərasimə "ayaq açdı" deyirdilər. Bu gün üçün qızın dədəsi evinin ailəyə yaxın qonaqları olardı. Qızın dədəsi əgər varlı olsaydı, kürəkəninə bir at, ya da bir qiymətli hədiyyə verərdi. Olmayan surətdə bir qızıl sikkə verərdi. Ondan iki həftə sonra oğlanın atası qonaqlıq edərdi. Qız evini çağırardılar. Bir qədimi adət də yadıma düşdü. O zaman adət idi ki, gəlin gərək əvvəl bir sikkə, ya bir üzük bəydən alsın.

Gəlin xanım bir neçə həftə toydan sonra ev əhlinin yanına gələr, onların xidmətində olardı. O, evdə olan ev işlərini öz öhdəsinə götürərdi. Gəlin gərək sübh tezdən yuxudan dura, qayınananın, qayınatanın dəstəmaz sularını hazırlayaydı. Onların aftafalarını doldurub dəsşuyə qoyurdu, başmaqlarını cütləyirdi, canamazlarını döşəyirdi, qəlyanaltılarını verirdi. Əgər qəlyan çəkən, ya çubuq çəkən olsaydılar, gərək onlar üçün amadə edəydi. Qayınatası sübh evdən çıxıb işinə gedəndən sonra

ərinin qəlyanaltısını verib, özü də yeyərdi. Sonra qayınananın buyruğu ilə nahar, şamı hazırlayırdı. Şam yeməyini verəndən sonra ona icazə verilərdi ki, gedib yatsın. Hələ bu mərhələdə də gəlin onlarla danışmazdı.

Bu dövran yaşamanın müxtəlif səbəbləri var idi. Bir səbəbi oğlanların savadsızlıqları, digər səbəbi də onların sənət sahibi olmamaları idi. Çox zaman onların özlərinin gəlirləri olmazdı, onlar fəqət bir cür bağ avarası idilər. Özləri ehtiyac içində yaşayar, gedib qız da alıb gətirərdilər. Onların tamam xərc-məxaricləri qızın ata-anasının öhdəsinə düşərdi.

O zaman gəlinin ixtiyarı yox idi ki, hamama getmək üçün ərindən pul alsın. O, bir yerə getmək istəsəydi, əgər evdə baldızı olsaydı, gərək ona deyəydi. Baldızı olmayan surətdə sözünü evin külfətinə deməli idi. O da gedib gəlinin sözünü qaynanasına deyirdi. Əgər valideynlər icazə versəydilər, gedərdi, əgər verməsəydilər yox. Hörmətli şair buyurub:

Eyləyən şirləri tülküməcaz.
Ehtiyacdı, ehtiyacdı, ehtiyac.

Gəlinin əzandan sonraya çöldə qalmağa haqqı yox idi. Əgər getdiyi yerdən gec evə qayıtsaydı qayınanası əsəbiləşərdi. Gəlinlər evdə üz bürüyürdülər. Dil açıb danışırdılar. Uşaqların adını qayınananın qayınatanın yanında çəkməzdilər, özlərinin də danışmağa haqqları yox idi. Onlar bütün işlərini qayınanalarının məsləhəti ilə görürdülər. Qayınana öləndən sonra bir qədər azadlığa çıxardılar. Əlhəmdulullah, indi elə deyil. Cavanların əksəriyyəti savad sayəsində çox anlayan, şüurlu olublar, müxtəlif sənətlərlə məşğuldular. Qədimdəki çətinliklərdən qurtarıblar. Allah tamam cavanları hifz eləsin.

## Körpələrə qulluq

Uşaq dünyaya gələndən iki yaşına qədər qundaqda olurdu. Mələk üçün bir metr midqal alıb ona mum çəkərdilər. Onu qundağın üstünə salıb altına da çit parça qoyub uşağı bələrdilər. Bir uzun bağ ki, adına şütuk bağı deyirdilər, bələyi onunla qayım

bağlar, uşağı beşiyə salardılar. Beşiyin cinsi taxtadan olardı, lap əvvəl uşağı nənniyə salmaq dəb idi, sonralar beşik, indi də taxta.

O zaman uşağı qırx günədək beşiyin içinə salardılar. Uşağı yatırtmaq üçün o qədər onu tərpədirdilər ki, uşaq yatsın. Uşağı yatırdan zaman onun üçün laylay çalardılar. Məsələn deyirdilər: “Laylay, layısı gələr, yatar, yuxusu gələr, uzaq-uzaq yollardan, balamın dayısı gələr. Laylay çallam yatarsan, qızıl gülə batarsan, qızılgülün içində, bircə yuxu taparsan”.

Ana uşağı qundaqdan çıxarandan sonra bir az onu oynadardı. Uşağın yaşına uyğun olan şeirlər oxuyardı. Məs: Uşağı atıb-tutub deyərdilər: “Allah bundan dərvişlərə də ver, dərdindən ölmüşlərə də ver, dibin-dibi salmışlara da ver, intizar qalmışlara da ver, eldən dua almışlara da ver”.

Altı aylıq uşağı yatıranda belə oxuyurdular: “Laylay çallam ucadan, səsin çıxmaz bacadan, Allah səni saxlasın, çiçəkdən, qızılcadan”.

Evdə toy olan zaman uşağı atıb-tutar, belə oxuyardılar: “Haylar, huylar, bir belə toy balam üçün olsun”.

Uşaq diş çıxardan zaman oxuyardılar: “İki dişi var qabaqda, çörək qoymaz tabaqda”. Uşaq dörd diş çıxardanda deyirdilər: “İki dişi dörd olubdu, canımıza qurd olubdu”. Uşaq gülən çağlarda deyirdilər: “Gül balam, güllər açılsın”. Yeriyən zaman “Yerisin, yerisin balam, göyləri ulduz bürüsün”. Qız uşağı üçün oxuyurdular: “Qızım qızıla dönübdü, xəbəri yox oğlanların, gözləri tox oğlanların”.

Qədim adətlər üzrə uşaqların çiyinlərinə müxtəlif muncuqlar asardılar. Məs: Bir göz muncuğu ki, qara rəngli olardı. Kavar muncuğu ki, yaşıl rəngdə olardı, sarılıq muncuğu ki, sarı rəngli olardı. Qanlı babaqulu muncuğu ki, iki rəngli qırmızı, boz olardı. Bir sümük ki, diş şəklində olardı. Ona al dişi deyirdilər. Bir dənə qoyun boynunun sümüyü ki, ortası dəlik olardı. Bir dənə yağ-bal, bir dənə şəbpərə quşunun əli, dağdağan ağacından olan bir taxta muncuq şəklində. Bir dənə vanikad ki, bunların hamısını bir sapa düzüb uşağın çiynindən asardılar.

Deyirdilər ki, belə rəsmləri bir əfsanədən götürürmüşlər. O əfsanəyə görə guya bir gün bir alyabanı quleybani yuxarıda ad apardığım muncuqlardan bir boyunbağı düzəldib, boynuna salıb bir zahıya sarı gedirmiş ki, ona zəfər yetirsin. Zahı onu görür, başı altındakı soğanlı şişi götürüb onun vəsiləsilə quleybaninin boyunbağısını qırıb özündən kənar eləyib. Deyilənə görə alyabanı dəmirdən qorxarmış.

## Uşaq oyunları

**Bir-iki, bizimki oyunu:** Uşaqlar yığışıb iki-on nəfər dəstə olardı. Dəstənin hərəsi bir tərəfdə dayanardı. Bir dəstənin uşaqları deyirdilər: – Bir-iki, bizimki, üç-dörd, qapını ört, beş-altı, daş altı, yeddi-səkkiz, qırx səkkiz, doqquz-on, qırmızı don, on bir-on iki, erməni börkü.

O biri dəstə deyirdi: – Qoyunu üç cüt bir tək, oğlu iki, qızı bir tək, çoban əlində tütək, dağlar olubdu çiçək, orağı veriz bir biçək, ayran olub, ver içək, insan olub tülkü tək, qorqası var bir ətək, çarqatı var dürr-ipək, süzəni ver bir biçək, meymuna köynək tikək, toxumu ver səpək, heç nəyi yox əl çəkək.

Sonra dəstə əl-ələ verib halay çəkərdi.

**Əlimi bıçaq kəsibdi oyunu:** Bu oyunu oynayanda uşaqlar belə oxuyurdular: – Səfdər əminin ocağı, itilənib bıçağı. Əlimi bıçaq kəsibdi, dəstə bıçaq kəsibdi, dəsmal gətirin bağlayaq, dəsmal ağamın qolunda, ağam Kərbəla yolunda.

* * *

Başqa bir oyunda deyirdilər:

Hamam hamam içində, bir də hamam içində, dəvə dəlləklik eylər, köhnə hamam içində.

* * *

Başqa bir oyunda yenə iki dəstə olurdular. Bu dəstə o dəstəyə deyirdi:

– Dəvəçi,
Cavab verərdilər: – Bəli keçi.
Deyirdilər: – Dəvən harda?
Cavab verərdilər: – Ala dağda.
– Nə yeyir? – Xurma.
– Nə içir? – Doşab.
– Çölə nə çıxar? – Burma.

Sonra hamısı səs-səsə verib deyirdilər: – Damb-damb, dayım Zeynalabdin.

**Ay nənə, qurdu-qurdu oyunu:** Bu oyun belə idi ki, uşaqlar əl-ələ yapışar bir böyük dairə düzəldərdilər. Uşaqlardan biri üzünü qorxulu şəklə salıb qurd rolunu oynayırdı. Bir nəfər də ana rolunu oynayırdı. Oyunda qurd gəlib səy eyləyərdi ki, uşaqların düzəltdikləri dairənin içinə girsin. Bu zaman uşaqlar səslənərdilər: Nənə, nənə, qurd, qurd.

Ana deyərdi: - Ay bala, qorxma, qorxma.

Qurd yenə də həmlə eyliyib dairənin içinə daxil olmaq istəyirdi. O qədər təlaş elərdi ki, nəhayət özünü dairənin içinə salardı. Beləliklə, oyunu apardı. Sonra ayrıca qurd rəqsi oynardı.

* * *

Başqa cür oyun da var idi ki, uşaqlar bu oyunu oynamaq üçün bir yerdə çömbələrdilər, sonra hədi vurardılar, sonra da atlanıb "hədi hədi, ay hədi" deyirdilər. O qədər bunu təkrar edirdilər ki, yorulardılar. Bununla oyun qurtarardı.

**İp atlanma oyunu:** Bir neçə metr ipi götürərdilər. İki nəfər ipin o baş, bu başından tutardı. Bir neçə uşaq da arada qalardı. Ipin ucu əllərində olan uşaqlar ipi tullayırdılar. Aradakı uşaqlar gərək öz hərəkətlərini ipin hərəkəti ilə həmahəng eyləyəydilər. Onlar atlanırdılar ki, ip başlarından gəlib, ayaqlarının altından sovuşurdu.

İp atlanma oyununu uşaqlar təklikdə də oynayırdılar. Yenə də bir iki metrlik ipi götürərdilər. İpin hər ucunu bir əllərilə

tutardılar. İpi başları üstündən fırladıb atlanardılar. Burada da gərək ip başlarının üstündən keçib ayaqlarının altından keçəydi. Bu oyunda uşaqlar çox sürətli olmalı idilər. Hər kəs yüz dəfə atdansaydı o, qalib sayılardı.

* * *

Bir ayrı oyun da vardı ki, bu oyun üçün əvvəl qardondan bir uca börk düzəldərdilər. O börkü bəzəyəndən sonra bir uşağın başına qoyardılar. Uşaqlar çox sayda onun ətrafında dairə vurardı. Uşaqların hamısı əl çalırdı. Sonra biri deyirdi: bir başı var şuxar, bir börkü var şuxartana, qələndər, hay qələndər. Bir bığı var şuxartana, qələndər, hay qələndər. Bir gözü var şuxartana, qələndər, hay qələndər. Bir burnu var şuxartana, qələndər, hay qələndər.

O börklü, bağlı uşaq özü də başqa uşaqlarla birlikdə çalıb oynayırdı. Sonra uşaqlardan biri yavaşca gəlir, əllərin daldan gətirib onun gözlərini bağlayardı, qalan uşaqlar "gözüyü tutan kimdi?" Əgər adını dürüst deyə bilsəydi, azad olardı, amma əgər deyə bilməsəydi, yenə oyun onun idi.

Amma əgər tapa bilsə gərək börkü gözlərini tutan uşağa verəydi. O, oyunu başlayırdı.

**İt qusdu oyunu:** Uşaqların ikisi bir ayrısını tutardılar. Biri onun başından, biri də ayağından yapışardı. Onu tuluq kimi oyan- buyana tərpədib deyirdilər:

İt qusdu, hay it qusdu,
İtim dərədə qusdu,
Bir tikə kutu yemişdi,
Onu da dərədə qusdu.

Sonra uşağı yerə qoyardılar, oyun qurtarardı.

* * *

Bu oyunu oynamaq üçün uşaqlar hamısı kürsü başına yığışardı. Hamı iki əlin kürsünün üstünə qoyardı, biri oxuyardı: Motala-motal, tərsə motal, yel atar, tutar, göy quşum göyərçinim, ağ quşum ağarçınım, vur nağara, çıx çırağa.

Biri bu sözləri deyir, barmağını bir-bir uşaqların əlləri üstə qoyardı. Axırda "çıx qırağa" sözü hər kəsin əlinə düşsəydi, o, əlini çəkərdi. On dəfə bu sözləri deyirdi, axıra qalan şəxsin əlinə on dənə şallaq vurardı.

**Bənövşə oyunu:** Bu oyunda da uşaqlar iki dəstəyə bölünüb ayrı-ayrı dayanardılar. Hər iki tərəfdən də bir davər olardı. Biri deyirdi: bənövşə bəndə düşə, bizdən sizə kim düşə. Müqabil tərəfdə olanlar hamısı birlikdə deyirdilər: keçəl qız. Uşaqların hamısı səslənərdilər: – Keçəl qız. Bu biri dəstə deyirdi: – Keçəl qızın toyudu? Yası?

Müqabil tərəfdəkilər cavab verərdilər: – Yasıdı.

Sonra uşaqlar hamısı yalandan ağlaşardılar. Bu biri tərəfdəkilər soruşardılar: O kimdir ağlayır? Yenə də deyərdilər: – Bənövşə bəndə düşə, bizdən sizə kim düşə? Cavab verərdilər: – Keçəl qız. Yenə soruşardılar: –Keçəl qızın toyudu? Yası? Deyirdilər: – Toyu.

Hamısı əl-ələ verib dururdular, fırlana-fırlana, oynaya-oynaya deyirdilər: – Toyudu. Hamı şad olsun, bənövşə hay bənövşə, səslənin, dağa düşə, oynadıq, gedək işə. Beləliklə, oyun qurtarardı.

## Ağaların qəlyan çubuq çəkmələri

Ağalar çox vaxt qəlyan çubuq çəkirdilər. Qəlyanın küpü büllurdan olardı, su onun içində görsənərdi. Bəziləri küpün içinə bir neçə dənə qızıl sikkə atardılar. Qəlyan çəkəndə qızıllar suyun hərəkətilə küpün içində oynardı, qəlyan çəkənə şadlıq verərdi. Deyirdilər pulun səsi küpün içində atın kişnəməsinə, şəlalənin səsinə oxşayır, insana fərəh gətirib cavanlaşdırır.

Qədim gümüş pul: Qədim pullar gümüş idi. Pulu sayanda çox səslənərdi. Bəzi ağalar gecə pullarını sayan zaman evin pərdələrini çəkərdilər ki, həyətdən görsənməsin. Uşaqların əlinə də bir qaşıq verərdilər ki, bir məcməyiyə vursunlar. Ağalar məmulən hər gecə pulları sayardı, demək olar ki, pulla oynayardılar.

Yorulunca tamaşa eyləyərdilər. Bəziləri də pulu balaq dərisində saxlayırdılar. Camışın balasına balaq deyirdilər. Balaq dərisinin bel hissəsindən kəsib, kisə düzəldirdilər. Çox vaxt pulu onda saxlayırdılar.

Ağalar gecə qonaq gedən zaman çubuqlarını da özləri ilə aparardılar. Işçilərindən biri çubuğu götürərdi, ikisi də fənər çəkərdilər. O zaman bərq çırağı yoxdu, fənərsiz küçəyə çıxmaq olmazdı. Fənərçəkən qabaqda, iki-üç nəfər da dalda yeriyirdilər. Çubuğu ağacdan düzəldərdilər. Onun içinə bir az kömür xəkəsi tökərdilər, üstünə də tütün. Tütün Məşhəd şəhərindən gələrdi.

Fənər də bir cüt mis məcməyi kimi biri altda, biri üstə olardı. Dövrəsi mitqaldan, ortada bir böyük şam olardı ki, şamı yandırıb, oraya qoyardılar. Onun iki qulpu olardı, hər qulpundan bir işçi yapışardı. Ağanı bu vəsilə ilə məqsədə çatdırardılar. İşçilər getdikləri yerdə dalanda əyləşərdilər. Qədim evlərdə dalanı böyük düzəldərdilər. Hər dalana 8 dənə taxça qoyardılar. Taxçaları xidmətçilər, nökərlər üçün düzəldərdilər. Evin öz nökərləri, qonaq gələn nökərlər orada əyləşərdilər.

Deyirlər bir nəfər şəxsiyyətli ağalardan biri öz nökərini çağırar, ona deyir: "Get çələyə mənim sifarişimi yetir. Denən bu mənim məxsus otağım, bu isti puçum buxari, bu kürsüm, bu xəz küləcəm, mən bu şəraitdə yaşayıram. Sənin əlindən nə gəlsə mənim haqqımda müzakirə eləmə". Xəz küləcə şinel şəklindədir. Onun özü tirmədən, astarı xəzdən, ya sincab dərisindən olur. Ətəyinə iki dənə iydə boyda zınqırov düzərdilər.

Ağanın bu sözündən sonra nökər əli gözü üstündə, təzim eləyib, dalı-dalı çıxıb qapını örtərdi. Bir az sonra o qapını yavaşca vurub içəri keçmək üçün izn istəyərdi. Sonra girib təzim eləyib, qol bağlayırdı. Sonra deyirdi: Qurban, əmrinizi yerinə yetirdim".

## Xanımların yığnaqları

Xanımların yığnağı həftədə iki yerdə olardı. Yığnağın zamanı axşama dörd saat qalanda idi. Yaşlı xanımların söhbətləri bayatı ilə gedirdi. Birinin əlində bir təsbeh olardı. Onu çadrasının altında

saxlayardı. Sonra deyirdi ki, hər kəs istəyir, niyyət eləsin. Müxtəlif niyyətlər edərdilər. Biri niyyət eləyirdi ki, görüm niyə səfərdə olan oğlumdan bir xəbər yoxdu, görüm başında nə var? Sonra o, niyyət elədiyini elan edərdi. Əlində təsbeh olan xanım çadranın altında təsbehdən bir miqdar əlinə gələni, o biri təsbeh danələrindən ayırıb deyirdi: "Aç falın yaxşı gəlsin, axırı yaxşı gəlsin, açmışam Əli falını, axırı yaxşı gəlsin". Bu sözləri dedikdən sonra o, başqa bir söz deməzdi. Orada hüzurları olan xanımlar gərək bir-bir bayatının əvvəl beytini deyə, qalanını saxlayardılar. Hər xanım bir bayatı dedikcə əlində təsbeh olan xanım ayrılan təsbeh danələrindən birini dala çəkərdi ta axırına yetişərdi. Məclis sıra qurtaranadək bayatı ilə keçərdi. O məclislərdə oxunan bayatılar belə idi:

Göydə ulduz mah gedər
Gah əylənər, gah gedər
Sidqi dürüst olanın
Qabağıncan şah gedər.

Göydə ulduz cudadır,
Gözüm sənə fədadır
Qəm çəkmə dəli könlüm
Mətləb verən xudadı.

Armud ağacı əli
Dibi döşənib xalı
Hey idim, hey hey oldum.
Nökər idim, bəy oldum.

Yığılın qohum-qardaş
Mən hamıdan yey oldum
Qızıl üzük qəltanı
Yoldan çıxma yol tanı.

Gedibdi genə gələr,
Gözlərivin soltanı.

Əzizim naçar ağlama
Gündü keçər ağlama

Göydən bir alma gəldi
Ya Muhəmməd, ya Əli,
Bir qapı örtülsə də,
Allah açar, ağlama.

Oturmuşdum səkidə
Ürəyim səksəkidə
Göydən bir alma gəldi
Bir qızıl nəlbəkidə

Qaşlarun xorasanı
Kim salıb tora səni.
Yalvarıram şahi-Nəcəfə
Tez salsın yola səni.

Qapıdan biri gəldi
Gözümün nuru gəldi.
Bu arxı kim arıdı,
Arxdan su duru gəldi.

Balaca cib bıçağı
Oldum illər qaçağı.
Bir səhər gəl, bir axşam
Bir də günorta çağı.

Çələnbər çay içində
Günüm – ax vay içində
Allah mətləbin versin
Bu gələn ay içində.

Mən aşiqəm vay dərdim
Vay dərmanım, vay dərdim.
Xalq gül əkdi, gül dərdi
Mən gül əkdim, vay dərdim.

Ağ at kişnədi gəldi,
Yüyən dişlədi gəldi,
Atamın böyük oğlu
Toyu başladı gəldi.

Əzizim naçar ağlama
Od gələr qaçar ağlama.
Ürəkdə var dügünün
Allah açar ağlama.

Əzizim daşa dəyər
Daş qalxar daşa dəyər
Yemə namərd çörəyin
Axırda başa dəyər.
Quzu, quzu, çal quzu
Altında var xal, quzu
Dərman gəldi itirdi
Dərman getdi, gəl quzu.

Əzizim günə yandım
Gün çıxdı, günə yandım
Xalq bir dəfə yanandı,
Mən dönə-dönə yandım.

Əlində badya gəlin,
Durubdu çayda gəlin.
Allah mətləbin versin,
Bu gələn ayda gəlin.

Mən aşiq ərdalana
Göz baxar ərdalana
Oğullar sayəsində
Analar daldalana.

Bu məscidi mən yapdım.
Pəncərəsin gen yapdım,
İtirmişdim dostumu.
Axırda genə tapdım.

Mən aşığam, gülüm vay
Bülbülüm vay, gülüm vay
Bir bağda bağban oldum
Heç dərmədim gülüm, vay.

Əzizim yanar oda,
Pərvanə yanar oda
Dərdim dağa desəm,
Od tutar, yanar oda.
Aşiqəm gül yaxası
Açıbdı gül yaxası.
Qönçədən köynək geyin,
Güldən isti yaxası.

## Quşların gəlməsinə yozmalar

Baharın əvvəllərində hop-hop gələrdi. Camaat içində onun gəlməyin müjdə kimi sanar, ona şadquş deyərdilər. Onun nəğməsin eşidənlər şad olub, onu güllərin, çiçəklərin xəbərçisi bilirdilər.

Bayquş quşu ki, onun adına sayquş və xeyir quşu da deyirdilər, xarabalarda yuva salar. Əgər o quş birinin evinin damına, ya həyətinin ağacına qonub həzin səslə oxusaydı, ev sahibi çox qorxardı. Tez evdə olan yeməlilərdən, o cümlədən, çörək, pendir, kərə, balaca qab su, bir boşqab buğda bir siniyə qoyub, bayquş oturan yerə aparıb deyərdi:

"Ay Allahın qulu, gəlibsən, xoş gəlibsən, səni and verirəm Allahın yolladığı Qurana, əgər acsan, buyur çörək ye, əgər susuzsan su iç, bizə xeyirliyə gəl, xeyir xəbər gətir, gülə-gülə get". Quş da ev sahibi danışdıqcan ona diqqət eyləyərdi. Əgər ev sahibinin sözü qurtarana kimi quş qanadların bir-bir yenə çalıb, bir şad səslə səslənsəydi, oynaya-oynaya getsəydi, ev sahibi deyirdi ki, şad xəbər, müjdə gətirib. Bəzi vaxtlarda quş baxıb-baxıb qəmli səslə ev sahibini narahat edərdi.

## Yuxu görmə və təbirlər

Qədim yuxunu təbir eləmək üçün yuxu təbiri kitabına müraciət edərdilər. Əgər kitab olmasaydı, bir nəfər pis yuxu görsə idi, gedib başını quyuya sallayardı, gördüyü yuxunu ona nağıl edərdi. İnanırdılar ki, pis yuxunu quyuya demək onu əsərdən salır. Əgər yaxşı yuxu görsə idilər, çırağı yandırar, çırağa nağıl edərdilər. Yuxuya çox etiqadları var idi, deyirdilər ki, yuxu qasiddir, gələcəkdən insana xəbər verir.

## Camaatın Allahdan yağış istəməsi

Əkin fəslində quraqlıq olanda, yağış yağmayanda, camaat müsəllaya yığışardı. Kiçik uşaqları analarından ayırıb bir guşəyə aparardılar. Uşaqlar bu ayrılıqdan ağlayardılar. Qoyunları da

quzulardan ayırardılar. Onlar da ayrı bir tərəfdə səslənərdi. Böyüklər üçün də rövzə oxuyan səhra rövzəsi oxuyurdu. Bu zaman kişilər börklərin götürüb, başların açar, başlarına vurub ağlaşardılar. Deyirdilər: "Allah, əkin yandı, kömək elə, yağış yağdır bizə rəhm elə". Sonra göy guruldayardı, bir leysan düşərdi. Sonra hamı "Allah şükür" eyləyib, evlərinə qayıdardı.

## Möcüzələr

Ərdəbildə Mövlabaşa yolunda bir yoxsul kişinin evi varmış. Dünya malından onun təkcə bir atı varmış. Onunla çarvadarlıq eyləyib kəndlərə kiçik şeylər aparıb satarmış. Bu yolla ruzilərini çıxardarmış. Bir gün kişi naxoş olub, təbibə getmişmiş. O, gün də Ərdəbildə at yığdı imiş. Bir məmur da bunların atının sorağına gəlir, qapını döyür, evin arvadından atı istəyir. Xanım bunu bildikdə, ağlayır, yalvar-yaxar eləyib deyir ki, ərim naxoşdur. Bu at da bizim çörək çıxartma vəsiləmizdir. Onu aparmayın. Məmur onun sözünü saymır, ona bir təpik vurur, atı tövlədən çıxardır, çulundan yapışıb həyət qapısından çölə çıxardır. Arvadın əli hər yerdən üzülüb kişiyə deyir: "Kişi, səni o Əbülfəzlə tapşırdım". Məmur atı minir, bir neçə addım uzaqlaşdıqdan sonra rəngi qaralır, atdan aşır. Camaat gedib görür ki, çoxdan ölüb. Sonra camaat onun ölüsünün boynuna ip bağlayıb, məhəllələrdə, küçələrdə sürürlər. Xəbər bazara çatır. Orada da məmurun adını "Lənətüllah" qoyurlar. Sonra da bazar-dükanları bəzəyir, zəncirçi və sinəzən dəstələri ələm götürür, natiqlər nitq eyləyə-eyləyə tamam şəhəri dolanırlar. Məmurun ölüsünü o qədər sürüyürlər ki, tikə-tikə olur. Tikələrini aparıb çöldə vəhşi, quduz itlərin qabağına atırlar. Həzrəti-Əbülfəzli çağıran o zənən evində bir təşt qurur. Sonra camaat tamam kəndlərdən, şəhərdən oraya nəzir gətirirlər. O ailə bu yolla yoxsulluqdan qurtarır. İndi də o ev ilə təşt qalır.

## Cümə günləri qohum görüşünə getmək rəsmləri

Keçmişdə hər kəs cümə günləri gedib öz qohum-qardaşına baş çəkib yoxlayardı. Bu görüşlərin çox faydası olurdu, həm bir-birlərini görürdülər, həm də bir-birinin dərdlərinə yetişib, yoxsullarına kömək edirdilər.

Xəstə olanı həkimə çatdırıb dərman pulunu ödəyirdilər. Bu köməklik gizlincə olardı, xəstəyə bildirməzdilər.

O zaman qəsidə deyib, oxuyanların dərviş İbiş adlı bir başçısı var idi. O, bazarda İbrahimabad körpüsünün üstündə qəsidə deyir, camaatdan pul alardı. Hamı ona pul verirdi. Əyan-əşrəflər oğlanlarının toyuna onu çağırardılar. O, gəlin dalısınca gələnlərlə gedib, gəlinin hüzurunda qəsidə deyir, cümlə bərabər tilavat deyə-deyə oğlan evinə kimi gəlinin həmrahlarından olardı. Mərasimdən sonra bəyin atası ona pul, xələt verərdi.

## Ərdəbilin əyan, əşrəf və tacirləri

Ərdəbil şəhərində tanınmış əyanlar, tacirlər bunlar idi: Ağayi-Əmir Tuman, Ağayi-Şərpət, Ağayi-Şeyx-ül-İslam, Ağayi vəkil-ər-Roaya, Ağayi Hacı Mirzə Həsən, Mustoufi, Ağayi-Mobəşşer, Ağayi-Hacı Əmin, Hacı Mirza Əhmədağa Müctəhidzadə, Ağayi-Sədr-ül-Məmalek, Ağayi-Hacı Mirzə Əhmədxan Mustoufən, Ağayi-Məlik Tüccar, Ağayi-Hacı Rəhim Rəhimiyan, Hacı Tağı Vahabzadə, Hacı Mirzə Manafzadə, Ağayi-Hacı Kazım Zamani, Ağayi-Hacı Məcid Sadiqi, Ağayi-Ketabçi, Ağayi-Kazemi, Hacı Ərbab Ərbabi, Hacı İsmayıl Boronci, Hacı Muhəmməd Sdeq Tofiq, Ağayi-Asəf-ət-Tüccar, Ağayi-Xadimbaşi, Ağayi-Hacı-Sədr-ül-Əşraf, Ağayi Mollabaşi, Hacı İsmayıl Qızıllı, Hacı Muhəmmədcəfər Rzazadə, Ağayi-Hacı Əsədulla Fərəcüllahi, Ağayi-Hacı Muhəmmədəli Muhəmmədi, Hacı Nəcəfqulu, Hacı Mehdiqulu Muhəmmədi, Hacı Mirzə Əli, Hacı Mirzə Yusif, Hacı Mirzə Həsən Mustofui Qarabağdan gəlmədirlər. Onlar sonralar gəlib İranda pənahəndə olublar. Dövlət tərəfindən onlara iş verilmiş, aylıq təyin edilmişdir.

Ağayi-Hacı Şükrulla Həririyan çox imanlı, dəyanətli və şəxsiyyətli insan idi. Hacı Şükur karvansarasını o qayıtdırıb, onun filan övladları, nəvələri də hamısı mütədəyyin, saleh insanlardırlar.

Mərhum Ağayi-Muhəmmədağa Boronci da çox inamlı, dəyanətli və şəxsiyyətli insan idi. Onu Pir Əbdülməlek məhəlləsi məscidinin rəisi seçmişdilər. O, məscidin abadlığında, təğziyyədarlığında çox zəhmət çəkmişdi. Məhərrəm günlərində o rəhmətlik özü hər işə yetişirdi. O, məsciddə Pir Əbdullah adında da bir şəxs var idi ki, sonralar ona Mələki ləqəbi vermişdilər. Məscidi o qayıtdırıb, özünü də orada torpağa tapşırıblar. Ağayi-Hacı Muhəmməd Boroncini də orada basdırıblar.

## Ramazan ayında işlənən adətlər

Ev qadınları orucluq ayına on gün qalandan hazırlıq görməyə başlayarlar. Düyü unu, firni, baləng mürəbbəsi, püstəgülü mürəbbəsi, ziriş mürəbbəsi düzəldirlər. Bunları iftar üçün hazırlayırdılar.

Camaat gecələr məscidə gedərdi. Orada qəza namazı qılardılar, dua oxuyub, rövzəyə, movizəyə quluq asardılar. Camaat obaşdana bir saat qalana kimi məsciddə olardı. Sonra da obaşdanlıq yeyərdilər. O zaman obaşdanlıq zamanının qurtarmağını elan etmək üçün top atəşindən istifadə edərdilər. Camaat obaşdandan sonra oyaq qalardı. Sübh azanına kimi dua oxuyardılar. Azan vaxtı namazlarını qılıb yatardılar. Sabah axşama dörd saat qalanda yuxudan oyanıb, genə də məscidə gedərdilər. İftaracan məsciddə namaz qılıb dua eləyərdilər.

Evlərdə iftara yarım saat qalanda süfrə döşənərdi. Süfrəyə çoxlu yemək düzərdilər. Gildik aşı, firni, yəxdərbehişt, mürəbbəcat, küftərizə, kotlet, kükü, abguşt, çilo kabab, fətir, quymaq, pendir, stakanlarda isti su qoyardılar. Orucu su ilə açardılar. Dalısıncan şirin çay içərdilər. İftardan əvvəl evin böyüyü iftar duası oxuyar, yanındakılar da yavaş-yavaş təkrar edərdilər.

Orucu açmaq zamanını elan etmək üçün top atardılar. Hər kəsin ölüsü orucluqdan əvvələ düşsəydi gərək on beş gün qapılarını gecədən keçənə kimi açıq qoyardılar. Bir neçə məcməyi iftarlıq hazır eləyərdilər. Ölüsü ölənin yaxın qohumları iftardan qabaq gələrdilər. Uzaq qohumlar iftardan sonra orucluğun axır günü əvvəl fitrəni ayırırdılar. Sonra iftar açardılar. Axırıncı gecə əlvan şişə ilə aya baxardılar. Əgər ayı görsəydilər sabahı bayram tutardılar. Əgər görə bilməsəydilər Qum şəhərindən müctəhidlərin teleqrafını gözləyərdilər. Teleqraf gələndən sonra bayram tutardılar. Bayramı elan eləmək üçün də topdan istifadə edərdilər. Hamı bilərdi ki, bayram olub, sübh tezdən bayram namazına gedərdilər. Namazdan sonra alimlərin görüşünə gedərdilər. Bir-birinə "Namazın qəbul olsun" deyirdilər.

## Təziyyə və əza mərasimləri

O zaman hər məhəllədə bir nəfər münacatçı var idi. Əgər ölən olsaydı münacatçıya xəbər verərdilər. O, məscidin damına çıxıb münacat verərdi. O, münacat verən zaman hərdənbir də ölənin adını çəkər, ruhuna da fatihə oxuyardı. Beləliklə, camaatı xəbərdar elərdi. Camaat gəlib ölünün köçürtməsində iştirak edərdi. Ölü basdırılandan sonra fatihə verib qayıdardılar. Ölü sahibi 3 gün təziyə tutardı. Dəfn gününün sabahı camaat gedib məscidə yığışardı. O məsciddə rövzə oxunardı, Quran tapşırılardı.

Hər gün yaxınları gəlib təziyyə sahibini qəbr üstə aparardılar.

Xanımların məclisi 3 gün olardı. Üç günə xüruşt şam verərdilər. Əzadar xanımın yanına gələn dost-aşnalar bir qutu şirni də gətirərdilər. Onu yavaşca məclisi dolandırana verərdilər. O da onları bir yerə yığıb, qapısın qıfıllayardı. Gecə şamdan sonra uzaq qohumlar dağılışıb gedərdilər, yaxın qonaqlar qalardılar. Şamdan sonra qalan qonaqlara ayrı bir süfrə açardılar, o şirniləri gətirib açıb süfrəyə düzüb deyirdilər: "Yeyin, sabah ağlayacaqsız, yeyin ki ağlamağa hey-qüdrətiz olsun". Beləliklə, üç gecə bu tərtiblə keçərdi. Üçüncü gün ki, məclisin xətmi sayılırdı, ev

sahibi bir top qara parça aldırardı. İki nəfər xəyyat xanımlar parçanı hər neçə dənə çıxsaydı çarqat kəsib tikərdilər. Sonra qatlayıb, bir məcməyiyə yığardılar. Üçüncü gün rövzə oxuyan zaman bir möhtərəm qadın o məcməyini gətirib otağın ortasına qoyardı. Yas saxlamağa gələnin meyli olsaydı öz çarqatın başından açıb bir danə qara çarqat gətirib onu başına salardı. Bundan sonra şivən qalxardı.

Qırx gün yas saxlayardılar. Yasa da yaşlı, qoca xanımlar gedərdilər. Cavan xanımları qoymazdılar, deyirdilər ki, cavan belə məclislərə getsə, ürəyinə qan damar. Bir gün qabaqdan halva çalardılar. Hansı evə ki, o halvadan yollasaydılar, mənası belə idi ki, sabah səni nahara dəvət edirik. Yeddi günü yığışıb əza sahibi ilə qəbir üstünə gedərdilər.

Çilləsində də yenə halva yollayırdılar. Əza sahibi əza saxlayanları nahara dəvət edərdi. Nahardan sonra qonaqları hamama aparardılar. Bir böyük kisə həna isladardılar. Hamamda dəlləklər hənanı qonaqların başına yaxardı.

Beləliklə, qara çarqatləri açıb, ağ örtər, yasdan çıxardılar. Sonra qonaqlar yenə də ölüsü ölənlərə qayıdardılar, onlarıın evinə. Ev sahibi bir nəfər məşşatə dəvət edərdi. Qonaqların hər birisi ki, mail olsaydı, islah eyləyərdi, istəməsələr xudahafizləşib gedərdi.

Rəcəb ayının əvvəl cüməsi ölülər günü sayılır. O günün adına “rəcəyib” deyirlər. O gündə halva bişirib, xeyrat elərdilər. Ölüsü ölən adamın da evinə təsliyyət deməyə gedərdilər.

## Seyidlərə hörmət

O zaman seyid olan şəxsləri çox möhtərəm sayardılar. Camaatın onlara inamları var idi. Əgər iki nəfərin arasında dava olsaydı, dava tərəflərinin biri günahkar sayılsaydı, bir nəfər seyid vasitəçilik edib onun əhfini istəsəydi, o seyidin sözünü yerə salmazdılar. Çünki seyidləri Rəsulun (s) balası bilərdilər.

## Həzrəti-Hüseynin (ə ) müsibət günləri

Qurban axşamı günü Həzrəti-Müslüm şəbihi çıxardardılar. Zəncirçi dəstəsi, sinəçi, şaxsey-vaxseyçilər çıxıb bazarı, küçələri gəzib təziyyədarlıq edərdilər. Məhəllənin cavan uşaqları məscid qabağında yığışardı. Məscidin qabağında bir dəsmal da yerə salardılar. Gələn- gedən adamlar şaxsey pulu atıb keçərdi. Bu vəsilə ilə çoxlu pul yığılardı. Onlar pulu verib neft alardılar. Hər kəs bir miqdar cındır, köhnə parça gətirərdi, bu parçalardan məşəl yandırmağa istifadə edərdilər. Məşəli məscid qabağında yerə sancardılar. Onun içini parca ilə doldurub, üstünə bir miqdar neft tökərdilər. Hər kəs əlinə bir uzun ağac alardı. Şaxseyçilər qollarını bir-birinin biləyindən keçirib uca səslə deyirdilər: “Şaxsey-vaxsey.”

Sonra deyirdilər: – “Hansı guruhun belə mollası var, şiələrin Həzrəti Abbası var”. Bir də dolanar, məşəllərdən iki-üc dənə yandırıb hərəyə birini verərdilər.

Bir dənəsini də aparib içində yandırardılar. Onları yandırmaq üçün xeyli neft götürərdilər. Bu məşəllərin içinə təzək yığardılar, neft töküb odlayardılar.

Məşəllərə parça davam gətirməzdi. Onlar məhəllələrə gedib məscidlərin qabağında şaxsey vurardılar. Mərasim qurtarandan sonra hər kəs öz məhəlləsinin qabağına qayıdıb, fatihə oxuyub evlərinə gedərdi. Ayın axırına kimi belə təziyyədarlıq edərdilər.

Məhərrəm ayına 3 gün qalanda təşt qurdu başlanardı. Ərdəbildə əvvəl məscidin təştini qoyardılar. Üç günün ərzində tamam məclislərdə təştgüzari olunardı. Ağalar qırx gün məscidi camedə əllərində şam təştli qabağında dayanardılar. Hərənin əlində bir şam olardı.

Mərhum Məşədi Ağababa Ərdəbilin ağsaqqallarından biri idi. Ağayi Hacı Rəhim həmin məhəllə məscidinin rəisi olub. Məscidin işlərinə özü yetişirdi, ağsaqqallardan biri sayılırdı. Mərhum Hacı Dadaş Təbari də məsciddə çox zəhmət çəkirdi. Məscidin tamam nəzm-intizamına nəzarət edərdi. O mərhum daha

çox Həzrəti Hüseyn (ə) dəstgahına xidmət edərdi. Məşədi Ağbaba da hərənin əlinə bir şam verib, bir gözəl tərtiblən fatihə verərdi.

Hər məhəllənin adamları bir dəfə gündüz, bir dəfə gecə məscidə gedərdilər. Zəncirçilər, sinəçilər bazara çıxanda bazar əhli çox istiqbal edirdi. Öz dükanlarının qabağında səndəli düzüb, onlara çay, qəhvə, şərbət, su verərdilər. Sinəzəncirçilərə xələt də verərdilər. Bəzisinin çiyni xələtnən dolu olardı. Fərşçi bazarında onların ayaqları altında fərş döşərdilər. Məscidlərin də qabağında təziyyədarlıq edərdilər. Təbil, qara ney, zəng də vurardılar. Hər məhəllənin bayrağını bir neçə nəfər qoruya-qoruya apardı. Məhəllələrin dəstələri bir-birinə yaxınlaşanda ağsaqqalları bir-birinin pişvazına gedərdi.

Ağsaqqallar məscidin içində əyləşərdilər, sinə, zəncir vuranlar məscidin qabağına yığışardılar. Üçdükan məhəlləsi başqa məhəllələrdən yaxşı nəzir verərdi. Məhəllədə təziyyədarlıq qurtaran kimi təbil çalınar, dəstə başqa məhəlləyə gedərdi. Gecələr də elə o tərtiblə məhəllələrdə gəzərdilər. Təziyyəçilərin hamısı məscidin içində əyləşirdilər. Sübh namazına bir az qalanadək hər məscidə dalbadal yeddi-səkkiz dəstə gələrdi. Hər məhəllədən gələn çay, kakaolu südlə nəziralıq elərdilər.

Kasıb məhəllənin uşaqları çox olardı, onlara çay verərdilər. Uşaqların bəziləri başqa məhəllənin qonaqlarının kakaolu südünə göz tikərdilər. Tabar məhəlləsinin camaatı məclisdən hamıdan axırda çıxardı.

Axırıncı gün hamı şam təhiyyə edərdi. Bazar-dükan bağlanardı. Şamların başlarına neft vurardılar ki, tez yansın. 30-40 nəfər yığışıb ayaqyalın, qaraköynək, yaxalarını açıb, gedib dəstə-dəstə məhəllələri dolanıb səslənərdilər: “Əddəxil ya Abbas”. O şamları məscidlərə paylardılar. Hər məsciddə şam yandırardılar.

Bacim evi Qacariyyə məscidinin qapısı ilə yaxın məsafədə idi. Heç yadımdan çıxmaz, bir tasura günü mən başqa uşaqlarla dayanıb şam paylayanların sözlərinə qulaq asırdım. O zaman 4 yaşım var idi. Böyüklər ağlayırdılar, biz də onlara baxıb ağlayırdıq. Mərhum şair Yəhyəvi şeirlərində buyurub: “Hamı

gəlir sənin qapuva, biz də gəlmişik.” Bu gün camaat çox xeyrat verirdi. Çoxları məscidə şərbət, halva, süd, şam yollayırdı.

Baş yarmaq üçün bir gün qabaqdan qəmələri itiləyib, ağ parçalardan kəfən kəsirdilər. Baş yaranlar üçün camaat çoxlu ağ parça nəzir eyləyirdilər. Mənim atam mərhum Mirzəbaba Mustoufi çox Allahı tanıyan, mütədəyyin, Hüseynçi idi. O, aşura günü bir böyük qədəh şərbət hazırladardı. Bir miqdar tənzif, ağ dəsmal neft və qənd tozu rahatlayıb dalanın taxçasına yığardı. Özü də yaxasını açıb, qollarını çırmayıb, ayaqyalın qapının səkisində əyləşərdi. O zaman onun yaşı 90-dan artıq idi, o, amadə qalardı. Tamam məhəllələrin təziyyələri Tabardan, yəni bizim qapımızdan keçərdi. Əgər baş yaranların halları qan itirmək nəticəsində xarab olsaydı, onları bizim evin dalanına gətirirdilər. Orada onların başlarının qanlarını qurudar, sonra şərbət verib bir-birinin yanına uzadardılar. Halları düzələn kimi onları faytonla evlərinə aparardılar. Həmin gün faytonlar pulsuz işləyirdi. Mənim atam doktor deyildi, amma o deyirdi ki, istəyirəm İmam Hüseyn (ə) üçün öz nökərlik vəzifəmi yerinə yetirəm. Atamın məqsədi Həzrəti-Əba Əbdullaha xidmət, din qardaşlarına kömək məqsədi daşıyırdı. Tasura gecəsi 7 məsciddə şam bişirərdilər. Dostlar, tanışlar, qohumlar şəbihdən qayıdan zaman bizim evdə nahar yeyib gedərdilər.

Bir şəxsi Ömər Səid şəklində bəzərdilər. O bir faytonun için-də əyləşib özün tutardı. Onun yanında bir işçi olardı. O, qəlyan doldurub əlində saxlardı. Ömər Səid hərdənbir nəfəs çəkərdi.

Bir arabanın içində isə fərş, əlvan üzlü yorğan-döşək salardılar. Onun içinə 7-8 nəfər Bəni-Haşim cavanlarını yaralı şəkildə uzadardılar. Onların hərəsinin başı üstündə əllərində yelpik bir mələk dayanıb onları yelpikləyərdi.

Bir arabada da Yezid qoşunu üçün yemək bişirmək vəsaili götürürdülər. Onun içində odun üstünə sac qoyub, onlar üçün sac çörəyi, süd çörəyi bişirirdilər. Qazanlarda da plov, xürüşt bişirirdilər.

Başqa bir arabada da bir kişi işləyirdi. Bir miqdar mıx, nal, bir çəkic götürərdilər. Rəvayətə görə guya o zaman Səid oğluna

dəstur verirmiş ki, atlara təzə nal vursun. Atları şəhidlərin cənazələri üstündə çapsınlar.

Şəbihanlıqda əyləşənlərin içərisində bir necə təbil çalan olurdu. Onlar xüsusi paltar geyinib təbil vurardular. Qəmə vuranlar da qol-qola, qol belə verib 2 dəstə olardı. Onlar üz- üzə dayanardılar. Bir kişi şalvarının üstündən belində bir fitə kimi parça bağlayırdı. Beldən yuxarı lüt olardı. Lüt olan şəxslərin dərisinə sancaq, qıfıl, ox, dəşnə asar, qolundan yapışıb yeridərdilər. Onun adina "qifilbənd" deyirdilər.

Həzrəti-imam Zeynalabdinin (ə) şəbihxanını da dəvəyə mindirib boynuna bir zəncir salır, ayaqlarını da zəncirlə dəvənin qarnının altından bağlayırdılar. Əvvəlcə Həzrəti Zeynəbin şəbihxanını dəvəyə mindirərdilər.

Dəvələrin bəzisinin başına çarqat sancaqlayardılar. Alimlərdən neçəsi də əmmamələrini açıb çiyinlərinə salardı. Bu əza əlaməti idi. Bir qoca kişi də qara köynəyinin ətəyinə saman yığıb oxşama deyə-deyə onların başına saman səpərdi. Sinəçilərin qabaq səfində qara bayraqları aparardılar. Onun dalısınca dın alimləri hərəkət edərdilər.

Bir atın üstündə Həzrəti-Əbülfəzlin (ə) şəbihxanı əyləşərdi. Bir neçə Bəni-Haşim uşaqları da əllərində cam nəşin dövrəsində dolanardı. Onlar deyirdilər: "Ax, əmican, ələtəş, yandım ətəşdən, mənə bir cürə su". Onlar da qoltuqlarında bir parça həsir başları samanlı gedərdilər. Oxşama oxunan zaman sinəvuranlar, zəncirvuranlar, əllərini qoltuqlarına qoyur, zəncirvuranlar da zəncirlərini başı aşağı saxlayardılar. Bəzən də başlarına vurub üzlərinə palçıq yaxardılar. Bayraqların hamısının başını aşağı salardılar. Hər yandan hüznlü əza səsi esidilərdi. Alimlər müxtəlif rənglərdə müxtəlif parçalardan, o cümlədən, atlas, tirmə, məxmərdən istifadə edirdilər. Ağa Nağı Xərməninin şəbihxanları çox müfəssəl olardı. Tabar məhəlləsinin bir atı var idi ki, adına "Kutal" deyirdilər. O atı bütün qızılla bəzərdilər. Bir tağə tirməni açar, atın qarnı altından keçirərdilər. İki nəfər biri sağda, o biri solda tirməni tutardı. Üçdükan məhəlləsinin dəstəsi məhşur idi.

Bütün məhəllələrdən çox sinəvuran, zəncirvuran var idi. Üçdükan məscidində başqa məhəllələrdən gələn dəstələrə çox yaxşı qulluq edərdilər. Şəbihləri də çox yaxşı olardı. Mərhum Qulam Hüseyn Xəlilzadə cox yaxşı qulluqçulardan idi. O, üstvar idi.

Sərçeşmə məhəlləsinin təbilvuranları məşhur idi. O məhəllənin təziyyəçiliyində mərhumlar: ağayi-Delcu, ağayi-Mülki cənabları çox zəhmət çəkərdilər.

Səfər ayı çıxanadək müxtəlif məscidlərdə, evlərdə rövzəxanlıq keçirilərdi. Mərhum Hacı Mirsaleh Müctəhidinin məscidində də 2 ay rövzəxanlıq olardı. Mərhum icazə verməzdi ki, təbilvuranlar onun məscidinin qabağından keçsinlər.

Mərhum Hacı Mirzə Möhsün Müctəhidi bir Hüseyniyyə otağı qayıtdırmışdı. Onun həyatı çox böyük idi. Həyəti meydan şəklində düzəltmişdilər. İki hissədən ibarət idi. Alt təbəqəni kişilər üçün, üst təbəqəni də xanımlar üçün hazırlamışdılar. O mərhum şəbih üçün bütün vəsaili də özü hazırlamışdı. Hazırlanan vəsail bunlardan ibarət idi: Yezidin qoşunu üçün qırmızı drapdan paltar, yaraqları qızıl. Bəni-Haşim xanımlarının paltarları tirmədən olub, qızıl boyunbağı, güşvarə ilə bəzənmişdi.

O zaman bir şəbih çıxardardılar ki, adına "Nəsrani şəbihi" deyirdilər. Mən özüm uşaqkən bu şəbihi yaxından görmüşdüm.. Nəsrani şəbihinin hekayəsi belə idi: "Deyirlər ki, bir xanım var imiş ki, özü müsəlman, şiə imiş, əri isə nəsrani. Bir gün əri evdən çıxanda arvadına deyir ki, nahara 12 nəfər qonağım olacaq. Sən onlar üçün nahar tədarükü gör. Həzrəti Zəhra (ə) o xanımın evinə təşrif aparıb, onunçün yemək bişirir. Xanım nigaran rövzədən qayıdır, görür ki, evi ətir iyinə dolub, yemək də hazırdır. O sevindiyindən bir az ağlayır, bir az da gülür. Axı o ərindən qorxurmuş. O, Allaha şükür eyləyır. Əri qonaqlarla birlikdə gəlir. Xanım naharı çəkib gətirir, mizin üstünə qoyur. Görür bu qazanın ayrı bir ətri var, həmişəkindən fərqlidir. Kişi deyir ki, bu həmişəki qəza deyil. Onun səbəbini soruşur. Xanım əvvəl dinmir. Sonra əri onu şəmşirlə qorxudur, deyir ki, mənə doğru cavab verməsən səni tikə-tikə doğrayacağam. Xanım həqiqəti olduğu kimi danışır. Kişi

təamları tərifləyir. Bundan sonra onlar ayağa qalxıb kəlmeyi-şəhadəti oxuyub müsəlman olurlar.

## Əkinçilik işləri

Əkinçilər əvvəl yeri öküznən şumlayır, gavahın ilə çevirərdilər. Bir müddət qaldıqdan sonra toxum səpirdilər. Onlar toxum səpəndə deyirdilər: Bu dilənçi payı, bir qədər də səpib deyirdilər: bu da qurd-quş payı.

Əkəndən sonra əkini suvarırdılar, elə ki, əkin göyərdi, boy atdı, sünbüllər görsəndi, o zaman deyirdilər ki, sünbül basdı.

Əgər əkin yetişəndən sonra gecə biçsəydilər, sünbüllər ikiqat olub sınardı. Bu zaman deyirdilər ki, biçini vağam aparıb.

Bu halətdə buğda çölə dağılar, məhsul ələ gəlməzdi. Amma əgər gözlətməsəydilər, vaxtında biçsəydilər, biçin vağama getməzdi. Məhsulu göyşəndən yığandan sonra gətirib, xərmənə tökərdilər, sonra öküzlərə vəl bağlayıb xırman sürərdilər. Öküzlər o qədər vəli xırmana tökülmüş məhsulun üstündə çəkərdilər ki, tamam buğda, ya arpa üzə çıxardı. Ondan sonra buğdanı sovurardılar. Bu işə sovurnaq deyirdilər. Sovurduqdan sonra buğda ələ gələr, samanın da yığıb qışda mal-heyvan üçün saxlayardılar. Buğdanı da taxta qaba, ya da quyuya töküb ağzını palçıqlayardılar.

Xəşə yonca da əkərdilər, əgər məhsul yetişən vaxtda gec tərpənsəydilər məhsul saralıb yerə tökülərdi. Bu zaman deyərdilər ki, yonca xarab olub. Amma əgər vaxtında biçsəydilər, biçəndən sonra bağ bağlayıb, sonra taya vurardılar. Bu mal-heyvanın qışına ruzi olardı. Xəşəni üç dəfə biçərdilər. Bir dəfə biçəndən sonra yenidən sovurardılar. Xəşə yeyəni göyərən kimi bir də biçib, qışa saxlayardılar. Bu məhsulun adına "peşəduran" deyirdilər. Genə də xəş yerini suvarar, göyərən kimi biçərdilər. Bu məhsula "huvadura deyərdilər". Üçüncü dəfədən sonra xəşə yerində mal-heyvanı otarardılar. Xəşə yoncanı bir il əkərdilər, yeddi il bəhrə verərdi.

## Əşayir rəsmləri

Əşayirin bir rəsmi var idi. Bir yerdə çadır qursaydılar oradan möhtərəm şəxs sovuşanda böyük oğlanlarını yollardılar ki, gedib qonağın atının cilovundan yapışsın, ondan xahiş eləsin ki, atdan yenib şama, ya nahara qonaq olsun. Əgər qəbul eləsəydi canü-dildən ondan nəziranlıq edərdilər. Qonaq atdan yenən zaman onun ayağının altında qoyun kəsərdilər. Əgər bir neçə gün qalsaydı, ona hər cür hörmət edərdilər. Bəziləri qonağa at, yaxud tüfəng bağışlardı. Əgər yoldan keçən dəvəti qəbul etməyib, atdan yenməsəydi, bu iş bədbəxtçilik sayılardı.

Əşayirlər Muğandan yaylağa köçəndə hər tayfa əsasiyyəni dəvələrə yüklərdi. Dəvələri bəzərdilər, boyunlarına fanar asıb üstünə fərş asardılar. Qulaqlarından rəngli dəsmal, boyunlarından zəngi-zınqırov asardılar. Onlar yeməklərini, paltarlarını, xurcuna, ya da balaca sandıqçalara qoyardılar. Elin xanımları rəngli paltarlarını geyib, dəvəyə minərdi. Dəvəçilər də kip, rahat başmaqlar geyib, dəvələrin çulları əllərində yol getməyə başlayardılar.

Əgər köç gedən zaman xanımların biri boylu olsaydı, sancısı zamanı qafiləni bir yerdə saxlardılar. Xanımı dəvədən yendirib, bir çadır qurardılar. Uşaq dünyaya gələnə kimi orada qalardılar. Yaşlı xanımlar tuluqdan, bal qabından, yağ, bal götürüb bir kasada onları bir-birinə qatır, zahıya verərdilər. Zahı onu qarışdırıb qaşıqnan içərdi. Bundan sonra o, yenə də dəvəyə minərdi. Uşağı da bir yekə parçaya büküb, onun qucağına verərdilər. Qafilə yenə də yollanardı. İkinci mənzildə bir qoyun kəsərdilər. Onun quyruğundan, ətindən kabab eyləyib, zahıya verərdilər. Sonra bir kasa kişmişi kərə ilə qaynadıb, zahıya verərdilər.

Malları, qoyunları da dəvələrin dalınca yeridə-yeridə aparardılar. Yüz qoyunun dalından bir coban at üstə, qabağında bir mühafiz iti gedirdi. Qoyunların hər biri boğaz olsaydı, yolda bala salsaydı onun balaca quzusunu götürərdilər. Yaxın kənddən keçəndə hər kəsin qapısı açıq olsaydı quzunu ora qoyardılar. Quzunu uzaq yola aparmaq çətin olurdu. Onu məqsədə çatdır-

maq olmazdı. Yaylağa gedən zaman cavan oğlanlar özlərin qorumaq üçün tüfəngli gedərdilər. Bu işi yol kəsənlərin qabağını almaq üçün də görərdilər. Köç gedən zaman onlarla bərabər bir çörəkçi, bir vərdənə çalan, bir atları qaşovlamaq üçün mehtər, bir nəfər dəvələrə noala verən, bir odun yığan, bir sugətirən, bir çoban onlarla gedərdi. Bu işçilər üçün ayrı bir alaçıq qurardılar.

Əşayir tayfalarının adları bunlar idi: Polada, Alari, Talış, Qocabəyli, Təkəli, Munlu, Qaraxanlı, Rzabəyli, Saxanbəyli, Cahan xanımlı, Əcirli, İsalı, Çalıbanlı, Muğanlı, Ərəbli, Qara Musalı.

Əşayirlər oğlanlarını evləndirmək istəyən zaman, istədikləri qızın adına bir gəlin-bala düzəldirdilər. Gəlinbalanı parçadan tikərdilər. O qızın adını gəlinbalaya qoyub, onu bir həftəlik evdə, yük üstdə qoyardılar. Əgər bir həftənin içində onların evlərində pis tifaq düşməsəydi, canlarına, ya mallarına bir zərər dəyməsəydi, istədikləri qız üçün elçi yollardılar. Əgər əks surətdə xoşa gəlinməz bir hadisə qabağa gəlsəydi, o qızı almazdılar.

Əşayirlər dəvəni işdən düşən zaman kəsərdilər. Dəvəni kəsmək o biri heyvanlar kimi olmazdı. Onun başını kəsməzdilər, nəhr eyləyərdilər. Sinəsinin arasından bir bıçaq sancardılar. Heyvan bu vəziyyətdə qalardı. Canı çıxandan sonra dəvənin dərisini soyub bölərdilər.

## Xan və bəylərin şəhər, kənd yaşayışları

O zaman xanların bir evi şəhərdə, biri də kənddə olardı. Onlar qış fəslində şəhərə gəlib, orda yaşayardılar. Bahar fəsli yenə kəndə gedərdilər.

Onların çoxlu mal-qaraları var idi. Tövlələri mal-heyvanla dolu olardı. Kənddə yoxsul olan adamlar xan evindən süd, kərə, qatıq, ayran, şor, pendir və s. aparardılar. Xanlar həftədə bir qoyun kəsib ətindən kənd əhlinə verərdilər. Onların qonaq otaqları həmişə sahmanlı, hazır olardı. Lapdan şəhərdən qonaq gəlsəydi qabağa çıxıb çox məhəbbətlə, hörmətlə ona xoş gəldin deyərdilər. Sonra qulluqçularına göstəriş verərdilər ki, qonağın ayağı altda bir toğlu kəssin. Qonağa çox ali şəkildə qulluq edər-

dilər. Qonaq rahatlanandan sonra bir aftafa-ləyən gətirərdilər ki, o üz-gözün yuyub sərinləsin. Sonra çay gətirərdilər. Onunçun qatıq, kərə, bal, isti çörək gətirərdilər. Qonaq gərək onlardan yeyəydi. Bundan sonra qurbanlıq ətindən kabab verirdilər. Əgər gələn qonaq hörmətli şəxs olsaydı, məhəllənin mömin adamları əlaqə qurmağa çalışardılar. Əgər qonaq orda namaz qılsaydı, onlar hamısı ona qulluq göstərərdilər. Əgər gələn qonaq musiqi əhli olsaydı, onu sevindirmək üçün aşıq çağırardılar. Qonağı kəndin gəzməli, görməli yerlərinə də aparardılar. Əgər bir neçə gündən sonra qayıtmaq istəsəydı, onun üçün sovqat hazırlayardılar. Bir xurcun yağlı fətir, bir qab bal, kərə, bir dənə toğlu verərdilər.

Deyirlər bir gün xanlardan biri otaqda əyləşmişdi. Oğlu gəlib ərz eyləyir: Xan, nahar hazırdır, buyurun, nahar edın. Oğlan xanı çağırandan sonra gedir, ailə üzvləri ilə birlikdə xanı gözləyirlər. Görürlər ki, yemək soyudu, amma xan gəlmədi. Xanım özü gedib deyir: – Niyə təşrif gətirmirsiz, yemək soyudu.

Xan deyir: – Axı pərdəni qovzuyan yoxdu.

Xanım pərdəni qalxızır, xan zəhmət cəkib yemək üçün süfrə başına gəlir.

## Rəiyyətlərin kənddə yaşayış vəziyyəti

Kəndlilər yeri öküznən əkirdilər. Onlar əkini suvarmaq üçün gecələr oyaq qalırdılar. Gündüzlər yer sürərdilər. Məhsul ələ gələndən sonra zəmiləri biçərdilər. Bundan əvvəl bir kəllə qənd aparıb sahibkarlardan taxıl biçməyə icazə alardılar. Malikə darğa, ya zabitə deyırdilər. O, adam gondərirdi ki, xırmanın məhsulunu ölçsün. Məhsuldan 5 qismini rəiyyət özü götürürdü. Bir qismini də ərbabın məmuruna verərdilər. Darğa bəhrəni yığandan sonra rəiyyətdən ulaq istəyirdi ki, məhsulu şəhərə aparsın. Kəndlərdən gələn məhsulu malikin anbarına tökərdilər. Malikin uşaqları hərdən qonşu uşaqları eşşəyə minməyə qonaq edərdi. Rəiyyətlər ondan sonra uşaqları yığıb qayıdar, öz qismətlərini sərib qurudardılar. Qurumuş məhsulu quyuya tökərdilər. Qalın davamlı

ipdən böyük otaq boyda tor toxuyurdular. Sonra kəndin cavanlarını nahara dəvət edərdilər, bu ad ilə ki, sabah saman abguştuna gəlin. Böyük qazan abguşt bişirib, böyük süfrə açardılar. Cavanlar hamısı yığılıb samanı torun içinə tökərdilər. Onun hər tərəfindən yapışıb ucadan: "Allah, Mühəmməd, Əli" deyə-deyə dama çıxardılar. Damın bacasından samanlığa saman tökərdilər. Bundan sonra nahar yeyib gedirdilər. Hər kəsin samanı olsaydı cavanlar əlmuzdu almadan ona kömək edərdilər. Kəndin qaydası idi, muzd almazdılar. Kənd əhli imanlı olar, xırman qurtarandan sonra yaxşı gəlirləri olan adamlar Kərbəlaya getməyə hazırlaşardılar. Bu iş üçün südlü çörək bişirib kisəyə doldurardılar, ondan əlavə halva bişirib bir qaba yığardılar. Az da olsa pendir düzəldib götürərdilər. Sonra səfər yükünü bağlardılar. Əgər Kərbəlaya getmək atalarının vəsiyyəti olsaydı onu da qəbirdən çıxarıb Kərbəlaya aparmaq üçün bir kisəyə qoyardılar. Hər kənddə bir nəfər çavuş olardı. O bir dənə ələm götürərdi, küçələrə düşüb səslənərdi. O, küçələri dolanandan sonra ələmi məscid qabağında yerə sancardı, ucadan sözlərini deyərdi. Camaat hər tərəfdən ora yığışardı. Bu mərasim on günə qədər hər gün məscid qabağında olardı. Hər gündə hamı yığışıb çavuşun səsi ucalan zaman ağlaşardı. Çavuş tez-tez tilavət çevirib deyirdi: "Əimmə ithar əleyhəssəlami gül camalın tülavət".

Zəvvar çavuşun Kərbəlaya getmək xərcini verib onu özü ilə aparardı. Bəzi vaxtlar birlikdə mənzilbəmənzil piyada gedərdilər. Yol üstü hər kəndə yetişəndə çavuş ələmi yerə vurar, çavuşluğa başlardı. Camaat onun başına yığışardı. Pulu olmayanlara pul verərdilər, nəzir verərdilər, ya nahar verərdilər. Hərdən də neçə nəfər onlara qoşulub Kərbəlaya gedərdi. Hər kənddə bu təşrifat təkrar olunardı. Zəvvarın gedib-qayıtmağı altı ay çəkərdi. Hərdən bəzi kəndlərdə zəvvarlara at verər, onlarla bir yerdə gedib qayıdardılar. Bəzi kəndlərdə varid olanda kənd əhli pişvaza gəlib qurban kəsərdi. Onlar zəvvarları kənddən çıxana kimi yola salıb-qayıdardılar.

Zəvvarların öz kəndlərinin əhalisi kəndə xəbər çatan kimi yığışıb pişvaza çıxardılar. Onlar pul yığıb öküz alar, zəvvarların

ayaqları altında kəsərdilər. Ziyarətdən gələn adam üç gün bozbaş ehsan verib yaxın kəndlərin əhalisini qonaq çağırardı.

Əgər zəvvarların birinin ölüm xəbəri gəlsəydi, sonra xəbər yalan çıxsaydı, o adam evinə girən zaman qapıdan girməzdi, pəncərənin qabağına bir nərdivan qoyardılar ki, o pəncərədən evə girsin. Sonra kəndin böyükləri yığışıb deyirdilər ki, tənbəlliyyəti açırıq. Sonra gələn sovqatı paylayardılar. Hər evə bir möhür, üç dənə xurma, bir ipək dəsmal, bir az da çörək xırdalayıb verərdilər. Pay alan şəxs də sovqatın yerinə bir cüt ip corab, dörd şahı pul (o zaman bir abbası deyirdilər) qoyardı. Deməliyəm ki, ipək dəsmalı hər adama yox, çox yaxın adamlara yollardılar.

## Kənd yaşayışı

Kəndlərdə indiki kimin bolluq deyildi. Hər ailə bir neçə toyuq saxlayardı. Yumurtaları yığıb satardılar. Çox zaman dükanda qənd, çay, kişmiş və s. alıb, yerinə yumurta verərdilər. Onların həmişəlik yeməkləri süd, qatıq, kərə, ayrandan ibarət idi.

Kənd əhli çox türkəsaya, inamlı insanlar idilər. Kənd əhalisinin əli çox zaman təbibə çatmazdı. Onlar xəstələri sağaltmaq üçün türkədavadan istifadə edirdilər. Məs: Qızdırması olana bənövşə gülünün dəmlənmiş çayı, şəkəri olanlara bulaq otu, ishalı olanlara boymadərən, bədəninə soyuq olanlara yarpız dəmlənməsi, ürəyi tutğun, qüssəli olanlara boymadərən, bədənləri soyuq olanlara kəklikotu dəmlənmişi, bədənlərində çirk olanlara yarpız dəmlənməsi, gözlərinə çırtıq çıxanlara xərçəng sümüyünün tüstüsünü, sevdası olanlara şatrənin xam suyundan acqarnına bir stəkan verərdilər.

Xanımlar evdə müxtəlif əl işləri görərdilər. Cəhrə ilə ip, əlkin ilə sap əyirərdilər. Kişilərin, uşaqların müxtəlif paltarlarını xanımlar toxuyurdular. O cümlədən, şərf (şal), corab, əlcək, börk və sairə şeylər. Bunlardan əlavə kilim, cecim də toxuyardılar. Hamısının ipi, sapı yundan olardı.

Onlar çayı qara aftafada düzəldirdilər. Kərə düzəltmək üçün nehrədən istifadə edərdilər. Onlar qatığı nehrəyə töküb çalxa-

layır, kərə düzəldirdilər. Onu böyük bir qazana boşaldıb, kərəni ayrandan ayırırdılar.

Qoyun kəsilən zaman onu doğrayan kimi uşaqlar ətindən parça-parça götürüb kuzənin içinə atar, sonra alaçiy bişirib dişlərinə çəkərdilər. Qoyun doğrayanın işi qurtarana kimi ətin dördən biri yeyilərdi.

Kəndlilər çarıqlarını özləri dəridən tikərdilər. Xanımlar keçə börk tikərdilər. O zaman kəndlərdə hamam olmazdı. Camaat yay fəslində çayda yuyunardı. Soyuq düşən zaman, qışda təndir başında yuyunardılar. Sabun yerinə coğan istifadə edirdilər. Paltarlarını coğanla yuyardılar. Gil ilə yuyulan baş tez ağarmaqdan, tökülməkdən xilas olurdu.

Şəhərə piyada gedərdilər. Ümumən bədəni tez yormazdılar. Gecələr tez yatar, səhər tezdən durub namaz qılıb, səhər havasından istifadə edərdilər. Beləliklə, həm işləri qabağa düşərdi, həm də səhhətləri yaxşı olardı. Onlar qəlyanaltı üçün şirin çay içməzdilər. İsti çörəynən şor, ya qatıq, ya da kərə yağı yeyərdilər. Mədələri də salim olardı. Yeməkdən sonra uşaqlar, böyüklər iş üçün kövşənə dağılardılar.

Kənd əhlinin tamahı az olardı, dünya malına elə əhəmiyyət verməzdilər, zər- zivər üçün qüssə yeməzdilər. Allah şükür edən bəndələr idilər. Bunların içindən çox doktor, alimlər çıxıblar. Bu da salim yeməyin, azad havanın, fikir rahatlığının nəticəsi idi.

Qış gecələri neçə ailə bir yerə yığışardılar. Əyləncə üçün savadlı olan bir şəxs "Əmir Aslanın" nağılın söyləyirdi, hamı da qulaq asırdı. Zənənlər oturub kişilərə, uşaqlara corab toxuyardılar. O zaman bərq yoxdu, neft az idi. Evləri işıqlandırmaq üçün qamışdan istifadə edərdilər. Qamışı yığıb qurudardılar. Təndirdən bir miqdar soyuq kül çixardıb evin bir guşəsinə tökərdilər. Hər dəfə bir qamış əlin içinə sancıb yandırardılar. Bir qamış yanandan sonra başqasın sancıb yandırardılar. Beləliklə, şam kimi onun işığından istifadə edərdilər. Xanımlar qamışın işığında toxuma işi görürdülər.

Kənddə gündəlik çörək bışirərdilər, boyat çörək yeməzdilər. Çörək bişirəndə hər işi özləri görərdilər. Xanımlar özləri təndir salmaq, xəmir eləməkdən tutub, ya kündə, vərdənə, oxlov atmaq kimi işləri də özləri görərdilər. Bir miqdar işləyəndən sonra gedib qəhvəxanada əyləşib, çay içib qəlyan çəkərdilər. Xanımlar axşamadək ayaqyalın gəzərdilər.

Axşam naxır gələn vaxt gedib bulaqda, ya çayda ayaqlarını yuyub evə gələrdilər. Kişilər başmaq yerinə çarıq geyərdilər.

O zamankı rəiyyətlər malikə bir toyuq aparardılar. Qohum, ya tanışlardan biri naxoş olsaydı deyirdilər: Ağalığa toyuq aparıram. Onu mərəzin başına dolandırıb verərdilər. Gətirib, onu əzib isladardılar. Xanımlar da süpürgə ilə otaqları ağardardılar. Bu işi məmulən bayrama yaxın görərdilər.

Kəndlilərin toyları da maraqlı olardı. Biri istəsəydi birinin qızını oğluna alsın, əvvəl kəndin ağsaqqallarından bir neçə ağıllı, təcrübə götürmüş adamı dəvət edərdilər. Onlar gecə oğlan evinə yığışardılar. Bu məclisin adına "məsləhət çayı" deyərdilər. Əvvəl çay gətirərdilər, sonra oğlanın atası deyirdi: Mən filənkəsin qızını istəyirəm oğluma alam, siz nə məsləhət bilirsiniz? Onlar da əgər səlah bilsəydilər, öz aralarından iki nəfəri seçib yollardılar qızın atasının yanına. O da vaxt istəyərdi, öz dövrəsini məsləhət çayına dəvət edərdi. Oğlanın əxlaqı, rəftarı dədəsinin işlərində köməkçi olması, xərmən yığışdırması, su suvarması kimi məsələlər barədə götür-qoy eyləyib, əgər səlah bilsəydilər, xəbər verərdilər ki, gəlsinlər. Buna görə oğlanın atası bir iddə, qızın atası da bir iddə ağsaqqallardan çağırırdılar. Hər iki adama bir nəlbəki kişmiş qoyardılar, çay gətirərdilər.. Əvvəl oğlanın qonaqlarından hər hansı ki, daha hörmətli olsaydı, çayı o içərdı, təbrik deyərdı, stəkanı aparıb "ağzın şirin olsun" deyərdi. Ondan sonra o çayi o birilər içərdilər.

Kəbin sözün, başlıq sözün danışardılar. Bir inək, iki qoyun. Oğlanın atası hampa olsaydı, bir qitə zəmı saldırardı qızın kəbininə. Başlıq da kəbinə baxardı, çox olsaydı, çox alardılar. Az olsaydı, az. Aldıqları başlıqla cehiz alardılar, gəlin özü ilə

oğlan evinə apardı. Cehiz üçün bir təşt, bir məcmiyə, bir dəst dövri boşqab, kasa, piyalə (bunların hamısı misdən olardı), bir dəst yorğan-döşək, kürəkənə bir cüt corab, bir pul kisəsi, bir tuman bağı, bir canamaz qoyardılar. Bunlardan sonra damadın anası, bacıları, xalası, bibisi, dayı arvadı, əmi arvadı, ağbirçəklərindən neçə nəfəri yığışıb gedərdilər şəhərə bazarlığa.

Hansı dükançıya müştəri olsaydılar, ora gedərdilər. Bir az da noğul alıb, aparardılar ki, mağaza sahibləri ağızlarını şirin eləsinlər. Bazarlığa gələnlərin hər birinə xələt alardılar. Gəlinin parçasını kəsdirərdilər. Bazarda onlara çay gətirərdilər. Bəyin yoldaşları-dostları gəlinin qabağında at çapdırardılar. Gəlin qapıya çatanda, varlılar bir top parça payəndaz salardılar. Payəndaz qapıdan ta gəlinin atının ayağına dayanana kimi olardı. Meyvə fəsli olsaydı, bu əbrişəm parçanın o tərəf-bu tərəfinə cürbəcür meyvələr düzərdilər. O boşqabların bir- birindən bir metr arası olardı.

Gəlin gələndə aşıqlar qabağa çıxardılar. Gəlinin adamları onların qavalına pul atardılar, gəlini evə aparardılar. Gəlinin çilovdarı parçanı yığıb, meyvələri xurcuna tökərdi, parça da ona yetişərdi.

Gəlini evə gətirəndən sonra qabağında tamam qoca xanımlar, bibidən, xaladan, damadın anası, bibisi, xalası aşığın alnına qızıl yapışdırardılar. Gəlin əyləşərdi, aşıqlar mürəxəs olub, sazlarını götürüb gedərdilər.

Sonra nahardan qabaq aşpaz qonaqlara kabab yollardı. Qonaqlar onun yerinə pul qoyardılar, oğlanın anası da xələt verərdi. Sonra qayınanası gəlib gəlinə deyirdi: – O tövlədəki sarı inəyi verdim sənə, əyləş. Əyləşməzdi.

Böyük qaynı gəlib deyərdi: O qaşqa inəyi verdim sənə, əyləş. Əyləşməzdi.

Kiçik qayın gəlib deyirdi: O qaşqa inəyi verdim sənə, əyləş. Əyləşməzdi.

Böyük baldız gəlib deyirdi: – Bir dənə naxışlı cecim uzatmışam, dardadı kəsəndən sonra onu verəcəm sənə. Əyləşməzdi.

Kiçik baldız gəlib deyirdi: – Bir cüt məfrət verdim sənə, əyləş. Əyləşməzdi.

Qayınana xəbər alırdı: Gəlin, bəs məndən nə istəyirsən?

Gəlin deyərdi: – Sırğa istəyirəm, yəni güşvarə.

Deyirdi: – O da gözüm üstə, gəlin, əyləş.

Bu zaman o əyləşərdi.

Gəlini dədəsi evindən gətirəndə atası gəlib ona nəsihət verib deyirdi:

– Qayınnənəvun, qayınatavun, qayınlarivün otağında olasan, oğullu-qızlı olasan, get səni Allaha tapşırdım.

Sonra gəlini ayaq açdıya çağırırdılar. Yeyib, icib gedəndə, dədəsi gəlib deyirdi:

– Yasəmən, ya Bagdagül, o tövlədəki kəhər atı verdim sənə, gedəndə özünlə apar. Gedəndə bəy atı tövlədən çıxarıb aparırdı. Əgər dədə evinin dolanışığı zəif olsaydı, iki qoyun ya bir cüt məfrəş verərdi.

Toydan bir gecə qabaq qız evində həna gecəsi tutardılar. Bəy evində bir kasa həna isladırdılar ki, bir məcməyiyə qoyub, iki dənə şam, bir qutu şirni, bir dövri çilov, bir dənə qırmızı carqat qız evinə gətirərdilər. O qırmızı çarqatı qızların biri götürüb gəlinin başına örtərdi. 10-15 nəfər də qızlardan biri qaval çalar, o birilər oynaya-oynaya xına dəsgahını qız evinə aparardılar. Orda hamısı o hənadan əllərinə yaxardı. Şirnisini açıb yeyərdilər, hamı o çarqatı bir-bir başına salardı. Sonra hamısı əl-ələ verib dövrə vurardılar, oynayıb fırlanardılar, halay çəkib, dostun varlığına, elin elliyinə, düşmənin korluğuna hərə bir Allah-Allah deyərdi.

Qədim kənd yerində elə meyvə olmazdı ki, həm özləri yesin, həm də qonağa versinlər. Ulağ üstündə şəhərdən üzüm, ya armud gətirərdilər.

Onlar bir az üzüm, armud verib, əvəzində bir qəlbir buğda alardılar. Bu meyvələri uşaqlara verərdilər.

Şəhərdə indiki kimi cürbəcür meyvə olmazdı. Qışda nə yaxçal var idi, nə fərizər, nə sərdxana. Bir necə almanı pambığa

büküb bankada saxlayırdılar. Ondan birini dilim-dilim edib, hərəyə paylayardılar. Kənddə kişilər, zənənlər gecəli-gündüzlü işləyirdilər.. Yaşı çox olanlar ata, heyvana, toyuğa, tövləyə baxardılar. Qadınlar çöldə öz kişilərinə kömək edib, alaq edərdilər. Cavan qız-gəlinlər evdə fərş-cecim toxuyurdu. Onlar özlərinə lazım olan cecimi götürərdilər. Qalan malları kişilər aparıb şəhərdə satardı. Yerinə hər nə lazım olsaydı alıb qalan pula da mal-davarlarını artırardılar. İmkanı olanlar Məşhədə ziyarətə gedərdilər. Məşhəddən gəlinin pişvazına çıxıb özləri ilə çavuş aparırdılar. Çavuş səslənərdi, famil-dəst, aşna zairin başına yığışardılar. Bir Məşhəddən gələnin evində yatıb, gecə orda qalardılar. Bir qisim adamlar isə gedərdi. Üç gün nahar, şam ehsanı verilərdi. Ondan sonra xeyirxah insanlar yığışardılar bir yerə, deyirdilər ziyarətdən gələnin xurcununu açaq. Onlar xurcunu bir yaşlı xanımın önünə qoyardılar. Xurcundan bir yelpik, üc dənə xurma, beş-altı səbzə, bir az südlü çörəyi bir boşqaba töküb, dost-aşnalara yollayardılar. Onlar da bir-iki dənə yumurta, iki qara pul, iki şahı pul sovqatın yerinə qoyardılar. Bu pay sovqatı gətirənə yetişərdi. Sonra yaxınları hər gün bir zəvvarı nahara çağırardı. Bir zəvvar demişdir ki, ziyarət vaxtı üzümü həzrətin zərihi-mübarəkinə sürtürdüm ki, təbərrük olsun. O vaxtdan bu günəcən üzümü yumamışam ki, camaat məni öpəndə, onlar da təbərrük olsunlar.

Qədim Ərdəbildə bir dəllal Məşədi Gülü var idi. Bir boxça parça götürüb, gündə bir əyanın evinə gedərdi. Hər kəs qız almaq fikrinə düşsəydi ona müraciət edərdi. Əvvəl gedib qıza baxardılar. Qızı görən adam əgər onun gözü çəp olsaydı, deyirdi. Quş yaxşı baxır. Əgər ayaqdan çolaq olsaydı, deyirdi: – Sərçə yerişi var. Əgər ağzı yekə olsaydı, deyirdi: – Ağzını büzəndə badama oxşayır. Əgər alnı çox açıq olsaydı, deyirdi: – Ürəyim açıldı, alnında at min çap. Qəddi gözəl olsaydı, deyirdi:- Boyu bəstədir, saçları yernən sürünür. Əgər gözəl olsaydı, deyirdi: – Gül qönçəsidir, istəyirsən dərib gətirim.

Bir nəfər Gülbadam adlı çörək bişirən zənən var idi. Varlıların evində çörək bişirərdi. Bir oğlu vardı, bir əri. Çörəyi

bişirib qurtarandan sonra hər nə çörək payı versəydilər, gətirib üç günlüyünü özünə götürərdi, qalanını bir neçə ev arasında yoxsullara paylayardı.

## Əşayirin Ərdəbil hücumu

Qədim bir dövrdə Ərdəbil həndəvərində olan Əşayirlər şəhərə hücum edib bütün bazarları, evləri çalıb çapırmışlar. Bu dövranın adına "Atlıq" deyiblər. Onlar küçəbəküçə, evbəev gedib, tamam ev hacatlarını, ələ gələn vəsaili aparırdılar. Onlar fəqət seyidlərə ehtiram qoyarmışlar. Əgər bir nəfər seyid küçə qabağında dayanıb, onlara desəymiş o küçəyə girməsinlər, onlar tez bu təklifi qəbul eyləyib deyirdilər: – Ağa, cəddinə qurban.

Bundan sonra yoldan qayıdarmıslar, o günlər çox qorxulu, əmniyyətsiz günlər imiş. Camaat hamısı qorxu içində yaşayarmış.

Mərhum ağayi Fərəc Pənabadi rus rəiyyəti imiş. Onun bir böyük həyəti var imiş. Bazar əhli, tacirlər çadır qurub, ara sakitləşənə kimi orada yaşayırmışlar. Əşayirin haqqı yoxuymuş oraya getsin, çünki rus rəiyyəti sayılırmış. Camaatın bəzisi qiymətli vəsaillərini qorumaq ücün quyu qazıb onu quyuya tökərmişlər. Amma bütün bu işlər çox zaman qaydasız olarmış.

O zaman pul az imiş, cins çox. Pullular barəsində müxtəlif zərb-ül-məsəllər işlədirdilər. Məs: "Pulun oldu əlli, adın oldu bəlli", "Pulun oldu yüz, gir içində üz", "Pulun oldu min, kəhər atı min". O zaman bir şahı pulla üç cürə şey almaq olardı. Neçə illər bundan qabaq bir ev uçulmuşdu. Onun damından bir üstü yazılı taxta düşmüşdü. Onun üstündə yazılmışdı: "Ey camaat yumurtanın onun bir şahıya aldıq, amma arvad boşamadıq."

## Qədim qəhvəxanalar

Qəhvəxanalar qədim kişilərin bekarlıq zamanında yığısdıqları yer idi. Onlar gedib orada əyləşib çubuq, qəlyan çəkib, çay içərdilər. Bir nəfər dəvriş qəhvəxanaya gəlirdi. Hərdən də bir miqdar pul yığıb ona verərdilər. O dərviş onları tərifləyərdi. O

qəhvəxananın ortasında əbasın açıb, çəliyini yerə uzadardı. Sonra dastanı nağıl eləyərdi. Qulaq asanlar nağılı maraqla dinləyərdilər. Onlar sabahı gün genə nağılın qalanını eşitməyə gedərdilər.

Qədim pəhlivanlar gəlib meydanlarda çıxış edərdilər. Camaat dövrə çəkib dayanardılar. Pəhlivanlar əvvəl gəlib rəcəz oxuyurdular, sonra biri pul yığardı, sonra təbil-şeypur səsinin həmrahlığı ilə güləşərdilər. Onların birinin yıxılmağından sonra ucadan, ya Əli deyib, dağılaşardılar.

## Andiçmə mərasimi

Əgər bir adamın and içməyi lazım olsaydı gərək hakimin məsləhəti ilə dəstəmaz alaydı. Onu Şeyx Səfiyə aparardılar. Orada bir böyük Quran vardı. O şəxs gərək əlini ona vurub and içəydi, amma gərək yalançı olsaydı, qorxusundan təslim olardı.

Qaynanalara ağabacı, ya şabacı deyirdilər. Sonralar əgər qaynana Məşhəd, ya Kərbəlaya getmiş olsaydı ona Məşədi xanım, ya da Kəlbə xanım deyirdilər. Xanımlara ərlərinin dilincə maman deyirlər. Bəziləri də üzdə maman, dalda arvad deyirdi.

Əvvəllər evi döşəmək üçün həsir salardılar. Onun üstündən kilim, dövrəsinə keçə, ortaya fərş salardılar. İndi bütün evi döşəmə eləyirlər, ortaya xalça salıb dövrəsinə mebel qoyurlar.

## Xanımların əl işləri

O zaman xanımlar çox hünərli olub, yaxşı əl işləri görürdülər, xəyyatlıq çərxi yox idi. Bütün tikiş işlərini əl ilə görürdülər. Onlar əlləri ilə yaxşı güləbatın, boxça, araqçın, köynək yaxası, tütün torbası və s. şeylər tikib gülduzluq edirdilər. Onlar sümükdən toxuma mil düzəldib, onunla dəvətqabı, qələmdan qabı, miz örtüyü, corab, əlcək toxurdular. Onlar xörəklərini həmişə özləri bişirirdi. Yalnız toyda, ya təziyyədə aşpaz gətirərdilər. Xanımların Quran dərsinə cox meyilləri vardı. Hamı səy edirdi ki, qızını Quran məktəbinə qoysun. Əgər analar Quran

oxumağı bacarmasaydılar, uşaqlarından öyrənib, həmişə namaz başında bir-iki səhifə Qurandan qiraət edərdilər.

Qışda hamı kürsü qurardı, çölün bərk küləyindən gələnə kürsünün istisi ləzzət verərdi. O vaxt gecə əzanından 2 saat keçmiş küçədən turp, kələm, yerkökü satanların səsi eşidilirdi. Onlar uca səslə deyirdi: "Turp, kələm alan, şirin yerkökü alan".

Biz uşaq idik, turpçu qoca əminin səsin eşidən kimi qardaşlarımın biri ilə küçəyə qaçardım. Hərdən o əmi göydən parça-parça qar tökülən zaman gələrdi. Qardaşım yerkökü alan zaman biz də turpçu əmiyə tamaşa edirdik. O başına keçədən börk, onun üstündən bir çarqat, bir qırmızı fitə bağlardı. Bir cırıq, yamaqlı şalvar geyərdi. Bir şal boynunda, bir gödək dirsəkləri yırtıq arxalıq, ayağına bir ip corab geyər və çarıq da ayağında olardı. O, cibinə bir torba salıb, içinə yerkökü, turp, kələm tökərdi. Bir tərə də özüylə gəzdirərdi. Qar onun təpəsindən tökərdi, amma o havanın pisliyinə baxmayaraq satdığı şeylər üçün alıcı axtarardı.

O zamanlar kömürü qızarmamış kürsünün huzəsinə tökərdilər. Kömürün üstünü küllə örtərdilər. O kömür qızardıqca kürsü buxarlanardı. Buxar kürsü başında oturanları gicəlləndirib baş ağrısına salardı. Camaat turpu alıb, onun qabığın soyub, alınlarına yapışdırardılar. Turpu yeyərdilər ki, buxarı rədd eləsin. Turpçu əminin bazarı çox əlvan olardı.

Gündüzlər paxlaçı əmi gəlib səslənərdi. O da ayağında çarıq, başına sarınmış bir şərf, tüklü börk başına qoyub gələrdi. O, bir tərəzi, bir qutu duz xoncaya qoyub başında gəzdirib səslənərdi: "Şorca paxlası alan, şorca paxlası alan". Hərdən onların bığ və saqqalları qırov bağlayıb, ondan buz sallanardı. Paxlaçının paxlasını çox uşaqlar alardı. Uşaqlar onların səsin eşidən kimi hərəsi bir, ya iki şahı pul, bir cam götürüb paxla almaq üçün küçəyə qaçardılar.

Bahar fəslinin ikinci ayında yarpız, yemlik, şingillə satan gələrdi. Onlar səhər-səhər gəlib küçələrdə səslənərdilər: " Yarpız alan, yemlik alan, ay südlü şingillə alan". Yenə də hər uşaq bir padnos, bir şahı götürüb, küçəyə sarı qaçardı. Yemlik satanlar

yemliyi, yarpızı satmağa gətirərdilər. O, bir şahılıq yemlik, yarpızı uşaqlar gətirdikləri padnosa tökərdi. Şingillə üçün də artıq bir şahı alardı. O şingillədən bir çiynəmlik verərdi.

Yay fəslinin əvvəl ayında uma halvası gətirərdilər. Halva satan küçələrdə uca səslə deyərdi: "Uma halvası alan. Dəmirə, köhnə paltara, köhnə kilimə, köhnə başmağa, köhnə börkə, verirəm. Ay, uma halvası alan! "

Əgər uma halvası almaq üçün az pul versəydilər, halva satan az halva verərdi. Amma əgər əşya, paltar versəydilər xonçanın halvasın boşaldıb gedərdi. Onun dalısınca iynə-sancaqçı gələrdi. O şkaf şəklində bir üstü şüşəli bəndli qutunu boynundan salıb deyirdi: "Dəsmal, corab, sabun, ətir, iynə, sancaq, üskük, sap alan, ayna, təsbih alan və s." O zaman xanımlar bazara getməzdilər. İynə-sancaq satanı həyətə çağırardılar, istədikləri şeyləri alardılar. İynə-sancaq satan hər küçəyə həftədə bir dəfə gələrdi.

Ondan sonra parçaçı, ya arşın malçı gələrdi. Arşın malçı da bir top məxmər, çit parçanı bir nəfərin ciyninə verib, bir taxta, yarım arşın da özü əlində götürüb səslənərdi: "İpək, atlas, məxmər, çit alan". Sonra uşaqlar gedib, onları həyətə çağırardılar. Xanımlar yığışıb parça alardılar. Əgər xanımlar bazar parçası almaq istəsəydilər, ərləri gedib, bazar dükanından parça nümunəsi gətirərədi. O zaman karxanalar hər parçanın nümunəsini çox gözəl, səliqəli, məxsus bir vərəq üstə yapışdırıb, parçaçılara verərdilər. Onun adına "məsturə" deyirdilər. Bütün parçaların nümunəsi onda olardı. Onu evə gətirərdilər. Xanımlar o zaman heç vaxt bazarlığa getməzdi.

Ağalar xanımlarını çağıranda hərəsi bir adla çağırardı. Biri bizimki, biri ay qız, dönə bəyim, ev çırağı açar, ay, balam, hacı qızı, sonralar xanım, yaxud adıyla çağırardılar. Xanımlar ağalarına o deyərdilər.

Keçmişdə xanımlar tək oyan-buyana getməzdilər. On beş gündə bir dəfə baldızları ilə dədələri evinə gedərdilər, həftədə də bir dəfə hamama. Sonralar şəhər içində özləri tək gəl-get edərdilər.

Keçmişdə qonaqlıqlarda qonağa qəza verəndə, süfrə salardılar. Hər iki qonağa bir məcməyidə qəza qoyardılar. Neçə müddətdən sonra qəzanı bulutlarda süfrəyə düzərdilər, sonra çəkib hərəyə bir boşqab verərdilər. Sonralar miz üstə qəza yemək dəb oldu. Qəzanı miz üstə düzərdilər. Hər kəs özü istədiyi qədər qəza çəkib yeyirdi. İndi self-serviz dəbə düşüb.

## Qonağın meyvə ilə naziralığı

Keçmişdə hər meyvədən bir boşqab doldurub beş-altı nəfərın qabağına qoyurdular. Meyvəni elə qoyurdular ki, hamının əli çatsın. Qovunu qabığının üstə iç elərdilər. Onları qaba qoyub, hər iki nəfərin qabağına ayrılıqda qoyardılar. Qarpız vermək istəsəydilər, hər beş nəfərə bir qarpız kəsərdilər.

Bir müddətdən sonra meyvəni bulutlara yığıb dolandırmaq dəb oldu. Hər meyvədən bir bulut, ya dövri yığar, qonaqların qabağına tuturdular. Hər kəs hər növ meyvə istəsəydi götürərdi. Bundan sonra da böyük meyvə qabı işlətmək dəb oldu. Meyvələrin hamısını bir böyük qaba yığıb, qonaqlardan nəzirallıq edərdilər.

Mərhum Ağa Mirzə Tahir Tahiri, onun oğlu Həsənağa Tahiri Məscidi-cameənin müctəhidi idilər. Onlar ruhani ailəsindən idilər. Onun qalan nəvə, nəticələri də çox nəcib, şərəfli insanlar olub bəziləri fərhəngi işlərdə cameəyə xidmət edirdi.

Ağalar bir yerə gedəndə nökərləri də gedərdi. Onlar ağanın çubuğunu, tütününü aparardı. Nökərlər gedib, dəhlizdə dayanardı. Ağa çubuq istəyəndə nökər fövrən tirmə kisədən tütün çıxardıb, çubuğu doldurub yandırar, aparıb ağaya verərdi.

Mərhum Həzrəti-Müstətab Hüccət-ül-İslam və-l Müslimin Hacı Axund Molla İbrahim imami-Cümə imam-cümə xanəvədəsinin böyüyü idi. O mərhum təqribən 1207-ci hicri-qəməridə Ərdəbil nahiyəsində doğulub. On üç yaşında elmlə əlaqəsi olduğu üçün İsfahan şəhərinə gedib, 25 il o elm mərkəzində təhsil alıb, dini elmləri, o cümlədən hikmət fəlsəfəsi öyrənib. Sonra Tehran şəhərinə gedib, orada bir müddət qalıb. Bir gün o vaxtın

sultanı bir məclis qurmuş, ruhaniləri, biliciləri dəvət etmişdi. Bir mühüm mövzu, müəmma çevrəsində bəhs gedirmiş, hazır olanlardan hər birisi öz rəyin elan edir, amma dürüst cavabı Molla İbrahim verirmiş.

Padşah bu şəxsin zəkasına afərin deyib Ərdəbilin 12 kilometrliyində bir kiçik kəndi ona bağışlayır. O kəndin adı Təzəkənd idi.

Molla Muhərrəməli axund Molla İbrahimin atası idi. Babası Molla Bahaəddinin də kənddə malikiyyəti var imiş. O mərhum ali təhsilatını qurtarandan sonra Ərdəbilə qayıdıb. Muhəmmədcəfər küçəsində namazi-camaat, vaiz, xitabəyə ilə məşğul olub. Sonra tələbələrinə dini dərs verib, tələbələri çox olduqları üçün özü bir dini mədrəsə düzəltdirməyə təşəbbüs göstərir. O mədrəsəni öz səliqəsi ilə tikdirir, adını da "Mədrəsəyi- Molla İbrahim" qoyur.

Mərhumun doğum və vəfat tarixi bir kətibədə həkk olub. İbrahimabad məscidinin divarına vurulmuşdur. Sonralar kətibəni artıq qurulmaq üçün məscidin içinə müntəqil ediblər. O kətibənin üstündə məscidin tikilən tarixi 1275-ci il hicri-qəməri qeyd olunub. Axundun doğum tarixin 1207-ci il, vəfat tarixin 1307-ci il yazıblar. Mədrəsənin də tikiliş tarixi 1267-ci il hicri-qəməri olub.

Mərhum Ağa Seyid Muhəmməd Cəbəl Amoli Amol şəhərindən gəlmişdi. Onun 2 övladı varmış. Mərhum ağayi-ayətüllah Hacı Mirsaleh, ağayi-Hacı Seyid Yunis, Ağayi-Hacı Mirməhyəddin, Hacı Mirağa onun övladları idi. Seyid Muhəmməd Cəbəl Amoli Məşhəd şəhərində dəfn olub. Mərhumun nəvələri artıb. Onların hərəsi gedib, bir şəhərdə qalıb, birisi Məşhəddə, biri Ərdəbildə, biri Tehranda.

## Boyluluq (ikicanlı)

Azərbaycan qızları bütün başqa qızlar kimi bəxt evinə gedib "gəlin" olandan sonra səbirsizliklə boylu (ikicanlı) olmaq arzusu ilə yaşayırdı. Toydan bir müddət sovuşandan sonra

boyluluq nişanələrini görməyincə təşvişə düşüb çarə aramaq fikrinə düşürdülər. Uşağın Allah vergisi olduğuna inandıqları üçün nəzir-niyazla Allahdan uşaq diləməyin uğurlu olmadığını, bu yolla dünyaya gələn uşağın öz ata-anasının başını yediyinə baxmayaraq boylu olmaqdan sarı heç bir işdən çəkinməzdilər. Çünki uşaqsızlıq ailə ocağının soyuqluğuna, nəslin qırılmasına, dedi-qodulara səbəb olmaqdan əlavə, kişiyə arvadını boşamağa, ya onun üstünə evlənməyə haqq qazandırırdı.

Həyat boyunca təşvişə, qaxınca səbəb olan bu sonsuzluğa son qoymaq üçün aşağıdakı təşəbbüslərə qatılırdılar.

1. İmamlara, imamzadələrə, müqəddəs ocaqlara baş vurar, onlardan hacət (murad) dilərdilər. Bu yol ilə uşağı olanlar-arvadlar, o imamın adını uşaqlarına qoyur, uşağı oraya ziyarətə aparırdılar.

2. Falçılara, duayazanlara baş vurur, onlardan boylu olmaq duası diləyirlər. Bu dualar, tasa baxmaq, kitab açmaq, göbək duası yazmaqdan başlayıb, cürbəcür döşək altına qoyma, suya salıb içmə, parçaya tikib yanında saxlama kimi yollarla həyata keçirilərdi.

3. İmamlar, övliyalar adına, o cümlədən, İmami-Zeyna- labidin, Həzrəti Əbülfəzli, Xanım Ruqiyyə, Bibi Şəhrəbanu adına ehsan süfrəsi açar, ya müqəddəs ocaqlarda yemək paylayardılar.

4. Qəbiristanda ölü yuyan yerə gedib, qüsl üçün ölünün üstünə tökülən sudan bir stəkan alıb, gəlin (boylu olmaq istəyən cavan arvad) hamamda yuyunandan sonra onun başına töküb, hamamdan çıxardardılar. Bunun adına çillə tökmək deyirdilər.

5. Dabbaqxana suyundan gətirib, onun üz-gözünə səpər, ya içirdirdilər.

6. Nəzir süfrəsinin tör-töküntüsünü onun başına silkərdilər.

7. Hamamda 10 nəfər zahının yuyunma suyundan alıb, onun başına tökərdilər.

8. Əgər on nəfər zahının yuyunma suyundan bir yerə yığmaq mümkün deyildisə, yaxın arvadlar ona bildirmədən hamamın 4 bucağından su yığıb, qəflətən onun üstünə səpərdilər. İnanırdılar ki, o, bu çirkabdan diksinib, çilləsi töküləcək.

9. Onu bir əza yerinə aparır, cənazəni yerdən götürmədən üç kərə onun (cənazənin) üstündən atladardılar.

## Uşaq salmaq

Qadınlar yoxsul, çoxuşaqlı ailələrdə boylu olmaqdan çəkinirdilər. Boylu olduqları halda uşağı dünyaya gətirməkdən əvvəl salmağa çalışırdılar. Uşağı salmaq üçün bu kimi işlərə əl atırdılar:

1. Üç gün səhər tezdən bir kasa zərinc suyu içirdilər.
2. Ağır şeylər qaldırırdılar.
3. Cəfərini əzib onun suyunu səhər yeməyindən qabaq içirdilər.
4. Üç gün dalbadal bir misqal zəfəranı bir neçə noxud ilə suda qarışdırıb içirdilər.
5. Boyağı, soğan qabığını bir yerdə qaynadıb, üç gün içirdilər.

Bunun əksinə olaraq, bir çox qadınlar Allahın qorxusundan uşaqlarını salmaqdan çəkinirdilər. Uşaq düşürmə təhlükəsi əsasən boylu arvadın ağır şeyi götürməsindən, bərk qorxmasından, əsəbiləşməsindən, yıxılmasından, başqa bu kimi hadisələrdən törəyirdi. Uşaq düşürmə qana düşmə ilə başlayırdı. Onun qabağını almaq üçün nişasta halvası bişirib xəstəyə yedirdirdilər. İnanırdılar ki, bununla uşağın düşməsinin qabağını alarlar.

## Boylu arvadın qorunması

Bir arvad boylu olarsa, xüsusən əgər ilk uşağıdırsa, həm özü, həm də yaxın adamları onu bir para şeylərdən qorumalıdır. Boylu arvada əl vurmaq, ya onun üstündən atlamaq olmaz. Boylu arvadı ağır işlərə girişməkdən, ağır hərəkətlərə qatılmaqdan, atılıb-düşməkdən, ağac altında yatmaqdan, qaynar suyu yerə tökməkdən, dəvəyə minməkdən, gün, ya ay tutulanda, bədənini qaşımaqdan çəkindirərdilər.

## Yerikləmə

Boylu arvadların bir çoxu boyluluğun ilk aylarından başlayaraq "yerikləmə" haləti tapırdı. Yerikləmə bir çox hallarda ürək bulanması ilə başlayır. Yeriki olan qadın bir para gündəlik xörəklərdən, gündəlik qoxulardan iyrənir. Adi yeməklərdən iyrənən boylular olduğu kimi, təzə gördüyü yeməkdən, ya duyduğu qoxudan xoşlanan, ondan yeməyə həvəs göstərən, hətta o yemək ələ çatmasa, umanlardan olur. Bunlardan bəziləri hətta xam düyü, kömür, torpaq, təbaşir yeyirlər. Bir çox cavan gəlinlər yerikləmə halında konülləri istəyən xörəyi onların üstünə qarınqulu adı qoyulmasın deyə dilə gətirməz, gizli saxlardılar. Bəzi dünya görmüş qadınlar bunu sezincə bişirdikləri xörəkdən bir az götürüb, ona çatdırar, ya qəfildən onun kürəyinə vurub, "umduğun bu olsun" deyərdilər.

Ailə buna görə də boyluluq aylarında, məxsusən, əgər gəlinin ilk doğuşu olsaydı, ona yerikləmə göndərərdilər. Bu yemək üstü örtülü qabda, göyərti, turşu ilə birlikdə aparılardı. Onu aparan yerikləməni verib, dayanmadan qayıdardı. Bunun ardınca kürəkənin ailəsi (oğlan evi) qabı şirə, ya gül ilə doldurub qaytarardılar. Onun yanında bir neçə dənə sikkə də qoyardılar. Bu sikkələr yerikləməni aparan adama çatardı.

Baharda yerikləyənə yarpaq dolması bişirib, ona bəzən sirkə, şirə, hətta göy alça tökərdilər. Yarpaq dolması yerinə kələm dolması, badımcan dolması, bibər dolması da göndə- rirdilər.

## Oğlan, yoxsa qız?

Uşağın oğlan, yoxsa qız olması bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da xüsusilə, kəndlərdə köçərilər arasında hələ də çox əhəmiyyətli sayılır. Uşaq dünyaya gəlməyincə, onun oğlan, yoxsa qız olduğunu iddia edər, hətta öz iddiaları üstə çəkişirdilər. İlk uşağı qız olan, xüsusilə bir-birinin ardınca qız doğan qadınlar ərləri, yaxınları tərəfindən qaxınca qalır, başıa-

şağılıq çəkir, atmacalara, dodaqbüzmələrə məruz qalır, bir sözlə bu töhmətə qatlanırdılar.

Çox qız doğulan ailədə qızların adını "Qızqayit", "Qızbəsdi", "Qızqurtar", "Qıztamam" qoyurdular.

Oğlan doğmaq arzusunda olan arvad boyluluğun hiss edəndə toyuq, bal, üzüm şirəsi, mürəbbə kimi qüvvətli yeməklər yeyirdi. Yerikləyənin qulağına "ya Muhəmməd, ya Əli" adını çağırırdılar. Bundan əlavə, körpənin oğlan, ya qız olmasını aşağıdakı inamlarla bilməyə çalışırdılar.

1. Boylunun başına astaca bir çimdik duz töküb, sonra gözləyirdilər. Boylu bilməzdən əlini saçına çəksə qız, üzünə çəksə oğlan doğacaqdır.

2. Boyluluq aylarında boylunun üzü səpgi töksə, uşaq qız olacaqdı.

3. Boylu küçədə-bacada iynə tapsa uşaq oğlan, sancaq tapsa qız olacaqdı.

4. Yuxuda at, ya qılınc görsə, oğlan doğacaqdı.

5. Yuxuda mirvari görsə, qız doğacaqdı.

6. Boylu gündəlik işlərini yerbəyer edib, hərəkətdə olursa oğlan, yeyib yatırsa qız olacaqdı.

7. Uşaq bətndə balıq kimi üzürsə oğlan, yumurlanıb qalırsa qız olacaqdı.

8. Turş şeylərə yerikləyirsə qız doğacaqdı.

## Doğum

El inanclarından boylu qadının doğum sancısı 9 ay, 9 gün, 9 saat, 9 dəqiqə, 9 saniyədən sonra başlayır. Qadının yaxın adamları otağın o biri tərəfində yataq salıb, onu yatırdırlar. Ev adamlarından biri mama dalınca göndərilir. Hər məhəllənin, hər obanın öz maması olur. Mamalar savadsız olsalar da işin yolyolacağına bələd adamlar olurlar.

Mama gəlib çatınca hal-əhval tutub, zahını yoxlardı. Doğumun yaxınlaşmasını duyunca o, badam yağı, ya yeməli yağ ilə zahının qarnını yağlar, uşaq tərsə düşmüş olsa, onu çevirərdi.

Mamanın işarəsilə bir böyük mis məcməyi, ya dəri süfrə açılır, onun ortasına ələnmiş kül töküb zahını külün üstündə oturdurdular. Mama zahıya özünə güc verməyi, ucadan "ya Əli" çağırmağı tapşırırdı. Mama zahının dal tərəfində oturub, yaxın qadınlardan birini də zahının qabaq tərəfində oturdurdu ki, zahıya dayaq olsun. Zahı qarışıq səslə "ya"Əli" deyirdi. Belə bir inanc var ki, zahı doğanda nə qədər dərd çəksə, günahları daha çox bağışlanacaq. Əgər doğum uzun çəksə ev, ya qapı qonşu kişilərdən biri əzan verməyə başlar. Küçədən keçənlər əzan səsi eşitməklə bir zahının doğacağını başa düşüb, dua edərlər ki, zahı rahat olsun. Evində olanlar da hər birisi soğan, sarımsaq qabığı yandırar, manqala üzərlik salar, dua oxuyub püfləyərdilər.

Doğum gecikdikdə onu yaxınlaşdırmaq üçün qövzəban gülü ilə şüyüd toxumunu qaynadıb, bir az da ona nabat artırıb, zahıya içirdərdilər. Bununla birlikdə onun qarnının üstünə türbət suyu sürtürdülər. Uşaq gələndə mama onu tutub, kül üstə qoyur, cüftün gəlməsini gözləyirdi. Cüft düşəndən sonra zahını astaca doğum ocağından qalxızıb, yatağına aparırdılar. Zahıya üstünə zirə, zəfəran, hil səpilmiş dağ quymaq verirdilər. Uşağı duz artırılmış ılıq su ilə yuyundururdular. Suya duz artırmaq uşağın ətinin bərkiməsi, eyni halda onun duzlu olması üçündür. Uşağı yuyundurandan sonra onun həm sinəsini, həm də kürəyini tutan əndazədə şalvar geydirirdilər. Bu olduqca sadə geyimə "qiyamət köynəyi" deyirlər. Uşağı bələyib ananın yatağı yanında yatırdırdılar. Uşaq yerbəyer olandan sonra mama ana ilə uşağı al arvadından qorumaq üçün qayçı ilə zahının yatağının dörd tərəfinə cızıq çəkər, sonra da bir soğanı bıçağa, ya dəmir şeyə taxıb zahının yatağı yanına qoyurdular ki, ziyan yetirənlər ona yaxın düşməsin. Zahının başı üstə Quran qoymaq vacib işlərdən biridir. Doğum zamanı zahının yanında olanlardan başqa özgənin zahı yatan otağa girməyə icazəsi yox idi. Birinin ora girməsi gərək isə, əvvəl uşağı otaqdan çıxarır, sonra yerinə qaytarırlar.

Zahını hamama getməyincə otaqdan çıxmağa qoymazdılar. Əgər otaqdan çıxmaq icbarında qalsa, başına soğan taxılmış bıçaq, ya şişi özü ilə götürməlidir.

## Zahının altısı

Zahı ilə uşağı zahı hamamına qədər tək buraxmazdılar. Xüsusilə 6-cı gecəni qorxulu sanardılar. İnanardılar ki, bu gecə bizdən yeylər uşağın yanına gəlir, onu həmzadı ilə dəyişdirmək istəyir. Buna görə onları yaxına buraxmamaq, qorxudub qaçırmaq üçün qapı qabağına dəmir əsbab töküb, səs-küy salır, oxuyur, əl çalır, qapı-bacanı tüstü ilə doldururdular. Bu arada mama da gəlib çıxırdı. Onun gəlməsi ilə çoxlu üzərlik salardılar. Onun tüstüsünü zahı ilə uşağın otağının hər tərəfinə püfləyirdilər. Mama zahını bəzəyirdi. Bir dənə üzərlik xalı onun alnına, bir dənə sol döşünə, bir dənə sağ, bir dənə sol ovcunun içinə, bir dənə sağ ayağının, bir dənə sol ayağının altına qoyardılar. Uşaq oğlan olsa, onun da alnına, gözlərinə sürmə çəkərdilər. Bu işlərdən sonra yeddi iynə zahının, yeddi iynə də uşağın ləçəyinə taxardılar ki, al çəkinib onlara yaxınlaşmasın. Bu arada mama oradakı arvadlardan biri ilə ovcunun içinə bir az düyü töküb 7 qövl-həvalə oxuya-oxuya onu otağın hər tərəfinə, hətta zahının döşəyinin, yastığının qıraqlarına səpərdilər. Belə-liklə, əcinnənin qarşısına hasar çəkərdilər.

## Adqoyma

Uşağa adqoyma doğumdan sonra altıncı gecədə olurdu. Qohum-qonşudan bir neçəsini adqoyma yeməyinə çağırardılar. Bir sıra ailələrdə məhəllə mollasını çağırırdılar. Şamdam qabaq uşağı kişilər oturan otağa gətirib mollanın qucağına verir, xahiş edirlər ki, ona ad seçsin. O da uşağa müqəddəs adlardan neçəsini yazıb Quran arasına qoyub, uşağın qulaqlarına əzan oxuyandan sonra Quran arasındakı adlardan birini çəkib, ucadan oxuyub

deyərdi: İnşallah, bu ad sənə mübarək olsun, sağlıq olsun, ata-ananın sayəsində böyüyəsən.

Molla çağrılmayanda uşağın adını ailənin ağsaqqalı, ya nənə babası, ya dədə babası verərdi. Əgər qabaqcadan ad seçməsəydilər, məşvərətlə bir ad seçib Qurana yazardılar. Adlar ümumiyyətlə müqəddəs adlardan, xüsusilə, imamların adları arasından seçilirdi.

Buna görə də ən müqəddəs adlar Muhəmməd, Əli, Fatimə, Hüseyn, Bağır, Sadiq.... olardı.

Bunlardan əlavə bir sıra adlar uşağın doğulduğu ay adları ilə əlaqədar qoyulurdu. Məs: el bayramı, məzhəbi bayramlarda olanlara Bayram, Bayraməli, Qurban, Qədir, o biri ayda olanlara Muhərrəm, Səfər, Rəcəb, Şəban, Ramazan qoyurdular. Qurban ayında olanlara Hacı adı verir, ad da versələr, Hacı sözünü qoyduğu adın başına artırardılar.

Bir sıra ailələrdə uşağa dünyadan getmiş baba, nənələrinin adını qoyurdular ki, onların xatirəsi unudulmasın. Bir sira savadlı ailələrdə uşağın adını, doğulduğu tarixi Quranın, ya başqa dini kitabın astar kağızına yazırdılar.

Adqoyma mərasimi qurtarandan sonra şam verirdilər. O şamdan zahıya da verirdilər.

## Zahı hamamı

Uşaq doğulandan sonra zahı hamama gedərdı. Zahı məriz-əhval, ya hava çox soyuq olanda zahı hamamını dala salardılar. Zahı hamamına aparılacaq günün axşamı mama, əgər mama olmasa iş bilən ev adamlarından biri yumurta sarısını noxud unu, göy zirə, qəhvə, üzərliklə qatıb, onun xəmirini hazırlayıb zahının başına, saçına yaxardılar ki, onun tükləri qüvvət tapsın. Sonra bir xəmir də yumurtanın ağı, kömür tozu, bir para isti ədviyyatdan düzəldib zahının belinə salardılar. Zahının belini bal ilə möhkəm ovuşdurub, döyülmüş kömürün, qovrulmuş üzərliyin tozunu üstündən səpib bağlar, zahını səhərə kimi yerində yatızdırardılar.

Səhər tezdən hamam işçilərindən biri gəlib zahının hamam ləvazimatını aparırdı. Bunun dalınca, zahı, mama, yaxınlarından bir neçəsi hamama yollanırdılar. Hamama getməmiş otağı süpürür, yatağı yığışdırırdılar.

Zahı bu işlər başa çatdıqdan sonra ucuna soğan taxılmış bıçaq, ya qayçını özüylə götürüb yola düşürdü. Zahı ilə ayaqlaşanlardan biri uşağı, bir ayrısı da bir az sarı yağ, bir şüşə abqora, duz, yumurta, azca sarıkök, mumya, şüyüd toxumu götürürdü.

Zahı hamamın astanasına çatanda soğanı bıçaq, ya qayçının ucundan çıxarıb ayağının altına salır, əzir, beləliklə də qadabalanı özündən uzaqlaşdırırdı.

Hamamda zahını soyundurub içəri aparır, uşağı ahıl arvadlardan biri eşikdə saxlayırdı. Hamamın içində yenə zahını üzüqoylu salıb, belini mumya, bəlsan yağı ilə yağlayıb möhkəm ovurdular. Hamamın istisi, masajın təsiri ilə zahı tərləyir, bədəni yumşalırdı. Zahı tərləyəndən sonra onu arxası üstə uzadıb, sinə sümüyündən göbəyin aşağısına qədər, yuxarıdan aşağıya masaj edirdilər ki, doğumdan sonra bədəndə yığılan sular aşağı ensin.

Zahı paklanıb, hamamın soyunma yerinə çıxmağa yaxın evdən ona meyvə, şirni, qovut, şərbət gətirərdilər. Sonra bir qaba su töküb ora iki qurşum halqa salır, sonra da halqanı çıxarıb, göz aydınlığı kimi uşağın qulağına taxırdılar.

## Qurbanlıq

Bir para ailələrdə, uşağa xüsusilə, uşaq oğlan doğulanda qurbanlıq kəsmək vacib sayılırdı. İnanırdılar ki, uşağa kəsilən qurbanlıq qiyamət günü bir dəvəyə çevrilər, uşağı dalına mindirib, Sirat körpüsündən keçirdər. Uşaq üçün kəsilən qurbanlıq evdə, ya evə yaxın yerdə kəsilərdi. Onun qanını, dərisini, içalatını haman yerdə qoyurdular. Onun ətindən yekə qazanda bişirib, ona istiot, sarıkök töküb kasa-kasa paylayardılar. Bu qurbanlıq sümüklərini qurbanlıq kəsilən yerdə basdırardılar.

## Dayə

Uşaq yuyundurulub bələndikdən sonra bir ağbəxt ana barmağının ucu ilə uşağın ağzına kərə sürtərdi. Onun ardınca uşağa çay qaşığı ilə qəndab verirdilər. Bu işi edən adam az yeyən olmalı idi ki, uşaq böyüyəndə yeyimcil qarınqulu olmasın.

Üç gün uşağa kərə ilə şuvərən, türüncü, nabat xakəsi verirdilər. Kərə uşağın qarnını təmizləmək üçün verilirdi.

Dördüncü gündən uşağa süd verilərdi. Bir neçə gündən sonra ana südü gəlirdi. Ana südü gec gəlsə, ya uşaq əmcəyi tutmasa o ac qalır, çığır-bağır salırdı.

Əyanlar körpə uşağı saxlamaq üçün taya (dayə) tutardılar. Uşağa inək südü vermək istəməzdilər. Bu süd uşağın sağlamlığını pozurdu.

Belə bir inancdan asılı olaraq, uşağa dayə axtaranda çalışırdılar dayə mümkün qədər nəcib, xoşxasiyyət, sağlam, boybuxunlu, südlü olsun.

Dayənin yeməyinə çox diqqət yetirər, ona qüvvətli yeməklər verirdilər. Başının üstə noğul, paxlava, peşmək, mürəbbə, bu kimi enerji doğuran yeməklər qoyardılar.

Dayələri uşağı olub qalmayan, südü aşıb-daşan, öz uşağından əlavə ayrı uşağı da əmizdirən anaların içərisindən seçirdilər. Bu dayələr uşağın süd anası kimi tanınardı.

Uşağı öz doğma anasından savayı öz uşağına süd verən qadın əmizdirəndə, bu uşaq həmin arvadın yaşıd qızı, ya oğlu ilə süd bacısı, ya süd qardaşı sayılırdı. Bir sira ailələrdə bu qardaş-bacılığa çox hörmət qoyulardı.

## Qulaq dəlmək

Uşaq qız olursa, elə həmin gün, ya ad qoyma axşamı mama, ya zahının yaxınlarından biri uşağın hər iki qulağını dəlirdi. Qulağı dəlmək üçün əvvəl onu yumşaq kül ilə ovur, sonra yeməlı yağla sarı küldə yoğrulmuş sapı iynəyə saplar, qabaqcadan ucu odda yandırılmış iynənin ucu ilə qulağı dələr, sapdan

qırıb halqa kimi düyünləyirdilər. Bu iş deşiyin yenidən örtülməməsi üçün idi. Neçə gün sonra uşağın anası sapı kəsib uşağın qulağını təmizləyirdi.

## Ölüm və cəza

İnsan həyatında doğum şadlıq yaratdığı halda, ölüm həsrət, qəm gətirir. İnsan iki yolla dünyadan gedir: Biri yatdığı yerdə, yataq içində yaşın çoxluğundan. Ya sağalmaz naxoşluqdan vücudun sarsılması, ölgünləşməsi ilə, ikincisi, ayaq üstə vücudunda həyat çağladığı halda ölür. Bu ikinci yolla ölənlərin içində təsadüfə uğramaq kimi gözlənilməz ölümlər olduğu kimi, bu saya göz yumanların çoxunu, din, haqq, xalq, vətən yolunda canından kecən şəhidlər təşkil edir. Doğmaq halında dünyadan gedən analar, səğir uşaqlar da bu şəhidlər sırasında olur. İnanclara görə şəhidlər bağışlanmış olur, onlar sual-sorğusuz behiştə gedir. Kərbala şəhidləri övliyaların himayəsi altında yer tuturlar. Din, haqq, vətən yolunda şəhid olanların torpağa tapşırılma, əza mərasimi el mərasiminə çevrilir, bunların cənazəsini el yola salır, əzasını da el saxlayır.

Bir adamın can üstə olduğunu duyunca, istər kişi olsun, ya qadın, xüsusən, yorğan-döşək olsa, mümkün surətdə onu təmizləyir, alt paltarlarını dəyişir, əl-ayağına həna qoyarlar. Çünki həna peyğəmbərdən qalmadır. İnkir-minkir ölünün sorağına gələndə hamıdan qabaq onun əlinə-ayağına baxır, əgər həna qoyulmuşsa onun peyğəmbər ümməti, Əli şiəsi olduğuna inanıb qayıdır. Bir para dünya görmüşlər can üstə olan adamın simasında, səsinin xırıltısından onun canını tapşırmaqda olduğunu bilirlər. Can verməkdə olan adamı üzü qibləyə üzadır, yastığı onun başının altından götürürlər. Can tapşırmaqda olan adamı tək başına buraxmaq olmaz. Lakin arvad xeylağı onun yanında tək olmamalıdır. Can verməkdə olanın yanında ucadan danışmaq, ya bərkdən ağlamaq olmaz. Onda can bezikməsi yaratdığına görə caiz sayılmaz. Bu halda ölüm yatağında olan adamın dişləri qayırma olsa, ağzından çıxarırlar. Çay qaşığı ilə

ağzına suda çalınmış Kərbala türbəti damızdırarlar. Kəlmeyi-şəhadəti ona dedirdirlər, ruhun bədəndən rahat çıxması üçün mümkün qədər ona əl vurmazlar.

Can bədəndən çıxanda, ulduz göy üzərindən axandan sonra, onun gözlərini, ağzını yumar, çənəsi düşməsin deyə bağlarlar. Ayaqlarını, əllərini düz uzadırlar. Ayaq-baş barmaqlarını bir-birinə bağlayıb üstünə ağ parça çəkib, üstündən bir tirmə şal salırlar. Bütün bu işləri yerinə yetirəndə, çalışarlar əlləri ölüyə toxunmasın. Əlin, ya bədənin ölüyə toxunması ölü qüslü tökməklə pak ola bilər.

İnsan axşam öləndə, onu məhəllə, ya kənd məscidinə aparıb, orada əmanət qoyurdular. Lakin gecə ölsəydi, evdə saxlayıb, səhər tezdən evdən çıxardırdılar. Ölünün yerdən tez qalxmasına tələsir, onun yüngül qalxması savabkarlıq əlaməti sanılırdı.

O gecə ölənin yaxınları, qohum-qardaşları səhərə kimi ayıq qalıb ağlayıb-oxşayırdılar. Ölü gecədən evdə qalmalı olsaydı, onun sinəsi üstə Quran qoyar, başı üstə də Quran oxuyardılar. Məsciddə Allahın evi olduğu üçün şeytan oraya yol tapa bilməzdı. Məsciddə ölü tək qalmasın deyə, bir Quran oxuyanı onun başı üstə oturdardılar. Quran oxuyan gecə yuxuya getməsin, ya durub getməsin deyə, dəfələrlə ona baş vurardılar. Ölü istər evdə saxlanıla, ya məsciddən aparıla, onun otağında səhərəcən çırağ, ya şam yandırardılar.

Ağlamaq, sıtqamaq ölünün can bağışlamasından başlayar, əza mərasiminə qədər davam edərdi.

Ölünün yaxınları, uşaqları, qardaş-bacıları, hamıdan çox arvadı şıvən qoparır, başına- döşünə vurur, özündən gedərdi.

Bu bir də ona görə idi ki, arvad ərinin dalınca şivən qoparmasaydı, dalınca dodaq büzər, olmazın dedi-qodular deyərdilər. Ölünün ardınca ağlayıb sıtqamaqda arvadlar kişilərdən irəli gedirdi. Ölü torpağa tapşırılanda bərk qışqırıq qoparır, qəbrin üstünə sərilir, torpağı başlarına sovurur, tüklərin yolur, üzlərinə dırnaq çəkərdilər. Bununla belə, bir inanc da bunda idi ki, əzizlərinin qəbri üstə getməyincə soyumazdılar.

Ölünün evdən çıxarılması nə qədər lazımdırsa, onun tez yuyunub-təmizlənməsi, kəfənə tutulması da bir o qədər lazımdır. Qəbiristanlıqda ölü yumaq yeri olmurdu. Hal-hazırda bir cox kəndlərdə ölü evdə yuyulur. Ölü evdə yuyulanda həyətin açıq yerində çadır qurulurdu.

Ölü adi camaatdan olanda parçadan, ya çadradan bir pərdə çəkilirdi ki, gəlib-gedənin gözü ölüyə sataşmasın.

Ölü məhəllə məscidindən əmanət gətirilən taxta tabut üstə yuyulurdu. Əgər ölü yuyan olmasa, bir nəfər yaxın adamlarından soyunub, belinə fitə tutar, lazım gəlirsə, bir ayrıca adam da ona su tökməyə yardımçı olardı.

Qüsl başlamamış ölünün yaxınlarından biri ölünü soyundurub, yuyulmasına icazə verir. Ölünün üstünə suyu ilk dəfə onun yaxınlarından biri töküb, ölünün adını çağırıb deyərdi: – Heç qorxma, biz sənin qohumların, yaxınların, hamımız burdayıq.

Bu sözdən sonra ölünü yuyub-arıdıb, əvvəl sidr suyu, sonra kafur suyu, üçüncü dəfə xalis su ilə qüsl verirlər. Qüsl qurtarandan sonra bir miqdar kafur onun alnına, əllərinin içinə, dizlərinin gözünə, ayaq barmaqlarına sürtürlər. Bu kafur ölüdən yaxşı qoxu qalxmaq, qəbr evində həşaratların ona yaxın düşməməsi üçün sürtülür. Ölünün lazım olan yerlərinə pambıq qoyurlar, sonra da söyüd ağacından bir cüt qoltuq ağacı onun sağ ilə sol qoltuğu altına qoyurdular ki, sual-cavab başlayanda onlara dayansın. Kişi ölüsünü kişi, arvad ölüsünü arvad yuyardı. Ölü kişi olanda yanına möhür qoyur, arvad olsa, boynuna türbət təsbehi salardılar.

Qüsl mərasimi qurtarandan sonra ölü kəfənə tutulurdu. Kəfən hətmən ağ çəlvardan olmalı idi. Kəfən kişilərdə beş tikədən, arvadlarda yeddi tikədən təşkil olunurdu. Bir çox möminlər ölməkdən qabaq Məşhəd, Kərbala, Məkkə kimi müqəddəs yerlərə ziyarətə gedəndə özləri, yaxınları, habelə tapşıranlar üçün apardıqları, ya aldıqları kəfən parçasını təbərrük etməyə (zərihə sürtməklə) lazım olan günə qədər saxlayırdılar.

Ölünün əynindən çıxarılan paltarlar ölü yuyanlara çatır. Onlar qabaqcadan həmin paltarların cibinə qoyulmuş pulu muzd

olaraq götürürlər. Bundan əlavə ölü yiyəsi bacardıqca onları razı salır.

Qüsl, kəfən işi qurtarandan sonra ölünü əbədi evinə aparmaq üçün tabuta, ya taxtadan qayrılmış qutuya qoymazdan qabaq üç kərə onu yerdən qalxızıb tabuta yaxınlaşdırır, yenidən yerə qoyurlar.

Dördüncü dəfə qaldırıb tabuta qoyur, üstünə bir taqə, şal, ya bir xalça salırlar. Cənazəni üç kərə qaldırıb, yerə qoymağın səbəbi budur ki, onun ruhu tabutun üstündə uçur və deyir:- Məni ev-eşiyimdən, əhli-əyalımdan ayırıb hara aparmaq istəyirsiniz?

Tabut, ölünün yaxın adamları, onu uğurlamağa gələnlərın birgə "Lailəhəillah" səsilə dörd tərəfdən qaldırılır, ona yapışanlar tez- tez bir-birlərini dəyişir. Yoldan ötənlər savab qazanmaq üçün yoldan ayrılıb, 7 qədəm tabuta yardım göstərir, yenə qayıdıb yollarına davam edirlər. Qəbiristanlıq yaxın olanda, xüsusilə, kəndlərdə cənazə çiyində aparılır. Uzaq olanda maşınla, kəndlərdə bu kənddən o biri kəndə dəvə, ya at üstə aparılırdı.

Qəbrin dərınliyi 2 metr olur. Arvad qəbri kişi qəbrindən bir az da dərin qazılır.

Ölünün namazı evdə qılınmamış olsa, bir axund onun namazını qılır. Namaz qurtarandan sonra ailə adamlarından birisi ölü qadın olursa, mərhəm kisilərdən biri ayaqyalın-başıaçıq qəbrin içinə girir, o biriləri cənazəni tabutdan qaldırıb, yenə üç dəfə yerə qoyub, götürürlər. Dördüncü dəfə baş tərəfdən qəbrin içindəki adama verirlər. O da cənazəni sağ böyrü üstə, üzü qibləyə yatırdır, başı altına da bir kərpic qoyur, kəfənin ölünün üzünə tərəf hissəsini açır, sonra qəbrin aşağısından çıxır. Axund təlqın verir. Sonra qəbirqazanlar böyük daş, ya kərpic ilə qəbrin üstünü örtürlər. Dəfndə olanlar da hər biri qəbrin üstə bir miqdar torpaq atırlar. Arvadlardan qəbir üstünə gələn olsa, qəbrin üstünə döşənib, şivən qoparır, ondan ayrılmaq istəmirlər. Baş barmaqlarını qəbir torpağına qoyub, fatihə oxuyurlar.

Sonra qəbrin üstünə su səpib, qayıtmaq istəyəndə, bir neçə adam qəbirdən uzaqlaşıb, yenə qayıdır. Kəndlərdə çox vaxt qəbrin

üstündə od yandırırlar ki, torpaq qurusun, yerin təzə qazıldığı bilinməsin. Ölünün torpağa tapşırıldığı günün axşamı məhəllə mollası, ya hər mömin hazır olsa, ölüyə məhşət namazı qılır ki, ölü təklikdən, yaxınlarından uzaq düşdüyündən vəhşətə düşməsin.

Haman gecə yenə ölənin evində, bəzən də məsciddə “şamı-qəriban” məclisi qurulur. Məclisdə “Quran”oxunur, qapı-qonşu, eşidib-bilənlər baş sağlığı verirlər.

# MƏMMƏDƏLİ FƏRZANƏ
# (1923-2006)



دکتر محمدعلی فرزانه

Altmış ildən bəri Məmmədəli Qövsi Fərzanə adı ilə tanınan ədəbiyyatşünas, tənqidçi və ictimai xadim 1923-cü ildə elm və mədəniyyətin beşiyi olan Təbriz şəhərində çoxuşaqlı və yoxsul bir ailədə həyata göz açmışdır. İqtisadi cəhətdən kasıb, mənəviyyatca zəngin olan bu ailə balaca Fərzanə üçün ilk məktəb rolunu oynamışdır. Belə ki, bu məktəbdə doğma ana dilimizin incəliklərinə yiyələnmiş, bu dilin əzəmətini uşaq yaşlarından dərk etmişdir.

M.Ə.Fərzanə gənc yaşlarından xalq ədəbiyyatı xəzinəmizin zənginliklərinə heyran qalmış, milli-mənəvi dəyərlərimizi böyük məhəbbətlə sevərək təbliğ etmişdir. O, Təbrizdə orta məktəbi bitirmiş və burada da pedaqoji texnikuma daxil olmuşdur. Fərzanə 1942-ci ildən əmək fəaliyyətinə başlamış, Təbriz kitabxanasında işə girmişdir. Kitabxanada işləmək, çoxsaylı ədəbiyyatla tanışlıq onun həyata baxışında, dünyagörüşünün formalaşmasında yeni bir səhifə açmışdır. Elə həmin illərdən elmi və bədii yaradıcılığa başlayan M.Ə.Fərzanə müxtəlif mövzularda dəyərli elmi məqalələr yazaraq çap etdirmişdir.

Uzunömrlü “Varlıq” dərgisi nəşrə başladığı 1979-cu ilin ilk günlərindən M.Ə.Fərzanə bu dərgi ilə əməkdaşlıq etmiş, klassik və müasir ədəbiyyatın, folklorun toplanılıb araşdırılmasında böyük xidmətləri olmuşdur. O, by fəaliyyəti ilə yanaşı, milli mə-

dəniyyətin digər sahələri ilə bağlı dəyərli elmi məqalələri ilə "Varlıq" dərgisində tez-tez nəşr olunmuşdur.

İlk məqalələrindən özünəməxsus üslubu ilə seçilən M.Ə.Fərzanə getdikcə daha çox ictimai-siyasi, ədəbi yaradıcılığı ilə tanınmağa başlamışdır. Onun ilk məqalələrindən sayılan "Füzuli lirikasına bir baxış" və "Divani-lüğət-it-türk" əsərində olan atalar sözü və məsəllər "Vətən yolunda" (bu qəzet 1941-ci ilin oktyabrında nəşrə başlamışdır) qəzetində nəşr etdirmişdir.

M.Ə.Fərzanə iyirmi yaşından milli azadlıq hərəkatının iştirakçısı olmuş, qələmi ilə də bu yolda xalqına xidmət etmişdir. Milli azadlıq hərəkatının canlanması ictimai fikir və xəyalların gerçəkləşməsi dövrü olmuşdur. Həm də bu dövrdə milli ədəbiyyatın və incəsənətin, ən başlıcası doğma dilimizin inkişafı üçün hər cür şərait yaranmışdır.

M.Ə.Fərzanə bu dövrdən istifadə edərək (1945-1946-cı illərdə) daha böyük vüsətlə yazıb-yaradaraq Azərbaycan dastanları və Azərbaycan şifahi xalq ədəbiyyatının digər sahələri ilə bağlı silsilə məqalələrini qələmə almışdır. O, təkcə bu bir il içərisində həmin mövzuda 40-a yaxın məqalə yazıb çap etdirmişdir. O, İranda, eyni zamanda, Bakıda da nəşr olunurdu. "Azərbaycan ədəbiyyatı tarixi"nin iki cildliyinə dair araşdırma xarakterli məqalələr yazıb həmin məqalələri "Şəfəq" jurnalında çap etdirmişdir.

Bu bir ildə xalqımız böyük nailiyyətlər qazanmış, lakin buna baxmayaraq milli hökumətin süqutu çoxları kimi M.Ə.Fərzanənin də həyatına öz təsirini göstərmiş, o, Təbrizdə işlədiyi kitabxana işindən kənarlaşdırılmışdır. Bütün kitabları anbara yığıb kitabxananın qapısını möhürləmişlər. Lakin gənc Fərzanə təkcə "Kitabi-Dədə Qorqud" dastanlarını gizli şəkildə əldə edərək qoruyub saxlaya bilmişdir (Azərbaycanın görkəmli mədəniyyət xadimlərindən sayılan Məhəmmədəli Tərbiyət "Dədə-Qorqud" dastanlarını İrana gətirmiş və yeni üslubda qurulmuş bu kitabxanaya vermişdir). Bu elə bir zaman idi ki, dilimizin yasaq olunması və bir dil kimi aradan çıxarılması üçün çox şey

edilir, ana dilində olan bütün kitablar müxtəlif yollarla məhv edilir və yandırılırdı. Amma bunu edənlər bilmirdilər ki, millətimizin, xalqımızın ana dilini unutdurmaq mümkün deyil.

Folklorşünas alim, fədakar tədqiqatçı M.Ə.Fərzanə İkinci Dünya savaşından sonra ədəbi-bədii düşüncəmizin əksi qaynaqlarından olan "Kitabi-Dədə Qorqud" dastanı barədə ilk söz deyənlərdən olmuşdur. Belə ki, o, "Azərbaycan milli dastanları" adı altında dastanın xeyli hissəsini çap etdirərək İranda tanınmasına səbəb olmuşdur. Çətin dövr olsa da, Fərzanə bu illərdə bir neçə kitab və monoqrafiya, ictimai-siyasi mövzularda məqalələr də nəşr etdirmişdir.

Milli hökumətin süqutu, onun nailiyyətlərinin məhv olunması, ana dilli ədəbiyyatın, dərs vəsaitlərinin tonqallarda yandırılması, Fərzanənin həyatında heç vaxt unudulmayan acı xatirələr kimi "Ana dilimiz və varlığımız uğrunda mübarizələr" adlı xatirələr kitabının yazılmasına səbəb oldu. Belə silsilə yazıları ilə Fərzanə ana dilimizin zənginliyindən, milli-mənəvi dəyərlərindən, folklorundan bəhs edərək xalqımızın qarşısına sipər çəkənlərə cavab vermişdir.

Onun folklorla bağlı yazılarına diqqət etdikdə bir neçə cəhətdən özünəməxsus keyfiyyət kəsb etdiyini görərik. Hər şeydən əvvəl, onun məqalələrində dərin müşahidəçilik özünü büruzə verir. Bu müşahidənin arxasında isə milli bədii təfəkkürə dərindən bələdlik açıq hiss olunur. Buna misal olaraq qeyd etmək lazımdır ki, o, anasını xatırlayaraq yazırdı: "Anam savadlı olmadığı halda, sinəsi tükənməz söz xəzinəsi idi. Əqlə sığmaz qədər nağıl, dastan, məsəl, bayatı, tapmaca, qoşma, gəraylı, daha nə bilim nə... bilirdi".

Məhz elə bu xüsusiyyətlər nəticəsində də onun yazılarında elmiliklə bədiilik, xatirə düzümü ilə publisist çalar bir-birini tamamlayır. Belə ki, onun doğma xalqına bağlılığını əks etdirən belə silsilə məqalələrində dərin milli ruh duyulur.

Fərzanə o illəri ürək sıxıntısı ilə belə xatırlayırdı: "Bir para alim və tədqiqatçı adı daşıyanlar, kimlərinsə diktəsi ilə yazılan

kitablarında Azərbaycana qondarma tarix yazaraq ana dilimizi rabitəsiz bir dil, ləhcə adlandırmışlar".

M.Ə.Fərzanə onu da qeyd etmişdir ki, Cənubi Azərbaycanda xalq ədəbiyyatının nisbi halda olsa da, səmərəli toplanıb çap edilməsi 1945-1946-cı illərdə olmuşdur. Bu illərdə Güney və Quzey Azərbaycanı birləşdirən musiqi, teatr, mətbuat və nəşriyyat körpuləri yaranmışdır. Təbrizdə dərc olunan "Vətən yolunda" qəzeti xalqa yadırğamış olduğu dilini anlatmışdır. Fərzanə həm də onu xatırlatmışdır ki, azərbaycanlıların dilinin və mədəniyyətinin yasaq edildiyi illərdə onu yaşadıb qorumaqda xalqın, xüsusilə də, anaların rolu çox böyük olmuşdur. Başqa nə qədər dözülməz olsa da, xalq küçə-bacada, iş yerlərində bayatı, qoşma, yetim sevdalı təranə və tiringə oxumaqla, analar evdə öz körpələrinə layla çalıb nağıl deməklə bu milli varlığı qoruyub yaşatmışdır.

Folklorşünas alim 1948-ci ildən sonra bir neçə kitab və monoqrafiya, ictimai-siyasi mövzularda məqalələr yazmış, həm də fars dilli mətbuatda dəyərli kəskin yazıları ilə də nəşr olunmuşdur. O, həm də bu illərdən başlayaraq tərcüməçilik sahəsində də qələmini sınamışdır.

Azərbaycanın dahi klassik şairi N.Gəncəvinin 850 illiyi ilə bağlı yazdığı və Təbriz qəzetində nəşr etdirdiyi məqalələr elmi dəyərinə görə maraqla qarşılanmışdır. Fərzanə o vaxt Təbriz Universitetinin nəşr etdirdiyi "Nəşriyyə" haqqında tənqidi məqalələrini yazmışdır ki, həmin məqalələrdə Azərbaycan əleyhinə olan fikirlər tənqid olunurdu.

Fərzanənin xalqına olan xidmətlərindən biri də böyük çətinliklər bahasına yaranmış, iki qardaşı ilə birlikdə açdığı "Fərzanə" nəşriyyatı olmuşdur. Bu nəşriyyatın yaranmasında əsas məqsəd qırxıncı illərdə məhv edilmiş dərs vəsaitlərinin, milli-mənəvi dəyərlərimizi əks etdirən əsərlərin çap olunması olmuşdur. M.Ə.Fərzanə bu yolda yorulmadan çalışaraq mövcud boşluğu doldurmaq üçün əlindən gələni əsirgəməmiş, 30-dan artıq kitabın çapına nail olmuşdur. Fədakar alim özünün neçə-neçə

kitabının çapa ehtiyacı olduğu halda, digər müəlliflərin kitablarını ön plana çəkmişdir ki, bu da onun xalqına xidmətinin, nəcib hisslərinin bariz nümunəsidir.

1964-cü ildə Məmmədəli Fərzanə uzun illərin zəhmətinin bəhrəsi olan “Bayatılar” kitabını geniş müqəddimə ilə nəşr etdirmişdir. Elə həmin ildə həmçinin “Azərbaycan dilinin qrammatikası” kitabının iki cildliyini çap etdirmişdir. Bu nəşrlər müxtəlif mübahisə və rəylər doğurmuşdur. Kitabı M.Ə.Fərzanə böyük məhrumiyyətlər içərisində-həbsxanada yazmışdır. Fərzanənin bu kitabı böyük marağa səbəb olmuşdur. Hətta onun sorağı Almaniyaya da gedib çatmışdır. Burada kitabın dəyəri haqqında fikirlər və mülahizələr söylənilmiş, kitab alman dilinə tərcümə edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu da bu əsərə müsbət rəy vermişdir. Onun istər “Bayatılar”, istərsə də “Azərbaycan dilinin qrammatikası” kitabları Pəhləvi rejimi şəraitində yalnız bir dəfə nəşr edilmişdir. 1979-cu il inqilabından sonra isə ayrı-ayrı vaxtlarda “Bayatılar” doqquz, “Azərbaycan dilinin qramma- tikası” kitabı dörd dəfə nəşr edilmişdir. Fərzanə “Azərbaycan dilinin qrammatikası” kitabında ilk dəfə olaraq dilin fonetik səs tərkibini latın qrafikası ilə vermişdir.

1964-cü ildən sonra Azərbaycan dili İranda yenidən qadağan olunduğu üçün M.Ə.Fərzanə də fars dilində yazmağa başlamış, xüsusilə, tərcüməçilik sahəsində fəaliyyətini davam etdirmişdir. 1963-cü illərin sonu, 1970-ci illərin əvvəllərində “M.H.Şəhriyarın “Heydərbabaya salam” mənzuməsinin bədii xüsusiyyətləri” adlı geniş məqaləsini, habelə Səhəndin “Sazımın sözü” kitabına həm farsca, həm də azərbaycanca müqəddi- mələrini yazmışdır.

1979-cu il inqilabından sonra M.Ə.Fərzanənin bir sıra kitabları və tərcümələri işıq üzü görmüşdür. “Kitabi-Dədə Qorqud”, C.Məmmədquluzadənin “Molla Nəsrəddin” xatirələri və novellaları, Şəhriyarın şeirləri və “Heydərbabaya salam” poeması, “Hopopnamə”nin yeni çapı, Ələviyyə Babayevanın “Harada-

san, dost, haradasan?", Əziz Nesinin "Belə gəlmiş, belə getməz" romanları müəllifin tərcüməçilik fəaliyyəti ilə bağlı olmuşdur.

Səksəninci illərdə isə M.Ə.Fərzanə 1945-1946-cı illərdə yazılmış bəzi dərslikləri yenidən nəşr etdirmişdir. "Varlıq" dərgisinin səhifələrində onun aşağıdakı elmi məqalələri də nəşr olunmuşdur: Azərbaycan fars dillərində geniş müqəddimə ilə "Molla Nəsrəddin lətifələri", "Azərbaycanın el sözləri", "Atalar sözləri, məsəllər və deyimlər", "Azərbaycan ədəbiyyatı antologiyası", "Dilimizin fonetik sözlüyü", "Azərbaycanın əsas inciləri" və s.

O, Azərbaycan dilindən fars dilinə, fars dilindən Azərbaycan dilinə onlarla əsər tərcümə etmiş, 100-dən artıq elmi və publisistik məqalənin, neçə-neçə kitabın müəllifi olmuşdur.

M.Ə.Fərzanə bütün bu xidmətlərinə görə uzun illər Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun elmi əməkdaşı olmuşdur. O, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Pedaqoji Universitetinin fəxri doktoru olmuşdur. Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun hazırladığı folklor antologiyasının Cənubi Azərbaycan folklorunu əhatə edəcək 3 cildini Fərzanə tərtib etmişdir.

Ümumiyyətlə, M.Ə.Fərzanənin elmi-ədəbi, bədii yaradıcılığına nəzər salanda görürük ki, o, əsərləri və bütövlükdə yaradıcılığı ilə ana dilimizin inkişafına, zənginliklərinin üzə çıxarılmasına, öyrədilməsinə yorulmadan xidmət etmişdir.

Zəngin yaradıcılıq yolu keçən M.Ə.Fərzanə ahıl çağlarında belə, ömrünün sonunadək əlində qələm xalqının rifah halının yüksəlməsində fəallıq göstərmişdir.

**Nəzakət İsmayılova.**
**Cənubi Azərbaycan ədəbiyyatı müasir mərhələdə,**
**yaxud "Varlıq" ədəbi məktəbinin nümayəndələri,**
**Bakı, "Elm və təhsil", 2010, s. 70-78**

# BAŞLIQLAR

**Ön söz əvəzi ............................................................... 3**

I İnanclar ............................................................... 17
II Alqışlar, qarğışlar, andlar ........................................ 31
III Sayalar, holavarlar ................................................ 47
IV Nağıllar ............................................................... 53
V Atalar sözü və məsəllər .......................................... 120
VI Tapmacalar ......................................................... 146
VII Bayatılar ............................................................ 153
VIII Lətifələr ........................................................... 175
IX Yuxuyozmalar ...................................................... 204
X Uşaq folkloru ........................................................ 244
XI Xalq mahnıları ..................................................... 262
XII El deyimləri ....................................................... 283
XIII Yekanat və Həmədan folkloru .............................. 302
XIV Etnoqrafik cizgilər .............................................. 375

**Məmmmədəli Fərzanə ............................................... 449**

**Güney Azərbaycan folkloru,**
**I kitab (Təbriz, Yekanat və Həmədan ərazilərindən toplanmış folklor örnəkləri).**
Bakı, “Elm və təhsil” nəşriyyatı, 2013

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompyuterdə yığdı:
**Ülviyyə Əliyeva**

Korrektoru:
**Sönməz Abbaslı**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ramin Abdullayev**

Kağız formatı:
Mətbəə kağızı: №1
Həcmi: 456 səh.
Tirajı: 300

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-Nəşriyyat şöbəsində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” nəşriyyatında hazır diapozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.